

İZAHLI ŞƏRİƏT HÖKMLƏRİ

Ayətullah əl-üzma seyid Məhəmmədəli

Ələvi Hüseyni Qorqani

بسم الله الرحمن الرحیم

İZAHLI ŞƏRİƏT HÖKMLƏRİ

:Müəllif

Ayətullah əl–üzma seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani

:Çap nəşriyyat

Fəqihe Əhli–beyt

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

Mündəricat

İZAHLI ŞƏRİƏT HÖKMLƏRİ

point

İzahlı şəriət hökmləri

Ayətullah əl–üzma

seyid Məhəmmədəli Ələvi Hüseyni Qorqani

d -- c

ªTərcümə etdi........................ Hacı Tərlan Seyfullayev

ª Naşir.. Fəqihe Əhli–beyt

ª Çap növbəsi... Birinci

ª Tiraj.. ۳۰۰۰

ª Tarix.. ۲۰۱۲

ISBN: ۹۷۸–۶۰۰–۹۲۳۱۶–۶–۹

d -- c

səh: ۱

point

İZAHLI ŞƏRİƏT HÖKMLƏRİ

Ayətullah əl–üzma

seyid Məhəmmədəli

Ələvi Hüseyni Qorqani cənablarının

TOVZİHÜL–MƏSAİL” risaləsinin tərcüməsi“

بسم الله الرحمن الرحيم

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّهِ رَبِّ الْعَالَمِينَ وَالْصلاهُ وَالسلامُ عَلی خَيْرِخَلْقِهِ مُحَمدٍ وَآلِهِ الطاهِرِينَ وَ لَعْنَهُ اللهِ عَلی اَعْدائِهِمْ اَجْمَعِينَ اِلی قيامِ يَوْمِ الدين

TƏQLİDİN HÖKMLƏRİ

TƏQLİDİN HÖKMLƏRİ

Məsələ: ۱. Hər bir müsəlmanın üsuli-dinə əqidəsi dəlil əsasında olmalıdır. Üsuli-dində təqlid edə bilməz. Yəni üsuli-dində ayrı bir şəxsin sözünü, yalnız onun deməsinə etimad edərək qəbul etmək olmaz. Müsəlman dinin zəruri və qəti olan hökmlərindən başqa, din hökmlərində ya müctəhid olub dini hökmləri çıxara bilməli, ya bir müctəhidə təqlid etməli, ya da öz təklifini (şəri vəzifəsini) düzgün yerinə yetirməsinə yəqin edəcək bir şəkildə, ehtiyat yolu ilə əməl etməlidir. Məsələn, müctəhidlərin bəzisi bir əməlin haram olduğunu, digərləri isə haram olmadığını söyləyirlərsə, o əməli etməməli və əgər bir əməli müctəhidlərdən bəzisi vacib, digərləri isə müstəhəb buyururlarsa, onu etməlidir. Deməli müctəhid olmayan şəxslərin və ehtiyata əməl edə bilməyənlərin bir .müctəhidə təqlid etmələri vacibdir

Məsələ: ٢. Hökmlərdə təqlid, müctəhidin göstərişlərinə əməl etməkdir. Təqlid ediləcək müctəhid kişi, həddi-büluğa çatmış, ağıllı, on iki İmam (ələyhimus-səlam) şiəsi, halalzadə, diri və adil olmalıdır. Adil, vacib olan işləri yerinə yetirib, ona haram olan şeylərdən çəkinən şəxsə deyilir. İnsanın zahirdə yaxşı olması ədalətin nişanəsidir, belə ki, onunla bir yerdə yaşayan camaatdan, qonşulardan və ya onunla rabitədə olan şəxslərdən onun haqqında soruşsalar, onun yaxşı bir insan olduğunu təsdiq etsinlər. İnsanın təqlid etdiyi müctəhidin ələm olması daha yaxşıdır. Yəni Allahın hökmlərini dərk etməkdə zəmanəsinin müctəhidlərinin hamısından daha bacarıqlı olmalıdır. Ələmi seçməyin çətin olmasına baxmayaraq əgər bir müctəhidin ələmliyi sybut olunsa ondan təqlid etmək vacibdir. Amma ələm və qeyri ələmin fətvaları fərqli olmasa nəzərləri .müvafiq olan məsələlərdə qeyri ələm müctəhiddən təqlid etmək olar

:Məsələ: ٣. Müctəhid və ələm üç yoldan biri ilə tanınır

.ci: İnsan özü elm əhli olsun, yəqin və inama çatsın-١

ci: İki nəfər alim, adil və təcrübəli şəxs şəhadət versinlər; bu şərtlə ki, başqa iki nəfər-٢ .adil, onların əksinə şəhadət verməsinlər

cü: Bir dəstə məlumatı olan, təcrübəli elm əhlinin sözlərindən, kimin ələm müctəhid-٣ .olduğu bilinsin və onların sözlərindən əminlik hasil olsun

Məsələ: ٤. Əgər bir şəxsin ələm olması haqqında əminlik əldə etmək çətin olsa, ələm olması güman olunan şəxsin göstərişlərinə əməl olunmalıdır. Əgər güman da olmasa, ələm olması ehtimal olunan şəxsin göstərişlərinə əməl olunmalıdır. Əgər bu ehtimal bir neçə nəfər haqqında olsa ehtiyat-müstəhəb budur ki, onlardan daha təqvalı olanın .göstərişinə əməl olunsun

Məsələ: ٥. Müctəhidin əməl olunması lazım olan göstərişlərini əldə etməyin dörd yolu :var

.ci: Müctəhidin özündən eşitmək-١

.ci: Müctəhidin fətvasını nəql edən iki adil şəxsdən eşitmək-٢

.cü: Sözündən etimad, əminlik hasil olan şəxsdən eşitmək-٣

səh: ۶

.(cü: Müctəhidin risaləsində görmək; (risalənin düzlüyünə əmin olmaq şərti ilə-۴

Məsələ: ۶. İnsan, müctəhidin fətvasının dəyişilməsini yəqin etməyənəqək, risalədə yazılana əməl edə bilər. Əgər onun fətvasının dəyişilməsinə ehtimal verərsə, axtarış .lazım deyil

Məsələ: ۷. Ələm müctəhidin fətva verdiyi bir məsələdə, o müctəhidin müqəllidi, yəni ona təqlid edən şəxs başqa müctəhidin fətvasına əməl edə bilməz. Amma fətva verməsə və «ehtiyat bu şəkildə əməl etməkdir» deyərsə, məsələn; ehtiyat budur ki, namazın üçüncü və dördüncü rəkətində üç dəfə təsbihati-ərbəəni oxusun, yəni "Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər." deyərsə müqəllid ya ehtiyat-vacib deyilən bu ehtiyata əməl etməlidir və üç dəfə təsbihati-ərbəəni oxumalıdır yaxud ondan sonrakı mərhələdəki ələmlik dərəcəsini gözləməklə başqa bir müctəhidin fətvasına əməl etməlidir. Belə ki, əgər o müctəhid bir dəfə oxumağı kifayət bilirsə, buna əsasən o, bir dəfə oxuya bilər. Həmçinin ə'ləm müctəhid bir məsələnin .üzərində düşünülməli və ya iradlı olduğunu deyərsə, bu da eyni hökmdədir

Məsələ: ۸. Ələm müctəhid, bir məsələdə fətvasını verdikdən sonra o məsələdə ehtiyat edərsə, məsələn; «nəcis bir qab kürr suda bir dəfə yuyularsa, pakdır, amma ehtiyat budur ki, üç dəfə yuyulsun» deyirsə, onun müqəllidi bu ehtiyatı tərk edib başqa bir müctəhidin fətvasına müraciət edə bilməz. Gərək fətvaya və ya fətvadan sonrakı .ehtiyata əməl etsin. Buna ehtiyat-müstəhəb deyilir

Məsələ: ۹. Əgər göstərişinə əməl etdiyi müctəhid, dünyasını dəyişsə, əgər diri müctəhidin ölü müctəhidən ələmliyini bilsə ehtiyat budur ki, diri müştəhiddən təqlid etsin. Əgər dünyasını dəyişən müctəhid ələm olsa əməl etdiyi məsələlərdə onun təqlidində qalması icazəlidir. Əgər bir səviyyədə olsalar təqlidi dəyişməsində .ixtiyarlıdır. Amma diri müctəhidə müraciət etmək daha yaxşı və ehtiyata uyğundur

Məsələ: ۱۰. Əgər bir məsələdə bir müctəhidin göstərişinə əməl

etsə o, öldükdən sonra həmən məsələdə diri müctəhidin göstərişinə əməl etsə yenidən ölü müctəhidin fətvasına uyğun əməl edə bilməz. Həmçinin diri müctəhid bir məsələdə fətva verməyib ehtiyat etsə və müqəllid bir müddət o ehtiyata əməl etsə yenidən ölü müctəhidin fətvasına əməl edə bilməz. Məsələn, müctəhid namazın üçüncü və dördüncü rəkətində bir dəfə təsbihati-ərbəəni oxumağı, yəni "Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər." yetərli (kafi) bilərsə və təqlid edən də bir müddət bu göstərişə əməl edib bir dəfə oxuyarsa o, müctəhid dünyasını dəyişərsə və diri müctəhid üç dəfə oxumağı yetərli bilərsə və təqlid edən də bir müddət bu göstərişə əməl edib üç dəfə oxuyarsa yenidən ölü müctəhidin fətvasına .müraciət edib və bir dəfə oxuya bilməz

.Məsələ: ١١. İnsanın, çox vaxt ehtiyacı olan məsələləri öyrənməsi vacibdir

Məsələ: ١٢. Əgər insanın qarşısına hökmünü bilmədiyi bir məsələ çıxsa, daha yaxşı budur ələm müctəhidin fətvasını əldə edənə qədər səbr etsin. Yaxud ələm müctəhiddən elmi cəhətdən bir dərəcə aşağı olan müctəhidin fətvasına (nəzərlərin ixtilaflı olmamasını bilsə) əməl etsin. Yaxud bacarırsa ehtiyata uyğun olan şəkildə öz .vəzifəsinə əməl etsin

Məsələ: ١٣. Əgər bir şəxs bir müctəhidin fətvasını başqa bir şəxsə desə, sonra müctəhidin fətvası dəyişsə, ona fətvanın dəyişməsini xəbər verməsi lazımdır. Amma fətvanı dedikdən sonra səhv etdiyini başa düşsə, gərək mümkün olan halda o səhvini .düzəltsin

Məsələ: ١۴. Bir mükəlləf, əməllərini bir müddət təqlidsiz yerinə yetirsə, əgər onun əməlləri keçmişdə təqlid etməli olduğu və ya hal-hazırda onun təqlid edəcəyi müctəhidin fətvasına uyğun olsa və yaxud başqa bir yolla əməllərini düzgün yerinə .yetirdiyini başa düşsə əməlləri səhihdir

TƏHARƏTİN HÖKMLƏRİ

"MÜTLƏQ VƏ MÜZAF"

Point

Məsələ: ۱۵. Su, mütləq (saf) və ya muzafdır (qarışıq). Muzaf su bir şeydən alınan suya deyilir. Qarpız və gül suyu kimi, ya bir şeylə qarışan su, belə ki ona «su» deyilməyəcək şəkildə, palçıq və ona bənzər bir şeylə qarışmış olan suya deyilir. Bunlardan başqa qalan sular mütləq sudur. Mütləq su beş qismə ayrılır:

۱. Kürr suyu;

۲. Az su;

۳. Axar su;

۴. Yağış suyu;

۵. Quyu suyu;

KÜRR SUYU–۱

Məsələ: ۱۶. Uzunluğu, eni və dərinliyi hər biri üç qarış yarım olan qabı dolduran miqdarda olan və ya çəkisi ۳۷۷.۴۱۹ kq olan suya kürr suyu deyilir.

Məsələ: ۱۷. Əgər sidik, qan, kimi eyni nəcis, kürr suya dəyərsə, o suyun iyi və ya rəngi, ya da dadı nəcasətin təsirindən dəyişərsə, kürr suyu nəcis olur; əgər dəyişməzsə nəcis olmaz.

Məsələ: ۱۸. Əgər kürr suyun iyi, rəngi və ya dadı nəcasətdən

.başqa bir şeylə dəyişərsə, nəcis olmaz

Məsələ: ١٩. Əgər kürr su miqdarından artıq olan suyun bir hissəsinin iyi, rəngi və ya dadı, qan kimi nəcisin dəyməsi ilə dəyişərsə və dəyişməyən hissəsi kürr miqdarından az olsa, o suyun hamısı nəcisdir. Amma dəyişməyən hissə, kürr miqdarında və ya daha .artıq olsa, yalnız iyi, rəng və ya dadı dəyişən hissə nəcis, qalan hissə isə pakdır

Məsələ: ٢٠. Fəvvarənin suyu, kürr suya birləşik olsa, nəcis bir suyu pak edər. Ancaq nəcis suyun üzərinə damla-damla tökülərsə, onu pak etməz. Lakin fəvvarənin üzərinə bir şey tutsalar və su, damla-damla olmazdan əvvəl nəcis suya qovuşarsa, onu pak .edər

Məsələ: ٢١. Kürr suya birləşən bir krantın altında yuyulan nəcis bir şeydən tökülən su, əgər kürr suya birləşmiş olsa və nəcasətin iyi, rəng və ya dadını almamışdırsa və .nəcasətin özü də onda olmazsa, pakdır

Məsələ: ٢٢. Əgər kürr suyun bir miqdarı buz bağlayarsa, qalan hissəsi də kürr miqdarında olmazsa və ona nəcasət dəyərsə, nəcis olur; buzdan əriyib su olan hissə .də nəcisdir

Məsələ: ٢٣. Kürr suyu miqdarında olan bir suyun, bu miqdardan azalıb-azalmadığına şəkk edilirsə, kürr su hökmündədir. Yəni nəcasəti pak edər və ona nəcasət dəydiyi vaxt (rəngi, dadı və iyi dəyişməsə,) nəcis olmaz. Kürr su miqdarından az olan bir suyun da, kürr miqdarına çatıb-çatmadığında insan şəkk edərsə, kürrdən az su hökmünü .(daşıyır (kürr suyu hökmündə deyil

:Məsələ: ٢٤. Suyun kürr olması üç yolla sübut olunur

.İnsanın özü bir suyun kürr olduğunu yəqin etsin .١

.İki adil şəxs suyun kürr olduğunu bildirsinlər .٢

Suyun ixtiyarı əlində olan bir şəxs suyun kürr olduğunu desin. Məsələn: Hamamçı .٣ .hamamın hovuzunun suyunun kürr olduğunu desin

AZ SU–۲

.Məsələ: ۲۵. Yerdən qaynamayan və kürr su miqdarından az olan suya, «az su» deyilir

Məsələ: ۲۶. Az su nəcis bir şeyin üzərinə tökülərsə və ya onun üzərinə nəcis bir şey tökülsə nəcis olur. Amma yuxarıdan nəcis bir şeyin üzərinə tökülərsə, nəcis şeyə çatan .hissəsi nəcis, qalan hissəsi isə pakdır

Məsələ: ۲۷. Eyni-nəcisi (nəcisin özünü) az su ilə pak etmək üçün, nəcis şeyin üzərinə tökülərək ondan ayrılan su nəcisdir. Həmçinin daha üstün nəzərə əsasən, gərək eyni nəcisin aradan qaldırılmasından sonra, nəcis şeyi suya çəkmək üçün onun üzərinə tökülərək ayrılan sudan da çəkinsinlər. Amma sidik və ğait məxrəcinin yuyulduğu az su :beş şərtlə pakdır

.Nəcasətin iyi, rəng və ya dadını almasın .۱

.Kənardan başqa bir nəcis ona çatmasın .۲

.Sidik və ya ğaitlə birlikdə qan kimi ayrı bir nəcasət gəlməsin .۳

.Suyun içərisində ğait zərrələri olmasın .۴

.Nəcasət məxrəc yerinin ətrafına adi qaydadan artıq yayılmamış olsun .۵

AXAR SU–۳

Məsələ: ۲۸. Axar su, o suya deyilir ki, yerdən coşub çıxsın və axmaqla hərəkətdə olsun. .Yerdən çıxan çeşmə və kəhriz və s. kimi

Məsələ: ۲۹. Axar su kürr su miqdarından az belə olsa, ona nəcasət dəydiyi zaman iyi, .rəngi və ya dadı nəcasət vasitəsilə dəyişməyincə, pakdır

Məsələ: ۳۰. Əgər axar suya nəcasət dəysə və onun bir hissəsinin iyi, dadı və ya rəngi nəcasət dəyməsi ilə dəyişərsə o hissəsi nəcisdir. Dəyişməyən hissənin çeşməyə birləşən hissəsi kürr sudan az olsa belə, pakdır. Çayın digər tərəfinin suları əgər kürr miqdarında olsa, yaxud dəyişməmiş su vasitəsi ilə çeşmə

.tərəfinə birləşsə pak, əks halda nəcisdir

Məsələ: ۳۱. Axmayan, amma suyundan bir az götürüldükdə təkrar qaynayan çeşmə, əgər camaat arasında mənbəyi var deyilərsə axar su hökmündədir. Yəni nəcasət dəyərsə, nə qədər ki, iyi və ya rəngi, yaxud dadı nəcasətin vasitəsi ilə dəyişməyib, .pakdır

Məsələ: ۳۲. Arxın qırağında toplanmış və axar suya birləşmiş durğun su, axar su .hökmündədir

Məsələ: ۳۳. Qışda coşan, yayda isə coşmayan və yaxud da əks şəkildə olan su, təkcə .coşduğu zanan axar su hökmündədir

Məsələ: ۳۴. Suyu kürrdən az olan hamamın hovuzu, kürr miqdarında olan mənbəyə .bağlı olsa axar su hökmündədir

Məsələ: ۳۵. Hamam və binaların krant və duşlarının borularından tökülən su, kürr .suyuna bağlı olarsa axar su hökmündədir

Məsələ: ۳۶. Yer üzərində axan, lakin yerdən qaynamayan su, kürr su miqdarından azdırsa, (۲۶-cı məsələdə dediyimiz kimi) nəcasət dəyərsə nəcis olur. Amma yuxarıdan .aşağıya axsa, aşağı hissəsinə dəyərsə, yuxarı hissəsi nəcis olmaz

YAĞIŞ SUYU – ۴

Məsələ: ۳۷. Əgər üstündə nəcasətin eyni olmayan nəcis bir şeyə bir dəfə yağış yağsa, yağışın dəydiyi yerlər pak olur və xalça, paltar və bu kimi şeyləri (yağış dəyəndən sonra) sıxmaq lazım deyil. Amma iki-üç damcı yağış yağmasının faydası yoxdur. Yağış .elə yağmalıdır ki, "yağış yağır" deyilsin

Məsələ: ۳۸. Əgər yağış nəcasətin eyninin üstünə yağıb başqa yerə sıçrasa, bu halda nəcasətin eyni o damcılarla birlikdə olmasa və nəcasətin iyi və ya rəngi yaxud da dadını özünə götürməsə, pakdır. Deməli, əgər yağış qanın üstünə yağıb başqa yerlərə sıçrasa, bu halda qanın zərrələri sıçrayan suda olarsa, yaxud o su, qanın iy və ya rəng, .yaxud dadını özünə götürərsə, nəcisdir

Məsələ: ۳۹. Əgər bir binanın tavanı və ya damın üzərində eyni nəcis varsa, yağış yağdığı müddətdə o nəcisə dəyərək tavandan və ya damdakı navalçadan tökülən su pakdır. Amma yağış kəsildikdən sonra, gəlməkdə olan suyun o nəcisə dəydiyi bilinirsə, .nəcisdir

Məsələ: ۴۰. Nəcis olan bir yerə yağış yağarsa, pak olar. Əgər yağış suyu yerdə axmağa başlayıb, yağmağa davam etdiyi halda, tavanın altındakı nəcis yerə yetişirsə, oranı da .pak edər

.Məsələ: ۴۱. Nəcis torpaq yağışın yağması ilə palçıq olarsa, pak olur

Məsələ: ۴۲. Bir yerdə toplanmış yağış suyu, kürr miqdarından az olsa belə, yağış yağdığı zaman nəcis bir şey onun içərisində yuyularsa, o su nəcasətin iyi, rəng və ya .dadını almazsa, nəcis şey pak olar

Məsələ: ۴۳. Nəcis bir yer üzərində sərili olan pak bir xalçanın üzərinə yağış yağsa və yağış yağmağa davam etdiyi halda xalçadan yerə keçərsə, xalça nəcis olmaz. Həmin .yer isə nəcisdən paklanar

QUYU SUYU – ۵

Məsələ: ۴۴. Yerdən coşan quyu suyu, kürrdən az olsa da belə, nəcasət ona dəyəndə, nə qədər ki, iyi və ya rəngi, yaxud da dadı nəcasətin vasitəsi ilə dəyişməyibsə, pakdır. Amma müstəhəbdir ki, bəzi nəcasətlər quyu suyuna dəyəndə (düşəndə) sair .kitablarda müfəssəl şəkildə deyilən qədər, o quyunun suyundan çəksinlər

Məsələ: ۴۵. Əgər quyuya nəcis tökülsə və onun iyini və ya rəngini, yaxud da dadını dəyişsə, suda baş verən dəyişiklik quyudan coşub çixan su ilə qarışıb aradan getsə pak .olur

Məsələ: ۴۶. Əgər yağış suyu, yaxud başqa su, bir çalada yığışsa və kürrdən az olsa, .nəcasətin ona dəyməsi ilə nəcis olur

Məsələ: ۴۷. Mənası yuxarıda deyilən muzaf su nəcis şeyi pak etmir, onunla alınan .dəstəmaz və qüsl batildir

Məsələ: ۴۸. Muzaf su, hər nə qədər çox olsa belə, əgər bir zərrə nəcasət ona dəysə, nəcis olur. Amma yuxarıdan aşağıya təzyiqlə yaxud təzyiq olmadan nəcis şeyin üstünə tökülsə, nəcis şeyə dəyən hissələr nəcis, ondan yuxarıdakı hissələr isə pakdır; məsələn: əgər gülab suyunu gülabdandan nəcis əlin üstünə töksələr, ələ dəyən hissələr nəcis, dəyməyən hissələr isə pakdır. Həmçinin, əgər fəvvarə suyu kimi aşağıdan yuxarıya getsə və yuxarı hissəsinə nəcis dəysə, nəcis olur, aşağı hissəsi pak .qalır

Məsələ: ۴۹. Əgər nəcis olan muzaf su, kürr yaxud axar su ilə, daha ona muzaf su .deyilməyəcək şəkildə qarışsa, pak olar

Məsələ: ۵۰. Mütləq olan bir suyun sonradan muzaf olub-olmadığı bilinməzsə, mütləq su kimidir, yəni nəcis şeyi pakladığı kimi onunla dəstəmaz və qüsl də səhihdir. Muzaf olan bir suyun da sonradan mütləq olub-olmadığı bilinməzsə, muzaf su kimidir, yəni nəcis .şeyi paklamadığı kimi, onunla dəstəmaz və qüsl də batildir

Məsələ: ۵۱. Mütləq və ya muzaf olduğu məlum olmayan bir suyun, əvvəlcədən də muzaf və ya mütləq olduğu məlum olmazsa, nəcasəti paklamadığı kimi, onunla dəstəmaz və qüsl də batildir. Ona bir nəcasət dəyərsə və su, kürr miqdarından az olsa nəcis olur. Əgər kürr miqdarında və ya ondan çox olarsa, nəcis ona dəyərsə, nəcis .olmasına hökm etmək olmaz hətta pak olmasına hökm olunur

Məsələ: ۵۲. Nəcasətin eyni (qan, bövl və s. kimi) ilə aludə olan və rəngi və ya iyi, yaxud da dadı dəyişən su, hətta kürr, yaxud axar da olsa, nəcis olur. Amma suyun rəngi və ya iyi və yaxud da dadı, sudan çöldə olan bir şeyin; məsələn: su kənarında olan ölü .heyvanın vasitəsi ilə dəyişsə, nəcis olmaz

Məsələ: ۵۳. Qan və sidik kimi eyni nəcisin tökülməsi

nəticəsində iyi, rəng və ya dadı dəyişən bir su, əgər kürr və ya axar suya bitişərsə, yaxud üzərinə yağış yağsa və ya külək yağışı ona çiləyərsə və yaxud yağış suyu yağış yağa-yağa navalçadan onun üzərinə tökülərsə və bu halların hamısında onun dəyişikliyi yox olarsa, həmən su pak olar. Amma gərək, yağış suyu kürr və ya axar su .ilə qarışsın

Məsələ: ۵۴. Nəcis bir şeyi kürr və ya axar su içərisində yusalar, onun pak olduğu .yuyulmadan sonra ondan tökülən su pakdır

Məsələ: ۵۵. Pak olan bir suyun, sonra nəcis olub-olmadığı bilinməzsə, pakdır. Nəcis olan .bir suyun da pak olub-olmadığı bilinməzsə, nəcisdir

Məsələ: ۵۶. İt, donuz və kafirin yeməyindən qalan artığ nəcis və onun yeyilməsi haramdır. Amma əti haram olan heyvanların artığı pak, yeyilməsi isə məkruhdur; .pişiyin artığı isə istisnadır. Möminin artığında isə şəfa var

TƏXƏLLİNİN HÖKMLƏRİ

Point

Məsələ: ۵۷. Təxəlli və digər vaxtlarda insana vacibdir ki, öz övrətini yetkinlik yaşına çatmış adamlardan, ona məhrəm olan ana və bacısından, dəlidən, yaxşını pisdən seçən uşaqdan gizlətsin. Lakin ər və arvada öz övrətlərini bir-birindən gizlətmək lazım .deyil

Məsələ: ۵۸. İnsanın övrətini xüsusi bir şeylə örtməsi vacib deyil, məsələn, öz əli ilə də .örtsə kifayətdir

Məsələ: ۵۹. Təxəlli zamanı bədənin ön tərəfi, yəni qarın və sinə yaxud arxası qibləyə .olmasın

Məsələ: ۶۰. Təxəlli vaxtında bədəninin ön tərəfi və ya arxa tərəfi qibləyə tərəf olan bir şəxs, yalnız övrətini qiblədən döndərərsə, kifayət etməz. Ehtiyat-vacib budur ki, təxəlli .vaxtında övrətini də üzü və arxası qibləyə çevirməsin

Məsələ: ۶۱. Ehtiyat-vacib budur ki, bədənin qabaq tərəfi (hökmləri sonradan açıqlanan)

istibrada, həmçinin ehtiyat-vacib

.budur ki, sidik və ğaitin məxrəci yuyularkən üz və arxa, qibləyə tərəf olmasın

Məsələ: ۶۲. Əgər insan, naməhrəm bir adamın onu görməməsi üçün, ön və ya arxa tərəfini qibləyə çevirəcək şəkildə oturmağa məcburdursa mümkün olan halda arxası qibləyə oturmalıdır. Həmçinin, əgər başqa səbəblər üzündən də üzü, yaxud arxası qibləyə oturmağa məcbur olsa, daha üstün nəzər budur ki, mümkün olan halda arxası .qibləyə oturmalıdır

Məsələ: ۶۳. Ehtiyat-vacibə görə, uşağı təxəlli halında üzü, yaxud arxası qibləyə .oturtmasınlar. Amma uşağın özü otursa, qarşısını almaq vacib deyil

:Məsələ: ۶۴. Dörd yerdə təxəlli etmək haramdır

Sahibi icazə verməyən bağlı küçələrdə (dalanlarda) və bundan başqa, camaatın .۱ ;əziyyətinə səbəb olacaq küçələrdə və yollarda

.Təxəlliyə icazə verilməyən mülkdə .۲

.Xüsusi şəxslər üçün vəqf olan yerlərdə, məsələn, bəzi mədrəsələrdə .۳

Möminin qəbri üzərində ona hörmətsizlik olarsa; Hətta əgər ehtiramsızlıq olmasa .۴ da, haramdır; amma əgər yer əsli mübah yerlərdən olsa haram olmaz. Həmçinin bir .din və məzhəb müqəddəslərinin hörmətinin aradan getməsinə səbəb olsa, haramdır

:Məsələ: ۶۵. Üç halda ğaitin çıxış yeri, yalnız su ilə pak edilir

.Qaitlə birlikdə başqa nəcasət (qan kimi) çölə gələrsə-۱

Kənardan bir nəcasət ğaitin məxrəcinə dəymişdirsə. Qadınlarda bövlün ğait-۲ .məxrəcinə yetişməsi istisnadır

.Məxrəcin ətrafı adi miqdardan artıq bulaşmışdırsa-۳

Bu üç haldan başqa qalan hallarda, məxrəc su ilə yuyula bildiyi kimi, qarşıda göstəriləcəyi qaydada, parça, daş və bunlara bənzər şeylərlə də paklana bilər, amma .su ilə yuyulması daha yaxşıdır

Məsələ: ۶۶. Bövlün məxrəci sudan başqa şeylə paklanmır. Əgər bövl aradan getdikdən sonra kürr və axar su ilə bir dəfə

.yuyulsa, kifayətdir. Amma az su ilə gərək iki dəfə yuyulsun

Məsələ: ۶۷. Ğaitin məxrəci su ilə yuyulduğu təqdirdə, orada ğait qalmamalıdır. Amma rənginin və iyinin qalmasında heç bir maneə yoxdur. Birinci dəfə yuyulduqda onda .ğaitdən bir zərrə belə qalmasa, ikinci dəfə yuyulmasına ehtiyac yoxdur

Məsələ: ۶۸. Ğaitin məxrəci quru və pak olan daş, kəsək, bez parçası və buna bənzər şeylərlə paklana bilər, hətta məxrəcə təsir etməyəcək şəkildə azacıq rütubətli olsa belə, heç bir maneəsi yoxdur. Amma ehtiyat-vacib budur ki, birinci və ya ikinci dəfəyə pak olmasına baxmayaraq, üç dəfədən az olmasın

Məsələ: ۶۹. Ehtiyat-vacibə əsasən, qaitin təmizləndiyi daş ya parça, üç tikə olsun. Əgər üç tikə ilə nəcis aradan getməsə, nəcisin aradan getməsinə qədər daşları artırılmalıdır. .Lakin gözlə görünməyən kiçik zərrələrin qalmasının eybi yoxdur

Məsələ: ۷۰. Allah və Peyğəmbərin (səlləllahu ələyhi və alihi və sələm) adları yazılmış kağız kimi, ehtiram göstərilməsi vacib olan şeylərlə ğaitin məxrəcini paklamaq haramdır. Sümük və təzəklə də ğait məxrəcini paklamaq olmaz. Çünki sümük və təzəklə paklanması çətindir. Əgər bir şəxs bunlarla ğayitin məxrəcini təmizləsə günah .etmişdir

Məsələ: ۷۱. Məxrəcini paklayıb paklamadığında şəkk edən bir şəxs adətən sidik və .ğaitdən sonra dərhal özünü pak edirmişsə də, yenidən paklaması lazımdır

Məsələ: ۷۲. Əgər namazdan sonra bir şəxs namazdan əvvəl övrətinin məxrəcini paklayıb-paklamadığında şəkk edərsə, qıldığı namaz səhihdir. Amma sonrakı .namazlar üçün paklaması lazımdır

İSTİBRA

Məsələ: ۷۳. İstibra, kişilərin sidikdən sonra, sidiyin sidik kanalında qalmamasına əmin olmaları üçün yerinə yetirdikləri müstəhəb bir əməldir. İstibra bir neçə növdür: Onlardan ən yaxşısı

budur ki, əgər sidik kəsildikdən sonra, ğaitin məxrəci nəcis olmuşdursa, əvvəlcə onu pak etməli, sonra üç dəfə sol əlin orta barmağı ilə ğaitin məxrəcindən alətin kökünə qədər çəkməli və daha sonra baş barmağı alətin üzərinə və onun yanındakı barmağı da alətin altına qoyaraq, aləti sünnət olunan yerə qədər üç dəfə çəkməlidir. Sonra isə .alətin başını üç dəfə sıxmalıdır

Məsələ: ٧۴. Bəzən şəhvət hissinin təhrik olunmasından sonra insandan gələn «məzi» adlanan su, pakdır. Həmçinin, mənidən sonra gələn «vəzi» adlanan və bəzən sidikdən sonra gəlib «vədi» adlanan su da əgər bövl və məni ona qatışmayıbsa pakdır. Belə ki, əgər insan bövl etdikdən sonra istibra etsə və sonra ondan bir su gəldiyi zaman sidik .və ya bu üç sudan biri olmasında şəkk edərsə, pakdır

Məsələ: ٧۵. Əgər insan istibra edib-etməməsinə dair şəkk edirsə və ondan bir nəm xaric olursa, onun pak və ya nəcis olmasını bilmirsə, nəcisdir və dəstəmaz alıbsa batildir. Amma etdiyi istibranın səhih olub-olmadığında şəkk edirsə və bu zaman ondan nəm gəlirsə və bunun pak olub-olmadığını bilmirsə, pak sayılır və dəstəmazı .batil deyil

Məsələ: ٧۶. İstibra etməyən şəxs, əgər bövl etdiyi vaxtdan bir müddət keçəndən sonra məcrada sidiyin qalmamasına arxayın olsa və sonra bir nəm görüb onun pak olub-.olmamasında şəkk edərsə, o nəm pakdır. Dəstəmazı da batil etmir

Məsələ: ٧٧. Əgər insan sidikdən sonra istibra edib dəstəmaz alsa və dəstəmazdan sonra özündə sidik, və ya məni olması ona məlum olan bir nəmlik müşahidə edərsə, bu halda ehtiyata əsasən qüsl edib dəstəmaz alması vacibdir. Amma dəstəmaz .almamışdırsa, yalnız dəstəmaz alması kifayətdir

Məsələ: ٧٨. Qadın üçün bövlün istibrası yoxdur. Əgər özündə nəmlik görərsə və bu nəmliyin sidik olub-olmamasına şəkk edərsə, pakdır. Həmin rütubət qüslü və .dəstəmazı da batil etməz

TƏXƏLLİNİN MÜSTƏHƏBBATI VƏ MƏKRUHATI

Məsələ: ٧٩. Müstəhəbdir ki, insan təxəlli vaxtında heç kəs onu görməyəcəyi yerdə otursun. Təxəlli yerinə (ayaq yoluna) sol ayaqla daxil olub sağ ayaqla çıxsın. Həmçinin müstəhəbdir ki, təxəlli halında başını örtsün, bədənin ağırlığını sol ayağının üstünə salsın. (Lakin bu müstəhəblərin bəzisi haqqında hədis müşahidə olunmayıb). Deməli, yaxşı olar ki, bu və yayılmış risalələrdə qeyd olunan digər hallarda, deyilənləri məşhur mustəhəblərdən olduğu üçün savab ümidi ilə yerinə yetirsin. Həmçinin, haqqında hədis olmayan bəzi məkruhları da, məşhur məkruhlardan olduğu üçün savab ümidi ilə tərk .etsin

Məsələ: ٨٠. Təxəlli vaxtında Günəşlə və ya Ayla üzbəüz oturmaq məkruhdur. Amma övrətini bir şeylə örtsə məkruh deyil. Habelə külək qabağında, yolda, xiyabanda, küçədə, evin qapısında və meyvə verən ağacın altında təxəlli etmək, təxəlli vaxtı nə isə yemək, çox oturmaq, sağ əl ilə yumaq məkruhdur. Həmçinin təxəlli vaxtı danışmaq, .(da məkruhdur) amma məcbur qalarsa və ya zikr edərsə eybi yoxdur

Məsələ: ٨١. Ayaq üstə, bərk yerə, heyvanların yuvasına, suya, xüsusi ilə durğun (axarı .olmayan) suya bövl etmək məkruhdur

Məsələ: ٨٢. Bövl və qaitin qarşısını almaq məkruhdur. Əgər qarşısını almaqla bədənə .zərər çatsa, haramdır

Məsələ: ٨٣. İnsanın namazdan, yatmazdan, cinsi əlaqədən əvvəl və məni gəldikdən .sonra bövl etməsi müstəhəbdir

NƏCASƏTLƏR

Point

.Məsələ: ٨٤. Nəcasət on iki şeydən ibarətdir

.Sidik .١

.Ğait .٢

.Məni .٣

.Murdar olmuş heyvan .۴

səh: ١٩

.Qan .۵

.İt .۶

.Donuz .۷

.Kafir .۸

.Şərab .۹

.Piyvə .۱۰

.Haramdan cünub olanın təri .۱۱

.Nəcis yeyən heyvanın təri .۱۲

(BÖVL VƏ ĞAİT (İFRAZAT ۲ – ۱

Məsələ: ۸۵. İnsanın və atıcı qanı olan (yəni, damarını kəsdikdə, qanı sıçrayışla gələn) haram ətli heyvanların sidik və ğaiti nəcisdir. Atıcı qanı olmayan heyvanların; məsələn: əti haram olan balığın sidik və ğaiti və kiçik canlıların; məsələn: əti olmayan ağcaqanad .və milçəy kimi, həşəratın sidik və fəzləsi pakdır

.Məsələ: ۸۶. Ehtiyat-vacibə əsasən əti haram olan quşların sidik və ğaitləri nəcisdir

Məsələ: ۸۷. Nəcasət yeyən heyvanın bövl və ğaiti nəcisdir. Həmçinin donuz südü əmən keçi balasının, həmçinin (nəuzu billah) insanın cinsi əlaqədə olduğu heyvanın sidik və .ğaiti də eyni hökmü daşıyır

MƏNİ – ۳

.Məsələ: ۸۸. Atıcı qanı olan heyvanın mənisi, nəcisdir

MURDAR – ۴

Məsələ: ۸۹. Atıcı qanı olan heyvanın ölüsü nəcisdir; istər özü ölmüş olsun, istərsə də başı, şəriətdə müəyyən olunmuş qaydaların əksinə olaraq kəsilmiş olsun. Balığ isə, .atıcı qanı olmadığı üçün, hətta suda da ölsə, pakdır

Məsələ: ۹۰. Murdar olmuş heyvanın yun, tük, sümük və diş

səh: ۲۰

.kimi, ruhu olmayan hissələri pakdır

Məsələ: ۹۱. İnsanın və ya sıçrayan qanı olan bir heyvanın bədənindən diri ikən, ət və ya .ruhu olan başqa bir şey qoparılsa, o şey nəcisdir

Məsələ: ۹۲. İnsan dodağının və başqa bədən üzvlərinin kiçik dərilərinin, düşmə vaxtı çatanda qoparsa, pakdır. Lakin qopub düşmək vaxtı çatmadan qoparılmış dəridən, .ehtiyat-vacibə görə, çəkinmək lazımdır

Məsələ: ۹۳. Toyuğun qarnından çıxarılan yumurta qabığı bərkiməmiş olsa belə, pakdır. .Amma gərək zahiri suya çəkilsin

Məsələ: ۹۴. Əgər quzu və ya çəpiş, ot yeyən olmamışdan qabaq ölsə, onun qursağında .olan pendir mayası, pakdır. Amma onun zahiri gərək suya çəkilsin

Məsələ: ۹۵. İnsan xarici ölkələrdən gətirilən maye dərmanlar, ətir, krem, yağ və .sabunun nəcis olduğuna əmin olmazsa, pakdır

Məsələ: ۹۶. Müsəlman bazarında satılan ət, piy və dəri pakdır; Həmçinin, bunlardan biri müsəlmanın əlində olsa, eyni qada ilə. Amma heyvanın şəriət qayda-qanunu ilə kəsilib-kəslməməsini araşdırmayan bir müsəlmanın kafirdən aldığını bilsə, pakdır. .Əgər şəriət qayda-qanunu ilə kəslməməsini bilsə nəcisdir

QAN – ۵

Məsələ: ۹۷. İnsanın və sıçrayan qanı olan, yəni damarı kəsildikdə qanı sıçrayaraq axan hər bir heyvanın qanı nəcisdir. Buna görə, balıq və ağcaqanad kimi sıçrayan qanı .olmayan heyvanların qanı pakdır

Məsələ: ۹۸. Şəriət qanunlarına görə kəsilən, əti halal heyvanın qanı normal miqdarda axdıqdan sonra, bədənində qalan qan pakdır. Amma nəfəs alması və ya heyvanın .başının yuxarıda olması səbəbilə qan heyvanın bədəninə qayıdarsa, o qan nəcisdir

Məsələ: ۹۹. Ehtiyat-vacibə görə, gərək içində qan zərrələri olan yumurtadan çəkinilsin. ,Lakin əgər qan, yumurtanın sarısında olsa

.onun üzərindəki nazik pərdə parçalanmamışsa, onun ağı pakdır

.Məsələ: ١٠٠. Bəzən süd sağılarkən görünən qan nəcisdir və südü də nəcis edir

Məsələ: ١٠١. Dişlərin arasından gələn qan, əgər ağızın suyu ilə qarışması nəticəsində .aradan gedirsə, pak udulması isə icazəlidir

Məsələ: ١٠٢. Əzilmə nəticəsində dırnaq və ya dəri altında ölən qan, qan deyilməyəcək bir formaya gəlmişdirsə, pakdır. Amma əgər, ona qan deyilərsə, xaricə çıxarsa, nəcisdir. Bu halda dırnaq və ya dəri deşilmişdirsə, qan bədənin zahirindən bir hissə hesab olunursa, dəstəmaz və ya qüsl almaq üçün, o qanı xaricə çıxararaq oranı .paklamaq əziyyətlidirsə, təyəmmüm etməlidir

Məsələ: ١٠٣. Əgər insan, dəri altında ölü qan toplandığını və ya əzilmə nəticəsində ətin .o hala gəldiyini bilməzsə, pakdır

Məsələ: ١٠۴. Xörək qaynayan zaman içinə bir zərrə qan düşsə, xörək və onun qabı .nəcis olur. Qaynamaq, hərarət və od, paklayıcı deyil

Məsələ: ١٠۵. Sağalmaqda olan yaranın ətrafında olan sarı rəngli suyun qanla qarışması .məlum olmasa, pakdır

İT VƏ DONUZ –٧– ۶

Məsələ: ١٠۶. Quruda yaşayan it və donuz, hətta onların tükü, sümüyü, pəncəsi, dırnağı .və rütubəti nəcisdir. Amma su iti və su donuzu pakdır

KAFİR – ٨

Məsələ: ١٠٧. Kafir, yəni Allahı inkar edən və ya Allaha şərik qoşan, yaxud həzrət Məhəmmədin (səlləllahu əleyhi və alihi və səlləm) peyğəmbərliyini qəbul etməyən şəxs, nəcisdir. Həmçinin, dinin zəruri məsələlərindən birini; məsələn: müsəlmanların islamın bir hissəsi sayılan namaz və orucu inkar edən şəxs, inkar etdiyi şeyin dinin zəruri məsələlərindən olduğunu bilsə, nəcisdir; istər onun inkarı Allahı və ya tohidi, ya da nübüvvəti inkar etməklə

nəticələnsin, yaxud da onunla nəticələnməsin. Əgər inkar etdiyi şeyin, dinin zəruri .məsələlərindən olduğunu bilməsə, ehtiyata görə, ondan qorunmaq lazımdır

.Məsələ: ١٠٨. Kafirin bütün bədəni, hətta dırnaq, tük və rütubəti də nəcisdir

Məsələ: ١٠٩. Əgər həddi-büluğa çatmamış uşağın atası, anası, babası və nənəsi kafir olarsa, nəcisdir. Amma əgər yaxşı ilə pisi seçməyən uşağın ata, ana, baba, və nənəsindən biri müsəlman olarsa o uşaq pakdır. Amma yaxşı ilə pisi seçən uşaq kafir .olduğunu bildirsə işkallıdır

Məsələ: ١١٠. Müsəlman olub-olmadığı bilinməyən və müsəlman olduğuna dəlil olacaq bir nişanə də olmayan şəxs pakdır. Lakin müsəlmanların sair hökmləri ona aid edilmir; məsələn: müsəlman qadınla evlənə, yaxud müsəlmanların qəbiristanlığında dəfn .oluna bilməz

Məsələ: ١١١. Əgər müsəlman şəxs, on iki İmamlardan (əleyhimus-səlam) birinə nalayiq söz desə və ya düşmənlik etsə nəcisdir. Həmçinin ğulat, navasib və mücəssəmələr .əgər öz dinlərinə israrlı olsalar nəcisdirlər

ŞƏRAB – ٩

Məsələ: ١١٢. Şərab və insanı məst edən hər bir şey, əgər öz-özlüyündə, zatən maye olsa nəcisdir; əgər (narkotik maddələrdən sayılan həşiş kimi) mahiyyətcə maye olmasa, hətta bir şeydə həll edilib məhlul halına salınmaqla da axıcı olsa, pakdır. Amma .onun yeyilməsi haramdır

Məsələ: ١١٣. Əgər qapı, miz, stul və s-nin rənglənməsində işlənən texniki alkolun, .məstedici və mayedən hazırlandığını insan bilməsə pakdır

Məsələ: ١١٤. Üzüm suyu, özü-özünə və ya bişirmək vasitəsi ilə qaynayarsa pak içilməsi .isə haramdır. Amma ehtiyat-müstəhəbə əsasən ondan da çəkinilsin

Məsələ: ۱۱۵. Xurma, mövüc və kişmiş, və onların suyu qaynasa ehtiyata əsasən yeyilməsi haram, özləri isə pakdır. Baxmayaraq ki, ehtiyat qeyri lazım budur ki, onlardan çəkinsin. Xurma, mövüc və kişmiş, əgər yağda bişsələr yeyilməsinin eybi yoxdur. Əgər mövüc və kişmişin qaynamasına yəqin etsə yeyilməsi haramdır. Onun .(əlaməti budur ki, su qaynayarkən onların daxilinə keçir və onları çartladır (paralayır

PİYVƏ – ۱۰

Məsələ: ۱۱۶. Arpadan alınan və arpa suyu deyilən pivə, nəcisdir. Amma təbibin göstərişi .ilə arpadan alınan və "mauş-şəir" adlanan su, pakdır

HARAMDAN NƏCİS OLANIN VƏ NƏCASƏT YEYƏN DƏVƏNİN TƏRİ– ۱۲– ۱۱

Məsələ: ۱۱۷. Haramdan cünub olanın təri ehtiyat-vacibə əsasən nəcisdir; istər yaxınlıq vaxtı tərləmiş olsun, istərsədə yaxınlıqdan sonra; istər kişi olsun istərsədə qadın; istər zina yolu ilə olsun istərsədə ləvat və ya heyvanlarla yaxınlıq yolu ilə yaxud da, istimna .(ilə(۱

Məsələ: ۱۱۸. Əgər insan, qadınla yaxınlıq etməyin haram olduğu vaxt; məsələn: Ramazan ayı, oruc halda və ya qadın heyz olan halda onunla yaxınlıq etsə, ehtiyat-.vacibə görə, öz tərindən qorunsun

Məsələ: ۱۱۹. Əgər haram yolla cünub olan şəxs, qüsl əvəzində təyəmmüm etsə və .təyəmmümdən sonra tərləsə, ehtiyat-müstəhəbə əsasən o tərdən çəkinsin

Məsələ: ۱۲۰. Əgər bir şəxs, haram yolla cünub olsa və sonra öz halalı ilə yaxınlıq etsə və ya əvvəl öz halalı ilə yaxınlıq edib, sonra

---

Onanizm-yəni, insan özü ilə sperma xaric olmasına səbəb olacaq bir iş görəməsinə . -۱ .deyilır

.haram yolla cünub olsa, ehtiyat-vacibə görə, öz tərindən çəkinsin

.Məsələ: ١٢١. Ehtiyat-vacib budur ki, nəcasət yeyən dəvənin tərindən çəkinilsin

NƏCASƏTİN SÜBUT OLUNMASI YOLLARI

:Məsələ: ١٢٢. Bir şeyin nəcis olmasını üç yolla sübut etmək olar

Bir şeyin nəcis olduğuna, insanın özünün yəqin etməsi və ya ağıl kəsən yolla əmin -١ olmasıyla. Əgər bir şeyin nəcis olduğunu güman edərsə, ondan çəkinməsi lazım deyil. Buna görə murdar və paklığa riayət etməyən, bu kimi məsələlərə laqeyd olan adamların yemək yediyi çayxana və mehmanxanalarda insan, onun üçün gətirilmiş .xörəyin nəcis olmasına əmin deyilsə, bunun eybi yoxdur

Yalançılıqla müttəhim olmayan bir şəxsin öz ixtiyarında olan bir şeyin nəcis olmasını -٢ söyləməsi. Məsələn, insanın həyat yoldaşı, nökəri, yaxud qulluqçu öz əlindəki şeyin .(qab, yaxud başqa bir əşyanın) nəcis olduğunu söyləsə, o şey nəcisdir

İki adil kişinin bir şeyin nəcis olmasını xəbər verməlari. Amma bir şərtlə ki, onların -٣ nəcis olmasının səbəbini desinlər. Məsələn, filan şeyin qan, və ya sidiyə dəyməsi nəticəsində nəcis olmasını desələr. Əgər bir adil, yaxud etibarlı sayılan bir kişi xəbər versə və onun sözündən xatircəmlik hasil olmasa, ehtiyat-vacib budur ki, o şeydən .çəkinsinlər

Məsələ: ١٢٣. Əgər məsələni bilməməzlik üzündən müəyyən bir şeyin nəcis və ya pak olmasını; məsələn, haram yolla cünub olan şəxsin tərinin nəcis və ya pak olmasını bilməsə, məsələni soruşmalıdır. Amma məsələni bildiyi halda bir şeyin nəcis və ya pak olması barəsində şəkdə olsa; məsələn, bir şeyin qan olub-olmaması barəsində şəkk .etsə, yaxud insanın və ya milçəyin qanı olmasını bilməsə, pakdır

Məsələ: ١٢٤. İnsan əvvəlcədən nəcis olan şeyin sonradan pak

olub-olmamasında şəkk edərsə, nəcisdir. Əgər əvvəlcədən pak olan bir şeyin sonradan nəcis olub-olmaması barədə şəkk edərsə, pakdır. Onun nəcis və ya pak .olmamasını başa düşmək imkanı olsa belə, axtarış lazım deyildir

Məsələ: ١٢٥. Hər ikisindən istifadə etdiyi iki qab, yaxud iki paltardan birinin nəcis olmasını bilsə, amma müəyyən şəkildə hansının nəcis olmasını bilməsə, gərək hər ikisindən çəkinsin. Amma öz libasının, yaxud ümumiyyətlə istifadə etmədiyi və başqasının olan paltarın nəcis olması barəsində şəkk etsə, (ixtiyarında olarsa) ehtiyat-.lazıma əsasən öz paltarından çəkinsin

PAK ŞEYLƏRİN NƏCİS OLMASI YOLLARI

Məsələ: ١٢٦. Əgər pak bir şey, nəcis bir şeyə dəyərsə və onlardan biri və ya hər ikisi rütubətin bir-birinə keçəcəyi şəkildə yaş olarsa, pak olan şey də nəcis olar. Amma vasitələr çoxaldığı halda nəcis olmur. Məsələn, sağ əl sidik dəyməsi nəticəsində nəcis olarsa və təzə bir rütubətlə sol ələ dəyərsə, sol əl də nəcis olacaq. Sol əl quruduqdan sonra yenidən yaş olan bir paltara dəyərsə, o paltar da nəcis olur. Amma o paltar ayrı bir rütubətli şeyə dəyərsə, o şeyin nəcis olduğuna hökm edilməz. Əgər rütubət o birinə .sirayət etməyəcək qədər az olsa, pak olan şey nəcisin eyninə dəysə belə, nəcis olmaz

Məsələ: ١٢٧. Əgər pak şey nəcis şeyə dəyərsə və insan onlardan birinin və ya hər .ikisinin rütubətli olub-olmadığında şəkk edərsə, pak olan şey nəcis olmaz

Məsələ: ١٢٨. Əgər pak bir şey, insanın hansının pak, hansının nəcis olmasını bilmədiyi iki .şeydən birinə rütubətli və ya islanmış halda dəysə, nəcis olmaz

Məsələ: ١٢٩. Yer, parça və buna bənzər şeylər yaş olduqları zaman, bunların yalnız nəcasətin dəydiyi hissələri nəcis olur, qalan hissələri pakdır. Xiyar, qovun və buna .bənzər şeylər də eyni hökmü daşıyır

Məsələ: ۱۳۰. Şirə, yağ və buna bənzər şeylərdən, bir az götürüldükdə, yeri boş qalmayacaq qədər axıcıdırsa onun bir nöqtəsi nəcis olduğu halda, hamısı nəcis olur. Amma əgər ondan bir az götürüldüyü zaman yeri boş qalacaq şəkildə qatı olsa və sonradan dolursa, bu halda yalnız nəcisin dəydiyi yer nəcis olur. Buna görə əgər .siçanın füzləsi ona düşərsə, sadəcə onun düşdüyü yer nəcis, qalan hissəsi isə pakdır

Məsələ: ۱۳۱. Milçək və ya ona bənzər həşərat yaş olan nəcis bir şeyin üzərinə qonduqdan sonra, uçub yenə yaş olan pak bir şeyin üzərinə qonarsa, insan da onun .özü ilə birlikdə nəcasət daşıdığını bilsə, o pak şey də nəcis olur. Əgər bilməsə, pakdır

Məsələ: ۱۳۲. Bədənin tərləmiş olan bir yeri nəcis olduğu halda, tər oradan bədənin ayrı hissələrinə yayılarsa, tərin yayıldığı yerlər nəcis olar. Əgər tər başqa bir yerə .yayılmazsa, bədənin digər hissələri pakdır

Məsələ: ۱۳۳. Burun və boğazdan gələn qatı bəlğəmin içində qan varsa, qan olan hissələri nəcis, digər hissələri isə pakdır. Buna görə əgər bu bəlğəm ağızın və burunun xaricinə dəyərsə, bəlğəmin nəcis hissələrinin toxunduğuna yəqin edilən yerlər nəcis, .şəkk edilən yerlər isə pakdır

Məsələ: ۱۳۴. Altı dəlik olan aftafanı nəcis bir yer üzərinə qoysalar, əgər aftafanın suyu sızarsa və onun altında aftafadakı su ilə bir sayılacaq şəkildə su toplanırsa, aftafanın suyu nəcis olur. Amma əgər aftafanın suyu təzyiqlə axmaya davam edərsə, nəcis .olmaz

Məsələ: ۱۳۵. Bədənə daxil olaraq nəcasətə dəyən bir şey, bayıra çıxdıqdan sonra nəcasətə bulaşıq olmazsa pakdır. Buna görə ğait məxrəcinə daxil edilən imalə aləti və ya onun suyu və yaxud bədənə batan iynə, bıçaq və buna bənzər şeylər, xaricə çıxdıqdan sonra nəcasətə bulaşıq olmazsa, nəcis deyildir. Həmçinin içəridə qana dəyən ağız suyu və burun suyu, bayıra çıxdıqdan sonra qana bulaşıq olmadığı halda, .eyni hökmü daşıyır

Məsələ: ۱۳۶. Quranın yazısını və vərəqini nəcis etmək haramdır. Əgər nəcis olsa, gərək .dərhal suya çəkilsin

Məsələ: ۱۳۷. Əgər Quranın cildi nəcis olsa və bu, Qurana hörmətsizlik hesab edilsə, .gərək onu suya çəksinlər

Məsələ: ۱۳۸. Quranı, nəcasətin eyni olan şeyin (qan, ölü heyvan və s.) üzərinə qoymaq, hətta nəcisin eynin quru da olsa, haramdır. Quranı o nəcis şeyin üzərindən götürmək .vacibdir

Məsələ: ۱۳۹. Nəcis mürəkkəblə Quran yazmaq, hətta bir hərf olsa belə, onu nəcis etmək kimi bir şeydir. Əgər yazılmışdırsa, suya çəkmək, yonmaq, və ya buna bənzər .bir yolla həmin yazını pozmaq lazımdır

Məsələ: ۱۴۰. Quranı kafirə vermək Quranın nəcis olmasına və ya Qurana hörmətsizlik olarsa haram və ondan almaq vacibdir. Amma öyrənmək üçün lazım olan şərtlərə .riayət etməklə alsa vermək haram deyil, almaqda vacib deyil

Məsələ: ۱۴۱. Əgər Quranın vərəqi, yaxud Allahın, Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) və imamların adı üstünə yazılan kağız kimi, hörməti vacib olan şey tualetə düşsə, hərçənd xərci də olsa onu çıxartmaq və suya çəkmək vacibdir. Əgər onu çıxartmaq mümkün deyilsə, vərəqin tamamilə aradan getməsinə yəqin etməyənə kimi o tualetə getmək olmaz. Həmçinin tualetə türbət düşsə və çıxardılması mümkün olmasa, tamamilə aradan getməsinə yəqin edilməyənə kimi ehtiyat-vacibə görə .oraya getmək olmaz

Məsələ: ۱۴۲. Nəcis olan bir şeyin həm yeyilib-içilməsi, həm də başqasına yedirdilib-içirdilməsi haramdır. Amma uşaq və dəliyə yedirdilməsi icazəlidir. Həmçinin uşağın və dəlinin özü, nəcis olmuş bir yeməyi yeyərsə və ya əli ilə yeməyi nəcis etdikdən sonra .yeyərsə, onun qarşısını almaq lazım deyil

Məsələ: ۱۴۳. Paklanması mümkün olan nəcis bir şeyi qarşı tərəfə bildirməklə satmağın və ya başqasına icarəyə verməyin eybi

.yoxdur

Məsələ: ۱۴۴. İnsan, birisinin nəcis bir şeyi yediyini və ya nəcis libasla namaz qıldığını .görsə, ona deməsi lazım deyil

Məsələ: ۱۴۵. Əgər evinin və ya xalçasının bir yeri nəcis olan bir şəxs, onun evinə girən şəxslərin bədən, libas və ya başqa bir şeylərinin rütubətli olaraq o nəcis yerə dəydiyini görsə, onda onun özü buna səbəb olmuşsa, əvvəlki məsələdə açıqlanan iki şərtlə .məsələni onlara deməlidir

Məsələ: ۱۴۶. Əgər ev sahibi yemək yiyərkən yeməyin nəcis olduğunu başa düşsə, qeyd etdiyimiz ikinci şərtlə gərək qonaqlara desin. Amma qonaqlardan biri başa düşsə, sair qonaqlara xəbər verməsi lazım deyil. Əgər, demədiyi təqdirdə onlarla ünsiyyəti .nəticəsində özü də nəcisə bulanacaqsa, gərək qonaqlara desin

Məsələ: ۱۴۷. Bir şəxsin ariyə götürdüyü şey nəcis olsa, mal sahibi, həmin şeyi, şərti paklıq olan işdə istifadə edəcəksə və ondan istifadə etməyin, caiz olmasının şərti, onun həqiqi təharətli olmasındadırsa; (məsələn: yeyilməlilər yaxud qüsl və dəstəmaz suyu .kimi,) onun nəcis olmasını ehtiyati-vacibə əsasən ona deməlidir

Məsələ: ۱۴۸. Əgər uşaq, bir şeyin nəcis olduğunu və ya nəcis bir şeyi yuduğunu söyləyərsə, sözündən xatircəmlik hasil olmayan təqdirdə sözü qəbul edilməməlidir. Amma təklif yaşına yaxın olan uşaq bir şeyi yuduğunu söyləyərsə, onun sözü qəbul .edilməlidir. Həmçinin bir şeyin nəcis olduğunu söyləyərsə yenə də hökm eynidir

PAKLAYICILAR

Point

:Məsələ: ۱۴۹. On iki şey nəcasəti pak edir. Bu şeylərə mütəhhirat (pak edicilər) deyilir

.Su .۱

.Yer .۲

.Günəş .۳

(.İstihalə (bir haldan başqa hala keçmə .۴

.Üzüm suyunun üçdə iksinin azalması .۵

(.İntiqal (bir yerdən başqa yerə nəql olunma .۶

.İslam .۷

.Təbəiyyət .۸

.Nəcasətin eyninin aradan qaldırılması .۹

.Nəcasət yeyən heyvanın istibrası .۱۰

.Müsəlmanın qaib olması .۱۱

.İnqilab .۱۲

.Bunların hökmləri sonrakı məsələlərdə müfəssəl şəkildə gələcəkdir

SU – ۱

:Məsələ: ۱۵۰. Su, dörd şərt daxilində nəcis şeyi pak edir

ci şərt budur ki, mütləq olsun. Deməli, əgər gülab suyu, söyüd ağacının yağı və s. kimi-۱ .muzaf olsa, nəcis şeyi pak etməz

.ci şərt budur ki, pak olsun-۲

cü şərt budur ki, su, nəcis şeyi yuyarkən muzafa çevrilməsin və təkrar yumanın-۳ lazım olmadığı halda son yuyulmada su nəcasətin iyi, rəng və ya dadını özünə almasın; amma ondan qabaqkı yuyulmalarda dəyişməsinin bir zərəri yoxdur. Məsələn: iki dəfə yuyulması lazım olan bir şeyi, kürr və ya az su ilə yuduqda, birinci yuyulmada su .dəyişsə də, ikinci dəfə dəyişilməmiş su ilə paklasalar, o şey pak olar

cü şərt budur ki, nəcis şeyi yuduqdan sonra, onda eyni nəcisin kiçik zərrələri-۴ qalmamalıdır. Nəcis şeyin az su, yəni kürrdən az olan su ilə paklanmasının digər .şərtləri də vardır ki, onlar daha sonra açıqlanacaq

Məsələ: ۱۵۱. Nəcis qabı qəlil su ilə üç dəfə yumaq lazımdır. Amma kürr, yaxud axar suda bir dəfə yumaq kifayətdir. İtin yaladığı, yaxud su və ya maye şeylər içdiyi qabı, ,gərək əvvəlcə pak torpaq ilə sürtüb sonra isə kürr və ya axar su ilə bir dəfə

yaxud da qəlil su ilə iki dəfə yusun. Həmçinin, itin ağzının suyu tökülən qabı da, eyni .qayda ilə

Məsələ: ١٥٢. Əgər itin ağzını vurduğu qabın ağzı dar olsa və onu torpaqla sürtmək mümkün olmasa, bir çubuğa parça dolayıb onun vasitəsi ilə o qaba sürtsünlər. Belə olduğu halda da keçən məsələdə deyildiyi kimi, torpaq sürtülsün. Əgər bu mümkün deyilsə, gərək torpağı onun içinə töküb, torpaq, qabın hər tərəfinə dəyəcək tərzdə .möhkəm hərəkət etdirsinlər

Məsələ: ١٥٣. Donuzun yaladığı və ya maye içdiyi qab gərək qəlil su ilə yeddi dəfə, kür və axar su ilə isə bir dəfə yuyulsun. Onu torpaq ilə sürtmək lazım deyil. Baxmayaraq ki, .ehtiyat-müstəhəb budur ki, torpaqla sürtülsün

Məsələ: ١٥٤. Əgər şərab vasitəsilə nəcis olmuş qabı qəlil su ilə suya çəkmək istəsələr daha üstün nəzərə əsasən üç dəfə yuyulmasına baxmayaraq müstəhəbdir yeddi dəfə .yuyulsun

Məsələ: ١٥٥. Nəcis palçıqdan hazırlanmış və ya nəcis su, hopmuş kuzə əgər axar su və ya kürr suya buraxılarsa, suyun dəydiyi hər yer pak olur. Onun içini də paklamaq .istəsələr, kürr və ya axar suda su hər tərəfinə dəyincəyə qədər qalmalıdır

:Məsələ: ١٥٦. Nəcis olmuş qabı, az su ilə iki cür yumaq olar

.ci budur ki, qabı üç dəfə doldurub-boşaltsınlar-١

ci budur ki, üç dəfə onun içinə bir miqdar su töksünlər və hər dəfədə suyu bütün-٢ nəcis yerlərinə çatacaq şəkildə onun içində hərəkət etdirsinlər, sonra isə suyu .boşaltsınlar

Məsələ: ١٥٧. Böyük qab (boyük mis qazan və küp kimi) nəcis olsa və onu üç dəfə su ilə doldurub boşaltsalar, paklanar. Həmçinin üç dəfə ona yuxarıdan su töksələr, onun hər tərəfinə su dəysə və hər dəfə də onun dibində yığılan suyu çölə töksələr, paklanar. Ehtiyat-vacib budur ki, o böyük qabın içində yığılan suyu çölə tökmək üçün istifadə .olunan qabı və öz əlini nəcis olarsa hər dəfə suya çəksin

Məsələ: ۱۵۸. Əgər nəcis mis və ona bənzər şeyləri əridib sonra suya çəksələr, onun .zahiri pak olur

səh: ۳۱

Məsələ: ۱۵۹. İdrarla nəcis olmuş təndirə əgər iki dəfə onu bütünlükdə əhatə edəcək şəkildə yuxarıdan su töksələr pak olur. Əgər idrardan başqası ilə nəcis olarsa, nəcisi ondan kənarlaşdırdıqdan sonra deyilən qayda ilə bir dəfə ona su töksələr kifayətdir. Daha yaxşıdır ki, onun dibində tökülən suların yığılması üçün çala qazsınlar və onda .yığılan suları çölə çıxardsınlar. Sonra da çalanı, pak torpaq ilə doldursunlar

Məsələ: ۱۶۰. Nəcis bir şey, (nəcis olan yerlərin hər tərəfinə su çatacaq şəkildə), kürr və axar suya bir dəfə salınarsa, pak olar. Xalça, paltar və buna bənzər şeyləri sıxmaq, .tapdalamaq lazım deyil

Məsələ: ۱۶۱. Sidik ilə nəcis olan bir şeyi az su ilə yumaq istəsələr, əgər bir dəfə üzərinə su tökülüb ondan su ayrıldıqdan sonra, o şeydə sidik qalmazsa, pak olur. Amma paltar və bədənin pak olmaları üçün gərək onların üzərinə iki dəfə su töksünlər. Ancaq libas, xalça və bunlara bənzər şeylər az su ilə yuyulduğu təqdirdə, ğüsalənin çıxması üçün sıxılması lazımdır. (Ğüsalə, yuyulan bir şeydən, yuyulduğu zaman və ya ondan sonra, .(öz-özünə və ya sıxılmaq nəticəsində, adi şəkildə ayrılan suya deyilir

Məsələ: ۱۶۲. Yemək yeməyə başlamamış, südəmər oğlan və uşağının bövlü ilə nəcis olan bir şeyin üzərinə, nəcis yerlərin hər tərəfinə yetişəcək şəkildə bir dəfə su tökülsə, pak olar. Amma ehtiyat-müstəhəb budur ki, ikinci dəfə də üzərinə su töksünlər. Libas .və xalça kimi şeyləri sıxmaq lazım deyil

Məsələ: ۱۶۳. Sidikdən digər bir nəcisə bulaşan şeyin üzərinə, nəcis aradan aparıldıqdan sonra bir dəfə az su tökülərsə, su ondan axıb ayrıldıqdan sonra pak olar. Amma paltar .və buna bənzər şeyləri sıxaraq ğüsaləsini çıxarmaq lazımdır

Məsələ: ۱۶۴. Əgər iplə toxunmuş həsir nəcis olsa və onu kürr, yaxud axar suya batırsalar, nəcasətin eyni aradan gedəndən sonra pak olar. Əgər bövl ilə nəcis olsa, onu qəlil su ilə yumaq istəsələr gərək mümkün olan hər şəkildə; ayaqlamaqla da olsa belə, onu iki dəfə sıxsınlar ki, hər dəfədə onun ğüsaləsi çıxsın. Amma bövldən

.başqa bir şeylə nəcis olarsa, bir dəfə sıxmaq kifayətdir

Məsələ: ١۶۵. Əgər buğda, düyü, və buna bənzər şeylər nəcis olarsa, batinlərinin pak olması işkallıdır. Əgər kür və axar su nəcis dəydiyi miqdarda ona təsir edərsəpak edər. .Amma az su ilə pak olmasını demək işkallıdır

Məsələ: ١۶۶. Əgər insan nəcis suyun sabunun batininə keçib-keçməməsində şəkk etsə, .batini pakdır

Məsələ: ١۶٧. Əgər düyü, ət və bunlara bənzər şeylərin zahiri nəcis olsa onları pak bir qaba qoyaraq, üzərinə bir dəfə su töküb boşaltsalar, pak olar. Amma nəcis bir qaba qoyarlarsa, bu işi üç dəfə təkrarlamaq lazımdır. Bu zaman qab da pak olur. Əgər libas və buna bənzər sıxılması lazım olan bir şeyi qabın içərisində yumaq istərsələr, üzərinə su töküldüyü hər dəfəsində sıxılmalı və qabı əyərək içərisində cəm olan ğüsaləsini .tökməlidirlər

Məsələ: ١۶٨. Lil və buna bənzər bir rənglə boyanmış olan nəcis libası, kürr və ya axar suya batırsalar və su libasın rəngilə muzaf halını almazdan qabaq onun hər tərəfinə .yetişərsə, libası sıxanda müzaf və rəngli suyun çıxmasına baxmayaraq o libas pak olur

Məsələ: ١۶٩. Paltarı kürr və ya axar suda yuduqdan sonra onun üzərində su yosunu olduğu görünsə və onun, suyun paltarın içinə keçməsinə mane olduğu ehtimal .olunmazsa, o paltar pakdır

Məsələ: ١٧٠. Əgər libas və buna bənzər şeyləri yuduqdan sonra üzərində palçıq və ya sabun parçası olduğu görünsə, (onun, suyun libasa yetişməsinə mane olduğu ehtimalını verməsələr,) o libas pakdır. Amma nəcis su palçığın və ya sabunun içinə işləmişdirsə, onların zahiri pak, daxili isə nəcisdir. Bu o haldadır ki, pak su onların .daxilinə keçəməsin. Əgər pak su onların daxilinə keçərsə pakdır

Məsələ: ١٧١. Nəcis bir şeydən, nə qədər ki, nəcasətin eyni aradan qaldırılmayıb, pak olmaz. Amma nəcasətin rəngi və ya iyi o şeydə qalsa eybi yoxdur. Deməli, əgər qanı .paltardan təmizləyib suya çəkdikdən sonra qanın rəngi o paltarda qalsa paltar pakdır

Məsələ: ١٧٢. Əgər bədənin nəcasətini kürr, yaxud axar suda

aradan qaldırıb təmizləsələr, bədən pak olur və sudan çölə çıxıb, yenidən suya girmək .lazım deyil

Məsələ: ۱۷۳. Dişlərin arasında qalan nəcis yemək, ağıza su alınıb çalxalanaraq nəcis .yeməyin hər tərəfinə çatdırılsa, pak olar

Məsələ: ۱۷۴. Əgər baş və üzün tükü çox olsa və az su ilə suya çəksələr, ehtiyata əsasən .onun ğüsaləsini çıxartmaq üçün, gərək sıxsınlar

Məsələ: ۱۷۵. Bədən və ya paltarın bir yeri az su ilə yuyulduqda, o yerə bitişik olub, yuyulma zamanı suyun adətən çatdığı yerlər də nəcis yerin pak olması ilə pak olar. Yəni nəcis yerin ətrafını ayrıca yumaq lazım deyil. Əksinə nəcis yer və onun ətrafı suya çəkilərkən birlikdə pak olurlar. Həmçinin nəcis bir şeyin yanına pak bir şey qoyub və hər ikisinin üzərinə su töküldükdə də hökm eynidir. Buna görə nəcis bir barmağı yumaq üçün barmaqların hamısının üzərinə su tökülsə, nəcis və pak su onların .hamısına yetişsə, nəcis olan barmaq pak olduğu zaman o biri barmaqlar da pak olur

Məsələ: ۱۷۶. Nəcis olan ət və quyruq digər şeylər kimi yuyulur. Suyun daxilinə keçməsinə maneə olmayacaq miqdarda, az yağlı olan bədən, qab və libas da eyni .hökmü daşıyır

Məsələ: ۱۷۷. Nəcis olan bədən və ya qab, sonradan suyun yetişməsinə mane olacaq bir şəkildə yağlansa, o bədən və ya qabı suya çəkmək istədikləri zaman, suyun qabın .səthinə yetişməsi üçün yağın aradan aparılması lazımdır

Məsələ: ۱۷۸. Üzərində nəcasətin eyni olmayan nəcis şey, kürr suya birləşmiş olan krantın altında bir dəfə yuyulsa, pak olar. Həmçinin, əgər nəcasətin eynini krantın altında və ya başqa bir vasitə ilə aradan qaldırılsa və o şeydən axan su nəcasətin iyini və ya rəngini, yaxud da, dadını özünə götürmədiyi halda, üzərində nəcasətin eyni olan qab da, krant suyu ilə pak olar. Amma, həmin nəcis şeydən axan su, nəcasətin iyini və ya dadını yaxud da rəngini özünə götürmüş olsa, gərək krantın suyu onun üzərinə o qədər axsın ki, nəcasətin iyi və ya rəngi, yaxud da dadı, ondan

.ayrılan suda olmasın

Məsələ: ۱۷۹. Əgər bir şeyi suya çəkib pak olmasını yəqin etdikdən sonra nəcasətin eyninin ondan ayrılıb-ayrılmamasında şəkk etsə, yuyulduğu zaman nəcasətin kənar .olmasına diqqət yetirdiyi təqdirdə o şey pakdır

Məsələ: ۱۸۰. Üzərində su axa bilməyən və ya ondan parça və ya sair şeylə olsa belə

suyun ayrılması mümkün olmayan torpaq nəcis olarsa, qəlil su ilə pak olmaz. Amma üstü çınqıllı və qumlu olan torpaq, su onun üstünə töküləndə ondan ayrılıb quma və .çınqıla batdığına görə, qəlil su ilə pak olur. Amma, çınqılların altı nəcis qalır

Məsələ: ۱۸۱. Suyun batmadığı daş, kərpic döşənən yerlər, həmçinin bərk torpaq, nəcis olsa, qəlil su ilə pak olur. Amma, bu halda onun üzərinə o qədər su tökülməlidir ki, axmağa başlasın. Əgər onun üstünə tökülən su bir dəlikdən axıb çölə çıxsa, torpağ bütünlüklə pak olur. Amma axıb çölə çıxmasa, o suyun yığıldığı yer nəcis qalır. Oranı paklamaq üçün, gərək hər vasitə ilə mümkün olsa (pak qab ya pak parça kimi) ğüsaləsin çəksinlər. Onun pak olması üçün bir çala qazmaqla olsa belə, su çalaya yığılsın, sonra oranın suyunu çölə çəksinlər. Sonra həmin çalanın pak torpaq ilə .doldursunlar

.Məsələ: ۱۸۲. Duz daşı və buna bənzər şeylərin zahiri nəcis olsa, az su ilə də pak olur

Məsələ: ۱۸۳. Ərimiş nəcis şəkərdən hazırlanan qənd, kürr və ya axar suya qoyulmaqla .pak olmaz

TORPAQ – ۲

:Məsələ: ۱۸۴. Yer, üç şərtlə nəcis olmuş ayağın və ayaqqabının altını pak edər

;Yer pak olmalıdır .۱

;Quru olmalıdır .۲

Ayağın və ya ayaqqabının altında tapılan qan və bövl kimi .۳

eyni nəcis və ya nəcis olmuş palçıq kimi sonradan nəcis olan şey, yol yerimək və ya ayağı sürtməklə aradan qaldırılmalıdır; əgər nəcasət qabaqcadan aradan qaldırılarsa, ehtiyat-lazıma əsasən ayaq və ayaqqabının altı yol getmək və ya yerə sürtməklə pak olmaz. Həmçinin yer ya torpaq olmalı, ya da daş, kərpic və ya bunlara bənzər şeylərlə döşənmiş olmalıdır. Xalça, həsir və çəmənlik üzərində yol getməklə nəcis olmuş ayağın .və ya ayaqqabının altı pak olmaz

Məsələ: ۱۸۵. Nəcis ayaq və ayaqqabının altının, asfalt və ya ağacla döşənmiş yer .üzərində yeriməklə pak olması işkallıdır

Məsələ: ۱۸۶. Ayağın və ayaqqabının altında olan nəcasət on beş addımdan az yol getməklə və ya yerə sürtməklə aradan aparılsa belə, ayaq və ya ayaqqabının pak .olması üçün, on beş addım və ya daha artıq yol getmək daha yaxşıdır

Məsələ: ۱۸۷. Ayağın və ayaqqabının altının nəcisinin yaş olması lazım deyil; əgər quru .da olsa, yol getməklə paklanır

Məsələ: ۱۸۸. Nəcis olan ayağın və ayaqqabının altı, yol getməklə paklandıqdan sonra, .adətən onun ətrafından palçığa bulaşan tərəfləri də pak olur

Məsələ: ۱۸۹. Əlləri və dizləri üzərində yeriyən şəxs, əl və ya dizləri nəcis olsa, onların yol getməklə pak olmaları işkallıdır. Həmçinin çəliyin, süni ayağın altı, heyvanların nalı, .avtomobilin, faytonun təkərləri və buna bənzər şeylər də eyni hökmü daşıyır

Məsələ: ۱۹۰. Yol getdikdən sonra, ayağın və ya ayaqqabının altında nəcasətin gözlə görünməyən zərrəciklərinin, yaxud iyinin və ya rənginin qalmasının eybi yoxdur. Amma ehtiyat-müstəhəb budur ki, bunların da qalmamaları üçün bir qədər yol getmək .lazımdır

Məsələ: ۱۹۱. Ayaqqabının içi və ayağın altının yerə dəyməyən hissəsi, yol getməklə pak .olmur. Corabın altının yol getməklə paklanması işkallıdır

Məsələ: ۱۹۲. Günəş, beş şərt daxilində yeri, binanı və binada işlənən qapı-pəncərəni, həmçinin divara vurulan və binanın bir hissəsi sayılan mıxı (kəndir bağlamaq üçün :vurulan mıx xaric olmaqla) pak edir

Nəcis şey yaş olsun; (Günəşin onu qurutması üçün); hətta başqa şeyə toxunacağı-۱ təqdirdə, onu yaş etməyəcək qədər də olsa. Deməli, quru olsa, günəşin onu qurutması .üçün, gərək onu bir vasitə ilə yaş etsinlər

Nəcasətin eyni (zərrələri) o şeyin üstündə olsa, günəşin onun üzərinə saçmasından-۲ ;qabaq, onu aradan qaldırsınlar

Günəş şüalarının qarşısını bir şey almasın; deməli, əgər günəş pərdə, bulud və s. kimi-۳ şeylərin arxasından düşüb nəcis şeyi qurutsa, pak olmaz. Amma bulud, çox nazik olub .günəşin saçmasının qabağını almazsa, eybi yoxdur

Günəş təklikdə nəcis şeyi qurutmuş olsun; deməli, əgər, misal üçün, nəcis şey külək-۴ və günəşin vasitəsilə qurusa, pak olmaz. Amma külək çox az olsa və həmin "şeyin .qurudulmasına cüzi kömək edib" deyilməsə, eybi yoxdur

Günəş, nəcis hopmuş binanı və tikilini, bir dəfəyə qurutsun; deməli, nəcasət dəymiş-۵ bina və yerə günəş bir dəfə saçıb onun üst tərəfini və ikinci dəfə isə onun altını qurutsa, təkcə onun üst tərəfi pak olur və alt tərəfi isə nəcis olaraq qalır. Həmiçinin, yer ilə nəcis olmuş binanın aralarında fasilə olmaması şərtdir; məsələn: nəcis olmuş şeyin daxilinə, hava kimi bir şey və ya pak bir cism ilə fasilə düşməsin. Günəşin düşdüyü yerin, yaxud binanın üzü ilə daxili arasında hava və yaxud başqa pak bir şey .fasilə salmasın

Məsələ: ۱۹۳. Nəcis həsirin günəş vasitəsi ilə pak olması, işkallıdır. Amma bitgi, ağac və .meyvəsi günəş vasitəsi ilə pak olur

Məsələ: ۱۹۴. Əgər günəş, nəcis torpağa saçsa və insan günəşin düşdüyü vaxt həmin yerin yaş olub-olmamasında şəkk etsə və ya

onun nəminin günəş vasitəsilə quruyub-qurumamasında şəkk etsə, o torpaq nəcisdir. Həmçinin, əgər insan günəşin saçmasından qabaq nəcasətin eyninin aradan qalxıb-qalxmamasında, yaxud günəşin ona saçmasının qabağını alacaq maneənin olıb-olmamasında şəkk etsə, (o torpaq nəcisdir).

Məsələ: ۱۹۵. Əgər günəşin şüası, nəcis divarın bir tərəfinə düşsə, onun düşmədiyi digər tərəfi pak olmur.

۴– İSTİHALƏ (BİR HALDAN BAŞQA HALA KEÇMƏK)

Məsələ: ۱۹۶. Əgər nəcis şeyin cinsi (zatı), dəyişilib başqa bir pak şeyə çevrilsə, pak olar. Belə dəyişikliyə istihalə deyilir; məsələn: it duzlağa batıb duza çevrilsə, paklanar. Amma, cinsi dəyişilməsə; məsələn: nəcis buğdanı üyüdüb un etsələr, yaxud çörək bişirsələr pak olmaz. Əgər nəcis olmuş şey istihalə olarsa onun pak olması işkallıdır. Ehtiyat-vacibə görə ondan çəkinmək lazımdır. Məsələn, nəcis olmuş ağac yanıb kül olarsa ondan çəkinmək lazımdır.

Məsələ: ۱۹۷. Nəcis palçıqdan hazırlanan kuzə və buna bənzər şeylər nəcisdir. Ehtiyat-vacibə görə nəcis odundan əldə edilən kömürdən çəkinsinlər.

Məsələ: ۱۹۸. İstihalə olub-olmaması məlum olmayan nəcis şey, öz nəcisliyində qalır.

۵–ÜZÜM SUYUNUN ÜÇDƏ İKİ HİSSƏSİNİN AZALMASI

Məsələ: ۱۹۹. Od üzərində qaynayan üzüm suyunun üçdə iki hissəsi azalınca qaynaylb bir hissəsi qalarsa, pak və halal olur. Amma ۱۱۴-ci məsələdə deyildiyi kimi daha üstün nəzər budur ki, nəcis olmur. Əgər öz-özünə qaynayarsa ehtiyat-vacib budur ki, təkcə sirkəyə çevrilməsi ilə halal olur.

Məsələ: ۲۰۰. Əgər üzüm suyunun iki hissəsi qaynamadan azalarsa, qalanı qaynadığı halda pak, içilməsi isə ehtiyata əsasən haramdır.

Məsələ: ۲۰۱. Üzüm suyunun qaynayıb-qaynamaması məlum olmasa halaldır.

Məsələ: ۲۰۲. Əgər misal üçün, bir qora salxımında bir-iki üzüm giləsi olsa, o salxımdan alınan suya qora deyilərsə və üzümün şirinliyindən onda əlamət qalmadığı halda qaynayarsa, pak və yeyilməsi halaldır.

Məsələ: ۲۰۳. Əgər bir gilə üzüm ocaqda qaynayan bir şeyə düşüb qaynayarsa, yeyilməsinin haram olmasına baxmayaraq pakdır.

Məsələ: ۲۰۴. Əgər bir neçə qabda şirə bişirmək istəsələr, kəfgiri, qaynanmış qazanlara salmağın eybi yoxdur.

Məsələ: ۲۰۵. Qora, yaxud üzüm olması məlum olmayan giləmeyvə qaynasa, haram olmaz.

۶–İNTİQAL (BİR YERDƏN BAŞQA YERƏ NƏQL OLUNMA)

Məsələ: ۲۰۶. İnsanın, yaxud atıcı qanı olan, yəni damarı şəxsildikdə qanı sıçrayışla çölə çıxan heyvanın qanı və həmçinin və s. nəcasətlər, atıcı qanı olmayan heyvanın bədəninə gedib o heyvanın qanı hesab olunsa, pak olur. Buna intiqal deyilir. Deməli, zəlinin insanın bədənindən çəkdiyi qana "zəli qanı deyil, insan qanıdır" deyildiyinə görə nəcisdir.

Məsələ: ۲۰۷. Əgər bir şəxs, bədəninə qonmuş ağcaqanadı öldürsə və ondan çıxan qanın öz qanı, yaxud ağcaqanadın qanı olmasını bilməsə, pakdır. Həmçinin, əgər həmin qanı ondan əmdiyini bilsə, amma ağcaqanadın bədənindən hesab olunsa, yenə də pakdır. Amma ağcaqanadın onun qanını çəkməsi ilə öldürməsi arasındakı zaman fasiləsi çox az olsa, (nəticə etibarı ilə) insan qanıdır deyilsə, nəcisdir. Həmçinin, insan və ya ağcaqanadın qanı

.olub-olmaması deyilidiyi məlum olmasa, nəcisdir

İSLAM–٧

Məsələ: ٢٠٨. Əgər kafir olan bir adam kəlmeyi-şəhadəteyni (Əşhədü ən la ilahə illəllah və əşhədü ənnə Mühəmmədən Rəsulullah) deyərsə, yəni Allahın yeganəliyinə və Xatəmül-Ənbiya həzrət Muhəmməd ibn Əbdullahın (səlləllahu ələyhi və alihi və səlləm) nübüvvətinə şəhadət versə, hansı dil ilə söyləyərsə söyləsin, müsəlman olur. Onun qabaqcadan hər nə qədər nəcis, olmasına hökm edilirdisə də, müsəlman olduqdan sonra, artıq onun bədəni, ağızının və burnunun suyu və təri pak olar. Amma əgər, müsəlman olduğu zaman, onun bədənində eyni nəcis olarsa, onu aradan qaldırıb, yerini pak etməsi lazımdır. Hətta bədənində olan eyni nəcis, müsəlman olmazdan .qabaq aradan aparılmışsa belə, daha yaxşı olar onun yerini su ilə yusun

Məsələ: ٢٠٩. Əgər, kafir olduğu zamanda paltarı yaş halda bədəninə dəymişdirsə, istər müsəlman olduğu zaman o paltar üzərində olsun və ya olmasın, ehtiyat-vacibə .əsasən o paltardan çəkinməlidir

Məsələ: ٢١٠. Əgər kafir, şəhadəteyni desə və insan onun qəlbən müsəlman olub-.olmamasını bilməsə, pakdır. Əgər qəlbən müsəlman olmadığını bilsə də pakdır

TƏBƏİYYƏT–٨

Məsələ: ٢١١. Təbəiyyət odur ki, nəcis bir şey, başqa nəcis şeyin pak olması vasitəsi ilə .paklansın

Məsələ: ٢١٢. Şərab sirkə olsa, şərabın qabı da qaynadığı halda yetişdiyi yerə qədər pak olur. Amma qabın zahirinə şərab dəymişsə, şərabın sirkə olmasından sonra, ehtiyat-.vacibə əsasən ondan çəkinmək lazımdır

Məsələ: ٢١٣. Əgər üzüm suyu ocaqda qaynasa, üçdə ikisi azalmazdan qabaq onu bir yerə töksələr, ehtiyat-müstəhəbə əsasən

o yeri suya çəksinlər. Amma üzüm suyu qaynayan qazan və onu qaynatmaq üçün istufadə olunan kəfgir və onun kimi şeylər, üzüm suyunun üçdə ikisi azaldıqdan sonra, .onu nəcis hesab etsək pak olur. Amma qeyd olundu ki, bütün hallarda pakdır

Məsələ: ۲۱۴. Üzərində meyyit yuyulan taxta və ya daş, meyyitin övrət yerinə örtülən parça və meyyitə qüsl verənin əli, meyyitlə yuyulan hər bir şey meyyitin qüslü sona .çatdıqdan sonra pak olur

Məsələ: ۲۱۵. Əgər bir şəxs əli ilə bir şeyi yuyarsa, o şey pak olduqdan sonra onunla .birlikdə yuyulan əli də pak olur

Məsələ: ۲۱۶. Paltar və buna bənzər şeylər az su ilə yuyulsa, normal həddə sıxılıb onun .yuyulduğu suyu çıxardıqdan sonra, o libasda qalan su pakdır

Məsələ: ۲۱۷. Az su ilə yuyulan nəcis qabın paklanması üçün onun üzərinə tökülən suyun .ayrılmasından sonra, onun üzərində qalan su damlaları pakdır

NƏCASƏTİN ARADAN GETMƏSİ–۹

Məsələ: ۲۱۸. Əgər heyvanın bədəni, nəcisin eyni və ya (qan kimi), nəcis olmuş su ilə nəcis olsa, onlar aradan getdikdə, heyvanın bədəni pak olur. Həmçinin insanın bədəninin batini (içəri) tərəfi, ağızın, burnunun içi də eyni qayda ilə; məsələn: əgər dişin dibindən qan gəlsə və ağız suyunda həll olub aradan getsə, ağızın içini suya çəkmək lazım deyil. Amma süni diş ağızda nəcis olarsa ehtuyat-lazıma görə onu .yusunlar. Əgər nəcasət daxili olarsa, pakdır

Məsələ: ۲۱۹. Əgər ağızın içinin qanı dişlərin arasında qalan yemək qalıqlarına dəyərsə, .onu nəcis etməz

Məsələ: ۲۲۰. Göz qapaqlarının və dodaqların bağlandığı zaman bir-birinin üzərinə gələn miqdarı, həmçinin bədənin daxili və ya xarici hissəsindən olduğunu bilmədiyi bir yerinə, .nəcis dəyərsə, nəcasətin aradan getməsi ilə pak olur

Məsələ: ۲۲۱. Əgər nəcis toz və ya torpaq quru libas, xalça və buna bənzər şeylərə .qonsa silkələdikdə toz və torpaq tökülürsə, o pakdır

NƏCASƏT YEYƏN HEYVANIN İSTİBRASI–۱۰

Məsələ: ۲۲۲. İnsan nəcasətini yeməyə adət edən heyvanın bövlü və qaiti nəcisdir. Onların pak olması üçün, gərək heyvan istibra olunsun. Yəni, bir müddət nəcasət yeməsinin qabağı alınmalı, ona daha "nəcasət yeyən" deyilməyəcəyi müddət ərzində, pak yem verilməlidir. Nəcasət yeyən dəvənin ehtiyat-vacibə görə qırx gün, inəyin otuz gün, qeyri-mümkün deyil ki, inək otuz gün; iyirmi günün kifayət eyməsi də qeyri-mümkün sayılmaz. Qoyunun on gün, su quşları yeddi ya beş gün, ev toyuğunun üç gün, nəcasət yeməsinin qabağı alınmalı, pak yeməklər verilməlidir. Əgər bu müddətdən sonra da onlara "nəcasət yeyən" heyvan deyilsə, ehtiyat-vacibə görə gərək onların nəcasət yeyən heyvan deyilməyəcəyi mqddət qədəri nəcasət .yeməklərinin qarşısını alsınlar

MÜSƏLMANIN QAİB OLMASI–۱۱

Məsələ: ۲۲۳. Əgər baliğ və ya təharət və nəcasəti ağlıkəsən bir müsəlmanın bədəni, libası və ya xalça, qab və s. kimi, istifadə etdiyi bir şeyi nəcis olsa və o müsəlman bir müddət gözdən qeyb olsa, insan o müsəlmanın onu yuduğuna ağılı kəsən bir ehtimal .versə pak olar

Məsələ: ۲۲۴. Əgər insanın özü, nəcis olan bir şeyin pak olduğuna yəqin etsə və ya xatircəm olarsa və yaxud iki adil şəxs şəhadət verərsə və onların şəhadəti pak olmasını göstərərsə, o şey pakdır. Məsələn bövl ilə nəcis olmuş paltarı iki dəfə yumasına şəhadət versələr. Həmçinin, əgər yalançılıqda ittiham edilməyən bir şəxs, öz ixtiyarında olan nəcis bir şeyin pak olduğunu söyləyərsə və ya bir müsəlman nəcis olan bir şeyi paklamaq

məqsədi ilə yuyarsa onun düzgün şəkildə suya çəkib-çəkməməsi bilinməsə də, o şey .pakdır

Məsələ: ۲۲۵. İnsanın libasını yumağı öz boynuna götürən (bu işə vəkil olan) bir şəxs, .onu yuduğunu söyləyərsə və onun sözündən insana xatircəmlik gələrsə, o libas pakdır

Məsələ: ۲۲۶. Əgər insanda, nəcis bir şeyi yuyarkən onun pak edildiyinə yəqin etmədiyi .bir hal vəsvaslıq halı varsa, camaatın yuduğu normal şəkildə yuyarsa kifayət edər

İNQİLAB-۱۲

Məsələ: ۲۲۷. Şərab, öz-özünə və ya içinə sirkə və duz kimi şeyin qatılması səbəbi ilə .çevrilib sirkəyə çevrilsə, pak olar

Məsələ: ۲۲۸. Nəcis üzüm və bu kimi şeylərdən hazırlanan şərab, və ya bir nəcisin .dəydiyi şərab, dəyişib sirkə olsa pak olmaz

.Məsələ: ۲۲۹. Nəcis xurma, kişmiş və üzümdən hazırlanan sirkə nəcisdir

Məsələ: ۲۳۰. Əgər üzümün və xurmanın çör-çöpü onların içində olsa və eləcə sirkə tökülsə zərəri yoxdur. Amma ehtiyat-vacib budur ki, xurma, kişmiş və üzüm sirkə .olmazdan qabaq onların içinə xiyar, badımcan və bunlara bənzər şeylər tökməsinlər

QABLARIN HÖKMLƏRİ

Məsələ: ۲۳۱. İtin, donuzun, yaxud murdar olmuş heyvanın dərisindən hazırlanan qablarda yeyib-içmək haramdır. Bir halda ki, rütubət nəticəsində, o, yeməli şeyin nəcis olmasına səbəb olsun. O qablar dəstəmaz, qüsl və pak şeylərlə yerinə yetirilməsi lazım olan sair işlərdə gərək istifadə edilməsin. Çünki qab odur ki, yemək və içmək üçün düzəldilmiş olsun. Deməli, onları şərti paklıq olmayan işlərdə istifadə etsələr eybi .yoxdur

Məsələ: ٢٣٢. Qızıl və gümüş qablarda yeyib-içmək haramdır. Amma otağı zinətləndirmək, yığıb saxlamaq və s. məqsədilə o qablardan bəhrələnmək, haram deyil. Buna baxmayaraq ehtiyat-müstəhəb budur ki, bu iş tərk edilsin. Onları sındırmaq .(qab şəklindən çıxarmaq) vacib deyil, ehtiyat-müstəhəbdir

Məsələ: ٢٣٣. Qızıl, gümüş qablar düzəltmək və onların düzəldilməsindən alınan muzd .haram deyil, ehtiyat-müstəhəb budur ki, almasın

Məsələ: ٢٣۴. Qızıl və gümüş qabların alınıb-satılması üçün satıcının bunların müqabilində aldığı pul və hər hansı bir şey haram deyildir. Ehtiyat-müstəhəb budur ki, .almasın

Məsələ: ٢٣۵. Əgər stəkanın tutacağı qızıl və ya gümüşdən hazırlansa, bu halda stəkanı götürdükdən sonra ona qab deyilərsə, həm təklikdə, həm də stəkanla birlikdə istifadə olunması haramdır. Amma ona (ayrılıqda) qab deyilməzsə, istifadə edilməsinin eybi .yoxdur

Məsələ: ٢٣۶. Üzərinə qızıl və gümüş suyu çəkilmiş qabın istifadə edilməsinin eybi .yoxdur

Məsələ: ٢٣٧. Bir filizi qızıl və ya gümüşlə qarışdırıb qab hazırlayarlarsa, qabdakı filizin miqdarı, ona qızıl və ya gümüş deyilməyəcək qədər artıq olsa, istifadə olunmasının .maneəsi yoxdur

Məsələ: ٢٣٨. Əgər insan, qızıl və gümüş qabda olan xörəyi onlarda yemək haram olduğuna görə başqa bir qaba töksə, eybi yoxdur. Əgər bu məqsədlə olmasa, yeməyin qızıl ya gümüş qabdan digər qablara tökülməsi haram deyil. Amma hər iki surətdə .yeməyi ikinci qabdan yeyilməsinə maniə yoxdur

Məsələ: ٢٣٩. Qəlyanın üfürən yeri, qılıncın qını, bıçaq və Quranın qabı, qızıl və gümüşdən hazırlansa istifadə etməyin eybi yoxdur. Amma qızıl və gümüşdən .hazırlanmış kül qabı, ətir və sürmə qabından istifadə edilməsin

Məsələ: ٢۴٠. Qızıl və gümüş qablardan məcburiyyət halında istifadə etməyin eybi yoxdur. Amma dəstəmaz və ya qüsl üçün

.hətta çarəsizlik halında belə, qızıl və ya gümüş qablardan istifadə etmək olmaz

Məsələ: ۲۴۱. Qızıl-gümüşdən və ya digər bir şeydən hazırlandığı bilinməyən bir qabdan .istifadə etməyin eybi yoxdur

DƏSTƏMAZ

Point

Məsələ: ۲۴۲. Dəstəmaz alarkən üz və qolları yumaq, başın ön hissəsinə və ayaqların .üzərinə məsh çəkmək vacibdir

Məsələ: ۲۴۳. Üz, (dəstəmaz üçün olan uzunluq miqdarına görə), gərək alının yuxarı hissəsindən (tüklərin bitdiyi yerdən) çənənin axırına qədər yuyulsun. Eni isə, gərək baş barmaqla orta barmağın tutduğu miqdarda yuyulsun. Əgər bu miqdardan hətta azacıq yuyulmasa, dəstəmaz batildir. Bu miqdarın tamamilə yuyulmasına yəqin etmək üçün, .gərək onun ətrafından da bir az yusun

Məsələ: ۲۴۴. Əgər bir kəsin üzü və ya əli, normal insanların üzü və ya əlindən böyük və ya kiçik olsa, camaat arasında normal adamın üzünü haraya qədər yuduğuna diqqət etməli, o da oraya qədər yumalıdır. Həmçinin əgər alnında tük çıxarsa və ya başının .önündə tük olmazsa, alnını normal miqdarda yumalıdır

Məsələ: ۲۴۵. Qaşlarında, gözünün və ya dodaqlarının kənarında suyun keçməsinə mane olacaq çirk və ya başqa bir şeyin olduğuna ehtimal verirsə və bu ehtimal camaatın nəzərində düzgün bir ehtimaldırsa, dəstəmaz almamışdan əvvəl yoxlamalı, .əgər varsa aradan qaldırmalıdır

Məsələ: ۲۴۶. Əgər üzün dərisi, tüklərin arasından görünərsə, gərək suyu dəriyə çatdırsın. Amma görünməsə, tükləri yumaq kifayətdir və suyun tüklərin altına .çatdırılması lazım deyil

Məsələ: ۲۴۷. Üzün dərisinin tüklərin arasından görünüb-görünmədiyində şəkk edərsə, .ehtiyat-vacibə əsasən saqqalı yumalı, üzün dərisinə də suyu çatdırmalıdır

Məsələ: ۲۴۸. Burnun içini və qapadığı zaman göz və

dodaqların görünməyən yerini yumaq vacib deyil. Amma əgər insan yuyulması vacib olan miqdarın yuyulmasına əmin deyilsə, buna yəqin etməsi üçün onlardan bir miqdarını yuması vacibdir. Bu hökmü bilməyən şəxs əvvəlcə almış olduğu dəstəmazda vacib olan miqdarı yuyub-yumadığını bilməzsə, o dəstəmazla qılmış olduğu namaz .səhihdir

Məsələ: ٢۴٩. Qollar və üz gərək yuxarıdan aşağıya doğru yuyulsun. Aşağıdan yuxarı .doğru yusa, dəstəmaz batildir

Məsələ: ٢۵٠. Əgər insan əllərini isladıb üzünə və əllərinə çəksə və əlinin yaşlığı, əllərə .çəkilməsi vasitəsilə onlardan su axacaq miqdardadırsa, kifayətdir

Məsələ: ٢۵١. Üzü yuyandan sonra sağ qolunu, daha sonra isə sol qolunu dirsəklərdən .barmaqların ucuna qədər yumalıdır

Məsələ: ٢۵٢. Əgər insan dirsəyi bütünlüklə yuduğuna əmin deyilsə, buna yəqinlik hasil .etməsi üçün gərək dirsəyindən bir az yuxarıdan yusun

Məsələ: ٢۵٣. Üzünü yumamışdan əvvəl əllərini biləklərinə qədər yuyan bir şəxs dəstəmaz alarkən qolunu dirsəkdən barmaqlarının ucuna qədər yumalıdır. Əgər təkcə .biləklərinə qədər yusa, dəstəmazı batildir

Məsələ: ٢۵۴. Dəstəmazda üzü və əlləri yumaq birinci dəfə vacib, ikinci dəfə müstəhəbdir. (Ehtiyat-müstəhəb budur ki, sol əli bir dəfə yumaqla kifayətlənsin). Üçüncü və daha artıq dəfələrdə isə haramdır. Dəstəmazda deyilən "birinci, ikinci və üçüncü dəfə yumaq" dəstəmaz alan şəxsin niyyətinə bağlıdır. Deməli, birinci dəfə yumaq niyyəti ilə, on dəfə üzünə su töksə eybi yoxdur. (Amma gərək bir şəkildə olsun ki, "dəstəmazda suyu israf edir" deməsinlər). Bütün bunlar birinci dəfə hesab olunur. Əgər üç dəfə yumaq məqsədi ilə, üç dəfə su töksə və hər dəfə yuyulası yer tam .şəkildə yuyulsa, onun üçüncü dəfəsi haramdır

Məsələ: ٢۵۵. Əlləri yuduqdan sonra əldə qalan dəstəmaz suyu ilə başın qabaq tərəfinə məsh edilməlidir. Ehtitat-vacib budur ki, gərək sağ əlin içi ilə və yuxarıdan aşağı məsh .edilsin

Məsələ: ۲۵۶. Başın, alnın qabağında yerləşən dörd hissəsindən biri məsh yeri hesab edilir. Bu hissənin hər yerinə və hər nə qədər məsh çəkilsə kifayətdir. Hərçənd ehtiyat-müstəhəb budur ki, uzunluğu bir barmaq və eni üç bağlı barmaq qədəri olsun.

Məsələ: ۲۵۷. Məshin başın dərisinə çəkilməsi lazım deyil, başın ön hissəsindəki tüklərə də məsh çəkilməsi düzgündür. Amma başın qabağının tükü darananda üzə tökülərsə, yaxud başın o biri hissəsinə çatarsa, onda tüklərin dibinə məsh çəkilməlidir. Əgər üzünə tökülən, yaxud başın başqa yerinə çatan tükləri başın qabağında bir yerə yığıb onlara məsh çəksə və ya başın başqa yerlərinin qabağa gələn tüklərinə məsh çəksə, batildir.

Məsələ: ۲۵۸. Başı məsh etdikdən sonra, gərək əldə qalan dəstəmaz suyu ilə ayaqların üstünə, barmaqlardan birinin ucundan, ayağın üstündə olan çıxıntıya qədər məsh edilsin. Ehtitat-vacib budur ki, oynağa da məsh etsin.

Məsələ: ۲۵۹. Ehtiyat-vacib budur ki, ayaqın üstünün hamısına məsh edilsin.

Məsələ: ۲۶۰. Ayağın məshində, əlini ayağın barmaqlarının başına qoyandan sonra ayağın üzərinə çəksin. Əli bütünlüklə ayağın üzərinə qoyub, azacıq məsh çəkə bilər. Amma birincisi ehtiyata uyğundur.

Məsələ: ۲۶۱. Ayağa və başa məsh edərkən, əli onların üzərinə çəkməlidir. Əgər əli saxlayıb başı və ya ayağı ona çəksə, dəstəmaz batildir. Amma əli çəkdiyi vaxtda ayaq, yaxud baş azacıq hərəkət etsə, eybi yoxdur.

Məsələ: ۲۶۲. Məsh çəkilən yer quru olmalıdır. Əgər əlin nəmliyi ona təsir etməyəcək qədər yaş olarsa, məsh batildir. Amma əgər nəm olsa və ya onda olan nəmlik əlin rütubətində itəcək qədər az olarsa, eybi yoxdur.

Məsələ: ۲۶۳. Əgər məsh üçün əldə rütubət qalmasa, əlini başqa su ilə islada bilməz. Gərək qaş, kipriklər və xüsusən üzün çərçivəsi daxilində olan saqqalın nəmindən götürsün.

Məsələ: ۲۶۴. Əgər əlin rütubəti yalnız başın məshinə çatacaq

miqdardadırsa, ehtitat-vacib budur ki, əldə olan həmin rütubətlə başa məsh çəksin və ayaqların məshi üçün dəstəmazın başqa üzvlərindən qaş, kipriklər və xüsusən üzün .çərçivəsi daxilində olan saqqalın nəmindən götürsün

Məsələ: ۲۶۵. Corabın və ya ayaqqabının üstündən məsh çəkmək batildir. Amma kəskin soyuq, oğru, yırtıcı heyvan, qorxu, və s. səbəblərə görə ayaqqabını, yaxud corabı çıxara bilməsə, onların üstünə məsh çəkməyin eybi yoxdur. Əgər ayaqqabının üstü nəcis olsa, ehtiyat budur ki, pak bir şeyi onun üzərinə salıb, o şeyə məsh etsin; ehtiyat-.vacib budur ki, təyəmmüm də etsin

Məsələ: ۲۶۶. Əgər ayağın üstü nəcis olsa və ona məsh çəkmək üçün suya çəkə .bilməsə, gərək təyəmmüm etsin. Ehtiyat-vacib budur ki, cəbirədə etsin

İRTİMASİ DƏSTƏMAZ

Məsələ: ۲۶۷. İrtimasi dəstəmaz budur ki, insan üzünü, əllərini dəstəmaz almaq niyyəti ilə suya salsın və ya onları dəstəmaz niyyəti ilə suya salsın və çıxarsın. Əgər əllərini suya saldığı zaman, dəstəmaz niyyəti edib və onları sudan çıxaranadək və suyun tökülməsi qurtaranadək dəstəmaz niyyətində olsa, dəstəmazı səhihdir. Həmçinin sudan çıxardığı zaman, dəstəmaz niyyəti edib, su tökülüb qurtaranadək dəstəmaz niyyətində olsa, onun dəstəmazı səhihdir. Daha yaxşı olar ki, sol əli yuduğu zaman, yumaq niyyətini əlini sudan çıxardığı zaman etsin. Dirsəyinə tərəf olan suyun əlinin .içində ki, suya qarışmamasına riayət etsin

Məsələ: ۲۶۸. Sol qolu batırarkən niyyət etməsi icazəli deyil. Onu çıxararkən niyyət etməlidir. Dirsəyin suyu əlin içinin suyuna qarışmamasına görə əlin içinə .tökülməməlidir. Sağ əli ilə solu yumasa o da bu hökmü daşıyr

Məsələ: ۲۶۹. Əgər dəstəmaz üzvlərindən bəzilərini irtimasi, bəzilərini isə qeyri-irtimasi .yolla yerinə yetirsə, eybi yoxdur

DƏSTƏMAZ VAXTI MÜSTƏHƏB OLAN DUALAR

:Məsələ: ٢٧٠. Müstəhəbdir ki, dəstəmaz alan şəxs, suyu gördükdə desin

بِسْمِ اللهِ وَبِاللهِ وَالْحَمْدُ لِلّهِ الَّذِى جَعَلَ الْمَاءَ طَهُورًا وَلَمْ يَجْعَلْهُ نَجِساً

.Bismillahi və billahi vəl-həmdu lil-lahilləzi cəələl-maə təhurən və ləm yəcəlhu nəcisa

Allahın adı ilə. Həmd olsun O Allaha ki, suyu paklayıcı qərar verib, onu nəcis qərar“ ”.vermədi

:Dəstəmazdan qabaq əllərini yuyanda desin

أَللَهُمَّ اجْعَلْنِى مِنَ التَّوَّابِينَ وَاجْعَلْنِى مِنَ الْمُتَطَهِّرِينَ

.Əllahumməcəlni minət-təvvabinə vəcəlni minəl-mütətəhhirin

”!İlahi! Məni tövbə edənlərdən, pak olanlardan qərar ver“

:Ağzında suyu dolandıranda (yəni məzməzə edəndə) desin

أَللَّهُمَّ لَقِّنِى حُجَّتِى يَوْمَ أَلقَاكَ وَأَطْلِقْ لِسَانِى بِذِكْرِكَ

.Əllahummə ləqqini huccəti yovmə əlqakə və ətliq lisani bizikrikə

İlahi! Səninlə görüşdüyüm gün höccətimi mənə təlqin et və dilimi Sənin zikrinlə“ ”! danışdır

:İstinşaq (yəni suyu buruna çəkdiyi) vaxtı desin

أَللَّهُمَّ لَا تُحَرِّمْ عَلَىَّ رِيحَ الْجَنَّهِ وَاجْعَلْنِى مِمَّنْ يَشُمُّ رِيحَهَا وَرَوْحَهَا وَطِيبَهَا

Əllahummə la tuhərrim ələyyə riyhəl-cənnəti, vəcəlni mimmən yəşummu riyhəha və .rəvhəha və tiybəha

”!İlahi! Mənə cənnət iyini haram etmə və məni cənnətin iyini iyləyənlərdən qərar ver“

:Üzünü yuyanda desin

أَللَّهُمَّ بَيِّضْ وَجْهِى يَوْمَ تَسْوَدُّ فِيهِ الْوُجُوهُ وَلاَ تُسَوِّدْ وَجْهِى يَوْمَ تَبْيَضُّ فِيهِ الْوُجُوهُ

Əllahummə bəyyiz vəchi yovmə təsvəddu fihil-vücuh və la tusəvvid vəchi yəvmə təbyəzzu fihil-vücuh.

“İlahi! Üzlərin qara olduğu gün, mənim üzümü ağart və üzlərin ağ olduğu vaxt mənim üzümü qaraltma!”

Sağ əlini yuyanda desin:

أَللَّهُمَّ أَعْطِنِى كِتَابِى بِيَمِينِى وَالْخُلْدَ فِى الْجِنَانِ بِيَسَارِى وَحَاسِبْنِى حِسَابًا يَسِيرًا

Əllahummə ətini kitabi bi yəmini vəl-xüldə fil-cənani biyəsari və hasibni hisabən yəsira.

“İlahi! Mənim əməl kitabımı sağ tərəfdən əta et və cənnətlərdə əbədi qalmağı əta et və mənim hesabımı yüngül hesablardan qərar ver!”

Sol əlini yuyanda desin:

أَللَّهُمَّ لاَ تُعْطِنِى كِتَابِى بِشِمَالِى وَلاَ مِنْ وَرَاءِ ظَهْرِى وَلاَ تَجْعَلْهَا مَغْلُولَةً إِلَى عُنُقِى وَ أَعُوذُ بِكَ مِنْ مُقَطَّعَاتِ النِّيرَانِ

Əllahummə la tutini kitabi bi şimali və la min vərai zəhri və la təcəlha məğlulətən ila unuqi və əuzu bikə müqəttiatin-niyran.

“İlahi mənim əməl kitabımı sol əlimə və arxa tərəfdən vermə və əməl kitabımı boynumdan asılı halda qərar vermə! Mən odun parçalarından Sənə pənah aparıram!”

Başına məsh çəkdiyi vaxt desin:

أَللَّهُمَّ غَشِّنِى بِرَحْمَتِكَ وَبَرَكَاتِكَ وَعَفْوِكَ

Əllahummə ğəşşini birəhmətikə və bərakatikə və əfvikə.

“İlahi ! Məni Öz rəhmət, bərəkət və əfvinlə ört!”

Ayağına məsh edəndə desin:

أَللَّهُمَّ ثَبِّتْنِى عَلَى الصِّراطِ يَوْمَ تَزِلُّ فِيهِ الْأَقْدَامُ وَاجْعَلْ سَعْيِى فِى مَايُرْضِيكَ عَنِّى يَاذَا

الْجَلَالِ وَالْإِكْرَامِ

Əllahummə səbbitni ələssirati yovmə təzillu fihil-əqdamu vəcəl səyi fima yurzikə ənni, .ya zəl-cəlali vəl-ikram

İlahi! Qədəmlərin lərzəyə gəlib sürüşdüyü gün, məni Siratda sabit qədəm et və səyimi“ ”!Sənin məndən razı olduğun şeylərdə qərar ver, ey Cəlal və İkram sahibi

DƏSTƏMAZIN ŞƏRTLƏRİ

:Dəstəmazın səhih olmasının on üç şərti var

.ci şərt budur ki, dəstəmazın suyu pak olsun-١

.ci şərt budur ki, dəstəmazın suyu mütləq olsun-٢

Məsələ: ٢٧١. Nəcis və muzaf su ilə alınan dəstəmaz batildir. Hətta əgər insan onun nəcis və muzaf olmasını bilməsə, yaxud unutsa da batildir. Əgər bu sular ilə alınan .dəstəmazla namaz qılsa, gərək o namazı yenidən, səhih dəstəmazla qılsın

Məsələ: ٢٧٢. Əgər dəstəmaz alması üçün palçıqlı muzaf sudan başqa bir su yoxdursa, bu halda namazın vaxtı azdırsa, təyəmmüm etməlidir; vaxt varsa suyun durulmasını .gözləməli və saf su ilə dəstəmaz almalıdır

cü şərt budur ki, dəstəmazın suyu və ehtuyat-vacibə görə dəstəmaz aldığı fəza-٣ .(mübah olsun (qəsbi olmasın

Məsələ: ٢٧٣. Qəsb edilmiş və ya sahibinin razı olub-olmadığı məlum olmayan su ilə dəstəmaz almaq haram və batildir. Ehtiyat budur ki, dəstəmazın suyu tökülən yer mübah olsun. Həmçinin əgər dəstəmaz suyu töküldütü yer qəsbi olsa dəstəmaz .batildir

Məsələ: ٢٧٤. Ümumi istifadə üçün və ya yalnız o mədrəsədə təhsil alanlar üçün vəqf olunduğu məlum olmayan hovuz, adətən camaatın o hovuzda dəstəmaz aldıqları surətdə, camaatın o əməli, onun ümumi istifadə üçün olduğunu bildirir. Bununlada .onun vəqf olunmasına əminlik hasıl olsa, (orada dəstəmaz almağın) eybi yoxdur

Məsələ: ۲۷۵. Bir şəxs namaz qılmaq istəmədiyi bir məscidin hovuzunun hamı üçünmü, yoxsa orada namaz qılanlar üçünmü vəqf edildiyini bilməzsə, o məscidin hovuzundan dəstəmaz ala bilməz. Amma əgər adətən orada namaz qılmaq istəməyən şəxslər də o hovuzdan dəstəmaz alırsa və bir şəxs də bunu qadağan etmirsə, həmin hovuzdan .dəstəmaz ala bilər

Məsələ: ۲۷۶. Karvansara, səfərə çıxanxana və bu kimi yerlərin hovuzlarında dəstəmaz almaq, o yerin sakini olmayan şəxslər üçün, əgər oranın əhli olmayan dindar şəxslər də adətən orada dəstəmaz alırlarsa və camaatın oranın suyu ilə dəstəmaz alsalar, camaatın əməli və ya onun sahibinin qadağan etməməsi onun razılığını göstərirsə, .səhihdir

Məsələ: ۲۷۷. Sahibinin razı olub-olmamasını bilməməsinə baxmayaraq böyük çaylarda (axar sularda) dəstəmaz almağın eybi yoxdur. Amma onların sahibi dəstəmaz almağı .qadağan etsə, oranın suyu ilə dəstəmaz almasınlar

Məsələ: ۲۷۸. Əgər insan suyun qəsb edilmiş olduğunu unudaraq onunla dəstəmaz alarsa, səhihdir. Amma suyu özü qəsb etmiş olan şəxs onun qəsb etmiş olduğunu .unudub həmin su ilə dəstəmaz alarsa, ehtiyat-vacibə əsasən dəstəmazı batildir

.cü şərt budur ki, dəstəmazın suyunun qabı da mübah olsun-۴

.ci şərt budur ki, dəstəmazın suyunun qabı qızıl və ya gümüş olmasın-۵

Məsələ: ۲۷۹. Əgər dəstəmazının suyu qəsbi və ya qızıl və gümüş qabda olsa suyu götürüb əl və üzünə töksə dəstəmazı səhihdir. Amma irtimasi şəkildə dəstəmaz .almağın səhih olmasını demək çətin məsələdir

Məsələ: ۲۸۰. Bir daşı və ya kərpici belə qəsbi olan hovuzdan su götürmək, (camaatın nəzərində o daşlardan və ya kərpicdən) istifadə etmək sayılmasa, tərtibi dəstəmaz almağın heç bir maneəsi yoxdur. İstifadə etmək sayıldığı təqdirdə isə ondan su .götürmək haramdır

Məsələ: ۲۸۱. İmamlardan (əleyhimus-səlam) və ya imam

övladlarından birinə aid olan yer əvvəlcədən qəbiristanlıq olub, sonra orada hovuz düzəldilərsə və ya oradan arx axıdılarsa, insan o səhnin (İmamlara aid olan yer) yerinin qəbiristanlıq üçün vəqf edilmiş olduğunu bilməzsə, onda həmin hovuz və ya .arxda dəstəmaz almağın eybi yoxdur

.cı şərt: Dəstəmaz üzvləri yuyulduqda və məsh edildikdə pak olsun-۶

Məsələ: ۲۸۲. Dəstəmaz tamamlanmazdan əvvəl yumuş olduğu və ya məsh etdiyi bir .yer nəcis olarsa, dəstəmaz səhihdir

Məsələ: ۲۸۳. Bədənin dəstəmaz üzvlərindən başqa bir yeri nəcis olsa, dəstəmaz səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, əgər sidik və ya ğaitin məhəllini .yumamışsa, əvvəlcə onu paklasın və sonra dəstəmaz alsın

Məsələ: ۲۸۴. Əgər dəstəmaz üzvlərindən biri nəcis olsa və dəstəmazdan sonra, əvvəldə oranı suya çəkib-çəkməməsində şəkk etsə, belə bir surətdə dəstəmaz alan zaman o yerin pak, yaxud nəcis olmasına diqqət etməyibsə, dəstəmazı batildir. Amma diqqət etdiyini bilirsə və ya diqqət edib-etməməsində şəkk edirsə, dəsatəmaz .səhihdir. Hər halda nəcis olan yeri gərək suya çəksin

Məsələ: ۲۸۵. Üzündə və ya qollarında qanaxması dayanmayan, suyun zərər vermədiyi bir kəsik yer və ya yara olarsa, gərək kəsik və ya yara olan yeri kürr və ya axar suya .salıb qanı kəsilincəyə qədər sıxsın. Sonra deyilən qayda üzrə irtimasi dəstəmaz alsın

.ci şərt: Dəstəmaz alıb namaz qılmaq üçün kifayət qədər vaxt olmalıdır-۷

Məsələ: ۲۸۶. Dəstəmaz alacağı halda namazın hamısı və ya bir hissəsi öz vaxtından sonraya qalacaq qədər vaxt az olarsa, gərək təyəmmüm etsin. Amma dəstəmaz və ya .təyəmmümün hər biri üçün eyni qədər vaxt olarsa, gərək dəstəmaz alsın

Məsələ: ۲۸۷. Namazın vaxtının darlığı üzündən təyəmmüm etməli olan bir şəxs, əgər Allaha yaxınlıq niyyəti ilə və ya Quran oxumaq kimi müstəhəb bir iş üçün dəstəmaz .alarsa, dəstəmazı səhihdir. O namazı qılmaq üçün dəstəmaz alarsa da, hökm eynidir

.Əgər bu zaman qürbət (Allaha yaxınlıq) qəsdi gerçəkləşməzsə, dəstəmaz batildir

ci şərt: Dəstəmazı qürbət qəsdi ilə, yəni aləmlərin Rəbbinin əmrlərini yerinə yetirmək-۸ üçün dəstəmaz alsın. Amma sərinlənmək, yaxud başqa məqsədlə dəstəmaz alsa, .batildir

Məsələ: ۲۸۸. Dəstəmazın niyyətini dildə demək, yaxud qəlbdən keçirtmək lazım deyil. Amma, dəstəmaz aldığı bütün müddət ərzində diqqəti dəstəmaz almaqda olmalıdır. Dəstəmazın bütün əməlləri Allahın əmrinni yerinə yetirmək niyyəti ilə olsun. Ondan “nə .edirsən” deyə soruşduqları sürətdə, dəstəmaz alıram deyə bilsin

cu şərt budur ki, dəstəmazı əvvəldə qeyd olunan ardıcıllıqla yerinə yetirsin. (Yəni-۹ əvvəlcə üzünü, sonra sağ əlini, daha sonra sol əlini yusun. Ondan sonra başına, sonra isə ayaqlarına məsh etsin. Gərək sol ayağına, sağ ayaqdan əvvəl məsh etməsin. Əgər (.bu tərtiblə alınmasa, batildir

.cu şərt: Dəstəmazın işlərini ardıcıl (fasiləsiz) olaraq yerinə yetirsin-۱۰

Məsələ: ۲۸۹. Əgər dəstəmazın işləri arasında çoxlu fasilə düşsə, belə ki, bir yeri yuyub, yaxud məsh etdikdə, ondan əvvəlki yerin və ya məshin rütubəti qurusa, dəstəmaz batildir. Əgər bir üzvü yumaq istəyəndə, ondan əvvəl yuduğu və ya məsh etdiyi yerin rütubəti qurumuş olsa; məsələn: sol əli yumaq istəyəndə sağ əli qurusa, amma üzü yaş olsa, dəstamazı səhihdir. Baxmayaraq ki, ehtiyat-müstəhəb budur ki, o dəstəmazı .pozub sonra yenidən başqa bir dəstəmaz alsın

Məsələ: ۲۹۰. Dəstəmazın əməllərini ardıcıl olaraq yerinə yetirdiyi halda havanın istiliyi, bədənin hərarətinin çox olması və buna bənzər səbəblər üzündən əvvəlki yerlərin .nəmliyi quruyarsa, dəstəmaz səhihdir

Məsələ: ۲۹۱. Dəstəmaz əsnasında yol getməyin eybi yoxdur. Deməli, bir şəxs üzü və əlləri yuduqdan sonra bir neçə addım gedib sonra başa və ya ayaqlara məsh etsə, .dəstəmazı səhihdir

ci şərt: Üzün, əllərin yuyulmasını, başa və ayağa məsh çəkilməsini insanın özü-۱۱ yerinə yetirsin. Başqası ona üçün dəstəmaz alsa və ya suyu onun üzünə və əllərinə .tökməkdə yaxud da baş və ayaqlarına məsh etməkdə kömək etsə, dəstəmazı batildir

Məsələ: ۲۹۲. Əgər bir şəxsin özü dəstəmaz ala bilmirsə, dəstəmaz almaq üçün gərək özünə nayib tutsun. Əgər (nayib) muzd istəsə, verə biləcəyi təqdirdə gərək versin. Amma gərək onun özü dəstəmaz niyyəti etsin. Daha yaxşı olar ki, tutduğu nayib də dəstəmaz niyyəti etsin. Gərək öz əli ilə məsh çəksin. Əgər bunu edə bilməsə, nayibi gərək onun əlini tutub məsh yerlərinə çəksin. Bu da mümkün olmasa, nayib onun əlinin .rütubətindən götürüb başına və ayaqlarına məsh etməlidir

Məsələ: ۲۹۳. Dəstəmazın bəzi əməllərini ozü (köməksiz) yerinə yetirə bilirsə onlar üçün .kömək almamalıdır

.ci şərt: Sudan istifadə etməyin dəstəmaz alan üçün bir maneəsi olmamalıdır-۱۲

Məsələ: ۲۹۴. Əgər bir şəxs dəstəmaz alarsa xəstələnəcəyindən, yaxud suyu dəstəmaz üçün istifadə edərsə özünün və ya digər bir şəxsin susuz qalacağından qorxsa, gərək dəstəmaz almasın. Amma suyun zərərli olub-olmamasını bilmədiyi halda dəstəmaz alıb sonradan zərərli olduğunu başa düşsə, ehtiyat-vacibə əsasən dəstəmazı batildir. .Vəzifəsinə uyğun olaraq təyəmmüm etsin

Məsələ: ۲۹۵. Əgər üz və qollarına dəstəmazın səhih olacağı az bir miqdarda su toxundurmasının zərəri olmazsa və ondan çoxunun zərəri olarsa, o az miqdar su ilə .dəstəmaz almalıdır

cü şərt: Dəstəmaz üzvlərində suyun bədənə dəyməsinin qarşısını alan maneə-۱۳ .olmasın

Məsələ: ۲۹۶. Əgər dəstəmaz üzvlərinə bir şeyin yapışdığını bilirsə, amma onun suyun yetişməsinə mane olub-olmadığında şəkk edirsə, onu aradan aparmalı və ya suyu .onun altına çatdırmalıdır

Məsələ: ۲۹۷. Dırnağın altının çirkli olmasının dəstəmaz üçün

eybi yoxdur; amma əgər dırnaq kəsildiyi zaman, o çirklər suyun dəriyə çatmasına maneçilik törədərsə, gərək dəstəmaz üçün onları təmizləsin. Həmçinin əgər dırnaq .normadan artıq uzun olarsa, normadan artığının altındakı çirkləri təmizləmək gərəkdir

Məsələ: ٢٩٨. Üzdə, qollarda, başın ön hissəsində və ya ayaqlarının üstündə yanıq və ya başqa bir səbəbdən qabar olarsa, onun üstünü yumaq və ya məsh etmək kifayətdir. Bu qabar deşilsə də, dərinin altına suyu çatdırmaq lazım deyil. Hətta əgər qabarın bir bölümünün dərisi soyulsa belə, suyu soyulmamış olan qisminin altına çatdırmaq lazım deyil. Amma soyulmuş dəri bəzən bədənə yapışır, bəzən də qalxırsa, onu qopartmalı .və ya suyu onun altına çatdırmalıdır

Məsələ: ٢٩٩. Əgər insan, dəstəmaz üzvlərinə bir şey yapışıb-yapışmamasında şəkk etsə, bu halda onun ehtimalı camaatın nəzərində yerli ehtimal olsa; məsələn: palçıqla işlədikdən sonra, palçığın əlinə yapışıb-yapışmamasında şəkk etsə, gərək axtarış aparsin və ya əlini o qədər sürtsün ki, əminlik hasil olsun ki, olan halda o təmizlənib və .ya olan halda su onun altına çatıb

Məsələ: ٣٠٠. Əgər yuyulması və ya məsh edilməsi lazım gələn bir yer çirkə bulaşmışsa, amma suyun bədənə yetişməsinə mane olmasa, bir eybi yoxdur. Həmçinin gəc düzəltmə və buna bənzər işlərdən sonra əlin üstündə qalan və suyun dəriyə yetişməsinə mane olmayan ləkələrin də maneçiliyi yoxdur. Amma əgər onların olduğu təqdirdə suyun bədənə yetişib-yetişməməsində şəkk edərsə, gərək onları aradan .qaldırsın

Məsələ: ٣٠١. Əgər dəstəmazdan qabaq, dəstəmaz üzvlərinin bəzisində, suyun üzüvlərə çatmasının qarşısını alan maneə olduğunu bilib dəstəmazdan sonra, dəstəmaz alan vaxt suyun o hissələrə çatıb-çatmamasında şəkk etsə, dəstəmazı səhihdir. Əgər dəstəməz alan zaman dəstəmaza maneənin olmasına diqqət etmədiyini bilirsə, bu .halda yenidən dəstəmaz alsın

Məsələ: ٣٠٢. Əgər dəstəmaz üzvlərindən bəzisində suyun bəzən onun altına keçdiyi, bəzən də keçmədiyi bir maneə olarsa

və insan dəstəmaz aldıqdan sonra suyun onun altına keçib-keçmədiyində şəkk edərsə, bu halda dəstəmaz alarkən suyun onun altına keçməsini nəzərdə tutmadığını .bilirsə, ehtiyat-vacib budur ki,yenidən dəstəmaz alsın

Məsələ: ٣٠٣. Dəstəmazdan sonra dəstəmaz üzvlərində suyun dəriyə keçməsinin qarşısını alan maneənin olduğunu görsə və onun dəstəmaz alanda mövcud olduğunu, .yoxsa sonradan meydana gəldiyini bilməzsə, dəstəmazı səhihdir

Məsələ: ٣٠٤. Dəstəmaz aldıqdan sonra dəstəmaz üzvlərində suyun dəriyə keçməsinin .qarşısını alan bir maneənin olub-olmadığında şəkk edərsə, dəstəmazı səhihdir

DƏSTƏMAZIN HÖKMLƏRİ

Məsələ: ٣٠٥. Dəstəmazın əməllərində və şərtlərində suyun pak olması və qəsbi .olmaması kimi, çox şəkk edən şəxs gərək öz şəkkinə etina etməsin

Məsələ: ٣٠٦. Əgər dəstəmazının batil olub-olmamasında şəkk etsə, dəstəmazlı olduğunu qəbul etməlidir. Amma bövldən sonra istibra etməmiş dəstəmaz alsa və dəstəmazdan sonra ondan rütubət xaric olsa, onun bövl və ya başqa şey olmasını .bilməsə, dəstəmazı batildir

.Məsələ: ٣٠٧. Dəstəmaz alıb-almamasında şəkk edən şəxs gərək dəstəmaz alsın

Məsələ: ٣٠٨. Əgər bir şəxs dəstəmaz aldığını və ondan hədəs baş verdiyini; məsələn, bövl etməsini bilsə, amma hansının qabaq və hansının sonra olduğunu bilməsə, əgər namazdan qabaqdırsa, gərək dəstəmaz alsın. Əgər namaz əsnasındadırsa, namazı pozub dəstəmaz alsın; əgər namazdan sonra olsa, qıldığı namazı səhihdir. Sonrakı .namazlar üçün gərək dəstəmaz alsın

Məsələ: ٣٠٩. Əgər dəstəmaz aldıqdan sonra və ya dəstəmaz aldığı zaman dəstəmaz üzvlərinin bəzi yerlərini yumadığını və ya məsh etmədiyini yəqin edərsə, əgər çox vaxt keçdiyindən o yerdən

öncə olan yerlərin rütubəti qurumuşsa, gərək yenidən dəstəmaz alsın. Amma qurumamışsa və ya havanın isti olması və buna bənzər bir səbəb üzündən qurumuşsa, yadından çıxardığı yeri və ondan sonrakı yerləri yumalı və məsh etməlidir. Dəstəmaz aldığı zaman bir yerin yuyulmasında və ya məsh edilməsində şəkk edərsə, yenə də bu .qaydaya əməl etməlidir

Məsələ: ۳۱۰. Əgər namazdan sonra dəstəmaz alıb-almamasında şəkk etsə, namaz .səhihdir, lakin sonrakı namazlar üçün gərək dəstəmaz alsın

Məsələ: ۳۱۱. Əgər namaz əsnasında dəstəmaz alıb-almamasında şəkk etsə, ehtiyata .əsasən namazı tamamlayıb, dəstəmaz alsın və namazı yenidən qılsın

Məsələ: ۳۱۲. Namazdan sonra, dəstəmazının batil olduğunu bilərsə, amma namazdan .qabaq və ya sonra batil olduğunda şəkk edərsə, qıldığı namaz səhihdir

Məsələ: ۳۱۳. İnsanda yaranan bir xəstəlik üzündən ondan damla-damla bövl gəlirsə və ya ğaitinin çıxmasının qarşısını ala bilmirsə, bu halda əgər namaz vaxtının əvvəlindən sonuna qədər olan müddət ərzində dəstəmaz alıb namaz qıla biləcək miqdarda fürsət tapacağına yəqini varsa, namazı fürsət tapacağı vaxtda qılmalıdır. Əgər fürsəti yalnız namazın vacibinə yetəcək qədər olsa, fürsət tapan kimi namazın yalnız vaciblərini .yerinə yetirməli, azan, iqamə və qunut kimi, müstəhəb olan əməlləri tərk etməlidir

Məsələ: ۳۱۴. Əgər dəstəmaz və namaz miqdarında vaxt tapmasa, belə ki, namaz əsnasında ondan bir neçə dəfə bövl və ya qait xaric olsa, onun hər dəfəsində dəstəmaz ala bilərsə və bu iş onun üçün çətin olmazsa, onda gərək öz yanında bir qabda su qoysun ki, hər vaxt bövl və ya qait ondan xaric olsa, dərhal dəstəmaz alıb namazın qalan hissəsini qılsın. Ehtiyat-müstəhəb budur ki, o namazı ikinci dəfə bir .dəstamazla qılsın. Əgər namazın əsnasında dəstamazı batil olsa əhəmiyyət verməsin

Məsələ: ۳۱۵. Qaiti ya bövlü ardıcıl şəkildə xaric olan və hər dəfədən sonra, onun üçün ,dəstəmaz almaq çətin olan bir şəxs

namazının müəyyən miqdarını dəstəmaz ilə qıla bilsə, gərək hər namaz üçün bir .dəstəmaz alsın

Məsələ: ۳۱۶. Bövlu və ya qaiti ardıcıl olaraq xaric olan bir şəxs, əgər namazın heç bir miqdarını dəstəmazla qıla biləmsə ehtiyat-vacib budur ki, hər namaz üçün bir .dəstamaz alsın

Məsələ: ۳۱۷. Əgər bir şəxs xəstəlik səbəbi ilə yel çıxmasının qarşısını ala bilməsə, bövl .və ya qaitin çölə gəlməsinin qabağını ala biməyən şəxslər kimi əməl etməlidir

Məsələ: ۳۱۸. Əgər bir şəxsdən ardıcıl bövl və ya qait xaric olursa, gərək hər namaz üçün dəstəmaz alıb dərhal namaza başlasın. Amma yerinə yetirilməsi namazdan sonra olan, unudulmuş səcdə, təşəhhüd kimi işləri dərhal namazdan sonra yerinə yetirsə, dəstəmaz alması lazım deyil. Amma ehtiyat-lazıma əsasən ehtiyat namazı .üçün dəstəmaz alsın

Məsələ: ۳۱۹. Əgər bir şəxsdən damcı-damcı bövl xaric olursa, namaz üçün, pambıq və başqa şey olan, bövlun və bədəninin başqa yerlərinə dəyməsinin qarşısını alan bir kisənin vasitəsi ilə, özünü qorumalıdır. Ehtiyat-vacib budur ki, hər namazdan qabaq, bövlun nəcis olmuş məxrəcini (suya çəksin) və kisəni suya çəksin və ya dəyişsin. Həmçinin qaitin çölə gəlməsinin qarşısını ala bilməyən şəxs, imkan daxilində, namaz qıldığı müddətdə qaitin başqa yerlərə sirayət etməsinin qarşısını almalıdır. Ehtiyat-vacib budur ki, məşəqqəti olmayan halda hər namaz üçün qaitin məxrəcini suya .çəksin

Məsələ: ۳۲۰. Əgər bir şəxs bövl və qaitin çölə çıxmasının qarşısını ala bilmirsə, mümkün olan halda gərək namaz qıldığı müddətdə, hətta xərci də olsa, bövl və qaitin çıxmasının qarşısını alsın. Ehtiyat-vacibə əsasən onun xəstəliyi asan yolla müalicə olunarsa gərək .özünü müalicə etsin

Məsələ: ۳۲۱. Sidik və ya ğaitin xaricə çıxmasının qarşısını ala bilməyən şəxsin, xəstəliyi zamanında vəzifəsinə uyğun qıldığı namazlarını sağaldıqdan sonra qəza etməsi lazım ,deyil. Amma namaz vaxtı keçməmişdən qabaq sağalsa, ehtiyata əsasən o

.vaxtda qıldığı namazı yenidən qılsın

DƏSTƏMAZ ALINMASI VACİB OLAN ƏMƏLLƏR

:Məsələ: ۳۲۲. Beş şey üçün dəstəmaz almaq vacibdir

Meyyit namazından başqa sair vacib namazlar üçün. (Müstəhəb namazların səhihliyi.۱ (.üçündə dəstamaz şərtdir

Unudulmuş təşəhhüd və səcdə üçün; əgər onlar ilə qıldığı namaz arasında hədəs.۲ (bövl kimi) baş vermiş olarsa. Ehtiyat-vacibə əsasən səcdeyi-səhv üçün də dəstamaz .alınsın

.Allah evinin (Kəbənin) vacibi təvafı üçün.۳

.Dəstəmaz alması üçün Allah ilə əhd bağlasa, and içsə və ya nəzr etsə.۴

Nəcisə bulaşmış Quranı suya çəkmək və ya onu (Quranı) hörmətsizlik olan yerdən.۵ (tualet və onun kimi yerlərdən) çıxarmaq üçün əlini və ya bədəninin başqa yerini Quranın yazısına vurmağa məcbur olarsa; amma əgər dəstəmaz almaq müddətinə qədər Qurana hörmətsizlik olarsa, gərək dəstəmaz almadan Quranı bu kimi yerlərdən .çıxarsın və ya nəcis olsa, suya çəksin

Məsələ: ۳۲۳. Dəstəmazı olmayan şəxslər üçün Quranın yazılarına məss etmək (yəni bədənin hər hansı bir hissəsini onun yazılarına vurmaq) haramdır. Ehtiyat-müstəhəb budur ki, öz tüklərini də quranın xəttinə vurmasın. Amma Quranı fars dilinə və ya .başqa dillərə tərcümə etsələr məss etməyin eybi yoxdur

Məsələ: ۳۲۴. Uşaqların və dəlilərin Quran yazısına toxunmasının qarşısını almaq vacib .deyil. Amma onların toxunması Qurana qarşı hörmətsizlikdirsə, gərək qarşısı alınsın

Məsələ: ۳۲۵. Dəstəmazı olmayan şəxsin hansı dildə yazıldığından asılı olmayaraq, Allah-təalanın adına və Ona xas olan sifətlərini bildirən sözlərə toxunması ehtiyat-vacibə əsasən haramdır. Yaxşı olar ki, həzrət Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm), İmamların (ələyhimus-səlam) və həzrət Zəhranın (ələyha səlam) mübarək .adlarına da dəstəmazsız toxunmasın

Məsələn: ٣٢٦. Əgər bir şəxs namaz vaxtından əvvəl, təharətli olmaq niyəti ilə dəstəmaz alsa, yaxud qüsl etsə, səhihdir. Namaz vaxtına yaxın olan vaxtlarda da namaza hazır .olmaq niyyəti ilə dəstəmaz alsa, eybi yoxdur

Məsələ: ٣٢٧. Vaxtın yetişdiyinə yəqin edən şəxs əgər vacib dəstəmaz niyyəti ilə .dəstəmaz alsa və sonra vaxtın yetişmədiyini anlasa, dəstəmaz səhihdir

Məsələ: ٣٢٨. Dəstəmazı olan şəxsin hər namaz üçün yenidən dəstəmaz alması da müstəhəbdir. Fəqihlərdən bəzisi buyurmuşdur ki, cənazə namazı qılmaq, qəbiristan əhlini ziyarət etmək, məscidə və İmamların (əleyhimus-səlam) hərəmlərinə getmək, yanında Quran gəzdirmək, Quran oxumaq və yazmaq, onun haşiyəsinə toxunmaq və eləcə də yatmaq üçün dəstəmaz almaq müstəhəbdir. Amma bu işlər üçün dəstəmaz almağın müstəhəb olması sübuta yetməyib. Amma əgər müstəhəb olması ehtimalı ilə dəstəmaz alsa, səhihdir və dəstəmazla yerinə yetirilməli olan hər bir işi edə bilər. .Məsələn: o dəstəmazla namaz qıla bilər

DƏSTƏMAZI BATİL EDƏN ŞEYLƏR

:Məsələ: ٣٢٩. Yeddi şey dəstəmazı batil edir

;Sidik .١

;Ğait .٢

;Qaitin məxrəcindən xaric olan mədə və ya bağırsağın yeli.٣

Gözün görmədiyi, qulağın eşitmədiyi yuxu halı; amma gözün görməyib, qulağın.٤ .eşitdiyi hal, dəstəmazı batil etməz

.Əqli aradan aparan şeylər; dəlilik, sərxoşluq, huşdan getmək və s. kimi.٥

;(Qadının istihazəsi (sonrdan deyiləcək.٦

.(Yerinə yetirilməsi üçün qüslün gərəkli olduğu əməllər (cənabət kimi .٧

Yara və sınığa bağlanan şey, həmçinin yara və bu kimi şeylərin üzərinə qoyulan .dərmanlar «cəbirə» adlanır

Məsələ: ۳۳۰. Əgər dəstəmaz yerinin birində yara, çiban və ya sınıq olsa, belə ki, üstü .açıq olduqda su ona zərər yetirməzsə, gərək adi qaydada dəstəmaz alınsın

Məsələ: ۳۳۱. Əgər yara, çiban, yaxud sınıqlıq üzdə, əllərdə olsa və onların üstü açıq, suyun tökülməsinin də zərəri olsa, yaş əl ilə onların üstünə çəkilməsinin zərəri olmasa, ehtiyata-vacibə görə yaş əl ilə onun üstünə çəksin. Ehtiyat-müstəhəbə əsasən sonra pak bir parçanı yaranın üstünə qoyub yaş əl ilə o parçanın da üstünə çəksin. Əgər bu qədərin də zərəri olsa, yaxud yara nəcis olsa və suya çəkilməsi mümkün olmasa, bu halda, dəstəmazın qaydalarında deyildiyi kimi, yaranın ətrafını yuxarıdan-aşağı yusun. Ehtiyata-vacibə görə pak bir parçanı yaranın üstünə qoyub yaş əl ilə o parçanın üstünə çəksin. Əgər parça qoymaq mümkün olmazsa, yaranın ətrafını yusun və .ehtiyat-müstəhəbə görə, təyəmmüm də etsin

Məsələ: ۳۳۲. Əgər yara, çiban və sınıq başın qabağında, yaxud ayaqların üstündədirsə və üstü açıqdırsa və onu məsh edə bilmirsə onun üzərinə pak parça qoyub əlində qalan dəstəmaz suyunun yaşlığı ilə məsh etsin. Ehtiyat-vacib budur ki, sonra .təyəmmüm etsin. Əgər parça qoymaq mümkün olmasa təyəmmümlə kifayətlənsin

Məsələ: ۳۳۳. Əgər çiban, yara və sınığın üstü bağlı olsa, onu açmaq əziyyətsiz mümkündürsə və suyun onun üçün zərəri yoxdursa, gərək açsın və dəstəmaz alsın, istər yara və onun misli üzdə və əllərdə olsun, istərsə başın qabağında və ayaqların .üstündə olsun

Məsələ: ۳۳۴. Əgər yara, çiban və sınıq.üz və ya əllərdə olarsa onun üstünü açmaq mümkün olsa amma suyun onun üzərinə tökülməsinin zərəri olsa ancaq yaş əlin çəkilməsinin zərəri olmasa

ehtiyat-vacib budur ki, yaş əl ilə onun üzərinə məsh çəksin, sonra isə pak bir parça .onun üzərinə qoyub parçanında üzərindən məsh çəksin

Məsələ: ۳۳۵. Əgər yaranın üstünü açmaq mümkün olmasa, lakin yara və onun üzərinə qoyulan şey pak olsa, suyun yaraya çatdırılması mümkündürsə və zərəri yoxdursa, gərək suyu yuxarıdan aşağıya doğru yaranın üzərinə çatdırsın. Əgər yara və ya onun üzərinə qoyulan şey nəcis olsa, lakin onu yuyaraq yaraya çatdırmaq mümkün olsa, onu yumalı və dəstəmaz alarkən suyu yaraya çatdırmalıdır. Əgər suyun yaraya zərəri olsa və ya suyu yaraya çatdırmaq mümkün deyilsə yaxud yara nəcisdirsə və onu yumaq mümkün deyilsə gərək yaranın ətrafını yusun. Əgər cəbirə pakdırsa gərək onun üzərinə məsh çəksin. Əgər cəbirə nəcisdirsə və ya yaş əl ilə onun üzərinə məsh çəkmək mümkün deyilsə məsələn, ələ yapışan dərmandırsa, cəbirə hesab olunan bir parçanı onun üzərinə qoysun yaş əl ilə onun üzərinə çəksin. Əgər bu da mümkün deyilsə ehtiyat-vacib budur ki, onun ətrafını yumaq ilə dəstəmaz alsın, təyəmmüm də .etsin

Məsələ: ۳۳۶. Əgər cəbirə üzün, yaxud əllərdən birinin və ya hər ikisinin hər yerini .tutmüş olsa, gərək cəbirə dəstəmazı alsın. Ehtiyat-vacibə görə, təyəmmüm də etsin

Məsələ: ۳۳۷. Əgər cəbirə, dəstəmaz üzvlərinin hamısını tutmuş olsa, ehtiyat-vacibə .görə gərək cəbirə dəstəmazı alıb təyəmmüm də etsin

Məsələ: ۳۳۸. Əgər bir şəxsin əlinin içində və barmaqlarında cəbirə olsa, dəstəmaz alan zaman yaş əl ilə onun üstünə çəkibsə, gərək başına və ayaqlarına da həmin rütubətlə .məsh etsin. Əgər əlin içi ilə məsh etmək mümkün deyilsə

Məsələ: ۳۳۹. Cəbirə ayağın üzərinin hamısını eninə əhatə etmiş olduğu halda barmaq tərəfindən və ayağın üst tərəfindən bir qədər açıq qalmışsa, açıq olan yerlərdə ayağın .üstünə və cəbirə olan yerlərdə cəbirənin üstünə məsh çəkməlidir

,Məsələ: ۳۴۰. Əgər üzdə və ya əllərdə bir neçə cəbirə olsa

gərək onların arasını yusun və əgər cəbirələr başda və ya ayaqların üstündədirsə, gərək onların arasına məsh çəksin və cəbirə olan yerlərdə isə cəbirə göstərişinə .uyğun əməl etsin

Məsələ: ۳۴۱. Cəbirə yaranın ətrafından normadan çox yeri tutsa və əziyyətsiz onu qaldırmaq mümkün olmasa, cəbirə təyəmmüm yerlərində deyilsə, təyəmmüm etməlidir. Əgər təyəmmüm yerindədirsə, həm təyəmmüm etməli, həm də dəstəmaz almalıdır. Hər iki halda əgər cəbirəni qoparmaq əziyyət vermirsə, gərək onu qoparsın. Deməli əgər cəbirə üz və qollardadırsa onun ətrafını yumalıdır; əgər başda və ya ayaqların üzərindədirsə, onun ətrafını məsh etməlidir. Yara olan yer üçünsə, cəbirə .hökmlərinə əməl etməlidir

Məsələ: ۳۴۲. Əgər dəstəmaz üzvlərində yara, kəsik və ya sınıq yoxdursa, amma başqa səbəbə görə su ona zərər verirsə, təyəmmüm etməlidir. Ehtiyat-müstəhəb budur ki, .cəbirə dəstəmazıda alsın

Məsələ: ۳۴۳. Dəstəmaz üzvlərindən bir yerin damarı zədələnmişsə və onu suya çəkə .bilmirsə, suyun onun üçün zərəri varsa, gərək cəbirə göstərişinə əməl etsin

Məsələ: ۳۴۴. Əgər dəstəmaz və qüsl yerlərinə qoparılması mümkün olmayan, yaxud qoparılması dözülməz dərəcədə məşəqqətli olsa, gərək cəbirə göstərişinə əməl etsin. .Ehtiyat-müstəhəbə əsasən təyəmmüm də etməlidir

Məsələ: ۳۴۵. Cəbirə qüslü, cəbirə dəstəmazı kimidir. Ehtiyat-vacib budur ki, onu tərtiblə .yerinə yetirsinlər

Məsələ: ۳۴۶. Vəzifəsi təyəmmüm etmək olan bir şəxsin təyəmmüm üzvlərinin bəzisində yara, çiban və ya sınıq olarsa cəbirə dəstəmazında açıqlanan qayda üzrə cəbirə .təyəmmümünü yerinə yetirməlidir

Məsələ: ۳۴۷. Əgər insan gözündə olan xəstəlik üçün gözünün kipriklərini yapışdırsa, .gərək cəbirə dəstəmazı və ya qüslü almalıdır. Ehtiyata əsasən təyəmmüm də etsin

Məsələ: ۳۴۸. Əgər insan gözündə olan xəstəlik üçün gözünün

kipriklərini yapışdırsa, gərək cəbirə dəstəmazı və ya qüslü almalıdır. Ehtiyata əsasən .təyəmmüm də etsin

Məsələ: ۳۴۹. Əgər bir şəxs vəzifəsinin təyəmmüm, yaxud cəbirə dəstəmaz olduğunu .bilmirsə, ehtiyat-vacibə görə gərək hər ikisini yerinə yetirsin

Məsələ: ۳۵۰. İnsanın cəbirə dəstəmazı ilə qıldığı namazları əgər vaxtın axırına qədər üzrü aradan qalxmasa səhihdir. Əgər vaxtın arasında üzrü aradan qalxsa yenidən dəstəmaz alması vacibdir. Əgər vaxt keçəndən sonra üzrü aradan qalxsa sonrakı .namazlar üçün gərək dəstəmaz alsın

VACİB QÜSLLƏR

:Vacib qüsllər yeddidir

.Cənabət qüslü .۱

.Heyz qüslü .۲

.Nifas qüslü .۳

.İstihazə qüslü .۴

.Məssi-meyyit qüslü .۵

.Meyyit qüslü .۶

.Nəzr, and içmə sair səbəblərlə vacib olan qüsllər .۷

CƏNABƏTİN HÖKMLƏRİ

:Məsələ: ۳۵۱. İnsan iki yolla cünub olur

;Cima (cinsi əlaqə) ilə .۱

Məninin xaric olması ilə; istər yuxuda olsun, istərsə ayıqlıqda, istər az olsun, istərsə .۲ .çox, istər şəhvətli olsun, istər şəhvətsiz, istər ixtiyari olsun, istər ixtiyarsız

Məsələ: ۳۵۲. Əgər insandan məni, ya sidik və ya başqa bir şey olduğunu bilməyən bir rütubət xaric olsa, belə ki, həmin rütubət şəhvətli və ya sıçrayaraq xaric olubsa, bu halda əgər xaric

olduqdan sonra bədəni süst olarsa, o rütubət məni hökmündədir. Əgər bu üç nişanədən heç biri və ya onlardan bəziləri onda olmasa, məni hökmündə deyildir. Amma xəstə adamda o rütubətin sıçrayaraq xaric olması lazım deyil; əgər şəhvətlə .xaric olsa və xaric olduğu zaman bədən süst olsa məni hökmünü daşıyır

Məsələ: ٣٥٣. Xəstə olmayan bir kişidən, əvvəlki məsələdə deyildiyi kimi üç nişanədən birinə aid olan bir su çıxsa və başqa nişanələrin də onda olub-olmadığını bilməsə, o suyun çıxmasından əvvəl dəstəmazlı olubsa, həmin dəstəmazla kifayətlənə bilər. Əgər dəstamazlı olmasa sidik üçündə istibra edibsə qüsül lazım deyil.Əgər dəstəmazı olubsa ona bir şey lazım deyil, dəstəmazı olmadığı təqdirdə isə təkcə dəstamaz alsın. Əgər istibra edibsə və xaric olan suyun sidik ya məni olduğunu bilirsə gərək ehtiyat edib .həm qüsl etsin həmdə dəstəmaz alsın

Məsələ: ٣٥٤. İnsanın, məni xaric olduqdan sonra bövl etməsi müstəhəbbdir. Bövl etmədiyi təqdirdə, qüsldən sonra ondan, məni və ya başqa rütubət olduğunu bilmədiyi .bir nəmlik xaric olarsa, həmin nəmlik məni hökmündədir

Məsələ: ٣٥٥. Əgər insan qadınla cinsi əlaqədə olarkən alət, sünnət olunan yerə qədər və ya çox daxil olsa, istər qabaqdan olsun, istərsə arxadan, istər həddi-büluğa çatsın, .istərsə çatmasın, məni xaric olmasa da, hər ikisi cünub olar

Məsələ: ٣٥٦. (Sünnət olunan miqdarda) daxil olub-olmadığında şəkk edən şəxsin qüsl .etməsi vacib deyil

Məsələ: ٣٥٧. Əgər (nəuzu billah!) heyvanla yaxınlıq etsə və məni də gəlsə, təkcə qüsl kifayətdir. Amma məni gəlməsə, bu halda vətydən əvvəl dəstəmazlı olsa, yenə də qüsl kifayətdir. Əgər dəstəmazlı olmasa ehtiyat-vacib budur ki, qüsl edib dəstəmaz da .alsın

Məsələ: ٣٥٨. Əgər məni öz yerindən hərəkət etsə, amma çölə gəlməsə; yaxud məninin .çölə gəlib-gəlməməsində şəkk etsə, qüsl vacib deyil

Məsələ: ٣٥٩. Qüsl edə bilməyən, amma təyəmmüm etməsi

.mümkün olan şəxs, namaz vaxtı daxil olduqdan sonra da əyalı ilə yaxınlıq edə bilər

Məsələ: ۳۶۰. Əgər bir şəxs öz paltarında məni görsə və onu, özündən olub, ondan ötrü qüsl etmədiyini bilərsə, qüsl etməlidir. Belə ki, o məninin gəlməsindən sonra qıldığına əmin olduğu namazları da qəza etməlidir. Amma məninin gəlməsindən qabaq qıldığına .ehtimal verdiyi namazları qəza etməsi lazım deyil

CÜNUB ŞƏXSƏ HARAM OLAN ŞEYLƏR

:Məsələ: ۳۶۱. Cünuba beş şey haramdır

Öz bədənindən hər hansı bir yeri Quranın yazısına və ya Allahın adına (hansı dildə.۱ olsa) toxundurmaq. Peyğəmbərlərin, İmamların və həzrət Zəhranın (əleyhimus-səlam) da adlarına toxundurmaması daha yaxşıdır.

Məscidul-hərama və Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) məscidinə.۲ .girmək. Bir qapıdan daxil olub, digər qapıdan xaric olsa belə

Başqa məscidlərdə dayanmaq amma bir qapıdan daxil olub başqa qapıdan xaric olsa.۳ və ya bir şeyi götürməyə görə getsə heç bir maneəsi yoxdur. Ehtiyat-vacibə əsasən .İmamların (əleyhimus-səlam) hərəmlərində dayanmaq da haramdır

.Bir şeyi məscidə qoymaq.۴

:Vacib səcdəsi olan ayələri oxumaq. Onlar bu dörd surədən ibarətdidir.۵

;ci «Səcdə» surəsi-۳۲

;ci «Fussilət» surəsi-۴۱

;cü «Nəcm» surəsi-۵۳

.cı «Ələq» surəsi-۹۶

Bu dörd surənin bir hərfi olsa belə oxumaq haramdır. Əgər bismillahı bu surələrin .bismillahı niyyəti ilə desə haramdır

CÜNUB ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR

:Məsələ: ٣۶٢. Doqquz şey cünub şəxsə məkruhdur

Yemək-içmək. Lakin əllərini və ya üzünü yusa və məz-məzə edərsə (ağızı su ilə .١-٢ .yaxalasa), məkruh deyil. Əgər yalnız əllərini yusa kərahəti azdır

.Quranın vacib səcdəsi olmayan surələrdən yeddi ayədən artıq oxumaq.٣

Bədənindən hər hansı bir yerini Quranın cildinə, haşiyəsinə və ya yazılarının arasına .۴ .toxundurmaq

.Quranı özü ilə gəzdirmək.۵

Yatmaq; amma dəstəmaz alsa, yaxud suyun olmamasına görə qüslün əvəzinə .۶ .təyəmmüm etsə, məkruh deyil

.Həna və buna bənzər şeylərə boyanmaq.٧

.Bədənə yağ çəkmək.٨

.Möhtəlim olandan (yəni yuxuda məni xaric olandan) sonra cinsi əlaqədə olmaq.٩

CƏNABƏT QÜSLÜ

Məsələ: ٣۶٣. Cənabət qüslü öz-özlüyündə müstəhəbdir, amma vacibi namazlar və s. kimi işlər üçün vacibdir. Amma meyyit namazı, şükr səcdəsi və Quranın vacibi .səcdələri üçün cənabət qüslü lazım deyil

Məsələ: ٣۶۴. Qüsl edərkən vacib qüsl edəcəyini niyyət etməsi lazım deyil. Yalnız qürbət qəsdi ilə, yəni Allahın dərgahında bəndəçilik və Onun əmrini yerinə yetirməkdən ötrü .qüsl edərsə, kifayətdir

Məsələ: ٣۶۵. Namaz vaxtının daxil olduğuna əmin olub, vacib qüsl niyyəti edərək qüsl .edər və sonra namaz vaxtından əvvəl qüsl etdiyini bilərsə, qüslü səhihdir

.Məsələ: ٣۶۶. Cənabət qüslü, tərtibi və irtimasi olaraq iki şəkildə yerinə yetirilir

TƏRTİBİ QÜSL

Məsələ: ٣٦٧. Tərtibi qüsldə, gərək qüsl niyyəti ilə, əvvəlcə başı və boynu, sonra bədənin sağ tərəfini, daha sonra isə sol tərəfini yumaq lazımdır. Əgər bir şəxs bilərəkdən, yaxud unutqanlıq və ya məsələni bilməməzlik üzündən bu tərtibə riayət etməsə, qüslü .batildir

Məsələ: ٣٦٨. Göbək və övrətin bir yarısını bədənin sağ tərəfi ilə, o biri yarısını isə sol tərəfi ilə yumaq lazımdır. Daha yaxşı olar ki, göbəyin və övrəti bütünlüklə hər iki tərəflə .yusun

Məsələ: ٣٦٩. Bədənin üç hissəsini, yəni baş və boyun, sağ tərəf və sol tərəfini tamamilə qüsl etməsini yəqin etmək üçün, hər tərəfi yuyanda, başqa tərəfdən də bir miqdarını yusun. Hətta ehtiyat-müstəhəb budur ki, boyunun bütün sağ tərəfini, bədənin sağ .tərəfi ilə, sol tərəfini isə bədənin sol tərəfi ilə yusun

Məsələ: ٣٧٠. Əgər qüsl alandan sonra bədəninin hər hansı bir yerinin yuyulmadığını başa düşsə, amma bədəninin hansı yerinin yuyulmadığını bilməsə, gərək yenidən qüsl .etsin

Məsələ: ٣٧١. Əgər qüsldən sonra bədənin bir hissəsinin yuyulmadığını başa düşsə, bu halda; yuyulmayan sol tərəfdən olsa, həmin miqdarı yumaq kifayətdir. Amma sağ tərəfdən olsa o miqdarı yuduqdan sonra yenidən sol tərəfi yumalıdır. Əgər baş və boyun tərəfdən qalmış olsa, həmin miqdarı yuduqdan sonra, yenidən bədənin sağ .tərəfini və sonra sol tərəfini yumalıdır

Məsələ: ٣٧٢. Əgər qüsl qurtarmamışdan qabaq, sol tərəfin bir hissəsinin yuyulub-yuyulmamasında şəkk etsə, həmin miqdarı yumaq kifayətdir. Amma sağ tərəfin bir hissəsinində şəkk etsə, ehtiyat-vacibə görə həmin miqdarı yuyandan sonra gərək sol tərəfi də yusun. Əgər bir üzvü yuyarkən qabakı əzaların birinin yuyulub-.yuyulmamasında şəkk etsə, şəkkinə əhəmiyyət verib həmən üzvü yusun

İRTİMASİ QÜSL

Məsələ: ٣٧٣. İrtimasi qüsldə gərək su bir anda (suya daxıl olmaq tədrici və ya bir dəfəlik olmasına baxmayaraq) bədənin hər yerini əhatə etsin. Deməli, əgər irtimasi qüsl niyyəti ilə suya daxil olsa, onun ayağı yerdə olduğu təqdirdə, gərək ayağını yerdən .qaldırsın

Məsələ: ٣٧۴. İrtimasi qüsldə niyyət edəndə bədənin bir miqdarı sudan qıraqda olması .vacib deyil

Məsələ: ٣٧۵. İrtimasi qüsldən sonra bədənin bir miqdarına su dəymədiyini bilərsə, istər .onun yerini bilsin, istərsə də bilməsin, yenidən qüsl etməlidir

Məsələ: ٣٧۶. Əgər tərtibi qüsl etməyə vaxtı olmasa, irtimasi qüsl üçün vaxtı varsa, .irtimasi qüsl etməlidir

Məsələ: ٣٧٧. Həcc və ya ümrə üçün ehram bağlayan şəxs irtimasi qüsl edə bilməz, .amma əgər unudaraq irtimasi qüsl edərsə, qüslü səhihdir

QÜSLÜN HÖKMLƏRİ

Məsələ: ٣٧٨. İrtimasi qüsldə bədənin hər yeri pak olmalıdır. Amma tərtibi qüsldə bədənin hamısının pak olması lazım deyil. Hər hissəni qüsl etməmişdən qabaq suya .çəksə, kifayətdir

Məsələ: ٣٧٩. Haram yolla cünub olan şəxs isti su ilə qüsl etmək istəsə tərləyəcək. Onun təri ehtiyat-vacibə görə nəcis olduğuna görə gərək soyuq su ilə qüsl etsin. Əgər soyuq su tapmasa və yaxud onun üçün zərəri olsa, sudan xaricdə tərtibi qüsl edə bilməzsə, bütün bədən suyun altında olduqdan sonra, tərtibi qüsl etsin. Əvvəl baş və boyun niyyəti ilə bədəni hərəkət etditsin, sonra sağ tərəf niyyəti ilə və ondan sonra sol tərəf .niyyəti ilə bədəni hərəkət etdirsin, qüslü səhihdir

Məsələ: ٣٨٠. Əgər qüsldə, bədənin bir yerində tükün ucu qədər yuyulmamış yer qalsa, əgər irtimasidirsə, qüslu batildir. Əgər

tərtibi qüsl olsa, yuyulmamış yeri yumaq lazımdır. Həmçinin bədənin ondan sonra yuyulacaq yerlərini yumaq lazımdır. Amma bədənin görünməyən yerlərini və ya bədənin batini üzvlərindən sayılan, qulağın, burnun və gözün içi, kimi yerləri yumaq .vacib deyil

Məsələ: ۳۸۱. Bədənin zahirindən və ya batinindən olmasında şəkk edilən yeri ehtiyat-.vacibə görə yumalıdır

Məsələ: ۳۸۲. Əgər sırğanın dəliyi və s. kimi yerlər çox geniş olub daxili görünsə və .bədənin zahiri hesab olunsa, gərək onu yusun. Əks halda yuyulması lazım deyildir

Məsələ: ۳۸۳. Suyun bədənə çatmasına mane olan şeylər gərək aradan qaldırılsın. Əgər .aradan qaldırılmasına yəqin və əminlik hasil etmədən qüsl etsə, qüslü batildir

Məsələ: ۳۸۴. Qüsl edərkən bədənində suyun bədənə çatmasına maneə olan şeyin olub-olmadığına ağıl kəsən ehtimal versə, gərək axtarış aparıb maneənin olmadığına .əmin olsun

Məsələ: ۳۸۵. Qüsl edərkən bədənin bir üzvindən sayılan qısa tüklər yuyulmalıdır, amma uzun tüklərin yuyulması vacib deyildir. Hətta əgər onları islatmadan belə suyu bədənin dərisinə çatdırarsa qüslü səhihdir. Amma əgər onları yumadan bədəninin dərisinə .suyu çatdırmaq mümkün deyilsə, suyu bədənə çatdırmaq üçün onları yumalıdır

Məsələ: ۳۸۶. Dəstəmazın səhih olması üçün qeyd olunan bütün şərtlər (suyun pak olması, qəsbi olmaması) qüslün də səhih olmasında şərtdir. Amma qüsldə bədəni yuxarıdan aşağı yumaq vacib deyil, kifayət edəcək şəkildə yuyulmalıdır. Həmçinin tərtibi qüsldə, hər üç qisməti yuyandan sonra, növbəti hissəni dərhal yumaq lazım deyil. Baş və boyunu yuduqdan sonra bir az gözləyib sonra sağ tərəfi yusa, sonra .müəyyən fasilədən sonra sol tərəfi yusa, eybi yoxdur

Məsələ: ۳۸۷. Hamamçının razı olub-olmadığını bilmədən hamamda nisyə yuyunmaq .niyyətində olan şəxsin qüslü, sonradan hamamçını razı salsa belə, batildir

Məsələ: ٣٨٨. Əgər hamamçı nisyə qüsül etməyə razı olsa, amma qüsl edən şəxsin məqsədi əvvəldən onun pulunu verməmək, yaxud haram puldan vermək olsa, qüslu .(işkallıdır (batildir

Məsələ: ٣٨٩. Əgər hamamçıya haram, yaxud xümsü verilməyən puldan vermək istəsə, .(əgər xümsdə şəri zəminliyə əməl etməsə) qüslü batildir

Məsələ: ٣٩٠. Əgər qaitin məxrəcini hamamın ambarının suyu ilə paklayıb sonra, qüsldən qabaq hamamın suyundan pakladığı üçün hamamçının onun qüsl etməsinə razı olub-olmamasında şəkk etsə, onun qüslü batildir. Amma, qüsl almamışdan qabaq .hamamçını razı etsə, batil olmaz

Məsələ: ٣٩١. Qüsl edib-etmədiyində şəkk edən şəxs, qüsl etməlidir. Amma qüsldən sonra etdiyi qüslün səhih olub-olmadığında şəkk edərsə, yenidən qüsl etməsi lazım .deyil

Məsələ: ٣٩٢. Əgər qüsl əsnasında insandan kiçik hədəs baş versə; məsələn: bövl etsə, o qüslü tərk edib yenidən qüsl etsin dəstəmaz da alsın.Yaxud o, qüslü tamamlayıb ikinci dəfə ehtiyat-vacibə görə tamam və ya itmam niyyəti qüsl etsin sonra dəstəmaz da alsın. Ehtiyat budur ki, ikinci qüslü birinci verdiyi qüsl kimi (yəni tərtibi və irtimasi .olmaqda) yerinə yetirsin

Məsələ: ٣٩٣. Əgər qüsl və namaz üçün lazımi qədər vaxtın olduğunu güman edib, .namaz üçün qüsl etsə, qüslü səhihdir

Məsələ: ٣٩٤. Cünub olan şəxs qusl edib-etməməsi barədə şəkk etsə, qıldığı namazlar .səhihdir. Amma gərək sonrakı namazlar üçün qüsl etsin

Məsələ: ٣٩٥. Boynunda bir neçə vacibi qüsl olan bir şəxs onların hamısının niyyəti ilə bir qüsl ala bilər. Əgər onlardan biri cənabət qüslü olsa cənabəti təkcə niyyət etsə kifayətdir və dəstamaz da lazım deyil. Əgər cənabət qüslündən başqasın da niyyət .etsə kifayətdir amma ehtyata görə dəstamaz da alsın

Məsələ: ٣٩٦. Cünub olan bir şəxsin bədəninin müəyyən yerində Quran ayəsi və ya Allah-təalanın adı yazılmış olsa, ehtiyat-vacibə görə mümkündürsə onu aradan

qaldırsın. Əgər aradan qaldırmaq

səh: ۷۲

mümkün deyilsə gərək qüsl və dəstəmazı irtimasi yerinə yetirsin. Əgər qüsl və dəstəmazı tərtibi yerinə yetirmək istəyərsə gərək suyu bəbənə elə çatdırsın ki, əli .yazılara dəyməsin

Məsələ: ۳۹۷. Cənabət qüslü alan bir şəxs, namaz üçün gərək dəstəmaz almasın. Amma .başqa qüsllər ilə namaz qılmaq olmaz gərək dəstəmaz da alınsın

İSTİHAZƏ

Point

Qadından xaric olan qanlardan biri də istihazə qanıdır. İstihazə qanı görən qadına .müstəhazə deyilir

Məsələ: ۳۹۸. Əksər vaxtlarda istihazə qanı sarı rəngdə və soyuq olur, təzyiqsiz, yandırıcı olmadan xaricə gəlir və qatı olmur. Amma bəzən qara, qırmızı və qatı olması, .təzyiqlə və yandırıcı halda da xaric olması mümkündür

:Məsələ: ۳۹۹. İstihazə üç qismdir

.(Qəlilə (az -۱

.(Mütəvəssitə (orta -۲

.(Kəsirə (çox -۳

Qəlilə istihazə budur ki, qan, qadının övrətinin daxilinə qoyduğu pambığın bir .tərəfindən keçib o biri tərəfində zahir olmasın

Mütəvəssitə istihazə odur ki, qan qadının övrətinə qoyduğu pambığa hopub o biri tərəfindən zahir olsun. Amma qadınların, adətən, qanaxmanın qarşısını almaq üçün .qoyduqları dəsmala çatmasın

.Kəsirə istihazə budur ki, qan ora qoyulan pambıqdan keçib dəsmala da çatsın

İSTİHAZƏNİN HÖKMLƏRİ

Məsələ: ۴۰۰. Qəlilə istihazədə qadın, hər namaz üçün bir dəstəmaz almalıdır. Pambığı

suya çəkməsi və ya dəyişdirməsi

.ehtiyat-müstəhəbbdir. Amma fərcin zahirinə qan yetişibsə, suya çəkməlidir

Məsələ: ۴۰۱. Mütəvəssitə istihazədə gərək qadın sübh namazından qabaq qüsl etsin. Amma mütəvəssitə istihazədə sübh namazından qabaq qüsl etsə, sonrakı günün sübhünə qədər hər namaz üçün (əvvəlki məsələdə deyilən) qəlilə istihazənin əməllərini yerinə yetirməlidir. Amma bilərəkdən, yaxud unutqanlıq üzündən sübh namazı üçün qüsl etməsə, zöhr və əsr namazları üçün qüsl etməlidir. Əgər onun üçün də qüsl etməsə, gərək məğrib və işa namazlarından qabaq qüsl edsin; İstər qan gəlsin ya kəsilmiş olsun. Qüsülsız qıldığı namazları gərək qüsl edib və dəstamaz alıb yenidən .qılsın

Məsələ: ۴۰۲. Kəsirə istihazədə, (əvvəlki məsələdə deyilən) mütəvəssitə istihazənin əməllərindən əlavə, hər namaz üçün övrətinə qoyduğu dəsmalı dəyişməli, yaxud suya çəkməlidir. Sonra bir qüsl zöhr və əsr namazları üçün, bir qüsl da məğrib və işa namazları üçün etməli, zöhr və əsr namazları arasında fasilə salmamalıdır. Əgər fasilə salsa, gərək əsr namazı üçün də yenidən qüsl etsin. Həmçinin, əgər məğrib və işa .namazları arasında fasilə salsa, gərək işa namazı üçün yenidən qüsl etsin

Məsələ: ۴۰۳. İstihazə qanı namaz vaxtından əvvəl gəlmişdirsə, belə ki, qadın o qan üçün dəstəmaz almamış və qüsl etməmişdirsə, namaz vaxtı dəstəmaz almalı və qüsl .etməlidir

Məsələ: ۴۰۴. Dəstəmaz və qüsl almağın vacib olduğu mütəvəssitə və kəsirə qanı olan qadın, qüsl və dəstəmazdan hər hansını əvvəl yerinə yetirsə səhihdir. Amma daha .yaxşı olar ki, əvvəl dəstəmaz alsın

Məsələ: ۴۰۵. Əgər qadının qəlilə istihazə qanı sübh namazından sonra mütəvəssitəyə çevrilsə, bu halda zöhr və əsr namazı üçün qüsl etməlidir; və əgər zöhr və əsr namazından sonra qəlilə mütəvəssitəyə çevrilsə, məğrib və işa namazları üçün qüsl .etməlidir

Məsələ: ۴۰۶. Əgər qadının qəlilə və yaxud mütəvəssitə

istihazəsi sübh namazından sonra kəsirə olsa, gərək zöhr və əsr namazları üçün bir qüsl, məğrib və işa namazı üçün başqa bir qüsl almalıdır. Əgər zöhr və əsr namazından .sonra kəsirə olsa, gərək məğrib və işa namazı üçün qüsl etsin

Məsələ: ۴۰۷. Kəsirə və ya mütəvəssitə qanı olan qadın, əgər vaxtın daxil olmasından əvvəl namaz üçün qüsl etsə, onun qüslü batildir. Hətta əgər sübh namazının vaxtına yaxın olan vaxtlarda gecə namazı üçün qüsl edib, gecə namazı qılsa vaxt daxil olandan .sonra sübh namazı üçün ehtiyat-vacibə əsasən qüsl etsin

Məsələ: ۴۰۸. Müstəhazə qadın, gündəlik namazlardan başqa ki hökmü keçdi, istər vacib olsun, istərsə də müstəhəb, gərək hər namaz üçün dəstəmaz alsın. Həmçinin qıldığı namazı ehtiyatən yenidən, yaxud təklikdə qıldığı namazı yenidən camaatla qılmaq istəsə, gərək istihazədə deyilən bütün əməlləri yerinə yetirsin. Amma ehtiyat namazı, unudulmuş səcdə və təşəhhüdü, həmçinin səcdeyi-səhvi yerinə yetirmək üçün, əgər .onları namazdan sonra dərhal yerinə yetirsə, istihazə işlərini təkrarlaması lazım deyil

Məsələ: ۴۰۹. Müstəhazə qadın, qanı dayandıqdan sonra qılacağı ilk namaz üçün .iztihazənin işlərini yerinə yetirməlidir. Sonrakı namazlar üçün isə lazım deyil

Məsələ: ۴۱۰. Əgər bir qadın istihazəsinin hansı növdən olduğunu bilməsə, namaz qılmaq istədiyi vaxt, bir miqdar pambığı öz övrətinin daxilinə qoyub bir az gözlədikdən sonra çıxardıb istihazənin üç növdən hansının olduğunu bilməli, sonra həmin növün göstərişlərə əsasən əməl edilməlidir. Amma namaz qıldığı vaxtda istihazəsinin .dəyişilməyəcəyini bilsə, vaxt daxil olmamışdan əvvəl də özünü yoxlaya bilər

Məsələ: ۴۱۱. Əgər müstəhazə qadın, özünü yoxlamadan namaza başlasa, bu halda qürbət qəsdi olsa və öz vəzifəsinə əməl etsə; məsələn: istihazəsi qəlilə olsa və qəlilə istihazənin göstərişlərinə əməl etsə, namazı səhihdir. Amma qürbət qəsdi olmasa, yaxud əməli öz vəzifəsinə müvafiq olmasa; məsələn: onun qanı mütəvəssitə olduğu halda qəlilə istihazə göstərişlərinə

.əməl etsə, onun namazı batildir

Məsələ: ۴۱۲. Əgər müstəhazə qadın özünü yoxlaya bilməsə, gərək məlum olan vəzifəsinə əməl etsin; məsələn: əgər istihazəsinin qəlilə, yaxud mütəvəssitə olmasını bilməsə, gərək qəlilə istihazəsinin işlərini yerinə yetirsin. Əgər mütəvəssitə istihazəsinin işlərini yerinə yetirsə daha yaxşıdır. Əgər mütəvəssitə və ya kəsirə olduğunu bilməsə, gərək mütəvəssitə istihazəsinin işlərini yerinə yetirsin. Əgər kəsirə istihazəsinin işlərini yerinə yetirsə daha yaxşıdır. Amma qabaqcadan bu üç növdən .hansının olduğunu bilsə, gərək onun vəzifəsinə uyğun əməl etsin

Məsələ: ۴۱۳. Əgər istihazə qanı fərcin daxilində olsa və ya çölə çıxsa, az olmasına .baxmayaraq dəstəmaz və qüsl batil olur. Amma birincisində ehtiyat-vacibə əsasəndir

Məsələ: ۴۱۴. Əgər müstəhazə qadın namazdan sonra özünü yoxlayıb qan görməsə, .ikinci dəfə qan gələcəyini bilsə də, aldığı dəstəmaz ilə namazı qıla bilər

Məsələ: ۴۱۵. Əgər müstəhazə qadın dəstəmaz, yaxud qüsl almağa başladığı vaxtdan .etibarən qanın çölə və ya fərcin daxilinə gəlməyəcəyini bilsə, namazı təxirə sala bilər

Məsələ: ۴۱۶. Əgər müstəhazə qadın, namazın vaxtının keçməmişdən əvvəl tamamilə paklanacağını, yaxud namaz müddətində qanın dayanacağını bilsə, bu halda .gözləməli, namazını pak olduğu vaxtda qılmalıdır

Məsələ: ۴۱۷. Əgər dəstəmaz və qüsldən sonra zahirdə qan dayanarsa və müstəhazə qadın, namazı təxirə salacağı halda dəstəmaz, qüsl və namazı yerinə yetirə biləcəyi müddətdə tamami ilə paklanacağını bilsə, gərək namazını təxirə salsın, tamamilə paklandıqdan sonra yenidən dəstəmaz, qüsl alıb namazını qılsın. Amma namazın vaxtı az olsa, dəstəmazı və qüslü yenidən təkrarlaması lazım deyil, əvvəlki qüsl və .dəstəmazı ilə namazı qılsın

,Məsələ: ۴۱۸. Kəsirə və mütəvəssitə istihazəsi olan qadın

qandan tamamilə paklandıqda, gərək qüsl etsin. Amma qabaqkı namaz üçün, qüsl .etdiyi vaxtdan ondan qan gəlmədiyini bilsə, yenidən qüsl alması lazım deyil

Məsələ: ۴۱۹. Qəlilə istihazəsi olan qadın, dəstəmazdan sonra, kəsirə və mütəvəssitə istihazəsi olan qadın isə qüsl və dəstəmazdan sonra, gərək dərhal namaza başlasın. Amma, azanı və iqaməni deməyin və namazdan əvvəl olan duaları oxumağın eybi .yoxdur. Namazda da qunut və s. kimi müstəhəb işləri yerinə yetirə bilər

Məsələ: ۴۲۰. Əgər müstəhazə qadın, qüsl və namaz arasında fasilə salsa, gərək .vəzifəsinə uyğun olaraq yenidən qüsl edib fasiləsiz namaza məşğul olsun

Məsələ: ۴۲۱. Əgər istihazə qadının qanı axsa və dayanmasa, bu halda zərəri olmazsa, gərək qüsldən qabaq və ondan sonra pambıq vasitəsilə qanın axmasının qarşısını alsın. Amma həmişə axmasa, yalnız dəstəmaz və qüsldən sonra qanın qabağını almalıdır. Əgər etinasızlıq etsə və qan xaric olsa, yenidən qüsl etməli və dəstəmaz da .almalıdır. Namazı da qılmış olsa gərək yenidən qılsın

Məsələ: ۴۲۲. Əgər qüsl aldığı vaxtda qan dayanmasa, qüslü səhihdir. Amma qüsl .əsnasında, mütəvəssitə istihazə kəsirəyə çevrilsə, vacibdir ki, qüslü yenidən başlasın

Məsələ: ۴۲۳. Ehtiyat-vacib budur ki, istihazəsi olan qadın oruc olduğu bütün gün .ərzində mümkün qədər qanın çölə gəlməsinin qarşısını alsın

Məsələ: ۴۲۴. Qüslün ona vacib olduğu müstəhazə qadının orucu, o vaxt səhihdir ki, gündəlik namazlar üçün vacib olan qüslləri gün ərzində yerinə yetirsin. Həmçinin mütəvəssitə istihazəsi olan qadın orucu o vaxat səhihdir ki, sübh vaxtının qüslünü etsin. Hər iki surətdə ehtiyat-vacib budur ki, keçən gecənin qüsüllərini yerinə yetirmiş .olsun

Məsələ: ۴۲۵. Əgər əsr namazından sonra müstəhazə olsa və qüruba qədər qüsl .etməsə, orucu səhihdir

Məsələ: ۴۲۶. Əgər qadının qəlilə istihazəsi, namazdan əvvəl

mütəvəssitə və ya kəsirəyə çevrilsə, gərək mütəvəssitənin və ya kəsirənin qeyd olunan əməllərini yerinə yetirsin. Əgər mütəvəssitə istihazə kəsirəyə çevrilsə, gərək kəsirə istihazənin əməllərinin yerinə yetirməlidir. Əgər mütəvəssitə istihazəsi üçün .qüsl almış olsa, faydası yoxdur; gərək kəsirə istihazə üçün yenidən qüsl alsın

Məsələ: ۴۲۷. Əgər namaz əsnasında qadının mütəvəssitə istihazəsi kəsirəyə çevrilsə, namazı pozmalı, kəsirə istihazəsi üçün qüsl edib dəstəmaz almalı və onun sair işlərini yerinə yetirib həmin namazı qılmalıdır. Əgər qüsl və dəstəmazdan heç biri üçün vaxt olmasa, gərək iki təyəmmüm etsin; biri qüsl əvəzində, digəri isə dəstəmaz əvəzində. Əgər bunlardan biri üçün vaxt olmasa, gərək onun əvəzində təyəmmüm etsin, digərini də yerinə yetirsin. Amma təyəmmüm üçün də vaxt olmasa, namazı poza bilməz; gərək namazı tamam etsin, ehtiyat-vacibə görə qəzasını qılsın. Həmçinin əgər namaz əsnasında onun qəlilə istihazəsi mütəvəssitəyə, yaxud kəsirəyə çevrilsə, (bu qaydaya .(əməl etsin

Məsələ: ۴۲۸. Əgər namaz əsnasında istihazəsi olan qadının qanı dayansa və onun batinində də dayanıb-dayanmadığını bilməsə, bu halda namazdan sonra (batinində .də) dayandığını bilsə, gərək dəstəmaz, qüsl və namazı yenidən yerinə yetirsin

Məsələ: ۴۲۹. Əgər kəsirə istihazəsi olan qadının qanı, mütəvəssitəyə çevrilsə, bu halda birinci namaz üçün kəsirə, sonrakı namazlar üçün isə mütəvəssitə istihazənin əməllərini yerinə yetirməlidir; məsələn: əgər zöhr namazından qabaq kəsirə, mütəvəssitəyə çevrilsə, bu halda gərək zöhr namazı üçün qüsl etsin. Əsr, məğrib və işa namazları üçün yalnız dəstəmaz alsın. Amma zöhr namazı üçün qüsl etməsə və təkcə əsr namazı qılmaq miqdarında vaxt qalsa, gərək əsr namazı üçün qüsl etsin. Əgər əsr namazı üçün də qüsl etməsə, gərək məğrib namazı üçün qüsl etsin. Onun üçün də qüsl etməsə və təkcə işa namazı miqdarında vaxt qalsa, gərək işa namazı .üçün qüsl etsin

Məsələ: ۴۳۰. Əgər hər namazdan qabaq kəsirə müstəhazənin qanı dayanıb yenidən .gəlsə, gərək hər namaz üçün bir qüsl etsin

Məsələ: ۴۳۱. Əgər kəsirə istihazə qəliləyə çevrilsə, gərək birinci namaz üçün kəsirə, sonrakı namazlar üçün qəlilə istihazəsi əməllərini, yerinə yetirsin. Həmçinin əgər mütəvəssitə istihazə qəliləyə çevrilsə, gərək birinci namaz üçün mütəvəssitə, sonrakı .namazlar üçün isə, qəlilə istihazəsi əməllərini yerinə yetirsin

Məsələ: ۴۳۲. Əgər istihazəli qadın, ona vacib olan əməllərdən hər hansı birini, hətta .pambığı dəyişməyi tərk etsə, namazı batildir

Məsələ: ۴۳۳. Qəlilə istihazəsi olan qadın, namazdan başqa, dəstəmazla şərtlənən bir iş görmək istəsə; məsələn: bədəninin hər hansı yerini, Quranın yazısına vurmaq istəsə) .namaz üçün dəstəmaz almış olsa belə, kifayət etmir

Məsələ: ۴۳۴. Əgər istihazəsi olan qadın özünə vacib olan qüslləri yerinə yetirsə, məscidə getmək, orada dayanmaq, vacibi səcdəsi olan surələri oxumaq, əri ilə yaxınlıq etmək və s. kimi işlər hətta namaz üçün vacib olan sair əməlləri (dəstəmaz almaq, .pambığı dəyişmək və dəsmal qoymaq kimi) yerinə yetirməmiş olsa da, ona halal olur

Məsələ: ۴۳۵. Əgər kəsirə və ya mütəvəssitə istihazəsi olan qadın, namaz vaxtından qabaq, səcdyi-vacib olan Surəni oxumaq və ya məscidə getmək istəsə, ehtiyat-vacibə .görə gərək qüsl etsin. Əgər əri onunla yaxınlıq etmək istəsə, eyni qayda ilə

Məsələ: ۴۳۶. Ayət namazı, müstəhazə qadına vacibdir və gərək ayət namazı üçün də, .gündəlik namaz üçün vacib olan əməlləri yerinə yetirsin

Məsələ: ۴۳۷. Gündəlik namazı vaxtında, müstəhazə qadına ayət namazı vacib olsa, əgər hər ikisini bir-birinin ardınca qılmaq istəsə, ehtiyat-vacib budur ki, gərək ayət namazı üçün də, gündəlik namazı üçün vacib olan əməllərin hamısını yerinə yetirsin. .Hər iki namazı bir qüsl və dəstəmazla yerinə yetirə bilməz

Məsələ: ۴۳۸. Ehtiyat-müstəhəb budur ki, müstəhazə qadın qəza namazı qılmasın amma qılmaq istəsə, gərək hər namaz üçün əda namazında vacib olan əməlləri yerinə yetirsin. Ehtiyat-vacib budur

.ki, hər ikisini bir qüsl və dəstəmazla yerinə yetirməsin

Məsələ: ۴۳۹. Əgər qadın özündən gələn qanın yara qanı olmadığını bilirsə və istihazə, heyz, yaxud nifas qanı olduğuna ehtimal verirsə, bu surətdə əgər o qan şəri baxımdan heyz və nifas qanının hökmünü daşımasa, həmin qadın istihazə hökmünə əməl etməlidir. Hətta əgər istihazə qanı və ya digər qanlar olduğunda şəkk edərsə, onların .nişanəsini daşımırsa, ehtiyat-vacibə əsasən, istihazənin əməllərini yerinə yetirməlidir

HEYZ

Point

Heyz, əksər halda, hər ayda, bir neçə gün müddətində, qadınların rəhimindən xaric .olan bir qandır. Qadın heyz qanı gördüyü zaman, haiz adlanır

Məsələ: ۴۴۰. Heyz qanı əksər hallarda qəliz və istidir, rəngi qara yaxud qırmızıdır. .Təzyiqlə və azacıq yandırıcılıqla xaric olur

Məsələ: ۴۴۱. Seyidə (Qüreyşiyyə) olan qadınların altmış, seyidə (Qüreyşiyyə) olmayan .qadınlar isə əlli yaşları tamam olduqdan sonra yaisə olurlar, yəni heyz qanı görmürlər

Məsələ: ۴۴۲. Qızın (hicri-qəməri tarixilə) doqquz yaşı tamam olmamışdan əvvəl və .qadının yaisə olduqdan sonra gördüyü qan heyz deyildir

Məsələ: ۴۴۳. Hamilə və uşağa süd verən qadınların da heyz qanı görmələri .mümkündür

Məsələ: ۴۴۴. Doqquz yaşının tamam olub-olmamasını bilməyən bir qız uşağı, heyzin əlamətləri olmayan qan görsə, heyz deyildir. Əgər heyzin nişanələri onda olsa, heyzdir .və onun doqquz yaşının başa çatdığı məlum olur

Məsələ: ۴۴۵. Altmış yaşı olub-olmamasında şəkk edən bir qadın, əgər qan görsə və o qanın heyz olub-olmadığını bilməsə, altmış yaşının tamamlanmadığını əsas .götürməlidir

Məsələ: ۴۴۶. Heyzin müddəti üç gündən az və on gündən çox olmur. Üç gündən azacıq

.az olsa da belə heyz deyildir

Məsələ: ۴۴۷. Heyzin əvvəlinci üç günü ardıcıl olmalıdır. Deməli, əgər məsələn; iki gün .qan görüb, bir gün pak olursa və yenidən bir gün qan görürsə, heyz deyildir

Məsələ: ۴۴۸. Tamam üç gün ərzində qanın çölə gəlməsi lazım deyil; Fərcin daxilində qan olsa kifayətdir. Əgər üç gün ərzində, azacıq pak olsa belə ki, üç gün ərzində .fərcində qan olubdur desələr heyzdir

Məsələ: ۴۴۹. Birinci və dördüncü gecədə qan görməsi lazım deyil. Amma ikinci və üçüncü gecələrdə qan dayanmamalıdır. Deməli, əgər birinci günün sübh azanından üçüncü günün qürubunadək ardıcıl olaraq qan gəlsə; yaxud birinci günün ortalarında başlayıb dördüncü günün həmin vaxtında dayansa və ikinci və üçüncü günün .gecələrində heç dayanmasa, heyzdir

Məsələ: ۴۵۰. Əgər üç gün ardıcıl olaraq qan görüb sonra pak olsa və yenidən qan görsə, bu halda qan gördüyü və arada pak olduğu günlər üst-üstə on günü keçməsə, .daha üstün nəzərə əsasən arada pak olduğu günlərdə də heyzdir

Məsələ: ۴۵۱. Əgər qadın, müddəti üç gündən artıq və on gündən az olan qan görüb o qanın çiban və ya yara yaxud heyz qanı olduğunu bilməsə, qan gəlməmişdən qabaq pak idisə paklığı əsas götürməlidir. Əgər qan gələndən qabaqkı vəziyyəti məlum .olmasa ehtiyat-vacib budur ki, haizin və qeyri-haizin əməllərini yerinə yetirsin

Məsələ: ۴۵۲. Əgər qadın heyz və ya bəkarət qanı olduğunu bilmədiyi bir qan görsə, özünü yoxlamalıdır: yəni fərcinə bir miqdar pambıq daxil edib, bir az gözlədikdən sonra çıxarmalıdır, əgər pambığın ətrafı bulaşmışdırsa, bəkarət qanıdır. Əgər qan onun hər .yerinə yetişibsə, heyz qanıdır

Məsələ: ۴۵۳. Əgər üç gündən az müddətdə qan görüb pak olsa və yenidən üç gündən sonra qan görsə, ikinci qan heyzdir. Birinci qan, adət günlərində olarsa hayizin tərk .etməli əməllərini tərk etsin və müstəhazənin əməllərini yerinə yetirsin

:Məsələ: ۴۵۴. Haiz qadına bir neçə şey haramdır

Dəstəmaz, qüsl, yaxud təyəmmüm ilə yerinə yetirilməli olan ibadətlər; amma-۱ dəstəmaz, qüsl və təyəmmüm lazım olmadığı ibadətləri (meyyit namazı kimi) yerinə .yetirməsinin eybi yoxdur

.(Cünub şəxsə haram olan bütün şeylər; (Cənabətin hökmlərində deyilib-۲

Fərc ilə (cinsiyyət üzvü ilə) cima etmək; həm kişi, həm də qadın üçün, hətta əgər-۳ dəllək kəsən yerə qədər daxil olsa və məni gəlməsə də, haramdır. Ehtiyat-vacib budur ki, dəllək kəsən yerdən az da daxil etməsin və haiz qadınla arxadan (anal dəliyindən) .yaxınlıq etmək işkallıdır

Məsələ: ۴۵۵. Qadının heyz olduğu qəti olaraq məlum olmadığı, amma şərən özünü heyzli hesab etməsi lazım olan günlərdə də, onunla cima etmək haramdır. O halda on gündən çox qan görən və sonradan açıqlanacaq göstərişlərə əməl edən qadın gərək öz qohumlarının adət günlərini özünə heyz qərar versin. Əri o günlərdə onunla yaxınlıq .edə bilməz

Məsələ: ۴۵۶. Əgər qadının heyz günləri üç qismə bölünsə və kişi onlardan birinci qismdə, öz qadını ilə öndən cima etsə, ehtiyat-müstəhəbə görə gərək on səkkiz noxud qızıl, fəqirə kəffarə versin. Əgər ikinci qismdə cima etsə, doqquz noxud qızıl, üçüncü qismdə cima etsə, gərək dörd noxud yarım qızıl, kəffarə versin; məsələn: altı gün heyz görən qadının əri, onun birinci və ikinci gecəsi və ya güdüzündə, onunla yaxınlıq etsə, gərək on səkkiz noxud qızıl versin. Üçüncü və ya dördüncü gecəsi və ya güdüzündə, yaxınlıq etsə doqquz noxud, beşinci və ya altıncı gecəsi və gündüzündə, gərək dörd .noxud yarım qızıl kəffarə versin

Məsələ: ۴۵۷. Ehtiyat-müstəhəbə görə heyz halında olan qadınla, arxadan yaxınlıq .etməyin də gərək kəffarəsini versin

Məsələ: ۴۵۸. Ehtiyat-müstəhəb budur ki, on səkkiz noxud

kəffarəni qızıl sikkə versin, əgər mümkün olmsa onun qiymətini başqa puldan verə .bilər

Məsələ: ۴۵۹. Əgər yaxınlıq etdiyi vaxtındakı qızılın qiyməti, kəffarəni fəqirə vermək .istədiyi vaxtla fərqlənsə, gərək fəqirə vermək istədiyi vaxtın qiyməti ilə hesab etsin

Məsələ: ۴۶۰. Əgər bir şəxs heyzin həm birinci, həm ikinci, həm də üçüncü qismində, öz qadını ilə yaxınlıq etsə, müstəhəbdir hər üç kəffarəni versin ki, bu da otuz bir noxud .yarıma bərabərdir

Məsələ: ۴۶۱. Əgər kişi heyz halında qadını ilə cima etsə və onun kəffarəsini verdikdən .sonra, yenidən cima etsə, müstəhəbdir yenə kəffarə versin

Məsələ: ۴۶۲. Əgər heyz halında olan qadını ilə bir neçə dəfə yaxınlıq etsə və onların arasında kəffarə verməsə, ehtiyat-müstəhəb budur ki, hər yaxınlıq üçün bir kəffarə .versin

Məsələ: ۴۶۳. Əgər kişi yaxınlıq halında qadının heyz olmasını başa düşsə, gərək dərhal .ondan ayrılsın. Əgər ayrılmasa, müstəhəbdir kəffarə versin

Məsələ: ۴۶۴. Əgər bir kişi heyz halında olan qadınla zina etsə və ya heyz halında olan naməhrəm qadınla, öz əyalı olduğunu güman edərək cima etsə, ehtiyat-müstəhəb .budur ki, kəffarə versin

Məsələ: ۴۶۵. Kəffarə verə bilməyən bir şəxs, ehtiyat-müstəhəbə görə gərək Allahdan bağışlanmaq istəsin və bir miqdar fəqirə sədəqə versin. Hər vaxt imkanı olsa, .kəffarəni verməsi müstəhəbdir

Məsələ: ۴۶۶. Qadına heyz halında təlaq vermək (təlaq kitablarında deyildiyi kimi) .batildir

Məsələ: ۴۶۷. Əgər qadın "heyzəm" və ya "heyzdən pak olmuşam" desə, gərək onun .sözü qəbul edilsin

.Məsələ: ۴۶۸. Əgər qadın namaz əsnasında heyz olsa, namazı batildir

Məsələ: ۴۶۹. Əgər qadın namaz əsnasında, heyz olub-olmamasında şəkk etsə, namazı səhihdir. Amma namazdan sonra,

.namaz əsnasında heyz olduğunu başa düşsə, qılıdığı namaz batildir

Məsələ: ۴۷۰. Qadın heyzdən pak olduqdan sonra, namaz, habelə dəstəmaz, qüsl, yaxud təyəmmümlə yerinə yetirilməli olan sair ibadətlər üçün qüsl etməsi vacibdir. Bu qüslün göstərişi, cənabət qüslü kimidir. Amma ehtiyata əsasən namaz üçün, gərək qüsldən qabaq, yaxud sonra, dəstəmaz da alsın. Əgər qüsldən əvvəl alsa, daha .yaxşıdır

Məsələ: ۴۷۱. Qadın heyzdən pak olandan sonra, qüsl etməmiş olsa da təlaq vermək səhihdir, əri də onunla yaxınlıq edə bilər. Amma ehtiyat-müstəhəb budur ki, qüsldən qabaq onunla yaxınlıq etməkdən çəkinsin; əgər onunla cima etmək istəsə, daha yaxşı budur ki, fərcini yuduqdan sonra cima etsin. Amma heyz vaxtında ona haram olan şeylər (məsciddə dayanmaq, Quranın yazısına əl vurmaq və s.) isə qüsl etməyincə ona .halal deyil

Məsələ: ۴۷۲. Əgər suyun miqdarı, qüsl və dəstəmazın hər ikisi üçün kifayət deyilsə, qüsl və ya dəstəmazdan birini yerinə yetirəcək miqdarda olsa, gərək qüsl etsin və dəstəmazın əvəzində isə təyəmmüm etsin. Əgər təkcə dəstamaza kifayət edərsə və qüsl alacaq miqdarda olmazsa, gərək dəstəmaz alsın, qüsl əvəzində isə təyəmmüm etsin. Əgər bunlardan heç biri üçün su olmasa, gərək iki təyəmmüm etsin; biri qüsl .əvəzində, digəri isə dəstəmaz əvəzində

Məsələ: ۴۷۳. Qadının heyz halında qılmadığı gündəlik namazların qəzası yoxdur. Amma, .gərək vacibi orucların qəzasını tutsun

Məsələ: ۴۷۴. Hər vaxt namazın vaxtı daxil olsa və namazı təxirə salsa, heyz olacağını .bilsə, gərək dərhal namazını qılsın

Məsələ: ۴۷۵. Əgər qadın, namazını təxirə salsa, namazın əvvəl vaxtından bir namaz qılmaq miqdarında vaxt keçsə və sonra haiz olsa, o namazın qəzası ona vacibdir. Bu bir haldadır ki, namazın əvvəl vaxtında, namaz üçün hədəsdən pak olub (qüsl və ya dəstəmaz yaxud da təyəmmüm edib) namaz qılmağa yetəcək

qədər vaxtı olsun. Amma, övrəti örtmək və xəbəsdən paklanmaq kimi namazın sair ibtidai əməlləri, şərt deyil. Amma namazın tez və ya gec qılmasında və s. işlərdə gərək öz halına diqqət etsin; məsələn: səfərə çıxan olmayan bir qadın, zöhrün əvvəlində namazını qılmasa, onun qəzası o halda vacib olur ki, dörd rəkət namaz qılmaq miqdarında (deyilən göstərişlərə əsasən) zöhrün əvvəlindən vaxt keçsin və o qadın da haiz olsun. Səfərdə olan qadın üçün isə iki rəkət namaz qılmaq miqdarında vaxt .kifayətdir

Məsələ: ۴۷۶. Əgər qadın namazın axır vaxtında qandan paklansa, qüsl, dəstəmaz və namazın ibtidai işlərini görüb (paltar hazırlamaq, yaxud onu suya çəkmək kimi) və bir rəkət və daha artıq namaz qılmaq üçün vaxtı olsa, gərək namazı qılsın. Əgər qılmasa, .qəzasını yerinə yetirməlidir

Məsələ: ۴۷۷. Əgər heyzli qadının, pak olandan sonra qüsl və dəstəmaz üçün vaxtı yoxdursa, amma namazı təyəmmüm ilə vaxtında qıla bilərsə, o namaz o qadına vacib deyildir. Ehtiyata əsasən təyəmmümlə qılsın. Əgər qılmasa, onun qəzasını qılsın. Amma vaxtın azlığından başqa, vəzifəsi də təyəmmüm etmək olsa; məsələn: suyun .ona zərəri varsa gərək təyəmmüm edib o namazı qılsın

Məsələ: ۴۷۸. Əgər qadın heyzdən pak olandan sonra, namaz üçün vaxt olub-.olmamasında şəkk etsə, gərək namazı qılsın

Məsələ: ۴۷۹. Əgər namazın müqəddimatı işlərini hazırlayıb bir rəkət namaz qılmaq üçün vaxt olmadığını güman edərək, namaz qılmasa və sonradan vaxt olduğunu başa .düşsə, gərək o namazın qəzasını yerinə yetirsin

Məsələ: ۴۸۰. Müstəhəbdir ki, heyzli qadın namaz vaxtında qanlarını təmizləsin, pambığı və dəstmalı dəyişsin, dəstəmaz alsın, əgər dəstəmaz ala bilmirsə təyəmmüm etsin və .namaz qıldığı yerdə üzü qibləyə oturub zikr, dua, salavat desin

Məsələ: ۴۸۱. Quran oxumaq, Quranı özü ilə aparmaq, bədənin hər hansı yerini onun yazılarının arasına vurmaq və həmçinin həna və s. kimi şeylərlə rənglənmək, haiz .qadına məkruhdur

HAİZ QADINLARIN NÖVLƏRİ

Point

:Məsələ: ۴۸۲. Haiz qadınlar altı qismdir

Vəqtiyyə və ədədiyyə adət sahibi olan qadın; o qadındır ki, ardıcıl olaraq iki ayda, hər-۱ ayın müəyyən vaxtlarında heyz görsün, heyz olduğu günlərin sayı da, hər iki ayda bir-birinə bərabər olsun; məsələn: iki ay ardıcıl olaraq, hər birində, ayın əvvəlindən .yeddisinə qədər qan görsün

Vəqtiyyə adət sahibi olan qadın; o qadındır ki, ardıcıl olaraq, iki ayın müəyyən-۲ günlərində heyz qanı görsün. Amma hər iki ayda heyz gördüyü günlərin sayı bir-birinə bərabər olmasın; məsələn: ardıcıl olaraq iki ayda, hər ayın əvvəlindən qan görsün. .amma birinci ayda yeddinci gün, ikinci ayda isə səkkizinci gün qandan paklansın

Ədədiyyə adət sahibi olan qadın; o qadındır ki, heyz günlərinin sayı, ardıcıl olan iki-۳ ayda, bərabər olsun, amma o iki qanın görünmə vaxtı eyni olmasın; məsələn: birinci ayda, ayın beşindən onuna qədər, ikinci ayda isə on ikisindən on yeddisinədək qan .görsün

Müztəribə; o qadındır ki, bir neçə ayda qan görsün, amma müəyyən bir adəti-۴ .olmasın, yaxud adəti pozulusun və təzə bir adət də tapmamış olsun

.Mübtədiə; o qadındır ki, ilk dəfə olaraq qan görsün-۵

.Nasiyə; o qadındır ki, öz adətini unutmuş olsun-۶

(.Bunların hər birinin özünə məxsus hökmləri vardır ki, gələcək məsələlərdə deyiləcək)

Vəqtiyyə və ədədiyyə adət sahibləri olan qadınlar – ۱

:Məsələ: ۴۸۳. Vəqtiyyə və ədədiyyə adəti olan qadınlar üç qismdir

İki ayda ardıcıl olaraq eyni vaxtda heyz qanı görüb, eyni vaxtda da pak olanlar;-۱ məsələn: iki ayda, hər ayın birinci günü qan görüb, yeddinci günü pak olsa, onun heyz

adəti hər ayın birindən

səh: ۸۶

.yeddisinə qədərdir

O qadınlardır ki, qandan pak olmur, amma iki ay ardıcıl olaraq müəyyən günlərdə;-۲ məsələn: ayın əvvəlindən səkkizinə qədər gördüyü qanda heyzin əlamətləri vardır. Yəni qəliz, qara və istidir, təziqlə, yandırıcılıqla çölə çıxır. Onun qanının qalanında isə .istihazənin əlamətləri vardırsa, adəti ayın əvvəlindən səkkizinə qədərdir

O qadınlardır ki, iki ay ardıcıl olaraq müəyyən vaxtda heyz qanı görsün və üç gün,-۳ yaxud daha artıq qan görüb, sonra bir və ya bir neçə gün pak olsun və yenidən qan görsün. Bu halda qan gördüyü günlərlə arada pak olduğu günlərin cəmi on gündən keçməsə və iki ayda qan gördüyü günlərlə pak olduğu günlərin sayı üst-üstə eyni olsa, belə qadının adəti, qan gördüyü günlərlə arada pak olduğu günlərin cəminə bərabərdir. Arada pak olduğu günlərin hər iki ayda sayı bərabər olması lazım deyil; məsələn: əgər birinci ayda ayın birindən üçünə kimi qan görüb arada üç gün pak olsa və yenidən üç gün qan görsə, ikinci ayda da yenə üç gün qan görüb, sonra üç gündən artıq və ya az pak olsa və yenidən qan görsə, üst-üstə doqquz gündən çox olmasa, .bütün bu günlərdə heyzdir və o qadının adəti, doqquz gündür

Məsələ: ۴۸۴. Vəqtiyyə adəti olan qadın (istər adəti-ədədiyyəsi də olsun, istərsə olmasın) əgər adət vaxtında bir gün və ya iki gün yaxud da çox qabaqcadan qan görsə «adəti qabaqa düşübdür» deyiləcək şəkildə bir neçə gün vaxtından qabaq qan görərsə o qanda heyz əlamətləri olmasa belə, heyzli qadınlar üçün deyilən hökmlərə əsasən əməl etməlidir. Əgər sonradan heyzli olmadığını başa düşərsə, məsələn; üç gündən .qabaq pak olarsa, yerinə yetirmədiyi ibadətlərin qəzasını yerinə yetirməlidir

Məsələ: ۴۸۵. Vəqtiyyə və ədədiyyə adəti olan bir qadın, əgər adətindən bir neçə gün qabaq başlayıb, bütün adət günlərində və adət günlərindən bir neçə gün sonraya qədər qan görərsə, bu müddət birlikdə on gündən artıq olmasa, hamısı heyzdir. Əgər on gündən artıq olarsa, yalnız öz adət günlərində gördüyü qan

heyzdir. Ondan qabaq və sonrakı günlərdə gördüyü qan isə istihazədir. Belə ki, adətindən qabaq və sonrakı günlərdə yerinə yetirmədiyi ibadətləri qəza etməlidir. Əgər bütün adət günləri ilə birlikdə bir neçə gün də adətindən qabaq qan görsə və hamısı birlikdə on gündən artıq olmasa, hamısı heyzdir. Əgər on gündən artıq olarsa, yalnız adət günləri heyz nişanələrini daşımasa belə heyzdir. Ondan qabaq gördüyü qanlarda heyzin əlamətləri olsa belə istihazədir. Belə ki, əgər o günlərdə ibadətlərini yerinə yetirməyibsə, gərək onları qəza etsin. Əgər bütün adət günləri ilə birlikdə bir neçə gün adətindən sonra qan görsə və hamısı birlikdə on gündən artıq olmasa, hamısı heyzdir. Amma əgər on gündən artıq olarsa, adət günləri heyz, qalanı isə .istihazədir

Məsələ: ۴۸۶. Vəqtiyyə və ədədiyyə adəti olan qadın, əgər bir miqdar adət günlərində və ondan əvvəl bir neçə gün qan görsə və üst-üstə on gündən artıq olmasa, hamısı heyzdir. Əgər on gündən artıq olsa, adət günlərində gördüyü qan, adətindən bir neçə gün qabaq gördüyü qanın adəti miqdarına çatanı heyz, əvvəlki günləri isə istihazə hesab edilməlidir. Əgər adət günlərindən bir miqdarını və adətindən bir neçə gün sonra qan görsə və üst-üstə on gündən çox olmasa, hamısı heyzdir; əgər on gündən artıq olsa, adəti günlərində gördüyü qan ilə, sonrakı bir neçə gün gördüyü qanın adət günlərinə çatdığı qədərini, gərək heyz hesab etsin, qalanlarını isə istihazə hesab .etməlidir

Məsələ: ۴۸۷. Adəti olan qadın üç gün, yaxud üç gündən daha artıq qan görüb paklansa və yenidən qan görsə, bu iki qan arasındakı zaman fasiləsi on gündən az olsa və qan gördüyü günlərin hamısı, arada pak olduğu günlərlə birlikdə on gündən artıq olsa; məsələn, beş gün qan görüb sonra beş gün pak olsa və yenidən beş gün qan görsə, bu :halda bunun bir neçə şəkli vardır

Birinci dəfə gördüyü qanın hamısı, yaxud bir miqdarı adət günlərində olsa və-۱ paklandıqdan sonra gördüyü ikinci qan adət günlərində olmasa, gərək birinci dəfədəki .qanın hamısını heyz, ikinci dəfədəkini isə istihazə hesab etsin

Birinci qan adət günlərində olmasa və ikinci qanın hamısı, yaxud bir miqdarı adət-٢ .dövrünə düşsə, gərək ikinci qanın hamısı heyz, birinci isə istihazə hesab etsin

Birinci və ikinci qanın bir miqdarı adət vaxtına düşsə, adət vaxtına düşən birinci qan,-٣ üç gündən az olmasa və ortadakı paklıq və adət dövründə olduğu ikinci qanın bir miqdarı, adət günlərində olub, on gündən çox olmazsa, bu halda onların hamısı heyzdir. Birinci qanın bir miqdarı, adət günlərindən əvvəl olsa və ikinci qanın bir miqdarı, adət günlərindən sonra olsa, istihazədir; məsələn: əgər qadının adəti, ayın üçündən onuna qədər olsa, bu halda birinci ayın əvvəlindən altısınaqək qan görüb, iki gün paklansa və sonra ayın on beşinə kimi qan görsə, üçündən onuna qədər heyz, .birindən üçünə və onundan on beşinə qədər istihazədir

Birinci və ikinci qanın bir miqdarı adət günlərində olsa, amma adət günlərində olan-۴ birinci qan, üç gündən az olsa, bu halda gördüyü birinci və ikinci qanın hamısı və aradakı paklıq müddətində, haiz qadına haram olan işləri (əvvəldə deyildiyi kimi) gərək tərk etsin, istihazənin əməllərini yerinə yetirsin. Yəni müstəhazə qadın üçün deyilən .göstərişlərə uyğun olaraq öz ibadətlərini yerinə yetirməlidir

Məsələ: ۴٨٨. Vəqtiyyə və ədədiyyə adəti olan qadın, adəti dövründə qan görməsə və ondan başqa vaxtlarda heyz günləri qədər qan görsə, əgər heyzin əlamətləri olsa, gərək onu heyz hesab etsin; istər adət vaxtından qabaq və ya sonra olsun. Əgər heyzin əlamətləri onda olmasa, ehtiyat-vacib budur ki, əvvəlinci üç günü haizə haram .olan əməlləri tərk edib, istihazə əməllərini yerinə yetirsin

Məsələ: ۴٨٩. Vəqtiyyə və ədədiyyə adəti olan qadın, əgər öz adəti vaxtında qan görsə, amma onun günlərinin sayı, adətinin vaxtından az və ya çox olsa, pak olduqdan sonra da yenidən öz adətinin günlərinin sayı müddətində qan görsə, gərək hər iki qanı onların arasında olan paklıq müddəti ilə heyz hesab etsin. Bu bir

haldadır ki, bütün bu günlərin (yəni qan gördüyü və pak olduğu günlərin sayının) cəmi, on gündən artıq olmasın. Əgər on gündən artıq olsa, adət vaxtında gördüyü qan heyz və digərini isə istihazə hesab etsin. Əgər iki qanın arasında pak olduğu günlərin sayı, on gündən az olsa və paklıq günlərinin sayı on gün olsa, (yəni, pak olmaq üçün lazım olan minimum zaman fasiləsi olsa) adət günləri ilə üst-üstə düşməyən ikinci qan, heyzin nişanələrini göstərdiyi təqdirdə heyz sayılır. Əks təqdirdə, haizin tərk etməli .işləri tərk etsin və müstihazənin əməllərini yerinə yetirsin

Məsələ: ۴۹۰. Vəqtiyə və ədədiyyə adəti olan qadın, əgər on gündən artıq qan görsə, adəti günlərində gördüyü qan, hətta heyzin əlamətləri onda olmasa da heyzdir; və adəti günlərindən sonra gördüyü qan, hətta heyzin əlamətləri də onda olsa, istihazədir; məsələn: bir qadının heyz adəti, ayın əvvəlindən yeddisinə qədər olsa, əgər ayın əvvəlindən on ikisinə qədər qan görsə, əvvəldəki yeddi günü heyz, qalan beş .günü isə istihazədir

Vəqtiyyə adət sahibi olan qadınlar – ۲

:Məsələ: ۴۹۱. Vəqtiyyə adəti olan qadınlar üç qismdir

Ardıcıl olaraq iki ayın hər birində müəyyən vaxtda heyz qanı görüb, bir neçə gündən-۱ sonra paklanan, amma qan gördüyü günlərin sayı, hər iki ayda bir-birinə bərabər olmayan qadın; məsələn: ardıcıl olaraq iki ayın hər birində ayın əvvəlindən qan görsə, amma birinci ayda yeddinci gün, ikinci ayda isə səkkizinci gün qandan paklansa, bu .qadın gərək ayın birinci gününü özünün heyz adəti günü hesab etsin

Qandan pak olmayan qadın, iki ayın hər birində müəyyən vaxta onda heyzin-۲ əlamətləri vardırsa (yəni qəliz, qara və isti olub, təzyiqlə, yandırıcılıqla çölə çıxır) və onun qalan qanlarında istihazə əlamətləri vardır. Heyzin əlamətləri olan günlərin sayı hər iki ayda eyni deyil; məsələn: birinci ayda, ayın əvvəlindən yeddisinə qədər, ikinci ayda isə ayın əvvəlindən səkkizinə qədər qanında heyz, qalan günlərdə isə istihazə əlaməti var. Gərək bu

.qadınlar da ayın əvvəlini öz adətinin əvvəli hesab etsinlər

O qadınlardır ki,ardıcıl olaraq iki ayın hər birində müəyyən vaxtda üç gün, yaxud-۳ daha artıq heyz qanı görüb, sonra pak olurlar, sonra yenidən qan görürlər. Qan gördüyü günlərlə, pak olduğu günlərin cəmi, on gündən keçmir. Amma ikinci ayda, birinci aydan çox və ya az olur; məsələn: birinci ayda səkkiz gün, ikinci ayda isə doqquz .gün olsa, gərək bu qadın, ayın ilk gününü heyz adətinin ilk günü hesab etsin

Məsələ: ۴۹۲. Vəqtiyyə adəti olan qadın, əgər öz adətinin vaxtında, yaxud iki-üç gün adətdən qabaq və ya iki-üç gün adətindən sonra qan görsə, bu halda əgər ona "tez heyz olubdur" və ya "təxirə düşübdür" desələr, o qanda heyzin əlamətləri olmasa belə, gərək haiz qadınlar üçün deylən hökmlərə uyğun olaraq əməl etsin. Amma sonradan heyz olmamasını başa düşsə; məsələn: üç gündən tez dayansa, gərək yerinə .yetirmədiyi ibadətlərin qəzasını etsin

Məsələ: ۴۹۳. Vəqtiyyə adəti olan qadın, əgər on gündən artıq qan görsə və heyzi, onun öz əlamətləri vasitəsilə ayırd edə bilməsə, gərək öz yaxınlarının adət günlərini, özü üçün heyz hesab etsin. Onun yaxınlarının istər ata tərəfdən, yaxud ana tərəfdən olmalarının, habelə diri və ya olü olmalarının bunda fərqi yoxdur. Ehtiyat-vacib budur ki, əgər oların adəti yeddi gündən az olsa, o adətin arxasınca yedi gün haizə haram olanları tərk etsin və müstəhazəyə vacıb olan əməlləri yerinə yetirsin. Əgər onların adəti yeddi gündən çox olsa, yeddi gün sonranın arxasınca adətin axrırınadək bu əməli yerinə yetirsın. Amma onların hamılıqla heyz olduqları günlərinin sayı eyni olduğu təqdirdə, onların adət günlərini özü üçün heyz vaxtı qəbul edə bilər. Əgər onların heyz olduqları günlərinin sayı müxtəlif olarsa: məsələn: onlardan bəzilərinin adəti beş gün və bəzilərinin də yeddi gün olarsa, onların adət vaxtlarını özünün heyz adəti vaxtı kimi qəbul edə bilməz. Əgər onların adət günlərinin sayı, bir-birlərindən sayılmayacaq dərəcədə çox az fərqlənərsə, gərək onların arasında

.olan ən çox heyz günlərini özü üçün heyz adət vaxtı götürsün

Məsələ: ۴۹۴. Vəqtiyyə adəti olan və yaxınlarının adətini özü üçün adət götürən qadın, gərək hər ayda, onun adətinin əvvəli olan gününu özü üçün heyzin əvvəli hesab etsin; məsələn: əgər bir qadın hər ayda ayın ilk günü qan görürdüsə və bəzi hallarda yeddinci, bəzi hallarda isə səkkizinci gün pak olurdusa, bu halda birinci ayda on iki gün qan görsə və onun yaxınlarının adəti yeddi gün olsa, gərək əvvəlki ayın əvvəlinci yeddi .günü heyz, qalan günləri isə istihazə hesab etsin

Məsələ: ۴۹۵. Öz yaxınlarının adətini öz heyz adəti götürməli olan qadının yaxını olmasa və ya yaxınlarının adət günlərinin sayı bir-biri ilə eyni olmasa, bu halda ixtiyarlıdır ki, hər ayda qan gördüyü günlərdən üç, yaxud altı, yaxud da yeddisini heyz, qalanlarını isə istihazə hesab etsin. Ehtiyat-müstəhəbə görə, yeddi gün hesab etsin. Amma yaxını olmasa və ya yaxınları var, adət günlərin bilsə və ya bilməsə, yeddi gündən on günə qədər ehtiyat etsin. əgər ehtiyat etməsə, öz ixtiyarı ilə əməl etsin. daha yaxşı budur ki, .birinci ayda hesab etdiyi miqdarı, sonrakı aylarda da həmin minvalla heyz hesab etsin

Ədədiyyə adəti olan qadınlar – ۳

:Məsələ: ۴۹۶. Ədədiyyə adəti olan qadınlar da üç qismdir

Heyz günlərinin sayı ardıcıl olaraq iki ayın hər birində eyni qədərdə olub, qan-۱ görməsi vaxtı hər iki ayda eyni olmayan qadınlar. Bu halda neçə gün qan görsə, hamısı onun adəti sayılır; məsələn: əgər birinci ay, ayın birindən beşinə qədər, ikinci ayda isə .on birindən on beşinə qədər qan görsə, onun adəti beş gündür

Qandan pak olmayan, amma ardıcıl olaraq iki ayın hər birində bir neçə gün gördüyü-۲ qanlarda heyzin, yerdə qalanlarında isə istihazənin əlamətləri olan qadınlardır. Belə ki, heyz əlamətləri olan günlərin sayı hər iki ayda eynidir, amma onların vaxtları eyni deyildir. Belə olan halda, qanında heyz əlaməti olan günlər onun adətidir; məsələn: ,əgər birinci ay, ayın birindən beşinə qədər

sonrakı ay on birindən on beşinə qədər olan günlərdə heyz, yerdə qalan günlərin .qanında isə istihazə əlamətləri olsa, onun adəti beş gündür

Ardıcıl olaraq iki ayın hər birində üç gün, yaxud daha artıq qan görən, arada bir gün,-۳ yaxud daha artıq pak olub yenidən qan görən və qan gördüyü zamanın, birinci ayda ikinci aydakından fərqlənən qadınlardır. Əgər qan gördüyü və arada pak olduqları günlərin sayı üst-üstə toplandıqda on gündən çox olmazsa və onun günlərinin sayı eynidirsə, qan gördüyü bütün günlər, arasındakı pak olduğu günlərlə birlikdə onun heyz vaxtı sayılır. Ehtiyata ğörə pak olduğu günlərdə haizin tərk etməli əməllərini tərk edib, müstihazənin əməllərini yerinə yetirsin. (Bu deyilən üçün) arada pak olduğu günlərin sayının hər iki ayda eyni olması lazım deyil; məsələn: birinci ayda, ayın birindən üçünə qədər qan görüb iki gün paklansa və yenidən üç gün qan görsə, ikinci ayda da ayın on birindən on üçünə kimi qan görüb iki gün, yaxud az, yaxud da çox paklansa və yenidən qan görsə və üst-üstə səkkiz gündən çox olmasa, onun adəti səkkiz gündür. Mümükündür başqa bir qism də belə təsəvvür olunsun; bu o qadın dır ki, ardıcıl olaraq iki ay, say etibarı ilə bərabər qan görsün; məsələn: səkkiz gün qanın görən günlərinin sayı olsun, amma birinci ayda ardıcıl olaraq qan görsün və ikinci ay isə dörd gün qan gördükdən sonra paklansın və yenidən qan görsün. Arada olan pak günlərlə birlikdə deyilən günləri topladıqda səkkiz gün olsun. Bu halda da onun adəti .səkkiz gün olur

Məsələ: ۴۹۷. Ədədiyyə adəti olan qadın, əgər öz adət günlərindən çox qan görsə və onun sayı on gündən çox olsa, bu halda gördüyü qanların hamısı eyni cür olsa, gərək qan gördüyü gündən etibarən adət günlərinə qədər heyz, qalanlarını isə istihazə hesab etsin. Baxmayaraq ki, onun üçün caizdir adət günlərinin sayını, orta və ya axır günlərdən hesab etsin. Əgər gördüyü qanların hamısı eyni olmayıb bir neçə günündə heyz, qalan günlərində isə istihazə əlaməti olsa, əgər heyz nişanələri olan

günlərinin sayı adət günləri ilə eyni olsa, gərək həmin günləri heyz, qalanlarını isə istihazə hesab etsin. Əgər qanda heyz nişanələri olan günləri adət günlərindən çox olsa, təkcə adət günləri qədəri heyz, qalanları isə istihazədir. Əgər qanın heyz əlamətləri olduğu günlərin sayı adət günlərindən az olsa, gərək o günlərə sonrakı bir neçə başqa günlərlə birlikdə heyz günlərinə çata bilən qədər əlavə edərək heyz hesab .edib, yerdə qalanlarını isə istihazə saymalıdır

Müztəribə – ۴

Məsələ: ۴۹۸. Müstəribə yəni bir neçə ay qan görüb, amma müəyyən adət tapmayan və ya adəti pozulan və yeni bir adət tapmayan qadına deyilir. Əgər bu qadın, on gündən artıq qan görsə və gördüyü qanların hamısı eyni olsa, bu halda onun yaxınlarının adəti eyni olsa, onların adəti ilə hesab etsin; istər onların adəti yeddi gün və ya yeddi gündən az, yaxud çox olsun. Əgər yaxınlarının adəti olmasa və ya müxtəlif olsa və ya adətlərin bilməyə, birinci və üçüncü surətdə üç gün heyiz hesab edib, ondan sonra on günə qədər ehtiyat etməlidir; ikinci surətdə onlardan birinə əməl edib on günə qədər ehtiyat etsin; yəni istihazə əməllərini yerinə yetirsin, haizə haram olan əməlləri isə .tərk etsin

Məsələ: ۴۹۹. Əgər müztəribə qadın, on gündən artıq qan görsə və onun bir neçə günündə heyz, bir neçə günündə isə istihazə əlamətləri olsa, bu halda heyz əlamətləri olan qan üç gündən az, yaxud on gündən çox olsa, gərək qabaqkı məsələdə deyilənlərə əsasən əməl etsin. Heyz əlamətləri olan qan üç gündən az, yaxud on gündən çox olmasa, onun hamısı heyzdir. Amma heyz əlamətləri olan qandan on gün keçməmiş yenidən, heyz əlamətləri olan qan görsə; məsələn: beş gün qara qan, sonra doqquz gün sarı qan, daha sonra yenidən beş gün qara qan görsə, birinci gördüyü qanı heyz, ikinci gördüyü qanı isə istihazə hesab etməlidir. Ehtiyat budur ki, heyz əlamətləri olan hər iki qanda, istihazə əməllərini yerinə yetirsin, haizə haram olan əməlləri isə .tərk etsin

Məsələ: ۵۰۰. Mübtədiə ilk dəfə qan görən qadına deyilir. Belə ki, on gündən artıq qan görsə və gördüyü qanların hamısı eyni olsa, gərək öz yaxınlarının adətlərinin günlərinin sayı qədər (vəqtiyyədə deyildiyi kimi) heyz, qalanlarını isə istihazə hesab etsin. Amma yaxınlarının adət günlərinin sayı müxtəlif olarsa, onlardan bəzilərinin adət günlərinin sayını özü üçün qəbul edib, on günədək ehtiyat etsin. Sonrakı aylarda, üç günü heyz sayıb əvvəlki ayda heyz saydığı günlərin sayı qədər ehtiyat etsin. Yaxın adamı olmadığı təqdirdə və ya adətlərini bilməsə, birinci ayda on günü heyz hesab etsin, digər aylarda isə üç günü heyz qəbul edərək yeddi gün haizin tərk etdikləri ilə .müstəhazənin əməlləri arasında ehtiyat etsin

Məsələ: ۵۰۱. Əgər mübtədiə, on gündən artıq qan görsə və onun bir neçə günündə heyz, bir neçə günündə isə istihazə əlamətləri olsa, bu halda heyz əlamətləri olan qan üç gündən az və ya on gündən çox olmasa, bütünlüklə o heyzdir. Amma heyz əlamətləri olan qandan on gün keçməmişdən qabaq, yenidən heyzin əlamətləri olan qan görsə; məsələn: beş gün qara qan sonra isə doqquz gün sarı qan, daha sonra beş gün qara qan görsə, gərək birinci gördüyü və heyzin əlamətləri olan qanı, əvvəlindən yaxınlarının adət günlərinə uyğun heyz hesab edib, qalanlarını istihazə hesab etməlidir. Daha yaxşıdır ki, onların adət günlərində olan fərqin (sayı qədəri) və yeddi .gün, haizə haram olanları tərk etsin, müstəhazəyə vacib olanları yerinə yetirsin

Məsələ: ۵۰۲. Mübtədiə on gündən çox qan görsə və onun bir neçə günündə heyzin, bir neçə günündə isə istihazənin əlamətləri olsa, bu halda heyzin əlamətləri olan qan üç gündən az, yaxud on gündən çox olsa, gərək heyz günlərinin sayını, öz yaxınlarının adət günlərinin sayı ilə uyğunlaşdırsın; heyzin əlamətləri olan qanın əvvəlini heyzin əvvəli hesab etsin, qalanları isə istihazə hesab etsin. Daha yaxşıdır ki, onların adət günlərində olan fərqin

sayı və yeddi gün haizə haram olanları tərk etsin, müstəhazəyə vacib olanları yerinə .yetirsin

Nasiyə –۶

Məsələ: ۵۰۳. Nasiyə, öz adətini unudan qadına deyilir. Belə qadın əgər on gündən artıq qan görsə, gərək bu qanın heyz əlamətləri olduğu günləri, heyz hesab etsin, qalanlarını isə istihazə hesab etsin. Amma heyzin, əlamətləri vasitəsilə ayırd edə bilməsə, ehtiyat-müstəhəbə görə, gərək ilk yeddi günü heyz, qalanını isə istihazə hesab etsin baxmayaraq ki, heyizin müddətini üç gündən on günə qədər müddətdə .təyin etməsində ixtiyarlıdır. Təyin etdiyi müddəti heyz, qalanını isə istihazə hesab etsin

HEYZİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ۵۰۴. Mübtədiə, müztəribə, nasiyə və ədədiyyə adəti olan qadınlar, qan görsələr və bu qanda heyzin əlamətləri olsa, ya üç gün davam edəcəyinə yəqinləri olsa, gərək ibadətləri tərk etsinlər. Baxmayaraq ki, ikinci surətdə, heyzin əlamətləri olmasa, ehtiyata əməl etmək daha yaxşıdır. Sonradan heyz olmadığını başa düşsələr, gərək tərk etdikləri ibadətlərin qəzasını etsinlər. Amma üç gün müddətində davam edəcəyinə yəqinləri olmasa və heyzin əlamətləri də onda olmasa, ehtiyat-vacibə görə gərək üç günə qədər istihazənin əməllərini yerinə yetirib, haizə haram olan işləri tərk .etsinlər. Əgər üç gündən əvvəl pak olmasalar, gərək heyz hesab etsinlər

Məsələ: ۵۰۵. Heyzində adəti olan qadın, istər heyzin vaxtında, istərsə də heyzin günlərinin sayında, yaxud həm vaxt, həm də sayında adəti olarsa, əgər ardıcıl iki ayın hər birində öz adətinin əksinə olaraq qan görsə və onun vaxtı, yaxud günlərinin sayı, yaxud həm sayı, həm də vaxtı eyni olsa, adəti bu iki ayda gördüyünə qayıdır; məsələn: əvvəlki ayın birindən yeddisinə qədər qan görüb pak olurdusa, bu halda ikinci ayın onundan on

yeddisinə qədər qan görüb pak olsa, bu halda ayın onundan on yeddisinə qədər onun .adətidir

Məsələ: ۵۰۶. Bir aydan məqsəd, ayın əvvəlindən axırına qədər deyil, qanın görünməyə .başlamasından otuz gün keçənə qədərdir

Məsələ: ۵۰۷. Adətən ayda bir dəfə qan görən qadın, əgər bir ayda iki dəfə qan görsə və onda heyzin əlamətləri olsa, onda arada pak olduğu günlərin sayı on gündən az .olmasa, gərək hər ikisini heyz hesab etsin

Məsələ: ۵۰۸. Əgər üç gün, yaxud üç gündən artıq heyzin əlamətləri olan qan görüb, sonra on gün, yaxud daha artıq istihazənin əlamətləri olan qan görsə və yenidən üç gün heyz əlamətləri olan qan görsə, gərək (heyzin əlamətləri olan) birinci və axırıncı .qanları heyz hesab etsin

Məsələ: ۵۰۹. Əgər qadın on gündən qabaq pak olsa və batinində qan qalmadığını bilsə, hətta on gün tamam olmamışdan qabaq yenidən qan görəcəyinə gümanı olsa da, öz ibadətləri üçün gərək qüsl etsin. Amma on gün tamam olmamışdan qabaq yenidən qan görəcəyinə yəqini olsa, gərək qüsl etməsin; (namaz qıla bilməz və gərək özünü .(haiz hesab etsin

Məsələ: ۵۱۰. Əgər qadın on gündən qabaq pak olsa və batinində qan olmasına ehtimal versə, gərək bir miqdar pambığı övrətinin daxilinə qoysun, bir az gözləyib sonra çıxartsın; (zahiri görünüşcə) o qadının, deyilən mənada özündən xəbərdar olmadan namazı tərk, yaxud da qüsl edməsi, caiz deyil. Deməli, əgər pak olsa, qüsl edib ibadətlərini yerinə yetirsin. Əgər pak deyilsə, sarı rəngli suya bulaşmış olsa da, bu halda heyzində adəti yoxdursa və ya adəti on gündürsə, gərək gözləsin; əgər on gündən tez pak olsa qüsl etsin. Əgər (onuncu günün tamam olduğu vaxt) pak olsa, yaxud qanı on gündən keçsə, on günün tamam olduğu vaxt qüsl etsin. Əgər adəti on gündən azdırsa və ya on günü tamam olmamışdan qabaq, yaxud tamam olduğu vaxt pak olacağını bilsə, gərək qüsl etməsin. Əgər qanın on gündən keçəcəyini ehtimal versə, ehtiyat-vacib budur ki, bir gün ibadətlərini tərk etsin. əgər

qanın heyz olduğuna əmindirsə on günədək ibadətlərini tərk etsin. Amma buna əmin olmasa, bir gün keçdikdən sonra, on günədək istihazənin əməllərini yerinə yetirsin və haizə haram olanları tərk etsin. Deməli, on gün başa çatmazdan, yaxud on günün başlanğıcınadək qandan paklansa, bütün bu müddət heyz olmuşdur. Əgər on gündən keçsə, gərək öz adətini heyz sayıb, qalanını istihazə qəbul etsin. Adət günlərindən sonra yerinə yetirmədiyi ibadətlərini qəza etsin. Oruc tutduğu halda, onun qəzasını .etsin

Məsələ: ٥١١. Əgər bir neçə günü heyz hesab edib ibadət etməsə, sonradan heyz olmadığını başa düşsə, gərək o gündə yerinə yetirmədiyi namaz və orucun qəzasını .yerinə yetirsin

Məsələ: ٥١٢. Əgər bir neçə günü heyz olmaması gümanı ilə ibadət edib sonradan heyz .olmasını başa düşsə, o günlərdə oruc tutmuş olsa, tutduğu orucun qəzasını etməlidir

NİFAS

Məsələ: ٥١٣. Uşağın ilk üzvü ananın bətnindən çıxdığı andan etibarən, qadından gələn, on gündən qabaq, yaxud on gün tamam olan müddətdə kəsilən hər qan nifas qanıdır .bu şərtlə ki, ona doğuş qanı deyilə bilsin. Nifas halında olan qadına nəfsa deyilir

Məsələ: ٥١٤. Qadından, uşağın ilk üzvünün çölə gəlməsindən qabaq gördüyü qan, nifas .deyildir

Məsələ: ٥١٥. (Qanın nifas sayılmasında) uşağın xilqətinin kamil olması şərt deyil; hətta laxtalanmış qan surətində də bətndən xaric olsa və qadının özü bilsə, yaxud mamalardan dörd nəfəri əgər bətndə qalsaydı, insan olacaqdı desə, on gün .müddətində gördüyü qan nifas qanıdır

Məsələ: ٥١٦. Nifas qanı, bir anlıqdan artıq gəlməyə bilər. Amma on gündən də artıq ola .bilməz

Məsələ: ٥١٧. Əgər bir şeyin siqt olub-olmamasında şəkk etsə, yaxud siqt olan şeyin qalacağı halda insan olub-olmayacağında

.şəkk etsə, axtarış aparması lazım deyil; ondan xaric olan qan şərən nifas qanı deyil

Məsələ: ۵۱۸. Haizə haram olan işlər, o cümlədən məsciddə dayanmaq, bədənin hər hansı yerini Quranın yazısına vurmaq və s. kimi işlər, nifaslı qadına da haramdır. Haiz qadına vacib, müstəhəb və məkruh olan əməllər, eynilə nifaslı qadına da vacib, .müstəhəb və məkruhdur

Məsələ: ۵۱۹. Nifas halında olan qadına verilən təlaq batil və bu halda yaxınlıq etmək haramdır. Əgər əri onunla (nifas halında) yaxınlıq etsə, ehtiyat-müstəhəbə görə, heyz .bölməsində deyilənlərə uyğun olaraq kəffarə versin

Məsələ: ۵۲۰. Qadın, nifas qanından pak olduqda, gərək qüsl edib, öz ibadətlərini yerinə yetirsin. Əgər yenidən qan görsə və onun qan görüb pak olduğu günlər üst-üstə on gün, yaxud on gündən az olarsa, o günlərin hamısı nifas sayılır. Əgər pak olduğu .günlərdə oruc tutmuş olsa, qəzasını yerinə yetirsin

Məsələ: ۵۲۱. Əgər qadın nifas qanından pak olub, batinində qan qalmasına ehtimal versə, gərək bir miqdar pambığı övrətinə daxil edib bir az gözləsin. Sonra çıxarıb .baxmalıdır; əgər pakdırsa, öz ibadətləri üçün qüsl etsin

Məsələ: ۵۲۲. Əgər qadının nifas qanı, on gündən keçsə, bu halda heyzdə adəti varsa, adətlərinin günü qədər nifas, qalanlarını isə istihazə hesab etsin. Amma heyzdə adəti yoxdursa, on günə qədər nifas, qalanları isə istihazə sayılır. Ehtiyat-müstəhəb budur ki, adəti olan şəxs adətindən sonrakı gündən, adəti olmayan isə doğuşun onuncu günündən sonrakı gündən (başlayaraq), on səkkizici gününə qədər istihazənin .əməllərini yerinə yetirsin, nifaslı qadına haram olan işləri işə tərk etsin

Məsələ: ۵۲۳. Bir qadın ki, heyz adətinin müddəti on gündən az olsa, əgər adət günündən artıq nifas qanı görsə, gərək adət günləri miqdarını nifas qanı saysın. Ehtiyat-vacibə görə qanın on gündən çox olacağına güman tapana qədər qədər .(heyizin hökmlərində qeyd olunduğu kimi) ibadətlərini tərk etsin

Məsələ: ٥٢٤. Əgər qan on günü keçərsə istihazədir. Gərək adət günlərindən sonra on gün müddəti (onuncu gün daxil olmaqla) istihazə təyin etsin və o, günlərdə yerinə .yetirmədiyi ibadətləri qəza etsin

Məsələ: ٥٢٥. Heyzdə adət müddəti olan bir qadın, əgər azad olandan sonra (uşaq dünyaya gətirdikdən sonra) bir və ya bir aydan artıq müddətində davamlı olaraq qan görərsə, adət günü miqdarı nifas sayılacaqdır və nifasdan sonrakı on gün gördüyü qan, baxmayaraq ki, aylıq adət günlərinə düşsün, istihazə qanıdır. Misal olaraq; əgər bir qadın ki, aylıq adət günü, hər ayın iyirmisindən iyirmi yeddisinə qədərdir, ayın onunda azad olsa və bir ay və ya bundan çox davamlı olaraq qan görsə, on yeddinci günə kimi nifas qanı və on yeddisindən sonra on gün müdətinə gördüyü qan, baxmayaraq ki, öz aylıq adət günlərində olsa (yəni ٢٠-dən ٢٧-ədək) istihazə qanı olacaqdır. On gün keçdikdən sonra, əgər gördüyü qan aylıq adət günlərində olarsa, heyz sayılacaqdır. İstər heyz qanının əlamətləri onda olsun, istərsədə olmasın və həmçinin, əgər aylıq adət günlərində olmasa, amma heyz qanının əlamətləri onda olsa. Əgər nifas qurtardıqdan on gün sonra gördüyü qan, aylıq adət günlərində olmaya .və heyz qanının əlamətləri onda olmasa, istihazə hesab olunacaqdır

Məsələ: ٥٢٦. Heyzdə adət müddəti olmayan bir qadın, əgər azad olduqdan sonra bir ay və ya çox qan görərsə, onun birinci on günü nifas, ikinci on günü istihazə və ondan sonra gördüyü qan, əgər heyz qanının əlamətləri olarsa və ya aylıq adət vaxtında .olarsa, heyz sayılar. Əks təqdirdə, istihazə hesab olunacaqdır

MƏSS–MEYYİT QÜSLÜ

Məsələ: ٥٢٧. Əgər bir şəxs, bədəni soyumuş və qüslü verilməmiş bir meyyitə məss etsə, yəni bədəninin bir hissəsini o meyyitə toxundursa, gərək məss-meyyit qüslü ,etsin. İstər yuxu halında məss etsin, istərsə də ayıq; istər ixtiyari olaraq məss etsin

istərsə də ixtiyarsız. Hətta, əgər onun dırnağı meyyitin dırnağına, sumüyü də meyyitin sümüyünə dəysə, gərək qüsl etsin. Amma ölmüş heyvana məss etsə, məss-meyyit .qüsl vacib deyil

Məsələ: ۵۲۸. Bədəni tamamilə soyumamış ölüyə məss etdikdə, hətta bədəninin .soyumuş hissələrinə məss etsə də, qüsl vacib deyildir

Məsələ: ۵۲۹. Əgər insan öz tüklərini meyyitin bədəninə vursa, yaxud öz bədənini meyyitin tüklərinə vursa və ya öz tüklərini meyyitin tüklərinə vursa, bu halda qüsl vacib deyil. Deyilən bu üç halın hər birində saç elə bir miqdarda uzun olsa ki, onun toxunması (məlum olan adi qayda üzrə) məss meyyit etməsini doğrultmasa, qüsl vacib .deyil

Məsələ: ۵۳۰. Ölmüş uşağa, hətta dörd ayı tamam olan siqt olunmuş uşağa məss etdikdə, məss-meyyit qüslü vacibdir. Hətta ehtiyat-müstəhəbə görə, dörd ayı tamam olmazdan qabaq siqt olunan uşağa məss etdikdə də, gərək qüsl edilsin. Əgər dörd aylıq uşaq ölü halda dünyaya gəlsə, anası gərək məss-meyyit qüslü alsın. Hətta, əgər .dörd aydan da az olsa, ehtiyat-müstəhəbə görə gərək onun anası qüsl etsin

Məsələ: ۵۳۱. Anası öləndən sonra dünyaya gələn uşaq, həddi-büluğa çatdıqdan sonra .ehtiyat-vacibə əsasən məss-meyyit qüslü alsın

Məsələ: ۵۳۲. Əgər insan, üç qüslü tamamilə verilmiş bir meyyitə məss etsə, ona məss-meyyit qüslü vacib deyil. Amma üçüncü qüslü tamam olmamışdan əvvəl onun bədəninin bir hissəsinə məss etsə, hətta üçüncü qüsl həmin hissədə tamam olsa da .belə, gərək məss-meyyit qüslü etsin

Məsələ: ۵۳۳. Əgər dəli, yaxud həddi-büluğa çatmamış uşaq, bir meyyitə məss etsə, dəli .ağıllanandan, uşaq isə həddi-büluğa çatandan sonra gərək məss-meyyit qüslü etsin

Məsələ: ۵۳۴. Əgər diri insanın bədənindən, yaxud qüslü verilməmiş ölü insanın bədənindən ayrımış sümüklü olan bir hissəyə qüsl verilməzdən qabaq insan ona məss -etsə, gərək məss

meyyit qüslü etsin. Amma ayrılan hissənin sümüyü olmasa, onu məss etdikdə qüsl .vacib deyil

Məsələ: ۵۳۵. Əti olmayan və qüsl verilməmiş sümük, əgər diri insandan olsa, ona məss etməyin qüslü yoxdur. Əgər ölü insandan ayrılan qüslü verilməmiş sümüyə məss etsə, ehtiyat-vacibə əsasən gərək qüsl etsin. Həmçinin, qüslü verilməmiş meyyitdən ayrılan dişə məss edildiyi təqdirdə də eyni qayda ilə; Amma diri insandan ayrılan əti olmayan .və ya əti çox az olan dişə məss etdikdə, qüsl almaq vacib deyil

Məsələ: ۵۳۶. Məss-meyyit qüslü, gərək eynilə cənabət qüslü kimi alınsın. Amma məss-meyyit qüslü alan bir şəxs namaz qılmaq istəsə, ehtiyat-vacibə əsasən gərək .dəstəmaz da alsın

Məsələ: ۵۳۷. Əgər insan bir neçə meyyitə məss etsə, yaxud bir meyyiti bir neçə dəfə .məss etsə, bir qüsl kifayətdir

Məsələ: ۵۳۸. Meyyitə məss etdikdən sonra qüsl etməyən bir şəxsin məsciddə dayanması, cima etməsi, vacibi səcdəsi olan surələri oxumasının eybi yoxdur. Amma namaz və bu kimi işlər üçün, gərək qüsl etsin və ehtiyat-vacibə əsasən dəstəmaz da .alsın

MÖHTƏZİRİN HÖKMLƏRİ

Məsələ: ۵۳۹. Ehtizar, yəni can verən halda olan müsəlmanı, istər kişi olsun, istərsə də qadın, istər böyük olsun istərsə də kiçik, ehtiyat-vacibə görə, gərək arxası üstə elə uzatsınlar ki, ayaqlarının altı qiblə tərəfə olsun. Əgər onu tamamilə bu qaydada uzatmaq mümkün olmasa, gərək mümkün olan qədər bu göstərişə əməl edilsin. Əgər onu, qeyd olunan kimi ümumiyyətlə uzatmaq mümkün olmazsa, üzü qibləyə əyləşdirməlidlər. Bu da mümkün olmasa onu sağ, yaxud sol böyrü üstə üzü qibləyə .uzatmalıdırlar

Məsələ: ۵۴۰. Ehtiyat-vacib budur ki, nə qədər ki, meyyitin qüslü tamam olmayıb, onu üzü qibləyə uzatsınlar. Amma qüslü tamam olandan sonra, yaxşı olar ki, onu, meyyit .namazı qılınan vaxtdakı kimi uzatsınlar

Məsələ: ۵۴۱. Can verən insanı üzü qibləyə döndərmək, hər müsəlmana vacibdir. Ehtiyat-vacibə əsasən imkan olsa, can verənin özündən icazə alınsın. Əgər mümkün olmasa ehtiyat-vücubi budur ki, visindən buda mümkün olmasa mümkün olan halda şəri hakimdən icazə alsınlar. Bu sadaladıqlarımız bu haldadır ki, meyyiti tərpətmək .onun ölümünün sürətlənməsinə səbəb olmasın

Məsələ: ۵۴۲. Müstəhəbdir ki, can verən halda olan hər şəxsə, iki şəhadət kəlmələrini (kəlmeyi şəhadəti), on iki İmamın (ələyhis-səlam) adlarını və s. kimi haqq əqidələrini, elə təlqin etsinlər ki, başa düşsün. Həmçinin, müstəhəbdir ki, qeyd olunan əməlləri .öldüyü ana qədər təkrar etsinlər

Məsələ: ۵۴۳. Müstəhəbdir ki, aşağıdakı duanı can verən şəxsə elə təlqin etsinlər ki, :başa düşsün

أَللَّهُمَّ

اغْفِرْلِیَ الْکَثِیرَمِنْ مَعَاصِـیکَ وَاقْبَلْ مِنِّی الْیَسِیرَ مِنْ طَاعَتِکَ یَا مَنْ یَقْبَلُ الْیَسِیرَ وَیَعْفُ عَنْ الْکَثِیرَ إِقْبَلْ مِنِّی الْیَسِیرَ وَاعْفُ عَنِّی الْکَثِیرَ إِنَّکَ أَنْتَ الْعَفُوُّ الْغَفُورُ. أَللهُمَّ ارْحَمْنِی فَإِنَّکَ رَحِیم.

Məsələ: ۵۴۴. Müstəhəbdir ki, çətin can verən insanı narahat olmadığı halda, namaz .qıldığı yerinə aparsınlar

Məsələ: ۵۴۵. Müstəhəbdir ki, can verənin rahat olması üçün başının üstündə mübarək “Yasin”, “Saffat”, “Əhzab” surələrini, “Ayətəl-kürsi”, həmçinin “Əraf” surəsinin ۵۴-cü yəni “İnnə rəbbəkumul-ləzi xələqəs-səmavati vəl-ərzə” ayəsini və “Bəqərə” surəsinin .axırıncı üç ayəsini oxusunlar. Ümumiyyətlə, Qurandan mümkün olan qədər oxusunlar

Məsələ: ۵۴۶. Can verən şəxsi tək qoymaq, onun qarnının üstünə bir şey qoymaq, cənabətli, heyzli şəxslərin onun yanında olması, həmçinin onun yanında çox danışmaq, .ağlamaq, qadınları can verənin yanında tək qoymaq məkruhdur

ÖLÜMÜNDƏN SONRANIN HÖKMLƏRİ

Məsələ: ۵۴۷. Ölümdən sonra müstəhəbdir ki, meyyitin ağzını, gözlərini, çənəsini bağlasınlar, əllərini və ayaqlarını uzatsınlar, onun üstünə parça çəksinlər. Əgər gecə ölübsə, öldüyü yerdə çıraq yandırsınlar və onu dəfn etmək üçün möminlərə xəbər versinlər. Onu dəfn etməkdə tələssinlər. Amma onun ölümünə yəqinlikləri olmasa, gərək gözləsinlər ki, məlum olsun. Əgər meyyit hamilə olsa və qarnındakı uşaq diri olsa, gərək dəfn işini o qədər təxirə salsınlar ki, onun sol tərəfdən qarnını yarıb uşağı çölə çıxartsınlar, əgər sol tərəfini yarmaq mümkün olmasa

qarnının hər bir yerini yarıb uşağı çıxarmaq mümkündürsə yarıb çıxartsınlar sonra .yarılan yeri tiksinlər

QÜSL, KƏFƏN, NAMAZ VƏ DƏFNİN HÖKMLƏRİ

Point

Məsələ: ۵۴۸. Müsəlman şəxsə, hətta on iki İmama inanan şiə olmasa belə, qüsl verib, kəfənə bükmək, namaz qılıb, dəfn etmək hər bir mükəlləf şəxsə vacibdir. Əgər bir neçə nəfər bu işləri yerinə yetirsə, başqalarının öhdəsindən götürlər. Amma heç bir .şəxs bu işi öhdəsinə götürməsə, hamı günah etmişdir

Məsələ: ۵۴۹. Əgər bir şəxs, meyyitin qüsl-kəfən işlərinə məşğul olsa, başqalarının bu işə başlaması vacib deyil. Amma biri bu işi başlayıb yarımçıq qoysa, gərək başqaları .tamamlasınlar

Məsələ: ۵۵۰. Əgər insan başqasının meyyitin işlərinə məşğul olmasını yəqin etsə, bu .işlərə başlaması vacib deyil. Amma şəkk və ya güman etsə, gərək bu işə başlasın

Məsələ: ۵۵۱. Bir şəxs meyyitin qüsl, kəfən, namaz və dəfninin batil yerinə yetirildiyini bilsə, gərək bu işləri yenidən yerinə yetirsin. Amma batil olmasını güman etsə, yaxud .səhih olub-olmamasında şəkk etsə, bu işləri yerinə yetirməsi lazım deyil

Məsələ: ۵۵۲. Meyyitin qüsl, kəfən, namaz və dəfni üçün gərək onun qəyyumundan .icazə alınsın

Məsələ: ۵۵۳. Qadının qəyyumu onun əridir. Ondan sonra meyyitdən irs aparan kişilər, .irs aparan qadınlardan irəlidir

Məsələ: ۵۵۴. Əgər bir şəxs, “mən meyyitin canişini” və ya “vəsisiyəm” və ya “meyyitin vəlisi mənə icazə vermişdir ki, onun qüsl, kəfən və dəfn işlərini yerinə yetirəm” desə, əgər onun sözü üçün qərinə olsa və baqası da “mən meyyitin vəliy” və ya “vəsisiyəm” və ya “meyyitin vəlisi mənə icazə vermişdir” deməsə, bu halda meyyitin işləri onun öhdəsindədir. Əgər onun iddiasının göstəricisi olmasa və baqası da “mən meyyitin vəliy” və ya “vəsisiyəm” və ya “meyyitin vəlisi mənə icazə vermişdir” desə, əgər iki adil .şəxs, birincinin sözünə şəhadət versə gərək onun sözü qəbul olunsun

Məsələ: ۵۵۵. Əgər meyyit, əvvəlcədən özünün qüsl, kəfən, dəfn və namazı üçün qəyyumundan qeyri bir şəxsi təyin etsə, meyyit təyin etdiyi şəxs mühüm və onun icazəsi kifayətdir. Meyyitin bu işləri yerinə yetirməsini müəyyən etdiyi şəxs, bu vəsiyyəti vəsiyyət edənin diri olduğu vaxt qəbul etməsi lazım deyil. Əgər qəbul etsə və ya qəbul etməsə, amma qəbul etməməsi xəbəri, vəsiyyət edənə çatmasa, gərək ona əməl etsin. Əgər onun ölümündən sonra onun vəsiyyətindən agah olsa, gərək onun .vəsiyyətinə əməl etsin

MEYYİT QÜSLÜNÜN HÖKMLƏRİ

:Məsələ: ۵۵۶. Meyyitə üç qüsl vermək vacibdir

;Sidr qatılmış su ilə-۱

;Kafur qatılmış su ilə-۲

;Xalis su ilə-۳

Məsələ: ۵۵۷. Sidr və kafur, gərək suyu müzaf edəcək qədər çox olmasin; habelə, .həddindən artıq az da olmamalıdır ki, “ona sidr və kafur qatılmayıb” deməsinlər

Məsələ: ۵۵۸. Əgər sidr və kafur lazım olan miqdarda tapılmasa, ehtiyat-vacibə görə, .gərək tapılan miqdarda suya töksünlər

Məsələ: ۵۵۹. Əgər həcc üçün ehram bağlayan bir şəxs, əgər həccdə (Səfa və Mərva arasındakı) "səy" əməlindən qabaq və "ümrə" zamanı "təqsir" əməlindən qabaq ölsə, gərək ona kafur qatılmış su ilə qüsl verməsinlər; gərək onun yerinə xalis su ilə qüsl .versinlər

Məsələ: ۵۶۰. Əgər sidr və kafur, yaxud ikisindən biri tapılmasa, yaxud istifadəsi caiz olmasa; məsələn: qəsbi olsa, gərək mümkün olmayan hər birinin yerinə meyyitə xalis .su ilə qüsl versinlər

Məsələ: ۵۶۱. Meyyitə qüsl verən şəxs, gərək müsəlman, on iki İmam şiəsi, aqil, həddi-büluğa çatmış və qüsl məsələlərini bilən olsun və ya məsələni bilənin göstərişi ilə ğüsl .versin. Ehtiyat-vacibə əsasən baliğ olmayanın ğüsl verəməsi kifayət etmir

Məsələ: ۵۶۲. Meyyitə qüsül verən şəxs, gərək qürbət qəsdi ilə, yəni Allahın əmrini yerinə yetirmək niyyəti ilə yerinə yetirsin və ehtiyata görə ikinci və üçüncü qüslün .əvvəlində də öz niyyətini təzələsin

Məsələ: ۵۶۳. Müsəlman uşağına, hətta zinadan da olsa qüsl vermək vacibdir. Kafir və onun övladına qüsl, kəfən, dəfn işlərini etmək caiz deyildir. Uşaqlıqda dəli olub, elə bu halda da həddi-büluğa çatıb ölən bir şəxsin ata-anası, yaxud onlardan biri müsəlman olsa, gərək ona qüsl verilsin. Əgər onlardan heç biri müsəlman olmasa, ona qüsl .vermək caiz deyildir

Məsələ: ۵۶۴. Siqt olunmuş uşağa, dörd aylıq və daha artıq olarsa, gərək qüsl versinlər. .Amma dörd ayı tamam olmasa, gərək bir parçaya büküb qüsl vermədən dəfn etsinlər

Məsələ: ۵۶۵. Əgər kişi qadına və ya qadın kişiyə qüsl versə, batildir. Amma arvad öz .ərinə, ər də arvadına qüsl verə bilər

Məsələ: ۵۶۶. Kişi, yaşı üçdən keçməmiş ölü qız uşağına, qadın da yaşı üçdən keçməyən .oğlan uşağına qüsl verə bilər

Məsələ: ۵۶۷. Əgər ölmüş kişiyə qüsl vermək üçün kişi tapılmazsa, ona qohumluq səbəbi ilə məhrəm olan qadınlar (ana, bacı, bibi, xala), yaxud süd verməklə məhrəm olan .qadınlar, ona paltarla və ya onun bədənini örtən bir şeylə qüsl verə bilərlər

Həmçinin, əgər ölmüş qadına qüsl vermək üçün qadın tapılmazsa, onunla qohumluq səbəbi ilə, yaxud süd vasitəsilə məhrəm olan kişilər, ona paltar və onun tək şeylərlə .qüsl verə bilərlər

Məsələ: ۵۶۸. Əgər meyyit və ona qüsl verən hər ikisi kişi, yaxud hər ikisi qadın olsa, .yaxşı olar ki, övrətdən başqa meyyitin başqa yerləri açıq olsun

Məsələ: ۵۶۹. Meyyitin övrətinə baxmaq haramdır. Ona qüsl verən şəxs, onun övrətinə .baxsa, günah etmişdir, amma verdiyi qüsl batil olmaz

Məsələ: ۵۷۰. Əgər meyyitin bədəninin hər hansı bir yeri nəcis olsa, gərək qüsl verilməmişdən qabaq o yeri suya çəkilsin. Ehtiyat-müstəhəb budur ki, meyyitin .bədəninin hər yeri qüslü başlamazdan qabaq pak olsun

Məsələ: ۵۷۱. Meyyitə verilən qüsl, cənabət qüslü kimidir. Ehtiyat-vacib budur ki, nə qədər ki, tərtibi qüsl mümkündür, irtimasi qüsl verməsinlər. Tərtibi qüsüldə, bədənin hər üç qismindən birini tərtib qaydasını qorumaqla kəsir suda suya batırıb qüsl .verməyin eybi yoxdur

Məsələ: ۵۷۲. Heyz və ya cənabət halında ölən bir şəxsə, heyz və cənabət qüslü vermək .lazım deyil, meyyit qüslü kifayətdir

Məsələ: ۵۷۳. Meyyitə qüsl vermək üçün muzd almaq haramdır. Əgər bir şəxs, muzd almaq üçün meyyitə qüsl versə, o qüsl batildir. Amma qüslün müqəddimati işləri üçün .muzd almaq haram deyil

Məsələ: ۵۷۴. Əgər su tapılmasa və yaxud suyun istifadə olmasında maneələr olsa, gərək hər qüslün əvəzində o meyyitə bir təyəmmüm verilsin; ehtiyat-vacib budur ki, hər üç qüslün əvəzində bir təyəmmüm verilsin, sonra isə üç qüsülün hər biririnin .əvəzində bir təyəmmüm verilsin

Məsələ: ۵۷۵. Meyyitə təyəmmüm edən şəxs, gərək öz əllərini yerə vurub, meyyitin üzünə və əllərinin üstünə çəksin. Əgər mümkün olsa, ehtiyat-müstəhəb görə meyyitin .əlləri ilə də, ona təyəmmüm versin

Məsələ: ۵۷۶. Müsəlman meyyiti, gərək “fitə” (long), “köynək” və “sərtasər” adlanan üç .parça ilə kəfənə bükülsün

Məsələ: ۵۷۷. (Long) fitə, gərək bədəni göbəkdən dizlərə qədər örtsün. Ondan yaxşısı budur ki, sinəsindən ayağının üstünə qədər çatsın. Gərək köynək, çiyindən (saq) dizlə topuğun arasına qədər örtsün. Daha yaxşı olar ki, ayağın üstünə çatsın. Köynəyi arxadan qısaltmaq, necə ki, bəzi yerlərda adət şəklin alıb, onun haqqında bir dəlil nəzərə çarpmır. Sərtasərin uzunluğu gərək o qədər olsun ki, onun iki tərəfdən baş uclarını bağlamaq mümkün olsun. Eni də o gərək qədər olmalıdır ki, (meyyiti onunla) .bükdükdə bir tərəfi o biri tərəfin üstünə gəlsin

Məsələ: ۵۷۸. Fitənin göbəkdən dizə qədər örtən bir miqdarı və köynəyin çiyinlərdən (saq) dizlə topuq arası qədər örtən miqdarı kəfənin vacib miqdarıdır. Keçən məsələdə .bundan artıq deyilən miqdar, kəfənin müstəhəb miqdarıdır

Məsələ: ۵۷۹. Əgər meyyitin vərəsələri, həddi-büluğa çatmış olsalar və kəfənin (əvvəldəki məsələdə deyilən) vacibi miqdardan artığını onların irs paylarından götürülməsinə icazə versələr, eybi yoxdur. Ehtiyat-vacib budur ki, kəfənin vacib .miqdarından artıq qədərini baliğ olmamış varisin payından götürməsinlər

Məsələ: ۵۸۰. Əgər bir şəxs kəfənin müstəhəb hissəsini (ki, iki məsələ bundan qabaq deyilidi) onun malının üçdə birindən götürülməsini, yaxud malının üçdə birinin onun özünə xərclənməsini vəsiyyət etsə, amma onun sərf olunacağı yerləri müəyyən etməsə, yaxud onun təkcə müəyyən miqdarını sərf olunacağı yerləri müəyyən etsə, .bu halda kəfənin müstəhəb miqdarını onun malının üçdə birindən götrə bilərlər

Məsələ: ۵۸۱. Əgər meyyit kəfənini, malının üçdə bir hissəsindən götürülməsini vəsiyyət etməsə və malın əslindən götürmək istəsələr, ehtiyat-vacib büdür ki, kəfənin vacib miqdarını, mümkün olan ən ücüz qiymətlə əldə etsinlər. Amma

vərəsələrdən həddi buluğa çatmış şəxslərdən öz paylarından bir miqdarının götürülmasinə icazə versələr, icazə verdikləri miqdarda onların paylarından götürmək .olar

Məsələ: ۵۸۲. Qadının kəfəni, hətta özünün malı da olsa, ərinin öhdəsinədir. Həmçinin təlaq kitablarında şərh olunduğu kimi, qadına "rici təlaq" versələr və iddəsi tamam olmamış ölsə, gərək onun əri kəfənini versin. Onun əri həddi-büluğa çatmamış və ya .dəli olsa, ərinin qəyyumu gərək onun malından, o qadının kəfənini versin

Məsələ: ۵۸۳. Sağlığında yaşayış xərcləri qohumlarına vacib olan şəxs, öləndən sonra .kəfəni, onlara vacib deyil

Məsələ: ۵۸۴. Ehtiyat-vacibə görə, kəfənin hər üç parçası, o qədər nazik olmamalıdır ki, .meyyitin bədəni görünsün

Məsələ: ۵۸۵. Əgər başqa bir şey tapılmasa da, meyyiti murdar heyvanın dərisi və qəsbi şeylə kəfənə bükmək caiz deyildir. Əgər meyyitin kəfəni qəsbi olsa və onun sahibi razı .olmasa, hətta onu dəfn etmiş olsalar belə, gərək kəfəni onun bədənindən çıxarsınlar

Məsələ: ۵۸۶. Nəcis şeylə, xalis ipək, yaxud qızıldan toxunmuş parça ilə meyyiti kəfənə .bükmək caiz deyildir, amma çarəsizlik halında eybi yoxdur

Məsələ: ۵۸۷. Meyyiti, əti haram olan heyvanların yunundan və yə tükündən və ya yunundan toxunmuş parça ilə kəfənə bükmək, ixtiyar halında caiz deyildir. Amma şəri göstərişə əsasən, kəsilmiş, əti halal olan heyvanın dərisi əgər paltar demək mümkün olsa kəfənləmək icazəlidir. Əgər kəfən, əti halal olan heyvanın tükündən və yunundan hazırlanıbsa, eybi yoxdur. Amma ehtiyat-müstəhəb budur ki, bu ikisi ilə də kəfənə .bükməsinlər

Məsələ: ۵۸۸. Əgər meyyitin kəfəni, onun öz nəcisi, yaxud başqa bir nəcasətlə nəcis olsa, bu halda kəfən zay olmazsa, qəbrə qoymuş olsalar belə, gərək nəcis miqdarı yuyub, yaxud kəssinlər. Əgər onu yumaq və ya kəsmək mümkün olmazsa, .dəyişdirilməsi mümkün olan halda, gərək dəyişdirsinlər

Məsələ: ۵۸۹. Həcc, yaxud ömrə üçün ehram bağlayan bir şəxs

.ölsə, gərək başqaları kimi kəfənlənsin. Başının və üzünün örtülməsinin eybi yoxdur

.Məsələ: ۵۹۰. Müstəhəbdir ki, insan sağlığında kəfən, sidr və kafurunu hazırlasın

HƏNUTUN HÖKMLƏRİ

Məsələ: ۵۹۱. Qüsldən sonra vacibdir ki, meyyitə hənut vursunlar, yəni alnına, əllərinin içinə, dizlərinin başına, ayaqlarının iki baş barmaqlarının ucuna kafur sürtsünlər. Ehtiyat-müstəhəbə əsasən sadalanan üzüvlərdə bir miqdar kafur da quysunlar. Müstəhəbdir ki, meyyitin burnunun ucuna da kafur sürtsünlər. Gərək kafur təzə və .əzilmiş olsun. Əgər köhnəlmək səbəbilə ətri getsə, kifayət deyildir

Məsələ: ۵۹۲. Ehtiyat-vacib budur ki, əvvəl kafuru meyyitin alnına vursunlar. Amma .meyyitin başqa üzvlərinə hənut vuranda tərtibə riayət etmək lazım deyildir

Məsələ: ۵۹۳. Daha yaxşı olar ki, kəfənə bükməmişdən əvvəl, meyyitə hənut vursunlar. .Amma kəfənə bükmə əsnasında və ondan sonra da vurmağın maneəsi yoxdur

Məsələ: ۵۹۴. Həcc və ya ömrə üçün ehram bağlayan bir şəxs, “səy” və ya “təvaf” .əməlini tamamladıqdan sonra ölsə, ona hənut vurmaq icazəlidir

Məsələ: ۵۹۵. Əri ölən və iddəsi tamam olmayan qadın özünü ətirləməsinin haram .olmasına baxmayaraq, ölərsə, ona hənut vurmaq vacibdir

Məsələ: ۵۹۶. Ehtiyat-vacib budur ki, meyyitə müşk, ənbər, ud və s. ətirlər vurmasınlar, .yaxud hənut edəndə onları kafura qarışdırmasınlar

Məsələ: ۵۹۷. Müstəhəbdir ki, həzrət Seyyidüş-şühədanın (ələyhis-səlam) türbətindən bir qədər kafura qarışdırsınlar. Amma gərək o kafurdan ehtiramsızlıq olan bədən üzvlərinə vurmasınlar. Həmçinin, gərək türbət o qədər çox olmasin ki, kafurla qarışanda

.daha ona kafur deyilməsin

Məsələ: ۵۹۸. Əgər kafur tapılmazsa və ya təkcə qüsl miqdarında olarsa, hənut lazım deyil əgər qüsla istifadə olunan miqdardan çox olarsa, amma yeddi üzvün hənutuna .çatmasa, gərək əvvəlcə alnına vursunlar. Əgər çox qalarsa, başqa üzvlərə vursunlar

Məsələ: ۵۹۹. Müstəhəbdir ki, iki ədəd tər-təzə çubuğu, meyyitlə yanaşı qəbrə .qoysunlar

MEYYİT NAMAZININ HÖKMLƏRİ

Məsələ: ۶۰۰. Müsəlman meyyitə, hətta uşaq da olsa belə namaz qılmaq vacibdir, amma gərək uşağın ata-anası, yaxud onlardan biri müsəlman olsun və ya başqa bir dəlil o .uşağın müsəlman olmasını göstərsin və altı yaşı da tamam olmuş olsun

Məsələ: ۶۰۱. Altı yaşı tamam olmayan uşağa namaz qılmaq müstəhəb, amma ölü .dünyaya gəlmiş uşağa namaz qılmaq müstəhəb deyil

Məsələ: ۶۰۲. Meyyit namazı gərək, qusl, kəfən və hənut işlərindən sonra qılınsın. Əgər bu işlərdən qabaq və ya bu işlər əsnasında, unutqanlıq, yaxud məsələni bilməməzlik .üzündən qılınmış olsa belə, kifayət deyildir

Məsələ: ۶۰۳. Meyyit namazı qılmaq istəyən şəxsin dəstəmaz, qusl, yaxud təyəmmüm alması üçün, bədəninin, yaxud paltarının pak olması lazım deyil. Hətta onun paltarı qəsbi də olsa, eybi yoxdur. Amma ehtiyat-müstəhəbə görə sair namazlarda riayət .olunmalı şeylər bunda da riayət olunsun

Məsələ: ۶۰۴. Meyyitə namaz qılan şəxs, gərək üzü qibləyə dayansın. Həmçinin vacibdir ki, meyyiti onun qarşısında arxası üstə elə uzatsınlar ki, başı namaz qılanın sağ .tərəfində, ayağı isə sol tərəfində olsun

Məsələ: ۶۰۵. Ehtiyat-vacibə görə namaz qılanın məkanı gərək qəsbi olmasın. Həmçinin meyyitin qoyulduğu yerdən alçaq və ya

.uca olmasin. Amma azacıq alçaq və ya uca olsa, eybi yoxdur

Məsələ: ۶۰۶. Namaz qılan şəxs gərək meyyitdən uzaq olmasın. Amma meyyit namazını camaatla qılan şəxs, meyyitdən uzaq olsa və camaat namazının cərgələri bir-birinə .bitişik olsa, eybi yoxdur

Məsələ: ۶۰۷. Meyyit namazı qılan şəxs, gərək meyyitlə üzbəüz dursun. Amma namaz camaatla qılınsa və camaat namazının cərgələri iki tərəfdən meyyiti ötüb keçsə, .meyyitin müqabilində durmayan şəxslərin namazının eybi yoxdur

Məsələ: ۶۰۸. Meyyitlə namaz qılan şəxsin arasında gərək pərdə, divar və s. kimi şeylər .olmasın. Amma meyyit, tabut və bu kimi şeylərin içində olsa, eybi yoxdur

Məsələ: ۶۰۹. Meyyit namazı qılınan vaxt, gərək meyyitin övrəti örtülsün. Əgər onu kəfənləmək mümkün olmazsa, gərək onun övrətini hətta taxta, kərpic və s. kimi .şeylərlə də olsa örtsünlər

Məsələ: ۶۱۰. Meyyit namazını, gərək ayaq üstə və qürbət niyyəti ilə qılsın və niyyətdə meyyit müəyyənləşdirilməlidir; məsələn: "bu meyyitə namaz qılıram, qürbətən iləllah" .deyə niyyət etsin

Məsələ: ۶۱۱. Əgər meyyitə ayaq üstə namaz qıla bilən bir şəxs tapılmazsa, oturan .halda namaz qılan şəxs ona namaz qıla bilər

Məsələ: ۶۱۲. Əgər meyyit, müəyyən bir şəxsin ona namaz qılmasını vəsiyyət etmiş olsa, ehtiyat-vacib budur ki, o şəxs meyyitin qəyyumundan icazə alsın. Qəyyuma da .vacibdir icazə versin

Məsələ: ۶۱۳. Bir meyyitə bir neçə dəfə namaz qılmaq məkruhdur. Amma meyyit elm və .təqva əhli olarsa, məkruh deyil

Məsələ: ۶۱۴. Əgər meyyiti, bilərəkdən, yaxud unutqanlıq üzündən və ya müəyyən bir üzr səbəbi ilə namazsız dəfn etmiş olsalar, yaxud dəfn etdikdən sonra qılınan namazın batil olması məlum olarsa, nə qədər ki, onun cəsədi çürüməyib, vacibdir ki, meyyit .namazında deyilən şərtlər daxilində onun qəbrinə namaz qılsınlar

Məsələ: ۶۱۵. Meyyit namazının beş təkbiri vardır. Əgər namaz qılan beş təkbiri bu :tərtiblə desə, kifayətdir: Niyyətdən və birinci təkbirdən sonra desin

أَشهَدُ أن لَاإلَهَ إلّاَاللهُ وَأَنَّ مُحَمَّداً رَسُولُ اللهِ

.Əşhədu ənla ilahə illəllah və ənnə Muhəmmədən Rəsulullah

:İkinci təkbirdən sonra desin

أَللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

.Əllahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd

:Üçüncü təkbirdən sonra desin

أَللَّهُمَّ اغْفِرْلِلْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ

.Əllahumməğfir lil-mu`mininə vəl-mu`minat

:Dördüncü təkbirdən sonra əgər meyyit kişidirsə, desin

أَللَّهُمَّ اغْفِرْ لِهَذَا الْمَيِّتْ

.Əllahumməğfir li hazəl-məyyit

:Əgər qadın olarsa, desin

أَللَّهُمَّ اغْفِرْ لِهَذِهِ الْمَيِّتْ

.Əllahumməğfir li hazihil-məyyit

Ehtiyata görə, təkcə duanın sözlərini tələffüz etmək deyil, duada niyyət müəyyən .olsun və sonra ۵-ci təkbiri desin

:Daha yaxşı olar ki, birinci təkbirdən sonra bu duanı oxusun

أَشْهَدُ أَنْ لَاإِلَهَ إِلَّااللهُ وَحْدَهُ لَاشَرِيكَ لَهُ وَ أَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبدُهُ وَرَسُولُهُ أَرْسَلَهُ بِالْحَقِّ بَشِيرًا وَنَذِيرًا بَيْنَ يَدَىِ السَّاعَهِ

:İkinci təkbirdən sonra bu duanı oxusun

أَللّٰهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَارْحَمْ مُحَمَّدًا وَآلَ مُحَمَّداً كَأَفْضَلِ مَاصَلَّيْتَ وَبَارَكْتَ وَتَرَحَّمْتَ عَلَى إِبْرَاهِيمَ وَآلِ إِبْراهِيمَ إِنَّکَ حَمِيدٌ مَجِيدٌ وَصَلِّ عَلَى جَمِيعِ الْأَنْبِيَاءِ وَالْمُرْسَلِينَ وَ الشُّهَدَاءِ وَالصِّدِّيقِينَ وَجَمِعِ عِبَادِاللهِ الصَّالِحِينَ.

Üçüncü təkbirdən sonra bu duanı oxusun:

أَللّٰهُمَّ اغْفِرْ لِلْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَالْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ الأَحْيَاءِ مِنْهُمْ وَالْأَمْوَاتِ تَابِعِ بَيْنَنَا وَبَيْنَهُمْ بِاالْخَيْرَاتِ إِنَّکَ مُجِيبُ الدَّعَوَاتِ إِنَّکَ عَلَى كُلِّ شَیءٍ قَدِيرٍ.

Dördüncü təkbirdən sonra meyyit kişidirsə, bu duanı oxusun:

أَللّٰهُمَّ إِنَّ هٰذَا عَبْدُکَ وَابْنُ عَبْدِکَ وَابْنُ أَمَتِکَ نَزَلَ بِکَ وَأَنْتَ خَيْرُ مَنْزُولٍ بِهِ ، أَللّٰهُمَّ إِنَّا لاَ نَعْلَمُ مِنْهُ إِلاَّ خَيْرًا وَأَنْتَ أَعْلَمُ بِهِ مِنَّا، أَللّٰهُمَّ إِنْ كَانَ مُحْسِنًا فَزِدْ فِی إِحْسَانِهِ وَ إِنْ كَانَ مُسِيئًا فَتَجَاوَزْ عَنْهُ وَاغْفِرْ لَهُ، أَللّٰهُمَّ اجْعَلْهُ عِنْدَکَ فِی أَعْلَى عِلِّيِّينَ وَاخْلُفْ عَلَى أَهْلِهِ فِی الْغَابِرِينَ وَارْحَمْهُ بِرَحْمَتِکَ يَاأَرْحَمَ الرَّاحِمِينَ.

Dördüncü təkbirdən sonra meyyit qadındırsa, bu duanı oxusun:

أَللّٰهُمَّ إِنَّ هٰذِهِ أَمَتُکَ وَابْنَتُ عَبْدِکَ وَابْنَتُ أَمَتِکَ نَزَلَتْ بِکَ وَأَنْتَ خَيْرُ مَنْزُولٍ بِهِ ، أَللّٰهُمَّ إِنَّا لاَ نَعْلَمُ مِنْهَا إِلاَّ خَيْرًا وَأَنْتَ أَعْلَمُ بِهَا مِنَّا، أَللّٰهُمَّ إِنْ كَانَتْ مُحْسِنَةً فَزِدْ فِی إِحْسَانِهَا وَإِنْ كَانَتْ مُسِيئَةً فَتَجَاوَزْ عَنْهَا وَاغْفِرْلَهَا، أَللّٰهُمَّ اجْعَلْهَا عِنْدَکَ فِی أَعْلَى عِلِّيِّينَ وَاخْلُفْ عَلَى أَهْلِهَا فِی الْغَابِرِينَ وَارْحَمْهَا بِرَحْمَتِکَ يَا أَرْحَمَ الرَّاحِمِينَ.

Sonra beşinci təkbiri desin.

Məsələ: ۶۱۶. Meyyit namazının təkbirləri və duaları elə ardıcıl oxunmalıdır ki, gərək namaz, öz surətindən çıxmasın.

Məsələ: ۶۱۷. Meyyit namazını camaatla birlikdə qılan şəxs gərək təkbirləri və duaları oxusun.

MEYYİT NAMAZININ MÜSTƏHƏBBATI

Məsələ: ۶۱۸. Bir neçə şey meyyit namazında müstəhəbdir:

Meyyit namazını qılan şəxs, dəstəmaz yaxud qusl və ya təyəmmüm almış olsun;-۱ ehtiyat-müstəhəbə görə, o vaxt təyəmmüm almalıdır ki, dəstəmaz və qüsl almaq mümkün olmasın, yaxud dəstəmaz və ya qüsl alacağı təqdirdə meyyit namazına çata .bilməsin

Əgər meyyit kişidirsə, camaata imamlıq edən, yaxud ona namazı təklikdə qılan şəxs,-۲ ;cənazənin orta hissəsinin; və əgər meyyit qadındırsa, sinəsinin müqabilində dursun

Ayaqyalın namaz qılsın; Yəni ayaqqabısız namaz qılsın amma corabla olsa eybi-۳ .yoxdır

;Hər təkbiri deyəndə iki əlini qaldırsın-۴

Onunla meyyitin arasındakı məsafə çox az olsun; belə ki, əgər külək onun paltarını-۵ ;hərəkət etdirsə, cənazəyə toxunsun

;Meyyit namazı camaatla qılınsın-۶

Meyyit namazına imamlıq edən şəxs, təkbiri və duaları ucadan, onunla birlikdə-۷ ;namaz qılanlar isə astadan desinlər

Meyyit namazı, camaatla qılınanda, hətta iqtida edən (məmum) bir nəfər olsa da,-۸ ;imamın arxasında dayansın

;Namaz qılan şəxs meyyitə və möminlərə çoxlu dua etsin-۹

;Namazdan qabaq üç dəfə "əs-səlat" desin-۱۰

;Namazı, camaatın əksərən meyyit namazını qılqıları yerdə qılsın-۱۱

.Haiz qadın camaat namazına dayansa, bir cərgədə tək dayansın-۱۲

Məsələ: ۶۱۹. Meyyit namazını məscidlərdə qılmaq məkruhdur, amma Məscidül-.Həramda məkruh deyildir

DƏFNİN HÖKMLƏRİ

Məsələ: ۶۲۰. Ehtiyat-vacib budur ki, meyyit elə dəfn edilsin ki, onun iyi çölə gəlməsin və yırtıcı heyvanlar onun bədənini çölə çıxara bilməsin. Amma yırtıcı heyvanların onun bədənini çıxarmasından qorxu yaransa, gərək qəbri kərpic və s. kimi

.şeylərlə möhkəmlətsinlər

Məsələ: ۶۲۱. Əgər meyyiti torpaqda dəfn etmək mümkün olmazsa, dəfn etmək yerinə, .onu binada və ya tabuta qoyamaq vacibdir

Məsələ: ۶۲۲. Gərək meyyiti qəbirdə sağ çiyni üstə elə uzatsinlar ki, bədəninin qabağı .üzü qibləyə olsun

Məsələ: ۶۲۳. Əgər bir şəxs gəmidə ölsə, bu halda cəsədi çürüməzsə və gəmidə qalmasının maneəsi olmazsa, gərək gözləsinlər ki, gəmi quruya çatsın və onu torpaqda dəfn etsinlər. Əks halda gərək, gəmidə qüsl verib, hənut-kəfən etməli, namaz qıldıqdan sonra ağır bir şeyi ayağına bağlayıb dəryaya buraxmalı, yaxud onu böyük bir xumrəyə(۱)qoyub ağzını bağlamalı, dəryaya atmalıdırlar. Mümkün olan surətdə, ehtiyat-müstəhəbə əsasən, əvvəl bu yolu seçsinlər (yəni bir xumrəyə qoyub ağzını bağlayıb, dəryaya atsınlar). Mümkün olsa, elə yerdə atsınlar ki, dərhal .heyvanlara yem olmasın

Məsələ: ۶۲۴. Əgər düşmən, qəbri açıb meyyiti çıxaracağından və sonra qulağını, burnunu və ya başqa üzvlərini kəsəcəyindən qorxsalar, onda mümkün olan surətdə, .gərək əvvəlki məsələdə deyildiyi qaydada, onu dəryaya atsınlar

Məsələ: ۶۲۵. Meyyitin dəryaya atılmasının və ya qəbrinin möhkəmləndirilməsinin .xərcləri lazım olan surətdə gərək meyyitin malının əslindən götürülsün

Məsələ: ۶۲۶. Əgər kafir bir qadın ölsə və onun bətnindəki uşaq da ölmüş olsa və ya hələ ruh onun bədəninə daxil olmayıbsa, uşağın atası müsəlman olduğu surətdə, gərək qadını qəbirdə sol böyrü üstə arxası qibləyə tərəf elə uzatsınlar ki, uşağın üzü qibləyə .olsun

Məsələ: ۶۲۷. Müsəlmanın kafir, kafirin də müsəlman qəbiristanlığında dəfn edilməsi .caiz deyildir

;Məsələ: ۶۲۸. Müsəlmanı, ehtiramsızlıq olacağı yerlərdə

١- . Küp.

.məsələn: toz-torpaq və zibil tökülən yerlərdə dəfn etmək caiz deyildir

Məsələ: ۶۲۹. Meyyit, qəsbi yerdə dəfn olunmamalıdır. Meyyiti, dəfndən qeyri işlər üçün .(vəqf olunan məscid kimi) yerlərdə dəfn etmək, caiz deyildir

Məsələ: ۶۳۰. Başqa ölünün qəbrində meyyiti dəfn etmək icazəli deyil, amma qəbir köhnəlib və birinci meyyit tamamilə aradan gedibsə və başqasının mülkü deyilsə .caizdir. Əgər başqasının mülkü olarsa malikinin razılığı lazımdır

Məsələ: ۶۳۱. Meyyitdən ayrılan şeylər, hətta tük, dırnaq, diş kimi olsa da belə, gərək onunla dəfn olunsun. Əgər qəbri açmaqa səbəb olarsa, ayrıca dəfn etsinlər. İnsanın .sağlığında ondan ayrılan dırnağı və dişi yerə basdırmaq müstəhəbdir

Məsələ: ۶۳۲. Əgər bir şəxs quyuya düşüb ölsə və onu çıxarmaq mümkün olmasa, gərək .quyunun ağzını bağlayıb o quyu onun üçün qəbir edilsin

Məsələ: ۶۳۳. Əgər uşaq, ana bətnində ölsə və onun bətndə qalması ana üçün təhlükə doğursa, gərək onu ən asan yolla çıxartsınlar. Əgər onu doğrayıb çıxarmağa naçar olsalar, eybi yoxdur. Amma ərinin vasitəsi ilə (əgər əri bu sahədə mütəxəssisdirsə), yaxud mütəxəssis qadının vasitəsi ilə çölə çıxarılmalıdır. Əgər bu da mümkün olmasa, mütəxəssis olan məhrəm kişilər, bu da mümkün olmasa, mütəxəssis olan naməhrəm kişi, onu çölə çıxarmalıdır. Bu da mümkün olmasa və mütəxəssis tapılmazsa, .mütəxəssis olmayan bir şəxs də uşağı çölə çıxara bilər

Məsələ: ۶۳۴. Hər vaxt əgər ana ölsə və uşaq onun bətnində diri olsa, hətta onun (çıxarılmasından sonra) sağ qalmasına ümid olmasa da, gərək əvvəlki məsələdə deyilən şəxslərin vasitəsi ilə, onun sol böyrünü yarılıb uşağı çıxarmalı, sonra isə yarılan yeri tikməlidirlər. Bu bir haldadır ki, onun sol tərəfinin yarılması, uşaqın həyatında (diri qalması üçün) təsiri olacağına ehtimal verilsin. Belə olmayan halda, hər tərəfdən uşaqın sağ qalması

.ehtimal verilirsə, gərək yarıb uşağı götürsünlər

DƏFNİN MÜSTƏHƏBBATI

Məsələ: ۶۳۵. Müstəhəbdir ki, qəbri normal insan boyunda qazsınlar və ya dərinliyi normal insanın boğazına qədər olsun. Meyyiti ən yaxın qəbiristanlıqda dəfn etsinlər. Amma uzaqda olan qəbiristan müəyyən səbəblərə görə yaxşı olsa; məsələn, yaxşı insanlar o qəbiristanlıqda dəfn edilirsə, yaxud camaat qəbiristan əhlinə Fatihə oxumaq üçün oraya daha çox gəlirlərsə oraya aparsınlar. Həmçinin, meyyiti qəbirin bir neçə metrliyində yerə qoysunlar və üç dəfə yerə qoyub-götürməklə, tədricən qəbirə yaxınlaşdırsınlar. Dördüncü dəfə isə qəbrə daxil etsinlər. Əgər meyyit kişidirsə, üçüncü dəfə onun başı qəbrin aşağı tərəfinə qalacaq şəkildə yerə qoysunlar. Dördüncü dəfədə başı tərəfindən qəbrə daxil etsinlər. Əgər qadındırsa, üçüncü dəfə qəbrin qiblə tərəfinə qoyub, eninə qəbrə daxil etsinlər. Qəbrə qoyarkən, qəbrin üstünə bir parça tutsunlar. Həmçinin, cənazəni aramlıqla tabutdan götürüb, qəbrə qomaq müstəhəbdir. Dəfndən qabaq və dəfn zamanı göstəriş verilmiş duaları oxusunlar. Meyyiti ləhədə qoyduqdan sonra kəfənin düyünlərini açıb üzünü torpağa qoysunlar, başının altında torpaqdan balış kimi düzəltsinlər, arxasına xam kərpic, yaxud kəsək qoysunlar ki, arxaya aşmasın. Ləhədi örtməzdən əvvəl sağ əli meyyitin sağ çiyninə vurub, sol əli qüvvətlə meyyitin sol çiyninə qoysunlar, ağızı onun qulağına yapışdırıb möhkəm silkələyib və :üç dəfə desinlər

إِسْمَعْ إِفْهَمْ يَافُلَانَ ابْنَ فُلَان

"İsmə ifhəm ya Fulanəbnə fulan"

Fulan" kəlməsinin yerinə meyyitin adını və atasının adını desinlər; məsələn: əgər" :meyyitin adı Məhəmməd, atasının adı Əli olarsa, üç dəfə desinlər

إِسْمَعْ إِفْهَمْ يَا مُحَمَّدَ بْنَ عِلِیّ

”İsmə ifhəm, ya Məhəmmədəbnə Əli“

:Ondan sonra desinlər

هَلْ أَنْتَ عَلَى الْعَهْدِ الَّذِی فَارَقْتَنَا عَلَيْهِ مِنْ شَهَادَتِ أَنْ لَا إِلَهَ إِلَّااللَّهُ وَحْدَهُ لَا شَرِيکَ لَهُ وَأَنَّ مُحَمَّدًا صَلَّى اللَّهُ عَلَيْهِ وَآلِهِ عَبْدُهُ وَرَسُولُهُ وَسَيِّدُ النَّبِيِّينَ وَخَاتَمُ الْمُرْسَلِنَ وَأَنَّ عَلِيًّا أَمِيرُ الْمُؤْمِنِينَ وَسَيِّدُ الْوَصِيِّينَ وَإِمَامٌ إِفْتَرَضَ اللهُ طَاعَتَهُ عَلَى الْعَالَمِينَ وَأَنَّ الْحَسَنَ وَالْحُسَيْنَ وَعَلِيَّ بْنَ الْحُسَيْنِ وَمُحَمَّدَ بْنَ عَلِيٍّ وَجَعْفَرَبْنَ مُحَمَّدٍ وَمُوسَى بْنَ جَعْفَرٍ وَعَلِيَّ بْنَ مُوسَى وَمُحَمَّدَ بْنَ عَلِيٍّ وَعَلِيَّ بْنَ مُحَمَّدٍ وَالْحَسَنَ بْنَ عَلِيٍّ وَالْقَائِمَ الْحُجَّهَ الْمَهْدِیَّ صَلَوَاتُ اللهِ عَلَيْهِمْ أَئِمَّهُ الْمُؤْمِنِينَ وَحُجَجُ اللهِ عَلَى الْخَلْقِ أَجْمَعِينَ وَأَئِمَّتُکَ أَئِمَّهُ هُدًى بِکَ أَبْرَارٌ يَا فُلانَ بْنَ فُلان.

Həl əntə ələl-əhdilləzi, farəqtəna ələyhi min şəhadəti ən la ilahə illəllahu vəhdəhu la» şərikə ləh, və ənnə Muhəmmədən səlləllahu ələyhi alihi əbduhu və rəsuluh və səyyidun-nəbiyyinə və xatəmul-mursəlinə, və ənnə Əliyyən əmirul-mu`mininə və səyyidul-vəsiyyinə və imamun iftərəzəllahu taətəhu ələl aləmin, və ənnəl Həsənə vəl-Husəynə və Əliyyəbnəl-Husəyni və Muhəmmədəbnə Əliyyin və Cə`fərəbnə Muhəmmədin və Musəbnə Cə`fərin və Əliyyəbnə Musa və Muhəmmədəbnə Əliyyin və Əliyyəbnə Muhəmmədin vəl Həsənəbnə Əliyyin vəl Qaiməl huccətəl Məhdi səlavatullahi ələyhim ə`immətul mu`mininə və hucəcullahi ələl-xəlqi əcməin və .«ə`immətukə ə`immətu hudən bikə əbrar, ya fulanəbnə fulan

Fulan ibni fulan” kəlməsinin yerinə meyyitin adını və atasının adını deyib sonra“ :desinlər

إِذَا أَتَاکَ الْمَلَکَانِ الْمُقَرَّبَانِ رَسُولَيْنِ مِنْ عِنْدِاللهِ تَبَارَکَ وَتَعَالَى وَسَأَلَاکَ عَنْ رَبِّکَ وَعَنْ نَبِيِّکَ وَعَنْ دِينِکَ وَعَنْ کِتَابِکَ وَعَنْ قِبْلَتِکَ وَعَنْ أَئِمَّتِکَ فَلَا تَخَفْ وَلَا تَحْزَنْ وَقُلْ فِی

səh: ۱۱۹

جَوَابِهِمَا اللهُ رَبیّ وَمُحَمَّدٌ صَلَّی اللهُ عَلَیهِ وَآلِهِ وَ سَلَّم نَبِیِّ وَالْإِسْلامُ دِینِی وَ الْقُرْآنُ

کِتَابِی وَالْکَعْبَهُ قِبْلَتی وَأَمِیرُ الْمُؤْمِنِینَ عَلِیُّ بْنُ أَبِی طَالِبٍ إِمَامِی وَالْحَسَنُ بْنُ عَلِیٍّ الْمُجْتَبی إِمَامِی وَالْحُسَیْنُ بْنُ عَلِیٍّ الشَّهِیدُ بِکَرْبَلا إِمَامِی وَعَلِیٌّ زَیْنُ الْعَابِدِینَ إِمَامِی وَمُحَمَّدٌ الْبَاقِرُ إِمَامِی وَجَعْفَرٌ الصَّادِقُ إِمَامِی وَمُوسَی الْکَاظِمُ إِمَامِی وَعَلِیٌّ الرِّضَا إِمَامِی وَمُحَمَّدٌ الْجَوَادُ إِمَامِی وَعَلِیٌّ الْهَادِی إِمَامِی وَالْحَسَنُ الْعَسْکَرِیُّ إِمَامِی وَالْحُجَّهُ الْمُنْتَظَرُ إِمَامِی هَؤُلاءِ صَلَوَاتُ اللهِ عَلَیْهِمْ أَئِمَّتِی وَسَادَتِی وَقَادَتِی وَشُفَعَائِی بِهِمْ أَتَوَلَّی وَمِنْ أَعْدَائِهِمْ أَتَبَرَّءُ فِی الدُّنْیَا وَالْآخِرَهِ ثُمَّ إِعْلَمْ یَا فُلَانَ بنَ فُلَان.

«İza ətakəl mələkanil muqərrəbani rəsuləyni min indillahi təbarəkə və tə`ala və sə`əlakə ən rəbbikə və ən nəbiyyikə və ən dinikə və ən kitabikə və ən qiblətikə və ən ə`immətikə fəla təxəf və la təhzən və qul fi cəvabihima Əllahu rəbbi və Muhəmmədun səlləllahu ələyhi və alihi nəbiyyi. Vəl islamu dini vəl Qur`anu kitabi. Vəl kə`bətu qibləti və Əmirul-mu`mininə Əliyyubnu Əbi Talibin imami vəl Həsənubnu Əliyyin əl muctəba imami vəl-Husəynubnu Əliyyin əş-şəhidu bi Kərbəla imami və Əliyyun Zəynul-abidinə imami və Muhəmmədun Baqiru imami və Cə`fərunissadiqu imami və Musəl Kazimu imami və Əliyyur-riza imami və Muhəmmədul Cəvadu imami və Əliyyul Hadi imami vəl Həsənul Əskəri imami vəl Huccətul muntəzəru imami haulai sələvatullahi ələyhim ə`imməti və sadəti və qadəti və şufə`ai bihim ətəvəlla və min ə`daihim ə`təbərrə`u fiddunya vəl axirə, summə i`ləm ya fulanəbnə fulanin».

“Fulanəbnə fulan” kəlmələrinin yerinə meyyitin və atasının adını deyib sonra desinlər:

إِنَّ اللهَ تَبَارَکَ وَتَعَالَی نِعْمَ الرَّبُّ وَأَنَّ مُحَمَّداً صَلَّی اللهُ عَلَیْهِ وَآلِهِ وَ سَلَّم نِعْمَ الرَّسُولُ وَأَنَّ عَلِیَّ بْنَ أَبِی طَالِبٍ وَأَوْلَادَهُ الْمَعْصُومِینَ الْأَئِمَّهَ الْإِثْنَی عَشَرَ نِعْمَ الْأَئِمَّهُ وَأَنَّ مَاجَاءَ بِهِ مُحَمَّدٌ صَلَّی اللهُ عَلَیهِ وَ آلِهِ وَ سَلَّم حَقٌّ وَأَنَّ الْمَوْتَ حَقٌّ وَسُؤالَ مُنْکَرٍ وَنَکِیرٍ فِی الْقَبْرِ

حَقٌّ وَالْبَعْثَ حَقٌّ وَالنُّشُورَ حَقٌّ وَالصِّرَاطَ حَقٌّ وَالْمِيزَانَ حَقٌّ وَتَطَايُرَ الْكُتُبِ حَقٌّ وَأَنَّ الْجَنَّةَ حَقٌّ وَالنَّارَ حَقٌّ وَأَنَّ السَّاعَةَ آتِيَةٌ لاَرَيْبَ فِيهَا وَأَنَّ اللهَ يَبْعَثُ مَنْ فِى الْقُبُورِ.

İnnəllahə təbarəkə və tə`ala ni`mərrəb, və ənnə Muhəmmədən səlləllahu ələyhi və» alihi ni`mərrəsul, və ənnə

Əliyyəbnə əbi Talibin və ovladəhul mə`suminəl-ə`immətəl isna əşərə ni`məl ə`immə və ənnə ma ca`ə bihi Muhəmmədun səlləllahu ələyhi və alihi həqqun və ənnəl movtə həqqun. Və sualə munkərin və nəkirin fil-qəbri həqqun Vəl bə`sə həqqun vənnuşurə həqqun vəssiratə həqqun, vəlmizanə həqqun. Və tətayurəl kutubi həqqun, və ənnəl cənnətə həqqun, vənnarə həqqun, və ənnassaətə atiyətun la rəybə fiha və ənnəllahə .«yəb`əsu mən fil qubur

:Sonra desin

أَفَهِمْتَ يَا فُلان

Əfəhimtə ya fulan

:Fulan" kəlməsinin yerinə meyyitin adını deyib, sonra isə bunu desin"

ثَبَّتَكَ اللهُ بِالْقَوْلِ الثَّابِتِ وَهَدَاكَ اللهُ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ عَرَّفَ اللهُ بَيْنَكَ وَبَيْنَ أَوْلِيَائِكَ فِى مُسْتَقَرٍّ مِنْ رَحْمَتِهِ

Səbbətəkəllahu bil-qovlissabiti və hədakəllahu ila siratin mustəqim, ərrəfəllahu» «bəynəkə və bəynə ovliyaikə fi mustəqərrin min rəhmətih

:Sonra bunu desin

أَللَّهُمَّ جافِ الْأَرْضَ عَنْ جَنْبَيْهِ واصْعَدْ بِرُوحِهِ إِلَيْكَ وَلَقِّهِ مِنْكَ بُرْهَانًا أَللَّهُمَّ عَفْوَكَ عَفْوَكَ.

Əllahummə cafil-ərzə ən cənbəyhi və əs`id biruhihi iləykə vələqqihi minkə burhanən.» .«Əllahummə əfvəkə əfvək

Məsələ: ۶۳۶. Müstəhəbdir ki, meyyiti qəbrə qoyan şəxs təharətli, başı açıq, ayaqyalın olsun və meyyitin ayaq tərəfindən qəbirdən çıxsın. Meyyitin qohumlarından başqa, orada olan şəxslər, əllərinin arxası ilə torpağı qəbrə töküb, "inna lillahi və inna iləyhi raciun" desinlər. Əgər meyyit qadın olsa, onu, məhrəm olanlardan biri qəbrə qoysun. .Əgər məhrəmi olmazsa, sair qohumları onu qəbrə qoysun

Məsələ: ۶۳۷. Müstəhəbdir ki, qəbri dördbucaq və düzbucaqlı dördbucaq şəkldə düzəltsinlər, dörd barmaq miqdarında yerdən ucaldıb üstünə müəyyən əlamət qoysunlar ki, səhv olunmasın və qəbrin üstünə su səpsinlər. Su səpəndən sonra orada olanlar əllərini qəbrin üstünə qoyub barmaqları açıq halda torpağa batırsınlar, belə ki, bir az miqdarda barmaqlarının izi qalsın və mübarək "İnna ənzəlnahu" surəsini yeddi .dəfə oxuyub sonra meyyit üçün Allahdan bağışlanmaq diləyib, bu duanı oxusunlar

أَللَّهُمَّ جافِ الْأَرْضَ عَنْ جَنْبَيْهِ وَاَصْعِدْ إِلَيْكَ رُوحَهُ وَلَقِّهِ مِنْكَ رِضْوَانًا وَاَسْكِنْ قَبْرَهُ مِنْ رَحْمَتِكَ مَاتُغْنِيهِ بِهِ عَنْ رَحْمَهِ مَنْ سِوَاكَ.

Əllahummə cafil-ərzə ən cənbəyhi və əs`id iləykə ruhəhu və ləqqihi minkə rizvanən» «.və əskin qəbrəhu min rəhmətikə ma tuğnihi bihi ən rəhməti mən sivakə

Məsələ: ۶۳۸. Cənazənin dəfn mərasimində iştirak edənlər gedəndən sonra müstəhəbdir ki, meyyitin vəlisi, yaxud vəlisinin tərəfindən icazəsi olan bir şəxs .göstərişi verilən duaları meyyitə təlqin etsin

Məsələ: ۶۳۹. Dəfndən sonra müstəhəbdir ki, matəm sahiblərinə başsağlığı verilsin. Amma müəyyən müddət keçsə və başsağlığı vermək, baş verən müsibəti onlara xatırlatmağa səbəb olarsa, onu etməmək daha yaxşıdır. Həmçinin müstəhəbdir ki, üç gün meyyitin ev əhlinə (ailə üzvlərinə) yemək göndərilsin. Onların yanında və .mənzillərində yemək yemək məkruhdur

Məsələ: ۶۴۰. Müstəhəbdir ki, insan qohumlarının, xüsusilə də

övladının ölümündə səbirli olsun, hər vaxt meyyiti yad edəndə, “İnna lillahi və inna iləyhi raciun” desin; meyyit üçün Quran oxusun, ata-ananın qəbrinin yanında Allahdan hacətlərini istəsin. Qəbri, tez xarab olmaması üçün möhkəm düzəltsinlər.

Məsələ: ۶۴۱. İnsanın bir şəxsin ölümündə üzünü, yaxud bədənini cırmaqlaması ilə özünə xəsarət vurması caiz deyildir.

Məsələ: ۶۴۲. Əgər kişi, arvadının yaxud övladının ölümündə paltarının yaxasını cırsa, yaxud qadın meyyitin matəmində üzünü cırsa və ya öz saçlarını yolsa, gərək bir qul azad etsin, yaxud on fəqirə təam versin, yaxud da onları geyimlə təmin etsin. Əgər qadın öz saçlarını bıçaq, qayçı və bunun kimi şeylərlə kəsərsə, gərək bir qul azad etsin, yaxud altımış nəfərə yemək versin və ya iki ay oruc tutsun.

Məsələ: ۶۴۳. Ehtiyat-vacib budur ki, meyyitə ağlamaqda səsi çox ucaltmasınlar.

VƏHŞƏT NAMAZI

Məsələ: ۶۴۴. Müstəhəbdir ki, meyyitin dəfn olunduğu ilk gecə, onun üçün iki rəkət vəhşət namazı qılsınlar. Onun qılınması qaydası belədir: Birinci rəkətdə Həmd surəsindən sonra bir dəfə “Ayətul-kürsünü” oxusun. Ehtiyat budur ki, “Ayətəl-kürsünü” “hum fiha xalidun”-a qədər oxusunlar. İkinci rəkətdə isə Həmd surəsindən sonra on dəfə “İnna ənzəlnahu” surəsi oxunsunlar, namazın salamından sonra desinlər:

أَللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَدٍ وَابْعَثْ ثَوَابَهَا إِلَى قَبْرِ فُلان

“Əllahummə səlli əla Mühəmmədin və ali Mühəmməd vəbəs səvabəha ila qəbri fulan”.

Fulan kəlməsinin yerinə mərhumun adını desinlər.

Məsələ: ۶۴۵. Vəhşət namazını, mərhumun dəfn olunduğu ilk gecənin hər saatında olsa, qılmaq olar. Amma daha yaxşı olar ki, işa namazından sonra gecənin əvvəlində qılınsın.

Məsələ: ۶۴۶. Əgər meyyiti uzaq bir şəhərə aparmaq istəsələr, yaxud başqa səbəblərə görə onun dəfni təxirə düşsə, bu halda gərək vəhşət namazını onun qəbrə qoyulduğu .ilk gecəyə qədər təxirə salsınlar

QƏBRİN AÇILMASI

Məsələ: ۶۴۷. Müsəlmanın qəbrini açmaq hətta uşaq və ya dəli olsa belə, haramdır. .Amma bədəni çürüyüb aradan getsə və torpağa çevrilsə, eybi yoxdur

Məsələ: ۶۴۸. İmamzadələrin (yəni İmam övladlarının), şəhidlərin, alimlərin, saleh .bəndələrin qəbrini açmaq hətta illər ötüb keçsə də belə haramdır

:Məsələ: ۶۴۹. Bir neçə halda qəbri açmaq haram deyildir

Meyyit qəsbi torpaqda dəfn olunsa və yerin sahibi də onun orada qalmasına razı-۱ ;olmasa

Meyyitin dəfn olunduğu kəfən, yaxud onunla birlikdə dəfn olunan başqa şeylər qəsbi-۲ olsa, sahibi də qəbirdə qalmasına razı olmasa. Həmçinin əgər meyyitin vərəsələrinə çatacaq bir şey onunla birlikdə dəfn olunsa, vərəsələr də o şeyin qəbirdə qalmasına razı olmasalar; amma meyyit dua kitabı və Quran, yaxud üzüyünü onunla birlikdə dəfn ;olunmasını vəsiyyət etsə onları çıxarmaq üçün qəbri açmaq olmaz

Meyyit qüslsüz və ya kəfənsiz dəfn olunsa, yaxud qüslünun batil olmasını bilsələr və-۳ ya şəriət qanunlarına uyğun olmayaraq kəfənləmiş olsalar, yaxud da qəbirdə onu üzü ;qibləyə qoymamış olsalar

;Müəyyən bir haqqı sübut etmək üçün meyyitin bədənini görmək istəsələr-۴

Meyyiti, ehtiramsızlıq olan bir yerdə, məsələn: kafirlərin qəbristanlığında, yaxud toz--۵ ;torpaq, zibil tökülən yerlərdə dəfn etmiş olsalar

Qəbrin açılmasından daha çox əhəmiyyətli, olan şəri bir-۶

mətləb üçün qəbri açsalar; məsələn: diri uşağı ölmüş anasının bətnindən çıxartmaq ;istəsələr

Vəhşi heyvanların meyyitin bədənini parçalamasından, sel aparmasından,-٧ ;düşmənlərin çıxartmasından qorxslar

Meyyitin, onunla birlikdə dəfn olunmayan əzasını dəfn etmək üçün; amma ehtiyat--٨ müstəhəb budur ki, bədənin o əzasını, qəbrə elə qoysunlar ki, meyyitin bədəni .görünməsin

MÜSTƏHƏB QÜSÜLLƏR

;Məsələ: ٦٥٠. Müqəddəs İslam şəriətində müstəhəb qüsüllər çoxdur, o cümlədən

Cümə qüslü: Onun vaxtı (cümə günü) sübh azanından zöhr azanına qədərdir. Daha-١ yaxşı olar ki, zöhrə yaxın vaxtlarda yerinə yetirilsin. Əgər bir şəxs zöhrə qədər yerinə yetirə bilməsə, yaxşı olar ki, əda və qəza niyyəti etmədən cümənin əsr vaxtınadək yerinə yetirsin. Əgər cümə günü qüsl etməsə, müstəhəbdir şənbə günü sübhdən qüruba qədər onun qəzasını yerinə yetirsin. Əgər bir şəxs cümə günündə su tapmayacağını bilsə və ya su tapmayacağından qorxsa, cümə axşamı günü yaxud cümə axşamı gününün gecəsi qüsl edə bilər. Cümə axşamı gecəsində “rəca”(١) niyyəti ilə və “tələb olunma” niyyəti ilə etsin. Cümə qüslünü alan zaman müstəhəbdir ki, bu :duanı oxusun

أَشْـهَدُ أَنْ لاَ اِلَهَ إِلاَّ اللهُ وَحْـدَهُ لاَشَـرِيكَ لَـهُ وَأَنَّ مُحَمَّداً عَبْـدُهُ وَرَسُـولُهُ أَللَّهُمَّ صَـلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاجْعَلْنِى مِنَ التَّوَّابِينَ وَاجْعَلْنِى مِنَ الْمُتَطَهِّرِينَ.

Mübarək Ramazan ayının birinci gecəsinin, həmçinin bu mübarək ayın tək günlərinin-٢ gecəsinin qüslü; məsələn ٣, ٥, ٧-ci gecələr. Amma ٢١-ci gecədən etibarən müstəhəbdir ki, bütün gecələrdə qüsl etsin. Həmçinin ١, ١٥, ١٧, ١٩, ٢١, ٢٣, ٢٥, ٢٧, ٢٩-cu

---

.Allah-təalanın əmrini yerinə yetirməsi ümidi ilə yerinə yetirsin . -١

gecələrdə qüsl etməyə daha artıq tövsiyə olunmuşdur. Mübarək Ramazan ayının gecələrinin qüslünün vaxtı, bütün gecədir və daha yaxşı olar ki, günəşin qürubuna yaxın olan vaxtlarda yerinə yetirilsin. Amma ٢١-ci gecədən ayın axırınadək olan qüsüllar, yaxşı olar ki, məğrib və işa namazları arasında yerinə yetirilsin. Həmçinin .müstəhəbdir ki, ٢٣-cü gecədə birinci qüsldən əlavə, gecənin axırında da bir qüsl etsin

Fitir və Qurban bayramı gününün qüslü; Bunun vaxtı sübh azanından Günəş batana-٣ qədərdir. Daha yaxşı olar ki, onu bayram namazından qabaq etsinlər. Zöhrdən .qürubadək olan vaxtda etsələr, daha yaxşıdır ki, rəca niyyəti ilə yerinə yetirsinlər

Fitr bayramının gecəsinin qüslü; onun da vaxtı məğribin əvvəlindən sübh-٤ .namazınadəkdir. Daha yaxşı olar ki, gecənin əvvəlində yerinə yetirilsin

Zil-Həccənin ٨-ci və ٩-cu günlərinin qüslü; ٩-cu günün qüslü, daha yaxşı olar ki, zöhrə-٥ .yaxın vaxtlarda yerinə yetirilsin

Rəcəb ayının ١, ١٥, ٢٧ və axırıncı günlərinin qüslü; bu qüsüllərın vaxtı sübh azanından-٦ .günəşin ğürub etməsinədəkdir

.Qədir-Xum bayramının qüslü; bu da yaxşı olar ki, zöhrdən qabaq yerinə yetirilsin-٧

.Zil-Həccənin ٢٤-ci gününün qüslü-٨

.Novruz bayramı, şəbanın ١٥, Rəbiül-əvvəlin ٩ və ١٧ və Zilqədənin ٢٥-i-٩

Təzə dünyaya gələn uşağa verilən qüsl; onun vaxtı uşağın dünyaya gəlməsindən -١٠ iki–üç gün sonrayaqəkdir, belə ki, "uşaq təzə dünyaya gəlib" desinlər. Əgər təxirə .salsalar rəca niyyəti ilə ğüsl versinlər

;Ərindən başqası üçün ətir vuran qadının qüslü-١١

;Məstlik halında yatan insanın qüslü-١٢

;Bədənin hər hansı bir yerini, qüslü verilmiş meyyitə vuran şəxsin qüslü-١٣

Günəş, yaxud Ay tutulan vaxtda bilərəkdən ayət namazını qılmayan bir şəxsin-١٤

qüslü; bu, Günəş və yaxud Ay tamammilə

.tutulandadır. Ehtiyat-vacib budur ki, bu qüsl tərk olunmasın

Dara asılan şəxsə tamaşa etmək üçün gedən və onu görən şəxsin qüslü. Amma-۱۵ təsadüfən, yaxud naçarlıq üzündən gözü ona düşsə və ya (misal olaraq), şəhadət .vermək üçün getsə, qüsl alması müstəhəb deyil

Məsələ: ۶۵۱. Məkkənin həráminə, Məkkə şəhərinə, Məscidül-hərama, Kəbə evinə, Mədinənin hərəminə, Mədinə şəhərinə, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) məscidinə, İmamların (ələyhimus-salam) hərəminə daxil olmamışdan qabaq müstəhəbdir ki, insan qüsl etsin. Əgər bir gündə bir neçə dəfə o yerlərə müşərrəf olsa, bir qüsl kifayətdir. Bu deyilənlərdən başqa, (o yerlərə daxil olmaq üçün) rəca niyyəti ilə qüsl etsin. Bir şəxs bir gündə Məkkəyə, Məscidül-hərama və Kəbə evinə daxil olmaq istəsə, bunların hamısı üçün bir qüsl etsə, kifayətdir; habelə, əgər bir gündə Mədinə hərəminə, Mədinə şəhərinə, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) məscidinə daxil olmaq istəsə, onların hamısı üçün bir qüsl kifayətdir. Peyğəmbəri (səlləllahu ələyhi və alihi və səlləm) və İmamları uzaqdan və yaxud yaxından ziyarət etmək, Allahdan hacət istəmək üçün, habelə tövbə etmək, ibadət səbəbilə şadlıq, səfərə, xüsusilə həzrət Seyyidüş-şühədanın (ələyhis-səlam) ziyarətinə səfər etmək üçün qüsl etmək müstəhəbdir. Bu məsələdə deyilən qüsüllərdən birini edib, sonradan dəstəmazı batil edən bir iş görsə; məsələn: yatsa onun qüslü batil olur. Müstəhəbdir yenidən qüsl .alsın

Məsələ: ۶۵۲. Ehtiyat-vacib budur ki, insan müstəhəb qüsl ilə, dəstəmazla şərtlənən .əməli (namaz kimi) yerinə yetirə bilməz

Məsələ: ۶۵۳. Əgər bir şəxsə bir neçə qüsl müstəhəb olsa və onların hamısının niyyəti ilə .bir qüsl etsə, kifayətdir

TƏYƏMMÜM

Point

.Yeddi yerdə dəstəmaz və qüsl əvəzi olaraq, gərək təyəmmüm edilsin

;Dəstəmaz və qüsl almaq üçün lazım olan qədər suyu tapmaq mümkün olmasa

Məsələ: ۶۵۴. Əgər insan abadlıq yerdə olsa, gərək dəstəmaz və qüsl suyunu tapmaq üçün o qədər axtarış aparsın ki, daha onu tapmağa ümüdü qalmasın. Amma çöldə, (biyabanda) olsa, eyni zamanda o məntəqə eniş-yoxuşlu olsa və ya orada ağacların çox olması yol getməyi çətinləşdirərsə, gərək hər dörd tərəfə, qədimdə kamandan atılan bir oxun qət etdiyi məsafə miqdarında suyu axtarmaq üçün getsin(۱). Amma yer, eniş-yoxuşlu deyilsə, gərək hər tərəfə iki oxun qət etdiyi məsafə miqdarında axtarış .aparılsın

Məsələ: ۶۵۵. Əgər dörd tərəfdən bir qismi düzənlik, digər yerlər isə eniş-yoxuşlu olsa, gərək düzənlik tərəflərdə iki ox, düzənlik olmayan tərəfdə isə bir ox miqdarda axtarış .aparılsın

.Məsələ: ۶۵۶. Su olmadığına yəqin etdiyi hər tərəfdə, axtarış aparmaq lazım deyil

Məsələ: ۶۵۷. Namazın vaxtı az olmayan və su əldə etmək üçün vaxtı olan bir şəxs, axtarması gərəkli olduğu məkandan uzaq bir yerdə su olmasına yəqin etsə, bu halda məşəqqəti və ya başqa maneə olmayan surətdə, gərək su tapmaq üçün getsin. Əgər su olmasına gümanı olsa, o yerə getməsi lazım deyil; amma ehtiyat-müstəhəbə görə, su tapmaq üçün o yerə getməsi tələb olunur. Amma əgər gümanı güclü olsa, ehtiyat-.vacibə görə gərək su əldə etmək üçün o yerə getsin

Məsələ: ۶۵۸. İnsanın özünün su axtarmaq üçün getməsi lazım deyil, sözünə etimad .etdiyi başqa bir adamı (onun naibi olmamasına baxmayaraq) göndərə bilər

Məsələ: ۶۵۹. Əgər səfər yüklərinin arasında, ya mənzilində, yaxud da karvanda, su olmasına ehtimal versə, gərək o qədər axtarış aparsın ki, suyun olmamasına yəqinlik hasil olsun və ya

---

Məhəmməd Təqi Məclisi "Mən la yəhzuruhul-fəqih" adlı kitabın şərhində oxun . -۱

.uçma miqdarını iki yüz addım təyin edib

.onu tapmağa ümüdü qalmasın

Məsələ: ۶۶۰. Əgər namaz vaxtı daxil olmamışdan əvvəl axtarış aparıb su tapmasa, namaz vaxtına qədər həmin yerdə qalsa və ehtimal versə ki, su tapacaq, ikinci dəfə su axtarmağa getməsi lazım deyil. Əgər suyun tapılmasına güclü ehtimal versə su .axtarmağa getməlidir

Məsələ: ۶۶۱. Əgər vaxt daxil olduqdan sonra axtarış edib su tapmasa, növbəti namazın vaxtınadək orada qalsa, keçmiş axtarışından sonra o ətrafda su yarandığına ehtimal .versə, ehtiyat-vacib budur ki, yenidən su axtarmağa getsin

Məsələ: ۶۶۲. Əgər namaz vaxtı dar olsa, yaxud oğrudan və ya yırtıcıdan qorxsa və .həmçinin su axtarmaq dözülməz dərəcədə çətin olsa axtarış aparması lazım deyil

Məsələ: ۶۶۳. Əgər namazın vaxtı qisalanadək su axtarmağa getməsə günah etmişdır, amma namazı təyəmmümlə səhihdir. Ehtiyat-müstəhəb budur ki, qəzasını qılsın, .xüsusən axtardıldığı halda su tapmasını bildiyi surətdə

Məsələ: ۶۶۴. Su tapmayacağına yəqini olan bir şəxs, su axtarmaq üçün getməyib təyəmmümlə namaz qılsa və namazdan sonra axtarış aparacağı halda su tapacağını .bilsə, namazı batildir

Məsələ: ۶۶۵. Əgər axtarış apardıqdan sonra, su tapmayıb təyəmmümlə namazı qılsa və sonradan başa düşsə ki, axtarış apardığı filan yerdə su var imiş, əgər vaxt qalibsa, .ehtiyat-vacib budur ki, namazı yenidən qılsın. Əgər vaxt keçibsə qəza vacib deyil

Məsələ: ۶۶۶. Namaz vaxtının qısalığına yəqini olan şəxs, əgər su axtarmadan təyəmmümlə namaz qılarsa və namazdan sonra axtarış üçün vaxtın olduğunu başa .düşərsə, ehtiyat-vacib budur ki, namazını ikinci dəfə qılsın

Məsələ: ۶۶۷. Əgər namaz vaxtı daxil olduqdan sonra dəstəmazı olsa və öz dəstəmazını batil edəcəyi halda su tapmaq mümkün olmayacağını, ya dəstəmaz ala bilməyəcəyini .bilsə dəstəmazını saxlasın, gərək onu batil etməsin

Məsələ: ۶۶۸. Əgər namaz vaxtindan qabaq dəstəmazlı olsa, əgər bilsə ki, namazdan qabaq dəstəmazını batil edəcəyi halda onun üçün su tapmaq mümkün deyil, əgər .bacararsa dəstəmazını saxlasın və ehtiyat-vacıb budur ki, onu batil etməsin

Məsələ: ۶۶۹. Bir şəxsin dəstəmaz ya qüsl edəcək miqdarda suyu varsa və bilirsə ki, onu yerə töksə su tapmayacaq və ya iki adil şahid bunu xəbər versə, namazın daxil olan vaxtı onu tökmək haramdır. Ehtiyat-vacib budur ki, namaz vaxtından qabaq da onu .tökməsin

Məsələ: ۶۷۰. Bir şəxs bilirsə ki, su tapmayacaq və ya iki adil şahid bunu xəbər versə, əgər namaz vaxtı daxil olduqdan sonra dəstəmazını batil edərsə və ya ozündə olan suyu tökərsə, günah etmişdır. Amma təyəmmümlə namazı səhihdir, baxmayaraq ki, .ehtiyat-müstəhəb budur ki, onun qəzasını yerinə yetirsin

İKİNCİ YER

Məsələ: ۶۷۱. Əgər bir şəxs qocalıq səbəbilə, yaxud oğrudan, yırtıcı heyvandan və s. kimi şeylərdən qorxmaq və yaxud da suyu quyudan çıxartmaq üçün lazımi avadanlığın olmaması səbəbilə su əldə edə bilməsə, gərək təyəmmüm etsin. Həmçinin, suyu əldə etmək və ya ondan istifadə etmək onun üçün dözülməz dərəcədə məşəqqətli olsa, .gərək təyəmmüm etsin

Məsələ: ۶۷۲. Əgər suyu quyudan çəkmək üçün ip vedrə və s. kimi şeylərə ehtiyac duyulsa və onları almağa, yaxud kirayə etməyə məcbur olsa, hətta onların qiyməti, adi vaxtdakı qiymətdən bir neçə dəfə baha olsa da, onu almalıdır. Həmçinin, əgər suyu öz qiymətindən bir neçə qat baha qiymətə satsalar da eyni qayda ilə, (yəni almalıdır). Amma onları almaq üçün çoxlu pul istəsələr, belə ki, alanın vəziyyətinə zərər yetirsə, .alması vacib deyil

Məsələ: ۶۷۳. Əgər bir şəxs su əldə etmək üçün borc almağa naçar olsa, gərək borc .alsın

Məsələ: ۶۷۴. Borcunu verə bilməyəcəyini bilən, yaxud güman

.edən və ya borcu ödəmək onun üçün çətin olan şəxsə borc etmək vacib deyildir

Məsələ: ۶۷۵. Əgər quyu qazmaq məşəqqətli olmasa, gərək su əldə etmək üçün quyu .qazsın

Məsələ: ۶۷۶. Əgər bir şəxs ona minnətsiz bir miqdar su bağışlasa, gərək onu qəbul .etsin

ÜÇÜNCÜ YER

Məsələ: ۶۷۷. Əgər bir şəxs suyun işlədilməsinin səhhətinə zərər verəcəyindən, yaxud onu istifadə edəcəyi halda hər hansı bir xəstəlik və eybin vücuda gələcəyindən, yaxud xəstəliyinin uzanacağından, şiddətlənəcəyindən və ya çətinliklə müalicə olunacağından qorxsa, gərək təyəmmüm etsin. Amma isti suyun zərəri olmasa, gərək .isti su ilə dəstəmaz və ya qüsl etsin

Məsələ: ۶۷۸. Suyun insana zərəri olmasını yəqin etmək lazım deyil; hətta əgər zərər ehtimalı da versə və onun ehtimalı, camaatın nəzərində yerli ehtimal olsa və bu .ehtimaldan onun üçün qorxu hasil olsa, gərək təyəmmüm etsin

Məsələ: ۶۷۹. Göz ağrısı xəstəliyinə düçar olan və sudan istifadə etmək şəxsə .zərərlidirsə, gərək təyəmmüm etsin

Məsələ: ۶۸۰. Əgər zərərin baş verəcəyinə yəqini olsa, yaxud zərərdən qorxub təyəmmüm etsə və namazdan qabaq onun zərəri olmadığını başa düşsə, onun .təyəmmümü batildir. Amma namazdan sonra başa düşsə, namazı səhihdir

Məsələ: ۶۸۱. Suyun ona zərəri olmamasını bilən bir şəxs, qüsl yaxud dəstəmaz alıb sonradan zərərli olduğunu başa düşsə, aldığı qüsl və dəstəmaz səhihdir. Amma .ehtiyat-müstəhəb budur ki, qüsl və ya dəstəmazı yenidən alsın

DÖRDÜNCÜ YER

Məsələ: ۶۸۲. Əgər insan, suyu dəstəmaz və qüsl üçün istifadə edəcəyi halda hal ,hazırda və ya sonradan özü, əyalı, övladları

dostu və ona aid olan şəxslərin (nökər və ya külfət) susuzluqdan öləcəklərindən, yaxud xəstələnəcəklərindən, yaxud da dözülməsi məşəqqətli olan qədər susayacaqlarından qorxsa, gərək dəstəmaz və qüsl əvəzində təyəmmüm etsin. Həmçinin özünün, yaxud başqasının malı olan heyvanın susuzluqdan tələf olmasıdan qorxsa, gərək suyu onlara verib, təyəmmüm alsın. Həmçinin, yemək üçün kəsilməsi adət olmayan; məsələn: at və qatır kimi heyvanlarda da (əqva) (daha yetərlisi) budur ki, təyəmmüm etsin, hətta digər heyvanlar üçün də bu hükm qüvvəsini itirməyir. Əgər canının hifzi vacib olan bir şəxs, çox susuz olsa və suyu ona verməyəcəyi halda tələf .(olacaqsa, (gərək suyu ona verib təyəmmüm etsin

Məsələ: ۶۸۳. Əgər qüsl və dəstəmaz üçün olan pak sudan başqa, özünün və ona aid olan şəxslərin içəcəyi qədər bir miqdar nəcis suyu da olsa, gərək pak suyu içmək üçün versin və təyəmmümlə namaz qılsln. Amma suyu öz heyvanına vermək istəsə, nəcis suyun ona zərəri olmasa, gərək nəcis suyu ona versin, pak su ilə dəstəmaz və qüsl .alsın

BEŞİNCİ YER

Məsələ: ۶۸۴. Bədəni, yaxud paltarı nəcis olan bir şəxsin bir qədər suyu varsa, dəstəmaz və qüsl aldıqda, bədənini və yaxud paltarını suya çəkmək üçün suyu qalmayacaqsa, gərək bədən və ya paltarını suya çəkib təyəmmümlə namaz qılsın. (Bu o haldadır ki,) əgər əvvəlcə bir qabda dəstəmaz alıb ğüsalə (dəstəmazın suyu) ilə nəcis yeri suya çəkmək mümkün olmasın. Amma təyəmmüm almaq üçün bir şeyi olmasa, gərək o .suyu dəstəmaz və qüsl üçün istifadə edib, nəcis bədən və ya paltarla namaz qılsın

ALTINCI YER

Məsələ: ۶۸۵. Əgər istifadəsi haram olan su və ya qabdan başqa bir suyu və ya qabı olmazsa; məsələn: suyu, yaxud qabı qəsbi olsa

və ondan da başqa su və yaxud qabı olmasa, suyu qabdan boşaltmaq şəri cəhətdən cayiz deyilsə, gərək dəstəmaz və ya qüsl yerinə təyəmmüm etsin.

YEDDİNCİ YER

Məsələ: ۶۸۶. Əgər vaxt, dəstəmaz və ya qüsl alacağı təqdirdə namazın hamısı, yaxud bir miqdarına yetməyəcək qədər az olsa, gərək təyəmmüm edib namazı bütünlüklə vaxtında qılsın.

Məsələ: ۶۸۷. Əgər bilərəkdən namazı çox təxirə salsa və qüsl, yaxud dəstəmaz üçün vaxt olmasa, günah etmişdir, amma onun namazı təyəmmümlə səhihdir. Təkid olunan ehtiyat budur ki, o namazın qəzasını qılsın.

Məsələ: ۶۸۸. Bir şəxs dəstəmaz və ya qüsl edəcəyi təqdirdə namaz üçün vaxt qalıb-qalmacağına şəkki etsə, gərək təyəmmüm etsin.

Məsələ: ۶۸۹. Bir şəxs, vaxtın az olması səbəbi ilə təyəmmüm edərsə, əgər namazdan sonra ixtiyarında olan su əlindən çıxsa, təyəmmümü pozulmadığı halda, vəzifəsi təyəmmüm olduğu surətdə sonrakı namazlar üçün yenidən təyəmmüm almalıdır. Əgər dəstəmaz alacaq qədər vaxtı olmayıb və su əlindən çıxıbsa, yenidən təyəmmüm etməsi lazım deyil.

Məsələ: ۶۹۰. İxtiyarında su olan şəxs, vaxtın azlığına ğörə təyəmmüm edib namaza başlasa və namaz əsnasında ixtiyarında olan su əlindən çıxsa, vəzifəsi təyəmmüm olduğu təqdirdə, sonrakı namazlar üçün yenidən təyəmmüm etməsi lazım deyil.

Məsələ: ۶۹۱. Əgər bir şəxsin vaxtı varsa, dəstəmaz və ya qüsl alıb namazı müstəhəb əməllərini (iqamə, qunut kimi) yerinə yetirmədən namazı qıla bilərsə, gərək qüsl edib və ya dəstəmaz alsın və namazı onun müstəhəb əməllərini yerinə yetirmədən qılsın. Hətta surəni oxumağa vaxt olmasa belə, gərək qüsl və ya dəstəmaz alıb namazı surəsiz qılsın.

Məsələ: ۶۹۲. Təyəmmüm torpağa, quma, kəsəyə, daşa səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, torpaq olduğu halda başqa şeyə təyəmmüm etməsin.

Məsələ: ۶۹۳. Təbaşir və əhəng daşlarına təyəmmüm etmək səhihdir. Ehtiyata görə bişmiş təbaşir və əhəngə təyəmmüm etməyin işkalı vardır. Əqiq kimi mədən daşlarına təyəmmüm etmək batildir.

Məsələ: ۶۹۴. Əgər torpaq, qum, kəsək və daş tapılmasa, gərək xalça, paltar və s. kimi şeylərin üstündə olan tozlara təyəmmüm edilsin. Əgər toz tapılmasa, gərək palçığa təyəmmüm etsin. Əgər palçıq da tapılmasa, namazı təyəmmümsüz qılmalı, sonra qəzasını da yerinə yetirməlidir.

Məsələ: ۶۹۵. Əgər xalça və s. bu kimi şeyləri silkələməklə torpaq əldə edə bildiyi halda torpaq əldə edə bilərsə, toza təyəmmüm etmək batildir. Əgər palçığı qurudub torpaq əldə etmək mümkün olduğu halda, palçığa edilən təyəmmüm batildir.

Məsələ: ۶۹۶. Suyu olmayan bir şəxsin qarı və ya buzu varsa, mümkün olan surətdə gərək onu əridib su etməli və onunla dəstəmaz və ya qüsl almalıdır. Amma mümkün olmasa və təyəmmümün səhih olduğu şeylər də tapılmasa, dəstəmaz və ya qüsl üzvlərini qar və ya buz ilə nəmləsin. Əgər bu da mümkün olmasa buza və ya qara təyəmmüm etsin. Amma axrıncı iki surətdə ehtyat-vacibə görə, gərək qıldığı namazın sonradan qəzasını qılsın.

Məsələ: ۶۹۷. Əgər torpağa və quma təyəmmümün batil olduğu şeylər (saman kimi) qarışsa, ona təyəmmüm edə bilməz. Amma həmin qarışıq çox az olub torpaqda və ya qumda aradan getmiş hesab olunsa, o torpağa və quma təyəmmüm etmək səhihdir.

Məsələ: ۶۹۸. Təyəmmüm etmək üçün bir şey olmazsa, imkan daxilində gərək almaqla və s. yollarla əldə etsin.

Məsələ: ۶۹۹. Palçıq divara təyəmmüm etmək səhidir. Amma

ehtiyat-müstəhəb budur ki, quru yer və quru torpaq olan halda, nəmli torpağa və yerə .təyəmmüm olunmasın

Məsələ: ۷۰۰. Üstünə təyəmmüm edilən şey gərək pak olsun. Əgər təyəmmümün səhih olduğu pak şey olmazsa, ehtiyat-vacib budur ki, namazını təyəmmümsiz qılsın və .sonra qəzasını da yerinə yetirsin

Məsələ: ۷۰۱. Əgər bir şeyə təyəmmümün səhih olduğunu yəqin etdikdən sonra təyəmmüm edib, sonradan o şeyə təyəmmüm etməyin batil olduğunu başa düşərsə, o .təyəmmümlə qıldığı namazları gərək yenidən qılsın

Məsələ: ۷۰۲. Üstünə təyəmmüm edilən şey və təyəmmümün yeri gərək qəsbi olmasın. Deməli, qəsb olan torpaqda təyəmmüm etsə və ya öz mülkü olan torpağı icazəsiz .olaraq başqasının mülkünə qoyub ona təyəmmüm edərsə, batildir

Məsələ: ۷۰۳. Fəzası qəsbi olan yerdə edilən təyəmmüm batilir. Deməli, bir şəxs öz mülkündə əllərini yerə vurub icazəsiz başqasının mülkünə daxil olaraq əllərini alnına .çəksə, onun təyəmmümü batildir

Məsələ: ۷۰۴. Qəsbi şeyə və ya qəsbi fəzada ya da qəsbi mülkdə olan şeyə təyəmmüm etmək, insanın onun qəsbi olduğunu bildiyi və bilərəkdən təyəmmüm etdiyi halda batildir. Belə ki, bilməsə və ya unudursa, onun təyəmmümü səhihdir. Amma özünün qəsb etdiyi halda, qəsb etdiyini unudub ona təyəmmüm edərsə və ya bir mülkü qəsb edib, qəsb etdiyini unudsa və təyəmmüm edəcəyi şeyi oraya qoysa və ya o mülkün fəzasında təyəmmüm etsə, ehtiyat-vacibə görə dəstəmaz bölməsində deyildiyi kimi, .yenidən yerinə yetirsin

Məsələ: ۷۰۵. Qəsbi yerdə məhbus olan bir şəxs, o yerin suyu və torpağı qəsbi olarsa, gərək təyəmmümlə namaz qılsın. Əgər dəstəmazla qəzasını yerinə yetirsə ehtiyata .uyğundur

Məsələ: ۷۰۶. Müstəhəbdir ki, üstünə təyəmmüm edilən şeyin tozu olsun ki, əllərdə qalsın. Əlləri ona vurduqdan sonra müstəhəbdir ki, bir az hərəkət etdirsin, tozları .tökülsün

Məsələ: ۷۰۷. Çuxur yerə, yolların torpağına, üzərini duz örtməyən şoran yerə .təyəmmüm etmək məkruhdur. Amma duz onun üstünü tutmuş olsa, batildir

DƏSTƏMAZ ƏVƏZİNƏ OLAN TƏYƏMMÜMÜN QAYDASI

:Məsələ:۷۰۸. Dəstəmaz əvəzində olan təyəmmümdə dörd şey vacibdir

;Niyyət-۱

;Hər iki əlin içini birlikdə, təyəmmümün səhih olduğu şeyə vurmaq-۲

İki əli birlikdə alnın hər yerinə və onun iki tərəfinə; tüklər bitən yerdən qaşlara qədər-۳ və burunun üst tərəfinə çəkmək. Ehtiyat-vacib budur ki, gərək əllər qaşların da üstünə .çəkilsin

Sol əlin içini sağ əlin üstünün hər yerinə, sonra sağ əlin içini sol əlin üstünün hər-۴ .yerinə çəkmək

QÜSL ƏVƏZİNƏ OLAN TƏYƏMMÜMÜN QAYDASI

Məsələ: ۷۰۹. Qüsl əvəzində olan təyəmmüm zamanı niyyət etdikdən sonra, keçən məsələdə deyilən qayda üzrə, əlləri yerə vurub alına çəksin. Ehtiyat-vacibə görə, ikici dəfə də, əlləri yerə vurub əllərin arxasına çəksin. Ehtiyat-müstəhəb budur ki, istər dəstəmaz, istərsə də qüsl əvəzində olan təyəmmümü, bu tərtiblə yerinə yetirsin; bir dəfə əlləri yerə vurub alına və əllərin arxasına çəksin və başqa bir dəfə də əlləri yerə .vurub əllərin arxasına məsh etsin

TƏYƏMMÜMÜN HÖKMLƏRİ

Məsələ: ۷۱۰. Əgər alın və ya əllərin üstünün kiçik bir yerinə məsh etməsə, istər qəsdən, istərsə də məsələni bilməməzlik və ya unutqanlıq üzündən olsun, təyəmmüm batildir. Amma, artıq

.diqqət etmək də lazım deyil;“bütün alnına və əllərinə məsh çəkildi” desələr, kifayətdir

Məsələ: ۷۱۱. Əllərin üstünün bütünlüklə məsh etməsini yəqin etmək üçün gərək biləkdən bir az yuxarı da məsh etsin, amma barmaqların arasına məsh etmək lazım .deyil

Məsələ: ۷۱۲. Alın və əllərin üstü, gərək yuxarıdan-aşağı məsh edilsin, gərək onun işlərini ardıcıllıqla (fasiləsiz) yerinə yetirsin. Əgər onların arasına “təyəmmüm edir” .deyilməcək qədər fasilə salarasa, təyəmmümü batildir

Məsələ: ۷۱۳. Niyyət edən zaman, təyəmmümü qüsl və ya dəstəmaz əvəzində almasını qəsd etməsi lazım deyil, Amma əgər bir neçə təyəmmüm etməli olsa məsələn, həm qüsl əvəzində və həm dəstəmaz əvəzində təyəmmüm etməli olsa hansını yerinə yerdiyini təyin etməsi lazımdır. Bir neçə təyəmmümün tədaxül etməsinin hökmü (۳۹۵-ci .məsələdə deyildiyi kimi) bir neçə qüslün tədaxül etməsi hökmü kimidir

Məsələ: ۷۱۴. Təyəmmümdə gərək alın, əllərin içi və üstü pak olsun. Əgər əllərin içi nəcis olsa, onu suya çəkmək mümkün olmasa və o nəcasət sirayət edən olmasa, nəcis əllə təyəmmüm etməsi kifayətdir. Amma əlin içindəki nəcasət sirayət edən olsa, bu halda .əlin üstü ilə təyəmmüm etmək kifayətdir

Məsələ: ۷۱۵. İnsan təyəmmüm üçün, gərək əlindəki üzüyü çıxarsın, əgər alnında, əllərinin üstündə, içində maneə olsa; məsələn: bir şey yapışmış olsa, gərək aradan .götürsün

Məsələ: ۷۱۶. Əgər alın və ya əllərin üstü yara olsa və üstünə bağlanan parça və ya başqa şeyi aça bilməsə, gərək əli onun üstünə çəksin. Həmçinin əgər əlin içində yara olsa və parça (və bu kimi şeylər) ilə bağlanmış olsa, onu da aça bilməsə, gərək əli həmin parça ilə təyəmmümün səhih olduğu şeyin üstünə vurub alına və əllərin üstünə çəksin. Daha layiqlisi budur ki, başqa bir dəfə də əllərinin üstü ilə təyəmmümün səhih .olduğu şeyə vurub, alnına və əllərinin üstünə çəksin

.Məsələ: ۷۱۷. Əgər alında, əllərin üstündə tük olsa, eybi yoxdur

.Amma başın tükü alına tökülmüş olsa, gərək onları arxaya çəksin

Məsələ: ٧١٨. Əgər alnında və əllərinin içində və yə əllərinin üstündə bir maneənin olmasına ehtimal versə, əgər onun ehtimalı camaatın nəzərində yerli ehtimal olsa, .maneənin olmamasına əminlik hasil olanadək, gərək axtarış aparsın

Məsələ: ٧١٩. Əgər bir şəxsin vəzifəsi təyəmmüm olan halda təyəmmüm ala bilməsə, başqasını naib tutmalıdır. Naib tutulan şəxs gərək ona, onun öz əlləri ilə təyəmmüm versin. Əgər mümkün olmasa, gərək naib öz əllərini təyəmmümün səhih olduğu .şeylərə vurub onun alnına və əllərinin üstünə çəksin

Məsələ: ٧٢٠. Əgər bir şəxs təyəmmüm əsnasında onun hər hansı yerinin, unudub-unutmamasında şəkk etsə, əgər onun yerinə yetiriləcək yerdən keçməyibsə, gərək o hissəni, ondan sonra yerinə yetiriləcək hissə ilə yerinə yetirsın. Əgər yeri keçdikdən sonra şəkk etsə; məsələn: sol əli məsh edəndə alnina məsh edib-etməməsində şəkk .etsə, ehtiyat-vacibə əsasən şəkkinə etina etsin

Məsələ: ٧٢١. Əgər sol ələ məsh etdikdən sonra, təyəmmümü düzgün edib-.etməməsində şəkk etsə, təyəmmümü səhihdir

Məsələ: ٧٢٢. Vəzifəsi təyəmmüm olan bir şəxs, ehtiyat-vacibə əsasən namaz vaxtından qabaq, namaz üçün təyəmmüm edə bilməz. Amma başqa bir vacib, yaxud müstəhəb iş üçün təyəmmüm etsə və namaz vaxtına qədər həmin üzrü yerində qalsa, .su tapmasına da ümüdsüz olsa, o təyəmmümlə namaz qıla bilər

Məsələ: ٧٢٣. Vəzifəsi təyəmmüm olan bir şəxs, namaz vaxtının axırına qədər üzrünün qalacağını bilsə və ya üzrün aradan qalxmasına ümidsiz olsa, vaxt geniş olan zaman təyəmmümlə namaz qıla bilər. Amma vaxtın axırına qədər üzrünün aradan qalxacağını bilsə, gərək gözləsin, dəstəmaz və ya qüsl ilə namaz qılsın. Əgər ümüd etsə ki, üzrü aradan qalxacaq ehtiyat-müstəhəbə görə, gərək gözləsin, dəstəmaz və ya qüsl ilə .namaz qılsın, yaxud da vaxtın az olduğu zaman təyəmmümlə namaz qılsin

Məsələ: ٧٢٤. Əgər bir şəxs dəstəmaz və ya qüsl ala bilməyirsə, üzrünün tezliklə aradan qalxmasına ehtimal verməsə, öz qəza

namazlarını təyəmmümlə qıla bilər. Amma üzrün tezliklə aradan qalxacağına ehtimal .versə, qəza namazlarını təyəmmümlə qılmağın işkalı var

Məsələ: ۷۲۵. Əgər bir şəxs dəstəmaz və ya qüsl ala bilməyırsə, gecə-gündüzün nafilə namazları kimi müəyyən vaxtda qılınan müstəhəb namazları təyəmmümlə qıla bilər. Amma onların axır vaxtınadək üzrün aradan qalxacağına ehtimal versə, gərək onları .əvvəl vaxtlarında yerinə yetirməsin

Məsələ: ۷۲۶. Ehtiyata görə cəbirə qüslü və təyəmmüm alan şəxs; məsələn: kürəyində yara olan qüsl və təyəmmüm edib namaz qılandan sonra ondan kiçik hədəs baş versə; məsələn: bövl etsə, ehtiyat-vacibə görə sonrakı namazlar üçün gərək qüslün əvəzində .təyəmmüm edib və dəstəmaz da alsın

Məsələ: ۷۲۷. Əgər bir şəxs su olmaması, yaxud başqa səbəblərə görə təyəmmüm etsə, .üzrü aradan qalxdiqdan sonra təyəmmümü batil olur

Məsələ: ۷۲۸. Dəstəmazı batil edən şeylər, dəstəmazın əvəzində olan təyəmmümü də .batil edir və qüslü batil edən şeylər, qüsl əvəzində olan təyəmmümü də batil edir

Məsələ: ۷۲۹. Qüsl edə bilməyən bir şəxsə bir neçə qüsl vacib olarsa, onların hamısının əvəzidə bir təyəmmüm etsə, kifayətdir. ۳۹۵-ci məsələdə qeyd olunduğu kimi bir qüsül .bir neçə qüslün əvəzində kifayət edir

Məsələ: ۷۳۰. Qüsl edə bilməyən bir şəxs, qüsl ilə yerinə yetirilməsi vacib olan bir iş görmək istəsə, gərək qüsl əvəzində təyəmmüm etsin. Əgər dəstəmaz ala bilməsə və dəstəmaz alınması vacib olan bir iş görmək istəsə, gərək dəstəmaz əvəzində .təyəmmüm etsin

Məsələ: ۷۳۱. Əgər cənabət qüslü əvəzində təyəmmüm etsə, namaz üçün dəstəmaz alması lazım deyil. Amma sair qüsllərin əvəzində təyəmmüm etsə, (namaz üçün) gərək dəstəmaz alsın. Əgər dəstəmaz da ala bilməsə, gərək onun əvəzində də başqa bir .təyəmmüm etsin

Məsələ: ۷۳۲. Əgər qüsl əvəzində təyəmmüm etdikdən sonra dəstəmazı batil edən bir şey qarşıya çıxsa, bu halda sonrakı namazlar üçün qüsl edə bilməsə, gərək dəstəmaz alsın və ehtiyat-müstəhəbə görə, qüsl əvəzində təyəmmüm etsin. Əgər dəstəmaz ala bilməsə, ehtiyat-müstəhəbə görə, gərək iki təyəmmüm etsin; biri qüsl əvəzində, digəri dəstəmaz əvəzində. Amma onun təyəmmümü cənabət qüslünün əvəzində olsa, .vəzifəsini yerinə yetrmək niyyəti ilə bir təyəmmüm etsə, kifayətdir

Məsələ: ۷۳۳. Haiz, nəfsa (yenicə doğmuş qadın) və meyyitə toxunan şəxs, bir işi yerinə yetirmək üçün; məsələn: namaz qılmaq üçün dəstəmaz və qüsl əvəzində təyəmmüm etsin. Ehtiyat-vacib budur ki, o işi ğörmək qəsdilə üçüncü təyəmümmü də etsin. Amma birinci təyəmmümü dastəmaz və ya qüsl əvəzində, ikinci təyəmmümü isə vəzifəsini .yerinə yetirmək məqsədi ilə edərsə, üçüncü təyəmmüm lazım deyil

Məsələ: ۷۳۴. Vəzifəsi təyəmmüm olan bir şəxs, müəyyən bir iş üçün təyəmmüm etsə, təyəmmümü və üzrü yerində qaldıqca dəstəmaz və ya qüsl ilə yerinə yetirilməli olan işləri yerinə yetirə bilər. Əgər onun üzrü vaxtın azlığıdırsa və ya su olduğu halda meyyit namazı, yaxud yatmaq üçün təyəmmüm etsə, yalnız onun üçün təyəmmüm etdiyi işi .yerinə yetirə bilər

Məsələ: ۷۳۵. Aşağıdakı hallarda təyəmmümlə qılınan namazların yenidən qılıması :müstəhəbdir

Sudan istifadə etdiyi halda zərər törənəcəyindən qorxub, bilərəkdən özünü cünub-۱ ;etsə və təyəmmümlə namaz qılsa

Su tapmayacağını bilib, yaxud güman etdiyi halda qəsdən özünü cünub etsə və-۲ ;təyəmmümlə namaz qılsa

Vaxtın axırına qədər qəsdən su axtarmağa getməyib, namazı təyəmmümlə qılsa və-۳ ;sonradan bilsə ki, əgər su axtarmağa getsəydi, tapacaqdı

;Qəsdən namazı təxirə salıb, vaxtın axırında təyəmmüm ilə qılsa-۴

Su tapa bilməyəcəyini bilib, yaxud güman etdiyi halda əlində-۵

;olan suyu yerə töksə

Camaata əziyyət vermək qorxusundan və camaat namazına çata bilmədiyi üçün-۶ cümə namazını təyəmmümlə qılmış olsa, onu zöhr namazı niyyətilə yenidən yerinə .yetirsin

səh: ۱۴۱

Point

Namaz dinin ən mühüm əməllərindəndir ki, əgər Allah-təalanın dərgahında qəbul olsa, sair ibadətlər də qəbul olar; əgər qəbul olunmazsa, sair əməllər də qəbul olunmaz. Necə ki, insan gündə beş dəfə çayda çimsə, bədəni çirkdən təmizləndiyi kimi, beşlik təşkil edən namazlar da insanı günahlardan təmizləyir. Daha yaxşı olar ki, insan namazı vaxtın əvvəlində qılsın. Hər şəxs namazı alçaq və yüngül saysa, namaz qılmayanlar kimidir. Peyğəmbəri-Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) buyurub: ."“Namaza əhəmiyyət verməyən və onu yüngül sayan şəxs, axirət əzabına layiqdir

Günlərin birində, həzrəti Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) məsciddə idi. Bir kişi məscidə daxil olub namaza başladı, amma rüku və səcdəni layiqincə yerinə yetirmədi. Həzrət buyurdu: “Əgər bu kişi, namazı belə olan halda dünyadan getsə, ."mənim dinimdə dünyadan getməyib

Deməli, insan gərək çalişsın ki, namazı əlüstü və təcili halda qılmasın. Namaz halında Allahı yad etsin, xüzu və xüşu və vüqarlı olsun. Xatırlasın ki, kiminlə danışır. Özünü Allahın böyüklüyü və əzəməti qarşısında çox zəlil və əhəmiyyətsiz görsün. Əgər insan namaz vaxtı bu məsələlərə tam diqqət yetirsə, özündən xəbərsiz olar. Necə ki, namaz halında Əlinin (ələyhis-salam) mübarək ayağından oxu çıxardılar və o həzrət bunu hiss .etmədi

Həmçinin, namaz qılan şəxs tövbə və istiğfar etməli, namazın Allah dərgahında qəbul olmasının qarşısını alan günahları (həsəd, təkəbbür, qeybət, haram mal yemək, məstedici şeylər içmək, xüms-zəkat verməmək, ümumiyyətlə hər günahı) tərk etsin. Həmçinin, daha yaxşı olar ki, namazın savabını azaldan işləri də etməsin; məsələn: yuxulu halda, bövlün qabağını zorla saxladığı halda namaza dayanmasın, namazda göylərə tərəf baxmasın. Həmçinin, namazın savabını artıran əməlləri yerinə yetirsin, məsələ, əqiq üzük taxsın, pakizə paltarlar geysin, başını darayıb, dişlərini yusun, özünü .ətirləsin

VACİB NAMAZLAR

Point

:Vacibi namazlar altıdır

.Gündəlik namazlar .١

.Ayət namazı .٢

.Meyyit namazı .٣

.Kəbə evinin vacibi təvaf namazı .۴

.Ata-ananın (böyük oğula vacib olan) qəza namazı .۵

.İcarə, nəzr, and və əhd ilə vacib olan namaz .۶

GÜNDƏLİK VACİB NAMAZLAR

Gündəlik vacib namazlar beşdir: zöhr və əsr (hər biri dörd rəkət), məğrib (üç rəkət), işa .((dörd rəkət), sübh (iki rəkət

Məsələ: ٧٣۶. Səfərdə dörd rəkətli namazlar, gələcəkdə deyilən şərtlərlə iki rəkət .qılınmalıdır

ZÖHR VƏ ƏSR NAMAZLARININ VAXTI

Məsələ: ٧٣٧. Əgər çubuq və bu kimi şeyi düz yerə şaquli vəziyyətdə batırsalar, Günəş

çıxanda, onun kölgəsi günbatan tərəfə düşür. Günəş yuxarı qalxdıqca, onun kölgəsi azalır və bizim

şəhərlərdə zöhrün əvvəlinci şəri vaxtı(١), ən az dərəcəyə çatır. Günortadan keçdikdən sonra kölgə, məşriqə (günçıxana) üz qoyaraq çoxalır. Günəş qüruba yaxınlaşdıqca, çubuğun kölgəsi də uzanır. Buna görə də, kölgə, ən az (minimum) nöqtəyə çatıb və yenidən çoxalmağa üz qoyduğu vaxt, şəri vaxtla zöhr olması məlum olur. Amma bəzi şəhərlərdə (Məkkə kimi), bəzi vaxtlar zöhr olanda, çubuğun kölgəsi tamamilə yox olur. .Kölgə yenidən görünməyə başlayanda məlum olur ki, zöhr olmuşdur

Məsələ: ٧٣٨. Zöhrü müəyyən etmək üçün yerə batırılan çubuq və s. kimi şeylərə "şaxis" .deyilir

Məsələ: ٧٣٩. Zöhr və əsr namazlarının hər birinin məxsus və müştərək vaxtları vardır. Ehtiyata görə zöhr namazının məxsus vaxtı zöhrün əvvəlindən, zöhr namazı qılınadək keçən vaxt qədərdir. Əgər bir şəxs səhv üzündən butun əsr (namazını) bu vaxtda qılsa, namazı səhihdir. Bəli, ehtiyata görə onu, niyyətində zöhr (namazı) qərarlaşdıraraq (qılsın), başqa bir namaz da (ma fi zimmə) "öhdəsində olanı" niyyət edərək, yəni zöhr ya əsri niyyət etmədən qılsın. Əsr namazının məxsus vaxtı isə məğribə, əsr namazı qılmaq miqdarında vaxt qalandadır. Əgər bir şəxs, bu vaxta qədər zöhr namazını qılmasa qəza olur və gərək əsr namazını qılsın. Zöhr namazının məxsus vaxtı ilə əsr namazının məxsus vaxtı arasında olan vaxt, zöhr və əsr namazların müştərək vaxtıdır. Əgər bir şəxs müştərək vaxtda səhvən bütün əsr namzını, zöhr namazından qabaq .qılsa, namazı səhihdir. Gərək zöhr namazını ondan sonra yenidən yerinə yetirsin

Məsələ: ٧۴٠. Əgər müştərək vaxtda zöhr namazını qılmazdan əvvəl səhvən əsr namazına başlasa və namaz əsnasında səhvini

---

Şəri zöhr, günün yarısının keçməsindən ibarətdir; məsələn: əgər gün on iki . -١ saatdırsa, Günəş doğadan altı saat sonra şəri zöhrdür. Əgər gün on üç saatdırsa, Günəş doğduqdan altı saat yarım sonra, şəri zöhrdür. Əgər gün on bir saat olsa, Günəşin doğduğundan beş saat yarım keçdikdən sonra qürubadək olan vaxtdır. İlin bəzi vaxtlarında, saat on ikidən bir-neçə dəqiqə qabaq, bəzən də on ikidən bir-neçə .dəqiqə sonradır

başa düşsə, bu halda niyyəti gərək zöhr namazına döndərsin. Yəni niyyət etməlidir ki, bu vaxta qədər qılmış olduğum, hal-hazırda qıldığım və bundan sonra qılacaqlarım, zöhr olsun. Onu qurtardıqdan sonra əsr namazını qılsın. Əgər zöhr namazının xüsusi vaxında olsa və zöhr namazının xüsusi vaxtında başa düşsə namazı səhihdir, sonra keçən məsələdə qeyd olunana əməl etsin. Əgər müştərək vaxta başa düşsə zöhr namazının xüsusi vaxtında namaza başlamasına baxmayaraq niyyəti çevirməsi .səhihdir

Məsələ: ۷۴۱. İmam (əleyhis-salam) hüzuru dövründə vacibdir ki, cümə günü, zöhr namazının yerinə iki rəkət cümə namazı qılınsın. Amma bu zamanda hər kim cümə .namazını tələb olma niyyəti ilə qılsa zöhr namazını qılması vacibdir

Məsələ: ۷۴۲. Cümə namazının vaxtı zöhrün əvvəli, şaxisın gölgəsinin özü qədər .olandadır

MƏĞRİB VƏ İŞA NAMAZLARININ VAXTI

Məsələ: ۷۴۳. Məğrib o vaxtıdır ki, gün batandan sonra məşriq tərəfdən zahir olan qızartı, insanın başının üstündən (məğribə tərəf) keçmiş olsun, (yəni kənarlaşıb .(məğribdə görünməyə başlasın

Məsələ: ۷۴۴. Məğrib və işa namazlarının hər birinin həm məxsus, həm də müştərək vaxtı vardır. Məğrib namazının məxsus vaxtı, məğribin əvvəlindən başlayır və məğribdən üç rəkət namaz qılmaq qədər vaxt keçəndəkdir. Məsələn: əgər bir şəxs səfərdə olsa və səhv üzündən bütünlüklə işa namazını bu vaxtda qılsa, namazı səhihdir, ehtiyat isə budur ki, məğrib namazını qılsın işa namazını isə (yenidən) qəsr şəkildə qılsın. İşa namazının məxsus vaxtı isə onu qılmaq miqdarında gecənin yarısına vaxt qalmış olsun. Əgər bir şəxs bu vaxta qədər məğrib namazını qılmasa, əvvəlcə gərək işa namazını, sonra isə məğribi qılsın. Məğrib namazının məxsus vaxtı ilə işa namazının məxsus vaxtları arasındakı vaxt, məğrib namazı ilə, işa namazının müştərək

vaxtıdır. Əgər bir şəxs səhvən işa namazını məğrib namazından əvvəl qılsa və namazdan sonra, əvvəl qılmasını bilsə, namazı səhihdir və məğrib namazını ondan sonra qılmalıdır.

Məsələ: ۷۴۵. Mənası qabaqkı məsələdə deyilən məxsus və müştərək vaxt, müxtəlif şəxslər üçün fərqlidir; məsələn, əgər iki rəkət namaz qılmaq müddəti miqdarında zöhrün əvvəlindən keçsə, səfərdə olan şəxsin zöhr namazının məxsus vaxtı tamam olur və müştərək vaxtda daxil olur. Səfərə çıxan olmayan şəxs üçün, gərək zöhrün əvvəlindən dörd rəkət namaz qılmaq müddəti qədər vaxt keçsin.

Məsələ: ۷۴۶. Əgər məğrib namazını qılmamışdan əvvəl səhvən işa namazına başlasa və namaz əsnasında səhvini başa düşsə, bu halda əgər dördüncü rəkətin rükusuna getməyibsə, (qıldıqlarının hamasını və ya bir miqdarını müştərək vaxtda qılıbsa) gərək niyyətini məğrib namazına çevirib namazı tamamlasın, sonra isə işa namazını qılsın. Əgər dördüncü rəkətin rükusuna gedibsə, gərək işa namazını tamamlayıb sonra məğrib namazını qılsın. Əgər qıldıqlarının hamısını məğrib namazının xüsusi vaxtında qılıbsa və dördüncü rəkətin rükusuna daxil olmazdan qabaq yadına düşsə namazı səhihdir və niyyətini məğrib namazına çevirsin. Amma yenidən qılması ehtiyata uyğundur.

Məsələ: ۷۴۷. İşa namazının axır vaxtı gecə yarısıdır. Gərək gecəni qürubun əvvəlindən (günəş çıxan vaxta qədər deyil, sübh azanına qədər hesab etsin.(۱)

Məsələ: ۷۴۸. Əgər günah və ya bir üzrlü səbəbə görə məğrib, yaxud işa namazını kecə yarısına qədər qıla bilməsə, gərək sübh azanına qədər qılsın. Ehtiyat-vacibə görə gərək sübh azanından qabaq əda və qəza niyyəti etmədən qılsın.

۱- . Buna əsasən, təqribən on bir saat, on beş dəqiqə zöhrün şəri vaxtından sonra, məğrib və işa namazlarının axır vaxtıdir.

SÜBH NAMAZININ VAXTI

Məsələ: ۷۴۹. Sübh azanına yaxın vaxtlarda günçıxan tərəfdən bir ağartı üzü yuxarı tərəfə hərəkət edir ki, buna birinci fəcr deyilir. Bu ağartının yayılıdıqdan sonrakı vaxta ikinci fəcr deylir ki, bu da sübh namazının əvvəl vaxtıdır. Sübh namazının axır vaxtı isə .günəşin çıxdığı vaxtdır

NAMAZ VAXTININ HÖKMLƏRİ

Məsələ: ۷۵۰. İnsan o vaxt namaz qılmağa başlaya bilər ki, vaxtın daxil olduğunu yəqin .etsin, yaxud iki nəfər adil kişi vaxtın daxil olmasını xəbər versin

Məsələ: ۷۵۱. Əgər, bulud, toz, korluq və ya zındanda olmaq səbəbilə namaz vaxtının daxil olmasını yəqin edə bilməsə, daha yaxşı budur ki, vaxtın daxil olduğunu yəqin .edənədək namazı təxirə salsın. Xüsusi ilə də özü bu işə səbəb olubsa

Məsələ: ۷۵۲. Əgər vaxtın daxil olmasını iki adil kişi xəbər versələr və ya insan başqa yollarla namaz vaxtının daxil olmasını yəqin etsə, yaxud da azan vasitəsi ilə əminlik hasil etsə, namaz qılmağa məşğul olub namaz əsnasında vaxtın olmamasını başa düşsə, onun namazı batildir. Həmçinin, əgər namazdan sonra bütün namazı vaxtından qabaq qıldığını başa düşsə, (onun namazı batildir). Amma namaz əsnasında namaz vaxtının daxil olduğunu başa düşsə və ya namazdan sonra namaz qıldığı əsnada .vaxtın daxil olduğunu başa düşsə, onun namazı səhihdir

Məsələ: ۷۵۳. Əgər şəxs, namaz üçün, vaxtın daxil olmasını yəqin etməyin gərəkli olmasından xəbəri olmadan namaza başlasa, əgər namazdan sonra, namazını vaxtında qıldığını başa düşsə, onun namazı səhihdir. Bütün namazı, vaxtından əvvəl qıldığını başa düşsə, yaxud vaxtında və ya vaxtından əvvəl qıldığını başa düşməsə, namazı batildır. Hətta namazdan sonra başa düşsə ki, namaz qıldığı əsnada vaxt daxil .olmuşdur, gərək namazını yenidən qılsın

Məsələ: ۷۵۴. Əgər vaxtın daxil olmasını yəqin edib namaza başlasa və namaz əsnasında vaxtın daxil olub-olmamasında şəkk etsə, namazı batildir. Amma namaz əsnasında vaxtın daxil olmasına yəqin edib, qıldığı miqdarın vaxt daxilində olub-olmamasında şəkk etsə, namazı səhihdir.

Məsələ: ۷۵۵. Əgər namazın vaxtı az olsa və onun bəzi müstəhəblərinin yerinə yetirilməsi nəticəsində, namazın bir miqdarını vaxtdan xaricdə qılacağına səbəb olsa, gərək o müstəhəbləri yerinə yetirməsin; məsələn: əgər qunutu yerinə yetirmək səbəbilə namazın bir miqdarı vaxtdan xaricdə qılınacaqsa, gərək qunutu oxumasın.

Məsələ: ۷۵۶. Bir şəxsin bir rəkət namaz qılmaq miqdarında vaxtı olsa, gərək namazı əda niyyəti ilə qılsın. Amma, gərək namazı qəsdən bu vaxta qədər təxirə salmasın.

Məsələ: ۷۵۷. Səfərə çıxan olmayan bir şəxsin məğribədək beş rəkətlik namaz miqdarında vaxtı qalsa, gərək zöhr və əsr namazının hər ikisini qılsın. Amma bundan az vaxt qalarsa, gərək təkcə əsr namazını qılsın, sonra isə zöhrün qəzasını etsin. Həmçinin, gecə yarısınadək beş rəkətlik namaz qılmaq miqdarında vaxt qalsa, məğrib və işa namazının hər ikisini qılmalıdır. Əgər bundan az miqdarda vaxt qalsa gərək təkcə işa namazını qılıb, sonra məğrib namazını qılsın. Daha yaxşısı budur ki, "öhdəsində olan vəzifəni yerinə yetirmək" (ma fiz-zimmə) niyyəti ilə qılsın.

Məsələ: ۷۵۸. Səfərdə olan bir şəxsin, əgər məğribə qədər üç rəkət namaz qılmaq miqdarında vaxtı olsa, gərək zöhr və əsr namazının hər ikisini qılsın. Əgər bundan az miqdarda vaxt olsa, gərək təkcə əsr namazını qılıb sonra isə zöhr namazının qəzasını etsin. Həmçinin, əgər gecə yarısına qədər dörd rəkət namaz qılmaq miqdarında vaxt olsa, gərək məğrib və işa namazının hər ikisini qılsın. Amma bundan az miqdarda vaxtı olsa, işa namazını qılıb sonra məğribi qılsın. Daha yaxşısı budur ki, namazını əda və qəza niyyəti etmədən qılsın. İşa namazını qıldıqdan sonra bir rəkət

və ya daha artıq miqdarda gecə yarısına qədər vaxt qaldığı məlum olarsa, gərək .dərhal məğrib namazını əda niyyəti ilə qılsın

Məsələ: ۷۵۹. Müstəhəbdir ki, insan namazı onun əvvəl vaxtında qılsın. Bu barədə çoxlu tövsiyələr olunmuşdur. Namaz nə qədər vaxtın əvvəlinə yaxın vaxtlarda qılınsa daha yaxşıdır. Amma namazı daha yaxşı müəyyən bir cəhətə ğörə təxirə salmaq olar; .məsələn: gözləsin ki, namazı camaatla birlikdə qılsın

Məsələ: ۷۶۰. Əgər insan əvvəl vaxtda namaz qılmaq istəsə, müəyyən üzr səbəbilə çarəsiz qalıb; məsələn: təyəmmümlə və ya nəcis paltarla qılmalı olsa, bu halda, vaxtın axırına qədər üzrünün qalacağını bilsə, əvvəl vaxtda namaz qıla bilər. Amma üzrün .aradan qalxmasına ehtimal versə, gərək üzrünün aradan qalmasına qədər gözləsin

Məsələ: ۷۶۱. Namazın məsələlərini, şəkkiyyatı, səhviyyatını bilməyən şəxs, bunlardan hər hansının namazda qarşıya çıxacağına ehtimal verirsə, gərək onları öyrənmək üçün namazı əvvəl vaxtdan təxirə salsın. Amma namazı səhih tərzdə tamamlayacağına əmindirsə, əvvəl vaxtda namazı qıla bilər. Deməli, əgər namazda hökmünü bilmədiyi bir məsələ, irəli gəlməsə, namazı səhihdir. Amma hökmünü bilmədiyi bir məsələ irəli gəlsə, cayizdir ki, ehtimal verdiyi iki tərəfdən birinə əməl edərək, namazını qılıb qurtarsın. Amma, gərək namazdan sonra məsələni soruşmalıdır ki, batil olubsa, .yenidən qılsın. Əgər səhih olsa, o, namazla kifayətlənsin

Məsələ: ۷۶۲. Əgər namazın vaxtı çox olsa və borclu da öz borcunu istəsə, mümkün olan surətdə, gərək əvvəl borcunu verib, sonra namaz qılsın. Həmçinin, əgər dərhal yerinə yetirilməsi vacib bir iş qarşıya çıxsa; məsələn: məscidin nəcis olduğunu görsə, gərək əvvəlcə məscidi təmizləsin, sonra namazı qılsın. Baxmayaraq ki, əvvəl namazını qılarsa .günah etmişdir, amma namazı səhihdir

Məsələ: ۷۶۳. İnsan gərək əsr namazını zöhrdən, işa namazını isə məğribdən sonra qılsın. Əgər qəsdən əsr namazını zöhrdən və işa namazını məğribdən əvvəl qılsa, .batildir

Məsələ: ۷۶۴. Əgər zöhr niyyəti ilə namaza başlasa və namaz əsnasında, zöhr namazını qıldığı yadına düşsə, niyyəti əsrə döndərə bilməz. O namazı pozub əsr namazını .qılmalıdır. Məğrib və işa namazında da bu qayda ilə

Məsələ: ۷۶۵. Əgər əsr namazı əsnasında zöhr namazını qılmadığını yəqin edib niyyəti zöhr namazına çevirsə və yenidən zöhr namazını qıldığını xatırlasa, ehtiyat-müstəhəbə görə niyyətini əsrə çevirsin, namazı tamamladıqdan sonra əsr namazını yenidən qılsın. Bu o haldadır ki, niyyəti çevirdikdən sonra bir əməli yerinə yetirməsin. Əgər niyyətini çevirdikdən sonra bir əməli yerinə yetirsə ehtiyat-vacib budur ki, əsr .namazı yenidən qılsın

Məsələ: ۷۶۶. Əgər əsr namazı əsnasında, zöhrü qılıb-qılmaması barədə şəkk etsə, öz şəkkinə əhəmiyyət verməsin. Zöhr namazını qıldığını əsas götürsün. Həmçinin, namazının qurtaracağı təqdirdə məğrib namazının vaxtının yetişəcəyi qədər vaxt az olsa, gərək əsr namazı niyyəti ilə namazı qurtarsın. Zöhr namazını qəza və əda niyyəti .etmədən qılması daha yaxşıdır

Məsələ: ۷۶۷. Əgər işa namazı əsnasında dördüncü rəkətin rükusuna getməmişdən əvvəl, məğrib namazını qılıb-qılmaması barədə şəkk etsə, bu halda vaxt çox az olsa, belə ki, namazı qurtarandan sonra gecə yarısı olacaqsa, gərək işa namazı niyyəti ilə namazı tamamlasın. Amma vaxtı çox olsa, gərək niyyəti məğribə döndərsin, namazı üç .rəkətlə qurtarıb sonra işa namazını qılsın

Məsələ: ۷۶۸. Əgər işa namazında dördüncü rəkətin rükusuna çatandan sonra məğrib namazını qılıb-qılmaması barədə şəkk etsə, gərək namazı qurtarıb sonra məğrib namazını qılsın və ehtiyat-müstəhəb budur ki, məğrib namazını "mafizzimmə" niyyəti ilə

.qılsın

Məsələ: ۷۶۹. Əgər insan, qıldığı namazı ehtiyat üzündən yenidən qılsa və namaz əsnasında ondan qabaq qılmalı olduğu namazı qılmadığı yadına düşsə, niyyəti həmin namaza çevirə bilməz; məsələn: əsr namazını ehtiyatən qıldığı vaxtda, zöhr namazını .qılmamadığı yadına düşsə, niyyəti zöhrə çevirə bilməz

Məsələ: ۷۷۰. Niyyəti, qəza namazından əda namazına və müstəhəbdən vacibə .döndərmək caiz deyil

Məsələ: ۷۷۱. Əgər əda namazının vaxtı çox olsa, şəxs, namaz əsnasında niyyətini qəza namazına çevirə bilər. Amma qəzanin olduğunu bildiyi və xatırladığı surətdə əda namazına başlasa, ehtiyat budur ki, niyyətini çevirməkdən daşınsın. Amma gərək niyyəti qəza namazına çevirmək mümkün olsun; məsələn: zöhr namazını qılmağa məşğul olsa, üçüncü rəkətin rükusuna daxil olmamış, niyyətini sübhün qəzasına çevirə .bilər

MÜSTƏHƏB NAMAZLAR

Point

Məsələ: ۷۷۲. Müstəhəb namazlar çoxdur, onlara nafilə deyilir. Müstəhəb namazlar arasında, gecə-gündüz naflə namazlarının qılınmasına daha çox tövsiyə olunubdur. Onlar, cümə günü istisna olmaqla, ۳۴ rəkətdən ibarətdir ki, səkkizi zöhrün, səkkizi əsrin, dördü məğribin, ikisi işanın, on biri gecə namazının, ikisi sübh namazının nafiləsidir. İşa namazının nafiləsini, ehtiyat-vacibə əsasən oturan yerdə qılınmalı olduğuna görə, bir rəkət hesab olunur və onun ehtiyat-lüzumi hökmündə olmadığını demək də qeyri-mümkün deyil. Amma cümə günündə zöhr və əsrin on altı rəkət .nafiləsinə dörd rəkət də əlavə olur

Məsələ: ۷۷۳. Gecənin on bir rəkət nafilə namazının səkkiz rəkəti, gərək gecənin nafilə namazı niyyətilə, iki rəkəti "şəf" namazı, bir rəkəti də vətr namazı niyyəti ilə qılınmalıdır. .Həmçinin gecə namazının qılınmasının kamil qaydası da, dua kitablarında deyilmişdir

Məsələ: ٧٧۴. Nafilə namazlarını oturan halda qılmaq olar. Amma daha yaxşı olar ki, iki rəkət oturan halda qılınan nafilə namazı, bir rəkət hesab olunsun; məsələn: zöhr namazının səkkiz rəkət nafiləsini oturan yerdə qılmaq istəyən şəxs, daha yaxşı olar ki, on altı rəkət qılsın. Əgər vətr namazını oturduğu halda qılmaq itəsə, iki ədəd bir rəkətli .namazı oturduğu halda qılsın

Məsələ: ٧٧۵. Səfərdə zöhr və əsrin nafiləsi qılınmamalıdır. Amma işa namazının .nafiləsini (rəcai-mətlubiyyət) "tələb olunmaq ümüdü" ilə yerinə yetirə bilər

GÜNDƏLİK NAFİLƏ NAMAZLARININ VAXTLARI

Məsələ: ٧٧۶. Zöhr namazının nafiləsi onun özündən əvvəl qılınır. Onun vaxtı, zöhrün əvvəlindən başlayıb, əmələ gələn kölgənin şaxisin uzunluğunun yeddidə ikisini keçənədəkdir; məsələn: əgər şaxisin uzunluğu yeddi qarış olsa, günortadan sonra görünən kölgənin uzunluğu, iki qarışa çatdığı zaman, zöhr namazı nafiləsinin axır .vaxtıdır

Məsələ: ٧٧٧. Əsr namazının nafiləsi əsrdən əvvəl qılınır. Onun vaxtı isə şaxisin zöhrdən sonra əmələ gələn kölgəsinin şaxisin uzunluğunun yeddidə dördünə çatdığı vaxtadəkdir. Əgər zöhrün, yaxud əsrin nafiləsini ondan sonra qılmaq istəsə, gərək zöhrün nafiləsini zöhr namazı, əsrin nafiləsini də əsr namazını qıldıqdan sonra qılsın. .Ehtiyat-vacibə görə əda və ya qəza niyyəti etməsin

Məsələ: ٧٧٨. Məğrib nafiləsinin vaxtı məğrib namazı tamam olandan sonra başlayaraq, məğribdən sonra Günəş qürub etdiyi zaman günbatan tərəfdə əmələ gələn qızartının .aradan getdiyi vaxta qədər davam edir

Məsələ: ٧٧٩. İşa namazının nafiləsinin vaxtı, işa namazı başa çatdıqdan sonra başlayaraq, gecə yarısına qədər davam edir. Daha yaxşı olar ki, işa namazından sonra .dərhal qılınsın

Məsələ: ٧٨٠. Sübh namazının nafiləsi sübh namazından qabaq qılınır və onun vaxtı birinci fəcrdən sonra başlayaraq məşriq

tərəfdə qızartı yaranandəkdir. Birinci fəcrin nişanəsi “sübh namazının vaxtı” bölməsində deyildi və sübhün nafiləsini, axşam nafiləsininin arxasınca fasiləsiz olaraq .qılmaq mümkündür

Məsələ: ۷۸۱. Gecə nafiləsinin vaxtı, gecə yarısından başlayaraq sübh azanına qədərdir. .Daha yaxşı olar ki, sübh azanına yaxın vaxtlarda qılınsın

Məsələ: ۷۸۲. Səfərə çıxan və o şəxs ki, gecə nafiləsini gecə yarısından sonra qılmaq .onun üçün çətindir, onu gecənin əvvəlində qıla bilər

ĞÜFEYLƏ NAMAZI

Məsələ: ۷۸۳. Müstəhəb namazlardan biri də ğüfeylə namazıdır ki, məğrib və işa namazları arasında qılınır. Onun vaxtı, etiyata ğörə, məğrib tərəfdəki qızartı aradan gedməmişdən qabaqdır. Onun birinci rəkətində həmddən sonra gərək surənin yerinə :bu ayə oxusun

وَذَا النُّونِ إِذْ ذَهَبَ مُغَاضِباً فَظَنَّ أَنْ لَنْ نَقْدِرَ عَلَيْهِ فَنَادَى فِى الظُّلُمَاتِ أَنْ لاَ إِلهَ إِلاَّ أَنْتَ سُبْحَانَكَ إِنِّى كُنْتُ مِنَ الظَّالِمِينَ. فَاسْتَجَبْنَا لَهُ وَ نَجَّيْنَاهُ مِنَ الغَمِّ وَكَذَالِكَ نُنْجِى الْمُؤْمِنِينَ.

Və zənnuni iz zəhəbə muğazibən fə zənnə ən lən nəqdirə ələyhi fə nada fizzulumati ən la ilahə illa əntə subhanəkə inni kuntu minəzzaliminə, fəstəcəbna ləhu və nəccəynahu .minəl-ğəmmi və kəzalikə nuncil-muminin

:İkinci rəkətdə isə həmddən sonra surənin yerinə bu ayəni oxumalıdır

وَعِنْدَهُ مَفَاتِحُ الْغَيْبِ لاَ يَعْلَمُهَا إِلاَّ هُوَ وَيَعْلَمُ مَا فِى الْبَرِّوَ الْبَحْرِ وَمَا تَسْقُطُ مِنْ وَرَقَةٍ إِلاَّ يَعْلَمُهَا وَلاَحَبَّةٍ فِى ظُلُمَاتِ الْأَرْضِ وَلاَ رَطْبٍ وَلاَ يَابِسٍ إِلاَّ فِى كِتابٍ مُبِينٍ.

Və indəhu məfatihul-ğəybi la yələmuha illa huvə və yələmu ma fil-bərri vəl-bəhri və ma təsqutu min vərəqətin illa yələmuha və la həbbətin fi zulumatil-ərzi və la rətbin və la yabisin illa fi kitabin

:mubin. Onun qunutunda isə belə deyilməlidir

أَللَّهُمَّ إِنِّی أَسَأَلُکَ بِمَفَاتِحِ الْغَیْبِ الَّتِی لاَیَعْلَمُهَا إِلاَّ أَنْتَ أَنْ تُصَلِّیَ عَلَی مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَأَنْ تَفْعَلَ بِی کَذَا وَ کَذَا

Əllahummə inni əsəlukə bi məfatihil-ğəybilləti la yələmuha illa əntə, ən tusəlliyə əla ;Muhəmmədin və Ali-Muhəmmədin və ən təf`ələ bi kəza və kəza

:Kəza və kəza" kəlmələrinin yerinə öz hacətlərini deyib sonra desin"

أَللَّهُمَّ أَنْتَ وَلِیُّ نِعْمَتِی وَالْقَادِرُ عَلَی طَلِبَتِی تَعْلَمُ حَاجَتِی فَأَسْأَلُکَ بِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ عَلَیْهِ وَعَلَیْهِمُ السَّلاَمُ لَمَّا قَضَیْتَهَا لِی

Əllahummə əntə vəliyyu neməti, vəl-qadiru əla təlibəti, tələmu hacəti, fə əsəlukə bi həqqi Muhəmmədin və Ali-Muhəmməd, ələyhi və ələyhimussəlam ləmma qəzəytəha .li

QİBLƏNİN HÖKMLƏRİ

Məsələ: ۷۸۴. Qiblə, əzəmətli Məkkə şəhərində yerləşən Kəbə Evidir ki, yerin sonundan göylərin nəhayətinədək qiblədir. Gərək namaz, onunla üzbəüz duraraq qılınsın. Amma oradan uzaqda olan şəxs üzü qibləyə dursa, belə ki, "üzü qibləyə namaz qılır" desələr, kifayətdir. Həmçinin başqa işlər də (heyvan başının kəsilməsi kimi) gərək üzü qibləyə .yerinə yetirilsin

Məsələ: ۷۸۵. Vacibi namazı ayaq üstə qılan bir şəxs, gərək elə dayansın ki, üzü, sinəsi, qarnı və ayaqlarının qabağı üzü qibləyə olsun. Ayaqların barmağlarının da üzü qibləyə .olması lazım deyil, müstəhəbdir

Məsələ: ۷۸۶. Oturan yerdə namaz qılmalı olan bir şəxs, əgər adi qaydada otura bilmirsə və oturduğu zaman ayaqlarının altını yerə qoyur, gərək onun üzü, sinəsi, qarnı və .ayaqlarının qabağı üzü qibləyə olsun

Məsələ: ٧٨٧. Oturan halda namaz qıla bilməyən bir şəxs, namaz halında sağ böyrü üstə elə tərzdə uzanmalıdır ki, bədəninin qabaq tərəfi üzü qibləyə olsun. Əgər bu mümkün olmasa sol böyrü üstə elə uzanmalıdır ki, bədəninin qabaq tərəfi üzü qibləyə olsun; bu .da mümkün olmasa arxası üstə elə uzanmalıdır ki, ayaqlarının altı qibləyə tərəf olsun

Məsələ: ٧٨٨. Ehtiyat namazı, unudulmuş səcdə və təşəhhüd gərək üzü qibləyə yerinə .yetirilsin. Ehtiyat-vacibə görə səcdeyi-səhvi də üzü qibləyə yerinə yetirilsin

Məsələ: ٧٨٩. Müstəhəb namazı yol gedərkən və minikdə qılmaq olar. Əgər insan bu iki .halda müstəhəb namazı qılsa, üzü qibləyə olması lazım deyil

Məsələ: ٧٩٠. Namaz qılmaq istəyən bir şəxs, qibləni tapmaq üçün və onun hansı tərəfdə olduğunu yəqin edənədək çalışmalıdır. İki adil şahidin hissi nişanələr üzündən verdiyi şəhadətə, yaxud elmi qaydalar üzündən qibləni tanıyan və sözündən sübut və əminlik hasil olan şəxsin dediyinə əməl edə bilər. Deməli, iki adil və təcrübəli bilik adamının sözü, zənn və gümandan irəlidir. Əgər yəqin və sadalananlar olmasa, gərək müsəlman məscidin mehrabından, onların qəbirlərindən və digər yollarla hasil olan gümana əməl etsin. Hətta, əgər elmi qaydalar üzrə qibləni tanıyan fasiq və ya kafirin .dediyinə əsasən, qibləni tanıya bilsə, kifayətdir

Məsələ: ٧٩١. Qiblənin müəyyən istiqamətdə olduğuna gümanı olan bir şəxs, ondan daha güclü bir güman tapsa, öz gümanına əməl edə bilməz; məsələn, əgər qonaq, ev sahibinin dediyindən qiblənin istiqamətinə güman hasil etsə, bu halda başqa bir yolla .daha güclü bir güman tapsa, ev sahibinin dediyinə əməl etməməlidir

Məsələ: ٧٩٢. Əgər qibləni müəyyən etmək üçün vasitə yoxdursa və ya səy göstərməsinə baxmayaraq heç bir tərəfə güman əldə edə bilməsə, namazın vaxtı çox olduğu təqdirdə, ehtiyat-vacibə görə dörd tərəfə dörd namaz qılsın. Əgər dörd namaz miqdarında vaxt yoxdursa, gərək vaxtı olduğu miqdarda

namaz qılsın; məsələn: əgər təkcə bir namaz miqdarında vaxtı varsa, gərək hər tərəfə olursa olsun, bir namaz qılsın. Namazları da elə qılmalıdır ki, yəqini olsun onlaradan biri üzü qibləyə olub və ya qıblədən əyri olduğunu; sağ və ya sol tərəfdən qibləyə .çatmadığını bilsın

Məsələ: ۷۹۳. Əgər bir şəxs, iki tərəfdən birinin qiblə olduğunu yəqın və ya güman etsə, gərək hər iki tərəfə namaz qılsın. Amma ehtiyat-müstəhəb budur ki, güman etdiyi .halda dörd tərəfə namaz qılsın

Məsələ: ۷۹۴. Bir neçə tərəfə namaz qılmalı olan şəxs, əgər iki namaz qılmaq istəsə (zöhr və əsr kimi) gərək ikincini, birincinin arxasınca qılsın. Ehtiyat-müstəhəb budur ki, .birinci namazı hər neçə tərəfə lazımdırsa qılsın, sonra ikincinini başlasın

Məsələ: ۷۹۵. Qiblənin istiqamətinə yəqini olmayan bir şəxs, namazdan başqa, üzü qibləyə yerinə yetirilməli olan sair işləri; məsələn: heyvanın başını kəsmək kimi, görmək istəsə, gümana əməl etməlidir. Əgər güman da mümkün olmasa, heyvanı kəsməyə zərurət olsa (heyvanın ölmə qorxusu kimi) hər hansı tərəfə yerinə yetirsə .səhihdir

NAMAZDA BƏDƏNİN ÖRTÜLMƏSİ

Məsələ: ۷۹۶. Kişi gərək namaz halında, hətta əgər bir şəxs onu görməsə də, .övrəteynini örtsün. Daha yaxşı olar ki, göbəkdən dizlərə qədəri də örtsün

Məsələ: ۷۹۷. Qadın, namaz halında bütün bədənini, hətta başını və tüklərini örtməlidir. Amma üzünü, dəstəmazda yuyulan miqdarda, əllərini biləyə qədər, ayaqlarını topuğa qədər ötrməsi lazım deyil. Amma vacib miqdarın örtülməsinə yəqin etmək üçün üzünün ətrafını və biləkdən bir miqdar aşağı hissəni də örtməlidir. Ehtiyat-vacib budur .ki, ayaqlarının altını da örtsün

Məsələ: ۷۹۸. İnsan, unudulmuş səcdə və ya təşəhhüdün qəzasını yerinə yetirdiyi vaxt, -ehtiyat-vacibə görə, hətta səcdeyi

.səhvi də yerinə yetirdiyi vaxt, özünü namaz halında olduğu kimi örtməlidir

Məsələ: ۷۹۹. Əgər insan namazda qəsdən və ya məsələni bilməməzlik üzündən övrətini örtməsə, namazı batildir.

Məsələ: ۸۰۰. Bir şəxs namaz əsnasında övrətinin göründüyünü başa düşsə, gərək onu dərhal örtsün. Ehtiyat-müstəhəb budur ki, namazı qurtarıb yenidən qılsın. Amma namazdan sonra, namazda övrətinin göründüyünü başa düşsə, namazı səhihdir.

Məsələ: ۸۰۱. Əgər bir şəxs ayaq üstə olanda övrətini örtən paltarı, mümkündür ki, başqa hallarda; məsələn: rükuya, səcdəyə gedəndə o paltar örtə bilməsin. Belə olduqda, övrəti görünərkən əlindən başqa bir şeylə onu örtsə, namazı səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, belə paltarla namaz qılmasın.

Məsələ: ۸۰۲. İnsan namaz halında özünü ot və yarpaqla örtə bilər, amma ehtiyat-müstəhəb budur ki, başqa şey tapılmayan halda bu kimi şeylərlə özünü örtsün.

Məsələ: ۸۰۳. Ehtiyat-vacibə əsasən insan çarəsiz halda qalsa belə, namaz üçün özünü palçıqla örtə bilməz. Ehtiyat-vacib budur ki, bir namaz özünü palçıqla örtmüş halda digər bir namaz isə çılpaq halda qılsın.

Məsələ: ۸۰۴. Əgər özünü namazda örtmək üçün bir şeyi yoxdursa və tapacağına ehtimal versə, gərək namazı təxirə salsın. Amma bir şey tapmasa, gərək namaz vaxtının axırında öz vəzifəsinə uyğun olaraq namazı qılsın. Bu halda, əgər vaxtın əvvəlində namaza başlasa və vaxtın axırınadək üzrü yerində qalmaqda davam edərsə, namazı səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, namazın qəzasını da qılsın.

Məsələ: ۸۰۵. Namaz qılmaq istəyən bir şəxsin özünü ortmək üçün, hətta ağac yarpağı, ot, içində durmaq üçün bir çala tapmasa və vaxtın axrınadək də özünü örtmək üçün bir şey tapacağına ehtimal verməsə, naməhrəm şəxsin onu görəcəyini ehtimal versə, gərək oturan halda namaz qılsın, rüku və səcdə üçün övrəti görünməz olacaq miqdarda əyilsin. Səcdə üçün, rüku üçün

əyildiyindən bir az çox əyilsin, möhrü götürüb yuxarı qaldıraraq alnını ona qoysun. Əgər naməhrəmin onu görməyəcəyinə əmindirsə, ehtiyat-vacib budur ki, ayaq üstə iki namaz qılsın və ehtiyat budur ki, ayaq üstə duran zaman öz əli ilə arxasını örtsün. O iki .namazdan birinin rüku və səcdələrini yerinə yetirsin, digərində isə başı ilə işarə etsin

NAMAZ QILANIN PALTARININ ŞƏRTLƏRİ

Point

:Məsələ: ٨٠۶. Namaz qılanın paltarında altı şərt vardır

.Pak olsun .١

.Mübah olsun .٢

.Paltar, ölü heyvanın üzvlərindən olmasın .٣

.Əti haram olan heyvanlardan olmasın .۴

və ۶. Əgər namaz qılan kişidirsə, paltarı xalis ipəkdən və ya qızıldan toxunmuş ۵ .olmasın. Bunların təfsilatı gələcək məsələlərdə bəyan olunacaq

BİRİNCİ ŞƏRT

Məsələ: ٨٠٧. Namaz qılanın paltarı pak olamalıdır; əgər bir şəxs qəsdən nəcis paltar və .ya bədənlə namaz qılsa, namazı batildir

Məsələ: ٨٠٨. Nəcis paltar və nəcis bədənlə qılınan namazın batil olmasını bilməyən bir .şəxs, nəcis paltar və ya nəcis bədənlə namaz qılsa, namazı batildir

Məsələ: ٨٠٩. Əgər məsələni bilmədiyi üçün, nəcis şeyin nəcis olmasını; məsələn, haramdan cünub olan şəxsin tərinin nəcis olduğunu bilməsə, onunla namaz qılsa, .namazı batildir

Məsələ: ٨١٠. Əgər bədən və ya paltarınım nəcis olduğunu bilməsə və namazdan sonra nəcis olmasını başa düşsə, namazı səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, əgər .vaxtı varsa namazı yenidən qılsın

Məsələ: ٨١١. Əgər bədən və ya paltarının nəcis olduğunu unudsa və namaz arasında və ya namazdan sonra xatırlasa, gərək namazını yenidən qılsın. Əgər vaxt keçmişsə, .qəzasını yerinə yetırsın

Məsələ: ٨١٢. Əgər bir şəxs namaz vaxtının çox olduğu vaxtda namaza məşğul olub namaz əsnasında bədəni və ya paltarı nəcis olsa və namazın hər hansı bir əməlini bu halda qılmazdan əvvəl nəcis olmasından xəbərdar olsa, yaxud bədən və ya paltarının nəcis olmasını başa düşsə, həmin vaxt, yaxud əvvəldən nəcis olmasında şəkk etsə, (bu halda) bədən və ya paltarı suya çəkmək, dəyişdirmək və ya bədəndən çıxarmaq namazın surətini pozmazsa, gərək namaz əsnasında bədən və ya paltarını suya çəksin və ya dəyişsin; yaxud da başqa bir şey övrətini örtmüş olsa, paltarını çıxartsın. Amma bədən və ya paltarını suya çəkəcəyi və ya paltarını dəyişəcəyi, yaxud da çıxaracağı təqdirdə namazın surəti pozulacaq, yaxud paltarını çıxaracağı təqdirdə çılpaq .qalacaqsa, gərək namazı pozsun, pak bədən və ya paltarla namaz qılsın

Məsələ: ٨١٣. Namaz vaxtının az olduğu bir vaxtda, namaz qılmaqğa məşğul olan bir şəxs, namaz əsnasında bədən və ya paltarı nəcis olsa və namazın hər hansı bir hissəsini o nəcasətlə qılmamışdan qabaq nəcis olmasını başa düşsə, yaxud onun paltarının nəcis olmasını görüb həmin vaxt nəcis olduğu, yoxsa əvvəldən nəcis olduğunda şəkk etsə, bu halda onu suya çəkmək, dəyişmək və ya çıxartmaq namazın surətini pozmursa və paltarını çıxara bilərsə, paltarını çıxarıb suya çəkməli və ya dəyişdirməli, yaxud bir şey onun övrətini örtmüşsə paltarını çıxartmalı və namazı tamamlamalıdır. Amma başqa bir şey övrətini örtməmişsə, paltarını da suya çəkə, yaxud dəyişə bilmirsə, naməhrəm görməzsə paltarı çıxartsın qəzasını da qılsın. Amma paltarını suya çəkdikdə, yaxud dəyişdikdə namazın surəti pozulursa, yaxud soyuq və s. səbəbilə paltarını çıxara bilmirsə, elə həmin halda namazını qurtarmalıdır və namazı da səhihdir, qəzası da lazım

.deyil

Məsələ: ٨١۴. Namaz vaxtının az olduğu zaman, namaz qılan bir şəxsin namaz əsnasında bədəni nəcis olsa və namazın hər hansı hissəsini həmin halda qılmamışdan əvvəl nəcis olduğunu bilsə, yaxud nəcis olduğunu başa düşsün və həmin vaxtda, yaxud namazdan əvvəl nəcis olmasında şəkk etsə, bu halda bədənini suya çəkəndə namazın surəti pozulmayacaqsa, gərək suya çəksin; yox əgər namazın surəti pozularsa, gərək çılpaq olsun və namazı qılsın. Ehtiyata əsasən o namazı qəza etsin. Əgər üzürlü səbəbə görə çılpaq ola bilməsə o vəziyyətdə namazını qılsın, namazı .səhihdir

Məsələ: ٨١۵. Öz paltar və ya bədəninin pak olmasında şəkk edən bir şəxs, namaz .qıldıqdan sonra bədən və ya paltarının nəcis olmasını başa düşsə, namazı səhihdir

Məsələ: ٨١۶. Əgər paltarını suya çəkib pak olduğunu yəqin etsə və onunla namaz qılıb sonradan pak olmadığını başa düşsə, onun namazı səhihdir və müstəhəbdir ki, .yenidən pak paltarla namazı yerinə yetirsın

Məsələ: ٨١٧. Əgər öz bədənində, yaxud paltarında qan görüb nəcis qanlardan olmadığını yəqin etsə; məsələn: ağcaqanad qanı olduğunu bilsə), amma namazdan .sonra onunla namaz qılmağın səhih olmadığı qan olduğunu bilsə, namazı səhihdir

Məsələ: ٨١٨. Əgər yəqin etsə ki, bədənində və ya paltarında olan bir qandır ki, onunla namaz qılmaq səhihdir; məsələn: yara qanı və ya çiban qanı namazdan sonra, həmin .qanla namazın batil olduğunu bilsə, namazı səhihdir

Məsələ: ٨١٩. Əgər hər hansı bir şeyin nəcis olmasını unutsa və rütubətli bədəni, yaxud rütubətli paltarı ona toxunsa, bunu unudub namaz qılsa, namazdan sonra yadına düşsə, namazı səhihdir. Amma bədəni, rütubətli halda, nəcis olduğunu unutduğu şeyə dəysə və onu suya çəkmədən qüsl edib namaz qılsa, qüslü və namazı batildir. Həmçinin dəstəmaz üzvlərindən biri, rütubətli halda, nəcis olduğunu unutduğu bir şeyə dəysə və o yeri suya

.çəkib dəstəmaz almadan namaz qılsa, dəstəmazı və namazı batildir

Məsələ: ۸۲۰. Əgər bir nəfərin təkcə bir paltarı olsa və bədəni, paltarı nəcis olsa, onların birini suya çəkmək miqdarında suyu olsa, gərək bədənini suya çəkib, ۸۱۳-cü məsələdə qeyd olunan qaydada namaznı qılsın. Əgər soyuq və ya hər hansı səbəbə görə paltarını çıxara bilməsə, gərək bədənini yusun. Əgər nəcasətın biri bövldürsə, onu qəlil su ilə suya çəkmək istəsə, gərək onun üzərinə iki dəfə su töksün. Digər nəcasət qandırsa, onun üzərinə bir dəfə su tökmək kifayətdır və gərək bövl ilə nəcis olanı suya .çəksın

Məsələ: ۸۲۱. Nəcis paltarından başqa paltarı olmayan bir şəxs, namazı çılpaq qılsın, ehtiyata görə namazı yenidən qılsın. Amma soyuq, yaxud başqa səbəbdən paltarını çıxara bilməsə, o nəcis paltarla namaz qılsa, namazı səhihdir, yenidən qılması da lazım .deyil

Məsələ: ۸۲۲. Əgər bir şəxsin iki paltarı olsa və ikisindən birinin nəcis olmasını bilsə və hansının nəcis olmasını bilməsə, vaxt olan halda gərək hər ikisində namaz qılsın; məsələn: əgər zöhr və əsr namazlarını qılmaq istəyirsə, hər paltarda bir zöhr və bir əsr namazı qılmalıdır. Amma vaxt az olsa, onlardan biri ilə namaz qılsın. Əgər, övrətini naməhrəmdən örtüb çılpaq halda namaz qıla bilsə, çılpaq qılmasın və ehtiyat-müstəhəbə görə pak paltarda (həmin namazın) qəzasını qılmalıdır.

İKİNCİ ŞƏRT

Məsələ: ۸۲۳. Namaz qılan şəxsin paltarı, gərək mübah olsun. Qəsbi paltarı geyməyin haram olmasını bilən bir şəxs qəsdən qəsbi paltarda, yaxud sapı, düyməsi, yaxud .başqa şeyləri qəsbi olan bir paltarda namaz qılsa, namazı batildir

Məsələ: ۸۲۴. Qəsbi paltarı geyməyin haram olduğunu bilən, amma namazı batil etdiyini .bilməyən bir şəxs, qəsdən qəsbi paltarda namaz qılsa, namazı batildir

Məsələ: ۸۲۵. Əgər paltarının qəsbi olduğunu bilməsə və ya

unudsa və o paltarla namaz qılsa, namazı səhihdir. Amma şəxs, bir paltarı qəsb edib, qəsb etdiyini unudaraq onunla namaz qılarsa, ehtiyat-vacibə əsasən namazı yenidən qılsın. Əgər bu, diqqətsizlikdən, yəni yadına düşdüyü halda etinasızlıq göstərməsilə .olubsa, daha güclü nəzərə əsasən namazı batildir

Məsələ: ۸۲۶. Əgər bir şəxs paltarının qəsbi olmasını bilməsə, yaxud unutsa və namaz əsnasında başa düşsə, onda başqa bir şey onun övrətini örtmüş olsa, onu dərhal və ya namazın müvalatına xələl yetirmədən yəni ardıcıllığını pozmadan onu çıxara bilirsə, kərək onu çıxarsın və namazı səhihdir. Amma övrətini bir şey örtmürsə, yaxud qəsbi paltarı dərhal bədənindən çıxara bilmirsə və ya bədənindən çıxaracağı halda namazın ardıcıllığı pozulacaqsa, bu halda hətta bir rəkətlik namaz üçün də vaxt varsa, namazı pozub qəsbi olmayan paltarla yenidən qılmalıdır. Əgər bu qədər də vaxt olmazsa, namaz üstündə paltarını çıxarıb, çılpaq şəxsin namazında deyilən göstərişlərə əməl .edərək namazı tamamlamalıdır

Məsələ: ۸۲۷. Əgər bir şəxs canını qorumaq üçün qəsbi paltarda namaz qılsa, yaxud misal üçün, qəsb olunmuş paltarı, oğru aparmasın deyə, o paltarda namaz qılsa, .namazı səhihdir

Məsələ: ۸۲۸. Əgər xümsü verilməmiş və şəri zəmanəti də edilməmiş pulun (eyni) ilə paltar alsa və o paltarla namaz qılsa namazı batildir. Amma zakatı verilməmiş paltarla namaz qılsa böyük günah etməsinə baxmayaraq namazın səhih olması qeyri mümkün .sayılmaz

ÜÇÜNCÜ ŞƏRT

Məsələ: ۸۲۹. Namaz qılanın paltarı, gərək atıcı qanı olan (yəni damarını şəxsdikdə qanı sıçrayışla gələn) (murdar) ölu heyvan hissələrindən olmasın. Hətta əgər atıcı qanı olmayan (pulcuqları olan balıq və ilan kimi) heyvanların ölüsündən paltar hazırlasalar, .ehtiyat-vacib budur ki, onunla namaz qılınmasın

Məsələ: ۸۳۰. Əgər murdar olmuş heyvanın ruhu olan ət, dəri və

s. kimi üzvləri, namaz qılanın üstündə olsa, hətta onun paltarı da olmasa belə ehtiyat- .vacibə görə namazı batildir

Məsələ: ٨٣١. Əgər əti halal olan heyvanın murdar olmuş ruhu olmayan hissələri (tükü, yunu və s.) namaz qılanın üstündə olsa, yaxud onlardan hazırlanmış paltarda namaz .qılsa, namazı səhidir

DÖRDÜNCÜ ŞƏRT

Məsələ: ٨٣٢. Namaz qılanın paltarı, əti haram olan heyvanlardan hazırlanmamalıdır. .Əgər o heyvanların, hətta bir tükü belə namaz qılanın üstündə olsa, namazı batildir

Məsələ: ٨٣٣. Əgər əti haram olan heyvanların, pişik kimi ağzının, burnunun suyu, yaxud başqa rütubəti, namaz qılanın bədənində, yaxud paltarında olsa, əgər yaş olsa namazı .batildir. Quru və eyni aradan qaldırılmış olsa, namazı səhihdir

Məsələ: ٨٣٤. Əgər bir şəxsin tükü, təri, yaxud ağzının suyu namaz qılanın bədənində və ya paltarında olsa, həmçinin, namaz qılanın üstündə mirvarid, mum, bal olsa, (eybi .(yoxdur

Məsələ: ٨٣٥. Əgər paltarının əti halal olan, yaxud haram olan heyvandan hazırlanmasında şəkk etsə, istər islami ölkələrdə istehsal olunanlardan olsun, istərsə .də xaricdə, onunla namaz qılmaq səhihdir

Məsələ: ٨٣٦. Sədəf əti haram olan heyvanlardan sayılmır, onunla namaz qılmaq səhihdir. Həmçinin namaz qılanın üstündə mum və bal, qarışıq (xalis olmayan) .əbrişəm, arı, bit, ağcaqanad və əti olmayan hər bir heyvan olarsa eybi yoxdur

Məsələ: ٨٣٧. Xalis xəzdən hazırlanan paltarda namaz qılmağın eybi yoxdur. Amma .sincabın dərisi ilə namaz qılmaq işkallıdır

Məsələ: ٨٣٨. Paltarın, əti haram olan heyvanlardan olmasını unudub namaz qılsa, ehtiyat-vacibə görə gərək namazı yenidən qılsın, vaxtı keçmişsə qəzasını yerinə yetirsın. Əgər əti haram heyvandan olduğunu bilmədiyi paltarla namaz qılarsa, namazı .səhihdir

BEŞİNCİ ŞƏRT

Məsələ: ۸۳۹. Qızıldan toxunmuş paltar geymək kişiyə haramdır və onunla namaz qılsa, .batildir. Amma qadın üçün namaz və s. hallarda eybi yoxdur

Məsələ: ۸۴۰. Sinədən qızıl həmayil asmaq, ipək paltar geyinmək, barmağa qızıl üzük taxmaq və qızıl saat taxmaqla bəzənmək, kişilər üçün haram və onlarla namaz qılmaq batildir. Ehtiyat-vacib budur ki, qızıl eynəkdən də istifadə etməkdən çəkinilsin. Amma .qadının namaz və ya qeyri-namazda, qızılla bəzənməsinin eybi yoxdur

Məsələ: ۸۴۱. Əgər bir kişi üzük və ya paltarının qızıldan hazırlandığını bilməyib və ya .unudub, yaxud da şəkk etsə, onunla namaz qılsa, namazı səhihdir

ALTINCI ŞƏRT

Məsələ: ۸۴۲. Namaz qılan kişinin paltarı, hətta araqçını, şalvarının bağı (kəmər) və ya bunun kimi və təklikdə övrətini örtməyə kifayət etməyən şeylər, gərək xalis ipəkdən .olmasın. Namazdan başqa vaxtlarda da onun geyilməsi, kişiyə haramdır

Məsələ: ۸۴۳. Əgər paltarın astarının hamısı, yaxud bir hissəsi xalis ipəkdən olsa, onun .geyilməsi kişi üçün haram, onunla qılınan namaz da batildir

Məsələ: ۸۴۴. Paltarın, xalis ipəkdən və ya başqa şeydən hazırlandığını bilməyirsə, .namazda və namazdan qeyri halda geyinilməsinin eybi yoxdur

Məsələ: ۸۴۵. İpək dəsmal və bu kimi şeylər kişinin cibində olsa eybi yoxdur, namazı da .batil etmir

.Məsələ: ۸۴۶. Qadının namazda və qeyri-namazda ipək paltar geyməsinin eybi yoxdur

səh: ۱۶۴

Məsələ: ۸۴۷. Çarəsizlik üzündən qəsbi, xalis ipəkdən və ya qızıldan toxunan, murdardan hazırlanan paltar geyməyin maneəsi yoxdur. Həmçinin, paltar geyinməsi gərəkli olan bir şəxs, bunlardan başqa paltarı yoxdursa, namaz vaxtının axırınadək də olmasa, bu .paltarlarla namaz qıla bilər

Məsələ: ۸۴۸. Əgər qəsbi və ölmüş heyvandan hazırlanmış paltardan əlavə paltarı olmasa və paltar geyməyə naçar olmasa, çılpaqların hökmündə deyilənlərə uyğun .olaraq namaz qılmalıdır

Məsələ: ۸۴۹. Əgər əti haram olan heyvandan hazırlanmış paltardan başqa paltarı olmasa, əgər bu paltarı geyməyə məcbur olsa, həmin paltar ilə namaz qıla bilər. Amma naçar olmasa, çılpaqların namazında deyilən göstərişlərə əsasən namaz qılısın və .ehtiyat-vacib budur ki, bir dəfə də həmin paltarda namaz qılmalıdır

Məsələ: ۸۵۰. Əgər kişinin xalis ipək və ya qızıldan toxunmuş paltardan başqa paltarı olmasa, bu halda həmin paltarı geyməyə məcbur olmasa, çılpaqların namazında .deyilən göstərişlərə əsasən namaz qılmalıdır

Məsələ: ۸۵۱. Əgər namazda övrətini örtmək üçün bir şey olmasa, vacibdir ki, kirayə və (pulla) almaqla da olsa, paltar əldə etsin. Amma həmin paltarı almaq üçün çoxlu pul tələb olunursa və bu pullar onun var-dövlətinə nisbətən çoxdursa, yaxud bu pulları həmin paltarı almağa xərcləsə, (madi) vəziyyətinə zərər yetirəcəksə, bu halda gərək .çılpaqların namazının göstərişlərinə əsasən namaz qılsın

Məsələ: ۸۵۲. Paltarı olmayan bir şəxsə başqası paltar bağışlasa və yaxud ariyə versə, bu halda onu qəbul etmək o şəxs üçün məşəqqətli deyilsə, qəbul etməlidir. Hətta, əgər ariyə götürmək, yaxud bəxşiş istəmək onun üçün çətin deyilsə, paltarı olan şəxsdən .bəxşiş istəməli və yaxud ariyə almalıdır

Məsələ: ۸۵۳. Parçası, rəngi və tikilişi onun üçün adi olmayan

məsələn, elm əhlinin hərbi paltar geyinməsi kimi, əgər özünü onlara oxşatsa və onun şənində olmasa haramdır. Amma hər hansı bir üqəlayi iş üçün olarsa eybi yoxdur. O paltarla namaz qılmamağın müstəhəb olmasına baxmayaraq, o paltarla namaz qılsa .eybi yoxdur

Məsələ: ۸۵۴. Ehtiyat-vacibə görə əgər özünü oxşatmaq olarsa kişi qadın paltarı, qadın da kişi paltarı geyməsin. Amma o paltarda namaz qılsalar, eybi yoxdur. Baxmayaraq .ehtiyat-müstəhəb budur ki, o paltarda namaz qılmağı tərk etsinlər

Məsələ: ۸۵۵. Uzanan halda namaz qılmalı olan bir şəxs, çılpaq olsa və onun yorğan-döşəyi nəcis, yaxud xalis ipəkdən və ya əti haram olan heyvanlardan olsa, ehtiyat-vacibə görə, gərək namazda özünü onlarla örtməsin. Amma əgər onlara libas .deyərlərsə özünü onlarla örtməsin

NAMAZ QILANIN PALTAR VƏ BƏDƏNİNİN PAK OLMASININ LAZIM OLMADIĞI HALLAR

Məsələ: ۸۵۶. Təfsilatı sonrakı məsələdə deyiləcək üç halda, namaz qılanın bədəni və ya :paltarı nəcis olsa, onun namazı səhihdir

Bədənində olan yara, (cərahət) və ya çiban səbəbilə paltarı və ya bədəni qana-۱ ;bulaşarsa

Onun paltarı və ya bədəni, dirhəmdən az təqribən, əlin içinin çökəkliyi miqdarında-۲ ;qana bulaşarsa

Nəcis paltar və ya bədənlə namaz qılmağa naçar olsa; əgər namaz qılanın təkcə-۳ :paltarı nəcis olsa, iki halda namazı səhihdir

;Onun kiçik paltarı (corab və arağçın kimi) nəcis olarsa (۱

Oğlan uşaqını saxlayan qadının paltarı nəcis olarsa. Amma ehtiyat edib pak paltarla (۲ namaz qılsa, daha yaxşıdır. Bu beş halın hökmləri, sonrakı məsələdə təfsilatı ilə .deyiləcək

,Məsələ: ۸۵۷. Əgər namaz qılanın bədənində və paltarında yara

cərahət) yaxud çiban qanı olsa, bu halda bədənin və paltarın suya çəkilməsi, yaxud) dəyişdirilməsi əksər camaat üçün çətindir. Nə qədər ki, onun yarası, yaxud çibanı sağalmayıb, başqaları üçün çətin sayılmamasına baxmayaraq, o şəxsin özü üçün çətin olsa, o qanla namaz qıla bilər. Həmçinin qanla birlikdə çölə gələn çirk, yaxud yaranın üstünə qoyulan dərman nəcis olub bədənində, yaxud paltarında olsa da (namaz qıla .(bilər

Məsələ: ۸۵۸. Əgər qanlı kəsik və tezliklə sağalan, yuyulması asan olan yara, namaz qılanın bədənində yaxud paltarında olsa, o bədən və ya paltarla namaz qıla bilməz, .gərək pak olsun. Əgər namaz qılsa namazı batildir

Məsələ: ۸۵۹. Əgər bədənin, yaxud paltarın yara yerdən aralı olan hissəsi yaranın rütubəti ilə nəcis olsa, onunla namaz qılmaq caiz deyil. Amma bədənin və ya paltarın adətən yaranın rütubətinə bulaşan hissələri, onun rütubəti ilə nəcis olsa, onunla .namaz qılmağın maneəsi yoxdur

Məsələ: ۸۶۰. Əgər ağız, burun və bu kimi üzvlərin içindən bədənə və ya paltara qan dəysə ehtiyat-vacibə görə onunla namaz qılmasın. Həmçinin babasil içəridə olarsa .hökm eynidir. Amma babasil xaricdə olsa, onunla namaz qılmaq olar

Məsələ: ۸۶۱. Bədəni yara olan bir şəxs, bədənində, yaxud paltarında dirhəmdən çox qan görüb yara qanı və ya başqa qan olduğunu bilməsə, ehtiyat-vacibə görə onunla .namaz qılmasın

Məsələ: ۸۶۲. Əgər bədənin bir neçə yerində yara olsa və onlar bir-birinə çox yaxın olub bir yara hesab olunsalar, nə qədər ki, hamısı sağalmayıb, onlarla namaz qılmağın eybi yoxdur. Amma bir-birindən çox aralı olsalar və hər biri bir yara hesab olunsa, ehtiyat-.vacibə görə hər biri sağalanda, namaz üçün bədən və paltarını, suya çəksin

Məsələ: ۸۶۳. Əgər heyz, nifas, istihazə, it, donuz, murdar, kafir və ya əti haram olan heyvanın, (onlardan hər hansı birinin) qanı, iynənin ucu qədər namaz qılanın bədən və ya paltarında olsa, onun namazı batildir. Amma başqa qanlar (insanın, yaxud əti halal olan

heyvanın qanı) paltarın bir neçə yerində olmasına baxmayaraq, əgər üst-üstə dirhəmdən az olsa, (təqribən əlin içinin çökəyliyi miqdarındadır) onunla namaz .qılmağın eybi yoxdur

Məsələ: ۸۶۴. Əgər qan astarsız paltara tökülüb o biri tərəfinə keçsə, bir qan hesab olunur. Amma onun arxası ayrılıqda qana bulaşsa, ayrılıqda hesab etmək lazımdır. Deməli, paltarın üstündə və astarında olan qan, üst-üstə dirhəmdən az olsa, namaz .səhih, çox olduqda isə batildir

Məsələ: ۸۶۵. Əgər qan astarlı paltarın üstünə tökülüb, astarına keçsə, yaxud astara tökülüb paltarın üstünə çıxsa, hər birini ayrılıqda hesab etmək lazımdır. Deməli, paltarın üstündə və astarında olan qan, üst-üstə dirhəmdən az olsa, onunla namaz .səhih, çox olsa batildir

Məsələ: ۸۶۶. Bədəndə, yaxud paltarda olan qan dirhəmdən az olsa və ona rütubət dəyməsi nəticəsində qan və ona dəyən rütubət dirhəm miqdarında, yaxud ondan çox olsa və ətrafını bulaşdırsa onunla qılınan namaz batildir. Hətta, əgər rütubətlə qan birlikdə dirhəm miqdarında olmasa və ətrafına bulaşmasa da, onunla namaz qılmağın eybi var. Amma rütubət quru və nəcisin eyni aradan getsə, namaz qılmağın eybi .yoxdur

Məsələ: ۸۶۷. Əgər bədən, yaxud paltar qanlı olmasa, amma qana dəymək səbəbilə .nəcis olsa, hətta nəcis olan miqdar dirhəmdən az olsa da, onunla namaz qılmaq olmaz

Məsələ: ۸۶۸. Əgər bədəndə, yaxud paltarda olan qan, dirhəmdən azdırsa və ona başqa bir nəcasət dəysə; məsələn: üstünə bir damcı bövl düşsə), onunla namaz qılmaq caiz .deyil

Məsələ: ۸۶۹. Əgər namaz qılanın, övrəti örtə bilməyən kiçik paltarları araqçın və corab kimi nəcis olsa, bu halda murdardan, əti haram olan heyvandan hazırlanmış olmasa, onunla namaz qılmaq səhihdir. Əlbəttə öz yerində işlədilərsə. Əks halda nəcis olmuşun .hökmünü daşıyır. Həmçinin nəcis üzüklə namaz qılmağın eybi yoxdur

Məsələ: ۸۷۰. Dəsmal, açar və bıçaq kimi nəcis şeylərlə namaz

.qılmaq səhihdir

Məsələ: ٨٧١. Oğlan uşağına baxan qadının (xidmətçi) birdən artıq paltarı olmasa və başqa paltar ala bilməsə, kirayə və ariyə(١) kimi də paltar əldə edə bilməsə; gecə-gündüz ərzində paltarını bir dəfə suya çəksə, sonrakı günə qədər paltarı uşağın bövlu ilə nəcis olsa da belə, onunla namaz qıla bilər. Amma daha yaxşı olar öz paltarını əsr vaxtlarına yaxın; zöhr və əsr namazları üçün suya çəksin. Həmçinin, birdən artıq paltarı olsa və çarəsiz qalıb onların hamısını geyinsə, bu halda, gecə-gündüz ərzində .bütün paltarlarını bir dəfə suya çəksə, kifayətdir

Məsələ: ٨٧٢. Uşağa baxan qadının (xidmət edən) paltarı, qız uşağının bövlü ilə nəcis olsa, gündə bir dəfə suya çəkməsinə baxmayaraq, sonra yenə də nəcis olsa, ehtiyat-.vacibə görə o paltarla namaz qılmasın

NAMAZ QILANIN PALTARINDA MÜSTƏHƏB OLAN ŞEYLƏR

Məsələ: ٨٧٣. Namaz qılanın paltarında bir neçə şey müstəhəbdir. O cümlədən; təhtül-hənəki(٢) olan əmmamə qoymaq, əba geymək, ağ və ən pak paltarları geymək, xoş .qoxulu ətirdən istifadə etmək, əqiq üzük taxmaq

NAMAZ QILANIN PALTARINDA MƏKRUH OLAN ŞEYLƏR

Məsələ: ٨٧٤. Namaz qılanın paltarında bir neçə şey məkruhdur. O cümlədən: qara, çirkli, dar paltar geymək; şərab içənin və

١- . Ariyə budur ki, insan öz malını istifadə etmək üçün başqasına versin, əvəzində də .heç nə almasın

٢- . Əmmamənin açıq bir ucunun boğazın ətrafına dolanaraq çiyinə tərəf asılan .hissəsinə deyilir

nəcasətdən pərhiz etməyən şəxsin paltarını, üstündə şəkil olan paltar geymək; həmçinin paltarın düymələrinin açıq olması, üstündə şəkil olan üzüyün taxılması da .məkruhdur

NAMAZ QILANIN YERİ

Point

:Namaz qılanın məkanının on şərti vardır

BİRİNCİ ŞƏRT

.Mübah olsun

Məsələ: ٨٧٥. Əgər bir şəxs qəsbi mülkdə namaz qılırsa, hətta xalça, taxt və s. kimi şeylərin üstündə də olsa, namazı batildir. Amma qəsbi tavan və qəsbi xeymənin .(çadırın) altında namaz qılmağın, maneəsi yoxdur

Məsələ: ٨٧۶. Mənfəəti başqasına məxsus olan yerdə, mənfəət sahibinin icazəsi olmadan namaz qılmaq batildir; məsələn: icarə olunmuş evdə, evin sahibi, yaxud başqa bir şəxs, icarə edən şəxsin icazəsi olmadan namaz qılsa, namazı batildir. Həmçinin, başqasının haqqı olan bir mülkdə namaz qılsa, namazı batildir; məsələn: əgər meyyit, malının üçdə birini müəyyən yerə xərc edilməsini vəsiyyət etsə, onun .üçdə biri ayrılmayınca, onun mülkündə namaz qılmaq olmaz

Məsələ: ٨٧٧. Əgər bir şəxs məsciddə otursa, başqası onun yerini qəsb edib orada .namaz qılsa, namazı batildir

Məsələ: ٨٧٨. Əgər qəsbi olmasını bilmədiyi yerdə namaz qılıb namazdan sonra başa düşsə, yaxud qəsbi olduğunu unutsa və namazdan sonra yadına düşsə, namazı səhihdir. Amma özü bir yeri qəsb etmiş olduğu halda unutsa, orada namaz qılsa, .ehtiyat-vacibə görə namazını yenidən qılsın

Məsələ: ٨٧٩. Əgər bir yerin qəsbi olduğunu bilsə, amma qəsbi yerdə namazın batil .olduğunu bilməyib orada namaz qılsa, (cahili müqəssir olarsa) namazı batildir

Məsələ: ۸۸۰. Vacibi namazını süvari halında qılmağa məcbur olan bir şəxsin mindiyi heyvan və ya onun yəhəri qəsbi olsa, namazı batildir. Həmçinin, o heyvanda müstəhəb .namaz qılmaq istəsə də eyni qayda ilə

Məsələ: ۸۸۱. Əgər bir şəxs müəyyən bir mülkdə başqası ilə şərik olsa, şərikinin payı ayrılmasa, onun icazəsi olmadan o mülkdən istifadə edə bilməz və orada namaz qıla .bilməz

Məsələ: ۸۸۲. Xümsü verilməmiş pulun (eyni) ilə müəyyən bir mülk alınsa, şəri hakimə icazə almaq üçün əli çatdığı halda icazə almasa və xümsü vermək fikri olmasa o mülkdən istifadə edilməsi haram, onda qılınan namaz batildir. Amma zəkatda müamilənin səhih olması qeyri mümkün sayılmaz və orada namaz qılmağın heç bir .maneəsi yoxdur. Amma böyük günah etmişdir

Məsələ: ۸۸۳. Əgər mülkün sahibi dildə namaz qılmaq icazəsi versə və insan onun qəlbən razı olmadığını bilsə, o mülkdə namaz qılmaq batildir; əgər icazə verməsə və .insan onun qəlbən razı olduğunu bilsə, namazı səhihdir

Məsələ: ۸۸۴. Xüms və ya zəkat borcu olan meyyitin mülkündən istifadə etmək haram, onda namaz qılmaq batildir. Amma onun, borclarını verib və ya onu ödəməyə zamin .olsalar, onun mülkündən istifadə etmək və orada namaz qılmağın eybi yoxdur

Məsələ: ۸۸۵. Camaata borclu olan ölmüş şəxsin mülkündən istifadə etmək haram, onda namaz qılmaq batildir. Amma borclu olduğu şəxslər və ya meyyitin vəsisi(۱) yaxud şəri hakim icazə versələr onun mülkündən istifadə etmək və orada namaz .qılmağın maneəsi yoxdur

Məsələ: ۸۸۶. Əgər meyyitin borcu olmasa, amma vərəsələrindən bəzisi səğir (azyaşlı), dəli və ya qaib olsalar, onun mülkündən istifadə etmək haram, namaz qılmaq da .batildir

,Məsələ: ۸۸۷. Mehmanxana, hamam və s. kimi yerlərədə ki

.Vəsiyyəti icra etmək üçün təyin olunmuş şəxs . -١

oraya gələnlər üçün nəzərdə tutulub və malikin namaz qılmağa icazəsinə qərinələr olsa namaz qılmağın eybi yoxdur. Amma bu qəbildən olmayan digər yerlərdə, namaz qılmaq üçün, oranın sahibinin icazə verməsi ilə və ya danışığından məlum, olmalıdır. Misal üçün; bir şəxsə onun mülkündə oturmağa və yatmağa icazə verilməsindən, .onun namaz qılmağa da icazə verməsi başa düşülür

Məsələ: ۸۸۸. Namaz vaxtı, çox geniş yerdən digər yerə camaat üçün getmələri müşkül .olan yerdə, sahibinin icazəsi olmadan, namaz qılmaq olar

İKİNCİ ŞƏRT

Məsələ: ۸۸۹. Namaz qılanın məkanı hərəkətsiz olmalıdır. Əgər vaxtın azlığı, yaxud başqa səbəbə görə, çarəsizlikdən namaz qılanın tərpənməsinə səbəb olan yerdə (avtomobil, gəmi və qatar kimi) namaz qılmalı olsa, mümkün olduğu qədər hərəkət etdiyi halda bir şey oxumasın. Əgər onlar qiblədən digər tərəfə dönsələr, o, qibləyə .tərəf dönsün

Məsələ: ۸۹۰. Avtomobil, gəmi, qatar və bu kimi şeylər dayanmış olsalar, onda namaz .qılmağın maneəsi yoxdur

Məsələ: ۸۹۱. Üstündə dayanmaq mümkün olmayan, arpa, buğda xırmanlarında və s. .bu kimi yerlərdə namaz batildir

ÜÇÜNCÜ ŞƏRT

Məsələ: ۸۹۲. Namazınını tamam qıla biləcəyinə əmin olduğu yerdə namaz qılınsın. Külək, yağış, camaatın çox olması və bu kimi şeylərin ehtimal verilməsi səbəbilə namazın tamam qıla bilməsinə əmin olmayan yerdə, namaz qılmasın. Amma namaz .qılsa və namazın bütün şərtlərini yerinə yetirsə, namazı sıhihdir

DÖRDÜNCÜ ŞƏRT

Durulması haram olduğu yerdə; məsələn, yıxılmaq üzrə olan

.tavanın altında namaz qılınmasın

BEŞİNCİ ŞƏRT

Üzərində oturulub-durulması haram olan yerdə, üstündə Allahın adı yazılmış xalça .kimi namaz qılınmasın

ALTINCI ŞƏRT

Tavanı alçaq olan və düz dayanmaq mümkün olmayan yerlərdə, yaxud rüku və səcdə üçün yer olmayacaq olçüdə kiçik olan yerlərdə namaz qılmasın. Əgər belə yerlərdə namaz qılmağa məcbur olsa qiyam, rüku və səcdəni, mümkün olan qədər yerinə .yetirməlidir

YEDDİNCİ ŞƏRT

Məsələ: ۸۹۳. Ehtiyat-vacibə görə, gərək Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm), İmamların (əleyhimüs-səlam) qəbrindən qabaqda və onlarla bərabər namaz .qılmasın

Məsələ: ۸۹۴. Əgər namazda divar kimi bir şey onunla məsumun mütəhhər qəbri arasında olsa və bunun səbəbi ilə ehtiramsızlığ olmasa, eybi yoxdur. Amma (qəbrin üstünə qoyulan) şərif sandığın və zərihin, habelə qəbrin üstünə salınan parçanın arada .olması (fasilə salması) kifayət deyildir

SƏKKİZİNCİ ŞƏRT

Namaz qılanın yeri nəcis olarsa, o qədər yaş olmamalıdır ki, rütubəti bədəninə, yaxud paltarına sirayət etsin. Amma alının qoyduğu yer nəcisdirsə, hətta quru da olsa, namaz .batildir. Ehtiyat-müstəhəb budur ki, namaz qılanın məkanı ümumiyyətlə nəcis olmasın

DOQQUZUNCU ŞƏRT

Məsələ: ۸۹۵. Ehtiyat-müstəhəbə görə namazda, qadın kişidən

arxada dayanmalıdır və qadının səcdə yeri kişinin dayandığı yerdən bir az arxada .olmalıdır

Məsələ: ۸۹۶. Əgər qadın kişi ilə bərabər və ya ondan qabaqda dursa və hər ikisi birlikdə namaza başlasalar, məkruh olmasına baxmayaraq onların namazları səhihdir. Bu o, haldadır ki, fasilə bir qarışdan az olmasın. Əgər bir qarışdan az olarsa namazın batil .olmasını demək qeyri mümkün sayılmaz

Məsələ: ۸۹۷. Əgər qadınla kişi arasında divar, pərdə, yaxud başqa bir şey olsa ki, bir-birini görməsinlər, yaxud aralarında minimum on zira(۱) fasilə olsa, əgər qadın kişi ilə bərabər və ya ondan qabaqda dursa, hər ikisinin namazları səhihdir; kərahət də aradan gedir. Həmçinin, onlardan birinin yeri o qədər hündür olsa, deməsinlər ki, qadın .kişidən irəlidə yaxud onunla bərabər dayanıb

ONUNCU ŞƏRT

Namaz qılanın alnının yeri dizlərindən və ayaq barmaqlarının ucundan dörd bağlı barmaq qədər uca, yaxud alçaq olmamalıdır. Bu məsələ, təfsilatı ilə “səcdənin .hökmlərin”də deyiləcək

Məsələ: ۸۹۸. Naməhrəm kişi və qadının, başqa bir şəxsin olmadığı və başqalarının daxil ola bilmədikləri otaqda olmaları, haramdır. Orada namaz qılmaq işkallıdır. Amma .onlardan biri namaza başlasa və digər naməhrəm ora daxil olsa, onun namazı düzdür

Məsələ: ۸۹۹. Tar və başqa bu kimi alətlərin çalındığı yerdə qalmaq haram, qılınan .namaz isə ehtiyata görə batildir

Məsələ: ۹۰۰. Ehtiyat-vacibə görə, Kəbə evində və onun damında ixtiyarlı halda vacib .namaz qılınmasın, əgər çarəsiz qalıb qılsa, eybi yoxdur

Məsələ: ۹۰۱. Kəbə evində və onun damında müstəhəb namaz qılmağın eybi yoxdur. .Hətta Kəbə evinin hər (rüknü) guşəsi müqabilində iki rəkət namaz qılmaq müstəhəbdir

.zira- beş zərdir, hər zər təqribən ١٠٤ sm-dir ١٠ .-١

NAMAZ QILMAĞIN MÜSTƏHƏB OLDUĞU YERLƏR

Məsələ: ۹۰۲. Müqəddəs İslam şəriətində, namazın məsciddə qılınmasına aid çoxlu tövsiyə olunmuşdur. Məscidlərdən ən yaxşısı Məscidül-Həram, sonra Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) məscidi, sonra Kufə məscidi, sonra Beytül-Müqəddəs məscidi, ondan sonra hər şəhərin came məscidi, sonra məhəllə məscidi, .nəhayət bazar məscididir

Məsələ: ۹۰۳. Qadınlar namazı evdə, hətta evin arxa otaqında qılmaları, məsciddə qılmalarından daha yaxşıdır. Amma özlərini naməhrəmlərdən kamil şəkildə qoruya .bilsələr, yaxşı olar ki, məsciddə namaz qılsınlar

Məsələ: ۹۰۴. İmamların (ələyhimus-səlam) hərəmlərində namaz qılmaq müstəhəbdir, hətta məsciddən daha yaxşıdır. Əmirəl-möminin Əlinin (ələyhis-səlam) mütəhhər .hərəmində qılınan namaz, iki yüz min namaz bərabərdir

Məsələ: ۹۰۵. Məscidə çox getmək və namaz qılanı olmayan məscidə getmək müstəhəbdir. Məscidin qonşuluğunda olanın bir üzrü olmasa, məsciddən başqa yerdə .namaz qılması məkruhdur

Məsələ: ۹۰۶. Müstəhəbdir ki, məscidə getməyən bir şəxslə yemək yeməsin, işlərində .onunla məşvərət etməsin, onunla qonşu olmasın və ona qız verib qız almasın

NAMAZ QILMAĞIN MƏKRUH OLDUĞU YERLƏR

:Məsələ: ۹۰۷. Bir neçə yerdə namaz qılmaq məkruhdur, o cümlədən

.Hamamda-۱

.Şoran torpaqda-۲

.İnsanın qabağında-۳

.Açıq qapı ilə üzbəüz-۴

Böyük yollarda, küçə və xiyabanlarda (əgər oradan keçənlərə-۵

.(əziyyət verməsə; amma zəhmətinə səbəb olsa haram, namazı da batildir

.Odun və çırağın müqablində-۶

.Aşpazxanada, ümumiyyətlə od yandırılan hər yerdə-۷

.Bövl, qait, zibillik yeri olan çirkin quyu və ya çalanın müqabilində-۸

Şəkillə üzbəüz, ruhu olan şeylərin heykəlinin qarşısında (amma onun üstünə pərdə-۹ .(çəksələr, eybi yoxdur

.Cünub şəxsin, yaxud şərabın ya da itin olduğu otaqda-۱۰

.(Şəkil olan otaqda (hətta əgər namaz qılanla üzbəüz olmasa da-۱۱

.Qəbrin müqabilində-۱۲

.Qəbrin üstündə-۱۳

.İki qəbrin arasında-۱۴

.Qəbiristanlıqda-۱۵

Məsələ: ۹۰۸. Bir şəxs camaatın get-gəl etdiyi yerdə namaz qılsa, yaxud bir şəxs namaz qılanla üzbəüz olsa, müstəhəbdir ki, öz qabağına bir şey qoysun. Əgər çübüq və ya ip .də olsa kifayətdir. Hətta bir xətt çəksə belə, kifayət edər

MƏSCİDİN HÖKMLƏRİ

Məsələ: ۹۰۹. Məscidin yerini, tavanını, damını, içəri tərəfdən divarını, nəcasətə bulaşdırmaq haramdır. Məscidin nəcasətə bulaşdığı surətdə bunu başa düşən hər şəxs, dərhal nəcasəti aradan qaldırmalıdır. Ehtiyata görə məscidin divarını çöl tərəfdən də nəcasətə bulaşdırmaq olmaz və əgər bulaşarsa, nəcasəti aradan .qaldırmalıdırlar

Məsələ: ۹۱۰. Əgər bir şəxs məscidi paklaya bilməsə və ya yardımçı lazım olduğu halda tapa bilməsə, məscidi paklamaq ona vacib deyil. Amma başqa birinin paklaya

.biləcəyinə ehtimal versə ona xəbər verməlidir

Məsələ: ۹۱۱. Əgər məscidin müəyyən yeri nəcis olsa və onu

qazmaqdan, uçurmaqdan başqa yolla paklamaq mümkün olmasa, gərək oranı qazsınlar yaxud uçursunlar. Qazdıqları yeri doldurmaq yaxud uçurduqları yeri düzəltmək vacib deyil. Amma məscidin kərpici kimi bir şey nəcis olsa mümkün olan .halda, ehtiyat-vacibə görə gərək suya çəkib öz əvvəlki yerinə qoysunlar

Məsələ: ٩١٢. Əgər hər hansı məscidi qəsb edib yerində ev və s. tiksələr, yaxud ora, namaz qılmaq mümkün olmayacaq dərəcadə xarab olsa, oranı nəcisləmək, haram, .(nəcis olduqda) paklamaq isə lazım deyil

Məsələ: ٩١٣. İmamların (əlyhimus-səlam) hərəmini nəcis etmək haramdır. Əgər onlardan biri nəcis olsa və nəcasətin orada qalması ehtiramsızlığa səbəb olsa, onu paklamaq vacibdir. Hətta ehtiyat-müstəhəbə görə ehtiramsızlığa səbəb olmasa da .paklasinlar

Məsələ: ٩١٤. Əgər məscidin həsiri nəcis olsa, gərək onu suya çəksinlər. Amma həsir yuyulduqda xarab olacaqsa, nəcis yerin kəsilməsi daha yaxşıdır və gərək onu .kəssinlər

Məsələ: ٩١٥. Nəcasətin eynini (qan və s.) məscidə aparmaq ehtiramsızlıga səbəb olarsa, haramdır. Həmçinin nəcis olmuş şeyləri, məscidə ehtiramsızlığa səbə olacağı .təqdirdə aparmaq haramdır

Məsələ: ٩١٦. Əgər rövzəxanlıq üçün məsciddə çadır fərş və qara vursalar, çay avadanlığı aparsalar, əgər bu işlərdən məscidə zərər dəyməsə və namaz qılmağa .mane olmazsa, eybi yoxdur

Məsələ: ٩١٧. Ehtiyat-vacibə görə məscidi qızılla bəzəmək haramdır. Ehtiyat-vacibə görə gərək insan, ruhlu heyvan və bunlar kimilərin şəkillərini məsciddə nəqş etməsin. .Ruhu olmayan şeylərin (gül və kol kimi) məsciddə nəqş olunması məkruhdur

Məsələ: ٩١٨. Əgər məscid xarab da olsa, onu sata bilməzlər; yola və ya mülkə aid edə .bilməzlər

Məsələ: ٩١٩. Məscidin qapı, pəncərə və s. şeylərini satmaq haramdır. Əgər məscid xarab olarsa, gərək bunları onun təmirinə sərf etsinlər. Əgər o məscidin işinə

yaramasa, gərək digər məscid

üçün istifadə olunsun. Amma başqa məscidlərin də işinə yaramasa onu sata bilərlər və onun pulunu mümkün olduğu təqdirdə o məscidin təmirinə sərf etsinlər. Əks təqdirdə .başqa məscidin təmiri üçün sərf etsinlər

Məsələ: ۹۲۰. Məscid tikmək və xarab olmaq üzrə olan məscidi təmir etmək müstəhəbdir. Əgər məscid təmirlə düzəlməyəcək şəkildə xarab olubsa, onu yıxıb yenidən tikə bilərlər. Hətta, xarab olmamış məscidi camaatın ehtiyacını nəzərə alıb, .yəni onda namaz qılmaları üçün yıxıb, ondan daha böyüyünu tikə bilırlər

Məsələ: ۹۲۱. Məscidi təmizləmək və onun çırağını yandırmaq müstəhəbdir. Məscidə getmək istsəyən şəxs, müstəhəbdir ki, özünü xoş qoxu ilə ətirləsin, pak və qiymətli paltar geyinsin, ayaqqabısının altını, nəcasətin olmamasını bilmək üçün yoxlasın. Məscidə daxil olduğu zaman əvvəl sağ ayağını, xaric olanda isə sol ayağını qoyaraq çıxsın. Həmçinin, müstəhəbdi ki, hamıdan tez məscidə gəlsin və oradan hamıdan gec .çıxsın

Məsələ: ۹۲۲. İnsan məscidə daxil olan zaman, təhiyyət və ehtiram niyyəti ilə iki rəkət .namaz qılsın. Əgər vacib və ya başqa müstəhəb namaz da qılsa, kifayətdir

Məsələ: ۹۲۳. Məsciddə yatmaq (əgər çarəsizlik üzündən olmazsa) dünya işləri barəsində söhbət etmək, bir işlə məşğuı olmaq, öyüd-nəsihəti olmayan şerlər oxumaq və bunun kimi (əməllər) məkruhdur. Həmçinin ağızın, burun suyunu, sinədən gələn bəlğəmi məscidə atmaq, itmiş şeyi tələb etmək, öz səsini ucaltmaq məkruhdur. Amma .azan üçün səsi ucaltmağın maneəsi yoxdur

Məsələ: ۹۲۴. Uşağı və dəlini məscidə buraxmaq məkruhdur. Sarmısaq, soğan və bu kimi şeyləri yeyən şəxs, ağzından gələn qoxu ilə camaata əziyyət verərsə, məscidə .getməsi məkruhdur

AZAN VƏ İQAMƏ

Point

Məsələ: ۹۲۵. Kişi və qadın üçün müstəhəbdir ki, gündəlik

vacib namazlardan əvvəl azan və iqamə desinlər. Amma gündəlik vacibdən qeyri namazlarda, (ayət namazları kimi), ondan qabaq müstəhəbdir ki, üç dəfə "əs-səlat" .deyilsin

Məsələ: ٩٢٦. Müstəhəbdir ki, uşağın dünyaya gəldiyi ilk gündə, yaxud göbəyi .düşməzdən əvvəl sağ qulağına azanı, sol qulağına isə iqaməni desinlər

Məsələ: ٩٢٧. Azan on səkkiz cümlədən ibarətdir: Dörd dəfə - Əllahu əkbər; Əşhədu ən la ilahə illəllah, əşəhədu ənnə Mühəmmədən Rəsulullah, həyyə ələssəlat, həyyə ələlfəlah, həyyə əla xeyril əməl, Əllahu əkbər, la ilahə illəllah, bunlarım hər biri, iki .dəfədir

İqamə də on yeddi cümlədən ibarətdir: Yəni, iki dəfə - Əllahu əkbər azanın əvvəlindən, bir dəfə La ilahə illəllah onun axrından azalır. Həyyə əla xeyril-əməl-dən sonra gərək .iki dəfə qəd qamətis-səlat əlavə olaraq deyilsin

Məsələ: ٩٢٨. Əşəhədü ənnə Əliyyən vəliyyullah azan və iqamənin hissələrindən deyil. Amma yaxşı olar ki, əşhədü ənnə Mühəmmədən Rəsululah dedikdən sonra mütləq .qürbət qəsdi ilə deyilsin

AZAN VƏ İQAMƏNİN TƏRCÜMƏSİ

أَللهُ أَكبر

.Əllahu əkbər -Allah, vəsf olunduğundan çox böyükdür

أَشْهَدُ أَن لَا إِلَهَ الاّ الله

Əşhədu ənla ilahə illəllah-şəhadət verirəm ki, yeganə və misilsiz olan Allahdan başqa, .heç bir pərəstiş olunacaq məbud yoxdur

أَشْهَدُ أَنَّ مُحَمَّدًا رَسُولُ الله

,Əşədu ənnə Muhəmmədən Rəsulullah-şəhadət verirəm ki

həzrət Mühəmməd ibni Əbdillah (səlləllahu ələyhi və alihi və səlləm) Allahın peyğəmbəri və elçisidir.

أَشْهَدُ أَنَّ أَمِيرَ الْمُؤْمِنِينَ عَلِيًّا وَلِىّ الله

Əşhədu ənnə Əmirəl-mumininə Əliyyən vəliyyullah -şəhadət verirəm ki, həzrət Əli (sələvatullahu və səlamuhu ələyh) möminlərin əmiri, Allahın bütün məxluqatı içərisidə vəlisi, dostudur.

حَىَّ عَلَى الصَّلَوهِ

Həyyə ələs-səlat-namaza tələsin!

حَىَّ عَلَى الْفَلاَحِ

Həyyə ələl-fəlah-nicat tapmaq üçün tələsin!

حَىَّ عَلَى خَيْرِ الْعَمَلِ

Həyyə əla xəyril-əməl-işlərin ən yaxşısı olan namaz üçün tələsin!

قَدْ قَامَتِ الصَّلَاهِ

Qəd qamətis səlat-həqiqətən namaz bərqərar olub!

لَا إِلَهَ إِلَّا الله

La ilahə illəllah-yeganə və misilsiz olan Allahdan başqa pərəstiş olunacaq məbud yoxdur.

Məsələ: ۹۲۹. Azan və iqamənin cümlələri arasında gərək çox zaman fasiləsi olmasin. Əgər onların arasında adi qaydadan artıq fasilə düşsə, gərək onu yenidən desin.

Məsələ: ۹۳۰. Əgər azan və iqamədə səsi boğaza salıb “ğina”ya çevirsə, yəni, oyun-əyləncə (toy-şadlıq) məclislərində olan avazlar kimi olsa, haram və əgər qina da olmasa, məkruhdur.

Məsələ: ۹۳۱. Beş namazda azan deyilmir:

.Cümə günü əsr namazının azanı-١

Zil-Həccənin ٩-cu günü olan Ərəfə gününün əsr namazının-٢

səh: ١٨٠

.azanı

.Məşərül-həramda olan bir şəxsin Qurban bayramı gecəsinin işa namazının azanı-٣

.Müstəhazə qadının əsr və işa namazı-۴

Bövl və qaitin (ifrazatın) çölə çıxmasının qarşısını ala bilməyən bir şəxsin əsr və işa-۵ .namazların azanı

Bu beş namazda azan, o vaxt saqit olur ki, əvvəlki namazla fasiləsi olmasın, yaxud bu fasilə çox az olsun. Amma, nafilə və təqib qılmaqla zaman fasiləsi çox düşərsə azanın .oyundan götürülməsi saqit olması işkallıdır

Məsələ: ٩٣٢. Əgər hər hansı camaat namazı üçün azan və iqamə deyilmiş olsa, o .camaatla birlikdə namaz qılan bir şəxs, öz namazı üçün azan və iqamə deməməlidir

Məsələ: ٩٣٣. Əgər camaat namazı qılmaq üçün yaxud da fərdi namaz qılmaq üçün məscidə gedib orada təşkil olunan camaat namazının qurtardığını görsə, cərgələr pozulmayıb və camaat dağılışmayanadək, gərək öz namazı üçün azan və iqamə .deməsin

Məsələ: ٩٣۴. Əgər bir yerdə, bir dəstə camaat namazına məşğul olsa, yaxud onların namazı təzəcə qurtarmış, cərgələri pozulmamış olsa və insan namazını fərdi, yaxud başqa camaatla təşkil olunacaq camaat namazı ilə qılmaq istəsə, altı şərt daxilində .ondan azan və iqamə saqit olur

Camaat namazı məsciddə olsun. Əgər məsciddə olmasa, azan və iqamənin saqit-١ .olmasının eybi vardır, (rəcai-mətlubiyyət) rəca qəsdi(١) ilə yerinə yetirə bilər

;Əvvəlki camaat namazı üçün azan və iqamə deyilmiş olsun-٢

;Camaat namazı batil olmasın-٣

Onun namazı, camaat namazı ilə eyni məkanda olsun. Deməli, əgər camaat namazı-۴ məscidin içində olsa və insan məscidin damında namaz qılmaq istəsə müstəhəbdir ki, .azan və iqamə desin

.Allah-təalanın əmr etməsi ehtimalı ilə yerinə yetirsin . -۱

.Onun namazı ilə camaat namazının hər ikisi, əda olsun-۵

Onun namazı ilə camaat namazının vaxtı müştərək olsun; məsələn: hər ikisi zöhr və-۶ ya hər ikisi əsri qılsın; yaxud camaatla qılınan namaz zöhr namazı, onun namazı isə əsr namazı olsun; yaxud o zöhr namazını qılsın, camaat namazında isə əsr namazı qılınsın. .Əgər vaxt eyni olmasa tələb olma ümüdü ilə azan və iqamə desin

Məsələ: ۹۳۵. Əgər üçüncü şərtdə, keçən məsələdə deyilən şərtlərdə, yəni camaat namazının səhih olub-olmamasında şəkk etsə, azan və iqamə ondan saqitdir. Amma qalan beş şərtdən birində şəkk etsə, ehtiyat budur ki, azan və iqaməni tələb olma .ümüdü ilə desin

Məsələ: ۹۳۶. Əgər bir şəxs başqasının dediyi azan və iqaməni eşidirsə, müstəhəbdir ki, .eşitdiyi hissələri desin

Məsələ: ۹۳۷. Bir şəxs başqasının azan və iqaməsini eşitsə, istər (azan və iqamənin sözlərini) onunla desin, istərsə də deməsin, o azan və iqamə ilə qılmaq istədiyi namaz .arasında çox fasilə düşməsə, öz namazı üçün azan və iqamə deməyə bilər

Məsələ: ۹۳۸. Əgər kişi, qadının azanını ləzzət məqsədi ilə, eşitsə, azan ondan saqit .olmur. Amma qadının azanı harama səbəb olmayacaq şəkildə olsa, azan saqit olur

Məsələ: ۹۳۹. Camaat namazının azan və iqaməsini kişi deməlidir. Amma qadınlardan .ibarət olan camaat namazında azan və iqaməni qadın desə, kifayətdir

Məsələ: ۹۴۰. İqamə, azandan sonra deyilməlidir. Əgər ondan əvvəl deyilsə, səhih .deyildir

Məsələ: ۹۴۱. Əgər bir şəxs azan və iqamənin cümlələrini tərtibsiz (ardıcıllıq olmadan) desə; məsələn: “həyyə ələl-fəlah”-ı “həyyə ələs-səllat”-dan qabaq desə, gərək tərtibi .pozduğu yerə qayidıb yenidən desin

Məsələ: ۹۴۲. Azan və iqamə arasında fasilə salınmamalıdır. Əgər onların arasında çox fasilə düşsə və deyilən azan, arxasınca deyilən iqamənin azanı hesab olunmazsa, müstəhəbdir ki, yenidən

azan və iqamə deyilsin. Həmçinin əgər azan-iqamə ilə namaz arasında çox fasilə düşsə və o namazın azan və iqaməsi hesab olunmasa, müstəhəbdir ki, həmin namaz .üçün yenidən azan və iqamə deyilsin

Məsələ: ۹۴۳. Azan və iqamə, gərək səhih ərəbcə deyilsin. Əgər ərəbcə səhv desələr, yaxud hər hansı hərfin yerinə başqa bir hərf desələr və ya onun tərcüməsini başqa .dildə desələr, səhih deyildir

Məsələ: ۹۴۴. Azan və iqamə, namaz vaxtı daxil olandan sonra deyilməlidir. Əgər .qəsdən, yaxud unutqanlıq üzündən namaz vaxtından qabaq deyilsə, batildir

Məsələ: ۹۴۵. Əgər bir şəxs iqamədən əvvəl azanı deyib-deməməsində şəkk etsə, azanı deməlidir. Amma iqamə deməyə başlayandan sonra azanı deyib-deməməsində şəkk .etsə, azanı demək lazım deyil

Məsələ: ۹۴۶. Əgər azan və ya iqamə deyən əsnada, müəyyən bir hissəni deməmişdən əvvəl, ondan əvvəlki hissəni deyib-deməməsində şəkk etsə, gərək şəkk etdiyi hissəni desin. Amma azanın, yaxud iqamənin müəyyən hissəsini deyən halda ondan əvvəlki .hissəni deyib-deməməsində şəkk etsə, həmin hissəni demək lazım deyil

Məsələ: ۹۴۷. Müstəhəbdir ki, insan azan deyən vaxt üzü qibləyə dursun, dəstəmaz, qüsl almış olsun, əllərini, yəni iki şəhadət barmaqlarını, qulağına qoyub səsini ucaldsın. .Azanın cümlələri arasında azacıq fasilə versin və cümlələrin arasında danışmasın

Məsələ: ۹۴۸. Müstəhəbdir ki, insanın bədəni, iqamə dediyi vaxt aram olsun və onu azandan (aşağı səslə) ahəstə desin, cümlələrini bir-birinə yapışdırmasın. Amma azanın .cümlələri arasındakı fasilə qədər iqamədə fasilə salmasın

Məsələ: ۹۴۹. Müstəhəbdir ki, azan və iqamə arasında bir addım irəli getsin, yaxud müəyyən qədər otursun, səcdə etsin və ya zikr desin, yaxud da dua oxusun, yaxud bir qədər sakit olsun, yaxud müəyyən bir söz danışsın, yaxud iki rəkət namaz qılsın. Amma

sübh namazının azanı ilə iqaməsi arasında danışmaq, məğrib namazının azanı ilə .iqaməsi arasında namaz qılmaq müstəhəb deyil; səcdə etməsi, daha yaxşı olardı

Məsələ: ٩٥٠. Müstəhəbdir ki, azan demək üçün müəyyən olunan şəxs adil, vaxt .tanıyan, səsi uca olsun, azanı uca yerdə desin

NAMAZIN VACİBATI

Point

:Namazın vacibatı ١١-dir

,Niyyət-١

,(Qiyam (yəni ayaq üstə durmaq-٢

;(Təkbirətül-ehram, (yəni namazın əvvəlində Əllahu əkbər demək-٣

;Rüku-۴

;Səcdə-۵

;Qiraət-۶

; Zikr-٧

;Təşəhhüd-٨

;Salam-٩

;Tərtib-١٠

;(Müvalat; (yəni namazın hissələrini bir-birinin arxasınca, fasiləsiz demək-١١

Məsələ: ٩٥١. Namazın vacibatının bəzi qismləri rükndür. Yəni, əgər insan onu yerinə yetirməsə, yaxud namazda artırsa "istər qəsdən olsun istərsə də səhvən" namaz batil olur. Digər qismləri isə rükn deyil. Yəni, əgər qəsdən azaldılıb-artırılsa, namaz batil olur. Amma səhvən azaldılıb-artırılsa batil olmaz. Amma niyyəti uzatmaq, həmçinin

araxasınca rüku olan qiyamı (rükuya birləşən qiyam) çox uzatmaqı, rükunu uzatmadan təsəvvür etmək müşküldür. Namazın rüknləri beşdir:

۱. Niyyət.

۲. Təkbirətül-ehram.

Təkbirətül-ehram dediyi vaxt, həmçinin arxasınca rüku olan qiyam, (yəni rükudan .۳ (.qabaq durmaq

.Rüku .۴

.İki səcdə .۵

NİYYƏT

Məsələ: ۹۵۲. İnsan gərək namazı qürbət qəsdi ilə (yəni, Allah-təalanın əmrini yerinə yetirmək niyyəti ilə qılmalıdır.) Niyyəti qəlbdən keçirmək və ya misal üçün, dildə "dörd rəkət zöhr namazı qılıram, qürbətən iləllah" demək, lazım deyil. Məqsədi Allah üçün .qılmaq olsa kifayətdir

Məsələ: ۹۵۳. Əgər zöhr və ya əsr namazında "dörd rəkət namaz qılıram" deyə niyyət edərək, onlardan zöhr və ya əsr olduğunu müəyyənləşdirməsə, namazı batildir. Həmçinin zöhr namazının qəzası vacib olan bir şəxs, zöhr namazı vaxtında, onun qəzasını və ya zöhr namazını qılmaq istəsə, gərək qıldığı namazı niyyətdə .müəyyənləşdirsin

Məsələ: ۹۵۴. İnsan namazın əvvəlindən axırına qədər öz niyyətində sabit qalmalıdır. Deməli, əgər namaz əsnasında özündən xəbərsiz (qafil) olarsa, belə ki, "nə edirsən?" .deyə soruşsalar nə deyəcəyini bilməsə, namazı batildir

Məsələ: ۹۵۵. İnsan namazı yalnız Allahın əmrini yerinə yetirmək üçün qılmalıdır. Deməli, əgər bir şəxs riya etsə, yəni özünü camaata göstərmək üçün namaz qılsa, namazı batildir, istər təkcə camaata göstərmək üçün olsun, istərsə də, həm Allah üçün, həm .(də camaata göstərmək üçün olsun (yəni hər ikisini nəzərdə tutsun

Məsələ: ۹۵۶. Əgər namazın bir hissəsini Allahdan qeyrisi üçün yerinə yetirsə; yerinə yetirdiyi hissə namazın vacib hissəsi olsa (həmd və surə kimi,) namazı batildir. Müstəhəb hissəsi olsa (qunut kimi) namazı ehtiyata görə batildir. Əgər istəsə qunutu yerinə yetirsin sonra namazı yenidən qılsın. Əgər bütün namazı Allah

üçün qılsın, amma camaata göstərmək üçün məscid kimi xüsusi yerdə, yaxud əvvəl vaxt kimi xüsusi bir vaxtda və ya xüsusi bir tərzdə məsələn, camaatla qılsa, namazı .batildir

TƏKBİRƏTÜL–EHRAM

Məsələ: ۹۵۷. Hər namazın əvvəlində Əllahu əkbər demək vacib və rükndür. Gərək Allah və əkbər kəlməsinin hərflərini, ardıcıl desin. Həmçinin bu iki kəlmə, səhih ərəb dilində deyilsin. Deməli, bir şəxs bunları ərəbcə səhv desə, yaxud tərcümələrini başqa bir .dildə desə, səhih deyil

Məsələ: ۹۵۸. Ehtiyat-müstəhəb budur ki, namazın təkbirətül-ehramı ondan əvvəl deyilən hissələrə (iqaməyə, yaxud təkbirətül-ehramdan əvvəl oxunan duaya) birləşdirilməsin. Ehtiyat-vacib budur ki, gərək Əllahu əkbər Bismillahir-rəhmanir-.rəhimə birləşilməsin

Məsələ: ۹۵۹. Əgər namaz qılan, Əllahu əkbər kəlməsini ondan sonra oxuduğu kəlməyə; məsələn, Bismillahir-rəhmanir-rəhimə birləşdirmək istəsə, baxmayaraq ki, ehtiyatın .əksinədir gərək əkbər kəlməsinin “re” hərfini zəmmə ilə tələffüz etsin

Məsələ: ۹۶۰. Təkbirətül-ehram deyən vaxt gərək bədən aram olsun. Əgər bir şəxs təkbirətül-ehramı bilərəkdən hərəkət halında desə, batildir. Əgər səhvən hərəkət .etsə, ehtiyata görə gərək namazı tamamlayıb sonra yenidən qılsın

Məsələ: ۹۶۱. Təkbir, həmd, surə, zikr və duanı gərək elə oxusun ki, özü eşitsin və ona söz deyilsin. Əgər qulağın ağırlığı, karlığı və ya səs-küyün çoxluğu səbəbi ilə eşitməsə, .elə deməlidir ki, mane olmazsa eşidə bilsin

Məsələ: ۹۶۲. Lal və ya dili xəstə olan bir şəxs Əllahu əkbəri düzgün deyə bilməsə, gərək necə bacarırsa, elə də desin. Əgər ümumiyyətlə deyə bilməsə, gərək qəlbindən .keçirsin, təkbir üçün işarə etsin. Əgər bacarırsa dilini də tərpətsin

Məsələ: ۹۶۳. Müstəhəbdir ki, təkbirətül-ehramdan sora bu

:duanı oxunsun

يَامُحْسِنُ قَدْ أَتَاكَ الْمُسِيئُ وَقَدْ أَمَرْتَ الْمُحْسِنَ أَنْ يَتَجَاوَزَ عَنِ الْمُسِيئِ أَنْتَ الْمُحْسِنُ وَأَنَا الْمُسِيئُ بِحَقِّ مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَتَجَاوَزْ عَنْ قَبِيحِ مَاتَعْلَمُ مِنِّى

Yəni,“ey bəndələrinə ehsan edən Allah! Sənin günahakar bəndən Sənin dərgahına gəlmişdir. Sən də ehsan edənə əmr etmisən ki, günahkarın günahından keçsin. Sən ehsan edən, mən isə günahkaram. Səni and verirəm Mühəmməd və Ali-Mühəmmədin hörmətinə, Öz rəhmətini Mühəmməd və Ali-Mühəmmədə göndər, mənim pis ”! əməllərimdən keç

Məsələ: ٩٦٤. Müstəhəbdir ki, namazın birinci təkbirini, həmçinin, namaz əsnasındakı .sair təkbirləri deyəndə, əlləri qulaqların bərabərinə qədər qaldırsın

Məsələ: ٩٦٥. Əgər təkbirətül-ehramı deyib-deməməsində şəkk etsə, bu halda qiraətə məşğuldursa, öz şəkkinə etina etməməlidir; əgər bir şey oxumamışdırsa, ehtiyata .görə gərək təkbiri desin

Məsələ: ٩٦٦. Əgər təkbirətül-ehramı deyəndən sonra, onu düzgün deyib-deməməsində şəkk etsə, əgər qiraəti oxumağa başlamayıbsa, ehtiyat budur ki, namazı tamamlayıb sonra yenidən qılsın. Əgər qiraəti oxumağa başlayıbsa namazı .səhihdir

QİYAM

Məsələ: ٩٦٧. Təkbirətül-ehram deyilən vaxtdakı və rükudan əvvəlki qiyam (buna rükuya müttəsil olan qiyam deyilir) rükndür. Amma həmd-surənin oxunduğu və rükudan sonrakı qiyam rükn deyildir. Bir şəxs unudaraq onu tərk etsə, namazı .səhihdir

Məsələ: ٩٦٨. Vacibdir təkbiri deyəndən əvvəl və sonra bir az dayansın ki, durduğu .halında təkbir deməsinə yəqin etsin

Məsələ: ٩٦٩. Əgər rükunu unutsa və Həmd-surəni deyib oturandan sonra rüku etmədiyi yadına düşsə, gərək ayağa qalxıb

yenidən rükuya getsin. Amma ayağa durmadan, oturduğu yerdən birbaşa rükuya .qalxsa, rükuya müttəsil olan qiyamı yerinə yetirmədiyi üçün, namazı batildir

Məsələ: ۹۷۰. Namaz qılan şəxs ayaq üstə olan halda bədənini hərəkət etdirməməli, hər hansı tərəfə əyilməməli, bir şeyə söykənməməlidir. Amma çarəsizlik üzündən olsa və .rükuya əyiləndə ayaqlarını hərəkət etdirsə, eybi yoxdur

Məsələ: ۹۷۱. Ayaq üstə durduğu vaxt unudaraq bədənini hərəkət etdirsə və ya hər hansı tərəfə əyilsə, yaxud bir şeyə söykənsə eybi yoxdur. Amma təkbirətül-ehram dediyi qiyamda və rükuya müttəsil olan qiyamda unutqanlıq üzündən olsa da, ehtiyat-.vacibə görə gərək namazı qurtarıb yenidən qılsın

Məsələ: ۹۷۲. Ehtiyat-vacib budur ki, ayaq üstə olan vaxt hər iki ayağ yerdə olmalıdır. Amma bədənin ağrılığının hər iki ayağın üstünə düşməsi lazım deyil, ehtiyat budur ki, .ağırlığı bir ayağın üstünə salmasın

Məsələ: ۹۷۳. Düz dayana bilən bir şəxs ayaqlarını çox aralı qoysa və adi ayaq üstə .durmaq halında olmasa, namazı batildir

Məsələ: ۹۷۴. İnsan namaz qılan vaxtında hətta namazın müstəhəb zikrlərini deyəndə də, gərək bədəni aram olsun, azacıq dala və ya qabağa getmək yaxud bədənini sağa-sola hərəkət etdirmək istəsə, hərəkət halında gərək heç nə deməsin. Amma .“Bihəvlillahi və quvvətihi əqumu və əqud” cümləsini ayağa qalxanda deməlidir

Məsələ: ۹۷۵. Əgər bir şəxs bədəni hərəkət edən halda zikr desə; məsələn: rükuya, yaxud səcdəyə gedən halda təkbir desə, bu halda əgər onu namazda deyilməsi göstəriş verilmiş zikr niyyəti ilə desə, ehtiyata görə gərək namazını yenidən qılsın. .Amma bu niyyət ilə deməsə (ümumiyyətlə zikr demək istəsə) namazı səhihdir

Məsələ: ۹۷۶. Həmd oxuyan zaman əli və barmaqları hərəkət etdirməyin eybi yoxdur. .Amma ehtiyat-müstəhəb budur ki, onları da hərəkət etdirməsin

Məsələ: ۹۷۷. Əgər həmd-surəni, yaxud təsbihatı oxuyanda

ixtiyarsız olaraq müəyyən qədər hərəkət etsə və bədəni aramlıq halından çıxsa, ehtiyat-vacib budur ki, bədən aram olandan sonra hərəkət halında dediklərini yenidən .desin

Məsələ: ٩٧٨. Əgər bir şəxs namaz əsnasında ayaq üstə dura bilməsə, gərək otursun, otura da bilməsə, gərək uzansın. Amma bədəni aramlaşmayınca gərək heç nə .deməsin

Məsələ: ٩٧٩. Nə qədər ki, insan ayaq üstə namaz qıla bilir, gərək oturan halda qılmasın; məsələn: bir şəxs ayaq üstə duranda bədəni hərəkət edirsə, yaxud məcburiyyət üzündən müəyyən bir şeyə söykənərsə və ya bədənini əyərsə, yaxud (qaməti bükülü) əyri durarsa, ayaqlarını adi haldan artıq aralı qoyarsa, gərək dura biləcəyi hər hansı şəkildə namazını qılsın. Amma heç bir vəchlə, hətta rüku halında belə ayaq üstə .dayana bilmirsə, düz oturmalı, namazı oturan halda qılmalıdır

Məsələ: ٩٨٠. İnsan nə qədər ki, otura bilir, uzandığı yerdə namaz qılmamalıdır. Əgər düz otura bilmirsə, onda necə otura bilsə, elə də oturmalıdır. Ümumiyyətlə heç vəchlə otura bilmirsə, qiblənin hökmündə deyildiyi kimi, gərək sağ tərəfi üstə uzansın; bunu da edə bilməsə, sol tərəfi üstə uzansın. Bu da mümkün olmasa arxası üstə elə .uzanmalıdır ki, ayaqlarının altı üzü qibləyə olsun

Məsələ: ٩٨١. Oturan halda namaz qılan bir şəxs həmd-surəni oxuduqdan sonra ayağa durub rükunu ayaq üstə yerinə yetirə bilsə, gərək ayağa dursun və ayaq üstə olan .halda rükuya getsin. Əgər bunu da edə bilməsə, gərək oturan halda rüku etsin

Məsələ: ٩٨٢. Uzanan halda namaz qılan bir şəxs, əgər namaz əsnasında otura bilsə, gərək mümkün olan miqdarı oturduğu yerdə qılsın. Həmçinin, əgər ayaq üstə dura bilsə, gərək bacardığı qədər ayaq üstə durub namazı ayaq üstə qılsın, bədəni .aramlaşmayınca gərək heç nə deməsin

Məsələ: ٩٨٣. Oturaq halda namaz qılan şəxs əgər namazın arasında dura bilsə, gərək qüvvəsi miqdarında ayaq üstə namaz qılsın, amma gərək bədəni aramlaşmayınca bir .şey oxumasın

Məsələ: ۹۸۴. Əgər ayaq üstə qalxa bilən şəxs, əgər durmaqla xəstələnəcəyindən və ya bir zərəri olmasından qorxsa, oturaq halda namaz qıla bilər. Əgər oturaq halda da .qorxarsa, uzanaraq namazını qıla bilər

Məsələ: ۹۸۵. Əgər insan ehtimal versə ki, axır vaxtda namazı ayaq üstə qıla bilər, gərək namazı təxirə salsın. Deməli, əgər ayaq üstə dura bilməsə, axır vaxtda vəzifəsinə .uyğun olaraq namazını qılsın

Məsələ: ۹۸۶. Müstəhəbdir ki, ayaq üstə duran halda bədəni düz saxlasın, çiyinlərini aşağı salsın, əllərini budlarının üstünə qoysun, barmaqlarını bir-birinə yapışdırsın, səcdə etdiyi yerə baxsın, bədənin ağırlığını ayaqlarına bərabər halda salsın, xüzu və xüşu halında olsun, ayaqlarını önə-arxaya qoymasın; əgər kişidirsə ayaqlarını üç barmaqdan bir qarışa qədər aralı qoysun; əgər qadındırsa, ayaqlarını bir-birinə .yapışdırsın

QİRAƏT

Məsələ: ۹۸۷. Gündəlik vacibi namazların birinci və ikinci rəkətində əvvəlcə Həmd, sonra .isə, gərək bütöv bir surə oxusun

Məsələ: ۹۸۸. Əgər namazın vaxtı az olsa, bir işə tələsərsə, yaxud insan surəni oxumamağa məcbur olsa; məsələn: surəni oxuyacağı təqdirdə oğru və ya yırtıcı .heyvan, yaxud başqa bir şey ona xəsarət yetirəcəksə, gərək surəni oxumasın

Məsələ: ۹۸۹. Əgər bilərəkdən surəni, Həmd surəsindən qabaq oxusa, namazı batildir. Əgər səhvən surəni, Həmd surəsindən qabaq oxusa və bu əsnada yadına düşsə, gərək onu boşlayaraq Həmd surəsini oxuduqdan sonra yenidən surəni əvvəldən .oxusun

Məsələ: ۹۹۰. Əgər Həmd surəsini və surəni, yaxud onlardan birini unutsa və rükuda .yadına düşsə, namazı səhihdir

Məsələ: ۹۹۱. Əgər rükuya əyilməmişdən qabaq həmd və surəni oxumadığını bilsə gərək oxusun. Əgər təkcə surəni oxumaması yadına düşsə, gərək təkcə onu oxusun. Amma Həmd surəsini

oxumadığı yadına düşsə, gərək “həmdi” oxusun, sonra isə surəni yenidən oxusun. Həmçinin müəyyən qədər əyilsə və rükuya çatmamışdan qabaq “Həmd-surəni”, yaxud .onlardan birini oxumadığını bilsə, gərək qalxıb həmin göstərişə əməl etsin

Məsələ: ۹۹۲. Əgər namazda vacibi səcdəsi olan surələrdən birini (۳۶۱-ci məsələdə .deyilib) bilərəkdən oxusa namazı batildir

Məsələ: ۹۹۳. Əgər səhvən vacibi səcdəsi olan surəni oxumağa məşğul olsa, səcdə ayəsinə çatmazdan öncə başa düşsə, gərək o surəni kəsib başqa surəni oxusun. Əgər səcdə ayəsini oxuduqdan sonra agah olsa və vacib səcdə üçün işarə etsə, namazı tamamlasın (namazı) səhihdir. Səcdəni etməmiş anlasa gərək işarə ilə səcdə etsin namazı səhihdir. Ehtiyata əsasən hər iki halda namazdan sonra sədə də etsin. Əgər üsyan edib səcdəni yerinə yetirməsə ehtiyat-vacib budur ki, namazı tamamlasın sonra .yenidən qılsın

Məsələ: ۹۹۴. Əgər namazda səcdə ayəsini eşitsə namazı səhihdir və ehtiyat-vacib budur ki, namazdan sonra səcdəni yerinə yetirsin və namazın əsnasında səcdənin .əvəzinə başı ilə işarə etsin

Məsələ: ۹۹۵. Müstəhəb namazda surə oxumaq, hətta o namaz nəzr etmək səbəbilə vacib də olsa, lazım deyil. Əgər məşhur bir namazı nəzr etsə, gərək Surəni oxusun. Amma bəzi müstəhəb namazlarda (məxsus surəsi olan vəhşət namazı kimi), əgər o .namazın göstərişlərinə əməl etmək istəsə, gərək onun surəsini oxusun

Məsələ: ۹۹۶. Cümə namazında, həmçinin cümə gününün zöhr namazında müstəhəbdir ki, birinci rəkətdə Həmd surəsindən sonra “Cümə” surəsi, ikinci rəkətdə isə Həmd surəsindən sonra “Münafiqun” surəsi oxunsun. Əgər bir şəxs bunlardan birini .oxumağa başlasa, ehtiyat-vacibə görə, onu kəsib başqa surə oxuya bilməz

Məsələ: ۹۹۷. Əgər Həmd surəsindən sonra “Qul huvəllah”, yaxud “Qul ya əyyuhəl kafirun” surəsini oxumağa başlasa, onu kəsib başqa surə oxuya bilməz. Amma cümə ”namazında və cümə gününün zöhr namazında, əgər unudaraq “Cümə” və “Münafiqun

surələrinin yerinə qeyd olunan iki surədən birini oxusa, yarısına çatmadığı vaxta qədər .onu kəsib "Cümə" və ya "Münafiqun" surəsini oxuya bilər

Məsələ: ۹۹۸. Əgər cümə namazında, yaxud cümə gününün zöhr namazında bilərəkdən "Qul huvəllah" yaxud "Qul ya əyyuhəl kafirun" surəsini oxusa, hətta yarısına çatmamış .olsa da, ehtiyat-vacibə görə, onu kəsib "Cümə" və "Münafiqun" surəsini oxuya bilməz

Məsələ: ۹۹۹. Əgər namazda "İxlas" və "Kafirun" surələrindən başqa bir surə oxuya, .yarısına çatmadan qabaq o surəni tərk edib başqa surə oxuya bilər

Məsələ: ۱۰۰۰. Əgər surənin müəyyən hissəsi yadından çıxsa, yaxud çarəsizlik üzündən; məsələn: vaxtın az olması və yaxud başqa səbəblərə görə onu qurtara bilməsə hətta yarısından keçmiş olsa da, o surəni kəsib başqa surə oxuya bilər. Əgər oxuduğu surə "Qul huvəllah" və ya "Qul ya əyyuhəl kafirun" olsa da,(o surəni kəsib başqasını oxuya .(bilər

Məsələ: ۱۰۰۱. Kişi üçün vacibdir sübh, məğrib, işa namazının (əvvəldəki iki rəkətində həmd və surəni ucadan oxusun. Həmçinin, kişi və qadının hər ikisinə vacibdir ki, zöhr və əsr namazının həmd və surəni astadan oxusunlar. Ucadan oxumaq yəni onun yanında bir şəxs olsa onun səsini eşitsin. Astadan oxumaq yəni səs-küy olmazsa özü .öz səsini eşitsin

Məsələ: ۱۰۰۲. Kişi, gərək diqqətli olsun ki, sübh, məğrib və işa namazlarında həmd və .surənin bütün kəlmələrini, hətta onların axırıncı hərflərini belə ucadan desin

Məsələ: ۱۰۰۳. Qadın sübh, məğrib və işa namazının həmd və surəni uca səslə və ya ahəstə səslə oxuya bilər. Amma naməhrəm onun səsini eşitsə, ehtiyat-vacibə görə, .gərək ahəstə qılsın

Məsələ: ۱۰۰۴. Əgər namazı ucadan qılmalı olduğu yerdə bilərəkdən ahəstə və ya ahəstə qılmalı olduğu yerdə bilərəkdən ucadan qılsa, namazı batildir. Amma unutqanlıq, yaxud məsələni bilməməzlik üzündən olsa, səhihdir. Həmd və surəni oxuduğu

.vaxtda səhv etdiyini başa düşsə, oxuduğu miqdarı yenidən oxuması lazım deyil

Məsələ: ۱۰۰۵. Əgər namaz qılan şəxs “həmd-surəni” oxuduğu zaman səsini adi haldan .ucaya qaldırsa; məsələn: qışqıra-qışqıra oxusa namazı batildir

Məsələ: ۱۰۰۶. İnsan namazı öyrənməlidir ki, gərək səhv oxumasın. Əgər bir şəxs namazı heç bir vəchlə düzgün şəkildə öyrənə bilmirsə, gərək bacadığı hər hansı .şəkildə qılsın; ehtiyat-müstəhəb budur ki, namazı camaatla qılsın

Məsələ: ۱۰۰۷. Əgər bir şəxs namazın “həmd-surəni” və ya başqa hissələrini yaxşı bilmirsə və öyrənə bilirsə, namazın vaxtı geniş olduğu halda gərək öyrənsin. Amma namazın vaxtı az olsa ehtiyat-vacibə görə, gərək mümkün olan halda namazını .camaatla qılsın

Məsələ: ۱۰۰۸. Namazın vacibatını öyrtmək üçün muzd almaq haramdır, amma .müstəhəbatı üçün eybi yoxdur

Məsələ: ۱۰۰۹. Əgər bir şəxs “Həmd və surənin” kəlmələrindən birini bilməsə, yaxud onu bilərəkdən deməsə və ya bir hərfin yerinə başqa hərf desə; məsələn: “zad” hərfinin yerinə “za” desə), yaxud fəthə və kəsrə ilə oxunmamalı yerdə fəthə və kəsrə desə, .yaxud da təşdidi deməsə, namazı batildir

Məsələ: ۱۰۱۰. Əgər insan bir kəlməni səhih bislə, namazı həmin tərzdə oxuduqdan sonra səhv oxuduğunu başa düşsə, ehtiyat-vacib budur ki, namazı ikinci dəfə qılsın və əgər vaxtı keçibsə, qəza etsin. Əgər əzab əziyyətə düşməsinə səbəb olsa qəza etməsi .lazım deyil

Məsələ: ۱۰۱۱. Əgər müəyyən bir kəlmənin fəthə və kəsrəsini bilməsə, həmçinin əgər .ilə olmasını bilməsə gərək öyrənsin ”ص“ və ya ”س“ kəlməni

Əgər iki, yaxud daha artıq tərzdə qılsa; məsələn: “İhdinəs-siratəl-müstəqim” .ilə oxusa namazı batildir ”ص“ bir dəfə isə ”س“ kəlməsində “sirat” sözünü bir dəfə

Məsələ: ۱۰۱۲. Əgər bir kəlmədə “vav” olsa və ondan qabaqkı

"سوء" :olsa; məsələn (ء) kəlmənin zəmməsi olsa, "vav" dan sonrakı hərfin "həmzə"-si kəlməsi kimi ehtiyat-müstəhəbə görə, "vav"-a mədd verilsin, yəni uzadılsın. Həmçinin, əgər bir kəlmədə əlif olsa və ondan qabaqkı hərfin fəthəsi olsa, əlifdən sonra isə kəlməsi kimi), gərək onun əlif hərfi uzadılsın. Həmçinin əgər bir "جاء") həmzə olsa "جيءَ") olsa (ء) olsa və ondan əvvəlki hərf kəsrəli, yeydən sonrakı hərf isə (ی) kəlmədə mədd ilə oxunsun. Əgər vav əlif və yeydən "ی" ,kəlməsi kimi), ehtiyat-vacibə görə sonra həmzənin yerinə, sakin olan başqa (fəthə, kəsrə və zəmməsi olmayan) bir hərf olsa, yenə də gərək bu üç hərf mədd ilə oxunsun; məsələn: "vələzzallin" kəlməsində əlifdən sonra lam hərfi sakinlə olduğundan, onun əlifi uzadılsın (məddlə oxunsun). .Əgər bu deyilən göstərişə əməl olunmasa, namazı batildir

Məsələ: ۱۰۱۳. Ehtiyat-vacib budur ki, namazda hərəkə ilə vəqf, sükun ilə vəsl etməsin. Hərəkə ilə vəqf etməyin mənası budur ki, kəlmənin axırıncı hərfinin fəthə, kəsrə və ya zəmməsini deyib, o kəlmə ilə sonrakı kəlmə arasında fasilə salsın; məsələn: "Ər-rəhmanir-rəhim" deyib, "rəhim" kəlməsinin mim hərfinə kəsrə versin, sonra bir az fasilə salıb "Maliki yəvmiddin" desin. Sükun ilə vəsl etməyin mənası budur ki, bir kəlmənin fəthə, kəsrə və zəmməsini demədən, həmin kəlməni sonrakı kəlməyə birləşdirsin; məsələn: "Ər-rəhmanir-rəhim" deyib, "rəhim" kəlməsinin mim hərfinə .kəsrə vermədən, dərhal "Maliki yəvmiddin" desin

Məsələ: ۱۰۱۴. Namazın üçüncü və dördüncü rəkətlərində ya təkcə həmd deyilməlidir, ya da (bir dəfə deyilməsinin kifayət etməsinə baxmayaraq) ehtiyat-müstəhəbə görə :üç dəfə "təsbihati-ərbəə" deyilməlidir, yəni

سُبْحَانَ اللهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللهُ وَاللهُ أَكْبَر

".Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər"

Həmçinin, birinci rəkətdə Həmd surəsini, o biri rəkətdə isə təsbihatı demək olar. Daha .yaxşı olar ki, hər iki rəkətdə təsbihat deyilsin

.Məsələ: ۱۰۱۵. Vaxtın az olduğu hallarda gərək təsbihat bir dəfə deyilsin

Məsələ: ۱۰۱۶. Kişi və qadına vacibdir ki, namazın üçüncü və dördüncü rəkətlərində .Həmd surəsini, yaxud "təsbihati-ərbəəni" ahəstə oxusunlar

Məsələ: ۱۰۱۷. Namazın üçüncü və dördüncü rəkətlərində həmd oxunsa, ehtiyat-vacibə .görə gərək onun bismillahı da ahəstə deyilsin

Məsələ: ۱۰۱۸. Təsbihati-ərbəəni öyrənə, yaxud düzgün şəkildə deyə bilməyən şəxs, .gərək üçüncü və dördüncü rəkətlərdə Həmd surəsini oxusun

Məsələ: ۱۰۱۹. Əgər namazın əvvəlinci iki rəkətində, axrıncı iki rəkət fikri ilə təsbihatı desə, əgər rükudan əvvəl başa düşsə, gərək həmd və surəni oxusun; əgər rükuda və .ya rükudan sonra başa düşsə namazı səhihdir

Məsələ: ۱۰۲۰. Əgər namazın axrıncı iki rəkətini əvvəldəki iki rəkət güman edərək həmd oxusa, yaxud əvvəldəki iki rəkətdə namazın axırıncı iki rəkət olduğunu güman edərək həmdi oxusa, istər rükudan əvvəl, istərsədə rükudan sonra yadına düşsə, namazı .səhihdir

Məsələ: ۱۰۲۱. Əgər namazın üçüncü və dördüncü rəkətində həmd oxumaq istəsə, təsbihat dilinə gəlsə, yaxud əksinə olsa (təsbihat oxumaq istədiyi halda niyyət etmədən həmd dilinə gəlsə), gərək həmdi və ya təsbihatı kəsib, yenidən həmdi və ya təsbihatı oxusun. Amma adəti üzrə oxuduğu dilinə gəlsə, oxuduğunu tamamlaya bilər, .namazı da səhihdir

Məsələ: ۱۰۲۲. Namazın üçüncü və dördüncü rəkətində adəti təsbihat oxumaq olan bir şəxs, əgər oxumağa adət etdiyini unudub öz vəzifəsini icra etmək niyyəti ilə həmd ,oxumağa başlayıbsa, kifayətdir. Amma niyyət etmədən həmd oxumağa başlayıbsa

.gərək onu kəsib yenidən təsbihatı və ya həmdi oxusun

Məsələ: ۱۰۲۳. Namazın üçüncü və dördüncü rəkətində təsbihatdan sonra istiğfar etmək; məsələn: "Əstəğfirullahə rəbbi və ətubu iləyh" yaxud "Əllahumməğfir li" demək) müstəhəbdir. Əgər istiğfar deməyə məşğul olan bir şəxs, Həmd surəsini və ya "təsbihat"-ı deyib-deməməsində şəkk etsə, əgər adəti namazda istiğfarı təkcə təsbihatdan sonra demək olsa, gərək şəkkinə etina etməsin. Əgər Həmd surəsini və ya təsbihata başlamamışdan qabaq və ya onların arasında da istiğfar edirdisə, gərək Həmd surəsini ya təsbihatı oxusun. Həmçinin, əgər namaz qılan şəxs rüku üçün əyilməkdən qabaq, istiğfara məşğul olmayan halda, Həmd surəsini, yaxud təsbihatı .oxuyub-oxumamasında şəkk etsə, gərək Həmd surəsini ya təsbihatı oxusun

Məsələ: ۱۰۲۴. Əgər üçüncü və ya dördüncü rəkətlərin rükusunda həmd və ya təsbihatı .oxuyub oxumamasında şəkk etsə, gərək öz şəkkinə etina etməsin

Məsələ: ۱۰۲۵. Əgər hər hansı ayə və ya kəlməni səhih deyib-deməməsində şəkk etsə, bu halda ondan sonrakı kəlmə və ya ayəni deməyə başlamayıbsa, ehtiyat-vacibə görə gərək həmin ayə və kəlməni səhih tərzdə desin; əgər ondan sonrakı hissəyə .başlayıbsa, ehtiyat məqsədi ilə yenidən deyə bilər

Məsələ: ۱۰۲۶. Müstəhəbdir ki, birinci rəkətdə həmddən qabaq "Əuzu billahi minəş-şəytanir-rəcim" deyilsin. Zöhr və əsr namazının birinci və ikinci rəkətində bismillahı ucadan desinlər; Həmd və surəni kəlmə-kəlmə oxusunlar, hər ayənin axırında vəqf etsinlər, (yəni tələffüzdə onu, sonrakı ayəyə birləşdirməsinlər.) Həmd və surəni oxuyan zaman mənalarına diqqət etsinlər. Əgər namazı camaatla birlikdə qılırsa, imam həmdi qurtarandan sonra; əgər fərdi qılırsa, öz Həmd surəsini qurtarandan sonra "Əl-həmdu lillahi Rəbbil-aləmin" desin. "Qul huvəllah" surəsini qurtarandan sonra isə bir, iki və ya üç dəfə "Kəzalikəllahu Rəbbi" yaxud üç dəfə "Kəzalikəllahu Rəbbuna" desin. Surəni oxuyandan sonra azacıq dayanıb rükudan əvvəlki təkbiri desin, yaxud da qunut

.tutsun

Məsələ: ۱۰۲۷. Müstəhəbdir ki, bütün namazların birinci rəkətində İnna ənzəlnahu, ikinci rəkətində isə Qul huvəllah surəsi oxunsun.

Məsələ: ۱۰۲۸. Məkruhdur ki, insan bir gecə və gündüz (bir gün ərzində olan) namazlarında qulhuvəllah surəsini oxumasın.

.Məsələ: ۱۰۲۹. Qul huvəllah surəsini birnəfəsə oxumaq məkruhdur

Məsələ: ۱۰۳۰. Birinci rəkətdə oxunan surəni, ikinci rəkətdə də oxumaq məkruhdur. Amma Qul huvəllah surəsini hər iki rəkətdə oxumaq məkruh deyildir.

RÜKU

Məsələ: ۱۰۳۱. Namaz qılan, hər rəkətdə qiraətdən sonra, gərək əllərini dizinə qoya biləcək qədər əyilsin. Bu əmələ rüku deyilir. Əgər barmaqların ucu da çatsa kifayətdir.

.Məsələ: ۱۰۳۲. Ehtiyat budur ki, əllər dizlərə qoyulsun

Məsələ: ۱۰۳۳. Əgər rükunu qeyri-adi şəkildə yerinə yetirsə; məsələn: sağa, sola tərəf əyilsə əllərinin dizinə çatmasına baxmayaraq, rükusu səhih deyildir.

Məsələ: ۱۰۳۴. Rükuya əyilmək, gərək rüku niyyəti ilə olsun. Deməli, başqa iş üçün; məsələn: hər hansı həşəratı öldürmək niyyəti ilə) əyilsə onu rüku hesab etmək olmaz; gərək ayağa qalxıb yenidən rükuya getsin və bu əməl vasitəsi ilə rükn artırılmamışdır, namaz da batil deyildir.

Məsələ: ۱۰۳۵. Əgər bir şəxsin əli və dizləri normal insanın əl və dizlərindən fərqlənsə; məsələn: qolları çox uzun olsa və azacıq əyiləndə dizlərinə çatsa, yaxud dizləri normal dizdən aşağıda olsa və çox əyildikdə belə, əlləri dizlərinə çatmasa gərək normal insanın əyildiyi qədər əyilsin.

Məsələ: ۱۰۳۶. Oturan halda namaz qılan şəxs rüku üçün o qədər əyilməlidir ki, üzü dizlərinin müqabilinə çatsın. Daha yaxşı

olar ki, o qədər əyilsin ki, üzü səcdə etdiyi yerin yaxınlığına çatsın. Daha yaxşı olar beli .düz olana qədər əyilsin

Məsələ: ۱۰۳۷. Ehtiyat-vacib budur ki, rükuda üç dəfə subhanəllah yaxud bir dəfə subhanə Rəbbiyəl əzimi və bi həmdih desin. Hər zikri demək kifayət etmir. Vaxtın az olduğu zaman və yaxud naçar olanda bir dəfə subhanəllah demək işkallıdır. Ehtiyat .edib bir dəfə subhanə Rəbbiyəl əzimi və bi həmdih desin

Məsələ: ۱۰۳۸. Rükunun zikri bir-birinin ardınca (yəni fasiləsiz) və ərəbcə səhih .deyilməlidir. Müstəhəbdir ki, ۳, ۵, ۷ dəfə və hətta daha artıq deyilsin

Məsələ: ۱۰۳۹. Rükuda gərək vacibi zikr miqdarında bədən aram olsun. Müstəhəb zikrdə də, əgər onu rükunun göstərişlərində deyilən zikr niyyəti ilə desə, ehtiyat-vacibə görə .bədənin aram olması lazımdır

Məsələ: ۱۰۴۰. Əgər rükunun zikrini deyən vaxt, ixtiyarsız olaraq müəyyən qədər hərəkət edib aramlıq halından çıxsa, gərək bədən aramlaşandan sonra həmin zikri yenidən desin. Amma çox az hərəkət etsə və bədən aramlıq halından çıxmasa, yaxud .barmaqlarını tərpətsə, eybi yoxdur

Məsələ: ۱۰۴۱. Əgər rüku həddinə qədər əyilməzdən və bədən aram olmazdan qabaq .rükunun zikrini bilərəkdən desə, namazı batildir

Məsələ: ۱۰۴۲. Əgər vacibi zikr qurtarmazdan əvvəl bilərəkdən başını rükudan qaldırsa, namazı batildir. Amma səhvən qaldırsa və rüku halından çıxmamışdan qabaq, zikri axıra qədər demədiyi yadına düşsə, gərək rükunun zikrini bədənin aram olduğu halda .yenidən desin. Əgər rüku halından çıxandan sonra yadına düşsə, namazı səhihdir

Məsələ: ۱۰۴۳. Əgər zikri demək miqdarında rükuda qala bilməsə, ehtiyat-vacib budur .ki, zikrin qalanını qalxan halda qürbət qəsdi ilə desin

Məsələ: ۱۰۴۴. Əgər xəstəlik və s. kimi səbəblər üzündən rükuda aramlaşa bilməsə, namazı səhihdir. Amma gərək rüku

halından xaric olmazdan qabaq vacibi zikri yəni bir dəfə subhanə Rəbbiyəl əzimi və .bihəmdih yaxud üç dəfə subhanəllah desin

Məsələ: ۱۰۴۵. Əgər rüku miqdarında əyilə bilməsə, gərək müəyyən bir şeyə söykənib rüku etsin. Əgər söykənərək, adi qaydada rüku edə bilməsə, gərək mümkün olduğu qədər əyilib, rükuya işarə etsin. Əgər ümumiyyətlə əyilə bilməsə, gərək rüku vaxtı otursun, oturan halda rüku etsin. Ehtiyat-vacib budur ki, başqa bir namaz da qılıb, .onun rükusu üçün başı ilə işarə etsin

Məsələ: ۱۰۴۶. Əgər bir şəxs ayaq üstə namaz qıla bilirsə ayaq üstə, yaxud oturan halda rüku edə bilməsə, gərək ayaq üstə namaz qılıb rüku üçün başı ilə işarə etsin. Əgər işarə də edə bilməsə, rüku niyyəti ilə gözlərini yumub zikri desin, rükudan qalxmaq niyyəti ilə gözlərini açsın. Əgər bunu da edə bilməsə, qəlbində rüku niyyəti edib zikrini .deməlidir

Məsələ: ۱۰۴۷. Bir şəxs ayaq üstə, yaxud oturan halda rüku edə bilmirsə və rüku üçün yalnız oturan halda azacıq əyilə, ya da ayaq üstə başı ilə işarə edə bilirsə, oturan halda namaz qılıb azacıq olsa da rüku üçün əyilsin. Ehtiyat-müstəhəb budur ki, ayaq üstə .başqa bir namaz qılıb rükusunda başı ilə işarə etsin

Məsələ: ۱۰۴۸. Əgər rüku həddinə çatandan və bədən aramlaşandan sonra, başını qaldırsa və ikinci dəfə rüku həddində əyilsə namazı batildir. Amma əgər rüku həddinə əyilsə və bədəni aram olsa belə ki, rüku həddini keçənə qədər əyilsə və yenidən .rükuya qayıtsa rüku artıq olmadığına görə namazı batil deyil

Məsələ: ۱۰۴۹. Rükunun zikri tamam olduqdan sonra gərək qalxıb düz dayansın, bədən aram olandan sonra səcdəyə getsin. Əgər bilərəkdən ayağa qalxmadan, yaxud ayağa qalxıb bədəni

.aram olmamışdan qabaq səcdəyə getsə, namazı batildir

Məsələ: ۱۰۵۰. Əgər rükunu unutsa və səcdəyə çatmazdan qabaq yadına düşsə, gərək .ayağa qalxıb sonra rükuya getsin. Əgər əyilmiş halda rükuya qayıtsa, namazı batildir

Məsələ: ۱۰۵۱. Əgər alnı yerə çatandan sonra rüku etmədiyi yadına düşsə, ayağa qalxıb

rükunu yerinə yetirsin, namazı

səh: ۱۹۹

tamamlasın, sonra artıq səcdə etdiyi üçün iki səcdeyi-səhv etsin. Ehtiyat budur ki, .namazı yenidən qılsın

Məsələ: ١٠٥٢. Ehtiyat-vacib budur ki, rükuya getməzdən əvvəl, bədən düz olan halda təkbir desin. Müstəhəbdir rüku halında dizlərini arxaya tərəf versin, kürəyini düz saxlasın, boynunu çəkib kürəyi ilə bir səviyyədə saxlasın, ayaqlarının arasına baxsın; zikrdən əvvəl və ya sonra salavat desin, amma onu rükunun zikri niyyəti ilə deməsin. Rükudan qalxıb düz durduqdan və bədəni aramlaşdıqdan sonra "Səmiəllahu limən .həmidəh" desin

Məsələ: ١٠٥٣. Müstəhəbdir ki, rükuda qadınlar əllərini dizlərindən yuxarıya qoysunlar .və dizlərini dala verməsinlər

Səcdə

Məsələ: ١٠٥۴. Namaz qılan şəxs vacib və müstəhəb namazların hər rəkətində rükudan sonra iki səcdə etməlidir. Səcdə, xüzu niyyəti ilə alnı, iki əlin içini, iki dizin başını və iki .ayağın baş barmağının ucunu yerə qoymaqan ibarətdir

Məsələ: ١٠٥٥. İki səcdə, bir rəkətdə birlikdə bir rüknü təşkil edir. Bir şəxs vacibi namazda bilərəkdən və ya unudaraq hər ikisini tərk etsə, yaxud onlara iki səcdə əlavə .etsə, namazı batildir

Məsələ: ١٠٥۶. Əgər bilərəkdən bir səcdəni artırıb-azaltsa, namazı batildir. Amma .səhvən etsə, bunun hökmü sonrakı məsələlərdə deyiləcək

Məsələ: ١٠٥٧. Əgər alnı bilərəkdən və ya səhvən yerə qoymasa, hətta sair səcdə əzalarını yerə qoysa da, səcdə etməmişdir. Amma alnını yerə qoyub sair səcdə üzvlərini səhvən yerə qoymasa, yaxud səhvən səcdənin zikrini deməsə, səcdə .səhihdir

Məsələ: ١٠٥٨. Səcdədə üç dəfə "sübhanəllah" və ya bir dəfə "sübhanə rəbbiyəl ə`la və bihəmdih" desin. Hər zikri demək kifayət etmir. Gərək bu kəlmələri ardıcıl və səhih ,ərəbcə desin. Müstəhəbdir ki, "sübhanə rəbbiyəl ə`la və bihəmdih" zikrini üç

.beş və ya yeddi dəfə desin

Məsələ: ۱۰۵۹. Səcdədə, vacib zikri deyilən miqdarda bədənin aram olması gərəkdir. Müstəhəb zikrdə əgər onu səcdə üçün göstəriş verilən zikr niyyəti ilə desə, bədənin .aram olması lazımdır

Məsələ: ۱۰۶۰. Əgər alnı yerə çatmazdan və bədən aramlaşmamışdan qabaq bilərəkdən səcdənin zikrini desə, yaxud zikr tamam olmamışdan qabaq bilərəkdən başını .səcdədən götürsə, namazı batildir

Məsələ: ۱۰۶۱. Əgər alnı yerə çatmazdan və bədən aramlaşmamışdan qabaq, səhvən səcdənin zikrini desə və başını səcdədən götürməzdən qabaq səhv etdiyini bilsə, .gərək yenidən, bədəni aram olan halda zikri desin

Məsələ: ۱۰۶۲. Əgər zikri, başını səcdədən götürdükdən sonra bədənin aram olmadığı halda dediyini, yaxud səcdənin zikri tamam olmamışdan qabaq başını qaldırdığını bilsə, .namazı səhihdir

Məsələ: ۱۰۶۳. Səcdənin zikrini dediyi vaxt, əgər yeddi səcdə üzvündən birini qəsdən yerdən qaldırsa, namazı batildir. Amma zikr demədiyi vaxt alından başqa, sair üzvləri .yerdən qaldırıb yenidən yerə qoysa, eybi yoxdur

Məsələ: ۱۰۶۴. Əgər səcdənin zikri tamam olmamışdan qabaq səhvən alnını yerdən qaldırsa, yenidən yerə qoya bilməz və gərək onu bir səcdə hesab etsin. Amma sair .səcdə üzvlərini səhvən yerdən qaldırsa, gərək yenidən yerə qoyub zikri desin

Məsələ: ۱۰۶۵. Birinci səcdənin zikri qurtarandan sonra gərək qalxıb otursun, bədən .aram olduqdan sonra yenidən səcdəyə getsin

Məsələ: ۱۰۶۶. Namaz qılanın alnının yeri, gərək ayaq barmaqlarının yeri ilə bərabər .olsun. Əgər dörd bağlı barmaqdan alçaq və ya uca olsa eybi yoxdur

Məsələ: ۱۰۶۷. Çala-çuxur olan və çala-çuxur olması dəqiq şəkildə məlum olmayan yerlərdə, namaz qılanın alnını qoyduğu

yer, ayaqlarını və dizlərini qoyduğu yerdən dörd bağlı barmaqdan azca çox olsa eybi .yoxdur

Məsələ: ۱۰۶۸. Əgər alnını, ayaq barmaqlarının ucundan dörd bağlı barmaqdan hündür olan yerə qoysa və onun ucalığı "səcdə halındadır" deyilməyəcəyi miqdardırsa, bu halda gərək başını qaldırıb ucalığı dörd bağlı barmaq, yaxud ondan az olan şeyin üstünə qoysun. Əgər onun hündürlüyü "səcdə halındadaır" deyiləcəyi miqdarda olsa, vacib budur ki, alnını onun üzərindən (sürüşdürərək) hündürlüyü dörd bağlı barmaq və ya ondan da az olan şeyin üstünə çəksin. Əgər alnı çəkmək mümkün olmasa, ehtiyat-vacibə görə, gərək başını qaldırıb hündürlüyü qeyd olunan münasib miqdarda olan .yerə qoysun və namazı qurtarıb yenidən qılsın

Məsələ: ۱۰۶۹. Gərək alın ilə səcdə edilən şeyin arasında bir şey olmasın. Deməli möhür, alnın ona dəyməyəcəyi miqdarda çirkli olsa, səcdə batildir. Amma, misal üçün, .möhürün rəngi dəyişibsə, eybi yoxdur

Məsələ: ۱۰۷۰. Səcdədə gərək əllərin içini yerə qoysun. Amma çarəsizlik halında əllərin üstünü yerə qoymağın maneəsi yoxdur. Əgər əllərin üstünü yerə qoymağ mümkün olmasa, onda bilək yerə qoyulmalıdır; bu da mümkün olmasa gərək dirsəyə qədər olan hər yer mümkün olsa, onu yerə qoysun; bu da mümkün olmasa qolun qoyulması .kifayətdir

Məsələ: ۱۰۷۱. Ehtiyat-vacibə görə, ayağın iki baş barmağının ucu yerə qoyulmalıdır. Əgər başqa barmaqlar, yaxud ayağın üstü yerə qoyulsa və ya dırnağın uzun olması səbəbilə barmağın ucu yerə dəyməsə, namaz batildir. Məsələni bilməməzlik üzündən .öz namazlarını bu cür qılan bir şəxs, gərək onları yenidən qılsın

Məsələ: ۱۰۷۲. Əgər bir şəxsin ayağının baş barmağının bir miqdarı kəsilibsə, gərək onun qalan hissəsini yerə qoysun. Amma ondan bir şey qalmayıbsa, yaxud qalanlar çox qısadırsa, gərək sair barmaqları qoysun. Əgər ümumiyyətlə barmağı olmasa, gərək ayağından qalanı yerə qoysun. Daha yaxşı olar baş barmağın

.kəsildiyi yeri yerə qoysun

Məsələ: ١٠٧٣. Əgər bir şəxs qeyri-adi halda səcdə etsə; məsələn: qarnını və sinəsini yerə yapışdırsa və ya ayaqlarını uzadsa, əgər ona “səcdə” desələr və yeddi səcdə üzvü .yerdə olsa da ehtiyat-vacibə görə, namazı yenidən qılsın

Məsələ: ١٠٧۴. Möhür, yaxud səcdə olunan sair şeylər gərək pak olsun. Amma misal üçün, möhürü nəcis palazın üstünə qoysalar, yaxud möhürün bir tərəfi nəcis olsa və .alını onun pak tərəfinə qoysa, eybi yoxdur

Məsələ: ١٠٧۵. Əgər alında çiban və s. kimi şeylər olsa, mümkün olan surətdə alının sağlam yerləri ilə gərək səcdə etsin. Əgər mümkün olmasa, gərək yeri bir az çala edib çibanı çalaya salıb və alının səcdə üçün kifayət edən sağlam miqdarını, səcdə etmək .üçün yerə qoysun

Məsələ: ١٠٧۶. Əgər çiban, yara alının hər yerini tutmuş olsa, gərək alının iki tərəfindən biri ilə səcdə etsin. Ehtiyat-müstəhəb budur ki, sağ tərəfi sol tərəfədən qabağa salsın. Əgər bu da mümkün olmasa çənə ilə; çənə ilə də mümkün olmasa

üzün mümkün olan hər yeri ilə və ya mümkün olan halda başın qabaq tərəfi ilə səcdə etsin. Ehtiyat-vacib budur ki, əyilsin qaşları ilə səcdə etsin. Əgər qaşları ilə mümkün olmasa burnunu yerə qoysun. Əgər buda mümkün olmasa üzün mümkün olan hər yeri .ilə səcdə etsə kifayətdir

Məsələ: ١٠٧٧. Alnını yerə çatdıra bilməyən bir şəxs bacardığı qədər əyilib möhürü, yaxud səcdənin səhih olduğu başqa bir şeyi uca bir şeyin üstünə qoyub, alnını da onun üstünə elə qoymalıdır ki, “səcdə edir” desinlər. Amma gərək əllərin içini, dizləri, ayaq .barmaqlarını adi qaydada yerə qoysun

Məsələ: ١٠٧٨. Ümumiyyətlə əyilə bilməyən bir şəxs, gərək səcdə üçün yerə oturub başı ilə işarə etsin. Əgər bunu da edə bilməsə, gözləri ilə işarə etməlidir. Hər iki halda ehtiyat-vacib budur ki, mümkün olarsa, möhürü qaldırıb alnını onun üzərinə qoysun. Əgər başı və gözləri ilə də işarə edə bilməsə, qəlbində

.səcdə niyyəti etməli və ehtiyat-vacibə görə əli və s. ilə səcdəyə işarə etməlidir

Məsələ: ۱۰۷۹. Otura bilməyən bir şəxs gərək ayaq üstə səcdə niyyəti etsin. Əgər mümkündürsə, başı ilə səcdə üçün işarə etsin. Bunu da edə bilməsə gözləri ilə işarə etməlidir və əgər bunu da edə bilməsə, qəlbində səcdə niyyəti edib ehtiyat-vacibə .görə əli və s. ilə səcdəyə işarə etməlidir

Məsələ: ۱۰۸۰. Əgər alın, ixtiyarsız olaraq səcdə yerindən qalxsa, mümkün olarsa, gərək yenidən səcdə yerinə qoymasın; bu, bir səcdə hesab olunur, istər səcdənin zikrini demiş olsun, istərsə də deməmiş olsun. Əgər başını saxlaya bilməsə və ixtiyarsız olaraq yenidən səcdə yerinə qoysa, üst-üstə bir səcdə hesab olunur. Əgər zikri .deməmişdirsə gərək desin

Məsələ: ۱۰۸۱. İnsan təqiyyə etməli olduğu yerlərdə xalça və bu kimi şeylərə səcdə edə bilər. Namaz üçün başqa yerə getməsi lazım deyil. Amma o məkanda həsir, yaxud səcdənin səhih olduğu sair şeylər mövcud olsa, zəhmətə düşmədən səcdə edə bilərsə .gərək xalça və onun kimilərin üstünə səcdə etməsin

Məsələ: ۱۰۸۲. Əgər (quş tükündən) hazirlahmış döşəyin və ya üstündə bədənin .aramlaşmadığı bir şeyin üstünə səcdə etsə, batildir

Məsələ: ۱۰۸۳. Əgər insan, palçıqlı torpaqda namaz qılmağa məcbur olsa və bədən, yaxud paltarının palçığa bulaşmasının onun üçün məşəqqəti olmazsa, səcdə və təşəhhüdü adi qaydada yerinə yetirməlidir. Əgər məşəqqəti olsa, ayaq üstə olan halda səcdə üçün başı ilə işarə edib, təşəhhüdü də ayaq üstə oxuya bilər. Lakin məşəqqəti .olan halda təşəhhüdü və səcdəni adi qaydada da yerinə yetirsə, namazı səhihdir

Məsələ: ۱۰۸۴. Birinci və üçüncü rəkətdə təşəhüd yoxdur (zöhr, əsr və işa namazlarının üçüncü rəkəti kimi). Ehtiyat-vacibə görə gərək ikinci səcdədən sonra bir az hərəkətsiz .oturub, sonra qalxsın

Məsələ: ۱۰۸۵. Gərək yerə, çubuq və ağac yarpağı kimi yerdən çıxan və yeyilməyən şeylərə səcdə edilsin. Yeyilməli, geyilməli və mədən şeylərinə səcdə etmək səhih .deyildir

.Məsələ: ۱۰۸۶. Ehtiyat-vacib budur ki, üzüm yarpağına səcdə olunmasın

Məsələ: ۱۰۸۷. Yerdən göyərən və heyvanların yemi olan şeylərə (ot, saman kimi) səcdə .etmək səhihdir

Məsələ: ۱۰۸۸. Yeyilməyən güllərə səcdə etmək səhihdir. Amma, yerdən göyərən və .yeyilən dərman bitkilərinə, maldili kimi səcdə etmək səhih deyildir

Məsələ: ۱۰۸۹. Bəzi şəhərlərdə yeyilməsi adi olan və bəzi şəhərlərdə yeyilməsi adi .olmayan yarpağa və həmçinin kal meyvəyə, yeməli olsa, səcdə etmək səhih deyildir

Məsələ: ۱۰۹۰. Əhəng daşına, gəc daşına səcdə etmək səhihdir. Həmçinin bişmiş gəcə, əhəngə, kərpicə, palçıq kuzəyə və bu kimi şeylərə səcdə etməyin eybi yoxdur. Ehtiyat budur ki, ixtiyar halında bişmiş gəcə, əhəngə, kərpicə, palçıq kuzəyə və bu kimi şeylərə .səcdə etməsin

Məsələ: ۱۰۹۱. Əgər kağızı səcdənin səhih olduğu şeydən düzəltsələr məsələn samandan düzəltsələr ona səcdə etmək səhihdir. Hətta kağız panbıq və onun kimi şeylərdən hazırlansa da ona səcdə etmək səhihdir. Amma səcdə səhih olmayan .şeylərdən hazırlandığını bilsə səcdə etmək səhih deyildir

Məsələ: ۱۰۹۲. Səcdə üçün hər şeydən yaxşı həzrət Seyyidüş-şühədanın (ələyhis-səlam) .türbətidir. Ondan sonra adi torpaq, sonra daş və daha sonra bitkilərdir

Məsələ: ۱۰۹۳. Əgər səcdə edilməsi səhih olan bir şey olmasa və ya olsa amma çox soyuq yaxud isti və bu kimi səbələrə görə ona səcdə etmək mümkün olmasa, əgər onun paltarı kətan və ya panbıqdandırsa, gərək paltarına səcdə etsin. Amma ehtiyat-müstəhəb budur ki, onun yanında əqiq üzük kimi mədndən ələ

gələn bir şey olsa paltarına səcdə etsin, əqiqə səcdə etməsin. Əgər paltarı başqa bir şeydən olsa, gərək əlinin üstünə səcdə etsin. Amma ehtiyat budur ki, əlin üstünə səcdə .imkan olduğu halda mədəni şeylərə səcdə etməsin

.Məsələ: ١٠٩٤. Üzərində alnın aramlaşmadığı yumşaq palçıq və torpağa səcdə batildir

Məsələ: ١٠٩٥. Əgər birinci səcdədə möhür alına yapışa gərək möhrü ayırsın. Əgər möhürü götürmədən ikinci səcədəyə getsə ehtiyat-vacib budur ki, namazı yenidən .qılsın

Məsələ: ١٠٩۶. Əgər namazın əsnasında, səcdə edilməsi səhih olan şey itsə və səcdə edilməsi səhih olan bir şey olmasa, vaxt çox olsa, gərək namazı kəssin. Əgər vaxt .azdırsa, gərək ١٠٩٣-cü məsələdə qeyd edilən göstərişə əməl etsin

Məsələ: ١٠٩٧. Hər vaxt səcdə halında, üzərinə səcdənin batil olduğu şeyə alnını qoyduğunu başa düşsə, əgər mümkün olsa, gərək alnını onun üzərindən səcdə səhih olan şeyə çəksin. Əgər mümkün olmasa və namazın vaxtı da çox olsa, gərək namazı .kəssin. Əgər vaxt azdırsa, gərək ١٠٩٣-cü məsələdə qeyd edilən göstərişə əməl etsin

Məsələ: ١٠٩٨. Əgər səcdədən sonra alnını səcdə edilməsi batil olan şeyə qoyduğunu .anlasa, işkalı yoxdur. Ehtiyata görə namazını yenidən qılsın

Məsələ: ١٠٩٩. Allahdan başqasına səcdə etmək haramdır. Avam camaatdan bəziləri, imamların (ələyhimus-səlam) qəbrlərinin qarşısında alnını yerə qoyurlar; əgər Allahın .şükrünü yerinə yetirmək niyyəti ilə olarsa işkalı yoxdur, əks halda haramdır

SƏCDƏNİN MÜSTƏHƏB VƏ MƏKRUHATI

Point

:Məsələ: ١١٠٠. Səcdədə bir neçə şey müstəhəbdir

Ayaq üstə namaz qılan şəxs, rükudan qalxdıqdan və bədəni tam aram olduqdan-١ sonra; oturan halda namaz qılan şəxs isə tam düz oturduqdan sonra səcdəyə getmək ;üçün təkbir desin

;Kişi, səcdəyə gedəndə, əvvəl əllərini; qadın isə əvvəl dizlərini yerə qoysun-۲

;Burnu möhürün, yaxud səcdənin səhih olduğu şeyin üstünə qoysun-۳

Səcdə halında əlin barmaqlarını bir-birinə yapışdırsın və əllərini qulaqlarının-۴ ;müqabilində yerə elə qoysun ki, barmaqların ucu qibləyə tərəf olsun

Səcdədə dua edib Allahdan hacətlərini istəsin. Səcdədə münasib olan dualardan biri-۵ :budur

يَاخَيْرَ الْمَسْؤُلِينَ وَيَا خَيْرَ الْمُعْطِينَ اُرْزُقْنِى وَارْزُقْ عِيَالِى مِنْ فَضْلِكَ فَإِنَّكَ ذُوالْفَضْلِ الْعَظِيمِ

Ya xəyrəl-məsulinə və ya xəyrəl-mutinə urzuqni vərzuq əyali min fəzlikə fə innəkə“ ”zul-fəzlil-əzim

Ey hacət istənilənlərin ən yaxşısı və ey əta edənlərin ən yaxşısı! Mənə və mənim əhl-“ ”.əyalıma Öz fəzlindən ruzi əta et. Çünki Sən, həqiqətən böyük fəzl və kərəm sahibisən

Səcdədən sonra sol budunun üstündə otursun, sağ ayağını sol ayağın üstünə-۶ ;qoysun

;Hər səcdədən sonra qalxıb otursun və bədəni aram olduqdan sonra təkbir desin-۷

Birinci səcdədən sonra, bədəni aram olduğu vaxt (ikinci səcdəyə getməzdən əvvəl)-۸ ;“Əstəğfirullahə Rəbbi və ətubu iləyh” desin

;Səcdəni uzatsın, oturanda isə əllərini budlarının üstünə qoysun-۹

;İkinci səcdəyə getmək üçün bədən aram olan halda “Əllahu əkbər” desin-۱۰

Səcdələrdə salavat desin, amma onu səcdədə göstərişi verilən səcdə zikri niyyəti-۱۱ ;ilə deməsin

;Qalxanda əlləri dizlərdən sonra yerdən götürsün-۱۲

Kişilər dirsəyi və qarnı yerə yapışdırmasınlar və qollarını-۱۳

bədəndən aralı saxlasınlar (qabırğalara yapışdırmasınlar); qadınlar isə dirsək və qarınlarını yerə qoysunlar, bədən üzvlərini bir-birinə yapışdırsınlar. Səcdənin sair .müstəhəb əməlləri müfəssəl kitablarda bəyan olunmuşdur

Məsələ: ۱۱۰۱. Səcdədə Quran oxumaq məkruhdur. Həmçinin, səcdə yerinin toz-torpağını təmizləmək üçün üfürmək də məkruhdur. Əgər üfürmə nəticəsində ağızdan iki hərf tələffüz olunarsa, namaz batildir. (Səcdədə məkruh olan sair işlər müfəssəl (.kitablarda deyilmişdir

QURANIN VACİB SƏCDƏLƏRİ

.Məsələ: ۱۱۰۲

.”Nəcm“ .۱

.”Ələq“ .۲

.”Fussilət“ .۳

.”Səcdə“ .۴

Bu dörd surənin hər birində bir səcdə ayəsi vardır ki, əgər insan onu oxuyarsa və ya qulaq asarsa, yaxud eşidərsə, ayə tamam olduqdan sonra gərək dərhal səcdə etsin. Əgər yaddan çıxarsa, hər vaxt xatırlasa, gərək səcdə etsin. Əgər namaz arasında .eşitsə, ۹۹۴-ci məsələdə qeyd edilən göstərişə əməl etsin

Məsələ: ۱۱۰۳. Əgər insan səcdə ayəsini oxuyan vaxt başqasından da səcdə ayəsini .eşitsə, ehtiyat-vacibə görə gərək iki səcdə etsin

Məsələ: ۱۱۰۴. Bir şəxs namazdan başqa hallarda bu ayələri səcdə halında oxusa, yaxud .onu eşitsə, gərək başını səcdədən qaldırıb yenidən səcdə etsin

Məsələ: ۱۱۰۵. Əgər insan yaxşını və pisi bilməyən uşaqdan və ya quran oxumaq niyyəti olmayan bir şəxsdən səcdə ayəsini eşitsə, səcdə etməsi lazım deyil. Həmçinin səcdə ayəsini qramafon valından və ya radiyo vasitəsi ilə eşitsə səcdə etməsi lazım deyil. .Amma ehtiyat budur ki, səcdə etsin

Məsələ: ۱۱۰۶. Quranın vacib səcdəsində, gərək insanın yeri

səh: ۲۰۸

qəsbi olmasın. Ehtiyat-vacibə əsasən, alnın yeri dörd bağlı barmaqdan artıq dizlərin və barmaqların yerindən yuxarı olmasın. Amma dəstmazlı və ya qüsüllü olması, üzü qibləyə olması, övrətini örtməsi və ya bədənin və alnının yerinin pak olması lazım deyildir. Həmçinin, namaz qılanın paltarında olan şərtlər, onun paltarında şərt deyil. Amma onun paltarı qəsbi olsa və o paltardan istifadə etməklə səcdə edərsə, səcdə .batildir

Məsələ: ١١٠٧. Ehtiyat-vacibə əsasən quranın vacib səcədsində alnı möhür və ya səcdə səhih olan şeylərə qoyub, bədənin digər üzvlərini, namazın səcdəsində deyilən .göstərişlərə əsasən yerə qoysun

Məsələ: ١١٠٨. Əgər Quranın vacibi səcdələrində alın, səcdə niyyəti ilə yerə qoyulsa hətta zikr deyilməsə də, kifayətdir. Amma zikri demək müstəhəbdir. Daha yaxşı olar ki, :bu zikr deyilsin

لاَ إِلَهَ إِلاَّ اللهُ حَقًّا حَقًّا، لاَ إِلَهَ إِلاَّ اللهُ إِيمَانًا وَتَصْدِيقًا، لاَإِلَهَ إِلاَّ اللهُ عُبُودِيَّةً وَرِقًّا سَجَدْتُ لَكَ يَارَبِّ تَعَبُّداً وَرِقًّا لاَ مُسْتَنْكِفًا وَلاَ مُسْتَكْبِراً بَلْ أَنَا عَبْدٌ ذَلِيلٌ ضَعِيفٌ خَائِفٌ مُسْتَجِيرٌ

La ilahə illəllahu həqqən həqqa. La ilahə illəllahu iymanən və təsdiqa. La ilahə illəllahu“ ubudiyyətən və riqqa. Səcədtu ləkə ya Rəbbi, təəbbudən və riqqa. La mustənkifən və ”.la mustəkbirən bəl ənə əbdun zəlilun, zəifun, xaifun, mustəcir

TƏŞƏHHÜD

Məsələ: ١١٠٩. Bütün vacibi namazların ikinci rəkətində, (bundan əlavə,) məğrib namazının üçüncü, zöhr, əsr və işa namazlarının dördüncü rəkətində ikinci səcdədən :sonra oturub bədənin aram olduğu halda təşəhhüd oxunmalıdır. Yəni deməlidir ki

أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَشَرِيكَ لَهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ أَللَّهُمَّ صَلِّ عَلَى

مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh və əşhədu“

ənnə Muhəmmədən əbduhu və Rəsuluh. Əllahummə səlli əla Muhəmmədin və Ali-
”.Muhəmməd

Ettiyat-vacib budur ki, bu tərtiblə desin. Bundan az kifayət deyildir. Vitr namazında da
.təşəhüd lazımdır

Məsələ: ١١١٠. Təşəhüdün kəlmələri gərək ərəbcə səhih və adi qaydada, bir-birinin
.ardınca deyilsin

Məsələ: ١١١١. Əgər bir şəxs təşəhüdü unudub ayağa qalxsa və rükudan əvvəl yadına düşsə, gərək oturub təşəhhüdü desin, yenidən ayağa durub həmin rəkətdə yerinə yetirməli olan şeyləri oxuduqdan sonra namazı qurtarsın. Ehtiyat-vacibə görə, namazdan sonra iki səcdeyi-səhv yersiz durduğuna görə yerinə yetirsin. Daha yaxşı olar ki, qiyam halında artıq dediyi zikrə görə də, iki səcdeyi-səhv etsin. Amma rükuda və ya ondan sonra yadına düşərsə, gərək namazı qurtarsın, namazın salamıdan sonra
.təşəhhüdü qəza etsin. Unudulmuş təşəhhüd üçün iki səcdeyi-səhv etsin

Məsələ: ١١١٢. Müstəhəbdir ki, namaz qılan şəxs təşəhhüd deyən halda sol budunun üstünə oturub, sağ ayağı sol ayağın üstünə qoysun. Təşəhüddən qabaq, “Əlhəmdu lillah” və ya “Bismillahi və billahi vəlhəmdu lillahi və xəyrul-əsmai lillah” deyilsin. Həmçinin, müstəhəbdir ki, əlləri dizlərinin üstünə qoysun, barmaqlarını bir-birinə yapışdırıb, ətəyinə baxsın. Təşəhhüd qurtarandan sonra isə “Vətəqəbbəl şəfaətəhu
.vərfə dərəcətəh” desin

Məsələ: ١١١٣. Müstəhəbdir ki, qadınlar təşəhhüd oxuyanda budlarını bir-birinə
.yapışdırsınlar

NAMAZIN SALAMI

Məsələ: ١١١٤. Namazın axırıncı rəkətinin təşəhhüdündən sonra

:müstəhəbdir ki, oturan və bədənin aram olduğu halda deyilsin

أَلسَّلَامُ عَلَيْكَ أَيُهَاالنَّبِيُّ وَرَحْمَهُاللهِ وَبَرَكَاتُهُ

Əssəlamu ələkə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh

Ondan sonra gərək

أَسَّلَامُ عَلَيْكُمْ وَرَحْمَهُاللهِ وَبَرَكَاتُهُ

Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh, yaxud

أَسَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِاللهِ الصَّالِحِينَ

Əssəlamu ələyna və əla ibadillahis-salihin desin. Salamın bu iki siğəsindən biri, kifayətdir. Amma bu salamı desə, ehtiyat-müstəhəb budur ki, ondan sonra

أَسَّلَامُ عَلَيْكُمْ وَرَحْمَهُ اللهِ وَبَرَكَاتُهُ

.Əssəlamu ələykkum və rəhmətulahi və bərəkatuh da desin

Məsələ: ١١١٥. Əgər bir şəxs namazın salamını unutsa və namazın surəti pozulmamış yadına düşsə, qəsdən və səhvən olması ilə namazı batil edən iş etməyibsə, (qibləyə .arxa çevirmək kimi), gərək salamı desin, namazı da səhihdir

Məsələ: ١١١٦. Əgər namazın salamını unutsa və namazın surəti pozulandan sonra yadına düşsə, namazın surəti pozulmazdan qabaq, qəsdən və səhvən olması ilə namazı batil edən iş etməyibsə, (qibləyə arxa çevirmək kimi), namazı səhihdir. Amma namazın surəti pozulmamışdan əvvəl, səhvən və ya qəsdən edilməsi namazı batil edən işlərdən görübsə, namazın səhihliyi işkallıdır. Ehtiyat-vacib budur ki, iki səcdeyi-.səhv unudulmuş təşəhüd üçün edib və namazı yenidən qılsın

TƏRTİB

Məsələ: ١١١٧. Əgər insan, namazın tərtibini bilərəkdən pozsa; məsələn, surəni həmddən qabaq oxusa, yaxud səcdəlri rükudan

.qabaq etsə namazı batildir

Məsələ: ۱۱۱۸. Əgər namazın rüknündən birini unudub sonrakı rüknü yerinə yetirsə; .məsələn, rükunu yerinə yetirməmişdən əvvəl, iki səcdə etsə namazı batildir

Məsələ: ۱۱۱۹. Əgər bir rüknü unudub ondan sonrakı, rükn olmayan bir əməli yerinə yetirsə; məsələn, iki səcdəni yerinə yetirməmişdən qabaq təşəhhüd oxusa, unutduğu .rüknü yerinə yetirməli, ondan qabaq səhvən qıldıqlarını, yenidən yerinə yetirməlidir

Məsələ: ۱۱۲۰. Əgər rükn olmayan bir əməli unudub, ondan sonrakı rüknü yerinə .yetirərsə, misal olaraq; Həmdi yaddan çıxarıb rükuya gedərsə, namazı səhihdir

Məsələ: ۱۱۲۱. Əgər rükn olmayan əməli yaddan çıxarıb, ondan sonrakı rükn olmayan əməli yerinə yetirsə, misal olaraq: həmdi yaddan çıxarıb surəni oxuyarsa, sonrakı rüknə daxil olduğu təqdirdə; məsələn, rükuda, həmdi oxumamasını xatırlasa, gərək ötürsün və namazı səhihdir. Amma, sonrakı rüknə daxil olmayıbsa, gərək yaddan çıxardığını yerinə yetirsin və ondan sonra səhvən əvvəldə oxuduğunu ikinci dəfə .oxusun

Məsələ: ۱۱۲۲. Əgər birinci səcdəni ikinci səcdədir gümanı ilə və ya ikinci səcdəni birinci səcdə gümanı ilə yerinə yetirsə, namazı səhihdir. Onun birinci səcdəsi birinci, ikinci .səcdəsi də ikinci səcdə hesab olunur

MÜVALAT

Məsələ: ۱۱۲۳. İnsan gərək namazı müvalat ilə oxusun. Yəni, namazın hissələrini (rüku, səcdə, təşəhhüd kimi) bir-birinin ardınca, fasiləsiz yerinə yetirməlidir. Namazda oxuduqları, adi qaydada bir-birinin ardınca, fasiləsiz olmalıdır. Əgər bunların arasında müəyyən qədər fasilə salsa və “namaz qılır” deyilməsə, bilərəkdən olarsa namazı batildir. Amma bilməməzlik üzündən olarsa namaz batil olmur gərək kəlmə və ya .ayəni təkrarlasın

Məsələ: ۱۱۲۴. Əgər namazda səhvən, hərflərin, yaxud kəlmələrin arasında fasilə salsa və bu fasilə, namazın surətini poza biləcəyi qədər də olmasa, sonrakı rüknə başlamayıbsa, gərək o hərifləri və ya kəlmələri adi qaydada oxusun. Amma sonrakı rüknə daxil olubsa, namazı səhihdir.

Məsələ: ۱۱۲۵. Rüku və səcdəni uzatmaq və böyük surələri oxumaq, namazın müvalatını pozmur.

QUNUT

Məsələ: ۱۱۲۶. Qurban və fitr bayramlarının namazlarından başqa bütün vacibi və müstəhəbi namazlarda, ikinci rəkətin rükusundan qabaq müstəhəbdir ki, qunut tutulsun. Amma şəfi namazında ehtiyat budur ki, tələb olma niyyəti ilə yerinə yetirilsin. Vitr namazının bir rəkət olmasına baxmayaraq, onun rükusundan qabaq qunut tutmaq müstəhəbdir. Cümə namazının hər rəkətində bir qunut vardır; birinci rəkətdə rükudan əvvəl, ikinci rəkətdə isə rükudan sonra tutulur. Ayət namazının beş qunutu vardır. Fitr və qurban bayram namazlarının isə hər birinin birinci rəkətində beş, ikinci rəkətində isə dörd qunut vardır. Bu iki namazda qunutun tutulması ehtiyata əsasəndir.

Məsələ: ۱۱۲۷. Müstəhəbdir namaz qılan, əllərini üzünün müqabilinə qaldırıb, əllərin içini səmaya doğru tutub və əllərini bir-birinin yanında (qoşa) tutsun, baş barmaq istisna olmaqla, sair barmaqlarını bir-birinə yapışdırıb əllərinin içinə baxsın.

Məsələ: ۱۱۲۸. Qunutda hər zikri, hətta bir dəfə subhanəllah desə kifayətdir. Amma daha yaxşı olar ki, bu dua oxunsun:

لاَـ إِلَهَ إِلاَّـ اللهُ الْحَلِيمُ الْكَرِيمُ لاَـ إِلَهَ إِلاَّ اللهُ الْعَلِيُّ الْعَظِيمُ سُـبْحَانَ اللهِ رَبِّ السَّمَاوَاتِ السَّبْعِ وَرَبِّ الْأَرَضِـينَ السَّبْعِ وَمَا فِيهِنَّ وَمَابَيْنَهُنَّ وَرَبِّ الْعَرْشِ الْعَظِيمِ وَالْحَمْدُلِلهِ رَبِّ الْعَالَمِينَ

La ilahə illəllahul-həlimul-kərim. La ilahə illəllahul-əliyyul-

əzim. Subhanəllahi Rəbbis-səmavatis-səbi və Rəbbil-ərəzinəs-səbi və ma fihinnə və .ma bəynəhunnə və Rəbbil-ərşil-əzim. Vəlhəmdu lilahi Rəbbil-aləmin

Məsələ: ١١٢٩. Müstəhəbdir ki, insan qunutu ucadan oxusun. Amma namazı camaatla qılan bir şəxsin səsini imam eşidərsə, qunutu ucadan oxması müstəhəb deyil, .məkruhdur

Məsələ: ١١٣٠. Əgər bilərəkdən qunut tutmasa, qəzası yoxdur. Amma unutsa və rüku qədərinə əyilməzdən qabaq yadına düşsə, müstəhəbdir ki, qayıdıb qunut tutsun. Əgər rükuda yadına düşsə, müstəhəbdir ki, rükudan sonra qəzasını etsin; əgər səcdədə .yadına düşsə, müstəhəbdir ki, namazın salamından sonra qəza etsin

NAMAZIN TƏRCÜMƏSİ

HƏMD" SURƏSİNİN TƏRCÜMƏSİ"–١

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

".Bismillahir-rəhmanir-rəhim"

Başlayıram dünyada həm möminə, həm də kafirə, axirətdə isə yalnız möminə rəhm .edən Allahın adı ilə

أَلْحَمْدُ لِلّهِ رَبِّ الْعَالَمِينَ

"Əlhəmdu lillahi Rəbbil-aləmin"

Həmd və səna yalnız o Allaha məxsusdur ki, bütün mövcudatı, aləmləri tərbiyə .edəndir

اَلرَّحْمَنِ الرَّحِيمِ

"Ər-rəhmanir-rəhim"

.Dünyada həm möminə, həm də kafirə, axirətdə isə yalnız möminə rəhm edəndir

مَالِكِ يَوْمِ الدِّينِ

”Maliki yəvmiddin“

.O Allah Qiyamət gününün padşahı və ixtiyar sahibidir

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ

”İyyakə nə`budu və iyyakə nəstəin“

.Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik

اِهْدِنَا الصِّرَاطَ المُسْتَقِيمَ

”İhdinəs-siratəl müstəqim“

!Bizi doğru yola hidayət et

صِرَاطَ الَّذِينَ أَنعَمْتَ عَلَيهِمْ

”Siratəl-ləzinə ənəmtə ələhim“

O şəxslərin yoluna hidayət et ki, onlara nemət vermisən (və onlar peyğəmbərlər və .(onların canişinləridir

غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ

”Ğəyril-məğzubi ələyhim vələzzallin“

O şəxslərin yoluna hidayət etmə ki, onlara qəzəb etmisən; və onların yoluna yox ki, .yollarından azıblar

QUL HUVƏLLAH” SURƏSİNİN TƏRCÜMƏSİ“–٢

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

”.Bismillahir-rəhmanir-rəhim“

Başlayıram dünyada həm möminə, həm də kafirə, axirətdə isə yalnız möminə rəhm

.edən Allahın adı ilə

səh: ۲۱۵

قُلْ هُوَ اللَّهُ أَحَدٌ

"Qul huvəllahu əhəd"

(Ey Peyğəmbər,) de ki: Allah, yeganə olan Allahdır.

اللَّهُ الصَّمَدُ

"Əllahus-səməd"

O Allah ki, bütün mövcudatlardan ehtiyacsızdır.

لَمْ يَلِدْ وَلَمْ يُولَدْ

"Ləm yəlid və ləm yuləd"

Övladı yoxdur və heç şəxsin də övladı deyil.

وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ

"Və ləm yəkun ləhu kufuvən əhəd"

Məxluqlardan heç bir şəxs, Onun misli, tayı-bərabəri deyil.

٣-RÜKU VƏ SƏCDƏ ZİKRLƏRİNİN TƏRCÜMƏSİ

سُبْحَانَ رَبِّیَ الْعَظِیم وَ بِحَمْدِهِ

Subhanə Rəbbiyəl-əzimi və bihəmdih

Mənim böyük Rəbbim, hər eyb və nöqsandan pak və münəzzəhdir və mən də Ona həmd-sitayiş etməyə məşğulam.

سُبْحَانَ رَبِّیَ الْأَعْلَی وَ بِحَمْدِهِ

Subhanə Rəbbiyəl-əla və bihəmdih

Mənim hamıdan uca məqamlı Pərvərdigarım hər eyb və nöqsandan pak və münəzzəhdir, mən də Ona həmd-sitayiş etməyə məşğulam.

سَمِعَ اللهُ لِمَنْ حَمِدَهُ

Səmi əllahu limən həmidəh

!Allah, Ona sitayiş edənlərin həmd-sənasını eşitsin və qəbul etsin

أَسْتَغْفِرُ اللهَ رَبِّى وَأَتُوبُ إِلَيْهِ

Əstəğfirullahə Rəbbi və ətubu iləyh

Bağışlanmaq və məğfirət tələb edirəm O Allahdan ki, məni bəsləyib və mən Ona .tərəfin qaydıram

بِحَوْلِ اللهِ وَقُوَّتِهِ أَقُومُ وَأَقْعُد

Bihəvlillahi və quvvətihi əqumu və əqud

.Mütəal Allahın köməyi və hövl-qüvvəsi ilə oturub-dururam

QUNUTUN TƏRCÜMƏSİ– ۴

لاَ إِلَهَ إِلاَّ اللهُ الْحَلِيمُ الْكَرِيمُ

La ilahə illəllahul-həlimul-kərim

.Kərəm və helm sahibi olan Allahdan başqa bir məbud, ibadətə layiq olan kimsə yoxdur

لاَ إِلَهَ إِللَّهُ الْعَلِيُّ الْعَظِيمُ

La ilahə illəllahu-əliyyul-əzim

Böyük, uca mərtəbə əzəmətli olan Allahdan başqa ibadətə layiq olan bir məbud .yoxdur

سُبْحَانَ رَبِّ السَّمَاوَاتِ السَّبْعِ وَرَبِّ الْأَرَضِينَ السَّبْعِ وَمَا فِيهِنَّ وَمَابَيْنَهُنَّ وَرَبِّ الْعَرْشِ الْعَظِيمِ

Subhanəllahi Rəbbis-səmavatis-səbi və Rəbbil-ərəzinəs-səbi və ma fihinnə və ma bəynəhunnə və Rəbbil-ərşil-əzim

Pak və münəzzəhdir O Allah ki, yeddi qat göylərin, yeddi qat yerlərin və onların .arasında olanların, əzəmətli ərşin Rəbbidir

وَالْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

Vəlhəmdu lillahi Rəbbil-aləmin

Həmd və səna, aləmlərə pərvəriş verən, bütün mövcudları bəsləyən, Allaha .məxsusdur

TƏSBİHATİ-ƏRBƏƏNİN TƏRCÜMƏSİ-۵

سُبحَانَ اللهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللهُ وَاللهُ أَكْبَر

Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər

Pak və münəzzəhdir Allah-təala, həmd yalnız Allaha məxsusdur, sitayişə layiq olan bir məbud yoxdur, tayı olmayan Allahdan başqa. Allah, Onu vəsf edənlərin vəsfindən .daha böyükdür

TƏŞƏHHÜD VƏ SALAMIN TƏRCÜMƏSİ-۶

أَلْحَمْدُ للهِ أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَشَرِيكَ لَهُ

Əlhəmdu lillah, əşhədu ənla ilahə illəllahu vəhdəhu la şərikə ləh

Sitayiş və həmd Allaha məxsusdur. Şəhadət verirəm ki, Allahdan başqa heç bir, .pərəstişə layiq məbud yoxdur. Yeganədir, şəriki yoxdur

وَأَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ

Və əşhədu ənnə Muhəmmədən əbduhu və Rəsuluh

Şəhadət verirəm ki, Məhəmməd (səlləllahu ələyhi və alihi və səlləm) Allahın bəndəsi və .Onun Rəsulu, göndərdiyidir

أَللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

Əllahumə səlli əla Muhəmmədin və Ali-Muhəmməd

.Ey Allah! Rəhmət göndər Məhəmmədə və onun Əhi-beytinə

وَتَقَبَّلْ شَفَاعَتَهُ وَارْفَعْ دَرَجَتَهُ

Və təqəbbəl şəfaətəhu vərfə dərəcətəh

!Peyğəmbərin şəfaətini qəbul et, o həzrətin dərəcəsini Öz yanında ucalt

أَلسَّلاَمُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ

Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh

!Salam olsun Sənə ey Peyğəmbər! Allahın rəhmət və bərəkəti Sənə olsun

أَلسَّلاَمُ عَلَيْنَا وَعَلَى عِبادِ اللهِ الصَّالِحِينَ

Əssəlamu ələyna və əla ibadillahis-salihin

!Allah tərəfindən salam biz namaz qılanlara və bütün yaxşı bəndələrə olsun

أَسَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ

Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh

!Allahın salam, rəhmət və bərəkəti siz möminlərə olsun

NAMAZIN TƏQİBATI

Point

Məsələ: ١١٣١. Müstəhəbdir ki, insan namazdan sonra müəyyən qədər təqibatla məşğul olsun. Yəni zikr etsin, dua və Quran oxusun. Daha yaxşı olar ki, öz yerindən hərəkət etməmiş, dəstəmaz, qüsl və ya təyəmmümü batil olmamış, üzü qibləyə durub təqibatı .oxusun. Təqibatın ərəbcə olması lazım deyil

Amma daha yaxşı olar ki, dua kitablarında qeyd olunanları oxusun. Daha çox tövsiyə olunan təqibatlardan biri, həzrəti Zəhranın (salamullahiələyha) zikridir ki, bu tərtiblə deyilməlidir: ٣۴ dəfə Əllahu Əkbər, ٣٣ dəfə əlhəmdu lillah, ٣٣ dəfə subhanəllah. Subhanəllahı əlhəmdu lillahdan qabaq da demək olar, amma daha yaxşı olar ki, sonra .deyilsin

Məsələ: ١١٣٢. Müstəhəbdir ki, namazdan sonra şükür səcdəsi edilsin. Əgər alnı şükr etmək məqsədi ilə yerə qoysalar kifayətdir. Amma daha yaxşı olar ki, ١٠٠ dəfə, yaxud üç dəfə və ya bir dəfə şükrən lillah yaxud şükrən yaxud da əfvən deyilsin. Həmçinin, müstəhəbdir ki, insana hər vaxt nemət yetişsə, yaxud hər hansı bəla ondan uzaqlaşsa .şükür səcdəsi etsin

PEYĞƏMBƏRƏ (S) SALAVAT

Məsələ: ١١٣٣. Hər vaxt insan Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) mübarək adını (Mühəmməd, Əhməd), yaxud ləqəbini, künyəsini (Mustəfa, Əbul-Qasim .və s.) desə, yaxud eşitsə, hətta namaz üstündə də olsa müstəhəbdir ki, salavat desin

Məsələ: ١١٣۴. Həzrət Rəsulun (səlləllahu ələyhi və alihi və səlləm) adını yazanda, müstəhəbdir ki, salavat da yazılsın. Həmçinin, daha yaxşı olar ki, hər vaxt o Həzrəti .yad etsə, salavat göndərsin

NAMAZI BATİL EDƏN ŞEYLƏR

Point

:(Məsələ: ١١٣۵. ١٢ şey namazı batil edir (və onlara mübtilat deyilir

Namaz əsnasında onun şərtlərindən hər hansı birinin pozulması; məsələn, namaz-١ .qılan, namaz əsnasında özünü örtdüyü paltarın qəsbi olduğunu başa düşə

Namaz əsnasında qəsdən, səhvən, yaxud çarəsizlikdən dəstəmazı, qüslü batil edən-٢ şeylərin baş verməsi; məsələn, insandan bövl xaric olsa. Amma bövl və qaitin çölə gəlməsinin qarşısını ala bilməyən bir şəxsdən namaz əsnasında bövl və qait

xaric olarsa və dəstəmaz bölməsində deyilən göstərişlərə əsasən əməl edərsə, namazı batil olmaz. Həmçinin, əgər namaz əsnasında istihazəli qadından qan xaric .olarsa və istihazədə göstərilən qaydaya əməl edərsə, namazı səhihdir

Məsələ: ۱۱۳۶. Əgər bir şəxs ixtiyarsız olaraq yuxlasa və namaz əsnasında, yaxud ondan .sonra yuxladığını bilməsə, gərək namazı yenidən qılsın

Məsələ: ۱۱۳۷. Əgər öz ixtiyarı ilə yatdığını bilsə amma, namazdan sonra və ya namaz .əsnasında, namaz qılmasını unudaraq yatdığını bilməsə, namazı səhihdir

Məsələ: ۱۱۳۸. Əgər səcdə halında yuxudan ayılıb namazın axırıncı səcdəsi və ya şükür .səcdəsində olmasında şəkk etsə, gərək namazı yenidən qılsın

.Şiə olmayan bəzi şəxslər kimi əlləri bir-birinin üstünə qoymaq-۳

Məsələ: ۱۱۳۹. Əgər namaz qılan şəxs ədəb üçün əlləri bir-birinin üstünə qoysa, hətta onlar (şiə olmayan bəzi şəxslər) kimi də olmasa, ehtiyat-vacibə görə, gərək namazı yenidən qılsın. Amma unutqanlıq, naçarlıq və ya təqiyyə üzündən, yaxud da, başqa .işlər (əli qaşımaq və s.) üçün əlləri bir-birinin üstünə qoysa, eybi yoxdur

Həmdi oxuyandan sonra amin demək. Amma səhvən və ya təqiyyə üzündən desə,-۴ .namazı batil olmaz

Qəsdən və ya unudaraq qiblədən arxaya, sağa, yaxud sola dönmək. Hətta əgər-۵ qəsdən bir az dönsə və "üzü qibləyədir" deməsələr, sağ tərəfə, sol tərəfə tamamilə .dönməsə də, namazı batildir

Məsələ: ۱۱۴۰. Əgər qəsdən başını, arxasını görə biləcək qədər döndərsə, namazı batildir. Əgər bilməyərək başını bu miqdar çevirsə, ettiyat-vacibə budur ki, namazı tamamlayıb ikinci dəfə qılsın. Amma başını azacıq sağa və ya sola döndərsə, istər .qəsdən, istərsə də səhvən olsun, namazı batil deyil

,Qəsdən, iki və ya ondan çox hərflili olan, məna daşımasa da-۶

.bir söz demək. Amma səhvən desə, namazı batil olmaz

Məsələ: ۱۱۴۱. Əgər bir hərfli mənası olan kəlmə desə (ərəb dilində, "saxla" mənasını kimi), Əgər onun mənasını bilib və onu qəsd etsə, namazı batildir. Hətta, "ق" daşıyan .əgər onu qəsd etməsə də, mənasını bilirsə, gərək namazı yenidən qılsın

Məsələ: ۱۱۴۲. Namazda öskürmək, ah çəkmək və gəyirməyin eybi yoxdur. Amma "ah", "ax" kimi, iki hərfli kəlmələri qəsdən deyərsə, namaz batildir. Amma "ah" demək Allah .yanında şikayət olarsa namazı batil etmir

Məsələ: ۱۱۴۳. Əgər müəyyən bir kəlməni zikr qəsdi ilə desə; məsələn, zikr qəsdi ilə Əllahu əkbər desə amma onu deyən vaxt səsini ucaldaraq başqasına bir şey anlatmaq istəsə, eybi yoxdur. Amma müəyyən bir şeyi bir şəxsə başa salmaq üçün onu desə, .hətta zikr qəsdi ilə deyilsə də, namazı batildir

Məsələ: ۱۱۴۴. Vacibi səcdəsi olan dörd surədən başqa, (۳۶۱-ci məsələdə, cənabət hökmləri bölməsində deyildiyi kimi), namazda Quran oxumaq, həmçinin dua etməyin .eybi yoxdur. Ehtiyat-vacib budur ki, dua ərəb dilindən başqa dildə oxunmasın

Məsələ: ۱۱۴۵. Əgər həmd və surə, namazın zikrlərini, qəsdən (tələffüzdə) cüzi hissələrini qəsd etmədən və ya ehtiyatən bir neçə dəfə təkrar etsə, eybi yoxdur. .Amma vasvaslıq üzündən bir neçə dəfə desə, namazın səhih olmasını demək çətindir

Məsələ: ۱۱۴۶. İnsan gərək namaz halında, başqasına salam verməsin. Amma biri salam versə, o da namaz halında, o salam verdiyi kimi cavabını versin; məsələn, əgər "salamun ələykum" deyərsə, cavabda "slamun ələykum" desin. Ehtiyat-vacib budur ki, namaz və onun cavabının arasında tək, ikilik cəm və s. qrammatik göstərişlərə əməl .olunsun

Məsələ: ۱۱۴۷. İnsan salamın cavabını istər namaz halında olsun, istərsə də başqa vaxtlarda, dərhal deməlidir. Əgər qəsdən, yaxud unudaraq salamın cavabını yubanaraq versə, (belə ki, artıq cavab hesab olunmasa) bu halda namaz halındadırsa daha cavab

.verməməlidir; yox əgər namaz üstə olmasa, cavabını vermək vacib deyil

Məsələ: ١١۴٨. Gərək salamın cavabını elə desin ki, salam verən eşitsin, Amma salam .verən kar olsa insan adi şəkildə onun cavabını versə kifayətdir

Məsələ: ١١۴٩. Namaz qılan, salamın cavabını dua niyyəti ilə (yəni Allah təaladan salam .verən üçün salamatlıq istəyə) deməsi vacib deyil. Daha yaxşı olar dua niyyəti ilə desin

Məsələ: ١١۵٠. Əgər naməhrəm kişi və ya qadın, yaxud müməyyiz bir uşaq (yaxşını və pisi başa düşən uşaq), namaz qılana salam versə, namaz qılan gərək onun cavabını versin. Amma qadının salamında ehtiyat-vacib budur ki, kaf hərfinə kəsrə, fəthə və ya .zəmmə verməsin

Məsələ: ١١۵١. Əgər namaz qılan şəxs salamın cavabını verməsə günah etmişdir, amma .namazı səhihdir

Məsələ: ١١۵٢. Əgər bir şəxs namaz qılana salam hesab olunmayan bir şəkildə salam .verərsə, onun cavabı vacib deyildir

Məsələ: ١١۵٣. İstehza (ələsalmaq) və ya zarafat üzündən salam verən şəxsin cavabını .vermək vacib deyldir

Məsələ: ١١۵۴. Əgər bir şəxs (bir yerdə olan) bir neçə nəfərə salam versə onun .salamının cavabı hamısına vacibdir. Amma biri cavab verərsə, kifayətdir

Məsələ: ١١۵۵. Əgər bir şəxs, bir neçə nəfərə salam versə və salam verənin qəsd etmədiyi bir nəfər cavabını versə, o salamın cavabı, yenə də oradakıların hamısına .vacibdir

Məsələ: ١١۵۶. Əgər bir şəxs bir neçə nəfərə salam versə və onların arasında namaz qılmağa məşğul olan bir şəxs, salam verənin salamda onu da qəsd edib-etməməsində şəkk etsə, cavabını verməməlidir. Həmçinin, ehtiyat-vacibə görə əgər onu da qəsd etdiyini bilsə, amma salamın cavabını başqası versə, cavab verməməlidir; əgər onu da qəsd etdiyini bilsə və başqası onun cavabını verməsə, namaz qılan şəxs gərək cavabını .versin

Məsələ: ۱۱۵۷. Salam vermək müstəhəbdir. Bu barədə çoxlu

tövsiyələr edilmişdir ki, süvari piyadaya, ayaq üstə olan oturana və kiçiklər böyüklərə
.salam versinlər

Məsələ: ١١٥٨. Əgər iki nəfər (eyni zamanda) bir-birinə salam versə, hər birinə, digərinin
.cavabını qaytarması vacibdir

Məsələ: ١١٥٩. Namazdan başqa hallarda, müstəhəbdir ki, salamın cavabı, verildiyindən
daha yaxşı verilsin; məsələn, əgər bir şəxs "səlamun ələykum" deyə salam versə,
.cavabında "səlamun ələykum və rəhmətullah" deyilsin

Namazı batil edənlərdən yeddincisi qəsdən və səslə gülməkdir. Əgər səhvən səslə-٧
gülsə və namazın surəti pozulmazsa namazı səhihdir. Amma təbəssüm namazı batil
.etmir

Məsələ: ١١٦٠. Əgər gülüş səsinin qarşısını almaq istədikdə halı dəyişsə; məsələn, rəngi
qızarsa, bu, namazın surətini pozacaq şəkildə olsa, ehtiyat-vacibə görə gərək
.namazını yenidən qılsın

Namazı batil edənlərdən səkkizincisi dünya işləri üçün bilərəkdən uca səslə-٨
ağlamaqdır. Ehtiyat-vacib budur ki, dünya işləri üçün astadan da ağlamasın. Amma
Allah xövfündən, yaxud qiyaməti yada salıb ağlasa istər alçaq səslə olsun, istərsə də
.uca səslə, eybi yoxdur. Üstəlik bu, daha yaxşı əməllərdən hesab olunur

Namazın surətini pozan işləri etmək; məsələn, əl çalmaq, havaya tullanmaq və s. bu-٩
kimi işlər, istər az olsun, istərsə də çox; istər qəsdən, istərsə də unutqanlıq üzündən.
Amma namazın surətini pozmayan işlərin; məsələn, əl ilə bir şeyə işarə etmək kimi
.eybi yoxdur

Məsələ: ١١٦١. Əgər namaz əsnasında, "namaz qılmır" deyilə biləcək qədər sakit qalsa,
.istər bilərəkdən olsun istərsə də səhvən namaz batildir

Məsələ: ١١٦٢. Əgər namaz əsnasında müəyyən bir iş görsə, yaxud müəyyən qədər
.sakit qalıb sonra namazın pozulub-pozulmamasında şəkk etsə, namazı səhihdir

Yemək və içmək namazı batil edənlərdəndir. Əgər namazda, "namaz qılır"-١٠

deyılməyəcək şəkildə yesə və ya içsə, istər

biləräkdən olsun, istərsə də unutqanlıq üzündən, namazı batildir. Amma oruc tutmaq istəyən bir şəxs, əgər sübh namazından əvvəl vitr namazı qılan halda susuz olsa, belə ki, namazı qurtaracağı halda sübh olacağından qorxsa, əgər su onun qarşısında və üç addımlıqında olsa, namaz arasında su içə bilər. Amma, gərək namazı batl edən .əməllərdən etməsin; məsələn, qiblədən üz çevirməsin

Məsələ: ۱۱۶۳. Əgər qəsdən yemək və içməkliklə namazın müvalatı pozulsa, yəni, .“namazı ardıcıl qılır” deyilməsə, gərək namazını yenidən qılsın

Məsələ: ۱۱۶۴. Əgər namaz əsnasında ağızda, yaxud dişlərin dibində qalan yemək qalıqlarını udsa, namaz batil olmaz. Həmçinin qənd, şəkər tozu və bunun kimi şeylər .ağzında qalsa və namaz halında o yavaş-yavaş həll olub udulsa, eybi yoxdur

İki rəkətli və üç rəkətli namazlarda, həmçinin dörd rəkətli namazların ilk iki-۱۱ .rəkətində şəkk etmək

Namazın rüknünü qəsdən və ya səhvən artırıb-azaltmaq, yaxud rükn olmayan-۱۲ .şeyləri qəsdən artırıb-azaltmaq

Məsələ: ۱۱۶۵. Əgər bir şəxs namazdan sonra, namaz əsnasında onu batil edən işlərdən .edib-etməməsində şəkk etsə, namazı səhihdir

NAMAZDA MƏKRUH OLAN ŞEYLƏR

Məsələ: ۱۱۶۶. Namazda üzü, azacıq sağa və ya sola, “üzünü qiblədən çevirib” deyilməyəcək tərzdə döndərmək, məruhdur. Əks təqdirdə namazı batildir. Gözləri yummaq, yaxud sağa, sola döndərmək, saqqal və əllərlə oynamaq, barmaqları bir-birinə keçirtmək, ağızın suyunu yerə atmaq, Quranın, kitabın, üzüyün yazılarına baxmaq məkruhdur. Həmçinin, Həmd və surəni oxuyan və zikrləri deyən vaxtda başqasının sözünü eşitmək üçün səsi alçaltmaq məkruhdur. Ümumiyyətlə, xüzu və .xüşunu aradan qaldıran hər hansı bir işlə məşğul olmaq məkruhdur

Məsələ: ۱۱۶۷. İnsanın yuxusu gəldiyi, habelə bövl və qaitin qarşısını aldığı vaxt namaz qılması məkruhdur. Həmçinin, ayağı sıxan dar corab geymək də məkruhdur. Bundan .başqa sair məkruhatlar da vardır ki, müfəssəl fiqhi kitablarda qeyd olunmuşdur

VACİB NAMAZI POZMAĞIN MÜMKÜN OLDUĞU HALLAR

Məsələ: ۱۱۶۸. İxtiyar üzündən vacibi namazı pozmaq haramdır. Amma can və malın hifz .olunması, cana və mala dəyən zərərin qarşısını almaq üçün pozmağın eybi yoxdur

Məsələ: ۱۱۶۹. Əgər öz canını, yaxud canının qorunması vacib olan bir şəxsi, yaxud qorunub-saxlanması vacib olan əmlakı (malı) hifz etmək, namazı pozmadan mümkün olmazsa, gərək namazı pozsun. Amma çox əhəmiyyəti olmayan bir şeyi qoruyub-.saxlamaq üçün namazı pozmaq məkruhdur

Məsələ: ۱۱۷۰. Əgər bir şəxs, namaz vaxtının çox olduğu vaxtda namaza başlasa və borc sahibi öz borcunu ondan istəsə, onda namaz üstündə verə bilərsə, o halda verməlidir; əgər namazı pozmadan verə bilməzsə, namazı pozub borcunu .qaytardıqdan sonra namazını qılmalıdır

Məsələ: ۱۱۷۱. Əgər namaz əsnasında məscidin nəcis olduğunu bilsə, vaxtın az olduğu halda namazı qılıb qurtarmalıdır; əgər vaxt çox olsa və namazı pozmadan məscidi paklamaq mümkün olarsa, gərək namaz əsnasında məscidi təmizləyib sonra qalan hissəsini qılsın. Amma məscidi paklamaq namazın pozulmasına səbəb olarsa, namazı tamamlamaqla namazı pozub məscidi təmizləyib sonra namazı qılmaq arasında .ixtiyarlıdır

Məsələ: ۱۱۷۲. Namazı pozmalı olan bir şəxs, onu tamamlasa (axıra çatdırsa), günah etmişdir; amma namazı səhihdir. Hərçənd ehtiyat-müstəhəb budur ki, namazı yenidən .qılsın

Məsələ: ۱۱۷۳. Əgər rüku miqdarında əyilməzdən qabaq azan

və iqaməni unutduğu yadına düşsə, namazın vaxtı çox olan halda müstəhəbdir ki, .(onları demək üçün namazı pozsun (və yenidən azan və iqamə ilə qılsın

ŞƏKKİYAT

Point

Namazın şəkkiyyatı ٢٣ qismdir ki, onlardan səkkizi namazı batil edir, altısına etina .olunmamalıdır, doqquzunda isə namaz səhihdir

NAMAZI BATİL EDƏN ŞƏKKLƏR

:Məsələ: ١١٧۴. Namazı batil edən şəklər aşağıdakılardan ibarətdir

İki rəkətli namazların rəkətlərinin sayındakı şək; (sübh namazı və səfərdə olan-١ şəxsin namazı kimi). Amma iki rəkətli müstəhəb namazların və ehtiyat namazlarının .rəkətlərinin sayındakı şəkk, namazı batil etmir

;Üç rəkətli namazın rəkətlərinin sayındakı şəkk-٢

;Dörd rəkətli namazda bir rəkət və ya daha artıq qılınmasındakı şəkk-٣

Dörd rəkətli namazlarda, ikinci səcdənin qurtarmasından qabaq, iki rəkətlə daha-۴ .artıq arasındakı şəkk

;İki və beş, yaxud, iki və beşdən artıq rəkət arasındakı şəkk-۵

;Üç rəkətlə altı rəkət və ya üç rəkətlə altı rəkətdən artıq arasındakı şəkk-۶

;Neçə rəkət qıldığını bilmədiyi namazlardakı şəkk-٧

Dörd rəkətlə altı və ya dörd rəkətlə altıdan artıq rəkətlərdəki şəkk, ikinci səcdənin-٨ qurtarmasından əvvəl namaz batildir. Amma ikinci səcdə qurtarandan sonra ehtiyat-vacib budur ki, niyyətini dördüncü rəkətə qoyub namazı qurtarsın. Sonra iki səcdeyi-.səhv yerinə yetirib namazı da yenidən qılsın

Məsələ: ١١٧۵. Əgər batil şəkklərdən biri insanın qarşısına

çıxsa, namazını poza bilməz. Gərək şəkk tam öz yerini tutana qədər fikirləşsin, sonra .namazı pozsun

ETİNA OLUNMAYAN ŞƏKLƏR

Point

:Məsələ: ١١٧۶. Etina olunmamalı şəklər aşağıdakılardan ibarətdir

Yerinə yetirilmə məhəlli keçmiş olan şeylərdəki şəkk; məsələn, təşəhhüdə səcdəni .١ .edib-etməməsində şəkk etsə

.Salamdan sonrakı şəkk .٢

.Namazın vaxtı keçəndən sonrakı şəkk .٣

.Kəsirüş-şəkk, yəni çox şəkk edən şəxsin şəkki .۴

İmam-cəmaət, namazın rəkətlərinin sayında etdiyi şəkk. Əgər məmum, onların .۵ sayını bilirsə. Həmçinin, məmumun namazının rəkətlərinin sayında etdiyi şəkk; əgər ;imam onların sayını bilirsə

.Müstəhəb namazındakı şəkk .۶

YERİNƏ YETİRMƏ MƏHƏLLİ KEÇMİŞ OLAN ŞEYLƏRDƏKİ ŞƏKK–١

Məsələ: ١١٧٧. Əgər bir şəxs namaz əsnasında onun vacibi əməllərindən birini yerinə yetirib-yetirməməsində; məsələn, həmdi oxuyub-oxumamasında şəkk etsə, bu halda ondan sonra yerinə yetirilməli olan əmələ başlamamış olsa, şəkk etdiyi hissəni yerinə yetirməlidir. Amma ondan sonra yerinə yetirilməli olan işə məşğul olsa, öz şəkkinə .etina etməməlidir

Məsələ: ١١٧٨. Əgər hər hansı ayəni oxuyanda, ondan qabaqkı ayəni oxuyub-oxumamasında şəkk etsə, yaxud ayənin axırını oxuyanda onun əvvəlini oxuyub-.oxumamasında şəkk etsə, öz şəkkinə etina etməməlidir

Məsələ: ١١٧٩. Əgər rüku, yaxud səcdədən sonra onun vacibi işlərini (zikr, bədənin aram

.olması kimi) yerinə yetirib-yetirməməsində şəkk etsə, öz şəkkinə etina etməməlidir

Məsələ: ۱۱۸۰. Əgər səcdəyə gedən halda rüku edib-etməməsində, yaxud rükudan sonra ayağa qalxıb-qalxmamasında şəkk etsə, öz şəkkinə etina etməməlidir.

Məsələ: ۱۱۸۱. Əgər ayağa qalxan halda səcdəni yerinə yetirib yetirməməsində şəkk etsə, qaydıb səcdəni yerinə yetirməlidir. Əgər ayağa qalxan halda təşəhhüdü deyib-deməməsində şəkk etsə, öz şəkkinə etina etməməlidir.

Məsələ: ۱۱۸۲. Oturan, yaxud uzanan halda namaz qılan bir şəxs, həmdi, yaxud təsbihatı oxuyan vaxt səcdə və ya təşəhhüdü yerinə yetirib-yetirməməsində şəkk etsə, öz şəkkinə etina etməməlidir. Əgər həmd və ya təsbihatı oxumamışdan qabaq səcdə və ya təşəhhüdü yerinə yetirib-yetirməməsində şəkk etsə, ehtiyat-vacib budur ki, onları mütləq qürbət qəsdi ilə yerinə yetirsin.

Məsələ: ۱۱۸۳. Əgər namazın rüknlərindən hər hansı birini yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı işə başlamayıbsa, onu yerinə yetirməlidir; məsələn, əgər təşəhhüdü yerinə yetirməmişdən qabaq, iki səcdəni edib-etməməsində şəkk etsə, gərək yerinə yetirsin. Amma sonradan yerinə yetirmiş olduğu məlum olsa, rükn artıq olduğuna görə, namazı batildir.

Məsələ: ۱۱۸۴. Əgər rükn olmayan bir əməli yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı işə məşğul olmayıbsa, onu yerinə yetirməlidir; məsələn: əgər surəni oxumamışdan qabaq, həmdi oxuyub-oxumasında şəkk etsə, həmdi oxumalıdır. Əgər surəni oxuyandan sonra, yerinə yetirmiş olduğu məlum olarsa, rükn artıq olmadığı üçün, namaz səhihdir.

Məsələ: ۱۱۸۵. Əgər hər hansı rüknü yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda təşəhhüdə məşğuldursa və iki səcdəni yerinə yetitirib-yetirməməsində şəkk etsə, öz şəkkinə etina etməməlidir. Amma, o rüknü yerinə yetirmədiyi yadına düşsə, bu halda sonrakı rüknə başlamayıbsa onu yerinə yetirməldir; əgər sonrakı rüknə başlayıbsa, namazı batildir; məsələn: rükudan

qabaq, əvvəlki iki səcdəni yerinə yetirmədiyi yadına düşsə, onu yerinə yetirməlidir. .Amma rükuda, yaxud ondan sonra yadına düşsə, namazı batildir

Məsələ: ۱۱۸۶. Əgər rükn olmayan bir əməli yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı əmələ başlayıbsa öz şəkkinə etina etməməlidir; məsələn: surəni oxuyanda həmdi oxuyub-oxumamasında şəkk etsə, öz şəkkinə etina etməməlidir. Əgər sonradan onu yerinə yetirmədiyi yadına düşsə, sonrakı rüknə başlamayıbsa, yerinə yetirməlidir. Amma rüknə başlamış olsa, namazı səhihdir. Misal üçün; qunutda həmdi oxumadığı yadına düşsə, gərək oxusun. Əgər rükuda yadına .düşsə, namazı səhihdir

Məsələ: ۱۱۸۷. Əgər namazın salamını düz deyib-deməməsində şəkk etsə, hər bir halda olsa öz şəkkinə etina etməsin. Əgər salamı deyib-deməməsində şəkk etsə namazın təqibatına, yaxud başqa bir namaza başlayıbsa, yaxud namazın surətini pozan işlə məşğul olmaqla namaz halından çıxsa, öz şəkkinə etina etməməlidir. Amma bu kimi .işlərdən əvvəl şəkk etsə, salamı deməlidir

SALAMDAN SONRAKI ŞƏKK–۲

Məsələ: ۱۱۸۸. Əgər salamlardan sonra namazın səhih olub-olmamasında şəkk etsə; məsələn, rüku edib-etməməsində şəkk etsə, yaxud dörd rəkətli namazın salamından sonra dörd rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə, öz şəkkinə etina etməməlidir. Amma şəkkinin hər iki tərəfi batil olsa; məsələn, dörd rəkətli namazın salamından .sonra üç rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə namazı batildir

VAXTI KEÇƏNDƏN SONRAKI ŞƏKK–۳

Məsələ: ۱۱۸۹. Əgər bir şəxs, namazın vaxtı keçəndən sonra namaz qılıb-qılmamasında şəkk etsə, yaxud qılmadığını güman etsə, onu qılmaq lazım deyil. Amma vaxtı keçməmişdən qabaq namaz qılıb-qılmamasında şəkk etsə, yaxud qılmadığını güman

.etsə, o namazı qılmalıdır. Hətta, əgər qıldığını güman etsə də, gərək yenidən qılsın

Məsələ: ۱۱۹۰. Əgər namazın vaxtı keçəndən sonra onu düzgün qılıb-qılmamasında şəkk etsə, öz şəkkinə etina etməməlidir.

Məsələ: ۱۲۹۱. Əgər zöhr və əsr namazının vaxtı keçəndən sonra dörd rəkət namaz qılıb, lakin onu zöhr, yoxsa əsr niyyəti ilə qıldığını bilməzsə, ona vacib olan namazın qəzası niyyəti ilə bir dörd rəkətli namaz qılmalıdır.

Məsələ: ۱۱۹۲. Əgər məğrib və işa namazının vaxtı keçəndən sonra bir namaz qıldığnı bilsə, amma üç, yoxsa dörd rəkət qıldığını bilməsə, gərək məğrib və işa namazlarının qəzasını qılsın.

(KƏSİRÜŞ–ŞƏKK (ÇOX ŞƏKK EDƏN–۴

Məsələ: ۱۱۹۳. Əgər bir şəxs bir namazda üç dəfə, yaxud üç namazda ardıcıl olaraq; məsələn, sübh, zöhr və əsr namazında şəkk etsə, ona kəsirül-şəkk deyilir. Əgər onun çox şəkk etməsi qəzəb, qorxu, halının pərişan olması səbəbi ilə olmazsa, öz şəkkinə etina etməməlidir.

Məsələ: ۱۱۹۴. Çox şəkk edən şəxs, əgər bir şeyi yerinə yetirməsində şəkk etsə, bir halda ki, onu yerinə yetirmək namazı batil etməzsə, gərək (niyyətində), onu yerinə yetirmiş olduğu qərarına gəlsin; məsələn, əgər rüku edib-etməməsində şəkk etsə, gərək (niyyətində), rükunu yerinə yetirməsini qərarlaşdırsın. Amma onu yerinə yetirmək namazı batil edərsə, gərək onu yerinə yetirməmiş olduğu qərarına gəlsin; məsələn, bir yaxud birdən artıq rüku etməsində şəkk etsə, rükunun artıq olması namazı batil etdiyi üçün, gərək birdən artıq rüku etməməsi qərarına gəlsin.

Məsələ: ۱۱۹۵. Namazın bir əməlində çox şəkk edən şəxs, onun başqa hissələrində də şəkk etsə, onun göstərişinə uyğun olaraq əməl etsin; məsələn, səcdə edib-etməməsində çox şəkk edən bir şəxs, rükunu yerinə yetirib-yetirməməsində şəkk etsə, onun göstərişinə müvafiq əməl etməlidir. Yəni, əgər ayaq üstədirsə,

.rükunu yerinə yetirsin, səcdəyə gedibsə, şəkkinə etina etməsin

Məsələ: ۱۱۹۶. Məxsusi namazda; məsələn, zöhr namazında çox şəkk edən bir şəxs, başqa namazda da; məsələn, əsr namazında şəkk etsə, öz şəkkinin göstərişinə .müvafiq olaraq əməl etsin

Məsələ: ۱۱۹۷. Əgər bir şəxs xüsusi bir yerdə namaz qılanda çox şəkk edirsə, ordan qeyri yerdə namaz qılanda şəkk yaranırsa, öz şəkkinin göstərişinə uyğun olaraq əməl .etsin

Məsələ: ۱۱۹۸. Əgər insan, kəsirüş-şəkk olub-olmamasında şəkk etsə, gərək şəkkin hökmünə əməl etsin. Kəsirüş-şəkk, camaatın adi halına qayıtmasına yəqin .etməyənədək, gərək öz şəkkinə etina etməsin

Məsələ: ۱۱۹۹. Çox şəkk edən şəxs, müəyyən rüknü yerinə yetirib-yetirməməsində şəkk edib etina etməsə və sonradan onu yerinə yetirmədiyi məlum olsa, bu halda sonrakı rüknə daxil olmayıbsa, onu yerinə yetirməlidi. Əgər sonrakı rüknə başlayıbsa, namazı batildir; məsələn, əgər rüku edib-etməməsində şəkk edib etina etməsə və ikinci səcdədən əvvəl etmədiyini xatırlasa, gərək rüku etsin və ehtiyat-müstəhəb budur ki, .namazı yenidən qılsın. Əgər ikinci səcdədə yadına düşsə, namazı batildir

Məsələ: ۱۲۰۰. Çox şəkk edən insan rükn olmayan bir şeyi yerinə yetirib-yetirməməsində şəkk etsə və öz şəkkinə etina etməyib sonradan yerinə yetirməməsi məlum olsa, bu halda onun yerinə yetirilməsi məhəlli keçməyibsə, yerinə yetirməlidir. Əgər məhəllindən keçibsə, namazı səhihdir; məsələn: əgər Həmdi oxyub-oxumamasında şəkk edib etina etməsə və qunutda oxumadığı yadına düşsə, Həmdi .oxumalıdır. Əgər rükuda yadına düşsə namazı səhihdir

İMAM VƏ MƏMUMUN ŞƏKKİ-۵

Məsələ: ۱۲۰۱. Əgər camaat namazının imamı, namazın rəkətlərinin sayında şəkk etsə; məsələn: üç və ya dörd rəkət qılmasında şəkk etsə, bu halda məmum dörd rəkət .qıldığını yəqin, yaxud güman edib imama başa salsa, imam namazı qurtarmalıdır

Ehtiyat namazı da qılmaq lazım deyil. Həmçinin, əgər imam neçə rəkət qıldığın yəqin, yaxud gümanla bilsə, məmum da rəkətlərin sayında şəkk etsə, öz şəkkinə etina .etməməlidir

MÜSTƏHƏB NAMAZDAKI ŞƏKK–۶

Məsələ: ۱۲۰۲. Əgər bir şəxs müstəhəb namazların rəkətlərinin sayında şəkk etsə, bu halda şəkkin çox tərəfi namazı batil edirsə, niyyəti az tərəfə qoymalıdır; məsələn: əgər sübh namazının nafiləsində, iki rəkətlə üç rəkət arasında şəkk etsə, niyyəti iki rəkət qıldığına qoymalıdır. Amma şəkkin çox tərəfi namazı batil etmirsə; məsələn, iki rəkətlə .bir rəkət arasında şəkk etsə) şəkkin hər tərəfinə əməl etsə səhihdir

Məsələ: ۱۲۰۳. Rüknün az olması, nafilə namazını batil edir. Amma artıq olması batil etmir. Deməli, əgər nafilənin işlərindən hər hansı birini unutsa və sonrakı rüknə başladığı vaxt yadına düşsə, o işi yerinə yetirib yenidən həmin rüknü yerinə yetirməlidir; məsələn, əgər rükuda surəni oxumadığı yadına düşsə, qayıdıb surəni .oxumalı, yenidən rükuya getməlidir

Məsələ: ۱۲۰۴. Əgər nafilə namazının işlərinin hər hansı birində şəkk etsə, istər rükn olsun, istərsə də qeyri-rükn, əgər məhəlli keçməyibsə, yerinə yetirməlidir. Əgər .məhəlli keçibsə öz şəkkinə etina etməməlidir

Məsələ: ۱۲۰۵. Əgər iki rəkətli müstəhəb namazda gümanı üç rəkətə, yaxud daha artığa getsə, gərək etina etməsin və namazı səhihdir. Əgər iki rəkətə və az tərəfə getsə, həmin gümana əməl etsin; məsələn, əgər gümanı bir rəkətə gedirsə, ehtiyat-vacibə .görə, gərək bir rəkət də qılsın

Məsələ: ۱۲۰۶. Əgər nafilə namazında səcdeyi-səhvin vacib olduğu bir iş etsə, yaxud bir səcdəni və ya bir təşəhüdü unutsa, namazdan sonra səcdeyi-səhv, yaxud səcdə və .təşəhüdün qəzasını etməsi lazım deyil

Məsələ: ۱۲۰۷. Bir şəxs müstəhəb namazı qılıb-qılmamasında şəkk etsə, bu halda o namaz “Cəfəri-təyyar” namazı kimi vaxtı

müəyyən olmayan namazlardan olsa, qılmadığını niyyət etməlidir. Həmçinin, əgər gündəlik namazların nafiləsi kimi vaxtı müəyyən olsa və vaxtının keçməsindən əvvəl, yerinə yetirib-yetirməməsində şəkk etsə, (də eyni qayda ilə). Amma vaxtı keçəndən .sonra şəkk etsə, şəkkinə etina etməməlidir

SƏHİH ŞƏKKLƏR

Məsələ: ١٢٠٨. Doqquz halda əgər namaz qılan şəxs, dörd rəkətli namazın rəkətlərinin sayında şəkk etsə, ehtiyat-vacib budur ki, tez fikirləşsin; əgər şəkkin bir tərəfinə yəqin və ya güman hasil olsa, həmin tərəfi əsas tutub namazı qurtarmalıdır. Əks halda isə, :deyiləcək göstərişlərə əməl etməlidir. Bu doqquz hal aşağıdakılardan ibarətdir

İkinci səcdənin vacib zikri tamam olandan sonra, iki rəkətlə üç rəkət arasında şəkk-١ etsə; bu halda niyyəti üç rəkətə qoyub bir rəkət də qılaraq namazı tamamlamalı, namazdan sonra ehtiyat-vacibə görə bir rəkət ayaq üstə, ehtiyat namazı qılmalıdır. Ehtiyat edib namazı yenidən qılsın. Əgər ikinci səcdədən baş qaldırdıqdan sonra şəkk .etsə namazı yenidən qılmaq lazım deyil

İki rəkətlə dörd rəkət arasında, ikinci səcdədən başını qaldırdıqdan sonra şəkk etsə;-٢ bu halda niyyəti dörd rəkətə qoyub namazı tamamlamalı, namazdan sonra ayaq üstə .iki rəkət ehtiyat namazı ayaq üstə qılmalıdır

İkinci səcdədən başını qaldırdıqdan sonra iki, üç və dörd rəkət arasında şəkk etsə;-٣ bu halda niyyəti dördə qoyub namazı tamamlamalı, sonra iki rəkət ayaq üstə və iki .rəkət oturan halda ehtiyat namazı qılmalıdır

İkinci səcdədən başını qaldırdıqdan sonra dörd rəkətlə beş rəkət arasında şəkk-٤ etsə; bu halda niyyəti dördə qoyub namazı tamamlamalı, namazdan sonra iki səcdeyi-.səhv etməlidir

Üç rəkətlə dörd rəkət arasında olan şəkk; bu şəkk, namazın hər yerində olsa, niyyəti-٥ dördə qoyub namazı qurtarmalı, sonra isə

bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır. Ehtiyat-
.müstəhəb budur ki, iki rəkət oturan halda olana əməl etsin

Ayaq üstə olanda, dörd rəkətlə beş rəkət arasında olan şəkk; bu halda yerə oturub-۶ təşəhüdü, salamları deyib, bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat
.namazı qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, iki rəkət oturan halda olana əməl etsin

Ayaq üstə olanda üç rəkətlə beş rəkət arasındakı şəkk; bu halda yerə oturub-۷ namazın təşəhüd və salamı deyib, sonra namazı qurtarmalı; ayaq üstə iki rəkət
.ehtiyat namazı qılmalıdır

Ayaq üstə olanda üç, dörd, beşinci rəkətlər arasındakı şəkk. Bu halda yerə oturub-۸ təşəhüd və salamı deməli, iki rəkət ayaq üstə, sonra isə iki rəkət oturan halda ehtiyat
.namazı qılmalıdır

Ayaq üstə olanda, beşinci rəkətlə altıncı rəkətdəki şəkk; bu halda yerə oturmalı,-۹ təşəhhüd və salamları deyib namazı qurtarmalı, sonra isə iki səcdeyi-səhv yerinə
.yetirməlidir

Məsələ: ۱۲۰۹. Əgər səhih şəklərdən biri, insanın qarşısına çıxsa, namazı pozmamalıdır; əgər pozsa, günah etmişdir. Deməli, əgər namazı batil edən işlərdən birini etməzdən qabaq (üzü, qiblədən döndərmək kimi) namazı yenidən başlasa, ikinci namazı da batildir. Amma namazı batil edən işlərdən birini etdikdən sonra namaza başlasa, ikinci
.namazı səhihdir

Məsələ: ۱۲۱۰. Əgər ehtiyat namazı vacib olan şəklərdən biri, namaz əsnasında qarşıya çıxsa, bu halda insan namazı qurtarsa və ehtiyat namazı qılmayaraq, namazı yenidən başlasa, günah etmişdir. Amma namazı batil edən işlərdən birini görmədən namazı başlasa, ikinci namazı da batildir. Əgər namazı batil edən işləri etdikdən sonra, ikinci
.namaza başlasa, ikinci namazı səhihdir

Məsələ: ۱۲۱۱. Əgər səhih şəklərdən hər hansı biri insanın qarşısına çıxsa, (qeyd olunduğu kimi,) dərhal fikirləşməlidir; əgər iki tərəfdən birinə yəqin və ya güman hasil
;etməsi üçün bir vasitə mövcud olmasa və ondan azacıq sonra fikirləşsə, eybi yoxdur

məsələn: əgər səcdədə şəkk etsə, fikirləşməyi səcdədən sonraya qədər təxirə sala .bilər

Məsələ: ١٢١٢. Əgər əvvəldə gümanı iki tərəfdən birinə çox olsa, sonra isə hər iki tərəfə bərabərləşsə, şəkkin göstərişinə əməl etməlidir. Əgər şəkk əvvəldə hər iki tərəfə bərabər olsa və niyyəti vəzifəli olduğu tərəfə qoysa, sonradan gümanı başqa tərəfə .getsə, həmin tərəfi əsas götürüb namazı tamamlamalıdır

Məsələ: ١٢١٣. Gümanın bir tərəfə artıq olduğunu, yaxud hər iki tərəfə bərabər .olduğunu bilməyən şəxs, gərək şəkkin göstərişinə əməl etsin

Məsələ: ١٢١۴. Əgər namazdan sonra, namaz əsnasında tərəddüddə olduğunu başa düşsə; məsələn, iki rəkət, yaxud üç rəkət qılmasında tərəddüddə olub və niyyəti üç rəkətə qoyubsa, amma bu niyyətin üç rəkət qılmağa güman üzündən ya hər iki tərəf onun nəzərində bərabər olması əsasında olduğunu bilməsə, gərək ehtiyat-vacibə .görə ehtiyat namazı qılsın

Məsələ: ١٢١۵. Əgər təşəhhüd oxuyan vaxtda, yaxud ayağa qalxandan sonra iki səcdəni yerinə yetirib-yetirməməsində şəkk etsə və həmin vaxt iki səcdənin tamam olmasından sonra baş verəndə səhih olan şəkklər irəli gəlsə; məsələn, iki rəkətlə üç .rəkət arasında şəkk etsə, o şəkkin göstərişinə əsasən əməl etsin, namazı səhihdir

Məsələ: ١٢١۶. Əgər təşəhhüdə başlamamışdan, yaxud təşəhhüdü olmayan rəkətlərdə ayağa qalxmamışdan əvvəl, iki səcdəni yerinə yetirməsində şəkk etsə və həmin vaxt iki səcdənin tamam olmasından sonra səhih olan şəkklərdən biri baş versə, namazı .batildir

Məsələ: ١٢١٧. Əgər ayaq üstə olan halda üçlə dörd, yaxud üç, dörd və beş rəkət arasında şəkk etsə və əvvəlki rəkətin iki səcdəsini yerinə yetirmədiyi yadına düşsə, .namazı batildir

Məsələ: ١٢١٨. Əgər insanın şəkki aradan getsə, amma başqa bir şəkk yaransa, (məsələn, əvvəl iki rəkətlə üç rəkət arasında şəkk etsə, sonra isə üçlə dörd arasında şəkk etsə), ikinci şəkkin

.göstərişinə əməl etməlidir

Məsələ: ١٢١٩. Əgər namazdan sonra, namaz vaxtı; məsələn, iki ilə dörd arasında, yoxsa üç ilə dörd arasında şəkk etdiyində şəkk etsə, ehtiyat-vacib budur ki, hər ikisinin .göstərişinə əməl etsin, namazı da yenidən qılsın

Məsələ: ١٢٢٠. Əgər namazdan sonra, namaz əsnasında şəkk irəli gəldiyini bilsə, amma batil şəkklərdən, yoxsa səhih şəkklərdən olmasını bilməsə; Həmçinin, səhih şəkklərdən olmuşsa, hansı qismdən olmasını bilməsə, gərək iki rəkət ehtiyat namazı .ayaq üstə və iki rəkət ehtiyat namazı oturduğu yerdə qılıb, iki səcdeyi-səhv etməlidir

Məsələ: ١٢٢١. Oturan halda namaz qılan bir şəxsə, bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmasına səbəb olan bir şəkk baş versə, gərək iki rəkət oturan halda qılsın. İki rəkət ayaq üstə ehtiyat namazı qılmalı olan bir şəkk qarşıya .çıxsa, iki rəkət oturan halda qılmalıdır

Məsələ: ١٢٢٢. Ayaq üstə namaz qılan bir şəxs, ehtiyat namazı qılındığı halda ayaq üstə dura bilməsə, namazı oturan halda qılan şəxslər kimi (hökmü əvvəlki məsələdə deyildi) .ehtiyat namazını qılmalıdır

Məsələ: ١٢٢٣. Oturan halda namaz qılan bir şəxs, ehtiyat namazı qılan zaman ayaq üstə dura bilsə, gərək namazı, ayaq üstə qılan şəxslərin vəzifəsinə əməl edərək yerinə .yetirsin. Bu üç məsələdə ehtiyat-müstəhəb budur ki, namazı yenidən qılsın

EHTİYAT NAMAZI

Məsələ: ١٢٢٤. Ehtiyat namazı vacib olan bir şəxs, namazın salamından sonra dərhal ehtiyat namazı niyyəti edib təkbir deməli, həmdi oxuyub rüku və səcdəni etməlidir. Əgər bir rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra təşəhhüdü oxumalı, salamları deməlidir. İki rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra bir rəkət də (əvvəlki kimi) qılıb sonra təşəhhüdü

.və salamları deməlidir

Məsələ: ۱۲۲۵. Ehtiyat namazının surəsi və qunutu yoxdur və ahəstə qılınmalıdır. Niyyəti .də dildə deyilməməlidir. Ehtiyat-vacib budur ki, bismillahı da ahəstə deyilsin

Məsələ: ۱۲۲۶. Əgər ehtiyat namazını qılmamışdan qabaq qıldığı namazın səhih olduğunu başa düşsə, ehtiyat namazı qılması lazım deyilı. Əgər ehtiyat namazı .əsnasında başa düşsə, onu tamamlaması lazım deyil

Məsələ: ۱۲۲۷. Əgər ehtiyat namazı qılmamışdan qabaq namazının rəkətinin az olduğunu başa düşsə, bu halda namazı batil edən işlərdən görməyibsə, qılmadıqlarını qılmalı, yersiz salam dediyinə görə, iki səcdeyi-səhv etməlidir. Amma namazı batil .edən işlərdən görübsə; məsələn, arxasını qibləyə çeviribsə namazı yenidən qılmalıdır

Məsələ: ۱۲۲۸. Əgər ehtiyat namazından sonra, namazının kəsirinin ehtiyat namazı qədər olduğunu bilsə; məsələn: üçlə dörd arasında şəkk edib bir rəkət ehtiyat namazı .qılsa və sonradan namazını üç rəkət qıldığını başa düşsə namazı səhihdir

Məsələ: ۱۲۲۹. Əgər ehtiyat namazını qıldıqdan sonra namazının kəsirinin ehtiyat namazından az olduğunu bilsə; məsələn, iki ilə dörd arasında şəkk edib iki rəkət .ehtiyat namazı qılsa və sonra namazı üç rəkət qıldığını bilsə namazı yenidən qılmalıdır

Məsələ: ۱۲۳۰. Əgər ehtiyat namazı qılandan sonra namazın kəsirinin ehtiyat namazından artıq olduğunu bilsə; məsələn, üçlə dörd rəkət arasındakı şəkkdə, bir rəkət ehtiyat namazı qılıb sonradan namazın iki rəkət qıldığını bilsə, bu halda ehtiyat namazından sonra namazı batil edən işlərdən görmüş olsa; məsələn, arxası qibləyə dönmüş olsa namazı yenidən qılmalıdır. Əgər namazı batil edən işlərdən görməyibsə, namazın iki rəkət kəsirini yerinə yetirməli, ehtiyat-vacibə görə namazı da yenidən .qılmalıdır

Məsələ: ۱۲۳۱. Əgər iki, üç, dörd arasında şəkk edib iki rəkət

ayaq üstə ehtiyat namazı qılandan sonra, namazı iki rəkət qıldığını başa düşsə, iki .rəkət oturan halda ehtiyat namazı qılması lazım deyil

Məsələ: ١٢٣٢. Əgər üç və dördün arasında şəkk etsə, iki rəkət oturduğu yerdə ehtiyat namazı qıldığı zaman, üç rəkət qıldığını xatırlasa, əgər rükudan qabaq olsa gərək ehtiyat namazını pozub çatışmayan bir rəkəti qılsın, namazın salamını artıq oxuduğuna görə iki səcdeyi-səhv etsin. Ehtiyat-vacib budur ki, namazı yenidən qılsın. Əgər ehtiyat namazı ayaq üstə olsa onu tamamlasın. Ehtiyat-vacibə görə, namazını da yenidən .qılsın

Məsələ: ١٢٣٣. İki, üç, dörd rəkət arasında şəkk etsə və iki rəkət ayaq üstə ehtiyat namazı qılan vaxt, ikinci rəkətin rükusuna getməzdən qabaq namazı üç rəkət qıldığını bilsə, gərək otursun və namazı tamamlasın, namazın salamını artıq deiyi üçün iki .səcdeyi-səhv etsin. Ehtiyat-vacibə görə, namazını da yenidən qılmalıdır

Məsələ: ١٢٣٤. Əgər ehtiyat namazı əsnasında namazın işlərinin ehtiyat namazından az, yaxud çox olduğunu başa düşsə, bu halda ehtiyat namazını, namazın kəsirinə müvafiq tamam edə bilməsə, onu pozub namazının kəsirini yerinə yetirməlidir, məsələn, əgər üçlə dörd arasındakı şəkkdə, iki rəkət oturan halda ehtiyat namazı qılan vaxt, namazını iki rəkət qıldığını başa düşsə, iki rəkət oturan haldakı namaz, iki rəkət ayaq üstə olan namaz hesab edilə bilmədiyinə görə, oturan halda ehtiyat namazını boşlayıb iki rəkət namazının kəsirini qılmalıdır. Namaza yersiz salam verdiyinə görə iki səcdeyi-səhv .etsin. Ehtiyat-vacib budur ki, namazını da yenidən qılsın

Məsələ: ١٢٣٥. Əgər vacib olan ehtiyat namazını yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda namazın vaxtı keçibsə, öz şəkkinə etina etməməlidir. Amma vaxtı olsa, başqa işə başlamayıbsa və namaz yerindən qalxmayıbsa, həmçinin, namazı batil edən işlərdən qiblədən dönmək kimi etməyibsə ehtiyat namazını qılmalıdır. Əgər başqa işə məşğuldursa, və ya namazla şəkk arasında çox vaxt keçibsə, ehtiyat-vacib budur ki, ehtiyat

namazını yerinə yetirib, namazı da yenidən qılsın. Əgər namazı batil edən işlərdən .birini edibsə gərək namazı yenidən qılsın

Məsələ: ۱۲۳۶. Əgər ehtiyat namazında hər hansı rüknü artırsa, yaxud misal üçün, bir rəkət əvəzinə iki rəkət qılsa, ehtiyat namazı batildir. Bu halda namazın özünü və .ehtiyat namazını yenidən qılmalıdır

Məsələ: ۱۲۳۷. Ehtiyat namazını qılmağa məşğul olan vaxt, onun işlərindən hər hansı birində şəkk etsə, bu halda onun məhəlli keçməyibsə, yerinə yetirməlidir. Amma məhəlli keçmiş olarsa, gərək öz şəkkinə etina etməsin; məsələn, rükuya getməmişdən əvvəl həmdi oxuyub-oxumamasında şəkk etsə, onu oxumalıdır. Amma rükuya .gedibsə, öz şəkkinə etina etməməlidir

Məsələ: ۱۲۳۸. Əgər ehtiyat namazının rəkətlərinin sayında şəkk etsə, bir halda ki, şəkkin çoxu namazı batil olması tərəfədirsə, gərək niyyəti aza qoysun. Amma şəkkin çoxu namazı batil edən tərəfə olmasa, gərək niyyəti çoxa qoysun. Misal olaraq; iki rəkət ehityat namazına məşğul olarkən, iki və ya üç rəkət qılmasında şəkk edərsə, şəkkin çox tərəfi namazı batil etdiyi üçün, gərək niyyətində iki rəkət namaz qıldığını qəbul etsin. Əgər bir və ya iki rəkət qılmasında şəkk etsə, şəkkin çox tərəfi namazı batil etmədiyi üçün, gərək niyyəti qoysun ki, iki rəkət qılmışdır. Ehtiyat-vacib budur ki, .namazın özünü və ehtiyat namazını yenidən qılsın

Məsələ: ۱۲۳۹. Əgər ehtiyat namazında rükn olmayan bir şeyi səhvən artırıb-azaltsa, .ehtiyat-vacib budur ki, iki səcdeyi-səhv etsin

Məsələ: ۱۲۴۰. Əgər ehtiyat namazının salamından sonra onun hissələrini, yaxud .şərtlərini yerinə yetirib-yetirməməsində şəkk etsə, öz şəkkinə etina etməməlidir

Məsələ: ۱۲۴۱. Əgər ehtiyat namazında təşəhhüdü və yaxud bir səcdəni unutsa, .ehtiyatən salamdan sonra onu qəza etsin

Məsələ: ۱۲۴۲. Əgər bir şəxsə ehtiyat namazı və bir səcdənin, yaxud bir təşəhhüdün ,qəzası, yaxud iki səcdeyi-səhv vacib olsa

.gərək əvvəl ehtiyat namazını qılsın

Məsələ: ١٢٤٣. Gümanın hökmü namazın rəkətlərin sayında yəqinin hökmü kimidir; məsələn, əgər insan dörd rəkətli namazda namazı dörd rəkət qılmasını güman etsə, ehtiyat namazı qılmamalıdır. Gümanın hökmü namazın işlərində də yəqinin hökmü kimidir; məsələn, bir əməli etməsinə güman etsə, gərək namazı tamamlasın, ehtiyat-müstəhəbə görə, namazı yenidən qılsın; əgər məhəlli keçəndən sonra, bir əməli etməməsinə güman etsə, gərək qayıdıb o əməli yerinə yetirsin, ehtiyat-müstəhəbə .görə, namazı yenidən qılsın

Məsələ: ١٢٤٤. Şəkk, səhv və gümanın hökmünün gündəlik vacib namazlarında və s. vacibi namazlarda heç bir fərqi yoxdur; məsələn, əgər ayət namazında bir rəkətlə iki rəkət arasında şəkk etsə, iki rəkətli namazda şəkk batil olduğundan, onun namazı .batildir

SƏCDEYİ-SƏHV

Point

Məsələ: ١٢٤٥. Beş şey üçün, namazın salamından sonra (qaydası sonradan deyiləcək :göstərişə əsasən) iki səcdeyi-səhv yerinə yetirilməlidir

;Namaz əsnasında səhvən danışsa-١

Namazın salamını verməli olmadığı yerdə; məsələn, birinci rəkətdə səhvən salam-٢ ;desə

;Bir səcdəni unutsa-٣

;Təşəhüdü unutsa-٤

Dörd rəkətli namazın ikinci rəkətindən sonra dörd rəkətlə beş rəkət arasında şəkk-٥ etsə və ya durmalı yerdə otursa; məsələn, həmd və surə oxumalı yerdə səhvən otursa və ya təşəhüd kimi oturması gərəkli olduğu yerdə, səhvən dursa, ehtiyat-vacibə görə, gərək iki səcdeyi-səhv yerinə yetirməlidir. Ehtiyat-vacib budur ki, namazda hər əməlin səhvən azalıb çoxalması üçün iki səcdeyi-səhv yerinə yetirsin. Bu neçə məsələnin

hökmləri, gələn

səh: ۲۴۱

.məsələlərdə deyiləcək

Məsələ: ١٢٤۶. Əgər insan səhvən, yaxud namazını tamam olmuş hesab edərək danışsa, .iki səcdeyi-səhv yerinə yetirməlidir

Məsələ: ١٢٤٧. Ah çəkmək və öskürmək səbəbilə yaranan bir hərf üçün, səcdeyi-səhv .vacib deyil. Amma məsələn, səhvən "ah" və ya "ax" desə, səcdeyi-səhv etməlidir

Məsələ: ١٢٤٨. Əgər səhv oxuduğu bir şeyi yenidən düzgün surətdə oxusa, səcdeyi-.səhv vacib deyil

Məsələ: ١٢٤٩. Əgər namazda səhvən bir müddət danışsa və onun hamısı bir dəfə hesab .olunsa, salamdan sonra iki səcdeyi-səhv kifayətdir

Məsələ: ١٢٥٠. Əgər səhvən təsbihati-ərbəəni deməsə və ya çox desə, ehtiyat-vacib .budur ki, namazdan sonra iki səcdeyi-səhv yerinə yetirsin

Məsələ: ١٢٥١. Əgər namazın salamını deməli olmadığı yerdə, səhvən "əssəlamu ələyna və əla ibadillahis-salihin", yaxud "əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh" desə, iki səcdeyi-səhv etməlidir. Əgər səhvən də bu iki salamın bir miqdarını desə, ehtiyat-vacibə görə iki səcdeyi-səhv etməlidir. Əgər "əssəlamu ələykə .əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh" desə, iki səcdeyi-səhv lazım deyil

Məsələ: ١٢٥٢. Əgər salam verməməli olduğu yerdə, səhvən hər üç salamı desə, iki .səcdeyi-səhv kifayətdir. Ehtiyat-müstəhəb budur ki, səcdə ilə salamı təkrar etsin

Məsələ: ١٢٥٣. Əgər bir səcdəni və ya təşəhhüdü unutsa və sonrakı rəkətin rükusuna çatmamışdan qabaq yadına düşsə, qayıdıb yerinə yetirməlidir və ehtiyat-vacibə görə, .namazdan sonra yersiz durduğu üçün iki səcdeyi-səhv etməlidir

Məsələ: ١٢٥٤. Əgər rükuda, yaxud ondan sonra, əvvəlki rəkətdən bir səcdəni, yaxud təşəhhüdü unutduğu yadına düşsə, namazın salamından sonra səcdəni və ya .təşəhhüdü qəza edib sonra iki səcdeyi-səhv etməlidir

Məsələ: ١٢٥٥. Əgər səcdeyi-səhvi namazın salamından sonra

qəsdən etməsə, günah etmişdir. Amma namazı batil olmur. Vacibdir ki, dərhal onu yerinə yetirsin. Əgər səhvən yerinə yetirməsə, hər vaxt yadına düşsə dərhal yerinə .yetirsin. Namazı yenidən qılmaq lazım deyil

Məsələ: ۱۲۵۶. Əgər səcdeyi-səhvin vacib olub-olmamasında şəkk etsə, yerinə .yetirməsi lazım deyil

Məsələ: ۱۲۵۷. Əgər insan, ona iki, yaxud dörd səcdeyi-səhv vacib olmasında şəkk etsə, .ikisi kifayətdir. Müstəhəbdir dörd səcdeyi-səhv yerinə yetirsin

Məsələ: ۱۲۵۸. Əgər iki səcdeyi-səhvdən birini yerinə yetirmədiyini bilsə, onda iki səcdeyi-səhv etməlidir. Əgər səhvən üç səcdə yerinə yetirdiyini bilsə, yenidən iki .səcdeyi-səhv etməlidir

SƏCDEYİ–SƏHVİN QAYDASI

Məsələ: ۱۲۵۹. Səcdeyi-səhvin qaydası budur ki, namazın salamından sonra dərhal səcdeyi-səhv niyyəti edib ehtiyat-vacibə görə alını səcdənin səhih olduğu şeyin üstünə :qoyub desin

بِسْمِ اللهِ وَبِاللهِ أَلسَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ

Bismillahi və billahi, əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və“ bərəkatuh” desin, sonra səcdədən qalxıb otursun, yenidən səcdəyə gedib qeyd olunan .zikri deyib otursun və təşəhhüdü oxuyandan sonra salamı desin

UNUDULMUŞ TƏŞƏHHÜD VƏ SƏCDƏNİN QAZASI

Məsələ: ۱۲۶۰. İnsanın unutduğu və namazdan sonra qəzasını yerinə yetirdiyi təşəhhüd və səcdədə, namazda olan bütün şərtlər bədən və paltarın pak olması, üzü qibləyə .olmaq və digər şərtlər olmalıdır

Məsələ: ۱۲۶۱. Əgər təşəhhüdü və səcdəni bir neçə dəfə unutsa; məsələn, bir səcdəni birinci rəkətdən, birini də ikinci rəkətdən

unutsa, gərək namazdan sonra hər birinin qəzasını, onlar üçün

lazım olan səcdeyi-səhv ilə birlikdə yerinə yetirsin. Hansının yerinə yetirdiyini müəyyən .etməsi lazım deyil, amma ehtiyat-müstəhəb budur ki, müəyyən etsin

Məsələ: ۱۲۶۲. Əgər bir səcdə və bir təşəhhüdü unudubsa, ehtiyat-vacibə görə hansını birinci unudubsa, əvvəlcə onun qəzasını yerinə yetirsin. Amma, hansını əvvəlcə unutduğunu bilməsə, ehtiyatən bir səcdə və bir təşəhhüd, sonra isə başqa bir səcdə yerinə yetirsin, yaxud bir təşəhhüd və bir səcdə, onların ardınca isə başqa bir təşəhhüd yerinə yetirsin ki, tərtibini unutduğu səcdə və təşəhhüdün qəzasını tərtiblə .yerinə yetirməsinə yəqin etsin

Məsələ: ۱۲۶۳. Əgər əvvəlcə səcdəni unutmasını fikrləşərək onun qəzasını yerinə yetirib təşəhhüdü oxuduqdan sonra, əvvəlcə təşəhhüdü unutduğunu bilsə, ehtiyat-vacib budur ki, yenidən səcdənin qəzasını etsin. Həmçinin, əgər əvvəlcə təşəhhüdü unutduğunu güman edərək əvvəlcə onun qəzasını yerinə yetirsə və səcdədən sonra, əvvəlcə səcdəni unutması yadına düşsə, ehtiyat-vacibə görə, yenidən təşəhhüd .oxumalıdır

Məsələ: ۱۲۶۴. Əgər namazın salamı ilə səcdə və ya təşəhhüdün qəzası arasında həm qəsdən, həm də səhvən baş verməsi namazı batil edən işlərdən birini görsə; məsələn, arxası qibləyə çevrilsə, ehtiyat-vacibə görə, səcdə və təşəhhüdün qəzasını yerinə .yetirdikdən sonra, namazı yenidən qılsın

Məsələ: ۱۲۶۵. Əgər namazın salamından sonra axrıncı rəkətin bir səcdəsini yaddan çıxardığını xatırlasa, bir halda ki, qiblədən üz çevirmək kimi, səhvən və ya bilərəkdən namazı batil edən əməllərdən yerinə yetirməsə, qəza səcdə niyyəti ilə səcdə etsin və iki səcdeyi-səhv yerinə yetirsin. Həmçinin, əgər axrıncı rəkətin təşəhhüdünü unutduğunu xatırlasa, bu niyyətlə ki, öz vəzifəsini yerinə yetirmişdir, təşəhhüdü .oxusun və ondan sonra salam versin və iki səcdeyi-səhv yerinə yetirsin

Məsələ: ۱۲۶۶. Əgər namazın salamı ilə səcdə və ya təşəhhüdün

qəzası arasında səcdeyi-səhvin vacib olduğu bir iş etsə; məsələn, səhvən danışsa, ehtiyat-vacibə görə, gərək səcdənin, yaxud təşəhhüdün qəzasını etsin. Səcdə və ya təşəhhüdün qəzası üçün etdiyi səcdeyi-səhvdən başqa, iki səcdeyi-səhvdə yerinə .yetirsin

Məsələ: ۱۲۶۷. Əgər təşəhhüd və səcdədən hansını unutduğunu bilməsə, hər ikisinin .qəzasını etməlidir. Hər birini əvvləcə yerinə yetirsə, eybi yoxdur

Məsələ: ۱۲۶۸. Əgər səcdəni, yaxud təşəhhüdü unudub-unutmamasında şəkk etsə, .qəza etməsi vacib deyil

Məsələ: ۱۲۶۹. Əgər səcdə və ya təşəhhüdü unutduğunu bilsə, amma sonrakı rəkətin .rükusundan əvvəl yerinə yetirib-yetirməməsində şəkk etsə, ehtiyatən onu qəza etsin

Məsələ: ۱۲۷۰. Səcdə və ya təşəhhüdü qəza etməli olan bir şəxs, əgər başqa bir iş üçündə səcdeyi-səhv ona vacib olarsa, gərək namazdan sonra səcdə və ya .təşəhhüdün qəzasını yerinə yetirsin və sonra səcdeyi-səhv yerinə yetirsin

Məsələ: ۱۲۷۱. Əgər namazdan sonra, unudulmuş səcdə və ya təşəhhüdün qəzasını edib-etməməsində şəkk etsə, bu halda əgər namazın vaxtı keçməyibsə, təşəhhüdün və ya səcdənin qəzasını etməlidir; əgər namazın vaxtı keçmiş olsa onun qəzası .müstəhəbdir

NAMAZIN HİSSƏLƏRİNİ VƏ ŞƏRTLƏRİNİ ARTIRIB–AZALTMAQ

Məsələ: ۱۲۷۲. Əgər namazın vacibatından bir şeyi qəsdən artırıb azaltsa, hətta bir hərf .olsa belə, namaz batildir

Məsələ: ۱۲۷۳. Əgər məsələni bilməməzlik üzündən namazın hissələrindən birini artırıb-azaltsa, namazı batildir. Amma məsələni bilməməzlik üzündən sübh, məğrib və işa namazlarının həmd və surəsini asta oxusa və ya zöhr və əsr namazlarının həmd və surəsini uca səslə oxusa və ya səfərdə zöhr, əsr və işa

.namazlarını dörd rəkətli oxusa, namazı səhihdir

Məsələ: ۱۲۷۴. Əgər namaz əsnasında dəstəmaz və ya qüslünun batil olduğunu, yaxud da dəstəmazsız və ya qüslsuz namaza başladığını başa düşsə, namazı pozub yenidən, dəstəmaz və ya qüsl alıb qılmalıdır. Əgər namazdan sonra başa düşsə, namazı .dəstəmaz və qüsllıə yenidən qılmalıdır. Əgər vaxt keçmiş olarsa, qəzasını etməlidir

Məsələ: ۱۲۷۵. Əgər rükuya çatandan sonra qabaqdakı rəkətin iki səcdəsini unutduğu yadına düşsə, namazı batildir. Amma rükudan əvvəl yadına düşsə, qayıdıb iki səcdəni etməli, sonra ayağa qalxıb həmdi və surəni yaxud da təsbihatı deyib namazı qurtarmalıdır. Namazdan sonra ehtiyat-vacibə görə, yersiz qalxdığına görə iki .səcdeyi-səhv etsin

Məsələ: ۱۲۷۶. Əgər "əssəlamu ələyna" və ya "əssəlamu ələykum" deməmişdən qabaq axırıncı rəkətin iki səcdəsini yerinə yetirmədiyi yadına düşsə, gərək iki səcdəni edib yenidən təşəhhüdü və salamları oxusun. Vacibdir təşəhüdün coxluğu üçün iki səcdeyi-.səhv etsin

Məsələ: ۱۲۷۷. Əgər namazın salamından qabaq, namazın axırından bir rəkət, yaxud .daha artıq qılmadığını başa düşsə, unutduğu qədəri yerinə yetirməlidir

Məsələ: ۱۲۷۸. Əgər salamdan sonra namazın axırından bir rəkət, yaxud daha çox qılmadığı yadına düşsə, əgər qəsdən və səhvən baş veribsə, namaz batil olur; məsələn, arxası qibləyə dönübsə namazı batildir. Amma namazı batil edə biləcək qəsd və səhv üzündən bir iş etməyibsə, gərək dərhal unutduğu hissəni yerinə yetiririb və .yersis dediyi salam üçün iki səcdeyi-səhv etsin

Məsələ: ۱۲۷۹. Əgər namazın salamından sonra namazı batil edə biləcək qəsd və səhv üzündən bir iş edibsə, namazı batildir; məsələn, arxası qibləyə dönüb sonra axırıncı iki səcdəni etmədiyi yadına düşsə, namazı batildir. Əgər namazı batil edən işlərdən etmədiyi halda yadına düşsə, ehtiyat-vacib budur ki, unutduğu iki səcdəsini, gərək yerinə yetirib yenidən namazın təşəhhüd, və

.salamını desin. Əvvəldə dediyi salam üçün iki səcdeyi-səhv etsin

.Ehtiyat-vacib budur ki, namazı yenidən qılsın

Məsələ: ۱۲۸۰. Əgər namazı, vaxt daxil olmamışdan qabaq, yaxud qiblənin əksinə, qılsa namazı batildir. Əgər qiblənin sağ və ya sol tərəfinə qılsa və vaxt daxilində başa düşsə .gərək yenidən qılsın. Əgər vaxtı keçibsə qəzasını etməməlidir

MÜSAFİRİN NAMAZI

Səfərə çıxan zöhr, əsr və işa namazını səkkiz şərt daxilində şikəstə, yəni iki rəkət :qılmalıdır

Onun səfəri səkkiz şəri fərsəxdən az olmasın. Hər bir şəri fərsəx, təqribən beş-۱ .kilometr yarım (۵.۵ km)-dır

Məsələ: ۱۲۸۱. Bir şəxs ki, onun gedib qayıtması səkkiz fərsəxdir, əgər bir gecə və gündüzdə gedib qayıda; məsələn: əgər gündüz gedə həmin gün və ya gecə qayıda, bir halda ki, onun getməsi dörd fərsəxdən az olmasa, gərək namazını şikəstə qılsın. Buna əsasən, əgər getməyi üç fərsəx və qayıtmağı beş fərsəx olarsa, gərək namazını .tamam, yəni dörd rəkət qılsın

Məsələ: ۱۲۸۲. Əgər gedib qayıtmaq səkkiz fərsəx olarsa, amma getdiyi gün və ya gecə qayıtmasa, misal olaraq; bu gün gedib sabah qayıtsa, gərək namazını şikəstə qılsın və .orucunu da tutmasın

Məsələ: ۱۲۸۳. Əgər bir şəxsin səfəri səkkiz fərsəxdən bir müxtəsər az olsa, yaxud səfərin səkkiz fərsəx olub-olmaması məlum olmasa, namazı şikəstə qılmamalıdır. .Əgər səfərin səkkiz fərsəx olub-olmamasında şəkk etsə, gərək namazını tamam qılsın

Məsələ: ۱۲۸۴. Əgər bir nəfər adil şəxs, səfərin səkkiz fərsəx olduğunu xəbər versə, və .onun dediyindən əminlik hasil olsa, gərək namazı şikəstə qılıb orucunu da tutmasın

Məsələ: ۱۲۸۵. Səfərinin səkkiz fərsəx olmasına yəqini olan bir şəxs, namazı şikəstə qılıb sonradan səkkiz fərsəx olmadığını başa düşsə, gərək onu dörd rəkətli qılsın; vaxtı .keçmişsə, qəzasını etsin

Məsələ: ۱۲۸۶. Müəyyən bir məqsədi onan şəxs, səfərinin

səkkiz fərsəx olmamasına yəqin edən, yaxud o qədər olub-olmamasında şəkk edən bir şəxs, yolda səfərinin səkkiz fərsəx olmasını anlasa, hətta yolun az bir hissəsi qalmış .olsa da, namazı şikəstə qılmalıdır. Əgər bütöv qılmış olsa, yenidən şikəstə qılmaldır

Məsələ: ۱۲۸۷. Əgər aralarındakı fasilə dörd fərsəxdən az olan iki yer arasında bir neçə dəfə gedib-gəlsə, üst-üstə səkkiz fərsəx olmasına baxmayaraq, gərək namazı bütöv .qılsın

Məsələ: ۱۲۸۸. Əgər bir məntəqəyə iki yol olsa və onlardan biri səkkiz fərsəxdən az, digəri isə səkkiz fərsəx, yaxud ondan çox olsa, bu halda bir şəxs həmin yerə səkkiz fərsəx olan yolla getsə, gərək namazı şikəstə qılsın. Amma səkkiz fərsəx olamayan .yolla getsə, namazı bütöv qılmalıdır

Məsələ: ۱۲۸۹. Əgər şəhərin divarı olsa, onda səkkiz fərsəxin əvvəlini şəhərin .divarından; divarı olmasa şəhərin axırıncı evlərindən hesab etməlidir

Səfər edən), səfərin əvvəlindən səkkiz fərsəx getmək niyyətində olsun. Deməli,)-۲ əgər səkkiz fərsəxdən az olan yerə səfər edərsə və ora çatdıqdan sonra, gəldiyi yerlə birlikdə səkkiz fərsəx olan bir yerə getmək niyyətində olsa, əvvəldən səkkiz fərsəx niyyəti olmadığı üçün, gərək namazını tamam qılsın. Amma oradan (çatdığı yerdən) səkkiz fərsəx getmək istəsə və ya dörd fərsəx gedib qayıtsa, gərək namazını şikəstə .qılsın

Məsələ: ۱۲۹۰. Səfərinin neçə fərsəx olacağını bilməyən; məsələn, itmiş şeyi axtarmaq üçün səfər edən, itirdiyini axtarmaq üçün nə qədər yol gedəcəyini bilməyən bir şəxs, namazı tamam qılmalıdır. Amma qayıdan vaxt, vətəninə, yaxud on gün qalmaq istədiyi bir yerə qədər səkkiz fərsəx və ya daha artıq olsa, gərək namazı şikəstə qılsın. Həmçinin, əgər getdiyi vaxt dörd fərsəx gedəcəyini qəsd etsə, əgər gedib qayıtması .səkkiz fərsəx olsa gərək namazı şikəstə qılsın

Məsələ: ۱۲۹۱. Səfər edən şəxs, o halda namazını şikəstə

,qılmalıdır ki, səkkiz fərsəx getməyi qərara almış olsun. Deməli

bir şəxs. şəhərdən çölə çıxsa və məqsədi yoldaş tapacağı halda səkkiz fərsəx getmək olsa, bu halda yoldaş tapacağına əmin olarsa, namazı şikəstə, əks halda isə bütöv .qılmalıdır

Məsələ: ١٢٩٢. Səkkiz fərsəx getmək qəsdində olan bir şəxs, hətta əgər hər gün bir az yol getsə də, şəhərin divarları görünməyən, yaxud azanı eşidilməyən bir yerə çatsa, gərək namazını şikəstə qılsın. Amma hər gün çox az miqdarda yol getsə və ona artıq ."səfər edən" deyilməzsə, namazını bütöv qılmalıdır

Məsələ: ١٢٩٣. Səfərdə başqasının ixtiyarında olan bir şəxs; məsələn, öz ağası ilə səfərə gedən nökər, səfərinin səkkiz fərsəx olduğunu bilsə, namazını şikəstə qılmalıdır. Əgər bilməsə, ehtiyat-vacib budur ki, ondan soruşsun; əgər səkkiz fərsəxdirsə, namazını .şikəstə qılsın

Məsələ: ١٢٩٤. Səfərdə başqasının ixtiyarında olan bir şəxs, dörd fərsəxə çatmamışdan qabaq ondan ayrılacağını və səfər etməyəcəyini bilsə yaxud güman etsə, namazını .bütöv qılmalıdır

Məsələ: ١٢٩٥. Səfərdə başqasının ixtiyarında olan bir şəxs, əgər dörd fərsəxə çatmamışdan qabaq ondan ayrılıb-ayrılmayacağında şəkk etsə, gərək namazı bütöv qılsın. Amma onun şəkki, səfəri üçün maneə irəli gələcəyinə ehtimaldan irəli gəlsə, .onun ehtimalı camaatın nəzərində yerli ehtimal olmasa, gərək namazı şikəstə qılsın

Yolda öz məqsədindən dönməsin. Deməli, əgər dörd fərsəxə çatmamışdan qabaq öz-٣ .niyyətindən dönsə, yaxud tərəddüddə qalsa, namazı bütöv qılmalıdır

Məsələ: ١٢٩٦. Əgər dörd fərsəxə çatandan sonra səfər niyyətindən dönsə, bu halda həmin yerdə qalmağı, yaxud on gündən sonra qayıdacağını qərara alsa və ya .qayıtmaqda, yaxud qalmaqda tərəddüddə olsa, namazını bütöv qılmalıdır

Məsələ: ١٢٩٧. Əgər dörd fərsəxə yetişdikdən sonra səfər fikrindən yayınsa, həmin gün və ya gecəsi qayıtmaq məqsədi olarsa, gərək namazını şikəstə qılsın. Həmçinin həmin gün və ya

.gecəsi qayıtmasa və on gündən az orada qalmaq istəsə gərək namazını şikəstə qılsın

Məsələ: ۱۲۹۸. Əgər müəyyən bir yerə getmək üçün hərəkət etsə, və bir qədər yol getdikdən sonra başqa yerə getmək istəsə, bu halda hərəkət etdiyi ilk yerdən, getmək .istədiyi yerə qədər səkkiz fərsəx olsa, namazı şikəstə qılmalıdır

Məsələ: ۱۲۹۹. Əgər səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını gedib-getməkdə tərəddüddə qalsa və tərəddüdə qaldığı vaxt yol getməsə, sonra yolun qalan hissəsini .getmək qərarına gəlsə, gərək səfərin axırınadək namazı şikəstə qılsın

Məsələ: ۱۳۰۰. Əgər səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını gedib-getməkdə tərəddüddə qalsa və tərəddüdə qaldığı vaxt bir qədər yol getməsə, sonra səkkiz fərsəx yol getmək qərarına gəlsə və ya dörd fərsəx gedib və on gündən qabaq dörd .fərsəx qayıtsa, gərək səfərin axırına kimi namazı şikəstə qılsın

Məsələ: ۱۳۰۱. Əgər səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını gedib-getməkdə tərəddüdə düşsə və tərəddüddə olduğu vaxt bir az yol gedib sonradan yolun qalanını da getməyi qərara alsa, bu halda onun səfərinin qalan hissəsi dörd fərsəx və ya çox olsa, qayıtmazadan qabaq on gün qalmaq istəməsə gedərkən və qayıdarkən gərək namazı şikəstə qılsın. Əgər tərəddüdə düşməmişdən qabaqkı və ondan sonra getdiyi yol, üst-üstə səkkiz fərsəx olsa, ehtiyat-vacibə görə, namazı həm şikəstə, həm də .tamam qılmalıdır

Səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək, yaxud on gün və ya-۴ ondan artıq bir yerdə qalmaq istəməsin. Deməli, səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək istəyən, yaxud müəyyən bir yerdə on gün qalmaq istəyən bir .şəxs, namazını bütöv qılmalıdır

Məsələ: ۱۳۰۲. Səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçib-keçməyəcəyini bilməyən, yaxud müəyyən bir yerdə on gün qalıb-qalmayacağını bilməyən bir şəxs, .namazını bütöv qılmalıdır

Məsələ: ۱۳۰۳. Səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək, yaxud müəyyən yerdə on gün qalmaq istəyən, habelə vətənindən keçib-keçməyəcəyində, yaxud müəyyən bir yerdə on gün qalmaqda tərəddüddə qalan bir şəxs, on gün qalmaq, yaxud vətənindən keçmək niyyətindən dönsə, yenə də namazı bütöv qılmalıdır. Amma yolun qalan hissəsi səkkiz fərsəx olsa, yaxud dörd fərsəx olsa, amma .həmin yolu gedə və on gündən qabaq qayıtmaq istəsə, namazı şikəstə qılmalıdır

Haram iş üçün səfər etməsin. Əgər bir şəxs(oğurluq kimi) haram işlər üçün səfər-۵ etsə, namazı bütöv qılmalıdır. Həmçinin əgər, səfərin özü haram olsa; məsələn: şəri cəhətdən onu yerinə yetirmək haram olmaqla yanaşı onun üçün zərərli olsa, yaxud qadın əri ilə müxalifət edib

naşizə"(۱) olmasına dəlalət edərsə, və övlad ata-ananın qadağan etdikləri halda" onlarla müxalifət edib vacib olmayan səfərə getsələr, namazı tamam qılmalıdırlar. .Amma həcc kimi vacib səfər olsa, namazı şikəstə qılmalıdırlar

Məsələ: ۱۳۰۴. Səfər, ata-ananın əziyyətə düşməsinə səbəb olarsa, haramdır. Belə .səfərlərdə insan namazı bütöv qılmalı, orucu da tutmalıdır

Məsələ: ۱۳۰۵. Səfəri haram olmayan və haram iş üçün səfər etməyən bir şəxs, səfərdə .günah bir iş görsə də; məsələn, qeybət etsə, şərab içsə namazı şikəstə qılmalıdır

Məsələ: ۱۳۰۶. Əgər vacib bir işi tərk etmək üçün səfər etsə, istər bu səfərdə başqa məqsədi olsun və ya olmasın, namazı tamam qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə, həm də bütöv qılsın. Deməli, borclu olan bir şəxs öz borcunu verə bildiyi halda borc sahibi də istəsə, səfərdə borcunu verə bilməsə və xüsusən borcu verməkdən boyun qaçırmaq üçün səfər etsə, gərək namazı bütöv qılsın. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə, həm də bütöv qılsın. Amma səfəri vacib bir əməli tərk .etmək üçün olmasa gərək namazı şikəstə qılsın

---

.Ərinə itaət etməyən qadın . -۱

Məsələ: ۱۳۰۷. Əgər bir şəxsin səfəri haram olmasa, amma, mindiyi heyvan və ya başqa minik vasitələri qəsbi olsa və ya qəsbi torpaqda səfər edərsə, namazı şikəstə qılsın. .Ehtiyat-müstəhəb budur ki, namazı həm şikəstə, həm də tamam qılsın

Məsələ: ۱۳۰۸. Zülmkar şəxs ilə səfər edən bir şəxs, çarəsizlikdən olmasa və onun səfəri zalıma kömək olsa, yaxud zalımın hökmünü gücləndirməyə səbəb olsa, zalıma kömək olmasa da, gərək namazını tamam qılsın. Amma çarəsizlikdən; məsələn, hər hansı bir .məzlumu xilas etmək üçün onunla səfər etsə, namazı şikəstə qılmalıdır

Məsələ: ۱۳۰۹. Əgər əyləncə və gəzinti üçün səfər etsə, haram deyildir və namazı .şikəstə qılmalıdır

Məsələ: ۱۳۱۰. Əgər bir şəxs keyf və xoşgüzəranlıq üçün ova gedsə, namazı bütövdür. Amma dolanışıq əldə etmək üçün ova gedərsə, namazı şikəstədir. Əgər gəlir və malını artırmaq üçün ova gedsə, ehtiyat-vacib budur ki, namazını həm şikəstə həmdə tam .qılsın, amma orucunu tutmasın. Əgər orucda da ehtiyat etsə çox yaxşıdır

Məsələ: ۱۳۱۱. Günah etmək üçün səfərə gedən bir şəxs, səfərdən qayıdanda tövbə etdiyi təqdirdə gərək namazını şikəstə qılsın. Əgər tövbə etməsə, belə namazı şikəstə qılsın. Əgər səfərdən qayıdarkən günah etmək niyyəti olsa və ya o səfərin davamı .hesab olunsa namazı bütöv qılmalıdır

Məsələ: ۱۳۱۲. Bir şəxs ki, səfəri günah səfəri olsa, əgər yolda günah fikrindən yayınsa, bu halda qalan yol səkkiz fərsəx olsa, yaxud dörd fərsəx olsa ki, gedib qayıtmaq .istəsə, mübah səfərə başladıqdan sonra gərək namazını şikəstə qılsın

Məsələ: ۱۳۱۳. Günah üçün səfər etməyən bir şəxs, əgər yolda qalan miqdarı günah etmək üçün səfər etsə, namazını bütöv qılmalıdır. Amma şikəstə qıldığı namazlar .səhihdir

Səhralarda köçəri həyat tərzi keçirən, hər yerdə özü və mal-qaraları üçün su, yem-۶ tapdıqda, orada qalıb bir müddətdən sonra başqa yerlərə köçənlərdən olmasın. Səhrada köçəri həyat tərzi

.keçirənlər, bu səfərlərdə namazlarını bütöv qılmalıdırlar

Məsələ: ۱۳۱۴. Əgər köçərilərdən biri ev və heyvanları üçün otlaq tapmaq məqəsdi ilə səfər etsə, bu halda onun səfəri səkkiz fərsəx olarsa, çadır və bütün yaşayış əşyaları yanında olmasa, gərək namazını şikəstə qılsın. Əks təqdirdə, ehtiyat-vacib budur ki, .həm şikəstə həm də tamam qılsın

Məsələ: ۱۳۱۵. Əgər köçəri həyat tərzi keçirən bir şəxs ziyarət, həcc, ticarət və s. üçün .səfər etsə, namazını şikəstə qılmalıdır

Onun işi, peşəsi və yaxud işi və peşəsinin ibtidai işləri səfər olmasın. Deməli, dəvəçi,-۷ sürücü, qoyun alıb-satan, gəmiçi və s. kimi şəxslər, öz mənzil vəsaitlərini aparmaq .üçün səfər etsələr belə, namazı tamam qılmalıdırlar

Məsələ: ۱۳۱۶. İşi səfər olan bir şəxs, başqa bir iş üçün; məsələn, ziyarət, həcc və digər səfər etsə, namazı şikəstə qılmalıdır. Amma sürücü, öz maşınını ziyarət üçün kirayəyə .verib, özü də onunla birlikdə ziyarətə getsə, namazını tamam qılmalıdır

Məsələ: ۱۳۱۷. Karvanbaşı, yəni o şəxs ki, hacıları Məkkəyə aparmaq üçün səfər edir, .əgər səfər onun işi olarsa, namazı tamam qılmalıdır

Məsələ: ۱۳۱۸. Sənəti karvanbaşı olan bir şəxs, və hacıları uzaq yerlərdən Məkkəyə .aparırsa, əgər bütün il boyu, yaxud ilin çoxunu yolda olsa, namazı tamam qılmalıdır

Məsələ: ۱۳۱۹. Əgər bir şəxsin işi ilin müəyyən fəslində səfər olsa (qışda və ya yayda öz maşını kirayə verən bir sürücü kimi) işi səfər olan vaxtlarda namazını tamam qılmalıdır. .Ehtiyat-müstəhəb budur ki, həm şikəstə, həm də tamam qılsın

Məsələ: ۱۳۲۰. Şəhərin iki-üç fərsəxliyinə gəl-get edən sürücü və səyyar satıcı, .təsadüfən səkkiz fərsəx getsələr, namazı şikəstə qılmalıdırlar

Məsələ: ۱۳۲۱. İşi səfər olan bir şəxs, əgər vətənində on gün qalsa, istər əvvəldə on gün qalmaq niyyəti olsun, istərsə də qəsdi olmadan qalsın, on gündən sonra getdiyi ilk .səfərdə namazını şikəstə qılmalıdır

Məsələ: ۱۳۲۲. İşi səfər olan bir şəxs, əgər vətənindən başqa bir yerdə on gün qalsa, əvvəldən on gün qalmaq niyyətində olduğu təqdirdə, on gündən sonrakı birinci səfərində, gərək namazını şikəstə qılsın. Amma əvvəldən on gün qalmaq niyyətində .olmasa ehtiyat-vacib budur ki, həm şikəstə həmdə tamam qılsın

Məsələ: ۱۳۲۳. İşi səfər olan bir şəxs, əgər öz vətənində, yaxud başqa yerdə on gün .qalıb-qalmadığında şəkk etsə, namazını bütöv qılmalıdır

Məsələ: ۱۳۲۴. Şəhərlərə səyahət edən və özü üçün vətən seçməyən bir şəxs, namazını .tamam qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə həm bütöv qılsın

Məsələ: ۱۳۲۵. İşi səfər olmayan bir şəxsin bir şəhərdə, yaxud kənddə müəyyən qədər .malı varsa və o malı daşımaq üçün ardıcıl səfərlər edirsə, namazını şikəstə qılmalıdır

Məsələ: ۱۳۲۶. Vətənindən üz çevirən şəxs özü üçün vətən seçmək istəyərsə, namazı bütöv qılmaq şəraitlərindən (çoxlu səfər etmək kimi,) qarşıya çıxmazsa gərək .namazını səfərdə şikəstə qılsın

Həddi-tərəxxüsə çatsa, yəni öz vətənindən və ya on gün qalacağını niyyət etdiyi-۸ yerdən o qədər uzaqlaşsın ki, evlərin divarlarını görməsin və azan səsini eşıtməsin. Amma, gərək havada, divarı görməyə və azanı eşıtməyə mane olan toz və başqa bir şey olmasın. Minarələri və günbədi görməmək və ya divarların tamamilə məlum olmaması miqdarında uzaqlaşmaq lazım deyil, divarlatın tam şəkildə görünməməsi .miqdarında kifayət edir

Məsələ: ۱۳۲۷. Səfərə gedən bir şəxs, əgər bir yerə çatıb şəhərin divarlarını görsə, amma azanın səsini eşitməsə və orada namaz qılmaq istəsə, ehtiyat edib həm şikəstə, həm də bütöv qılmalıdır. Əgər şəhərin divarlarını görməsə, amma azanın səsini eşitsə və orada namaz qılmaq istəsə, eyni qayda ilə. Amma bu iki qeyd olunan şərtlərdən biri olsa və o birinin olub-olmamasını bilməsə namazı şikəstə qılmaq üçün kifayətdir. .Amma ehtiyat budur həm şikəstə, həm də bütöv qılsın

Məsələ: ١٣٢٨. Vətəninə qayıdan bir şəxs, öz vətəninin divarını görsə və azan səsini eşitsə, gərək namazını bütöv qılsın. Amma divarı görüb azanı eşitməsə, azanı eşidənədək gərək namazı şikəstə qılsın. Amma müəyyən bir yerdə on gün qalmaq istəyən bir səfərə çıxan, o yerin divarını görsə və azan səsini eşitsə, ehtiyat-müstəhəb budur ki, tərəxxüs yerində namaz qılmaq istəsə namazı həm şikəstə, həm də bütöv .qılsın

Məsələ: ١٣٢٩. Əgər şəhər uca yerdə olsa və uzaqdan görünsə; yaxud çuxur yerdə olsa və azacıq uzaqlaşanda divarları görünmürsə, bu halda həmin şəhərdən səfər edən bir şəxs, o şəhərdən müəyyən miqdarda uzaqlaşsa, belə ki, o şəhər düzənlikdə olsaydı, divarlar həmin yerdən görünməyəcəkdi, onda namazı şikəstə qılmalıdır. Həmçinin, əgər evlərin alçaq-ucalığı adi qaydadan çox olsa, adi halda olanlar nəzərdə .saxlanılmalıdır

Məsələ: ١٣٣٠. Əgər bir şəxs evi və divarı olmayan yerdən səfər edib bir yerə çatsa ki, əgər o yerin divarı olsaydı, həmin yerdən görünməyəcəkdi, onda namazı şikəstə .qılmalıdır

Məsələ: ١٣٣١. Əgər müəyyən qədər uzaqlaşsa və eşitdiyi səsin azan və ya başqa səs olmasını bilməsə, ehtiyat-vacibə görə namazı şikəstə qılmalıdır. Amma azan olduğunu başa düşüb kəlmələrini ayırd edə bilməsə, ehtiyat-vacibə görə namazı həm bütöv .həm şikəstə qılmalıdır. Əgər heç səs eşitməsə namazı şikəstə qılmalıdır

Məsələ: ١٣٣٢. Əgər müəyyən qədər uzaqlaşsa və şəhərin evlərinin azan səsini eşitməsə, amma şəhərin adətən uca yerindən deyilən azan səsini eşitsə, namazı .şikəstə qılmamalıdır

Məsələ: ١٣٣٣. Əgər müəyyən bir yerə çatsa və şəhərin adətən uca yerində deyilən azan səsini eşitməsə, amma daha uca yerdə deyilən azan səsini eşitsə, namazı şikəstə .qılmalıdır

Məsələ: ١٣٣٤. Əgər səfər edən şəxsin gözü, qulağı və ya azanın səsi qeyri-adi olsa, namazı normal gözün o evlərin divarlarını gördmədiyi, normal qulağın adi azan səsini .eşitmədiyi yerdə, şikəstə qılmalıdır

Məsələ: ۱۳۳۵. Əgər səfərə getdiyi zaman həddi-tərəxxüs yəni azanı eşitmədiyi və divarı görmədiyi yerə çatıb-çatmamasında şəkk etsə, namazını bütöv qılmalıdır. Amma qayıdanda tərəxxüs həddinə çatıb-çatmamasında şəkk etsə, əgər gedəndə bütöv qıldığı müəyyən bir nöqtə olmasa namazı şikəstədir. Əks halda ehtiyat-vacib budur ki, .oradan qıraq bir yerə getsin və ya namazı həm şikəstə, həm də bütöv qılsın

Məsələ: ۱۳۳۶. Səfərində öz vətənindən keçib gedən bir səfərə çıxan öz vətəninin .divarlarını görüb, azan səsini eşitdiyi yerə çatanda namazı bütöv qılmalıdır

Məsələ: ۱۳۳۷. Səfərə çıxan, səfər əsnasında öz vətəninə çatsa orada olduğu müddətdə namazlarını bütöv qılmalıdır. Amma o yerdən səkkiz fərsəx getmək və ya dörd fərsəx gedib on gündən qabaq qayıtmaq istəsə, vətəninin divarlarını görmədiyi, azan səsini .eşitmədiyi bir yerə çatanda namazı şikəstə qılmalıdır

Məsələ: ۱۳۳۸. İnsanın qalmaq və yaşamaq üçün təyin etdiyi yer, onun vətənidir. İstər orada dünyaya gəlmiş olsun və ata- anasının vətəni olsun və ya özü oranı yaşayış .üçün təyin etsin

Məsələ: ۱۳۳۹. Əgər əsil vətəni olmayan bir yerdə qalmaq niyyəti olsa və sonra vətəni sayılan başqa bir yerə gedsə, ora onun vətəni hesab olmur. Əgər iki ildən artıq orada .qalmaq istəsə vətənin hökmünü daşıyır

Məsələ: ۱۳۴۰. İnsanın özü üçün yaşayış yeri təyin etdiyi yer, orada yaşayan sakin kimi, ora vətənidir, əgər hər hansı səfərə getmək qarşıya çıxsa, yenə həmin yerə qayıdarlar. Həmişəlik orada qalmaq fikrində olmamasına baxmayaraq onun üçün .vətən hökmündədir

Məsələ: ۱۳۴۱. Bir şəxs iki yerdə yaşarsa; məsələn, altı ay bir şəhərdə, altı ay da başqa şəhərdə qalsa, hər iki yer onun vətənidir. Əgər ikidən artıq yeri yaşamaq üçün seçsə, .onların hamısı, onun vətəni hesab olunur

Məsələ: ۱۳۴۲. Mülkün olmasına və altı ay qalmasına baxmayaraq üz çevrilən yerə .vətənin hökmü icra olunmur

Məsələ: ۱۳۴۳. Əgər vətəni olduğu və oradan üz cevirdiyi bir yerə yetişərsə, özü üçün başqa bir vətən seçməməsinə baxmayaraq, gərək namazlarını tamam qılmasın.

Məsələ: ۱۳۴۴. Əgər bir şəxs müəyyən yerdə on gün ardıcıl olaraq qalmağı qəsd etsə, yaxud ixtiyarsız olaraq on gün qalacağını bilsə, orada namazını tamam qılmalıdır.

Məsələ: ۱۳۴۵. Səfər edən, on gün bir yerdə qalmaq istəsə, birinci və ya on birinci gecəni qalmaq niyyəti etməsi lazım deyildir. Birinci günün sübh azanından onuncu günün qürubunadək qalmasını niyyət etsə, gərək namazını tamam qılsın. Həmçinin, əgər misal olaraq; birinci günün günortasından on birinci günün günortasınadək qalmaq niyyətində olarsa, gərək namazını tamam qılsın.

Məsələ: ۱۳۴۶. Səfərə çıxan şəxs, bir yerdə on gün qalmaq istədiyi halda, əgər orada bütün on günü qalacaqsa, o halda namazı bütöv qılmalıdır. Deməli, əgər on günü; məsələn, Nəcəflə Kufədə qalmaq istəsə, namazı şikəstə qılmalıdır.

Məsələ: ۱۳۴۷. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, əgər əvvəldən on gün müddətində oranın ətrafına getmək niyyətində olsa, getmək istədiyi yerdə o məntəqənin azanının səsini eşitməsə getdiyi gün qayıtmaq istəməsinə baxmayaraq gərək on gün namazını şikəstə qılsın. Ehtiyat-müstəhəb budur ki, namazını həm bütöv həm şikəstə qılsın. Əgər bu qədər uzaq olmasa gərək namazını bütöv qılsın.

Məsələ: ۱۳۴۸. Bir yerdə on gün qalmağı qərara almayan bir şəxs; məsələn, məqsədi dostu gələrsə, yaxud yaxşı mənzil taparsa, on gün qalmaq olsa namazı şikəstə qılmalıdır.

Məsələ: ۱۳۴۹. Bir şəxs bir yerdə on gün qalmaq niyyətində olsa, baxmayaraq ki, onun qalmağı üçün bir maneə olacağına camaatın etina etmədiyi ehtimal versə, gərək namazını tam qılsın.

Məsələ: ۱۳۵۰. Əgər səfərə çıxan, ayın axırına on gün və ya ondan artıq qaldığını bilib ayın axırına qədər müəyyən bir yerdə qalmağı qərara alsa, namazı bütöv qılmalıdır. Amma ayın axırına

nə qədər qaldığını bilmədiyi halda, ayın axırınadək qalmağı qəsd etsə, nəzərdə tutduğu vaxtdan ayın axırına qədər on gün, yaxud daha artıq qalsa həqiqətən on günü niyyət etmişsə namazı bütöv qılmalıdır. Əgər ayın axırına qədər qalmağı niyyət etsə amma ayın tamam olduğunu bilməsə on gün tamam olanadək namazı şikəstə qılsın. .Axırıncı iki surətdə ehtiyat edib həm şikəstə həm bütöv qılmaq müstəhəbdir

Məsələ: ١٣٥١. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, dörd rəkətli bir namaz qılmazdan əvvəl, qalmaq fikrindən dönsə və ya orada qalıb və ya başqa yerə getməsində tərəddüddə olsa, gərək namazı şikəstə qılsın. Əgər bir dörd rəkətli namazı qıldıqdan sonra orada qalmaq fikrindən dönsə və ya tərəddüddə olsa, orada olduğu .müddətdə gərək namazı tamam qılsın

Məsələ: ١٣٥٢. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, əgər oruc tutsa və günortadan sonra orada qalmaq fikrindən dönsə, bu halda əgər dörd rəkətli bir namaz qılıbsa orucu səhihdir; orada olduğu müddət boyu, namazlarını bütöv qılmalıdır. Əgər dörd rəkətli bir namaz qılmamış olsa, tutduğu oruc səhihdir, ehtiyat-müstəhəb budur ki, orucunun qəzasını tutsun. Amma namazlarını şikəstə qılmalıdır. Sonrakı günlərdə də .oruc tuta bilməz

Məsələ: ١٣٥٣. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, həmin yerdə qalmaq fikrindən dönsə və qalmaq məqsədindən dönməmişdən qabaq dörd rəkətli .namaz qılıb-qılmaması barədə şəkk etsə, öz namazlarını şikəstə qılmalıdır

Məsələ: ١٣٥٤. Əgər səfərə çıxan, namazı şikəstə qılmaq niyyəti ilə namaza başlasa və namaz əsnasında on gün və ya daha artıq qalmaq qərarına gəlsə, namazı dörd rəkətlə .tamamlasın

Məsələ: ١٣٥٥. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, əgər dörd rəkətli namazın arasında öz fikrindən yayına, üçüncü rəkətə məşğul olmayıbsa, gərək namazı iki rəkətli tamamlasın və qalan namazlarını şikəstə qılsın. Amma üçüncü

rəkətə məşğul olarsa və rükuya getməyibsə, namazı şikəstə qılmalıdır. Ehtiyat-müstəhəb budur ki, o namazdan sonra namazını şikəstə olaraq yenidən qılsın. Orada qalan müddətdə, gərək namazını şikəstə qılsın. Amma üçüncü rəkətin rükusuna gedərsə, ehtiyat-vacibə görə namazı tamamlasın, yenidən şikəstə qılsın. Orada olan .müddətdə namazını şikəstə qılmalıdır

Məsələ: ۱۳۵۶. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, on gündən artıq orada qalsa nə qədər ki, səfər etməyibdir namazını bütöv qılmalıdır və yenidən on gün .qalmasını qəsd etməsi lazım deyil

Məsələ: ۱۳۵۷. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, vacib orucu tutmalıdır. Həmçinin müstəhəb oruc da tuta bilər, cümə namazını, zöhr, əsr və işa .namazlarının nafilələrini də qıla bilər

Məsələ: ۱۳۵۸. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, əgər bir dörd rəkətli namaz qıldıqdan sonra dörd fərsəx məsafədən az olan bir yerə gedib qayıtmaq istəsə və ikinci dəfə əvvəlki yerində on gün qalsa, getdiyi vaxtdan qayıdanadək və qayıtdıqdan sonra, gərək namazını tam qılsın. Amma qayıtdıqdan sonra on gün qalmaq istməsə, dörd fərsəxdən az olan yerə getdiyi zaman, orada qaldığı müddətdə, qayıdan zaman və qayıtdiqdan sonra, qaldığı yerdən çıxana qədər gərək namazını tam .qılsın. Ehtiyat-müstəhəb budur ki, həm şikəstə həm bütöv qılsın

Məsələ: ۱۳۵۹. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, əgər bir dörd rəkətli namaz qıldıqdan sonra səkkiz fərsəxdən az olan bir yerə getmək istəsə və on gün orada qalsa, gərək gedərkən və on gün qalacağı yerdə namazını tam qılsın. Amma gedəcəyi yer səkkiz fərsəx və ya çox olarsa və orada on gün qalmaq istəməzsə, gərək .gedərkən və orada qalacağı müddətdə namazını şikəstə qılsın

Məsələ: ۱۳۶۰. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, dörd rəkətli bir namaz qıldıqdan sonra dörd fərsəxdən az olan bir yerə gedib, sonra əvvəlki yerinə qayıtmaqda

tərəddüd etsə, yaxud ümumiyyətlə oraya qayıtmağını bilməsə və ya qayıtmaq istəsə, amma orada on gün qalıb-qalmayacağında tərəddüd etsə, yaxud orada on gün qalmasından və o yerdən səfər etməsindən xəbərsiz olsa, gərək getdiyi vaxtdan qayıtdığı vaxtadək və qayıdandan sonra namazlarını tamam qılsın. Ehtiyat-müstəhəb .budur ki, axırıncı surətdə həm şikəstə həm bütöv qılsın

Məsələ: ۱۳۶۱. Əgər dostlarının bir yerdə on gün qalacaqlarını güman edib, o da on gün qalmağı qəsd etsə və qəsdi onların qəsdinə asılı olmasa, bir dörd rəkətli namaz qıldıqdan sonra onların bu fikirdə olmadıqlarını başa düşsə, hətta özü də qalmaq fikrindən dönsə, gərək orada olduğu müddətdə namazlarını bütöv qılsın. Ehtiyat-.müstəhəb budur ki, həm şikəstə həm bütöv qılsın

Məsələ: ۱۳۶۲. Səfərə çıxan, əgər səkkiz fərsəxə çatandan sonra ۳۰ gün bir yerdə qalsa və ۳۰ günün hamısında gedib, yaxud qalmaqda tərəddüddə olsa, ۳۰ gün keçəndən sonra hətta orada az miqdar qalsa belə, gərək namazını bütöv qılsın. Amma, səkkiz fərsəxə çatmamışdan qabaq yolun qalanını getməkdə tərəddüddə olsa, tərəddüdə .düşdüyü vaxtdan başlayaraq namazını bütöv qılmalıdır

Məsələ: ۱۳۶۳. Səfərə çıxan, doqquz gün, yaxud az müddət bir yerdə qalmaq istəsə, orada doqquz gün, yaxud ondan az qalandan sonra yenidən doqquz gün, yaxud ondan da az qalmaq istəsə və bu qayda ilə ۳۰ gün keçsə, ۳۱-ci gündən etibarən, namazlarını .bütöv qılmalıdır

Məsələ: ۱۳۶۴. Səfərə çıxan, ۳۰ gün müddətində tərəddüddədirsə, ۳۰ gün bir yerdə qalacağı təqdirdə, namazını gərək bütöv qılsın. Deməli, əgər onlardan bir miqdarını bir yerdə, qalanlarını isə başqa yerdə qalsa, ۳۰ gün tamam olandan sonra da, gərək .namazlarını şikəstə qılsın

MÜXTƏLİF MƏSƏLƏLƏR

Məsələ: ۱۳۶۵. Səfərə çıxan Məscidül-həramda, Peyğəmbər

səlləllahu ələyhi və alihi və səlləm) məscidində namazını tamam və ya şikəstə qıla) bilər. Amma tamam qılmaq daha fəzilətli, şikəstə qılmaq isə ehtiyata uyğundur. Məkkə və Mədinə şəhərinin rayonlarında və Kufə məscidində müsafir namazını tamam və şikəstə qılmaq arasında ixtiyarlıdır. Amma, əvvəl Kufə məscidinin bir hissəsi olmayan və sonradan ona artılıran bir yerdə namaz qılmaq istəsə, daha yaxşı olar şikəstə qılsın. Həmçinin, səfərə çıxan, həzrət Seyyidüş-şühədanın (ələyhis-səlam) hərəmində; istər hərəmdə olsun istərsə də eyvanında və ya rövzəsində (həyət-bağında) olsun, namazı tamam qıla bilər. Amma ehtiyat-vacib budur ki, müqəddəs zərihdən uzaqda, namazını .şikəstə qılsın

Məsələ: ۱۳۶۶. Səfərdə olan və namazını şikəstə qılacağını bilən bir şəxs, əvvəlki məsələdə deyilən dörd məkandan başqa yerlərdə qəsdən tamam qılsa, namazı batildir. Həmçinin səfərə çıxan, namazının şikəstə olduğunu unudub tamam qılsa, vaxt keçmədən başa düşsə gərək yenidən qılsın. Əgər yenidən qılmasa, vaxtı keçəndən sonra qəzasını qılsın. Əgər vaxtı keçəndən sonra başa düşsə, ehtiyat-vacib budur ki, .qəzasını qılsın

Məsələ: ۱۳۶۷. Səfərədə olan və namazını şikəstə qılacağını bilən bir şəxs, əgər unutsa adətinə uyğun olaraq namazı tamam qılsa, əgər namaz vaxtında xatırlasa gərək yenidən qılsın. Əgər yenidən qılmasa vaxtı keçəndən sonra qəzasını qılsın. Əgər vaxtı .keçəndən sonra başa düşsə, ehtiyat-vacib budur ki, qəzasını qılsın

Məsələ: ۱۳۶۸. Səfərə olan, namazı şikəstə qılacağını bilməyirsə, əgər tamam qılsa, .namazı səhihdir

Məsələ: ۱۳۶۹. Səfərdə olan, namazının şikəstə olduğunu bilirsə, əgər onun xüsusiyyətlərindən bəzisini bilməyib; məsələn, səkkiz fərsəxlik səfədə şikəstə .qılacağını bilməyib tamam qılsa, namazı batildir

Məsələ: ۱۳۷۰. Səfərədə olan və namazını şikəstə qılacağını bilən, səfərinin səkkiz fərsəxdən az olmasını güman edib namazını bütöv qılsa və sonradan səfərinin səkkiz fərsəx olduğunu başa düşsə, bütöv qıldığı namazı, gərək yenidən şikəstə qılsın. Əgər

.vaxtı keçəndən sonra başa düşsə, gərək qəzasını qılsın

Məsələ: ۱۳۷۱. Əgər səfərdə olduğunu unudub namazını bütöv qılsa, bu halda namaz vaxtında yadına düşsə, gərək yenidən şikəstə qılsın. Əgər namaz vaxtından sonra .yadına düşsə, ehtiyat-vacib budur ki, qəzasını qılsın

Məsələ: ۱۳۷۲. Namazını tamam qılmalı olan bir şəxs, şikəstə qılsa, hər halda namazı batildir. Səfərə çıxan, bir yerdə on gün qalmaq niyyətində olsa, məsələnin hökmünü bilməməzlik üzündən namazı bütöv qılaq əvəzinə şikəstə qılsa, ehtiyat-vacib budur ki, .yenidən qılsın

Məsələ: ۱۳۷۳. Əgər dörd rəkətli namaz qılmağa başlayıb, namaz əsnasında səfərdə olduğu yadına düşsə, yaxud səfərinin səkkiz fərsəx olduğu yadına düşsə, üçüncü rəkətin rükusuna getməmişdirsə, namazı iki rəkətlə qurtarmalıdır. Amma üçüncü rəkətin rükusuna getmiş olsa, namazı batildir. Bir rəkət qılmaq miqdarında vaxtı olsa, .gərək namazı şiksətə qılsın

Məsələ: ۱۳۷۴. Əgər səfərə çıxan namazının bəzi xüsusiyyətlərini bilməsə; məsələn, əgər dörd fərsəx gedib və on gündən qabaq qayıdsa, namazın şiksətə qılınmağının gərəkli olmasını bilməsə dörd rəkətli namaz niyyəti ilə namaza başlayıb üçüncü rəkətin rükusundan qabaq məsələni başa düşsə, namazı iki rəkətli tamam etməlidir. Amma rükuda başa düşsə, namazı batildir. Hətta bir rəkət miqdarında vaxtından qalmış olsa .belə, gərək namazı yenidən başlayıb şikəstə qılsın

Məsələ: ۱۳۷۵. Səfərə çıxan, namazı tamam qılmalı olduğu təqdirdə, məsələni bilməməzlik səbəbi ilə iki rəkətli namaz niyyəti ilə namaza başlasa və namaz əsnasında məsələni başa düşsə, namazını dörd rəkətli tamam etməlidir. Ehtiyat-.müstəhəb budur ki, namaz qurtarandan sonra o, namazı yenidən dörd rəkətli qılsın

Məsələ: ۱۳۷۶. Səfərə çıxan, namazını qılmamışdırsa, vaxt tamam olandan qabaq vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatsa, gərək namazını tamam qılsın. ,Səfərdə olmayan bir şəxs, əgər namazın əvvəl vaxtında namaz qılmayıb səfər etsə

.səfərdə namazını şikəstə qılmalıdır

Məsələ: ۱۳۷۷. Əgər səfərə çıxanın, şikəstə qılmalı olan zöhr, əsr, yaxud işa namazını qəzaya versə, hətta səfərdən qeyri yerlərdə də qəzasını yerinə yetirmək istəsə, gərək qəzasını iki rəkətlə qılsın. Əgər səfərdə olmayan bir şəxsin, bu üç namazından biri qəza .olsa, hətta onun qəzasını səfərdə də qılmaq istəsə, onu dörd rəkətli qəza etməlidir

Məsələ: ۱۳۷۸. Müstəhəbdir ki, səfərə çıxan şikəstə qıldığı hər namazdan sonra ۳۰ dəfə "subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər" desin. Zöhr, əsr və işa namazlarının təqibində, buna çoxlu tövsiə olunub. Daha yaxşı olar ki, bunu ۶۰ dəfə .desin

QƏZA NAMAZI

Point

Məsələ: ۱۳۷۹. Öz vacibi namazını, onun öz vaxtında qılmayan bir şəxs, hətta vaxtın hamısında yuxuda olsa, yaxud məstlik səbəbi ilə namaz qılmamış olsa da, (məstliyin ixtiyarlı olub olmaması və haram və ya halal ilə olması arasında fərq yoxdur) gərək qəzasını yerinə yetirsin. Amma dəlinin dəlilik zamanında, uşağın uşağlıq çağlarında, kafirin də kafir olduğu halda, qadının heyz və ya nifas halında qılmadığı namazların qəzası yoxdur. Amma mürtəd, tövbə edəndən sonra, mürtəd olduğu vaxtlar qılmadığı namazlarının qəzasını qılması vacibdir. Əqvaya əsasən mürtədi-fitri olsa da namazı səhihdir. Əhvət budur ki, huşsuz olan şəxs huşsuzluğu üç gündən az olarsa huşsuzluq .halında qılmadığı namazların qəzasini qılmalıdır

Məsələ: ۱۳۸۰. Əgər namazın vaxtı qurtarandan sonra, qıldığı namazın batil olduğunu .başa düşsə, gərək qəzasını qılsın

Məsələ: ۱۳۸۱. Boynunda qəza namazı olan bir şəxs onu qılmaqda süstlük, səhlənkarlıq .etməməlidir. Amma dərhal yerinə yetirməsi vacib deyil

Məsələ: ۱۳۸۲. Qəza namazı olan bir şəxs müstəhəb namaz qıla

.bilər

Məsələ: ١٣٨٣. Əgər insanın qəza namazı olduğuna və ya qıldığı namazların səhih .olmadığına ehtimalı olsa, ehtiyata görə onların qəzasını yerinə yetirmək müstəhəbdir

Məsələ: ١٣٨۴. Vacibdir gündəlik vacib namazların qəzası qəzaya getdiyi ardıcıllıqla qılınsın bir günün zöhr və əsr, namazları kimi. Ardıcıllıq lazım olmayan yerdə tərtib .lazım deyil

Məsələ: ١٣٨۵. Əgər gündəlik namazından başqa bir neçə namazın; məsələn, ayət namazının qəzasını qılmaq istəsə, yaxud bir gündəlik və bir neçə gündəlik olmayan .namazın qəzasını qılmaq istəsə, qəzaya getməsi tərtibi ilə qılması lazım deyil

Məsələ: ١٣٨۶. Bir şəxs ki, qılmadığı namazların ardıcıllığını unutsa ehtiyat-müstəhəb budur ki, gərək namazları elə qılsın ki, qəza olmuş ardıcıllığı ilə yerinə yetirdiyinə yəqinliyi olsun; məsələn, əgər bir zöhr və bir məğrib qəzası ona vacibdirsə və hansı birinin əvvəl qəza olduğunu bilməsə, ehtiyat edib əvvəl bir məğrib namazı sonra bir zöhr namazı və ondan sonra yenidən məğrib namazını qılsın; yaxud da, əvvəl zöhr namazını sonra isə məğrib namazını və ondan sonra yenidən zöhr namazını qılsın ki, birinci qəza olan hər hansı namazın, əvvəl qılındığına yəqini olsun. Amma tərtibini uutduğu qəza namazları, tərtiblə qılacağı təqdirdə çox məşəqqətə düşəcək qədər çox .olsa, onları tərtiblə yerinə yetirməsi lazım deyil

Məsələ: ١٣٨٧. Əgər bir günün zöhr namazı və başqa günün əsr namazı və ya iki zöhr namazı və ya iki əsr namazı qəza olsa və hansı birinin əvvəl qəza olmasını bilməsə, tərtibə riayət etmək istəsə ehtiyat-müstəhəb budur ki, iki dəfə dörd rəkətli namazı, birincisi birinci günün namazının qəzası və ikincisi ikinci günün namazının qəzası niyyəti .ilə qılsa, kifayət edər

Məsələ: ١٣٨٨. Əgər bir zöhr və bir işa namazı və ya bir əsr və bir işa namazı qəza olsa və hansı birinin əvvəl qəza olduğunu bilməsə, ehtiyat-müstəhəb budur ki, onları tərtiblə qıldığına yəqin edəcəyi şəkildə qılsın; məsələn, əgər bir zöhr və bir işa namazı

qəza olub və onların əvvəlincisini bilməsə, gərək əvvəl bir zöhr namazı sonra bir işa namazı, daha sonra isə təkrar bir zöhr namazı qılsın; yaxud da, əvvəl bir işa namazı .qılsın sonra bir zöhr namazı qılsın və daha sonra yenidən bir işa namazı qılsın

Məsələ: ۱۳۸۹. Bir şəxs dörd rəkətli namazlardan birini qılmadığını bilirsə, amma onun zöhr və ya əsr namazı olduğunu bilməsə, bir dörd rəkətli namaz, qəza niyyəti ilə .qılmadığı namazın yerinə qılsa, kifayətdir

Məsələ: ۱۳۹۰. Ardıcıl olaraq beş namazı qəza olan şəxs, onların hansının birinci olduğunu bilmirsə, ehtiyat-müstəhəb budur ki, tərtiblə doqquz namaz qılsın; məsələn, sübh namazından başlayaraq zöhr, əsr, məğrib və işanı qıldıqdan sonra sübh, zöhr, əsr və məğrib namazlarını ikinci dəfə qılsın. Amma ardıcıl olaraq onun altı namazı qəza olsa və onların birincisini bilməsə, gərək on namaz tərtiblə qəza etsin. Bu qayda ilə hər bir namaz ki, onun qəza namazlarına artsa ardıcıl qəza olarsa gərək bir namaz onlara artırsın. Məsələn yeddi namazı qəza olsa və onların hansının birinci olduğunu bilməsə (təkrar etməsinin lazım olmamasına baxmayaraq) gərək on bir namaz tərtiblə yerinə .yetirsin

Məsələ: ۱۳۹۱. Bir şəxs özünün gündəlik namazından beşinin və onların hər birinin bir gündən qəza olduğunu bilsə, amma onların tərtibini bilməsə, gərək beş gecə-gündüz namaz qılsın. Əgər altı namaz qəza olubsa gərək altı gecə-gündüz namaz qılsın. Həmçinin, onun qəza namazlarına əlavə olan hər namaz üçün, gərək bir gecə-gündüz çox qılsın ki, tərtiblə yerinə yetirməsinə yəqin etsin; məsələn, yeddi gün müddətində yeddi namaz qılmasa, ehtiyat-müstəhəbə görə gərək yeddi gecə-gündüz qəza etsin .təkrar etməsidə lazım deyil

Məsələ: ۱۳۹۲. Bir şəxsin; məsələn, bir neçə sübh və ya zöhr namazı qəza olubsa və onların sayını bilməyirsə məsələn, üç, dörd yaxud beş namaz olduğunu bilməyirsə, əgər az miqdarı qılsa kifayət deyil bütün namzları qılıb qurtardığına yəqini olanadək namaz qılsın; həmçinin əgər onların sayını bilirdisə amma

sonradan unudubsa bütün namzları qılıb qurtardığına yəqini olanadək namaz qılsın; məsələn, onun neçə sübh namazı qəza olduğunu unudub, amma on namazdan artıq .olmamasına yəqini varsa, gərək on sübh namazı qılsın

Məsələ: ۱۳۹۳. Bir şəxsin ötən günlərdən təkcə bir qəza namazı olarsa, ehtiyat-müstəhəbə əsasən əgər imkan olarsa, gərək əvvəl onu yerinə yetirsin, sonra o günün namazlara məşğul olsun. Həmçinin, keçən günlərin qəzası olmasa, amma həmin günün bir və ya birdən çox namazı qəza olarsa, mümkün olan surətdə ehtiyat-vacibə .əsasən, gərək həmin günün qəza namazını əda namazından qabağa qılsın

Məsələ: ۱۳۹۴. Əgər namaz əsnasında yadına düşə ki, həmin günün bir və ya bir neçə namazı qəza olmuşdur və ya ötən günlərdən təkcə bir qəza namazı vardır, vaxt çox olan halda və namazın niyyətini qəzaya çevirmək mümkün olarsa, ehtiyat-vacibə görə, gərək qəza niyyəti etsin; məsələn, zöhr namazında ikinci rəkət tamam olmazdan əvvəl, həmin günün sübh namazının qəza olmasını xatırlasa, (zöhr namazının vaxtı az olmayan halda) ehtiyat-vacibə görə, gərək niyyətini sübh namazına qaytarsın və onu, iki rəkətli tamamlasın. Sonra zöhr namazını qılsın. Amma vaxt az olarsa və ya niyyəti qəzaya çevirmək mümkün olmazsa; məsələn, zöhr namazının üçüncü rəkətinin rükusunda, sübh namazını qılmaması yadına düşə, əgər niyyəti çevirmək istəsə, rükn .olan bir rüku artırılmış olduğu üçün, gərək sübh namazı niyyətinə çevirməsin

Məsələ: ۱۳۹۵. Əgər ötən günlərdən qəza namazı olsa və həmin gündən də bir və ya artıq qəza namazı olsa, əgər qəzaların hamısına vaxt olmasa və ya onların hamısını o gün qılmaq istəməsə, ehtiyat-vacib budur ki, o günün qəza namazını əda namazından .əvvəl qılsın

Məsələ: ۱۳۹۶. Nə qədər ki insan diridir, hətta öz qəza namazlarını qıla bilməsə də, .başqası (naibi) onun qəza namazlarını qıla bilməz

Məsələ: ١٣٩٧. Qəza namazını camaat namazı ilə birlikdə qılmaq olar. İstər imamın namazı əda olsun, istərsə də qəza. Hər ikisinin də (imam və məmum) eyni namazı qılmaları lazım deyil; məsələn, sübh namazının qəzasını imamın zöhr və ya əsr namazı .ilə birlikdə qılsa, eybi yoxdur

Məsələ: ١٣٩٨. Müməyyiz, yəni yaxşını pisdən ayıra bilən uşağa namaz qılmağa və başqa ibadətlərə adət etdirmək müstəhəbdir. Müstəhəbdir onu qəza namazlarınada .vadar etsinlər

ATA–ANANIN BÖYÜK OĞULA VACİB OLAN QƏZA NAMAZI

Məsələ: ١٣٩٩. Əgər ata, namazını qılmamış olsa, (bilərəkdən itaət etməməzlik üzündən olmadığı təqdirdə) və qıla bilərdisə, böyük oğula vacibdir ki, onun vəfatından sonra onların qəzasını etsin, yaxud da həmin namazları qılmaq üçün əcir tutsun. Ehtiyat-vacibə görə, bilərəkdən qılmayıbsa və ya səhv qılıbsa, onların da qəzalarını qılsın. Ehtiyat-vacibə görə ananın da qəza namazlarını qılsın. Ehtiyat-vacib budur ki, atanın tutmadığı oruclları meyyitin vəlisi tutsun. Amma xəstəlik üzündən tutmadığı orucların qəzasını tutmaq lazım deyil. Onlarında qəzasını tutmaq vəlisinə müstəhəbdir. Ehtiyat-müstəhəb budur ki, ananın da tutmadığı orucların qəzasını tutsun. Amma səfərdə olduqları zaman tutmadıqları oruclları, özləri qəzasını tuta bilməyibsələr, gərək böyük .oğlan onların qəzasını tutsun və ya onların qəzasını tutmaq üçün əcir tutsun

Məsələ: ١٤٠٠. Əgər böyük oğul ata və anasının qəza namaz və oruclarının olub .olmamasında şəkk edərsə, ona bir şey vacib deyildir

Məsələ: ١٤٠١. Əgər böyük oğul ata və anasının qəza namazlarının olduğunu bilsə, qəzasını yerinə yetirib-yetirməməsində şəkk etsə, ehtiyat-vacibə görə, gərək .qəzalarını qılsın

Məsələ: ۱۴۰۲. Övladlardan hansının böyük oğul olması məlum olmazsa, ata-ananın qəza oruc-namazlarını yerinə yetirmək, onların heç birinə vacib deyil. Amma ehtiyat-müstəhəb budur ki, ata-ananın oruc-namazlarını öz aralarında bölsünlər, yaxud da .püşk atmaqla onlardan biri, bu işləri yerinə yetirmək üçün təyin edilsin

Məsələ: ۱۴۰۳. Əgər meyyit, onun qəza oruc-namazları üçün əcir tutulmasını vəsiyyət etmiş olsa, əcir tutulan şəxs də onun oruc-namazlarını səhih tərzdə yerinə yetirsə, .böyük oğula heç nə vacib deyil

Məsələ: ۱۴۰۴. Əgər böyük oğul, ata-ananın namazlarını qılmaq istəsə, gərək öz təklifinə əməl etsin; məsələn, anasının sübh, məğrib və işa namazlarının qəzasını gərək ucadan qılsın. Həmçinin namazın digər əməlləri və şərtlərində gərək qəza edərkən öz təklifinə uyğun əməl etsin. Əgər qadın kişinin əməllərini yerinə yetirmək üçün naib olsa ehtiyat-.vacibə görə qiratdə kişinin vəzifəsinə (harama səbəb olmazsa) əməl etsin

Məsələ: ۱۴۰۵. Özünün qəza oruc-namazı olan bir şəxs, əgər ata-anasının qəza oruc-.namazları da ona vacib olarsa, hər hansı birini əvvəldə yerinə yetirsə səhihdir

Məsələ: ۱۴۰۶. Böyük oğul, atanın, yaxud ananın vəfatı zamanı həddi-büluğa çatmasa və ya dəli olsa, həddi-büluğa çatandan və ya ağıllı olandan sonra, gərək ata və ananın qəza oruc və namazlarını yerinə yetirsin. O, həddi-büluğa çatmazdan və ya ağıllı .olmazdan qabaq ölsə, ikinci oğlana vacib deyil

Məsələ: ۱۴۰۷. Əgər böyük oğul, ata və anasının qəza namaz və oruclarını yerinə .yetirməzdən öncə vəfat edərsə, ikinci oğula bir şey vacib deyil

CAMAAT NAMAZI

Point

Məsələ: ۱۴۰۸. Müstəhəbdir ki, vacib namazlar, xüsusilə gündəlik vacib namazlar camaatla birlikdə qılınsın. Sübh, məğrib

və işa namazlarında, xüsusən məscidə qonşu olan və məscidin azan səsini eşidənlər .üçün camaat namazında iştirak etmək daha çox tövsiyə olunub

Məsələ: ۱۴۰۹. Əgər bir nəfər imam-camaətə iqtida etsə, onların namazlarının hər rəkətinin ۱۵۰ rəkət namaz savabı vardır. Əgər iki nəfər iqtida etsə, hər rəkətinin ۶۰۰ rəkət namaz savabı var. İqtida edənlər nə qədər artsa, namazlarının savabı da bir o qədər artacaq. Əgər onların sayı ۱۰ nəfərdən keçsə, bütün asimanlar kağız, dəryalar mürəkkəb, ağaclar qələm, cin, ins və mələklər yazan olsalar, o namazın bir rəkətinin .savabını yazıb qurtara bilməzlər

Məsələ: ۱۴۱۰. Etinasızlıq üzündən camaat namazında iştirak etməmək caiz deyildir. .İnsanın üzrü olmadan camaat namazına getməməsi layiq deyil

Məsələ: ۱۴۱۱. Müstəhəbdir ki, insan gözləsin və namazı camaatla qılsın. Camaatla qılınan namaz, əvvəl vaxtda təklikdə qılınan namazdan daha yaxşıdır. Həmçinin, müxtəsər və qısa şəkildə qılınan camaat namazı, təklikdə uzun-uzadı qılınan .namazdan daha yaxşıdır

Məsələ: ۱۴۱۲. Camaat namazı təşkil olunanda müstəhəbdir ki, təklikdə namaz qılan bir şəxs, namazı yenidən camaatla qılsın. Əgər sonradan birinci namazının batil olduğunu .başa düşsə, ikinci namazı kifayətdir

Məsələ: ۱۴۱۳. Əgər imam və yaxud məmum, camaatla qıldığı namazı yenidən camaatla .qılmaq istəsə, işkallıdır

Məsələ: ۱۴۱۴. Bir şəxsin namazda olan vasvası, namazının batil olmasına səbəb olacaq qədər çoxdursa, namazı yalnız camaatla qıldıqda vasvaslıqdan xilas olursa, gərək .namazı camaatla qılsın

Məsələ: ۱۴۱۵. Əgər ata və ya ana öz övladına, namazı camaatla qılmasını əmr etsələr, .gərək onların əmrinə itaət edib namazı camaatla qılsın

Məsələ: ۱۴۱۶. Yağış yağması üçün qılınan istisqa namazı, habelə bəzi səbəblərə görə (müstəhəb olmuş (camaatla qılınması

vacib olan namazlardan; o cümlədən İmamın (ələyhis-səlam) dövründə vacib olub, o həzrətin qaib olmasına görə müstəhəb olan (Fitir və Qurban namazları kimi) .namazlardan başqa, müstəhəb namazları camaatla birlikdə qılmaq olmaz

Məsələ: ١۴١٧. Pişnamaz, gündəlik namazını qılanda, gündəlik namazlardan hər birini ona iqtida edib qılmaq olar. Amma imam, gündəlik namazını ehtiyatən ikinci dəfə .qılırsa, ona iqtida etmək icazəli deyil

Məsələ: ١۴١٨. Əgər imam özünün gündəlik namazının qəzasını qılsa ona iqtida etmək olar. Amma namazını ehtiyatən qəza edirsə, yaxud başqa bir şəxsin namazının .ehtiyatən qəzasını edirsə, ona iqtida etmək icazəli deyil

Məsələ: ١۴١٩. Əgər insan imamın qıldığı namazın vacib ya müstəhəb olduğunu bilməsə, .ona iqtida edə bilməz

Məsələ: ١۴٢٠. Əgər imam mehrabda olsa və bir nəfər də onun arxasında olub iqtida etməsə, mehrabın iki tərəfində durub mehrabın divarının səbəbilə imamı görməyən şəxslər ona iqtida edə bilməzlər. Amma imamın araxasında bir şəxs iqtida etmiş olsa, onun iki tərəfində duran şəxslər, imamı mehrabın divarının vasitəsilə görməsələr .namazlarının işkalı yoxdur

Məsələ: ١۴٢١. Birinci cərgənin uzun olması səbəbilə cərgənin iki tərəfində duran şəxslər imamı görməsələr də, ona iqtida edə bilərlər. Həmçinin əgər (birinci cərgədən başqa) sair cərgələrdən birinin də uzun olması səbəbilə, onun iki tərəfində duran şəxslər, öz .önlərində olan cərgəni görməsələr, iqtida edə bilərlər

Məsələ: ١۴٢٢. Əgər camaat namazının cərgələri məscidin qapısına çatsa, qapının müqabilindəki cərgənin arxasında duran şəxsin namazı səhihdir. Həmçinin onun arxasında durub iqtida edən şəxslərin də namazı səhihdir. Həmçinin onun iki tərəfində durub qabaqdakı cərgəni görməmələrinə baxmayaraq əgər cərgələr bir-birlərinə .birləşibsə namazları səhihdir

Məsələ: ١۴٢٣. Sütunun arxasında duran bir şəxs, əgər sağ, yaxud sol tərəfdən başqa ,məmumun vasitəsilə imama birləşməsə

.iqtida edə bilməz

Məsələ: ١۴٢۴. İmamın dayandığı yer məmumun dayandığı yerdən gərək uca olmasın. Amma imamın dayandığı yer azacıq uca olsa; məsələn: bir qarışdan az olsa) eybi yoxdur. Həmçinin əgər namaz qılınan yer, alçaqlı-ucalı yer olsa və imam uca olan yerdə dayansa, bu halda onun alçaqlığı-ucalığı çox olmasa, belə ki, "düz yerdir" .deyilsə, maneəsi yoxdur

Məsələ: ١۴٢۵. Əgər məmumun yeri imamamın durduğu yerindən uca olsa, eybi yoxdur. .Amma, "camaat ictima etməyib" deyiləcək qədər uca olsa, camaat namazı səhih deyil

Məsələ: ١۴٢۶. Əgər bir cərgədə dayanan şəxslərin içərisində müməyyiz (yaxşını və pisi başa düşən) uşaq fasilə salsa və onun namazının batil olmasını bilməsələr, iqtida edə .bilərlər

Məsələ: ١۴٢٧. İmamın təkbirindən sonra qabaqdakı cərgə, namaza hazır olsa və onların .təkbir demələri yaxın olsa, sonrakı cərgədə dayanan şəxslər təkbir deyə bilər

Məsələ: ١۴٢٨. Əgər öndəki cərgələrdən hər hansı birinin namazının batil olduğu məlum olsa, sonrakı cərgələr iqtida edə bilməz. Amma onların namazlarının səhih olub-.olmaması məlum olmasa, iqtida edə bilərlər

Məsələ: ١۴٢٩. Əgər bir şəxs, imamın namazının batil olmasını bilsə; məsələn, onun dəstəmazsız olduğunu bilsə, hətta imamın özü bu işdən agah olmasa da, ona iqtida .edə bilməz

Məsələ: ١۴٣٠. Əgər məmum, namazdan sonra imamın adil olmadığını, yaxud kafir olduğunu, yaxud müəyyən səbəblər üzündən namazının batil olduğunu bilsə; məsələn, .dəstəmazsız namaz qıldığını bilsə, namazı səhihdir

Məsələ: ١۴٣١. Əgər namaz əsnasında iqtida edib-etməməsində şəkk etsə, hər bir halda .gərək namazı fürada niyyəti ilə tamamlasın

.Məsələ: ١۴٣٢. Camaat namazının hər yerində (məmum) fürada niyyəti edə bilər

Məsələ: ١۴٣٣. Əgər məmum imamın həmd və surəsindən sonra

fürada niyyəti edərsə, həmd və surəni oxuması lazım deyil. Amma həmd və surə qurtarmazdan əvvəl fürada niyyəti edərsə, gərək imam oxumadığı miqdarı oxusun. .Ehtiyat-müstəhəb budur ki, qiraəti yenidən oxusun

Məsələ: ۱۴۳۴. Əgər bir şəxs, camaat namazı əsnasında fürada niyyəti etsə, yenidən camaat namazı niyyəti edə bilməz. Amma fürada niyyəti edib-etməməsində tərəddüddə qalsa və sonradan namazı camaatla birlikdə tamamlamaq qərarına gəlsə, .namazı səhihdir

Məsələ: ۱۴۳۵. Əgər fürada niyyəti edib-etməməsində şəkk etsə, gərək niyyətini, fürada .niyyəti etməməsində qərarlaşdırsın

Məsələ: ۱۴۳۶. Əgər imam rükuda olan zaman iqtida edərsə və imamın rükusuna çatsa, imamın zikrinin qurtarmasına baxmayaraq namazı səhihdir və bir rəkət hesab olunur. .Amma rüku miqdarında əyilsə və imamın rükusuna çatmasa, namazı batildir

Məsələ: ۱۴۳۷. Əgər imam rükuda olan zaman iqtida etsə, rüku miqdarında əyilsə və imamın rükusuna çatıb-çatmamasında şək etsə, namazı batildir. Ehtiyat budur ki, .namazını tamamlasın və ikinci dəfə yenidən qılsın

Məsələ: ۱۴۳۸. Əgər imam rükuda olan zaman iqtida edə və rüku həddində əyilməzdən öncə imam rükudan qalxarsa, fürada niyyəti edə bilər və ya imam sonrakı rəkət üçün qalxanadək gərək dursun və onu öz namazının birinci rəkəti hesab etsin. Amma imamın qalxması, “bu şəxs camaat namazı qılır” deyilməyəcək qədər uzansa, gərək .fürada niyyəti etsin

Məsələ: ۱۴۳۹. Əgər namazın əvvəlində, yaxud həmd-surə oxunan vaxt iqtida etsə və .rükuya getməmişdən qabaq imam başını rükudan qaldırsa, onun namazı səhihdir

Məsələ: ۱۴۴۰. Əgər axırıncı rəkətin təşəhhüdünü oxuduğu vaxt imama çatsa, bu halda camaat namazının savabını qazanmaq istəyərsə, gərək niyyət edib, təkbirətül-ehram dedikdən sonra oturub təşəhhüdü imamla birlikdə oxusun. Amma salamları

deməyib gözləməlidir ki, imam namazın salamını desin, sonra ayağa qalxıb yenidən niyyət etmədən, təkbir demədən, həmd-surəni oxumalıdır. Bunu, öz namazının birinci .rəkəti hesab etməlidir

Məsələ: ۱۴۴۱. Məmum gərək imamdan qabaq durmasın. Ehtiyat-vacib budur ki, onunla yanaşı (bərabər) da durmasın. Onun boyu imamın boyundan uca olduğu təqdirdə, .ehtiyat-vacibə görə, gərək elə dursun ki, rüku və səcdədə imamdan qabaq olmasın

Məsələ: ۱۴۴۲. Camaat namazında, gərək məmumla imam arasında pərdə və onun kimi arxası görünməyən şeylər fasilə salmasın. Həmçinin insanla başqa məmum ki, insan onun vasitəsi ilə imama birləşir, fasilə olmasın. Amma imam kişi, məmum isə qadın olsa, əgər o qadınla imam arasında və ya o qadınla, sair kişi məmum arasında pərdə və onun kimi şey fasilə salsa, belə ki, qadın onun vasitəsi ilə imama birləşsə eybi .yoxdur

Məsələ: ۱۴۴۳. Əgər namaza başladıqdan sonra imamla məmum arasında və ya o məmumun onun vasitəsilə imama birləşən şəxs arasında pərdə və onun kimi şeylər .fasilə salsa, camaat namazı batil və məmumun namazı füradaya çevrilir

Məsələ: ۱۴۴۴. Vacib budur ki, məmumun səcdə yeri ilə imamın durduğu yerin arasında, bir böyük addımdan çox məsafə olmasın. Həmçinin, əgər insan, qabağında dayanan məmumun vasitəsilə imama müttəsil olsa, onun səcdə yeri ilə imamın durduğu yerin arasında, bir böyük addımdan çox məsafə olmasın. Ehtiyat-müstəhəb budur ki, məmumun səcdəsinin yerinin, onun qabağında duran şəxsin dayandığı yerlə, .ümumiyyətlə fasiləsi olmasın

Məsələ: ۱۴۴۵. Əgər məmum, sağında və ya solunda olan şəxsin vasitəsilə imama müttəsil olub amma qabaqdan müttəsil olmasa, ehtiyat-vacibə görə, gərək sağında və .ya solundakı iqtida edən şəxslə bir açıq addımdan artıq fasiləsi olmasın

Məsələ: ۱۴۴۶. Əgər namazda məmumla imam, yaxud

məmumla onun imama müttəsil olduğu şəxs arasında bir addımdan artıq fasilə düşsə, tez fürada niyyəti etməsədə camaat namazı batildir. Fürada vəzifəsinə əməl edərsə .onun namazı fürada olur

Məsələ: ١۴۴٧. Əgər birinci sırada duranların hamısının namazı qurtarsa və ya hamısı fürada niyyət etsələr, əgər fasiləsiz olaraq başqa namazı imama iqtida edərlərsə, sonrakı sıranın camaat namazı səhihdir. Bundan qeyri halda, sonrakı sıraların camaat .namazı fürada olar

Məsələ: ١۴۴٨. Əgər bir şəxs ikinci rəkətdə iqtida etsə, həmd və surəni oxuması lazım deyil. Amma qunutu və təşəhhüdü imamla birlikdə oxumalıdır. Ehtiyat budur ki, təşəhhüdü oxuyan zaman əllərin barmaqlarını və ayaqlarının pəncəsini yerə qoyub, dizlərini qaldırsın, təşəhüddən sonra gərək imamla birlikdə qalxıb həmd və surəni oxusun. Əgər surə üçün vaxt qalmasa, təkcə həmdi oxuyub rükuda və ya səcdədə özünü imama çatdırsın, əgər səcdədə özünü imama çatdırsa ehtiyat budur ki, fürada .niyyət etsin

Məsələ: ١۴۴٩. Əgər imam dörd rəkətli namazın ikinci rəkətində olanda iqtida etsə, namazın ikinci (imamın üçüncü) rəkətində iki səcdədən sonra oturub, əgər imamın qiyamına çatmamasından qorxsa təşəhhüdün vacibi qədərini oxumalıdır əks halda müstəblərini də oxusa heç bir eybi yoxdur, sonra ayağa qalxmalıdır. Əgər təsbihatı üç dəfə deməyə vaxt olmazsa, bir dəfə deyib rükuda və ya səcdədə özünü imama .çatdırsın

Məsələ: ١۴۵٠. Əgər imam üçüncü və ya dördüncü rəkətdə olsa və məmum iqtida edib Həmdi oxuyacağı surətdə imamın rükusuna çatmayacağını bilsə, ehtiyat-vacibə görə .gözləməlidir ki, imam rükuya getsin, sonra iqtida etsin

Məsələ: ١۴۵١. Əgər imamın üçüncü və ya dördüncü rəkətində iqtida etsə, gərək həmd-surəni oxusun. Əgər surə oxumağa vaxt olmasa, gərək həmdi tamamlayıb, rüku və ya səcdədə

özünü imama çatdırsın. Amma imama səcdədə çatsa, ehtiyatən niyyətini füradaya .çevirsin

Məsələ: ۱۴۵۲. Surəni və ya qunutu yerinə yetirdiyi surətdə rükuda imama çatmayacağını bilən bir şəxs, bilərəkdən surə ya qunutu oxuyub rükuya çatmasa, .namazı səhihdir

Məsələ: ۱۴۵۳. Bir şəxs, əmin olsa ki, əgər surəni başlasa və ya tamamlasa imamın rükusuna çatacaqdır, ehtiyat-vacib budur ki, surəni başlasın və ya başlayıbsa .tamamlasın

Məsələ: ۱۴۵۴. Bir şəxsin yəqini olsa ki, əgər surəni oxusa, imamın rükusuna çatacaqdir, .əgər surəni oxusa və rükuya çatmasa, namazı səhihdir

Məsələ: ۱۴۵۵. İmam ayaq üstə olanda, məmum onun hansı rəkətdə olduğunu bilmirsə, ona iqtida edə bilər. Amma gərək həmd-surəni qürbət qəsdi ilə oxusun. Sonradan .imamın birinci, yaxud ikinci rəkətdə olduğunu bilsə, namazı səhihdir

Məsələ: ۱۴۵۶. Bir şəxs imamın birinci, yaxud ikinci rəkətdə olduğunu güman edərək həmd-surəni oxumasa, rükudan sonra onun üçüncü, yaxud dördüncü rəkətdə olduğunu başa düşsə, namazı səhihdir. Amma rükudan qabaq başa düşsə, həmd-surəni oxumalıdır. Vaxtı olmasa, təkcə həmdi oxumalı, rükuda özünü imama .çatdırmalıdır. Belə olmayan təqdirdə fürada niyyəti etsin

Məsələ: ۱۴۵۷. İmamın üçüncü, yaxud dördüncü rəkətdə olmasını güman edən bir şəxs, həmd-surəni oxusa və rükudan əvvəl və ya sonra onun birinci, yaxud ikinci rəkətdə olduğunu başa düşsə, namazı səhihdir. Amma həmd-surə əsnasında başa düşsə, .onları axıra çatdırması lazım deyil

Məsələ: ۱۴۵۸. Əgər bir şəxs müstəhəbi namaza məşğul olduğu vaxt camaat namazı təşkil olunsa, bu halda namazını qurtararsa camaat namazına çatacağına əmin deyilsə, müstəhəbdir ki, namazı kəsib camaatla birlikdə namaz qılsın. Hətta əgər .birinci rəkətə çatacağına əmin olmasa da, müstəhəbdir ki, həmin göstərişə əməl etsin

Məsələ: ۱۴۵۹. Üç, yaxud dörd rəkətli namazı qılmağa məşğul olan zaman camaat namazı təşkil olunsa, bu halda üçüncü rəkətin rükusuna getməyibsə və namazı axıra qədər qılacağı təqdirdə

camaat namazına çatacağına əmin deyilsə, müstəhəbdir ki, namazı müstəhəb namaz .niyyətinə çevirib, iki rəkətlə qurtarsın və özünü camaat namazına çatdırsın

Məsələ: ۱۴۶۰. Əgər imamın namazı qurtarsa, məmum da təşəhhüdü və ya birinci .salamı deməyə məşğuldursa, fürada niyyəti etməsi lazım deyil

Məsələ: ۱۴۶۱. İmamdan bir rəkət geri qalan bir şəxs, onun axırıncı rəkətinin təşəhhüdünü oxuduğu vaxt, qalxıb namazını qurtara bilər və ya əllərinin barmaqlarını, ayaqlarının pəncəsini yerə qoyub, dizlərini yerdən aralayaraq, imamın namazın .salamını deməsini gözləməli, sonra isə ayağa qalxsın

İMAM–CƏMAƏTİN ŞƏRTLƏRİ

Məsələ: ۱۴۶۲. Camaat namazının imamı, gərək baliğ, aqil, ۱۲ İmam şiəsi, adil, halazadə olmalı, namazı səhih tərzdə oxumalıdır. Əgər məmum kişidirsə, gərək imam-cəmaət da kişi olsun. Yaxşı və pisi başa düşən müməyyiz uşağın, başqa bir yaxşı və pisi başa düşə bilən müməyyiz uşağa iqtida etməsinin maneəsi yoxdur. Amma baliğ şəxsin .müməyyiz uşağa iqtida etməsinin işkalı vardır

Məsələ: ۱۴۶۳. Bir şəxs əvvəlcə imamın adil olduğunu bilib, sonradan ədalətində qalıb-.qalmamasında şəkk etsə, ona iqtida edə bilər

Məsələ: ۱۴۶۴. Ayaq üstə namaz qılan bir şəxs oturan, yaxud uzanan halda namaz qılana iqtida edə bilməz. Həmçin, oturan halda namaz qılan bir şəxs, uzanan halda .namaz qılana iqtida edə bilməz

Məsələ: ۱۴۶۵. Oturan və ya uzanan halda namaza qılan şəxs, oturan halda namaz qılan şəxsə iqtida edə bilər və uzanan halda namaz qılan şəxs, uzanan halda namaz qılan .şəxsə iqtida edə bilər

Məsələ: ۱۴۶۶. Əgər pişnamaz, üzürlü səbəbdən nəcis paltarla və ya təyəmmümlə .yaxud da cəbirə dəstəmazla namaz qılarsa, ona iqtida etmək olar

Məsələ: ۱۴۶۷. Əgər imam, xəstəlik üzündən bövl və ğaitinin qarşısını ala bilmirsə, ona iqtida etmək olar. Həmçinin, müstəhazə olmayan qadın müstəhazə qadına iqtida edə .bilər

Məsələ: ۱۴۶۸. Ehtiyat-müstəhəbə əsasən, gərək cüzam və bərəs(۱) xəstəliyi olan adam .imam-camaət olmasın

CAMAAT NAMAZININ HÖKMLƏRİ

Məsələ: ۱۴۶۹. Məmum niyyət edərkən gərək imamını müəyyən etsin. Amma adını bilməsi lazım deyil; məsələn, "bu hazır olan imama iqdtida edirəm" deyərək niyyət .etsə, namazı səhihdir

Məsələ: ۱۴۷۰. Məmum gərək həmd-surə istisna olmaqla, namazın qalan hissələrinin hamısını özü deməlidir. Amma onun birinci və ya ikinci rəkəti, imamın isə üçüncü və ya .dördüncü rəkəti olsa, gərək həmd-surəni oxusun

Məsələ: ۱۴۷۱. Əgər məmum sübh, məğrib və işa namazının birinci və ikinci rəkətlərində imamın həmd-surəsinin səsini eşitsə, onun kəlmələrini bir-birindən ayırd edə bilməsə, gərək həmd-surəni oxumasın. Əgər imamın səsini eşitməsə, müstəhəbdir ki, həmd-surəni oxusun. Lakin, gərək ahəstə oxusun; səhvən ucadan oxusa, eybi yoxdur.

Məsələ: ۱۴۷۲. Əgər məmum, imamın həmd-surəsinin bəzi kəlmələrini eşitsə, ehtiyat-vacib budur ki, həmd-surəni oxumasın.

Məsələ: ۱۴۷۳. Əgər məmum səhvən həmd-surəni oxusa və ya eşitdiyi səsin imamın səsi olmadığını güman edərək həmd-surə oxuyub sonradan onun səsi olduğunu başa .düşsə, namazı səhihdir

Məsələ: ۱۴۷۴. Əgər imamın səsini eşidib-eşitməməsində şəkk etsə, yaxud bir səs eşidib, imamın, yaxud başqa bir şəxsin səsi olduğunu bilməsə, ehtiyat budur ki, həmd-.surəni oxumasın

Məsələ: ۱۴۷۵. Ehtiyat-vacib budur ki, məmum zöhr və əsr namazlarının birinci və ikinci .rəkətlərində həmd-surəni oxumasın

.Dəri xəstəliyi . -۱

.Müstəhəbdir ki, onun yerinə zikr desin

Məsələ: ۱۴۷۶. Məmum təkbirətül-ehramı imamdan qabaq deməməlidir. Hətta ehtiyat-vacib budur ki, onun təkbirətül-ehramı qurtarmayınca, təkbir deməsin.

Məsələ: ۱۴۷۷. Əgər məmum, imamın salamlarını eşitsə və ya onun nə vaxt salam deyəcəyini bilsə, ehtiyat-müstəhəb budur ki, ondan qabaq salamları deməsin. Əgər qəsdən və ya səhvən imamdan qabaq desə, namazı səhihdir və salamları yenidən imamla deməsi lazım deyil.

Məsələ: ۱۴۷۸. Məmumun, namazın təkbirətül-ehramdan başqa, qalan hissələrini imamdan qabaq deməsinin heç bir eybi yoxdur. Ancaq, onları eşitsə və ya imamın onları nə vaxt deməsini bilsə, ehtiyat-müstəhəb budur ki, imamdan qabaq deməsin.

Məsələ: ۱۴۷۹. Məmum, namazda təkcə oxunulmalılardan başqa, rüku və səcdələr kimi sair əməlləri imamla birlikdə, yaxud ondan bir az sonra yerinə yetirməlidir. Əgər qəsdən imamdan qabaq, yaxud ondan bir müddət sonra yerinə yetirsə, günah etmişdir və ehtiyat-müstəhəb budur ki, namazı qılıb qurtarandan sonra yenidən qılsın.

Məsələ: ۱۴۸۰. Əgər səhvən başını rükudan qaldırıb imamın rükuda olduğunu görsə, gərək rükuya qayıtsın və imamla birlikdə qalxsın. Bu halda, rükn olan rükunun artıq olduğuna görə, namazı batil olmur. Amma rükuya çatmamış, imam rükudan qalxsa, namazı batildir.

Məsələ: ۱۴۸۱. Əgər məmum, səhvən başını səcdədən qaldırıb, imamın hələ səcdədə olduğunu görsə, gərək səcdəyə qayıtsın. Əgər hər iki səcdədə bu iş təkrar olarsa, rükn olan iki səcdənin artıqlığı ilə namaz batil olmur.

Məsələ: ۱۴۸۲. İmamdan qabaq, səhvən başını səcdədən qaldıran bir şəxs, səcdəyə qayıtsa və səcdəyə çatmamış imam başını səcdədən qaldırsa, namazı səhihdir. Amma bu iş, bir rəkətin hər iki səcdəsində baş versə, ehtiyat-vacib budur ki, namazı qılıb qurtardıqdan sonra yenidən qılsın.

Məsələ: ۱۴۸۳. Əgər səhvən rükudan və ya səcdədən qalxarsa, səhvən və ya imama çatmayacağını güman edərək yenidən rükuya, yaxud səcdəyə getməsə, namazı .səhihdir

Məsələ: ۱۴۸۴. Əgər başını səcdədən qaldırıb imamın səcdədə olduğunu görsə və imamın birinci səcdəsi olduğunu güman edərək imamla birlikdə səcdəyə getməyi qəsd edib səcdəyə getsə, sonra onun ikinci səcdəsi olduğunu başa düşsə, onun ikinci səcdəsi hesab olunur. Əgər imamın ikinci səcdəsi olduğunu güman edərək səcdəyə getsə və imamın birinci səcdəsinin olduğunu başa düşsə, o səcdəni imama iqtida etmək qəsdi ilə tamamlamalı və sonra (ikinci səcdə üçün) yenidən imamla birlikdə səcdə etməlidir. Amma hər iki halda, ehtiyat-müstəhəb budur ki, namazı camaatla .tamamlayıb yenidən qılsın

Məsələ: ۱۴۸۵. Əgər səhvən imamdan qabaq rükuya getsə və rükudan qalxacağı halda imamın qiraətindən bir hissəsinə çatsa bilərsə, əgər qalxıb yenidən imamla birlikdə rükuya getsə, namazı səhihdir. Əgər qəsdən qayıtmasa, namazı səhihdir. Ehtiyat-.müstəhəb budur ki, namazı qılıb qurtarandan sonra yenidən qılsın

Məsələ: ۱۴۸۶. Əgər səhvən, imamdan qabaq rükuya getsə, təkrar qiyama qalxarsa, imamın qiraətindən bir miqdarına çatmayacağı halda, imamın ona çatmasını .gözləyərsə, namazı səhihdir

Məsələ: ۱۴۸۷. Əgər səhvən imamdan qabaq səcdəyə getsə ehtiyat-vacibə görə qayıtsın imama tabe olsun, əgər imamın ona çatmasını gözləsə, (imam tez çatarsa) .namazı səhihdir. Əks halda namazı fürada tamamlamalıdır

Məsələ: ۱۴۸۸. Əgər imam, qunutu olmayan bir rəkətdə qunut tutsa, yaxud təşəhhüdü olmayan rəkəktdə təşəhhüd oxumağa başlasa, məmum gərək qunutu və təşəhhüdü yerinə yetirməsin. Ancaq imamdan qabaq rükuya gedə bilməz, yaxud ondan əvvəl ayağa dura bilməz. Gərək səbr etsin imam qunut və təşəhhüdü tamamlasın və .namazın qalanınmı onunla birgə qılsın

Məsələ: ١۴٨٩. Əgər məmum bir kişi olsa, müstəhəbdir ki, imamın sağ tərəfində dayansın. Əgər bir qadın olsa, müstəhəbdir ki, imamın sağ tərəfində elə dursun ki, səcdəsinin yeri, imamın dizləri, yaxud ayaqları ilə bərabər olsun. Əgər məmum bir kişi və bir qadın, yaxud bir kişi və bir neçə qadın olsa, müstəhəbdir ki, kişi imamın sağ tərəfində, qadınlar isə imamın arxa tərəfində dursunlar. Əgər bir neçə kişi və ya bir neçə qadın olsa, müstəhəbdir ki, imamın arxasında dursunlar. Əgər bir neçə kişi və bir neçə qadın olsa, müstəhəbdir ki, kişilər imamın arxasında, qadınlar da kişilərin .arxasında dursunlar

Məsələ: ١۴٩٠. Əgər imam və məmum hər ikisi qadın olsalar, daha yaxşı olar bir cərgədə .dursunlar, imam başqalarından qabaq durmasın

Məsələ: ١۴٩١. Müstəhəbdir ki, imam cərgənin ortasında, elm, kamal və təqva sahibi .olan sair şəxslər isə, birinci cərgədə dayansınlar

Məsələ: ١۴٩٢. Müstəhəbdir ki, camaat namazının cərgələri nizam-intizamlı olsun, bir .cərgədə duran şəxslərin aralarında fasilə düşməsin, çiyinləri bir xətt boyunca olsun

Məsələ: ١۴٩٣. Müstəhəbdir ki, “qəd-qamətis-salat” deyiləndən sonra, məmumlar ayağa .qalxsınlar

Məsələ: ١۴٩۴. Müstəhəbdir ki, imam, məmumların arasında halı başqalarına nisbətən zəif olanları nəzərə alsın. Qunut, rüku və səcdələri uzatmasın. Amma ona iqtida .edənlərin hamısının, buna meylli olduqlarını bildiyi hal isə istisnadır

Məsələ: ١۴٩۵. Müstəhəbdir ki, imam-camaət, həmd-surədə və ucadan oxunmalı .zikrlərdə, səsini hamı eşidəcəyi qədər ucaltsın. Amma həddindən artıq ucaltmamalıdır

Məsələ: ١۴٩۶. Əgər imam rükuda olanda, təzə gələnlərin ona iqtida etmək istədiklərini başa düşsə, müstəhəbdir ki, rükunu həmişəkindən ikiqat artırsın və sonra başını qaldırsın. Hətta, daha

.(başqa birinin də iqtida etməsini başa düşərsə (eyni qayda ilə

CAMAAT NAMAZINDA MƏKRUH OLAN ŞEYLƏR

Məsələ: ۱۴۹۷. Əgər camaat namazının cərgələrində yer olsa, insanın təklikdə dayanması məkruhdur.

.Məsələ: ۱۴۹۸. Məkruhdur ki, insan namazın zikrlərini, imamın eşidəcəyi tərzdə desin

Məsələ: ۱۴۹۹. Səfərdə olanın, zöhr, əsr və işa namazlarını iki rəkət qılarkən, bu namazlarda səfərdə olmayanlara iqtida etməsi məkruhdur. Səfərdə olmayan şəxs, bu namazlarda səfərdə olana iqtida etməsi məkruhdur.

CÜMƏ NAMAZI VƏ ONUN HÖKMLƏRİ

Cümə namazı siyasi ibadətlərdən biridir, müsəlmanların problemləri cümə namazının xütbələrində deyilər və həll ola bilər. Buna görədə cümə namazında iştirak etmək çox yaxşıdır və buna çox tövsiyə olunubdur.

Məsələ: ۱۵۰۰. Cümə namazı, sübh namazı kimi iki rəkətdir. Sübh namazından fərqi budur ki, əvvəlində iki xütbə vardır. Bu zamanda cümə namazı tələb olma ümüdü ilə qılınmalıdır. Zöhr və əsr namazlarını da qılmaq vacibdir. Onun vacib olmasının bir neçə şərti vardır.

Vaxtın daxil olması; cümə namazının vaxtı, zəval vaxtından azanın deyilməsi, iki .۱ xütbənin oxunması və cümə namazının qılnmasına kimidir. Əgər cümə namazını bu vaxtdan gecikdirərsə, ehtiyat-vacibə görə cümə namazı qıla bilməz.

Fərdlərin sayı, imamla birlikdə ۷ nəfər olmalıdır. Əgər ۷ nəfər müsəlman cəm olmasa .۲ cümə namazı vacib olmaz. Bəli imamla birlikdə beş nəfərlə qılınan cümə namazı səhihdir.

İmamət şərtlərinə malik olan imamın olması. Camaat namazında imam-camaətin, .۳ ədalət və digər sifətlərə malik olması kimi.

:Cümə namazının səhih olmasının bir neçə şərti vardır

Camaatla qılınmalıdır, buna görə də fərdi qılınması səhih deyildir. Əgər məmum .١ cümə namazının ikinci rəkətində rükudan əvvəl imama yetişib, iqtida edərsə kifayət .edər, bundan qeyri hallarda işkallıdır

Namazdan qabaq iki xütbə oxunmalıdır. Birinci xütbədə Allaha həmd-səna deyilib, .٢ təqvaya və günahlardan qorunmağa tövsiyyə edilərək Qurandan bir surə oxunur. Sonra oturulur və yenidən qalxılır. İkinci xütbədə də Allaha həmd-səna edib Rəsuli-əkrəmə (səlləllahu ələyhi və alihi və səlləm) və müsəlmanların imamlarına (on iki imama) salavat göndərməlidir, mömin kişi və qadınların da Allahdan bağışlanmalarını istəsin. Xütbələrin namazdan əvvəl oxunması lazım deyil. Əgər iki xütbədən qabaq namaza başlayarsa, səhih deyildir. Xütbələrin zöhrdən (zöhr azanından) qabaq oxunması caiz deyil. Xütbə oxuyan imam xütbə oxuyarkən, ayaq üstə durmalıdır. Əgər oturan halda oxusa səhih deyildir. Həmçinin iki xütbə arasında azacıq oturaraq fasilə verməsi lazım və vacibdir. Belə ki, bu oturmanın qısa və müxtəsər olması gərəkdir. Xütbəni oxuyan və imam-camaət bir nəfər olmalıdır. Ehtiyat budur ki, xütbəni təharətli halda oxusun. Xütbənin vacib miqdarı ərəb dilində olmalıdır. Amma yerdə qalanların ərəb dilində olması şərt deyildir. Əgər namazda hazır olanlar ərəbcə bilmirlərsə, onlar .üçün tərcümə edə bilər

İki cümə namazı arasında olan məsafə bir fərsəxdən az olmamalıdır. Buna əsasən .٣ də bir fərsəxdən az bir məsafədə ayrı bir cümə namazı da qılınarsa, belə ki, hər ikisi də eyni zamanda başlanarsa, hər ikisi batildir. Amma əgər biri, hətta təkcə təkbirətül-.ehramı o birindən əvvəl demiş olsa, birincisi səhih, ikincisi isə batildir

Bununla belə, əgər cümə namazı qılındıqdan sonra, bir fərsəxdən az bir məsafədə ondan əvvəl və ya onunla eyni zamanda ayrı bir cümə namazının da qılındığı aşkar olarsa, işkalı yoxdur. İstər cümə namazının vaxtında məlum olsun istərsədə cümə

namazının vaxtı keçdikdən sonra. Zikr olunmuş məsafə daxilində bir cümə namazının qılınması, digər bir cümə namazına, yalnız özünün bütün şərtlərinə malik olub, səhih .olduğu təqdirdə maneəli olur. Səhih olmayan namazın maneə olması işkallıdır

Məsələ: ۱۵۰۱. Şərtlərə mövcud olan cümə namazı qılınarsa iştirak etmək olar. Zahir budur ki, zöhr namazını əvəz etmir. İştirak etmək istəyənlərdə aşağadakı şərtlər .mövcud olmalıdır

.Birinci; mükəlləf kişi olsun. Çünki qadınların cümə namazına getmələri vacib deyil

.İkinci; azad olsun. Deməli cümə namazı qula vacib deyil

.Üçüncü; ağıllı olsun

.Dördüncü; xəstə və kor olmasın

.Beşinci; qoca olmasın

.Altıncı; hava yağışlı olmasın

Yeddinci; şəxslə cümə namazı qılınan yerin arasında iki fərsəxdən çox məsafə .olmasın

.Səkkizinci; iştirak etmək onun üçün çətin olmasın

Məsələ: ۱۵۰۲. Cümə namazında iştirak etməyən üçün zöhr namazını fəzilət vaxtında qılmasının işkalı yoxdur. Amma təxirə salmaq ehtiyata riayət etmək üçün daha .yaxşıdır

Məsələ: ۱۵۰۳. Xütbə oxunan zaman söhbət etmək həm imam həm də məmum üçün .caiz deyil. Əgər danışılsa haram edilməsinə baxmayaraq xütbə batil olmur

Məsələ: ۱۵۰۴. Ehtiyata əsasən iki xütbəyə qulaq asmaq vacibdir. Çünki iki xütbə iki .rəkət namazın yerinədir. Baxmayaraq ki, qulaq asmamaq namazı batil etmir

Məsələ: ۱۵۰۵. Cümə gününün ikinci azanı bidət və haramdır. Bu camaat arasında .üçüncü azan adlanır və əksəriyyət ona əməl edirlər

Məsələ: ۱۵۰۶. Ehtiyat-müstəhəb budur ki, cümə namazına çağırış vaxtı al-ver tərk .olunsun

səh: ۲۸۳

AYƏT NAMAZI

Point

:Məsələ: ۱۵۰۷. Qaydası sonradan deyiləcək ayət namazı, dörd şey vasitəsilə vacib olur

;Günəşin tutulması-۱

;(Ayın tutulması (hətta onların azacıq tutulsa və bir şəxs də qorxmasa-۲

;(Zəlzələ (hətta bir şəxs qorxmasa da-۳

Göy gurultusu, şimşək və yaxud qara-qırmızı küləklər və s. kimi asimani-۴ .əlamətlərdə, camaatın əksəriyyəti qorxarsa, namaz vacib olur

Məsələ: ۱۵۰۸. Əgər ayət namazının vacib olcağına səbəb hadisələrdən bir neçəsi baş versə, insan onun hər biri üçün bir ayət namazı qılmalıdır; məsələn: həm Günəş .tutulsa, həm də zəlzələ baş versə, iki ayət namazı qılınmalıdır

Məsələ: ۱۵۰۹. Bir şəxsə bir neçə ayət namazının qəzası vacib olsa və onların hamısı eyni hadisə üçün vacib olsa, (məsələn, üç dəfə Günəş tutulsa) və onları qılmamış olsa, qəzasını yerinə yetirdiyi vaxt onların hansı üçün qılmasını müəyyən etməsi lazım deyil. Həmçinin, əgər bir neçə ayət namazı göy gurlaması, şimşək, qara-qırmızı küləklər və bunun kimilər üçün insana vacib olsa (eyni qayda ilə). Amma Günəşin və Ayın tutulması, zəlzələ baş verməsi, yaxud bunlardan ikisi üçün namaz vacib olsa, ehtiyat-vacibə görə, gərək niyyət edərkən, ayət namazını hansı üçün qıldığını .müəyyənləşdirilsin

Məsələ: ۱۵۱۰. Ayət namazının vacib olduğu şeylər, hər bir şəhərdə baş versə, təkcə o şəhərin əhalisi ayət namazı qılmalıdır. Başqa yerlərin əhalisinə isə vacib deyil. Amma onların məntəqələri bir-birinə çox yaxın olsa və ikisi bir şəhər hesab olunsa, onlara da .vacib olur

Məsələ: ۱۵۱۱. Günəş və ya ay tutulmağa başlayanda, insan gərək ayət namazı qılmağa başlasın. Ehtiyat-vacibə görə, gərək o qədər təxirə salınmamalıdır ki, açılmağa .başlasın

Məsələ: ١٥١٢. Əgər bir şəxs, ayət namazını çox təxirə salsa və günəş, yaxud ay açılmağa başlasa, əda niyyəti edə bilər. Amma ehtiyat-vacib budur ki, əda və qəza niyyəti etməsin. Amma onun hər yerinin açılmasından sonra namaz qılsa, gərək qəza .niyyəti etsin

Məsələ: ١٥١٣. Əgər ay və günəşin tutulması müddəti bir rəkət namaz qılmaq müddətində olsa, qıldığı namaz ədadır. Həmçinin onların tutulması çox olsa, amma insan namazı qılmasa və onun axırına bir rəkət namaz qılmaq qədər vaxt qalsa (qıldığı namaz ədadır). Əgər bir rəkət qılmaqdan az vaxt varsa ehtiyatən əda və qəza niyyəti .etməsin

Məsələ: ١٥١٤. Zəlzələ, göy gurultusu, şimşək və s. baş verəndə insan dərhal, ayət namazı qılmalıdır. Qılmasa günah etmişdir və ömrünün axırına kimi ona vacibdir. Hər vaxt qılsa, ədadır. Əgər ayət, bir rəkət ayət namazı qılmaq miqdarında olsa namazı itaətsizlik üzündən təxirə salsa ehtiyat-vacib budur ki, gərək əda və qəza niyyəti .etməsin

Məsələ: ١٥١٥. Əgər ayın, günəşin açılmasından sonra, onun bütünlüklə tutulmuş olduğunu bilsə, gərək o ayət namazının qəzasını qılsın. Amma hamısı deyil, bir .miqdarının tutulduğunu bilsə, qəzasını qılmaq vacib deyil

Məsələ: ١٥١٦. Əgər bir dəstə adam, ay və ya günəşin tutulmasını xəbər versə, bu halda əgər insan onların sözündən yəqinə çatmayıb ayət namazını qılmasa, sonradan düz dedikləri məlum olsa, Ay və ya Günəş bütünlüklə tutulmuş olsa, gərək ayət namazı qılsın. Hətta onların bir miqarının tutulması məlum olsa, ehtiyat-müstəhəb budur ki, ayət namazı qılmaq lazımdır. Əgər adil olmaları məlum olmayan iki nəfər günəşin və ya ayın tutulmasını xəbər versə, sonra isə adil olmaları məlum olsa, ehtiyat-vacibə .görə gərək ayət namazı qılınsın

Məsələ: ١٥١٧. Əgər bir şəxs, elmi qaydalar üzrə günəş və ya ayın tutulmasını xəbər verən şəxslərin sözündən əminlik hasil etsə, ehtiyat-vacibə görə gərək ayət namazını ,qılsın. Həmçinin

əgər “filan vaxt ay və ya günəş tutulub, filan qədər davam edəcək” desələr və insan da onların sözlərindən əminlik hasil etsə, ehtiyat-vacibə görə, gərək onların sözlərinə əsasən əməl etsin. Məsələn, əgər “günəş filan saatda açılmağa başlayacaq” desələr, .ehtiyatən, ayət namazını o vaxta qədər təxirə salmasın

Məsələ: ۱۵۱۸. Əgər qıldığı ayət namazının batil olduğunu bilsə, gərək yenidən qılsın. .Vaxtı keçmiş olsa, qəzasını etməlidir

Məsələ: ۱۵۱۹. Əgər gündəlik namazı vaxtında ayət namazı da insana vacib olsa və hər ikisini qılmaq üçün vaxt olsa, onda hər birini əvvəldə qılsa, eybi yoxdur. Əgər onlardan birinin vaxtı az olsa, onu əvvəlcə qılmalıdır. Hər ikisinin vaxtı az olsa, əvvəlcə gündəlik .namazını qılmalıdır

Məsələ: ۱۵۲۰. Əgər gündəlik namazı əsnasında ayət namazının vaxtının az olduğunu başa düşsə, bu halda gündəlik namazının da vaxtı az olsa, onu qurtarıb sonra ayət namazını qılmalıdır. Əgər gündəlik namazın vaxtı az olmasa, onu pozub əvvəlcə ayət .namazı sonra isə gündəlik namazı qılmalıdır

Məsələ: ۱۵۲۱. Əgər ayət namazını qılarkən, gündəlik namazının vaxtının az olduğunu başa düşsə, ayət namazını yarıda saxlayıb gündəlik namazı qılmalıdır. Namazı .qurtarandan sonra onu batil edən bir iş görməsin, ayət namazını, qaldığı yerdən qılsın

Məsələ: ۱۵۲۲. Əgər qadın, heyz və ya nifas olduğu halda günəş, yaxud ay tutulsa və onların açılmasına qədər nifas və ya heyz halında qalsa, ayət namazı ona vacib deyil. Əgər qadın, günəş yaxud ayın tutulma müddətinin hamısında nifas və ya heyz halında olmasa, ehtiyat-vacib budur ki, ayət namazını mafiz-zimə niyyəti ilə yerinə yetirsin. Həmçinin, əgər zəlzələ, göy gurultusu, şimşək və s. kimi hadisələr baş versə, ehtiyat-.vacib budur ki, pak olandan sonra ayət namazını mafiz-zimə niyyəti ilə qılsın

Məsələ: ۱۵۲۳. Ayət namazı iki rəkətdir və hər rəkətində beş rüku vardır. Onun qılınma :qaydası belədir

Niyyətdən sonra təkbir deyib bir Həmd və bir surəni tam oxumalı, rükuya getməli, rükudan qalxıb yenə də bir Həmd və bir surə oxumalı, sonra rükuya getməlidir. Beləliklə bu işi beş dəfə təkrar etməlidir. Beşinci rükudan qalxdıqdan sonra iki səcdə etməli, ayağa qalxıb ikinci rəkəti də, eynilə birinci rəkət kimi yerinə yetirməli, təşəhhüd .və salamı deyib namazı qurtarmalıdır

Məsələ: ۱۵۲۴. (Ayət namazını başqa cür də qılmaq olar); niyyət, təkbirətül-ehram və həmddən sonra bir surəni beş yerə bölsün, bir və ya birdən artıq ayəsini oxuyub rükuya getsin, sonra qalxıb həmdi oxumadan o surənin ikinci hissəsini oxusun, sonra rükuya getsin. Bu qayda ilə beşinci rükudan əvvəl surəni qurtarmalıdır; məsələn, "Qul huvəllah" surəsi niyyəti ilə "Bismillahir-rəhmanir-rəhim" deyib rükuya getsin, sonra qalxıb "Qul huvəllahu əhəd" deyib yenidən rükuya getsin. Sonra qalxıb "Əllahus-səməd" deyib rükuya getsin, sonra qalxıb "Ləm yəlid və ləm yuləd" deyib rükuya getsin, sonra qalxıb "Və ləm yəkun ləhu kufuvən əhəd" deyib beşinci rükuya getsin. Rükudan qalxıb iki səcdə etsin. İkinci rəkəti də birinci rəkət kimi yerinə yetirsin. İkinci .səcdədən sonra təşəhhüd və salamları deyib namazı qurtarsın

Məsələ: ۱۵۲۵. Əgər ayət namazının bir rəkətində, beş dəfə həmd-surə oxusa, o biri .rəkətində isə həmd oxuyub surəni beş yerə bölsə, eybi yoxdur

Məsələ: ۱۵۲۶. Gündəlik namazlarda vacib və müstəhəb olan əməllər ayət namazında da eynilə vacib və müstəhəbdir. Amma ayət namazında müstəhəbdir ki, azan və .iqamənin yerinə üç dəfə, əs-səlat deyilsin

Məsələ: ۱۵۲۷. Müstəhəbdir ki, beşinci və onuncu rükudan sonra "səmiəllahu limən həmidəh" deyilsin. Həmçinin hər

rükudan əvvəl və sonra, təkbir deyilsin. Amma beşinci və onuncu rükudan sonra təkbir .demək müstəhəb deyil

Məsələ: ۱۵۲۸. Müstəhəbdir ki, ۲, ۴, ۶, ۸ və ۱۰-cu rükulardan qabaq qunut tutulsun. Əgər .۱۰-cu rükudan qabaq bir qunut tutulsa kifayətdir

Məsələ: ۱۵۲۹. Əgər ayət namazında neçə rəkət qıldığına şəkk etsə və fikrində də bir .qənaətə yetişə bilməsə, namazı batildir

Məsələ: ۱۵۳۰. Əgər birinci rəkətin axırıncı rükusunda, yaxud ikinci rəkətin birinci rükusunda olmasında şəkk etsə və fikri də bir yerə çatmasa namaz batildir. Amma, misal üçün; dörd və ya beş rüku etməsində şəkk etsə, səcdəyə getmək üçün əyilməyibsə, şəkk etdiyi rükunu yerinə yetirməlidir. Amma səcdə üçün əyilmiş olsa, öz .şəkkinə etina etməməlidir

Məsələ: ۱۵۳۱. Ayət namazının hər rükusu rükndür, əgər qəsdən və ya səhvən azaldılıb-.artırılsa, namaz batildir

FİTR VƏ QURBAN BAYRAMLARININ NAMAZI

Məsələ: ۱۵۳۲. Fitr və Qurban bayramı namazları İmamın (əleyhis-səlam) hazır olduğu (qeybdə olmadığı) vaxt vacibdir və camaatla qılınmalıdır. İmamın (əleyhis-səlam) qaib olduğu (bizim zəmanəmizdə) isə müstəhəbdir. Onu camaatla da, fürada da qılmaq .olar

Məsələ: ۱۵۳۳. Fitr və Qurban bayramı namazlarının vaxtı, gün çıxan vaxtdan zöhrə .qədərdir

Məsələ: ۱۵۳۴. Müstəhəbdir ki, Qurban bayramı namazını günəş qalxandan sonra qılsınlar; Fitr bayramında isə, müstəhəbdir ki, gün qalxandan sonra iftar edib fitrə .zəkatı verəndən sonra, bayram namazı qılsınlar

Məsələ: ۱۵۳۵. Fitr və Qurban bayramı namazları iki rəkətir. Birinci rəkətdə, həmd-surədən sonra beş təkbir deyilməli, hər təkbirdən sonra bir qunut tutulmalıdır. Beşinci ,qunutdan sonra isə, bir təkbir deyib rüku və iki səcdəni yerinə yetirib ayağa qalxmalı

ikinci rəkətdə isə (həmd-surədən sonra) dörd təkbir deyilməli, hər təkbirdən sonra qunut tutub beşinci təkbirdən sonra rüku, səcdəni yerinə yetirib, təşəhüd və namazın .salamımı desin

Məsələ: ۱۵۳۶. Fitr və Qurban bayramı namazlarının qunutunda hər dua oxunsa, :kifayətdir. Amma daha yaxşı olar ki, aşağıdakı dua oxunsun

أَللَّهُمَّ أَهلَ الْكِبْرِياءِ وَالْعَظَمهِ وَأَهْلَ الْجُودِ وَالْجَبَرُوتِ وَأَهْلَ الْعَفْوِ وَالرَّحْمهِ وَأَهْلَ التَّقْوَى وَالْمَغْفِرَهِ أَسْأَلُکَ بِحَقِّ هَـٰذَا الْيَوْمِ الَّذِی جَعَلتَهُ لِلْمُسْلِمِينَ عِيداً وَلِمُحَمَّدٍ صَلىَّ اللهُ عَلَيْهِ وَآلِهِ ذُخْراً وَشَرَفًا وَكَرَامَةً وَمَزِيداً أَنْ تُصَلِّيَ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَأَنْ تُدْخِلَنِی فِی كُلِّ خَيْرٍ أَدْخَلْتَ فِيهِ مُحَمَّداً وَآلَ مُحَمَّدٍ وَأَنْ تُخْرِجَنِی مِنْ كُلِّ سُوءٍ أَخْرَجْتَ مِنهُ مُحَمَّداً وَآلَ مُحَمَّدٍ صَلَوَاتُكَ عَلَيْهِ وَ عَلَيْهِمْ أَللَّهُمَّ إِنِّی أَسْأَلُکَ خَيْرَ مَا سَأَلَکَ بِهِ عِبَادُکَ الصَّالِحُونَ وَأَعُوذُ بِکَ مِمَّا اسْتَعَاذَ مِنهُ عِبَادُکَ الْمُخْلَصُونَ.

Əllahummə əhləl-kibriya`i, vəl-əzəməti və əhləl-əfvi vər-rəhməti və əhlət-təqva vəl-məğfirəti əs`əlukə bihəqqi hazəl-yəvm, əlləzi cəəltəhu lil-musliminə iydən və liMuhəmmədin səlləllahu ələyhi və alihi zuxrən və şərəfən və kəramətən və məzida, ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd və ən tudxiləni fi kulli xəyrin ədxəltə fihi Muhəmmədən və alə Muhəmməd, və ən tuxricəni min kulli su`in əxrəctə minhu Muhəmmədən və alə Muhəmməd, sələvatukə ələyhi və ələyhim. Əllahummə inni əs`əlukə xəyrə ma səələkə bihi ibadukəssalihun və əuzu bikə mimməstəazə minhu .ibadukəl-muxləsun

Məsələ: ۱۵۳۷. İmamın (ələyhis-səlam) ğaib olduğu zaman, fitr və qurban namazlarından sonra iki xütbə oxunması müstəhəbidir. Daha yaxşı olar ki, fitr bayramının xütbəsində, fitr zəkatının hökmləri və qurban bayramımım xütbəsində, .qurbana aid olan hökmlər deyilsin

Məsələ: ۱۵۳۸. Bayram namazının xüsusi surəsi yoxdur. Amma daha yaxşı olar ki, birinci rəkətdə “Şəms” (۹۱-ci surə), ikinci

rəkətdə isə “Ğaşiyə” surəsini (٨٨-ci surə) oxunsunlar. Yaxud birinci rəkətdə .“Səbbihismə” surəsi (٨٧-ci surə) və ikinci rəkətdə isə “Şəms” surəsini oxunsunlar

Məsələ: ١٥٣٩. Müstəhəbdir ki, bayram namazı səhrada qılınsın. Məkkədə isə .müstəhəbdir ki, Məscidül-həramda qılınsın

Məsələ: ١٥٤٠. Müstəhəbdir piyada, ayaq yalın və vüqarla bayram namazna getsinlər. .Namazdan qabaq güsl edib, ağ əmmamə başlarına qoysunlar

Məsələ: ١٥٤١. Müstəhəbdir ki, bayram namazında yerə səcdə etsinlər. Təkbirləri deyəndə, əlləri yuxarı qaldırsınlar. Bayram namaznı qılan şəxs, imam-cəmaətdirsə və .ya fürada namaz qılırsa, namazı ucadan qılmalıdır

Məsələ: ١٥٤٢. Fitr bayramının gecəsi, məğrib və işa namazından sonra; bayram günü, sübh namazından sonra; həmçinin, Fitr bayramının namazından sonra, müstəhəbidir :ki, bu təkbirləri desinlər

أَللهُ أَكْبَرُ أَللهُ أَكبَرُ لاَ إِلَهَ الاَّ اللهُ وَاللهُ أَكْبَرُ أَللهُ أَكبَرُ وَلِلَّهِ الْحَمْدُ أَللهُ أَكْبَرُ عَلَى مَا هَدَانَا

Əllahu əkbər, əllahu əkbər, la ilahə illəllah, vallahu əkbər, əllahu əkbər və lillahil-həmd, .əllahu əkbər, əla ma hədana

Məsələ: ١٥٤٣. Müstəhəbdir ki, insan Qurban bayramında, əvvəlincisi bayram gününün zöhr namazı və axrıncısı isə, ayın ١٢-ci günündə olan sübh namazından ibarət olan on :namazdan sonra əvvəlki məsələdə deyilən təkbirləri deyib sonra isə bunları desin

أَللهُ أَكْبَرُ عَلَى مَا رَزَقَنَا مِنْ بَهِيمَهِ الْأَنْعَامِ وَالْحَمْدُ لِلَّهِ عَلَى مَاأَبْلاَنَا

.Əllahu əkbər, əla ma rəzəqəna min bəhimətil ən`am vəlhəmdu lillahi əla ma əblana

Amma bir şəxs Qurban bayramında Minada olsa, müstəhəbdir ki, bu təkbirləri, əvvəli Qurban bayram gününün zöhr namazı və axırı isə Zil-hiccənin on üçüncü gününün sübh namazıdan ibarət

.olan ١٥ namazdan sonra, desin

Məsələ: ١٥٤٤. Ehtiyat-müstəhəb budur ki, qadınlar bayram namazlarına (qurban və fitr .namazı) getməkdən çəkinsinlər. Amma bu ehtiyat, qoca qadınlar üçün deyil

Məsələ: ١٥٤٥. Bayram namazlarında məmum, gərək digər namazlar kimi, həmd və .surədən başqa bütün əməlləri özü yerinə yetirsin

Məsələ: ١٥٤٦. Əgər məmum, imam təkbirlərin bir miqdarını dedikdən sonra çatsa, imam rükuya getdikdən sonra, gərək imamla demədikləri təkbir və qunutları özü .desin. Əgər hər qunutda bir dəfə "sübhanəllah" və ya "Əlhəmdu lillah" desə, kifayətdir

Məsələ: ١٥٤٧. Əgər bayram namazına, imam rükuda olan zaman çatsa, niyyət edə bilər və birinci təkbiri deyib rükuya getsin. Əgər təkbirlərin heç birinə və ya bir Sübhənəllaha çatmasa daha yaxşı olar fürada qılsın. Hətta bir təkbirə çatsa da daha .yaxşı olar fürada qılsın

Məsələ: ١٥٤٨. Əgər bayram namazında bir səcdəni, yaxud təşəhhüdü unutsa, ehtiyata görə, namazdan sonra yerinə yetirsin. Əgər səcdeyi-səhvə səbəb olan işlərdən birini .görsə, ehtiyat budur ki, namazdan sonra iki səcdeyi-səhv yerinə yetirsin

NAMAZ ÜÇÜN ƏCİR TUTMAQ

Məsələ: ١٥٤٩. İnsanın sağlığında yerinə yetirmədiyi ibadətlərin qəzasını, öləndən sonra yerinə yetirmək üçün bir nəfəri əcir edə bilərlər. Yəni, həmin ibadətləri meyyit tərəfdən yerinə yetirmək üçün ona muzd verə bilərlər. Əgər bir şəxs muzd almadan .yerinə yetirsə, səhihdir

Məsələ: ١٥٥٠. İnsan bəzi müstəhəb işlər üçün (Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) və İmamların (əleyhimüs-səlam) qəbrini ziyarət etmək kimi) diri şəxsin tərəfindən əcir oluna bilər. Həmçinin, hər hansı müstəhəb işi muzd almadan diri adamlar

.tərəfindən yerinə yetirə bilər

Məsələ: ۱۵۵۱. Meyyitin qəza namazları üçün əcir olan şəxs, gərək müctəhid olsun və ya .namazın məsələlərinni təqlid üzündən səhih tərzdə bilsin

Məsələ: ۱۵۵۲. Əcir tutulan şəxs, niyyət etdiyi vaxt, gərək meyyiti müəyyən etsin. Meyyitin adını bilməsi lazım deyil. Əgər “əcir olunduğum şəxs tərəfindən namaz .qılıram” deyə niyyət etsə, kifayətdir

Məsələ: ۱۵۵۳. Əcir tutulan şəxs, özünü meyyitin yerinə fərz etməli, ibadətlərinin qəzasını onun naibi olaraq yerinə yetirməlidir. Əgər müəyyən bir əməli yerinə yetirib .savabını meyyitə hədiyyə etsə, kifayət deyil

Məsələ: ۱۵۵۴. Elə bir şəxsi əcir tutmalıdırlar ki, əməlləri səhih tərzdə yerinə yetirəcəyinə elmləri olsun və ya ehtimal versinlər. Əməlləri səhih tərzdə yerinə yetirməsində şəkk .etməsinlər

Məsələ: ۱۵۵۵. Meyyitin namazları üçün başqasını əcir tutan bir şəxs, onun əməli yerinə .yetirmədiyini, yaxud batil yerinə yetirdiyini başa düşsə, gərək yenidən əcir tutsun

Məsələ: ۱۵۵۶. Əcir tutduğu şəxsin əməli yerinə yetirib-yetirməməsində şəkk etsə, yerinə yetirmişəm desə, kifayət edir. Əgər qılmaması üçün müəyyən bir sübut olsa, o əməllər üçün yenidən əcir tutulmalıdır. Amma yerinə yetirdiyi əməlin səhih olub-.olmamasında şəkk etsə, yenidən əcir tutmaq lazım deyil

Məsələ: ۱۵۵۷. Müəyyən üzrü olan; məsələn: təyəmmümlə, yaxud oturan yerdə namaz qılan şəxsi, meyyitin namazları üçün əcir tutmaq olmaz. Hətta, meyyitdən də həmin .tərzdə qəza olmuşsa da

Məsələ: ۱۵۵۸. Qadın kişi üçün, kişi də qadın üçün əcir ola bilər. Namazı ucadan, yaxud .astadan qılmaqda isə, öz vəzifəsinə əməl etməlidir

Məsələ: ۱۵۵۹. Aralarında tərtibə riayət edilməsi lazım olan namazlarda, tərtib şərtdir; məsələn, bir günün zöhr və əsr, yaxud bir gecənin məğrib və işa namazlarında, tərtibə riayət etmək

lazımdır. Əgər onların tərtibini bilməsə əcir tutan, əcir olunla şərt etsin tərtib hasil olana qədər namaz qılsın. Amma tərtib lazım olmayan namazlarda tərtibə riayət .etmək vacib deyil

Məsələ: ۱۵۶۰. Əgər əcir olan ilə, əməli xüsusi bir şəkildə yerinə yetirməsini şərt etsələr, o şəkildə yerinə yetirməlidir. Amma əgər həmin şəkildə edilən əməlin batil olmasını bilsə, bu istisnadır. Əgər şərt etməmişlərsə, o əməldə öz təklifinə görə əməl etməlidir. Amma özünün və ya meyyitin vəzifəsindən hansı biri ehtiyata daha uyğundursa, ona uyğun əməl etsin. Məsələn; meyyitin vəzifəsi təsbihati ərbəəni üç dəfə oxumaq olduğu halda, öz vəzifəsi yalnız bir dəfə oxumaq olarsa, üç dəfə oxusun ki, ehtiyata uyğun .olsun

Məsələ: ۱۵۶۱. Əgər əcir tutulan şəxs ilə müstəhəb əməllərin nə qədər yerinə yetirəcəyi barədə şərt etməsələr, onun müstəhəbatını adi qaydada olduğu qədər yerinə .yetirməlidir

Məsələ: ۱۵۶۲. Əgər insan, bir neçə nəfəri meyyitin qəza namazını qılmaq üçün əcir tutsa, ehtiyat-müstəhəbə əsasən, hər biri üçün vaxt müəyyən etmək lazımdır, məsələn onların biri ilə qərarlaşdırsa ki, sübhdən zöhrə qədər qəza namazı qılsın digəri ilə zöhrdən gecəyə qədər namaz qılmasını qərarlaşdırsın. Həmçinin müstəhəbdir hər dəfə başladığı namazı müəyyən etsin, məsələn, qərarlaşdırsın birinci qıldığı namaz sübh və ya zöhr yaxud əsr namazı olsun və gərək onlarla qərar qoysun bir gecə-gündüzün namazlarının hamısını qılsınlar. Əgər yarsını (bir neçəsini) qılsalar qıldıqları namazları hesablamasınlar, sonrakı dəfədə qıldıqları namazları ikinci dəfə qılsınlar. Bu o, haldadır ki, çatışmamazlıq zöhr ilə əsr və ya məğrib ilə işa arasında olsun ki, onların .arasında tərtib vacibdir

Məsələ: ۱۵۶۳. Əgər bir şəxs, meyyitin bir ildəki namazlarını qılmaq üçün əcir olsa və il tamam olmamışdan əvvəl ölsə, onun yerinə yetirmədiyini bildikləri namazlar üçün, gərək başqa bir şəxsi əcir tutsunlar. Əgər yerinə yetirmədiyinə ehtimal versələr .ehtiyat-vacib budur ki, başqa bir şəxsi əcir tutsunlar

Məsələ: ۱۵۶۴. Meyyitin namazları üçün əcir tutulan şəxs, onun namazlarını qurtarmamışdan qabaq ölsə və muzdun hamısını almış olsa, bu halda namazların hamısını onun özünün qılmasını şərt etmiş olsalar, qılmadığı namazların muzdunu onun malından götürüb, meyyitin qəyyumuna verməlidirlər; məsələn, əgər onların yarısını qılmış olsa, aldığı pulun yarısını onun malından göyürüb, meyyitin qəyyumuna verməlidirlər. Amma bunu şərt etməmiş olsalar, vərəsələri onun malından əcir .tutmalıdırlar. Əgər malı olmasa, vərəsələrinə heç nə vacib deyil

Məsələ: ۱۵۶۵. Əgər əcir tutulan şəxs, meyyitin namazlarını qılıb qurtarmamışdan qabaq ölsə, özünün də qəza namazı olsa və namazları, onun özünün yerinə yetirməsi şərt olunmasa, onda əcir tutulduğu namazlar üçün, onun malından, başqasını əcir tutmalıdırlar. Əgər onun özünün bir başa yerinə yetirməsini şərt etsələr icarə qalanları üçün batil olur. Əgər (malı) artıq qalsa, bu halda onun bütün namazları üçün əcir tutulmasını vəsiyyət etmiş olsa və vərəsələri də icazə versələr, bütün namazları üçün əcir tutulmalıdır. Əgər icazə verməsələr, malının üçdə birindən namazlarına sərf etməlidirlər. Əgər icazə versələr də malının üçdə birindən əcir tutmaq olar. Əgər malın əslindən götürlməsini vəsiyyət etsə malının üçdə birindən artıqı götürmək vərəsənin .icazəsinə bağlıdır

ORUCUN HÖKMLƏRİ

Point

Oruc budur ki, aləmlərin Rəbbinin əmrini yerinə yetirmək üçün insan, sübh azanından .məğrib azanınadək, sonradan şərh olunacaq orucu pozan şeylərdən çəkinsin

NİYYƏT

Məsələ: ۱۵۶۶. İnsanın orucun niyyətini qəlbindən keçirməsi və ya məsələn: "sabahın orucunu tuturam" deməsi, lazım deyildir. Aləmlərin Rəbbinin əmrini yerinə yetirmək üçün, sübh azanından məğrib azanına qədər orucu batil edən əməllərdən çəkinməsi, kifayətdir. Bütün müddəti oruc olduğunu yəqin etmək üçün, gərək bir az sübh azanından qabaq və bir az da məğrib azanından sonra orucu batil edən əməllərdən .qorunsun

Məsələ: ۱۵۶۷. İnsan Ramazan ayının hər gecəsində sabahkı orucunu niyyət edə .bilər.Yaxşıdır ayın əvvlində, bütün ayın orucunu niyyət etsin

Məsələ: ۱۵۶۸. Ramazan ayının orucunun niyyəti, gecənin əvvəlindən sübh azanına .qədərdir

Məsələ: ۱۵۶۹. Müstəhəb oruc üçün niyyət vaxtı, gecənin əvvəlindən başlayaraq məğrib vaxtınadək niyyət edə biləcək bir zaman qalanadəkdir. Əgər bu müddətə orucu batil edən

.əməllərdən etməyibsə, müstəhəb orucu niyyət edə bilər və orucu səhihdir

Məsələ: ۱۵۷۰. Bır şəxs, sübh azanından qabaq orucu niyyət etmədən yatmışsa, əgər zöhrdən qabaq oyanıb niyyət edərsə, onun orucu istər vacib olsun istərsə də .müstəhəb, səhihdir. Əgər zöhrdən sonra oyanarsa, vacib orucu niyyət edə bilməz

Məsələ: ۱۵۷۱. Əgər Ramazan ayının orucundan qeyri bir orucu tutmaq istəsə, gərək onu müəyyən etsin; məsələn, "qəza orucu", yaxud "nəzr orucu tuturam" deyə niyyət etsin. Amma Ramazan ayınında, "bu ayın orucunu tuturam" deyə niyyət etməsi, lazım deyil. Əgər Ramazan ayı olduğunu bilməsə və ya unudub başqa bir oruc niyyət edərsə, .onun orucu Ramazan ayının orucundan sayılır

Məsələ: ۱۵۷۲. Əgər bir şəxs Ramazan ayı olduğunu bilsə və qəsdən Ramazan ayından başqa orucu niyyət etsə, onun orucu nə Ramazan ayının orucu hesab olunur, nə də .niyyət etdiyi oruc

Məsələ: ۱۵۷۳. Əgər məsələn, Ramazan ayının birinci gününün niyyəti ilə oruc tutub .sonradan ikinci, yaxud üçüncü gün olduğunu başa düşsə, orucu səhihdir

Məsələ: ۱۵۷۴. Əgər sübh azanından qabaq niyyət edib bihuş olsa və günün əsnasında ayılsa, ehtiyat-vacibə görə o günün orucunu axıra çatdırısın. Əgər orucun açsa, sonradan qəzasını tutmalıdır. Əgər orucunu axıra çatdırsa da ehtiyat-vacib budur ki, .qəzasını tutsun

Məsələ: ۱۵۷۵. Əgər sübh azanından qabaq niyyət edib məst olarsa və gün əsnasında ayılarsa, ehtiyat-vacibə görə o günün orucunu tamamlamalı və onun qəzasını da .tutmalıdır

Məsələ: ۱۵۷۶. Əgər sübh azanından qabaq niyyət edib yatsa və məğribdən sonra .oyansa, orucu səhihdir

Məsələ: ۱۵۷۷. Əgər Ramazan ayı olduğunu bilməsə, yaxud unutsa və günortadan qabaq başa düşsə, bu halda orucu batil edən işlərdən görməyibsə, niyyət etməlidir, orucu da səhihdir. Əgər orucu batil edən işlərdən etmişsə, yaxud zöhrdən sonra Ramazan

ayı olduğunu başa düşsə, onun orucu batildir. Lakin məğribə qədər orucu batil edən .işlərdən çəkinməlidir. Ramazan ayından sonra qəzasını tutmalıdır

Məsələ: ۱۵۷۸. Uşaq, Ramazan ayının sübh azanından qabaq həddi-büluğa çatsa, gərək oruc tutsun. Amma sübh azanından sonra həddi-büluğa çatsa, o günün orucu vacib deyil. Əgər savab qazanmaq üçün oruc niyyəti edibsə gərək o günün orucunu sona .çatdırsın

Məsələ: ۱۵۷۹. Meyyitin orucunun qəzasını tutmaq üçün əcir tutulan bir şəxs, əgər müstəhəb oruc tutsa, eybi yoxdur. Amma qəza orucu olan bir şəxs müstəhəb oruc tuta bilməz. Başqa vacib orucun qəzası olsa, müstəhəb oruc tuta bilməz. Əgər unutsa və müstəhəb oruc tutsa, bu halda zöhrdən qabaq yadına düşsə, müstəhəb orucu pozulur .və öz niyyətini vacibi oruc niyyətinə döndərə bilər

Məsələ: ۱۵۸۰. Əgər Ramazan ayının orucundan başqa müəyyən bir oruc insana vacib olsa; məsələn, müəyyən bir günü oruc tutmağı nəzr edibsə, qəsdən sübh azanına kimi niyyət etməsə, orucu batildir. Amma o günün orucunun ona vacib olduğunu bilməsə, yaxud unutsa və günortadan əvvəl xatırlasa, orucu batil edən əməllərdən etmədiyi .halda, niyyət etsə, onun orucu səhihdir. Əks halda batildir

Məsələ: ۱۵۸۱. Əgər kəffarə orucu kimi qeyri müəyyən vacib oruc üçün qəsdən günortaya yaxın vaxta qədər niyyət etməsə, işkalı yoxdur. Əgər niyyətdən qabaq, oruc tutmamaq qərarına gəlsə və ya oruc tutacaq-tutmayacağında tərəddüddə olsa, orucu batil edən əməllərdən yerinə yetirməsə və zöhürdən qabaq oruc niyyəti etsə, .onun orucu səhihdir

Məsələ: ۱۵۸۲. Əgər kafir, Ramazan ayında zöhrdən qabaq müsəlman olsa onun orucu .səhih deyil

Məsələ: ۱۵۸۳. Əgər xəstə, Ramazan ayı günortadan qabaq sağalsa və sübh azanından o vaxta qədər orucu batil edən işlərdən görməmiş olsa, bir şey yeməməzliyin onun ,üçün zərəri olmazsa

ehtiyat-müstəhəb budur ki, oruc niyyəti edib, o günü oruc tutsun. Amma zöhrdən .sonra sağalsa, o günün orucu ona vacib deyil

Məsələ: ۱۵۸۴. İnsan, Şəbanın axırı, yaxud Ramazanın əvvəli olmasında şəkk etsə, oruc tutması vacib deyil. Amma oruc tutmaq istəsə, Ramazan ayının orucunun niyyətini edə bilməz; əgər Ramazandırsa, Ramazan ayının orucu əgər Ramazan deyilsə, qəza orucu və onun kimi oruc hesab olsun deyə niyyət etsə onun orucu ehtiyata əsasən səhih deyil. Amma Allah-taalanın hal-hazirda ondan istədiyini niyyət etsə

.orucu səhihdir, sonradan Ramazan ayı olduğu məlum olsa, Ramazandan hesab olur

Məsələ: ۱۵۸۵. Şəbanın axırı, yaxud Ramazanın əvvəli olmasında şəkk etdiyi halda qəza, müstəhəb və bu kimi sair oruc tutub, gün əsnasında Ramazan olduğunu başa düşsə, .gərək Ramazan ayının orucunu niyyət etsin

Məsələ: ۱۵۸۶. Əgər, Ramazan ayının orucu kimi vacib olan müəyyən bir orucda, orucunu batil etsin ya yox; və ya orucunu batil etmək niyyətini etsə, orucu batil olur. Etdiyi qəstinə görə tövbə etməsinə və orucu batil edən işlərdən etməməsinə .(baxmayaraq (orucu batil olur

Məsələ: ۱۵۸۷. Vaxtı müəyyən olmayan müstəhəb və vacib oruclarda, kəffarə orucu kimi, əgər orucu batil edən əməllərdən yerinə yetirmək qəsdində olsa və ya orucu tutub-tutmayacağında tərəddüdə olsa, yerinə yetirmədiyi halda zöhrdən qabaq .yenidən oruc niyyəti etsin, onun orucu səhihdir

ORUCU BATİL EDƏN ŞEYLƏR

Point

:Məsələ: ۱۵۸۸. Doqquz şey orucu batil edir

.Yemək və içmək-۱

.Cima-۲

.İstimna-۳

Allah, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) və onun canişinlərinin-۴ .(ələyhimus-salam) adından yalan demək

səh: ۲۹۸

.Qəliz tozu boğaza çatdırmaq-۵

.Başın hər yerini suya batırmaq-۶

.Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq-۷

.Axıcı (maye) şeylərlə imalə etmək-۸

.Qusmaq-۹

.Bunların hər birinin hökmü, sonrakı məsələlərdə deyiləcək

YEMƏK VƏ İÇMƏK–۱

Məsələ: ۱۵۸۹. Əgər oruc tutan şəxs qəsdən bir şey yesə və ya içsə, orucu batil olur. İstər adətən yeyilib-içilənlərdən olsun çörək və su kimi, istərsə də adət olmasın torpaq, ağacın şirəsi kimi; istər az olsun, istərsə də çox. Hətta, əgər diş fırçasını ağzının suyu ilə isladaraq ağzından çıxarsa və yenidən ağzına qoyaraq onun rütubətini udsa, orucu batil olur. Amma fırçanın rütubəti, ağzının suyunda və (ayrılıqda) ona, ağız .(suyundan sayılmayan rütubət deyilməyəcək şəkildə aradan getsə, (batil etmir

Məsələ: ۱۵۹۰. Əgər bir şəxs yemək əsnasında sübhün açıldığını başa düşsə, ağzındakı tikələri çıxarmalıdır. Əgər qəsdən udsa, orucu batildir və sonrakı deyləcək göstərişlərə .əsasən kəffarə də vacibdir

.Məsələ: ۱۵۹۱. Əgər oruc tutan şəxs səhvən bir şey yesə və ya içsə, orucu batil olmaz

Məsələ: ۱۵۹۲. Oruc tutan şəxsin dərman və yemək əvəzinə istifadə olunan iynələrdən istifadə etməkdən çəkinməsi lazım deyil. Zərurət olmayan halda dərman və yemək .əvəzinə istifadə olunan iynələrdən istifadə etməkdən çəkinməsi yaxşıdır

Məsələ: ۱۵۹۳. Əgər oruc olan şəxs, dişinin dibində qalan şeyi bilərəkdən udsa, orucu .batil olar. Gərək kəffarə də versin

Məsələ: ۱۵۹۴. Oruc tutmaq istəyən bir şəxsin azandan qabaq dişlərini təmizləməsi (xilal) lazım deyil. Amma dişinin dibində qalan yemək qalıqlarının gündüz boğazına gedəcəyini bilsə, bu halda dişlərini təmizləməsə (xilal etməsə) və o şey boğazına

,getsə

.orucu batil olar

Məsələ: ۱۵۹۵. Ağız suyunu udmaq, hətta əgər turşluq və s.-ni xəyala gətirməklə ağıza yığılsa da, orucu batil etmir.

Məsələ: ۱۵۹۶. Başdan, sinədən gələn suyu (bəlğəm və burun suyunu), ağız boşluğuna çatmayanadək, udmağın eybi yoxdur. Amma ağız boşluğuna daxil olsa, ehtiyat-vacibə görə, gərək onu udmasın.

Məsələ: ۱۵۹۷. Əgər oruc tutan şəxs həddindən artıq susuz olsa və susuzluqdan ölüm təhlükəsi gözlənilsə, vacibdir ölümdən nicat tapacaq qədər su içsin. Lakin orucu batil olur. Əgər (bu iş) Ramazan ayında baş versə, günün qalan hissəsində orucu batil edən işlərdən çəkinməlidir.

Məsələ: ۱۵۹۸. Uşaqlar və ya quş üçün yeməyi çeynəmək, yeməyin dadına baxmaq və bunun kimi işlərdə ki, adətən boğaza çatmayır, təsadüfən boğaza çatsa da, oruc batil etmir. Amma insan əvvəldən onun, boğaza çatacağını bilsə, bu halda boğazına getsə, orucu batil olur. Onun qəzasını tutmalıdır, kəffarə də verməlidir.

Məsələ: ۱۵۹۹. İnsan zəifliyə görə orucunu yeyə bilməz. Amma onun zəifliyi həddindən artıq olsa və adətən dözülməz halda olsa, orucu yeməsinin eybi yoxdur.

CİMA–۲

Məsələ: ۱۶۰۰. Cima, orucu batil edir. (Hərçənd ki, xütnəyədək daxil olub və məni xaric olmasın).

Məsələ: ۱۶۰۱. Əgər xütnədən az daxil olsa və məni gəlməsə oruc batil olmur.

Məsələ: ۱۶۰۲. Əgər xütnəyədək daxil olub-olmamasında şəkk etsə, orucu səhihdir.

Məsələ: ۱۶۰۳. Əgər bir şəxs oruc olduğunu unudub cima etsə və ya onu cimaya məcbur etsələr; belə ki, onun heç bir istək və iradəsi olmasa orucu batil olmaz. Amma cima əsnasında yadına düşsə, yaxud daha bu işə məcbur olmasa, gərək dərhal cima

halından xaric olsun; əgər xaric olmasa, orucu batildir. Hətta qəza və kəffarə də vacib .olur

İSTİMNA–۳

Məsələ: ۱۶۰۴. Əgər oruc tutan şəxs istimna etsə, yəni özü ilə məninin xaric olmasına .səbəb olan bir iş görsə orucu batildir

Məsələ: ۱۶۰۵. Əgər məni ixtiyarsız olaraq gəlsə, oruc batil deyil. Əgər bir iş görsə və .bilsə ki, bu işlə məni ixtiyarsız xaric olacaq, məni ixtiyarsız xaric olsa orucu batildir

Məsələ: ۱۶۰۶. Əgər oruc tutan şəxs, gündüz yatacağı surətdə möhtəlim olacağını (yəni, .məni xaric olacağını) bilsə, ehtiyat-müstəhəb budur ki, yatmasın

Məsələ: ۱۶۰۷. Əgər oruc tutan şəxs məni gələn halda yuxudan ayılsa, məninin .gəlməsinin qarşısını almaq vacib deyil

Məsələ: ۱۶۰۸. Oruc tutan şəxs möhtəlim olsa, qüsldən qabaq bövl edib ۷۳-ci məsələdə deyilən qaydada istibra edə bilər. Bövl və ya istibra vasitəsi ilə kanaldakı məninin .qalanının çölə gələcəyini bilsədə

Məsələ: ۱۶۰۹. Oruc tutan şəxs möhtəlim olsa və məninin kanalda qaldığını bilib, qüsldən qabaq bövl etmədiyi təqdirdə qüsldən sonra məni gələcəksə, ehtiyat-vacibə əsasən, .gərək qüsldən əvvəl bövl etsin

Məsələ: ۱۶۱۰. Əgər bir şəxs, bilərəkdən məni xaric olmasının orucu batil edəcəyini bilirsə, məninın xaric olması qəsdi ilə bir şəxslə oynayıb zarafat etsə, məni ondan xaric .olmasa da, ehtiyata əsasən onun orucu batil olur

Məsələ: ۱۶۱۱. Əgər oruc tutan şəxs məninin çölə gəlməsi qəsdi olmadan, bir şəxslə oynasa və zarafat etsə, ondan məni xaric olmayacağına əmin olduğu təqdirdə, təsadüfən məni xaric olsa, ehtiyat-müstəhəb budur ki, o günün orucunun qəzasını tutsun. Amma məninin ondan xaric olmayacağına əmin olmasa və bu işi etsə gərək .orucu qəza etsin

Məsələ: ۱۶۱۲. Əgər oruc tutan şəxs Allah, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) və o həzrətin canişinlərinin (ələyhimüs-salam) adından demək, yazmaq, işarə etmək və s. kimi vasitələrlə yalan desə, hətta əgər dərhal "yalan deyirəm" desə və ya tövbə etsə də, orucu batildir. Ehtiyat-vacib budur ki, həzrət Zəhraya (ələyha səlam) da .yalan istinad olunmasın

Məsələ: ۱۶۱۳. Əgər səhih və ya yalan olduğunu bilmədiyi bir hədisi nəql etmək istəsə, ehtiyat-vacibə görə, gərək o xəbəri deyən şəxsdən, yaxud o xəbər yazılan kitabdan .nəql etsin

Məsələ: ۱۶۱۴. Əgər bir şeyin düzlüyünə etiqad bəsləyərək Allahın və ya Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) adından nəql etsə, sonra isə yalan olduğunu başa .düşsə, orucu batil olmaz

Məsələ: ۱۶۱۵. Əgər Allah və Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) adından yalan deməyin orucu batil etdiyini bilsə və yalan hesab etdiyi bir şeyi onlara aid edib sonradan düz olduğunu başa düşsə, ehtiyat budur ki, orucu tamamlayıb, qəzasını da .yerinə yetirsin

Məsələ: ۱۶۱۶. Əgər başqasının uydurduğu yalan xəbəri Allaha, Peyğəmbərə (səlləllahu ələyhi və alihi və səlləm) və onların canişinlərinin adından desə, orucu batildir. Amma, .o yalanı uyduran şəxsin adından nəql etsə, eybi yoxdur

Məsələ: ۱۶۱۷. Əgər oruc tutan şəxsdən "Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) filan şeyi buyurubmudur" deyə soruşsalar və o, yox deməli olduğu halda, qəsdən bəli .desə, yaxud əksinə, bəli deməli, olduğu yerdə qəsdən yox desə, orucu batil olur

Məsələ: ۱۶۱۸. Əgər Allah və ya Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) adından düz bir şey deyib, sonradan "yalan deyirəm" desə, yaxud gecə hər hansı bir yalanı onların adından deyib, sabahı gün oruc halında "dünən dediyim düzdür" desə, .orucu batil olur

QƏLİZ TOZU BOĞAZA ÇATDIRMAQ–۵

Məsələ: ۱۶۱۹. Qəliz (qatı) tozu boğaza çatdırmaq, istər həmin qəliz şeyin yeyilməsi halal olsun (un kimi), istərsə də haram (torpaq və s. kimi) olsun, orucu batil edir. Ehtiyat-vacibə əsasən, qəliz olmayan tozu da boğazına çatdırmasın. Əgər qorunmaq çətin olsa .orucu səhihdir

Məsələ: ۱۶۲۰. Külək vasitəsi ilə qatı toz yaranarsa və insan (məsələnin hökmünü) bildiyi .halda, qorumasa və boğazına getsə, orucu batildir

Məsələ: ۱۶۲۱. Ehtiyat-vacib budur ki, oruc tutan şəxs, qəliz buxarı, siqaret və tənbəki və .s. kimi şeylərin tüstüsünü də, boğazına çatdırmasın

Məsələ: ۱۶۲۲. Əgər bir şəxs özünü gözləməsə və toz, buxar, tüstü və s. kimi şeylər boğazına daxil olsa, bu halda əgər boğaza çatmayacağına əmin imişsə, orucu səhihdir. Əgər əmin deyilmişsə, ehtuyat-vacib budur ki, qorunsun və o günün orucunu da qəza .etsin

Məsələ: ۱۶۲۳. Əgər bir şəxs, oruc olduğunu unudub özünü gözləməsə, ixtiyarsız olaraq toz və s. kimi şeylər boğazına daxil olsa, orucu batil olmur. Əgər mümkün olsa onu .boğazından çıxartsın

BAŞI SUYA SALMAQ–۶

Məsələ: ۱۶۲۴. Əgər oruc tutan şəxs başının hər yerini qəsdən suya batırsa, hətta bədəni sudan çöldə olsa da, orucu batil olur. Amma bədəninin hamısı suyun altında, .başının bir qədəri isə çöldə olsa, oruc batil olmaz

Məsələ: ۱۶۲۵. Əgər bir şəxs başının bir yarısını, sonra isə digər yarısını suya batırsa, .orucu batil olmaz

Məsələ: ۱۶۲۶. Əgər başının bütövlüklə suyun altına girib-girməməsində şəkk etsə, .orucu səhihdir

Məsələ: ۱۶۲۷. Əgər başın hamısı suyun altına batsa, amma

.tüklərin bir miqdarı çöldə qalsa, oruc batildir

Məsələ: ۱۶۲۸. Ehtiyat-vacib budur ki, başı gülaba və başqa qarışıq olan (müzaf) sulara da batırmasınlar. Amma sair maye şeylərə batırmaqla oruc batil olmaz. Amma ehtiyat-müstəhəb budur ki, başını onlara da batırmasın.

Məsələ: ۱۶۲۹. Əgər oruc tutan şəxs ixtiyarsız olaraq suya düşsə və başı bütövlüklə suya batsa; yaxud oruc olduğunu unudub başını suya batırsa, orucu batil olmaz.

Məsələ: ۱۶۳۰. Əgər bir şəxs, su onun başını bütöv tutmayacağı ümüdü ilə özünü suya atsa və su onun başını bütöv əhatə edsə, orucunun işkalı vardır. Əgər su onun başını bütöv tutmayacağına əmin olsa, özünü suya atsa və su onun başını bütöv əhatə edsə, orucunun eybi yoxdur.

Məsələ: ۱۶۳۱. Əgər oruc olduğunu unudub başını suya batırsa, yaxud bir şəxs, zorla onun başını suya batırsa, bu halda suyun altında oruc olması yadına düşsə və ya məcbur edən şəxs əl çəksə, dərhal başını sudan çıxartmalıdır. Əgər sudan çıxartmasa, orucu batildir.

Məsələ: ۱۶۳۲. Əgər bir şəxs oruc olduğunu unudub, qüsl niyyəti ilə başını suya batırsa, orucu və qüslü səhihdir.

Məsələ: ۱۶۳۳. Əgər oruc olduğunu bilib, qüsl üçün qəsdən başını suya batırsa, bu halda əgər onun orucu Ramazan ayının orucu kimi vaxtı müəyyəndirsə, oruc və qüslü hər ikisi batildir. Amma müstəhəb, yaxud kəffarə orucu kimi, vaxtı müəyyən olmayan başqa oruc tutmuş olsa, qüslü səhih, orucu isə batildir.

Məsələ: ۱۶۳۴. Əgər suda boğulan bir şəxsi xilas etmək niyyəti ilə suya batsa, ona xilas etməyin vacib olmasına baxmayaraq, orucu batildir.

SÜBH AZANINA QƏDƏR CƏNABƏT, HEYZ VƏ NİFAS HALINDA QALMAQ–۷

Məsələ: ۱۶۳۵. Əgər cünub şəxs, Ramazan ayında və ya onun

qəzasında, qəsdən sübh azanına qədər qüsl etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu halda qəsdən təyəmmüm etməsə, orucu batildir. Ehtiyat-vacib budur ki, başqa .vacib olan oruclarda, da bu hökm icra olunur

Məsələ: ۱۶۳۶. Əgər Ramazan ayının orucu kimi, vaxtı müəyyən olan vacibi orucda, sübh azanına qədər qüsl almasa və təyəmmüm də etməsə, amma bu işlər qəsdən olmasa; .məsələn, başqası onu qüsl, təyəmmüm etməyə qoymasa, orucu səhihdir

Məsələ: ۱۶۳۷. Cünub olan və Ramazan ayı kimi, vaxtı müəyyən olan vacibi oruc tutmaq istəyən bir şəxs, qəsdən qüsl etməsə və vaxt azalsa, gərək təyəmmüm edib oruc .tutsun. Hərçənd qüslu təxirə salmaqla günah etmişdir

Məsələ: ۱۶۳۸. Əgər cünub olan şəxs Ramazan ayında qüslü unutsa və bir gündən sonra yadına düşsə, həmin günün qəzasını etməlidir. Əgər bir neçə gündən sonra yadına düşsə, gərək cünub olduğuna yəqini olan hər günün qəzasını etsin. Məsələn, əgər üç .və ya dörd gün cünub olduğunu bilməsə, üç günün orucunu qəza etməlidir

Məsələ: ۱۶۳۹. Ramazan ayının gecəsində qüsl və təyəmmümün heç biri üçün vaxtı olmayan bir şəxs, özünü cünub etsə, orucu batildir, qəzası və kəffarəsi də vacibdir. Amma təyəmmüm üçün vaxtı olan halda özünü cünub etsə, günah etmişdir, amma .gərək təyəmmüm edib orucu tutsun

Məsələ: ۱۶۴۰. Əgər vaxtın olub-olmamasını bilmək üçün axtarış aparıb, qüsl etmək miqdarında vaxtın olduğu gümanı ilə özünü cünub etsə, sonra, vaxtın az olduğunu anlasa, əgər təyəmmüm etsə, orucu səhihdir. Əgər axtarış aparmadan, qüsl etmək miqdarında vaxtın olduğu gümanı ilə özünü cünub etsə, sonra vaxtın az olduğunu .anlasa və təyəmmümlə oruc tutsa, orucu səhihdir

Məsələ: ۱۶۴۱. Bir şəxs, Ramazan ayının gecəsində cünub olsa və yatacağı halda sübhə qədər oyana bilməyəcəyini bilsə, qüsl etmədən yatmamalıdır. Əgər yatsa və sübhə ,qədər oyanmasa

.orucu batildir. Qəza və kəffarə də vacibdir

Məsələ: ۱۶۴۲. Əgər cünub olan şəxs, Ramazan ayının gecəsində yatıb sonra ayılsa, ehtiyat-müstəhəbə görə qüsldən qabaq yatmasın. Əgər yenidən yatarsa sübh .azanından qabaq oyanacağına ehtimal versə də eyni qayda ilə

Məsələ: ۱۶۴۳. Ramazan ayının gecəsində cünub olan şəxs, yatsa sübh azanından qabaq oyanacağını bilsə, yaxud ehtimal versə, bu halda oyanandan sonra qüsl .alacağını qərara alsa və bu niyyətlə yatıb azana qədər yuxuya qalsa, orucu səhihdir

Məsələ: ۱۶۴۴. Ramazan ayının gecəsində cünub olan şəxs, yatacağı təqdirdə, sübh azanından qabaq oyanacağını bilsə, yaxud ehtimal versə, bu halda oyandıqdan sonra, qüsl edəcəyindən xəbərsiz olub yatsa və sübh azanınadək yuxuda olsa, orucu .səhihdir. Ehtiyat-müstəhəb budur ki, qəzasını tutsun

Məsələ: ۱۶۴۵. Ramazan ayının gecəsində cünub olan şəxs, yatacağı təqdirdə, sübh azanından qabaq oyanacağını bilsə, yaxud ehtimal versə, bu halda oyandıqdan sonra qüsl etmək istəməsə, yaxud qüsl edib-etməyəcəyində tərəddüd edib yatsa və .oyanmasa, orucu batildir. Qəza və kəffarə verməsi lazımdır

Məsələ: ۱۶۴۶. Əgər cünub şəxs Ramazan ayının gecəsində yatıb oyansa və yenidən yatarsa, sübh azanından qabaq oyanacağını bilsə, yaxud ehtimal versə, habelə oyanandan sonra qüsl edəcəyini qərara alıb, yenidən yatsa və sübh azanına qədər oyanmasa, o günün qəzasını etməlidir. Həmçinin əgər ikinci dəfə yatıb-ayıldıqdan sonra yenidən, üçüncü dəfə yatsa, sübh azanına qədər oyanmasa, o günün qəzası ona .vacib olur. Ehtiyat-vacibəbə görə, kəffarə də verməlidir

Məsələ: ۱۶۴۷. Möhtəlim olduğu yuxu, birinci yuxu hesab olunmur. (Əgər yuxudan oyansa, sonra yenidən yatsa, onun birinci yatmağı hesab olunur). Cünub olan şəxs, yatacağı zaman, oyanacağını bilsə, yaxud ehtimal versə, bu halda oyandıqdan sonra qüsl almaq qərarında olsa və bu niyyətlə yatıb azana qədər yuxuya qalsa, orucu səhihdir. Qəza və kəffarə yoxdur. Əgər

yenədən yatacağı təqdirdə, sübh azanından qabaq oyanacağını bilsə, yaxud ehtimal versə, bu halda oyanandan sonra qüsl almaq qərarında olsa və yatıb azana qədər yuxuya qalsa, gərək o günün qəzasını tutsun. Həmçinin, üçüncü dəfə yatsa qeyd olunan şəraitlə sübh azanına qədər oyanmasa o günün qəzasını tutsun, ehtiyat-vacibə .görə kəffarə də versin. Orucun qəza edilməsi gərəkli olan iki halda iftar edə bilməz

Məsələ: ۱۶۴۸. Əgər oruc tutan şəxs, gündüz möhtəlim olsa, dərhal qüsl alması vacib .deyil

Məsələ: ۱۶۴۹. Əgər bir şəxs Ramazan ayında, sübh azanından sonra ayılıb möhtəlim olduğunu bilsə, hətta sübh azanından qabaq möhtəlim olduğunu bilsə də, orucu .səhihdir

Məsələ: ۱۶۵۰. Ramazan ayının orucunun qəzasını tutmaq istəyən bir şəxs, əgər sübh .azanına qədər cünub halında qalsa, hətta qəsdən olmasa da, orucu batildir

Məsələ: ۱۶۵۱. Ramazan ayının orucunun qəzasını tutmaq istəyən bir şəxs, əgər sübh azanından sonra oyanıb möhtəlim olduğunu görsə və sübh azanından qabaq möhtəlim olduğunu bilsə, orucun qəzasının vaxtı genişsə orucu batildir. Əgər orucun qəzasının vaxtı az olsa ehtiyat-vacib budur ki, o günün orucunu tutsun və onun əvəzini .Ramazan ayından sonra oruc tutsun

Məsələ: ۱۶۵۲. Əgər Ramazan ayının və onun qəzasından başqa vacibi orucda sübh azanına qədər cünub halında qalsa, amma bu iş qəsdən olmasa, əgər onun vaxtı müəyyən olsa, məsələn o günü oruc tutmağı nəzr etsə, orucu səhihdir. Əgər kəffarə orucu kimi vaxtı müıyyən olmazsa, ehtiyat-müstəhəb budur ki, o gündən başqa günü .oruc tutsun

Məsələ: ۱۶۵۳. Əgər qadın, Ramazan ayında sübh azanından qabaq heyz və ya nifasdan paklanıb qəsdən qüsl etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu halda qəsdən .təyəmmüm etməsə, orucu batildir

Məsələ: ۱۶۵۴. Əgər qadın, sübh azanından qabaq heyz və ya nifasdan paklansa, amma qüsl üçün vaxtı olmasa, bu halda

Ramazan ayının orucunu, oruc tutmaq istəsə, gərək təyəmmüm etsin və ehtiyat-müstəhəbə əsasən, sübhə qədər oyaq qalsın. Əgər müstəhəb, yaxud Ramazan ayının orucundan başqa vacibi oruc tutmaq istəsə, təyəmmüm etməsə də orucu səhihdir.

Məsələ: ۱۶۵۵. Əgər qadın, sübh azanına yaxın vaxtlarda heyz, yaxud nifasdan paklansa, amma qüsl və təyəmmümün heç biri üçün vaxtı olmasa, yaxud azandan sonra, azandan qabaq pak olduğunu başa düşsə, onun tutduğu oruc, istər Ramazan ayının orucu olsun istərsədə qeyrisi səhihdir. Amma vaxtı geniş olan vacib oruc olsa ehtiyat budur ki, orucu batildir.

Məsələ: ۱۶۵۶. Əgər qadın, sübh azanından sonra heyz və ya nifas qanından paklansa, yaxud gün ərzində heyz və ya nifas qanı görsə, hətta məğribə yaxın vaxtlarda da olsa, orucu batildir.

Məsələ: ۱۶۵۷. Əgər qadın heyz və ya nifas qüslünu unutsa və bir və ya bir neçə gündən sonra yadına düşsə, tutduğu oruclar səhihdir. Ehtiyat-müstəhəb budur ki, tutduğu orucların qəzasını yenidən tutsun.

Məsələ: ۱۶۵۸. Əgər qadın Ramazan ayında sübh azanından qabaq heyz və ya nifas qanından qabaq pak olub qüsl etməkdə səhlənkarlıq etsə və sübh azanına qədər qüsl etməsə, orucu batildir. Amma səhlənkarlıq etməsə; məsələn, qadınların hamamın açılmasını gözləsə, hətta üç dəfə yatıb sonra ayılsa azana qədər qüsl etməsə onun orucu səhihdir. Əgər vaxt varsa təyəmmüm etsin. Əks halda təyəmmümiz də orucu səhihdir.

Məsələ: ۱۶۵۹. Əgər istihazə halında olan bir qadın, öz qüsllərini istihazə hökmlərində deyilən qaydalara uyğun olaraq yerinə yetirsə, orucu səhihdir.

Məsələ: ۱۶۶۰. Meyyitə məss edən şəxs, məss-meyyit qüslü almadan, oruc tuta bilər. Hətta oruc halında da meyyitə məss etsə, orucu batil olmaz.

İMALƏ–۸

Məsələ: ۱۶۶۱. Maye şeylərlə imalə etmək, hətta məcburiyyət üzündən və ya müalicə .üçün olsa da, orucu batil edir

QƏSDƏN QUSMAQ–۹

Məsələ: ۱۶۶۲. Əgər oruc tutan şəxs qəsdən qussa, hətta xəstəlik və s. səbəb üzündən qusmağa naçar olsa, orucu batildir. Amma səhvən, yaxud ixtiyarsız olaraq qussa, eybi .yoxdur

Məsələ: ۱۶۶۳. Əgər gecə bir şey yesə və onu yemək vasitəsilə gündüz ixtiyarsız olaraq .qusacağını bilsə, ehtiyat-vacib budur ki, o günün orucunun qəzasını tutsun

Məsələ: ۱۶۶۴. Əgər oruc tutan şəxs qusmağın qarşısını ala bilərsə və bunun da zərəri .və çətinliyi olmazsa, gərək qabağını alsın

Məsələ: ۱۶۶۵. Əgər milçək, oruc tutan şəxsin boğazına getsə, əgər mümkün olarsa, onu çıxarmaq lazımdır, orucu da batil olmur. Amma onu çıxarmaq qusmağa səbəb olsa, .onu çıxarmaq vacib deyil və onun orucu səhihdir

Məsələ: ۱۶۶۶. Əgər bir şeyi səhvən udsa və mədəsinə çatmamış oruc olduğu yadına .düşsə, mümkün olsa onu çıxarsın, orucu da səhihdir

Məsələ: ۱۶۶۷. Əgər gəyirmək səbəbilə bir şeyin, boğazına gələcəyinə yəqini olsa, .qəsdən gəyirməməlidir. Amma yəqini olmasa, eybi yoxdur

Məsələ: ۱۶۶۸. Əgər gəyirsə və ixtiyarsız olaraq bir şey ağzına gəlsə, onu çölə tökməlidir. .Əgər ixtiyarsız olaraq udulsa, orucu səhihdir

ORUCU BATİL EDƏN ŞEYLƏRİN HÖKMLƏRİ

Məsələ: ۱۶۶۹. Əgər insan qəsdən və ixtiyalı halda orucu batil edən işlərdən etsə, orucu ,batil olur. Qəsdən olmadığı təqdirdə

eybi yoxdur. Amma cünub şəxs yatsa və ۱۶۴۶-cu məsələdə deyildiyi kimi, sübh azanına .qədər qüsl etməsə, orucu batildir

Məsələ: ۱۶۷۰. Əgər oruc tutan şəxs səhvən orucu batil edən işlərdən birini etsə və orucunun batil olmasını güman edərək bilərəkdən o işlərdən yenə də etsə, orucu .batildir

Məsələ: ۱۶۷۱. Əgər bir şeyi zorla oruc tutanın boğazına töksələr və ya başını zorla suya batırsalar orucu batil olmaz. Amma onu orucunu batil etməyə məcbur etsələr; məsələn, "orucunu yeməsən, mal-dövlətinə və ya canına zərər yetircəyik" desələr, .zərərin qarşısını almaq üçün özü bir şey yesə, orucu batil olur

Məsələ: ۱۶۷۲. Oruc tutan şəxs, orucunu özünün batil etməsinə məcbur edəcəklərini bildiyi yerə getməməlidir. Əgər getsə və çarəsizlik üzündən orucu batil edən işlərdəş .etsə, onun orucu batildir. Amma getmək niyyəti edib getməsə orucu səhihdir

ORUC TUTAN ŞƏXSƏ MƏKRUH OLAN ŞEYLƏR

:Məsələ: ۱۶۷۳. Bir neçə şey oruc tutana məkruhdur

.(Gözə dərman tökmək, sürmə çəkmək (əgər dadı, iyi boğaza çatarsa-۱

.(Zəifliyə səbəb olan iş görmək (qan almaq, hamama getmək kimi-۲

.(Burunotu çəkmək (əgər boğaza çatacağını bilməsə; amma əgər bilsə, caiz deyildir-۳

.Ətirli gülləri, bitkiləri iyləmək-۴

.Qadının suda oturması-۵

.Qeyri-maye şeylərlə imalə etmək-۶

.Bədəndəki paltarları islatmaq-۷

.Diş çəkdirmək və ağızdan qan gəlməsinə səbəb olan bütün işlər-۸

.Yaş çubuqdan diş fırçası kimi istifadə etmək məkruhdur-۹

١٠-Mənasız yerə su və ya bir şeyi ağıza qoymaq. Həmçinin,

səh: ٣١٠

insan məninin çölə gəlməsi qəsdi olmadan öz qadınını öpsə, yaxud şəhvətini təhrik edən bir iş görsə; Amma məninin çölə gəlməsi qəsdi ilə olsa, orucu batildir, ehtiyata .görə orucu tutsun, qəzasını da yerinə yetirsin

QƏZA VƏ KƏFFARƏ VACİB OLAN YERLƏR

Məsələ: ۱۶۷۴. Əgər bir şəxs Ramazan ayının orucunda qəsdən qussa, gərək o günün qəzasını tutsun və ehtiyat-vacibə əsasən kəffarə də verməlidir. Əgər gecə cünub olub ۱۶۴۶-ci məsələdə deyildiyi kimi, ikinci dəfə oyanıb yatsa və sübh azanına qədər oyanmasa, təkcə o günün orucunu tutmalıdır, ehtiyat-müstəhəbə əsasən kəffarə də verməlidir. Amma bunlardan başqa, orucu batil edən sair işləri qəsdən etsə, o işin orucu batil etdiyini bildiyi halda həm qəza, həm də kəffarə vacibdir. Amma imalə, .Allaha və Onun Rəsuluna yalan nisbət verəndə kəffarə vermək ehtiyata əsasəndir

Məsələ: ۱۶۷۵. Əgər məsələni bilməməzlik üzündən orucu batil edən işlərdən birini etsə, bu işin halal olduğunu bilirdisə və məsələni öyrənə bilərdisə, ehtiyata görə kəffarə ona .vacib olur

ORUCUN KƏFFARƏSİ

Məsələ: ۱۶۷۶. Ramazan ayının orucunun kəffarəsi vacib olan bir şəxs, bir qul azad etməli və ya sonrakı məsələdə deyilən göstərişə uyğun olaraq iki ay oruc tutmalı, yaxud da ۶۰ fəqiri doyuzdurmalı, yaxud onların hər birinə bir müdd (təqribən ۱۰ sir təqribən bir kilonunu dordə üçünə deyilir) təam yəni buğda, arpa və bu kimi şeylər versin. Əgər bir şəxs üçün bunlar mümkün olmasa, on səkkiz gün ardıcıl oruc tutmaqla mümkün olan (müdd) miqdarda, fəqirə təam vermək arasında (ixtiyar sahibidir). Ehtiyat-müstəhəb budur ki, fəqirlərə yemək verməyi seçsin. Əgər oruc tuta bilməsə ”və yaxud təam verə bilməsə, bir dəfə “əstəğfirullah

.deməklə də olsa, istiğfar etməlidir. Hər vaxt imkanı olsa, kəffarəni verməsi vacibdir

Məsələ: ١۶٧٧. Ramazan ayının orucunun kəffarəsi kimi iki ay oruc tutmaq istəyən bir şəxs, onun ٣١ gününü ardıcıl, arada fasilə salmadan tutmalıdır. Amma yerdə qalan .günlər ardıcıl olmasa, eybi yoxdur

Məsələ: ١۶٧٨. Ramazan ayının orucunun kəffarəsi kimi, iki ay oruc tutmaq istəyən bir şəxs, əvvəldə ardıcıl tutmalı olduğu ٣١ günü elə gündə başlamalıdır ki, bu ٣١ günün içində oruc tutulması haram olan günlərdən (Qurban bayramı günü kimi) olmasın. .Əgər bilməsə, eybi yoxdur

Məsələ: ١۶٧٩. Ardıcıl oruc tutmalı olan bir şəxs, arada üzrsüz səbəbə görə bir gün oruc tutmasa, yaxud tutmağa başladığı zaman, oruc günləri arasında, orucu vacib olan bir günə təsadüf edəcəyini bilsə; məsələn, oruc tutmağı nəzr etdiyi günə təsadüf etsə, .gərək orucları əvvəldən başlasın

Məsələ: ١۶٨٠. Əgər ardıcıl oruc tutmalı olan günlər əsnasında heyz, nifas kimi üzr, yaxud getməyə məcbur olduğu bir səfər qarşıya çıxsa, üzrü aradan qalxandan sonra günləri əvvəldən başlaması vacib deyil; orucun qalanını, üzrü aradan qalxandan sonra .tutmalıdır

Məsələ: ١۶٨١. Əgər bir şəxs orucu haram şeylə batil etsə, istər bu şey ümumiyyətlə haram olsun (şərab və zina kimi), istərsə də bir cəhətə görə haram (zərəri olan halal yemək və ya öz əyalı ilə heyz halında yaxınlıq etmək kimi) olsun, ehtiyat-vacibə görə ona cəm kəffarəsi vacib olur. Yəni, həm bir qul azad etməli, həm iki ay oruc tutmalı, həm də ۶٠ fəqiri doyuzdurmalıdır (yaxud da onların hər birinə bir müdd (təqribən kilonun dördə üçü qədər) təam verməlidir). Əgər bu üçünün hamısını yerinə yetirmək .mümkün olmazsa, mümkün olan qədərini yerinə yetirməlidir

Məsələ: ١۶٨٢. Əgər oruc tutan şəxs, bilərəkdən Allah və Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) adından yalan danışsa, ehtiyat-vacibə əsasən cəm kəffarəsi vacib .olur

Məsələ: ۱۶۸۳. Əgər oruc tutan şəxs, Ramazan ayının bir günündə, bir neçə dəfə cima etsə, ehtiyata əsasən, o qədər də kəffarə vacibdir. Əgər onun ciması haram cima olsa, .hər dəfə üçün, bir cəm kəffarəsi vacib olur

Məsələ: ۱۶۸۴. Əgər oruc tutan şəxs, Ramazan ayının bir günündə bir neçə dəfə (cimadan başqa) orucu batil edən sair işlər görsə, onların hamısı üçün bir kəffarə .kifayətdir

Məsələ: ۱۶۸۵. Əgər oruc tutan şəxs, cimadan başqa orucu batil edən sair işlər görsə, .sonra isə öz halalı ilə cima etsə, hər biri üçün ayrıca kəffarə vacibdir

Məsələ: ۱۶۸۶. Əgər oruc tutan şəxs, (cimadan başqa) orucu batil edən halal işlərdən görsə; məsələn, su içsə, sonra isə (cimadan başqa) orucu batil edən haram işlərdən .görsə; məsələn, haram yemək yesə, bir kəffarə kifayətdir

Məsələ: ۱۶۸۷. Əgər oruc tutan, gəyirdiyi vaxt ağzına bir şey gəlsə və onu qəsdən udsa, orucu batildir. Gərək qəzasını tutsun kəffarəsini də versin. Əgər o şeyin yeyilməsi haram olsa: məsələn, gəyirdiyi zaman ağzına gələn şey, qan və ya öz şəkildən çıxmış yemək olsa və qəsdən onu udsa, gərək o günün qəzasını tutsun. Ehtiyata görə cəm .kəffarəsi də vacibdir

Məsələ: ۱۶۸۸. Əgər bir şəxs müəyyən gündə oruc tutacağını nəzr etsə və həmin günü oruc tutub qəsdən batil etsə, gərək ya bir qul azad etsin, ya iki ay ardıcıl oruc tutsun, .ya da ۶۰ fəqirə təam versin

Məsələ: ۱۶۸۹. Vaxtı ayırd edə bilən bir şəxs, "məğrib olmuşdur" deyən bir şəxsin sözünə inanıb iftar etsə və sonradan hələ məğrib olmadığı məlum olsa, qəza və kəffarə ona .vacib olur

Məsələ: ۱۶۹۰. Öz orucunu qəsdən batil edən bir şəxs, zöhrdən sonra səfərə çıxsa, yaxud zöhrdən qabaq kəffarədən qaçmaq üçün səfər etsə, kəffarəsi boynundan götürülmür; hətta əgər zöhrdən qabaq qarşıya çıxan səfərə getsə kəffarə ona .vacibdir

Məsələ: ۱۶۹۱. Əgər bir şəxs qəsdən orucunu batil etsə və sonradan heyz, nifas və ya

,başqa xəstəlik kimi, üzr qarşıya çıxsa

səh: ٣١٣

.ehtiyat-vacibə əsasən kəffarə ona vacibdir

Məsələ: ۱۶۹۲. Əgər Ramazan ayının əvvəl günü olduğunu yəqin edib bilərəkdən öz orucunu batil etsə, sonra Şəban ayının axırı olduğu məlum olsa, kəffarə ona vacib .deyildir. Ehtiyat-müstəhəbə görə kəffarə versin

Məsələ: ۱۶۹۳. Əgər insan Ramazanın axırı ya Şəvvalın əvvəli olmağında şəkk edib öz orucunu batil etsə və sonradan Şəvvalın əvvəli olduğu məlum olsa, kəffarə ona vacib .deyil

Məsələ: ۱۶۹۴. Əgər oruc tutan şəxs, Ramazan ayında özünün oruc tutmuş arvadı ilə cima etsə, bu halda arvadını cimaya məcbur etmişsə, həm özünün, həm də arvadının .kəffarəsini verməlidir. Amma qadın cimaya razı olsa, hər birinə bir kəffarə vacibdir

Məsələ: ۱۶۹۵. Əgər qadın, oruc tutmuş ərini cimaya, yaxud orucu batil edən başqa bir .işə məcbur etsə, ərinin kəffarəsini verməsi vacib deyildir

Məsələ: ۱۶۹۶. Əgər oruc tutan şəxs, Ramazan ayında özünün oruc tutmuş arvadı ilə cima etsə, bu halda qadını, özündən ixtiyarı olmayan halda məcbur etsə və cima əsnasında da qadın razı olsa, ehtiyat-vacibə görə, kişi iki, qadın isə bir kəffarə .verməlidir

Məsələ: ۱۶۹۷. Əgər oruc tutan şəxs, Ramazan ayında, oruc tutmuş arvadı yuxuda olan halda onunla cima etsə, kişiyə bir kəffarə vacibdir. Qadının orucu səhihdir, kəffarə də .vacib deyildir

Məsələ: ۱۶۹۸. Əgər kişi, qadınını cimadan başqa, orucu batil edən sair işlərə məcbur .etsə, qadının kəffarəsini verməməlidir, qadının özünə də kəffarə vacib deyil

Məsələ: ۱۶۹۹. Səfərdə olmaq və ya xəstəlik səbəbi ilə oruc tutmayan bir şəxs, oruc tumuş qadınını cimaya məcbur edə bilməz. Amma məcbur edərsə, kişiyə kəffarə vacib .deyil

Məsələ: ۱۷۰۰. İnsan kəffarəni verməkdə səhlənkarlıq etməməlidir. Amma onu dərhal .verməsi lazım deyil

Məsələ: ۱۷۰۱. Əgər bir şəxsə kəffarə vacib olsa və bir neçə il onu verməsə, üstünə bir .şey əlavə olunmur

Məsələ: ۱۷۰۲. Bir günün kəffarəsi üçün ۶۰ fəqirə təam verməli

olan bir şəxs, ۶۰ fəqir tapa bilsə, gərək tapdığının hər birinə bir müddən artıq təam verməsin, yaxud bir fəqiri bir dəfədən artıq doyuzdurmasın. Amma fəqirin ailəsi olsa, insan onun fəqir ailə üzvlərinin hər biri üçün, hətta səğir olsalar da, bir müdd təam . verə bilər

Məsələ: ۱۷۰۳. Ramazan ayının orucunun qəzasını tutan bir şəxs, zöhrdən sonra qəsdən orucu batil edən bir iş görsə, ۱۰ fəqirin hər birinə bir müdd təam verməlidir. Əgər bunu .edə bilməsə, üç gün oruc tutmalıdır

ORUCUN TƏKCƏ QƏZASI VACİB OLAN YERLƏR

:Məsələ: ۱۷۰۴. Bir neçə halda orucun təkcə qəzası vacib olur və kəffarə vacib deyil

Oruc tutan şəxs, mülaibə və bu kimi yolla məninin xaric olmasını qəsd etmədən məni-۱ xaric edərsə və məninin xaric olması adət olmazsa ehtiyat-vacib budur ki, qəzasını tutsun, kəffarə isə

.yoxdur

Ramazan ayının gecəsində cünub olsa (boynuna cənabət qüslü gəlsə) ۱۶۴۶-cı-۲ .məsələdə deyildiyi kimi

Orucu batil edən əməllərdən görməsə, amma oruc niyyəti etməsə və ya riya etsə,-۳ yaxud oruc olmamasını qəsd etsə; yaxud da orucu batil edən bir şeyi niyyət etsə. .Sonuncuda ehtiyata əsasəndir

Ramazan ayında cənabət qüslünu unudub bir və ya bir neçə gün cənabətli halda-۴ .oruc tutsa

Ramazan ayında sübhün açılıb-açılmamasını təhqiq etmədən, orucu batil edən-۵ işlərdən etsə və sonradan sübh olduğu məlum olsa; həmçinin, əgər təhqiq etdikdən sonra, sübh olmasını güman etdiyi halda, orucu batil edən bir iş görsə, sonra sübh olması məlum olsa, ehtiyat-vacibə görə, o günün qəzası ona vacibdir. Əgər təhqiq etdikdən sonra, sübh olub-olmamasında şəkk etsə və orucu batil edən işlərdən görsə, ,sonra da sübh olması məlum olsa

.ehtiyat-vacibə görə, gərək o günün qəzasını yerinə yetirsin

Bir şəxs sübhün açılmadığı barədə xəbər versə və başqası da onun dediyinə əsasən,-۶ .orucu batil edən işlərdən görsə, sonradan sübhün daxil olduğu məlum olsa

Bir şəxs “sübh olmuşdur” desə və insan onun sözünə yəqini olmasa, yaxud zarafat-۷ etdiyini güman edərək orucu batil edən işlərdən etsə və sonra sübhün açıldığı məlum .olsa

Kor və s. kimi şəxslər, başqa şəxsin dediyinə istinad edərək iftar etsə və sonradan-۸ .hələ iftar vaxtı olmadığı məlum olsa

Bir şəxs, açıq havada qaranlıq səbəbi ilə məğrib olmasını yəqin edib iftar etsə,-۹ sonradan məğrib olmaması məlum olsa; ehtiyat-vacib budur ki, qəzasını tutsun. Amma buludlu havada məğrib olmasını güman edərək iftarını açsa və sonradan .məğrib olmadığı məlum olsa, qəzası lazım deyildir

Sərinləmək və ya heç bir səbəb olmadan suyu ağzında qar-qara etsə və ixtiyarsız-۱۰ olaraq qarnına getsə; (amma oruc olduğunu unudub suyu udsa, yaxud vacib namazın dəstəmazı üçün suyu qar-qara edəndə, ixtiyarsız olaraq udsa, onun qəzası vacib deyil. .Həmçinin qar-qara, nafilə namazı üçün olsa, qəza lazım deyil

Məsələ: ۱۷۰۵. Əgər bir şəxs, sudan başqa bir şeyi ağzına aparıb ixtiyarsız udsa, yaxud burnuna su çəkəndə ixtiyarsız olaraq udsa, qəzası vacib deyildir. Amma ehtiyat-.müstəhəb budur ki, bu iki surətdə qəzasını tutsun

Məsələ: ۱۷۰۶. Oruc tutan şəxsin su ilə çox məzməzə etməsi məkruhdur. Məzməzədən .sonra ağzının suyunu udmaq istəsə, yaxşı olar ki, üç dəfə ağzının suyunu çölə töksün

Məsələ: ۱۷۰۷. Əgər məzməzə edəcəyi halda ixtiyarsız, yaxud unutqanlıq üzündən .suyun boğazına gedəcəyini bilsə, məzməzə etməməlidir

Əgər bir şəxs məcburiyyət, iztirab və ya təqiyyə üzündən iftar etsə, qəzası lazımdır-۱۱ .və kəffarəsi yoxdur

Məsələ: ۱۷۰۸. Əgər Ramazan ayında təhqiq edib, sonra sübh olmadığını yəqin etdərək,

orucu batil edən işlərdən birini etsə və

.sonradan sübh olduğu məlum olsa, qəzası lazım deyil

Məsələ: ۱۷۰۹. Əgər insan məğrib olub-olmamasında şəkk etsə, iftar edə bilməz. Amma sübh olub-olmamasında şəkk etsə, təhqiq etməzdən qabaq, orucu batil edən işlərdən .edə bilməz

QƏZA ORUCUNUN HÖKMLƏRİ

Məsələ: ۱۷۱۰. Əgər dəli insan ağıllansa, dəli olduğu vaxtlardakı orucların qəzasını .tutması vacib deyil

Məsələ: ۱۷۱۱. Əgər kafir müsəlman olsa, kafir olduğu vaxtlardakı orucların qəzasını tutması vacib deyil. Əgər müsəlman kafir olsa və yenidən müsəlman olsa, kafir olduğu .günlərin orucunun qəzası vacibdir

Məsələ: ۱۷۱۲. İnsandan məstlik səbəbi ilə fövtə gedən oruc qəza edilməlidir. Onu məst .edən şeyi müalicə məqsədi ilə qəbul etsə də gərək onu qəza etsin

Məsələ: ۱۷۱۳. Əgər müəyyən üzr üçün, bir neçə gün oruc tutmayıb sonradan üzrünün nə vaxt aradan qalxdığında şəkk etsə, ehtimal verdiyi az günlərin orucunu qəza edə bilər. Ehtiyat-müstəhəb budur ki, ehtimal verdiyi çox günlərin orucunu qəza etsin; məsələn: Ramazan ayından qabaq səfər edib ayın beşində, yoxsa altısında qayıtmasını bilməyən bir şəxs, beş gün qəza orucu tuta bilər. Ehtiyat-müstəhəb budur ki, altı gün qəza orucu tutsun. Həmçinin, üzrün nə vaxt yarandığını bilməyən bir şəxs az miqdarı qəza edə bilər; məsələn, Ramazan ayının axırlarında səfərə gedib, Ramazan ayından sonra səfərdən qayıtsa və ۲۵-ində, yoxsa ۲۶-ında səfər etdiyini bilməsə, az miqdarı, yəni beş günü qəza edə bilər. Amma ehtiyat-müstəhəb budur ki, .çox günlərin yəni altı günün orucunu qəza etsin

Məsələ: ۱۷۱۴. Əgər bir neçə Ramazan ayının qəzaları qalmış olsa, hər birinin qəzasını əvvəl tutarsa, maneəsi yoxdur. Amma axırıncı Ramazanın orucunun qəzasının vaxtı az olsa; məsələn, Ramazanın başlamasına beş gün qalsa və onun da axırıncı

Ramazan ayından beş gün qəzası qalmış olsa gərək axırıncı Ramazanın qəzasını .tutsun

Məsələ: ۱۷۱۵. Əgər bir neçə Ramazan ayının oruclarının qəzası bir şəxsə vacib olsa, niyyətdə də tutduqlarının hansının qəzası olmasını müəyyənləşdirməsə, tutduqları .oruc birinci ilin Ramazan ayının qəzası hesab olunur

Məsələ: ۱۷۱۶. Bir şəxs Ramazan ayının orucunun qəzasını tutsa, bu halda əgər o .orucların qəzasının vaxtı az olmasa, zöhrdən qabaq öz orucunu batil edə bilər

Məsələ: ۱۷۱۷. Əgər bir şəxs bir meyyitin oruclarının qəzasını tutubsa, ehtiyat-vacib .budur ki, onu zöhrdən sonra batil etməsin

Məsələ: ۱۷۱۸. Əgər xəstəlik, yaxud heyz və ya nifas səbəbilə Ramazan ayının orucunu tutmasa və Ramazan ayı qurtarmamışdan qabaq ölsə, tutmadığı günləri, onun üçün .qəza etmələri lazım deyil

Məsələ: ۱۷۱۹. Əgər müəyyən xəstəlik səbəbilə Ramazan ayının orucunu tutmasa və onun xəstəliyi gələn ilin Ramazan ayına kimi davam etsə, oruc tutmadığı günlərin qəzası ona vacib deyil. Amma, gərək hər gün üçün bir müdd təam (buğda, arpa və s. kimi şeylər) fəqirə versin. Ehtiyat-müstəhəb budur ki, sağalandan sonra qəzasını tutub kəffarəsini versin. Amma başqa üzr səbəbilə; məsələn, səfərə getdiyi üçün oruc tutmamış olsa və onun üzrü, gələn Ramazan ayına qədər davam etsə oruc tutmadığı günlərin qəzasını etməlidir. Ehtiyat-müstəhəb görə, gərək hər gün üçün bir müdd .təam da fəqirə versin

Məsələ: ۱۷۲۰. Əgər müəyyən xəstəlik səbəbilə Ramazan ayının orucunu tutmasa və Ramazandan sonra xəstəliyi sağalsa, lakin tapılan başqa bir üzr səbəbilə sonrakı Ramazan ayına qədər oruclarının qəzasını tuta bilməsə, gərək oruc tutmadığı günlərin qəzasını tutsun. Həmçinin, əgər Ramazan ayında xəstəlikdən başqa, bir üzrü olsa və Ramazandan sonra üzrü aradan qalxsa, amma gələn ilin Ramazan ayına qədər xəstəlik səbəbilə oruclarının qəzasını tuta bilməsə, qəza etməlidir. Birinci fərziyədə

kəffarə verməsi müstəhəbdir. Amma ikinci fərziyədə ehtiyat-vacibə görə, kəffarə .verməlidir

Məsələ: ۱۷۲۱. Əgər Ramazan ayında müəyyən üzr səbəbilə oruc tutmasa və Ramazan ayından sonra üzrü aradan qalxsa, amma növbəti Ramazan ayına qədər onların qəzasını qəsdən tutmasa, gərək onların qəzasını etsin, hər gün üçün də bir müdd təam .arpa, buğda və s. kimi şeylər fəqirə versin

Məsələ: ۱۷۲۲. Əgər orucun qəzasında səhlənkarlıq etsə və nəticədə vaxt az qalsa, vaxtın azlığında da bir üzrlü iş qarşıya çıxsa, qəzaları tutmalı, hər gün üçün də bir müdd təam fəqirə verməlidir. Üzrlü olduğu vaxt, əgər üzrü aradan qalxandan sonra oruclarının qəzasını tutmaq qərarında olsa və qəza etməmişdən qabaq, belə bir vaxtın azlığında, bir üzr tapılsa, gərək onun qəzasını tutsun. Ehtiyat-vacib budur ki, hər gün .üçün bir müdd təam fəqirə versin

Məsələ: ۱۷۲۳. Əgər insanın xəstəliyi bir neçə il davam etsə, sağalandan sonra, növbəti Ramazan ayına qədər qəzaları tutmaq miqdarında vaxt olsa, gərək bacardığı qədər axırıncı Ramazan ayının qəzasını tutsun. Əvvəlki illərin qəzaları üçün də hər gün üçün .bir müdd təam; buğda, un və bu kimi şeylər, fəqirə versin

Məsələ: ۱۷۲۴. Hər gün üçün fəqirə bir müdd təam verməli olan bir şəxs, bir neçə günün .kəffarəsini bir fəqirə verə bliər

Məsələ: ۱۷۲۵. Əgər Ramazan ayının oruclarının qəzasını bir neçə il təxirə salsa, gərək .qəza edib və hər gün üçün də bir müdd təam fəqirə versin

Məsələ: ۱۷۲۶. Əgər bir şəxs, Ramazan ayının orucunu qəsdən tutmasa, onların qəzalarını yerinə yetirdikdən sonra hər gün üçün iki ay oruc tutmalı, yaxud ۶۰ fəqirə təam verməli və ya bir qul azad etməlidir. Əgər növbəti Ramazana qədər onların .qəzasını tutmasa, hər gün üçün bir müdd təam da verməlidir

Məsələ: ۱۷۲۷. Əgər Ramazan ayının orucunu qəsdən tutmasa və gün ərzində bir neçə dəfə cima etsə, ehtiyat-vacibə əsasən, həmin qədər kəffarə verməsi lazımdır. Amma orucu bir neçə defə

batil edən digər işlərdən etsə; məsələn, bir neçə dəfə yemək yesə, bir kəffarə .kifayətdir

Məsələ: ١٧٢٨. Atanın vəfatından sonra böyük oğul, onun oruc-namazlarını qəza namazı bölməsində deyilən təfsilat ilə yerinə yetirməlidir. Ehtiyat-müstəhəbə görə, ananın da .orucunun qəzasını, deyilən təfsilat ilə yerinə yetirməlidir

Məsələ: ١٧٢٩. Əgər ata, Ramazan ayının oruclarından başqa vacibi orucları; məsələn, nəzr orucu kimi, tutmamışsa ehtiyat-vacibə görə, böyük oğul onu da qəza etməlidir. .Həmçinin ehtiyat-müstəhəbə görə ananın orucunu da qəza etməlidir

MÜSAFİRİN ORUCUNUN HÖKMLƏRİ

Məsələ: ١٧٣٠. Dörd rəkətli namazları səfərdə iki rəkət qılmalı olan müsafir, oruc tutmamalıdır. Amma namazını bütöv qılan müsafir; məsələn, işi səfər olan, yaxud .səfəri haram olan şəxs səfərdə orucunu tutmalıdır

Məsələ: ١٧٣١. Ramazan ayında səfərə çıxmağın eybi yoxdur. Amma orucdan boyun .qaçırmaq üçün səfər etmək məkruhdur

Məsələ: ١٧٣٢. Əgər Ramazan ayının oruclarından əlavə, vaxtı müəyyən olan digər bir oruc insana vacib olsa; məsələn, müəyyən gündə oruc tutmağı nəzr etsə, səfər edə bilər. Əgər səfərdə olsa, on gün bir yerdə qalmasını niyyət edib o, günü oruc tutması vacib deyil. Amma ehtiyat budur ki, səfər etməsin və ya səfərdədirsə qəsdi iqamə edib .nəzr etdiyi orucu tutsun

Məsələ: ١٧٣٣. Əgər bir şəxs, oruc tutmağı nəzr edib, amma gününü müəyyən etməsə, onu səfərdə tuta bilməz. Amma səfərdə müəyyən bir günü oruc tutmağı nəzr etsə, onu səfərdə tutmalıdır. Həmçinin, əgər səfərdə olub-olmamasından asılı olmayaraq müəyyən bir günü oruc tutmağı nəzr etsə, hətta səfərdə də olsa, o günü oruc .tutmalıdır

Məsələ: ١٧٣٤. Müsafir, Allahdan hacətlərini istəmək üçün şərafətli Mədinə şəhərində, üç gün müstəhəb oruc tuta bilər. Daha

.yaxşı olar ki, bu üç gün çərşənbə, cümə axşamı və cümə günləri olsun

Məsələ: ١٧٣٥. Müsafirin orucunun batil olduğunu bilməyən bir şəxs, əgər səfərdə oruc tutsa və gün əsnasında məsələni başa düşsə, orucu batil olar. Əgər məğribə qədər .başa düşməsə, orucu səhihdir

Məsələ: ١٧٣٦. Əgər səfərdə olduğunu, yaxud müsafirin orucunun batil olduğunu .unudub səfərdə oruc tutsa, orucu batildir

Məsələ: ١٧٣٧. Əgər oruc tutan şəxs, zöhrdən sonra səfər etsə, orucunu axıra çatdırmalıdır. Əgər zöhrdən qabaq səfər etsə, tərəxxüs həddinə (yəni, şəhərin divarlarının görünmədiyi və azan səsinin eşidilmədiyi yerə) çatanda, öz orucunu batil etməlidir. Əgər o həddə çatmamışdan qabaq batil etsə, kəffarə ona vacib olur. Amma müsafir zöhrdən qabaq öz şəhərindən səfər etsə, zöhrdən sonra, tərəxxüs həddinə çatsa onun orucu səhihdir. Amma zöhrdən qabaq tərəxxüs həddinə çatsa, amma .zöhrdən sonra öz şəhərinə daxil olsa, ehtiyat-vacibə görə qəzasını da tutmalıdır

Məsələ: ١٧٣٨. Əgər müsafir, zöhrdən qabaq öz vətəninə, yaxud ١٠ gün qalmaq istədiyi yerə çatsa, bu halda orucu batil edən işlərdən görməyibsə, o günü oruc tutmalıdır; .əgər orucu batil edən işlərdən birini edibsə, o günün orucu ona vacib deyil

Məsələ: ١٧٣٩. Əgər müsafir zöhrdən sonra vətəninə, yaxud ١٠ gün qalmaq istədiyi yerə .çatsa, gərək o günü oruc tutmasın

Məsələ: ١٧٤٠. Müsafir və oruc tutmaqda üzrü olan bir şəxsin, Ramazan ayının .gündüzlərində cima etməsi habelə, doyunca yeyib-içməsi məkruhdur

ORUC VACİB OLMAYAN ŞƏXSLƏR

Məsələ: ١٧٤١. Əgər bir şəxs, qocalıq səbəbi ilə oruc tuta bilməsə, yaxud ona məşəqqətli olsa, oruc ona vacib deyil. Amma ikinci halda, (məşəqqəti olan halda) hər gün üçün bir müdd təam (təqribən on sir) buğda, arpa və bunun kimi şeylər fəqirə

vermәlidir. Daha yaxşı olar tәqribәn on sir buğda versin. Birinci surәtdә ehtiyat-vacib .budur ki, tәqribәn on sir buğda versin

Mәsәlә: ۱۷۴۲. Qocalıq sәbәbi ilә oruc tuta bilmәyәn bir şәxs, Ramazan ayından sonra .oruc tuta bilәrsә, ehtiyat-vacib budur ki, gәrәk tutmadığı günlәrin qәzasını tutsun

Mәsәlә: ۱۷۴۳. Çox susamaq xәstәliyi olan vә bu susuzluğa dözә bilmәyәnә vә ya (buna dözmәk) mәşәqqәtli olarsa, oruc tutmaq ona vacib deyil. Amma hәr iki halda hәr gün üçün bir müdd tәam buğda, arpa vә bunun kimi şeylәr fәqirә vermәlidir. Ehtiyat-vacib budur ki, ehtiyacı olduğu miqdardan artıq su içmәsin. Әgәr sonradan oruc tuta bilsә, .ehtiyat-vacib budur ki, tutmadıqlarının qәzasını tutmalıdır

Mәsәlә: ۱۷۴۴. Doğum vaxtı yaxınlaşan vә oruc tutmağın bәtnindәki uşağa zәrәri olan qadına, oruc vacib deyil. Gәrәk hәr gün üçün bir müdd tәam buğda, arpa vә bunun kimi şeylәr fәqirә versin. Hәmçinin, әgәr orucun onun özü üçün dә zәrәri olsa, oruc ona vacib deyil. Gәrәk hәr gün üçün bir müdd tәam buğda, arpa vә bunun kimi şeylәr .fәqirә versin. Hәr iki halda tutmadığı günlәrin qәzasını tutmalıdır

Mәsәlә: ۱۷۴۵. Uşağa süd verәn vә südü az olan qadın, istәr uşağın anası olsun, istәr dayәsi, istәrsә dә uşağa muzd almadan süd verәn bir şәxsin oruc tutması, süd verdiyi uşağa zәrәri olsa, oruc ona vacib deyil. Gәrәk hәr gün üçün bir müdd tәam buğda, arpa vә bunun kimi şeylәr fәqirә versin. Hәmçinin, әgәr özü üçün dә zәrәri olsa, oruc ona vacib deyil, gәrәk hәr gün üçün bir müdd tәam fәqirә versin. Hәr iki halda isә tutmadığı orucların qәzasını etmәlidir. Amma uşağa muzd almadan süd verәn bir şәxs tapılsa, yaxud uşağa süd vermәk üçün onun ata-anasından vә ya onun muzdunu .başqa şәxs verәrsә, gәrәk uşağı ona verib oruc tutsun

AYIN ӘVVӘLİNİN SÜBUT OLMA YOLU

:Mәsәlә: ۱۷۴۶. Ayın әvvәli beş yolla sübut olunur

.İnsanın özü ayı görsün-۱

Sözlərindən yəqin hasil olan bir neçə nəfər, “ayı gördük” desələr, həmçinin, yəqinlik-۲ .hasil olan hər şey vastəsi ilə

İki adil kişi, “gecə ayı görmüşük” deyə xəbər versələr, amma ayın xüsusiyyətlərini-۳ bir-birinin əksinə deməsinlər. Əgər Ayın xüsusiyyətlərini bir-birinin əksinə desələr, .ayın əvvəli olması sübuta yetmir

Şəban ayının əvvəlindən ۳۰ gün keçmiş olsa; bunun vasitəsi ilə Ramazan ayının-۴ əvvəli olması sübuta yetir. Yaxud, Ramazan ayının əvvəlindən ۳۰ gün keçsə, bu halda .Şəvval ayının olması sübut olunur

.Şəriət hakimi, ayın əvvəli olmasına dair hökm versə-۵

Məsələ: ۱۷۴۷. Əgər şəriət hakimi, ayın əvvəli olmasını hökm etsə, hətta ona təqlid etməyən şəxslər də, onun hökmünə əməl etməlidirlər. Amma şəriət hakiminin səhv .etdiyini bilən bir şəxs, onun hökmünə əməl edə bilməz

Məsələ: ۱۷۴۸. Ayın əvvəli, astronomların qabaqcadan verdikləri xəbərə əsasən, sübuta yetmir. Amma bir şəxs üçün onların dediklərindən yəqin hasil olsa, gərək ona əməl .etsin

Məsələ: ۱۷۴۹. Ayın yuxarıda olması, yaxud gec batması, keçən gecənin ayın əvvəli .olmasına dəlil ola bilməz

Məsələ: ۱۷۵۰. Əgər bir şəxs üçün, Ramazan ayının əvvəli olması sübuta yetməsə və oruc tutmasa, sonradan iki adil kişi, “keçən gecə ayı görmüşük” deyə xəbər versələr, o .şəxs həmin günün qəzasını tutmalıdır

Məsələ: ۱۷۵۱. Əgər bir şəhərdə ayın əvvəli olması sübuta yetsə, onun başqa şəhər camaatı üçün faydası yoxdur. Amma o iki şəhər bir-birinə çox yaxın olarsa, yaxud . insan, o şəhərlərin üfüqlərinin bir olmasını bilsin

Məsələ: ۱۷۵۲. Ayın əvvəli teleqraf yolu ilə sübuta yetmir. Amma bir şəhərdən, başqa şəhərə teleqrafla xəbər verilsə və bu iki şəhər bir-birinə yaxın, yaxud üfüqləri eyni

olsa, insan da teleqrafın şəriət hakiminin hökmü, yaxud iki adil şəxsin şəhadəti əsasında

.olduğunu bilsə, sübuta yetir

Məsələ: ۱۷۵۳. Ramazan ayının axırı, yaxud şəvvalın əvvəli olmasını bilməyən bir şəxs, oruc tutmalıdır. Amma məğribdən qabaq, Şəvvalın əvvəli olduğunu bilsə, gərək .orucunu açsın

Məsələ: ۱۷۵۴. Əgər zindanda olan bir şəxs, ayın əvvəli olmasına yəqin hasil edə bilməsə, gərək öz gümanına əməl etsin. Bu da mümkün olmasa, hər ayı oruc tutsa, .səhihdir. Oruc tutduğu aydan ۱۱ ay keçdikdən sonra, gərək yenidən bir ay oruc tutsun

HARAM VƏ MƏKRUH ORUCLAR

Məsələ: ۱۷۵۵. Fitr və Qurban bayramları günündə oruc tutmaq haramdır. Həmçinin, Şəbanın axırı ilə Ramazanın əvvəli olması məlum olmayan gündə, Ramazan ayının .əvvəli niyyəti ilə oruc tutmaq haramdır

Məsələ: ۱۷۵۶. Əgər qadının müstəhəb oruc tutması səbəbilə ərinin haqqı aradan gedərsə, oruc tutması haramdır. Ehtiyat-müstəhəb budur ki, hətta ərinin haqqı aradan .getməsə də, ərinin icazəsi olmadan müstəhəb oruc tutmasın

Məsələ: ۱۷۵۷. Övladın müstəhəb oruc tutması, ata-ananın, yaxud babanın əziyyətə .düşməsinə səbəb olsa, haramdır

Məsələ: ۱۷۵۸. Əgər oğul atanın icazəsi olmadan müstəhəb oruc tutsa və gün əsnasında .ata, onu bu işdən çəkindirsə, gərək orucunu açsın

Məsələ: ۱۷۵۹. Orucun ona zərəri olmadığını bilən bir şəxs, hətta həkim "zərəri var" desə də, oruc tutmalıdır. Orucun onun üçün zərərli olmasına yəqini, yaxud gümanı olan bir şəxsə, hətta həkim "zərəri yoxdur" desə, gərək oruc tutmasın. Əgər oruc tutsa, səhih deyildir. Əgər qürbət niyyəti ilə oruc tutsa sonradan zərərinin olmadığı məlum olsa .orucu səhihdir

Məsələ: ۱۷۶۰. Əgər insan orucun zərərli olmasını ehtimal versə və bu ehtimaldan onun üçün qorxu törənsə, bu halda onun ehtimalı, camaatın nəzərində yerli ehtimal olsa, gərək oruc

.tutmasın. Əgər oruc tutsa, səhih deyildir

Məsələ: ۱۷۶۱. Bir şəxs, orucun ona zərərli olmamasına əqidəsi olan halda, oruc tutub məğribdən sonra zərərli olmasını başa düşsə, orucu işkallıdır, ehtiyat-vacib budur ki, o .günün qəzasını tutmalıdır

Məsələ: ۱۷۶۲. Qeyd olunan günlərdən başqa, yenə də oruc tutulması haram olan günlər .var ki, müfəssəl fiqhi kitablarda deyilmişdir

Məsələ: ۱۷۶۳. Aşura günü və Ərəfə günü ilə Qurban bayramı arasında şəkk olunan bir .gündə, oruc tutmaq məkruhdur

MÜSTƏHƏB ORUCLAR

Məsələ: ۱۷۶۴. Məkruh və haram günlərdən başqa, ilin bütün günlərində oruc tutmaq :müstəhəbdir. Bəzi günlərdə oruc tutmağa daha artıq tövsiyə olunmuşdur. O cümlədən

Hər ayın birinci və axırıncı cümə axşamı günləri, ayın ۱۰-dan sonra olan birinci-۱ çərşənbə; əgər bir şəxs bunları tuta bilməsə, müstəhəbdir ki, qəza etsin. Əgər qayda üzrə oruc tuta bilməsə, müstəhəbdir ki, hər gün üçün bir müdd təam, yaxud ۱۲,۶ noxud .gümüş (və ya onun pulunu) fəqirə versin

;Hər ayın ۱۳, ۱۴, ۱۵-ci günləri-۲

;Rəcəb və Şəban aylarının hamısı və onlardan bəzi günlər, hətta bir gün də olsa belə-۳

.Novruz bayramı günü-۴

.Şəvval ayının dördündən döqquzuna qədər-۵

.Zil-qədənin ۹ və ۲۵-ci günü-۶

Zil-həccənin ۱-dən ۱۰-dək, Ərəfə günü. Amma zəiflik səbəbilə Ərəfə gününün-۷ .dualarını oxuya bilməsə, o günün orucu məkruhdur

.(Qədir-Xum bayramında (۱۸ Zil-həccə-۸

۹-Zil-həccə ۲۴) Mübahilə günü).

۱۰-Məhərrəm ayının ۱, ۳, ۷-si .

Peyğəmbəri Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm)-in səadətli təvəllüdü (۱۷-۱۱ Rəbiül-əvvəl), ۱۵ Cəmadiul-ula, besəti günü (۲۷ Rəcəb). Əgər bir şəxs müstəhəb oruc tutsa, onu axıra çatdırması vacib deyil. Hətta əgər mömin qardaşı onu yeməyə dəvət .etsə, müstəhəbdir ki, onun dəvətini qəbul edib, günün ortasında iftarını açsın

ORUCU BATİL EDƏN İŞLƏRDƏN ÇƏKİNMƏYİN MÜSTƏHƏB OLDUĞU YERLƏR

Məsələ: ۱۷۶۵. Altı nəfər üçün Ramazan ayında oruc tutmamalarına baxmayaraq, .müstəhəbdir ki, orucu batil edən işlərdən çəkinsinlər

Səfərdə orucu batil edən işlərdən görüb zöhrdən qabaq vətəninə və ya ۱۰ gün-۱ .qalmaq istədiyi yerə çatan şəxs

.Zöhrdən sonra vətəninə, yaxud ۱۰ gün qalmaq istədiyi yerə çatan müsafir-۲

.Zöhrdən qabaq sağalan və orucu batil edən işlərdən birini görən xəstə-۳

.Zöhrdən sonra sağalan xəstə-۴

.Gün əsnasında heyz və ya nifas qanından pak olan qadın-۵

.Ramazan ayı günləri əsnasında müsəlman olan kafir-۶

Məsələ: ۱۷۶۶. Müstəhəbdir ki, oruc tutan şəxs, məğrib və işa namazını iftardan qabaq qılsın. Amma bir şəxs onu gözləyirsə, yaxud yeməyə daha çox meyli varsa və nəticədə hüzuri-qəlb ilə namaz qıla bilməzsə, yaxşı olar ki, əvvəl iftar etsin. Mümkün olduqca, .namazı onun fəzilətli vaxtında qılsın

XÜMSÜN HÖKMLƏRİ

Point

:Məsələ: ۱۷۶۷. Yeddi şeydə xüms vacibdir

.Qazanc mənfəəti-۱

.Mədən-۲

.Xəzinə-۳

.Harama qarışmış halal mal-۴

.Suda üzmək, yəni, dənizə dalmaq vasitəsilə əldə edilən cəvahirat-۵

.Müharibə qənimətləri-۶

Zimmi kafirin müsəlmandan aldığı torpaq. Bunların hər birinin hökmü müfəssəl-۷ .deyiləcək

QAZANC MƏNFƏƏTİ-۱

Məsələ: ۱۷۶۸. Əgər insan ticarətdən, sənətkarlıqdan, yaxud sair qazanc yerlərindən müəyyən qədər qazanc əldə etsə; məsələn: meyyitin namaz, orucunun qəzasını muzdla yerinə yetirsə və ona verilən muzddan müəyyən sərvət əldə etsə, özünün və ailəsinin illik xərclərindən artıq olsa, onda xümsünü, yəni beşdən birini, sonradan .deyiləcək göstərişlərə əsasən versin

Məsələ: ۱۷۶۹. Əgər qazancdan başqa bir şey insanın əlinə gəlsə, məsələn, ona bir şeyi .bağışlasalar xümsünü verməlidir

Məsələ: ۱۷۷۰. Qadının aldığı mehriyyənin xümsü yoxdur. İnsana çatan irsin hətta atadan övlada olsada xümsü yoxdur. Amma insanın bir şəxslə qohumluğu olsa və belə bir qohumun olduğunu bilməsə əqva budur ki, ondan çatan irs illik xərclərindən çox .olsa, xümsünü versin

Məsələ: ۱۷۷۱. Əgər bir şəxsə müəyyən miqdarda mal irs çatsa, və malın sahibinin öz malının xümsünü vermədiyini bilsə, gərək onun xümsünü versin. Həmçinin, əgər o malın özündə xüms olmasa, amma mal sahibinin xüms borcu olduğunu bilsə, gərək .xümsü, onun malından versin ki, meyyitin xümsə olan borcu öhdəsindən götürülsün

Məsələ: ۱۷۷۲. Əgər qənaət etməklə müəyyən bir şey illik xərclərdən artıq qalsa, onun .da xümsünü verməlidir

Məsələ: ۱۷۷۳. Əgər bir şəxsin xərclərini başqaları verirsə, gərək əldə etdiyi bütün malın .xümsünü versin

Məsələ: ۱۷۷۴. Əgər bir şəxs, hər hansı bir mülkü müəyyən şəxslərə; məsələn, öz övladlarına vəqf etsə və o mülkdə ağac, əkin əkilib müəyyən gəlir əldə olunsa və illik xərclərdən artıq qalsa, xümsü verilməlidir. Əgər başqa şəkildə də oradan mənfəət əldə etsə; məsələn, kirayə versələr, onun illik xərcindən artıq qalan miqdarın xümsünü .verməlidir

Məsələ: ۱۷۷۵. Əgər fəqirin xüms, zəkat və ya müstəhəb sədəqə kimi aldığı şeylər illik xərclərindən çox olsa, ehtiyat-müstəhəbə əsasən, onun xümsünü versin. Amma .ehtiyat-vacibə əsasən müstəhəb sədəqənin xümsü vardır

Məsələ: ۱۷۷۶. Əgər bir şəxs xümsü verilməmiş pulun eyni ilə müəyyən bir şey alsa, yəni, satıcıya “bu malı, bu pul ilə alıram” desə, xümsunu müamilədən sonra versə müamilə səhihdir. Əgər xümsunu verməsə şəriət hakimi müştərinin əlində olan malın özündən xümsu ala bilər. Çünki ondan istifadə etmək haramdır. Əgər qabaqcadan o, .maldan istifadə etmək üçün icazə alıbsa bu hal istisnadır

Məsələ: ۱۷۷۷. Əgər bir şəxs xümsü verilməmiş pulun eyni ilə

müəyyən bir şey alsa, etdiyi müamilə səhihdir. Xümuslu puldan satıcıya verdiyinə görə, aradan getmeyibsə şəriət hakimi, onun beşdə bir hissəsini almalıdır. Əgər aradan .gedibsə xümsün əvəzini satıcıdan yaxud da alıcıdan tələb edəcək

Məsələ: ١٧٧٨. Bir şəxs, xümsü verilməmiş bir şeyi alsa şəriət hakimi, o malın beşdə .birini ala bilər. Əgər satıcı xümsünü verməmişsə

Məsələ: ١٧٧٩. Əgər xümsü verilməyən bir şeyi bir şəxsə bağışlasa, o şeyin beşdə biri, .həmin şəxsin malı deyildir

Məsələ: ١٧٨٠. Əgər insanın əlinə kafirdən, yaxud xüms verməyə etiqadı olmayan bir şəxsdən müəyyən qədər mal düşsə, onun xümsünü verməsi vacib deyil. Əgər zimmi kafirdən torpaq alsa, o da müsəlmandan almış və xümsü verilməmiş olsa, gərək .xümsünü versin

Məsələ: ١٧٨١. Tacir, qazanc əldə edən, sənətkar və s. kimi şəxslər, işə başladığı vaxtdan bir il keçdikdən sonra, gərək illik xərclərindən artıq qalanın xümsünü versinlər. Amma peşəsi qazanc-ticarət olmayan bir şəxs, təsadüfən müəyyən qədər mənfəət əldə etsə, ondan bir il keçdikdən sonra, illik xərclərindən artıq qalan hissəsinin .xümsünü verməlidir

Məsələ: ١٧٨٢. İnsan, ilin əsnasında hər vaxt mənfəət əldə etsə, (illik xərcindən arıq qalmasına əmin olsa) onun xümsünü verə bilər. Xüms verməyi, ilin axırına qədər təxirə salmaq da caizdir. Əgər bir şəxs şəmsi ili xümsü vermək üçün, başlanğıc götürsə, .şəriət hakimi və ya onun vəkilinin razılığı ilə maneəsi yoxdur

Məsələ: ١٧٨٣. Tacir və qazanc əldə edən şəxs kimi, xüms üçün, il təyin etməli olan bir şəxs, mənfəət əldə edib, ilin əsnasında ölsə, ölənə qədər olan xərclərini, o mənfəətdən .çıxıb, yerdə qalanın xümsünü verməlidirlər

Məsələ: ١٧٨٤. Əgər bir şəxsin ticarət üçün aldığı mallarının qiyməti bahalaşsa və onu bilməməzlik üzündən satmasa, yenidən, ilin ortasında qiyməti aşağı düşsə, qiymətlər bahalanan miqdarın xümsü ona vacib deyil. Amma, o malı satmaması, bilərəkdən

.olarsa ehtiyata görə, gərək qiyməti qalxan miqdarın xümsünü versin

Məsələ: ۱۷۸۵. Əgər ticarət üçün aldığı malın qiyməti qalxa, bu niyyətlə ki, onun qiyməti bir daha qalxsın il qurtarandan sonraya qədər satmaya və malların qiyməti ucuzlaşa, o qədər saxlaya ki, adətən tacirlər malın qiyməti qalxmaq üçün saxlayırlar bahalaşan miqdarın xümsü ona vacib deyil. Əgər qeyri adi şəkildə saxlaya və onun ili keçərsə .ehtiyata görə gərək onun xümsünü versin

Məsələ: ۱۷۸۶. Əgər ticarət malından başqa malı olarsa onun xümsünü verib və ya xümsü olmazsa, məsələn, irs ona çatıb və ya öz xərcliyi üçün bir şeyi alsa bu halda qiymıti bahalanarsa o qiymətinə artan miqdarın xüms yoxdur. Amma onu satsa qiymtə artan miqdar satış əgər illik xərclərindən çox olarsa gərək onun xümsünu versin. Əgər onun ilə ticarət üçün bir şey alsa və o, şeyin qiyməti bahalaşsa (satmasa belə) gərək bahalaşan miqdarın xümsünu versin. Əgər bir şeyi saxlamaq üçün alsa və onun qiyməti bahalaşsa qiyməti qalxan miqdarın xümsü yoxdur. Əgər satarsa xümsünü .verməlidir

Məsələ: ۱۷۸۷. Əgər qiyməti bahalanandan sonra satmaq məqsədi ilə bağ salsa, onun meyvəsinin və ağaclarının artımının və bağın qiymətinin artıq qalan miqdarının xümsünü verməlidir. Amma əgər məqsədi meyvəsindən istifadə etmək olmuşsa, ilin .xərci sayılmazsa təkcə meyvələrin xümsünü verməlidir

Məsələ: ۱۷۸۸. Əgər söyüd, çinar və s. kimi ağac əkib hətta onların satılmalı vaxtına çatdığı ildə satmasa da xümsünu verməlidir. Amma əgər, misal üçün, hər ildə adətən qırılan budaqlardan istifadə etsə və onlar təklikdə və ya illik mənfəətlərlə birlikdə illik .xərclərindən artıq olsa, ilin axırında onun xümsünü verməlidir

Məsələ: ۱۷۸۹. Bir neçə işidən, kəsbi olan bir kəs ilin axırında illik xərclərindən artıq qalan hissənin xümsünü verməlidir. Amma əgər iki müxtəlif işi olsa birindən mənfəət qazanıb, digərindən isə zərərə düşsə, bu iki iş bir yerdə hesablanarsa gərək mənfəətin

xümsunu zərəri çıxdıqdan sonra versin. Əgər ayrı olarsa birinin zərərini obirinin .mənfəətdən ödəyə bilməz. Məsələn ticarət və əkinçilik kimi, gərək ayrı hesablansın

Məsələ: ۱۷۹۰. Fayda əldə etmək (dəllallıq, yükdaşıma və s.) üçün insanın etdiyi xərclər .illik xərclərindən hesab olunur

Məsələ: ۱۷۹۱. İl boyunda qazanc mənfəətindən yeyib-içmək, geymək, mənzil və mənzil avadanlığı almaq, toy etmək, cehizlik almaq, ziyarət və s. kimi şeylərə məsrəf olunan miqdar əgər həmin şəxsin şəxsiyyətinə uyğun miqdardan çox olmasa və adətən .ehtiyacı olan vaxt hazırlayıb ifrat etməmiş olsa, onların xümsü yoxdur

Məsələ: ۱۷۹۲. İnsanın nəzrə, kəffarəyə məsrəf etdiyi mal, illik xərclərindən hesab olunur. Həmçinin, bir kəsə bağışladığı, hədiyyə və mükafat verdiyi şeylər onun .şəxsiyyətinə uyğun miqdardan artıq olmasa, illik xərclərindən hesab olunur

Məsələ: ۱۷۹۳. Əgər insan qızının cehizliyini bir yerdə ala bilməsə və hər il müəyyən miqdarını almağa məcbur olsa, yaxud adətən hər il cehizliyin müəyyən miqdarı alınan bir şəhərdə olsa və onları da hazırlamağa ehtiyac duyulursa və onları hazırlamamaq onun şəxsiyyətinə uyğun olmasa bu halda il boyu o ilin mənfəətlərindən cehizlik alsa, onun xümsünü verməməlidir. Əgər o ilin mənfəətindən gələsi il cehiz alsa, onun xümsünu verməlidir

Məsələ: ۱۷۹۴. Həcc səfəri və başqa ziyarətlər üçün etdiyi xərclər, minik və digər avadanlıqlar (səfəri sonrakıilədək çox çəksə də) onun səfərə başladığı ilin .xərclərindən hesab olur

Məsələ: ۱۷۹۵. Kəsb və ticarətdən müəyyən qədər gəlir əldə edən bir kəsin xümsü vacib olmayan başqa malı da olsa, illik xərclərini təkcə həmin kəsb-ticarətin gəlirindən .götürüb istifadə edə bilər

Məsələ: ۱۷۹۶. Əgər qazanc mənfəətindən illik məsrəf olunan azuqə alsa və ilin axırında artıq qalsa, artıq qalanın xümsünü verməlidir. Əgər onun qiymətini hesablayıb pulunun xümsünü

vermək istəsə və qiyməti, aldığı vaxtdakı qiymətdən artıq olarsa, ilin axırındakı .qiymətlə hesab etməlidir

Məsələ: ١٧٩٧. Əgər qazancın mənfəətindən xümsü verməmişdən qabaq (eyni qalan) ev əşyaları alsa, ilin əsnasında aldığı əşyalara ehtiyacı olmasa, onun xümsü yoxdur. Qadın zinət əşyaları da, onlardan istifadə olunma müddəti keçdiyi təqdirdə (eyni qayda ilə.) .Amma ehtiyat-müstəhəb budur ki, onların xümsünü versin

Məsələ: ١٧٩٨. Əgər bir ildə mənfəət əldə edə bilməsə o ilin xərclərini sonrakı ildən əldə .edəcəyi mənfəətdən çıxa bilməz

Məsələ: ١٧٩٩. Əgər bir şəxs ilin əvvəlində mənfəət əldə edə bilməsə və sərmayədən xərc etsə, il tamam olmazadan qabaq mənfəət əlinə gəlsə sərmayədən götürdüyü .miqdarı mənfəətdən götürə bilər

Məsələ: ١٨٠٠. Əgər sərmayənin bir miqdarı aradan gedərsə, qalan miqdar ilə əldə etdiyi mənfəət illik xərcini ödiyəcək miqdardan artıq olarsa, sərmayədən azalan miqdarı o mənfəətdən götürə bilər. Əgər sərmayənin aradan gedən miqdarı o ilin .olarsa

Məsələ: ١٨٠١. Əgər sərmayədən başqa mallar xarab ola (aradan gedə) əldə etdiyi mənfəətdən o şeyləri alabilməz. Amma əgər həmən il o şeylərə ehtiyacı olsa ilin .yarısında qazanc mənfəətindən onları ala bilər

Məsələ: ١٨٠٢. Əgər ilin əvvəlində öz xərcliyi üçün borc etsə və il tamam olmamışdan .mənfəət əldə edərsə, öz borcunun miqdarını o mənfəətdən götürə bilər

Məsələ: ١٨٠٣. Əgər il boyu heç bir mənfəəti olmaya öz xərclərini borc edə, sonrakı .illərin gəlirindən öz borcların ödəyə bilər

Məsələ: ١٨٠٤. Əgər malların çoxaltmaq və ya ehtiyacı olmadığı bir mülkü almaq üçün borc edə, qazanc mənfəətindən o borcu verə bilər. Amma aldığı şeyin gərək xümsünü versin. Amma əgər borc etdiyi mal və borc ilə aldığı şey aradan getsə, borcunu ödəməyə məcbur olsa ehtiyat-vacibə görə gəlir mənfəətindən borcunu verə

.bilməz

Məsələ: ۱۸۰۵. Hər şeyin xümsünü o malın özündən vermək olar. Yaxud xümsə borclu .olduğu şeyin pulunu və ya digər cinsdən verə bilər

Məsələ: ۱۸۰۶. Əgər bir şəxsin əlinə mənfəət gələrsə və xümsünü vermək istəməsə .şəriət hakiminin icazəsi olmadan ilin sonunadək ondan istifadə edə bilməz

Məsələ: ۱۸۰۷. Xüms borclu olan şəxs onu öz öhdəsinə götürə bilməz, yəni özünü xüms əhlinin borclusu bilə və bütün maldan istifadə edə bilməz, əgər istifadə etsə və o mal tələf olsa gərək onun xümsünü versin. Əgər şəriət hakimi ilə əldən ələ dolandırsa və .ya ondan icazə alsa bu hallar istisnadır

Məsələ: ۱۸۰۸. Xüms borclu olan şəxs əgər hakimi şər ilə razılaşsa, bütün maldan istifadə edə bilər. Hakimi şərin razılığından sonra o maldan əldə edilən qazanc onun öz .malıdır

Məsələ: ۱۸۰۹. Başqası ilə şərik olan şəxs öz gəlirinin xümsünü versə, şəriki isə verməsə və sonrakı il xümsü verilməmiş maldan şəriklik üçün sərmayə qoysa zahir budur ki, .xümsünü verən istifadə edə bilər, xümsünü verməyən isə istifadə edə bilməz

Məsələ: ۱۸۱۰. Əgər səğir uşağın sərmayəsi ola və ondan mənfəət əldə edə ehtiyat-.vacibə əsasən onun xüms düşür onun vəlisi xümsünü verməlidir

Məsələ: ۱۸۱۱. İnsan xümsü verilmədiyinə yəqini olduğu maldan istifadə edə bilər. Onun xümsü malı ona verilən şəxsin öhdəsindədir və xümsünü verməsi vacibdir. Xümsünün .verilib verilmədiyində şəkk edilən malda eyni hökmdədir

Məsələ: ۱۸۱۲. Əgər bir şəxs təklifinin əvvəlindən xüms verməsə, əgər bir mülk alsa və onun qiyməti bahalaşa, o, mülkü bahalaşdıqdan sonra satacaq niyyətilə almayıbsa; məsələn, bir yeri əkin üçün alıbsa, xümsü verilməmiş puldan onun qiymətini versə, gərək aldığı qiymətin xümsünü versin. Amma məsələn, xümsü verilməmiş pulu satıcıya verib və ona “bu mülkü bu pula alıram” desə, şəri hakim onun beşdə birinin ,müamiləsinə icazə versə

xümüs sahiblərinin haqqı aradan getməmək şərti ilə) alıcı gərək o mülkün hal-) .hazırdakı qiymətinin xümsünü versin

Məsələ: ۱۸۱۳. Əgər bir şəxs təklifinin əvvəlindən xüms verməyə, əgər gəlirinin mənfəətindən ehtiyacı olmadığı bir şey ala gərək onun xümsünu versin. Əgər ehtiyacı olduğu ev əşyaları və başqa şeyləri öz vəziyyətinə uyğun alarsa, əgər bilə fayda əldə etdiyi ildə onları alıb onların xümsünü vermək lazım deyil. Əgər ilin ortasında alıb və ya il tamam olandan sonra aldığını bilməsə ehtiyat-vacibə əsasən gərək hakimi şərlə .razılaşsın

MƏDƏN–۲

Məsələ: ۱۸۱۴. Əgər mədəndən qızıl, gümüş, bürünc, mis, dəmir, neft, daş kömür, füruzə, əqiq, mineral maddələr, duz və ümumiyətlə mədən qazıntıları adlana bilən hər .şey əldə olunsa, nisab həddinə çatanda xümsü verilməlidir

Məsələ: ۱۸۱۵. Mədəndən çıxarılan şeylərin nisabı ۱۵ misqal adi qızıl miqdarındadır; Yəni mədəndən çıxarılan şeylərin nisabı, ۱۵ misqal qızıla çatsın. Hətta xərcləri çıxmazdan qabaq da olsa xümsünü verməlidir. Hamısının xümsünü xərcləri çıxdıqdan sonra .verilməlidir

Məsələ: ۱۸۱۶. Mədəndən əldə olunan mənfəətin əgər qiyməti ۱۵ misqal qızıla çatmaya onun xümsü o halda lazımdır ki, təklikdə və ya onun başqa gəlirlərinin mənfəətləri illik .xərclərindən çox olsun

Məsələ: ۱۸۱۷. Ehtiyat-müstəhəbə əsasən gəc, əhəng, baş yumaq üçün istifadə olunan gil (gilabı), qırmızı gil mədən qazıntılarından hesab olunur. Əgər nisab miqdarına çatmasa, bunları çıxardan şəxs bu halda gərək onların xümsünü versin ki, çıxartdığı .şey təklikdə ya başqa gəlir mənfəətləri ilə birlikdə illik xərcindən cox qalsın

Məsələ: ۱۸۱۸. Əgər bir şəxs mədəndən bir şey əldə etsə, xümsünü verməlidir. İstər mədən yerin səthində olsun, istərsə də

.dərinliyində; istər mülkdə olsun, istərsə də sahibi olmayan bir yerdə

Məsələ: ۱۸۱۹. Əgər bilməyə mədəndən çıxardığı şeyin qiyməti ۱۵ misqal qızıla çatıb ya .yox ehtiyat-vacib budur ki, onu çəkmək və ya başqa bir yolla qiymətini təyin etsin

Məsələ: ۱۸۲۰. Əgər bir neçə nəfər birlikdə mədəndən bir şey çıxartsalar, onun qiyməti ۱۵ misqal qızıla çatsa, baxmayaraq hər hansının payı bu miqdara çatmasada ehtiyat-.vacib əsasən gərək onun xümsünü versinlər

Məsələ: ۱۸۲۱. Başqasının mülkündə olan bir mədəni, (sahibinin icazəsi olmadan) istixrac etsələr əldə olunan şeylər mülkün sahibinə məxsusdur. Mülkün sahibi onların çıxarılmasına bir şey xərcləmədiyindən, nisab həddinə çatsa mədəndən çıxarılanların .hamısının xümsünü verməlidir

XƏZİNƏ-۳

Məsələ: ۱۸۲۲. Xəzinə o mala deyilir ki, yerdə, ağacda, dağda, divarda gizlədilmiş olsun .və bir kəs də onu tapsın. Elə olmalıdır ki, ona xəzinə deyilsin

Məsələ: ۱۸۲۳. Əgər insan heç kəsin mülkü olmayan yerdə xəzinə tapsa onun özünün .malıdır, xümsünü da verməlidir

Məsələ: ۱۸۲۴. Xəzinənin nisabı qızıl və gümüşün zəkatdakı birinci nisabıdır. Yəni əgər xəzinədən əldə edilən şeyin qiyməti, onu əldə etmək üçün sərf olunan xərcləri .çıxdıqdan sonra nisab həddinə çatsa xümsü verilməlidir

Məsələ: ۱۸۲۵. Əgər insan başqasından aldığı torpaqdan müəyyən qədər xəzinə tapsa və əvvələr o yerin maliki olan şəxslərin olmadığını bilsə, onun özünün malı olur, xümsünü da verməlidir. Amma əgər onun əvvəlki sahiblərindən birinin malı olduğunu ehtimal versə ona xəbər verməlidir. Onun da malı olmadığı məlum olsa həmin yerə qabaqca malik olduğu kəsə xəbər verməlidir və bu qayda ilə ondan qabaq həmin torpağın

sahibi olan şəxslərin hamısına xəbər verməlidir. Əgər onlardan heç birinin olmadığı məlum olsa, öz malı hesab olunur və xümsünu da verməlidir.

Məsələ: ۱۸۲۶. Əgər bir yerdə basdırılmış bir neçə qabda müəyyən qədər xəzinə tapsa və onların qiyməti üst-üstə xəzinə qiymətinə çatsa, xümsünü verməlidir. Amma bir neçə yerdə xəzinə tapsa onlardan hər birinin qiyməti xəzinə qiymətinə çatsa, onun xümsü vacibdir, qiyməti bu miqdara çatmayan xəzinənin isə xümsü yoxdur.

Məsələ: ۱۸۲۷. Əgər iki nəfər birlikdə müəyyən qədər xəzinə tapsalar və onun qiyməti ۲۰ misqal qızıla çatsa, onların hər birinin payının ayrılıqda bu miqdara çatmamasına baxmayaraq ehtiyat-vacibə görə xümsünü verməlidirlər.

Məsələ: ۱۸۲۸. Əgər bir şəxs bir heyvan alıb, qarnından müəyyən mal tapsa və satıcının malı olduğunu ehtimal versə gərək ona xəbər versin. Onun malı olmaması məlum olarsa tərtiblə əvvəlki sahiblərinə xəbər verməlidir. Onlardan heç birinin malı olmadığı məlum olarsa digər gəlirləri ilə birlikdə illik xərclərindən artıq qalarsa gərək onun xümsün versin.

۴–HARAMA QARIŞAN HALAL MAL

Məsələ: ۱۸۲۹. Əgər halal mal, haram mala, ayrıd edilə bilinməyəcəyi tərzdə qarışsa və haram malın sahibi və miqdarının heç biri məlum olmasa, bütün malın xümsü verilməlidir. Xümsü verildikdən sonra qalan mal halal olur.

Məsələ: ۱۸۳۰. Əgər halal mal harama qarışsa və insan haram malın miqdarını, bilsə, ancaq sahibini tanımasa, o miqdarı sahibinin niyyəti ilə sədəqə verməlidir. Ehtiyat-vacib budur ki, şəriət hakimindən də icazə alsın.

Məsələ: ۱۸۳۱. Əgər halal mal, harama qarışsa və insan haram malın miqdarını bilməsə, ancaq sahibini tanısa, gərək razılaşsınlar. Amma malın sahibi razı olmasa və insan müəyyən bir şeyin onun

olduğunu bilib ondan artığının da onun malı olub-olmamasında şəkk etsə, yəqini olduğu miqdarı ona qaytarmalıdır, məsələn pul olarsa əks halda qürə ilə təyin olunması qeyri mümkün sayılmaz. Ehtiyat-müstəhəb budur ki, onun olmasını ehtimal .verdiyi artıq malı da ona versin

Məsələ: ۱۸۳۲. Əgər bir şəxs, harama qarışan halal malın xümsünü verib, sonradan haram malın miqdarının xümsdən artıq olduğunu bilsə, ehtiyat-vacibə görə, gərək xümsdən artıq olduğunu bildiyi miqdarı, şəriət hakiminin icazəsi ilə onun sahibi .tərəfindən sədəqə versin

Məsələ: ۱۸۳۳. Əgər harama qarışan halal malın xümsünü versə və ya sahibini tapmadığı bir malı, onun niyyətilə sədəqə versə, sonra o malın sahibi tapılsa bir şey onun öhdəsində deyil. Xüsusi ilə də şəriət hakiminin icazəsi ilə verərsə. Ehtiyat-.müstəhəb budur ki, onun haqqını versin

Məsələ: ۱۸۳۴. Əgər halal mal harama qarışsa və haram malın miqdarı məlum olarsa, insan da onun sahibinin bir neçə nəfərdən başqası olmadığını bilib, amma dəqiq şəkildə hansının olduğunu bilməzsə, mümkün olan təqdirdə onların hamısını razılaşdırsın. Əgər mümkün olmazsa və ya çoxlu zərərə səbəb olarsa gərək qürə ilə .mal sahibini təyin etsinlər

ÜZGÜÇÜLÜK VASİTƏSİLƏ DƏNİZDƏN ÇIXARILAN CƏVAHİRAT–۵

Məsələ: ۱۸۳۵. Əgər üzgüçülüklə yəni, dənizin içinə girmək vasitəsilə lölö, mərcan, yaxud dənizdən çıxarılan başqa cəvahir istər göyərənlərdən olsun, istərsə də mədən şeylərindən, ehtiyat-vacibə əsasən onun qiyməti ۱۸ noxud qızıla çatarsa, gərək xümsünü versinlər; istər onu bir dəfəyə, istərsə də bir neçə dəfəyə dəryadan çıxarmış olsunlar; istər çıxardığı şey bir növdən olsun, istərsə də bir neçə növdən; istər bir nəfər çıxarsın və ya bir neçə

.nəfər birlikdə çıxarmış olsalar

Məsələ: ١٨٣۶. Əgər dənizə girmədən, müəyyən vasitələrlə cəvahir çıxarılsa, ona sərf olunan xərclər çıxıldıqdan sonra, qiyməti ١٨ noxud qızıla çatarsa, ehtiyata görə xümsü vacibdir. Amma suyun üzündən, yaxud sahildən cəvahir tapsa, əldə etdiyi mal təklikdə .və yaxud başqa gəlirləri ilə birlikdə illik gəlirindən artıq olsa, onun xümsünü verməlidir

Məsələ: ١٨٣٧. İnsanın, dənizə girməyərək və ya girməklə əldə etdiyi balıq və s. heyvanların xümsü, o vaxt vacibdir ki, onları təklikdə, yaxud sair qazanc mənfəətləri .ilə birlikdə, illik xərclərindən çox olsun

Məsələ: ١٨٣٨. Əgər insan, dənizdən bir şey çıxarmaq qəsdi olmadan dənizə girsə və .təsadüfən cəvahir tapsa, ehtiyata əsasən, xümsünü verməlidir

Məsələ: ١٨٣٩. Əgər insan dənizə girib müəyyən bir heyvanı tutsa və onun qarnından cəvahir tapsa, o cəvahirin qiyməti ١٨ noxud miqdarında qızıl, yaxud ondan çox olsa, bu halda o heyvan, qarnında adətən cəvahir olanlardan (sədəf kimi) olsa, xümsünü verməlidir. Amma o heyvan təsadüfən cəvahiri udmuş olsa, onun xümsü o vaxt vacibdir ki, onlar təklikdə, yaxud sair qazanc mənfəətləri ilə birlikdə, illik xərclərindən .çox olsun. Ehtiyat-müstəhəb budur ki, xümsünü versin

Məsələ: ١٨۴٠. Əgər Dəclə və Fərat kimi böyük çaylara girib, cəvahir çıxartsa, həmin .çaylarda adətən cəvahir əldə olunursa, onun xümsünü verməlidir

Məsələ: ١٨۴١. Əgər insan suya girib müəyyən miqdar ənbər çıxartsa və onun qiyməti ١٨ noxud miqdarında olan qızıl qədər, yaxud ondan çox olsa, xümsünü verməlidir. Amma suyun üzündən, yaxud sahildən tapsa, bu halda qiyməti ١٨ noxud miqdarında olan qızıl .çatmasa da, ehtiyata görə, gərək onun xümsünü versin

Məsələ: ١٨۴٢. Əgər bir şəxsin qazancı üzgüçülük, yaxud mədən şeyləri çıxarmaqla təmin olursa, onların xümsünü versə və

.illik xərclərindən artıq qalsa, yenidən onların xümsünü verməsi lazım deyil

Məsələ: ١٨۴٣. Əgər uşaq, mədəndən müəyyən bir şey çıxartsa və ya onun harama qarışmış halal malı olsa, yaxud da müəyyən xəzinə tapsa, ya da dəryaya girib cəvahir .əldə etsə, onun vəlisi, onların xümsünü onun malından verməlidir

QƏNİMƏT–۶

Məsələ: ١٨۴۴. Əgər müsəlmanlar, imamın (əleyhis-səlam) əmri ilə kafirlərlə müharibə etsələr, o müharibədən ələ gələn şeylərə "qənimət" deyilir. Qənimət üçün ayrılan xərclər (qəniməti saxlamaq və daşımaq üçün olan xərclər kimi) də, imamın (əleyhis-səlam) məsləhət bildiyi şəkildə olmalıdır. İmama (əleyhis-səlam) məxsus olanlar, .gərək kənara qoyulsun və qalanın xümsünü versinlər

ZİMMİ KAFİRİN MÜSƏLMANDAN ALDIĞI TORPAQ–٧

Məsələ: ١٨۴۵. Əgər zimmi kafir(١) müsəlmandan müəyyən qədər torpaq alsa, onun xümsünü həmin torpaqdan və yaxud başqa malından verməlidir. Həmçinin, əgər ev, mağaza və s. kimi şeyləri müsəlmandan alsa, onun torpağını ayrıca alıbsa xümsünü verməlidir. Əgər torpaq deyil ev və ya dükanı alıbsa xümsu vacib deyil. Bu xümsü verməkdə, qürbət qəsdi lazım deyil. Hətta, şəriət hakimi də xümsü aldığı vaxt, qürbət .qəsdi etməsi lazım deyil

Məsələ: ١٨۴۶. Əgər zimmi kafir müsəlmandan aldığı torpaq sahəsini başqa müsəlmana satmaq istəsə, gərək onun xümsunu versin. Həmçinin, əgər o ölsə və bir müsəlman, o torpağı irs

---

Allahı, sonuncu peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) risalətini və ya . –١ məadı inkar edən və yaxud Allah, onun rəsulunda şəkk edən, yaxud Allaha şərik qoşan .və ya Allahın yeganəliyinə şəkk edən şəxs

.aparsa, onun xümsünü həmin torpaqdan, yaxud başqa malından verməlidir

Məsələ: ۱۸۴۷. Əgər zimmi kafir yeri alan zaman xüms verməyəcəyini, yaxud satıcının onun xümsünü verməsini şərt etsə, onun şərti səhih deyil və xümsünü verməlidir. Amma satıcının, xüms miqdarını, onun tərəfindən xüms sahiblərinə verməsini şərt .etsə, eybi yoxdur. Xüms ödənilməyənə qədər xüms haqqı torpaqdan götürülmür

Məsələ: ۱۸۴۸. Əgər bir müsəlman müəyyən bir torpaq sahəsini al-ver qəsdi olmadan zimmi kafirin mülkünə keçirsə və onun əvəzini alsa; məsələn, onunla razılaşsa, .ehtiyata əsasən, zimmi kafir onun xümsünü verməlidir

Məsələ: ۱۸۴۹. Əgər zimmi kafir azyaşlı uşaq olsa və onun qəyyumu onun üçün torpaq .sahəsi alsa, gərək onun xümsünü versin

XÜMSÜN SƏRF OLUNMA YERLƏRİ

Məsələ: ۱۸۵۰. Xüms iki yerə bölünməlidir: Bir qismi seyidlərindir. Gərək fəqir, yetim, yaxud da səfər zamanı yolda qalmış seyidlərə verilsin. Digər yarısı isə İmamın (əleyhis-salam) payıdır ki, bu zəmanəmizdə cameüş-şərait müctəhidə verilməli, yaxud onun icazə verdiyi yerlərdə sərf olunmalıdır. Amma insan İmamın (əleyhis-salam) payını təqlid etmədiyi bir müctəhidə vermək istəsə, o müctəhid, təqlid etdiyi müctəhidlə eyni tərzdə, İmamın (əleyhis-salam) payından istifadə edərsə bu surətdə .verə bilər

Məsələ: ۱۸۵۱. Xüms verilən yetim seyid, fəqir olmalıdır; ancaq səfərdə yolda qalan .seyid, hətta öz vətənində fəqir olmasa da, ona xüms vermək olar

Məsələ: ۱۸۵۲. Səfər zamanı yolda qalan bir seyidin səfəri günah səfəri olsa və yaxud .özü günahda olsa, ehtiyat-vacibə görə, ona xüms verilməməlidir

Məsələ: ۱۸۵۳. Adil olmayan seyidə xüms vermək olar; amma

.İmamı (əleyhis-səlam) qəbul etməyən seyidə xüms vermək olmaz ١٢

Məsələ: ١٨٥٤. Əgər günahkar seyidə xüms verilməsi, onun günahlarına kömək olarsa, ona xüms vermək olmaz. Aşkar surətdə günah edən seyidə verilən xüms, onun günah .etməsinə kömək etməsə də, daha üstün nəzər budur ki, ona xüms verilməsin

Məsələ: ١٨٥٥. Əgər bir şəxs "seyidəm" desə, ona xüms vermək olmaz. Amma iki nəfər adil şəxs, onun seyid olmasını təsdiq etsələr və ya camaat arasında məhşur olsa və .nəticədə insan onun seyid olmasına yəqinlik tapsa, eybi yoxdur

Məsələ: ١٨٥٦. Bir şəxs öz şəhərində seyid olması ilə məhşur olarsa, belə ki, onun seyid .olmasına əmin olsa, xüms vermək olar

Məsələ: ١٨٥٧. Arvadı seyid olan bir şəxsə, ehtiyat-vacibə görə, xüms verilməməlidir ki, öz xərclərinə sərf etsin. Amma başqalarının xərci ərinə vacib olmayıb o qadına vacib olsa, və onların xərclərini təmin edə bilməsə, xümsü o qadına vermək caizdir ki, onlar .üçün sərf etsin

Məsələ: ١٨٥٨. Əgər arvadı olmayan seyidə bir qadının xərcləri, insana vacib olarsa, ehtiyat-vacibə əsasən, xümsdən onun yemək, geyim və digər nəfəqeyi-vacibə olanı, verə bilməz. Bəli, nəfəqeyi-vacibəyə aid olmayan başqa şeylərə sərf etməsi üçün ona .xüms verməyin maneəsi yoxdur

Məsələ: ١٨٥٩. Əgər fəqir seyidin xərcləri başqa şəxsə vacib olarsa, o şəxs də onun .xərclərini təmin edə bilməsə, xüms vermək olar

Məsələ: ١٨٦٠. Ehtiyat-vacib budur ki, bir seyid fəqirə, bir illik xərclərindən artıq .miqdarda xüms verilməsin

Məsələ: ١٨٦١. Əgər insanın yaşadığı şəhərdə müstəhəq seyid tapılmasa və tapılmasına da ehtimal verilməsə; yaxud müstəhəqqin tapılmasınadək xümsü saxlamaq mümkün olmasa, onu başqa şəhərə aparıb müstəhəqlərə çatdırmalıdır. Onu aparmaq üçün lazım olan yol xərcini xümsdən götürə bilməz. Əgər xüms tələf olsa, bu halda onu saxlamaqda səhlənkarlıq edibsə, onun əvəzini verməlidir. Amma səhlənkarlıq etməmiş olsa, ona bir şey

.vacib deyil

Məsələ: ۱۸۶۲. Əgər xüms verməli olan şəxs öz şəhərində müstəhəq tapmasa və tapılmasına ehtimal versə, müstəhəq tapılanadək xümsü saxlamaq mümkün olsa da, başqa şəhərə apara bilər. Əgər onu saxlamaqda səhlənkarlıq etməsə və tələf olsa, bir .şey verməməlidir. Amma xümsü aparmağın xərcini, xümsdən götürə bilməz

Məsələ: ۱۸۶۳. Əgər bir şəxsin öz şəhərində müstəhəq tapılsa, yenə də xümsü başqa şəhərə aparıb müstəhəqqə çatdıra bilər. Amma bu halda, onun yol xərclərini özü verməlidir və xüms tələf olsa, hətta onu saxlamaqda səhlənkarlıq etməsə də, .zamindir

Məsələ: ۱۸۶۴. Əgər şəri hakimin icazəsi ilə xümsü başqa şəhərə aparsa və tələf olsa, yenidən xüms verməsi lazım deyildir. Həmçinin, əgər o şəhərdən başqa şəhərə .(aparmaq üçün şəri hakim tərəfindən vəkil olan şəxsə xümsü versələr, (eyni qayda ilə

Məsələ: ۱۸۶۵. Əgər xümsü, malın özündən deyil başqa maldan versə, o malın həqiqi qiyməti ilə hesablanmalıdır. Əgər öz qiymətindən baha hesablasa, müstəhəqqin o .qiymətə razılaşmasına baxmayaraq, artıq hesabladığı miqdarı verməlidir

Məsələ: ۱۸۶۶. Müstəhəq şəxsdən alacağı olan bir şəxs, öz borcunu xümsdən hesab etmək istəsə ehtiyat-vacib budur ki, xümsü ona verdikdən sonra, müstəhəq özü, .borcunu ona qaytarsın

Məsələ: ۱۸۶۷. Müstəhəq şəxs, xümsü alıb onu verənə bağışlaya bilməz. Amma çoxlu miqdarda xüms borcu olan fəqir bir şəxs, xüms əhlinə də borclu olmaq istəmirsə, əgər .müstəhəq, xümsü alıb yenidən ona bağışlamağa razı olsa, eybi yoxdur

ZƏKATIN HÖKMLƏRİ

Point

:Məsələ: ١٨۶٨. Doqquz şeyə zəkat vacibdir

.Buğda-١

.Arpa-٢

.Xurma-٣

.Kişmiş-۴

.Qızıl-۵

.Gümüş-۶

.Dəvə-٧

.İnək-٨

.Qoyun-٩

Əgər bir şəxs, bu doqquz şeydən hər hansına sahib olsa, gərək sonradan deyiləcək .şərtlər daxilində, bir miqdarını müəyyən olunan yerlərə sərf etsin

Məsələ: ١٨۶٩. Dənli bitkilərdən olan "sültün" (buğdanın yumşaqlığı və arpanın xüsusiyyətində olan) və buğda kimi dənli bitkilərdən olan "ələsin" (Səna əhalisinin .yemək məhsuludur) zəkatı, ehtiyat-vacibə görə verilməlidir

ZƏKATIN VACİB OLMASININ ŞƏRTLƏRİ

Məsələ: ١٨٧٠. Zəkat o halda vacib olur ki, mal (sonradan

deyiləcək) nisab həddinə çatsın və onun maliki həddi-büluğa çatmış, aqil və azad .olsun, öz malından istifadə edə bilsin

Məsələ: ۱۸۷۱. Əgər insanın ۱۱ ay müddətində inək, qoyun, dəvə, qızıl və gümüş sahibi olsa, ۱۲-ci ayın əvvəlində onun zəkatını verməlidir. Amma sonrakı ilin əvvəlini ۱۲-ci ay .tamam olandan sonra hesab etməlidir

Məsələ: ۱۸۷۲. Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi, ilin əsnasında həddi-.büluğa çatsa, gərək ilin əvvəlini, həddi-büluğun əvvəlindən hesab etsin

Məsələ: ۱۸۷۳. Buğda və arpanın zəkatı o vaxt vacib olur ki, dən bağlamış olsun. Kişmişin zəkatı ehtiyata görə, qora olanda, xurmanın da rəngi sarı və ya qırmızı olub yeyilə biləndə ehtiyata görə, zəkatı vacib olur. Amma arpa və buğdada, zəkatın verilməsi .vaxtı, xərməndə samandan ayrıldığı, xurma və kişmişdə isə, quruduqları vaxtdır

Məsələ: ۱۸۷۴. Əgər buğda, arpa, kişmiş və xurmanın zəkatının vacib olduğu vaxt (keçən .məsələdə qeyd olundu) onların sahibi olsa, zəkatını verməlidir

Məsələ: ۱۸۷۵. Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi, bütün il boyu dəlilik halında olsa, zəkat vacib deyil. Ancaq ilin müəyyən hissəsini dəli olub ilin axırında ağıllansa, dəli olduğu vaxt çox az olsa da, zəkat vacib olmur. Ağıllanmağın əvvəl vaxtını .(zəkat üçün) ilin əvvəli təyin etsin

Məsələ: ۱۸۷۶. Əgər inək, qoyun, dəvə, qızıl və gümüşün sahibi, ilin bir miqdarını məst və bihuş halda olsa, zəkat ondan düşmür. Həmçinin, əgər buğda, arpa, kişmiş və .(xurmanın vacib olduğu vaxt, məst və ya bihuş olsa, (eyni qayda ilə

Məsələ: ۱۸۷۷. Bir şəxsin qəsb etdiyi və ondan istifadə edə bilmədiyi malın zəkatı yoxdur. Həmçinin, əkini qəsb edsələr, onun zəkatı vacib olan vaxt qasbçinin əlində olsa, hər .vaxt ki, sahibinə qaytarsalar, onun zəkatı yoxdur

Məsələ: ۱۸۷۸. Əgər bir şəxs zəkatın vacib olduğu qızıl, gümüş və başqa şeyləri borc alsa və bir il onun yanında qalsa, zəkatını

.verməlidir. Borc verənə isə heç nə vacib deyil

BUĞDA, ARPA, XURMA VƏ KİŞMİŞİN ZƏKATI

Məsələ: ١٨٧٩. Buğda, arpa, xurma və kişmişin zəkatı, nisab həddinə çatdığı zaman vacib olur. Bunların nisabı, ٢٨٨ Təbriz manından ۴۵ misqal azdır; təqribən ٨۴٧ kilo ٢٠٧ .qramdır

Məsələ: ١٨٨٠. Əgər zəkat verməmişdən qabaq, zəkatı vacib olan üzüm, xurma, arpa, buğdadan, özü və əhli-əyalı adi qaydadan artıq yesə, yaxud zəkat niyyəti olmadan .fəqirə versələr, sərf olunan miqdarın zəkatını verməlidir

Məsələ: ١٨٨١. Əgər buğda, arpa, xurma və üzümün zəkatı vacib olandan sonra onun sahibi ölsə, zəkatını onun malından verilməlidir. Amma zəkat vacib olmamışdan qabaq ölsə, bu halda vərəsələrin hər birinin payı nisab həddinə çatsa, o öz payının zəkatını .verməlidir

Məsələ: ١٨٨٢. Cameüş-şərait müctəhidin tərəfindən zəkatı yığmağa vəzifəli olan bir şəxs, xərmən vaxtı (buğda və arpanı samandan ayıldığı vaxt) və üzümün kişmiş, yaş xurmanın qurumasından sonra, zəkatı tələb edə bilər. Əgər sahibi verməsə və zəkatı .vacib olan şey tələf olub aradan getsə, əvəzini verməlidir

Məsələ: ١٨٨٣. Əgər xurma, üzüm ağaclarını, yaxud buğda və arpa əkin sahələrinə malik olandan sonra zəkat vacib olsa; məsələn: xurma onun mülkündə sarı və qırmızı olsa, .zəkatını verməlidir

Məsələ: ١٨٨۴. Əgər buğda, arpa, xurma və üzümün zəkatı vacib olandan sonra əkini və .ağacı satarsa, satıcı onun zəkatını verməlidir

Məsələ: ١٨٨۵. Əgər insan buğda, arpa, xurma və üzüm alıb, satıcının onların zəkatlarını verdiyini bilsə, yaxud verib-verməməsində şəkk etsə, ona heç nə vacib deyil. Amma zəkatı vermədiyini bilsə, bu halda cameüş-şərait müctəhid, zəkatı

alıcıdan ala bilər və müamilənin səhihliyi şəriət hakiminin icazəsinə bağlı deyil. Həmçinin satıcı və ya alıcı o, miqdarın qiymətini versə müamilə səhihdir. Əgər onun .qiymətini alıcı satıcıya vermiş olsa, geri alıb və müstəhəqqinə verə bilər

Məsələ: ۱۸۸۶. Əgər buğda, arpa, xurma və kişmişin yaş olan vaxtdakı çəkisi nisab həddinə çatsa, (۲۸۸məndən ۴۵ misqal aza) amma quruyandan sonra bu miqdardan az .olsa, zəkat vacib deyil

Məsələ: ۱۸۸۷. Əgər bir şəxs buğdadan və arpadan, xurmanı qurumamışdan qabaq .istifadə etsə, quruyanda nisab həddinə çatacaqdısa, gərək zəkatın versin

Məsələ: ۱۸۸۸. Təzəliyi vaxtı yeyilən xurma, əgər qaldıqda çox azalarsa və ya quruyandan sonra ona xurma deyilməzsə, nisab həddinə ۲۸۸ məndən ۴۵ misqal aza .çatsa, zəkatı vacibdir

Məsələ: ۱۸۸۹. Zəkatı verilmiş buğda, arpa, xurma və kişmiş, bir neçə il insanın əlində .qalsa, üstünə zəkat gəlmir

Məsələ: ۱۸۹۰. Əgər buğda, arpa, xurma və üzüm çay, yaxud yağış suyundan suvarılsa və ya Misirdə olduğu kimi, yerin rütubətindən (suvarılmağa ehtiyacı olmadan) məhsul verərsə, zəkatı, məhsulun onda biri qədərdir. Əgər vedrə, su motoru və s. kimi vasitələrlə, (hal-hazırda mövcud olan dərin, yaxud nisbətən dərin quyulardan) suvarılarsa, zəkatı məhsulun iyirmidə biri qədərdir. Əgər məhsul, torpağın bir hissəsindən yağış, çay suyu və yerin rütubətindən istifadə edilərək, elə həmin miqdar da vedrə, su motoru və s. kimi vasitələrlə suvarılaraq əldə edilirsə, birinci yarısının zəkatı onda bir, ikincinin zəkatı iyirmidə birdir. Yəni, bütün məhsulun qırx hissəsindən .üç hissəsini, zəkat kimi verməlidir

Məsələ: ۱۸۹۱. Əgər buğda, arpa, xurma və üzüm həm yağış və çay suyundan, həm də vedrə, motor və s. kimi şeylərdən istifadə edilərək suvarılarsa, bu halda camaat arasında "yağış suyu ilə deyil, motor və vedrə ilə suvarılıb", desələr, onun zəkatı iyirmidə birdir. Əgər camaat arasında "vedrə ilə deyil, yağış suyu ilə suvarılıb" deyilsə, ,zəkatı onda birdir. Əgər (yağış, çay, vedrə

motorla suvarılıb deyilməsə, bunların hər ikisi ilə suvrarılıb deyilsə, onun zəkatı qırxda üçdür. Əgər (ürf) camaat arasında deyilənin doğruluğunda şəkk etsə və ya suvarmanın yağış və çay suyu ilə olması, vedrə və motorla suvarmaqdan çox olsa, .ehtiyat-vacibə görə, zəkatı onda bir versin

Məsələ: ١٨٩٢. Əgər suvarılması yağış suyu ilə, yaxud vedrə ilə bərabər şəkildə olmasında və ya yağış suyunun çox olmasında şəkk olsa, yarsını iyirmidə bir, ikinci yarsını isə, onda bir qədər zəkat verə bilər. Ehtiyat-müstəhəb budur ki, onda bir qədər verilsin.Əgər onların suvarılmasını bir həddə olmasında şəkk etsə və ya vedrə ilə suvarmaq çox olarsa, onarın hamısını, iyirmidə bir verə bilər. Ehtiyat-müstəhəb budur .ki, onda bir qədər verilsin

Məsələ: ١٨٩٣. Əgər buğda, arpa və üzüm, yağış yaxud çay suyu ilə suvarılsa və vedrə, motor kimi şeylərə ehtiyac olmasa, eyni zamanda vedrə ilə suvarılsa da, vedrə ilə suvarmanın məhsulun artımında təsiri olmasa, onun zəkatı onda birdir. Əgər vedrə və bu kimi şeylərlə suvarılsa və çay, yağış suyuna ehtiyacı olmasa, çay və yağış suyu ilə də suvarılsa, amma məhsulun artımında yağış və çay suyunun təsiri olmasa, zəkatı .iyirmidə birdir

Məsələ: ١٨٩٤. Əgər müəyyən əkin sahəsi, vedrə və bu kimi vasitə ilə suvarılsa və onun yanında olan sahədə də əkilən əkin sahəsi həmin yerin rütubətini cəzb edib, daha suvarılmasına ehtiyac olmasa, ehtiyat-vacib budur ki, vedrə ilə suvarılan əkin .sahəsinin zəkatı iyirmidə bir, onun yanında olan əkin sahəsənin isə zəkatı onda birdir

Məsələ: ١٨٩٥. Arpa, buğda, xurma və üzüm nisab həddinə çatsa, onlar üçün xərclədiyi, hətta o əkinə görə azalan ləvazimat və paltarların qiymətini, onlardan azaldıb və qalan .hissəsinin zəkatını versin

Məsələ: ١٨٩۶. Əkin üçün istifadə etdiyi toxum özünün olarsa, o miqdarı məhsuldan azalda bilər. Əgər alsa, onun üçün xərc etdiyi miqdarı xərclərinin bir hissəsi hesab edib .ondan çıxsın

Məsələ: ۱۸۹۷. Əgər əkin yeri və əkinçilik avadanlıqları, yaxud bu ikisindən biri, şəxsin öz mülkü olsa, onların kirayəsini xərclərdən hesab etməməlidir. Həmçinin, özünün yaxud .başqasının pulsuz gördüyü işlər üçün, məhsuldan bir şey çıxmamalıdır

Məsələ: ۱۸۹۸. Əgər bir şəxs üzüm və ya xurma ağacını alsa, onun qiyməti xərclərdən deyil. Amma xurmanı və ya üzümü yığımdan əvvəl alsa və zəkat müştərinin mülkündə ona vacib olsa ona verdiyi pulu çıxartsın. Amma zəkat satıcının mülkündə vacib olsa .pul verib onları alsa çıxa bilməz

Məsələ: ۱۸۹۹. Əgər bir nəfər müəyyən torpaq sahəsi alıb buğda və ya arpa əksə, yerin alınması üçün verilən pul, xərclərdən hesab olunmur. Amma əkin sahəsini, zəkat vacib olmamışdan qabaq alsa, onun alınmasına verdiyi pulu, xərclərdən hesab edib məhsuldan çıxa bilər. Əldə edilən samanın qiymətini isə, əkin sahəsi üçün verdiyi puldan çıxmalıdır; məsələn: əgər əkin sahəsini ۵۰۰ tümənə alsa və onun samanının .qiyməti alınan vaxt ۱۰۰ tümən olsa, yalnız ۴۰۰ huməni xərclərdən hesab edə bilər

Məsələ: ۱۹۰۰. Bir şəxs əkinçiliyə lazım olan heyvan və başqa texniki avadanlığ olmadan əkinçilik edə bilərsə, əgər onları alsa, gərək onları almaq üçün xərc etdiyi pulları, .xərclərindən hesab etməsin

Məsələ: ۱۹۰۱. Bir şəxs əkinçiliyə lazım olan heyvan və başqa texniki avadanlığ olmadan əkinçilik edə bilmirsə, əgər onları alsa və əkinə görə onların hamısı əkinçilik vasitəsi ilə xarab olarsa, onların bütün qıymətlərini xərclərindən hesab edə bilər. Əgər onlardan .bir miqdar azalarsa və ya azalmazsa o miqdarı xərclərindən hesab edə bilməz

Məsələ: ۱۹۰۲. Əgər bir torpaqda arpa, buğdadan əlavə zəkatı vacib olmayan düyü və lobya kimi şeylər də əkilsə, əgər niyyəti əkindən zəkatı olmayan şeylər olsa və sonradan zəkatı olanlardan əksə, xərclərini birindən hesab edə bilməz, gərək nisbət etibarı ilə hesablansın. Əgər əkindən niyyəti, zəkatı olan şeylər olsa və

sonradan zəkatı olmayanlardan əksə, bütün xərclərini nisbət etibarı ilə hesab edib .məhsuldan çıxa bilər

Məsələ: ۱۹۰۳. Əgər şumlamağa, yaxud bir neçə il əkinçilik üçün faydalı olan işlərə xərc etsə, əgər birinci il üçün olsa ki, əkinin ona ehtiyacı var, sonrakı illər üçün də faydalı olmasına baxmayaraq, onun xərclərini, birinci ilin gəlirindən azalda bilər. Əgər bir neçə .il üçün faydalı olsa, onun xərclərini bir neçə ilə bölsün

Məsələ: ۱۹۰۴. Əgər insanın, fəsilləri bir-biri ilə fərqlənən və əkin məhsulları və meyvəsi eyni vaxtda hasil olmayan bir şəhərdə buğda, arpa, xurma, yaxud üzümü olsa, onların hamısı bir ilin məhsulu hesab olunduğu təqdirdə, birinci yetişən şey nisab (۲۸۸ məndən ۴۵ misqal az) həddinə çatsa, onun zəkatını yetişdiyi vaxt versin. Qalanlarının zəkatını isə, gərək yetişdiyi vaxtlarında versin. Əgər əvvəldə yetişən nisab həddinə çatmasa, bu halda sonradan əldə olunan məhsullarla birlikdə nisab həddinə çatmasına yəqini olsa, yenə də yetişənlərin zəkatını həmin vaxtda, qalanlarını isə, yetişdikləri vaxtda vermək vacibdir. Əgər hamısının birlikdə nisab həddinə çatacağına yəqini olmasa, bu halda qalanlarının da yetişməsini gözləməlidir; əgər üst-üstə nisab həddinə çatarsa, .zəkatı vacibdir. Əks halda isə, vacib deyil

Məsələ: ۱۹۰۵. Əgər üzüm və ya xurma ağacı bir ildə iki dəfə meyvə versə, birlikdə nisab .həddinə çatsa, ehtuyata əsasən, onun zəkatı vacibdir

Məsələ: ۱۹۰۶. Əgər bir miqdar təzə xurma və ya üzümü vardır ki, onların da qurumuşları nisab həddinə çatırsa, bu halda zəkat niyyətilə onların təzəsindən quruduqda, ona vacib olan zəkat miqadarında olacaq miqdarda zəkata sərf etsə, eybi .yoxdur

Məsələ: ۱۹۰۷. Əgər bir şəxsə quru xurma və ya kişmişin zəkatı vacib olsa, onun zəkatını təzə xurma və ya təzə üzümdən verə bilməz. Həmçinin, təzə xurma və ya təzə üzümün zəkatı ona vacib olan halda, zəkatını quru xurma və ya kişmişdən verə bilməz. Amma bunlardan birini, yaxud başqa bir şeyi zəkatın dəyər

.qiyməti niyyəti ilə versə, maneəsi yoxdur

Məsələ: ۱۹۰۸. Həm borclu, həm də zəkatı vacib olan malı olan bir şəxs ölərsə, əvvəlcə zəkatı vacib olan malın hamısının zəkatını verməli, sonra isə onun borclarını .qaytarmalıdırlar

Məsələ: ۱۹۰۹. Həm borclu olan, həm də buğda arpa və xurma, üzümü olan bir şəxs ölsə və onların zəkatı vacib olmamışdan qabaq vərəsələri onun borclarını başqa maldan versələr, bu halda hər birinin payı nisab həddinə (۲۸۸ məndən ۴۵ misqal aza) çatsa, zəkatını verməlidir. Əgər onların zəkatı vacib olmamışdan qabaq ölənin borcunu verməsələr, bu halda meyyitin malı təkcə borcları miqdarında olsa, onların zəkatını vermələri vacib deyil. Əgər meyyitin malı borclarından artıq olsa, bu halda əgər onun borclarını verəcəkləri təqdirdə, bir miqdar buğda, arpa, xurma, kişmişi də borc sahibinə verməli olacaqlarsa, borc sahibinə verdiklərinin zəkatı yoxdur. Yerdə qalanlar .da vərəsələrindir; hər birinin payı nisab həddinə çatsa, zəkatını verməlidir

Məsələ: ۱۹۱۰. Əgər zəkatı vacib olan buğda, arpa, kişmiş və xurmanın həm yaxşısı, həm də pisi olsa, ehtiyat-vacib budur ki, hər birinin zəkatını onun özündən (yaxşıların zəkatını yaxşıdan, pislərinkini pisdən), versin. Daha yaxşı olar ki, hamısının zəkatını .yaxşıdan versin

QIZILIN NİSABI

:Məsələ: ۱۹۱۱. Qızılın iki nisab həddi vardır

Birincisi: İyirmi şəri misqaldır hər misqal, ۱۸ noxud miqdarındadır; əgər qızılın miqdarı ۲۰ şəri misqala (۱۵ adi misqala) çatsa, lazım olan sair şərtlər də mövcud olarsa, onun .qırxda birini (۹ noxud) zəkat verməlidir. Əgər bu həddə çatmasa, zəkatı vacib deyil

İkincisi: Dörd şəri misqaldır ki, üç adi misqala bərabərdir. Deməli, əgər ۱۵ (adi) misqala üç (adi) misqal əlavə olunsa, ۱۸ misqalın hamısının zəkatını qırxda birini verməlidirlər. Əgər üç

misqaldan az olsa, təkcə ۱۵ misqalın zəkatı verilməlidir. Onun artıq qalan hissəsinin zəkatı yoxdur. Həmçinin, hər nə qədər yuxarı getsə, yəni üç misqal-üç misqal artsa, (۱۵, ۱۸, ۲۱, ۲۴), onların hamısının zəkatı verməlidirlər. Əgər üç misqaldan az əlavə olunsa, artan hissənin zəkatı yoxdur.

GÜMÜŞÜN NİSABI

Məsələ: ۱۹۱۲. Gümüşün iki nisabı vardır:

Birincisi: ۱۰۵ adi misqaldır. Əgər gümüş ۱۰۵ adi misqala çatsa, qadaqda deyilən sair şərtlər də mövcud olsa, insan onun qırxda birini (۲ misqal və ۱۵ noxud) zəkat verməlidir. Əgər bu miqdara çatmasa, zəkatı vacib deyil.

İkincisi: ۲۱ misqaldır. Yəni, ۱۰۵ misqala ۲۱ misqal əlavə olunsa, bütün ۱۲۶ misqalın zəkatı qeyd olunduğu kimi verilməlidir. Əgər ۲۱ misqaldan az əlavə olunsa, təkcə ۱۰۵ misqalın zəkatı verilməlidir. Artıq qalan hissənin zəkatı yoxdur. Həmçinin, bu qayda ilə nə qədər yuxarı getsə (yəni, ۲۱-۲۱ misqal əlavə olunsa), hamısının zəkatı verilməlidir. Amma əlavə olunan miqdar ۲۱ misqaldan az olsa, zəkatı yoxdur. Deməli, əgər insan malik olduğu qızıl və gümüşün qırxda birini zəkat versə, ona vacib olan zəkatı ödəmiş olur. Bəzi hallarda isə, vacib olan miqdardan artıq vermiş olur; məsələn, ۱۱۰ misqal gümüşü olan bir şəxs, onun qırxda birini zəkat versə, onun ۱۰۵ misqalının vacib olan zəkatını vermişdir. Qalan beş misqal üçün də verdiyi bir miqdar, vacib deyildir.

Məsələ: ۱۹۱۳. Qızılı və ya gümüşü nisab halına çatan bir şəxs, onun zəkatını versə də, birinci nisabdan azalmadıqca, hər il onun zəkatını verməlidir.

Məsələ: ۱۹۱۴. Qızıl və gümüşün zəkatı o vaxt vacib olur ki, sikkə vurulmuş və onunla al-ver yayılıb tanınmış olsun. Əgər onun sikkəsi aradan getmiş olsa da, zəkatı verilməlidir.

Məsələ: ۱۹۱۵. Qadınların bəzək üçün istifadə etdikləri sikkəli

qızıl və gümüş, hətta əgər onunla al-ver etmək geniş şəkildədirsə onun zəkatı vacib deyil. Əgər zəkatdan boyun qaçırmaq olmazsa və onlara ehtiyacı olarsa gərək zəkatını versin. Əgər onların müamiləsi rəvacdan düşübsə, amma qızıl və gümüş pul deyilirsə .ehtiyat-vacib budur ki, onun zəkatını versin

Məsələ: ۱۹۱۶. Bir şəxsin qızılı və gümüşü olsa və heç biri nisab həddinə çatmasa; .məsələn, ۱۰۴ misqal gümüşü və ۱۴ misqal qızılı olsa, ona zəkat vacib deyil

Məsələ: ۱۹۱۷. Əvvəldə qeyd olunduğu kimi, qızıl və gümüşün zəkatı o vaxt vacib olur ki, insan ۱۱ ay müddətində nisab həddində olanlara malik olsun. Əgər ۱۱ ay içində onun .qızıl və gümüşü nisab həddindən azalsa, ona zəkat vacib deyil

Məsələ: ۱۹۱۸. Əgər ۱۱ ay içində malik olduğu qızıl və gümüşü başqa qızıl və gümüşlə, yaxud başqa şeylə dəyişdirsə, və ya əritsə, zəkat vacib olmaz. Amma zəkat verməkdən boyun qaçırmaq üçün bu işləri görsə, ehtiyat-müstəhəb budur ki, zəkatını .versin

Məsələ: ۱۹۱۹. Əgər qızıl və gümüş pulunu ۱۲-ci ayda əritsə, zəkatını verməlidir. Əgər əritməklə onların çəkisi, yaxud qiyməti azalsa, əridilməmişdən qabaq vacib olan zəkatı .verməlidir

Məsələ: ۱۹۲۰. Əgər qızıl və gümüşünün həm yaxşısı, həm də pisi olsa, hər birinin zəkatını onun özündən (yaxşının zəkatını yaxşıdan, pisinkini pisdən) verə bilər. Amma yaxşı olar ki, hamısının zəkatını yaxşı qızıl və yaxşı gümüşdən versin. Amma ehtiyat- .vacib budur ki, onların hamısının zəkatını pis qızıl və pis gümüşdən verməsin

Məsələ: ۱۹۲۱. Adi qaydadan artıq başqa metallarla qarışan (qızıl və gümüşün xalisi nisab həddinə çatarsa, onun zəkatı verilməlidir. Əgər onun xalisinin nisab həddinə çatıb-çatmamasında şəkk etsə, ehtiyat-vacibə görə, onun xalisinin miqdarını təyin etsin. Əgər zərər etməzsə təyin etməzdən qabaq zəkatın öhdəsin götürülməsi niyyəti .ilə verə bilər

Məsələ: ۱۹۲۲. Əgər malik olduğu qızıl və gümüş adi qaydada başqa metallarla qarışıq olsa, onun zəkatını adi haldan artıq qarışıq

olan başqa qızıl və gümüşdən verə bilməz. Amma onda (verdiyində) xalis qızıl və .gümüşün, zəkatın vacib olan miqdarında olmasına yəqini olasa, eybi yoxdur

DƏVƏ, İNƏK, VƏ QOYUNUN ZƏKATI

Məsələ: ١٩٢٣. Dəvə, inək və qoyunun zəkatda qeyd olunan şərtlərdən əlavə, iki şərti də :var

Həmin heyvanlar bütün il boyu işsiz olsunlar. Əgər il boyunca ١-٢ gün işlədilsə, onun-١ .zəkatı vacibdir

Bütün il boyu çölün otlarından yesin. Deməli, əgər bütün ili, yaxud ilin müəyyən-٢ müəddətində biçilmiş otdan, onların malikinin, yaxud başqasının mülkü olan əkin yerindən otlasa, zəkatı yoxdur. Amma il boyunca ١-٢ gün malikinin otundan yesə, .ehtiyata əsasən, onun zəkatı vacibdir

Məsələ: ١٩٢٤. Əgər insan öz inəyi, dəvəsi və qoyunu üçün heç kəsin əkmədiyi bir otlaq .alsa yaxud icarə etsə və ya orada otarmaq üçün vergi versə, gərək zəkatını versin

DƏVƏNİN NİSABI

:Məsələ: ١٩٢٥. Dəvənin ١٢ nisabı vardır

baş dəvə; onun zəkatı bir qoyundur. Nə qədər ki, dəvələrin sayı beşə çatmayıb, ٥ .(١ .zəkatı yoxdur

.baş dəvə; zəkatı iki qoyundur ١٠ .(٢

.baş dəvə; zəkatı üç qoyundur ١٥ .(٣

.baş dəvə; zəkatı dörd qoyundur ٢٠ .(٤

.baş dəvə; zəkatı beş qoyundur ٢٥ .(٥

.baş dəvə; zəkatı iki yaşına daxil olmuş bir dəvədir ٢٦ .(٦

.baş dəvə; zəkatı üç yaşına daxil olan bir dəvədir ٣٦ .(٧

.baş dəvə; zəkatı dörd yaşına daxil olmuş bir dəvədir ۴۶ .(۸

.baş dəvə; zəkatı beş yaşına daxil olmuş bir dəvədir ۶۱ .(۹

.baş dəvə; zəkatı üç yaşına daxil olmuş iki dəvədir ۷۶ .(۱۰

.baş dəvə; zəkatı dörd yaşına daxil olmuş iki dəvədir ۹۱ .(۱۱

baş dəvə və ondan yuxarıdır ki, ۴۰-۴۰ hesab olunmalıdır. Hər ۴۰ başın zəkatı üç ۱۲۱ .(۱۲ yaşına daxil olmuş bir dəvədir; yaxud ۵۰-۵۰ hesablanmalıdır ki, hər ۵۰ dəvənin zəkatı dörd yaşına daxil olmuş bir dəvədir. Yaxud ۴۰-۵۰, ۴۰-۵۰ hesab etməlidir. Amma elə hesab olunmalıdır ki, bir şey qalmasın; qalsa da ۹-dan artıq olmasın; məsələn: əgər bir nəfərin ۱۴۰ dəvəsi olsa, ۱۰۰ dəvə üçün dörd yaşına daxil olmuş iki dəvə, ۴۰ dəvə üçün üç .yaşına daxil olmuş dəvə verməlidir. Zəkatda verilən dəvə, dişi olmalıdır

Məsələ: ۱۹۲۶. İki nisab arasında olan say üçün zəkat vacib deyil. Deməli, əgər dəvələrin sayı birinci nisabdan (beşdən) keçib, ikinci nisaba (ona) çatmasa, təkcə ۵ dəvənin .zəkatını verməlidir. Sair nisablarda da eyni qayda ilə

İNƏYİN NİSABI

:Məsələ: ۱۹۲۷. İnəyin iki nisabı vardır

Otuzdur: inəklərin sayı ۳۰-a çatanda qeyd olunan şərtlərə malik olarsa, iki yaşına-۱ .daxil olmuş bir dana zəkat verilməlidir

Qırxdır: onun da zəkatı üç yaşına daxil olmuş dişi danandır. ۳۰-la ۴۰ arasında olanların-۲ zəkatı vacib deyil; məsələn: bir şəxsin ۳۹ inəyi olsa, yalnız ۳۰-un zəkatını verməlidir. Həmçinin əgər ۴۰-dan artıq inəyi olsa, nə qədər ki, ۶۰-a çatmayıb yalnız ۴۰-ın zəkatını verməlidir. ۶۰-a çatandan sonra, birinci nisab ikiqat olduğundan, iki baş iki yaşına daxil olmuş dana verməlidir. Həmçinin, yuxarı getdikcə ya ۳۰-۳۰, ya ۴۰-۴۰, ya da ۳۰-۴۰-la hesablanmalı, qeyd olunan göstərişə əsasən, zəkatını verməlidir. Elə hesab edilməlidir ki, bir şey qalmasın; qalsa da ۹-dan artıq olmasın; məsələn: əgər ۷۰ baş inəyi olsa, ۳۰-۴۰-la hesab etməlidir. ۳۰ baş üçün ۳۰-un, ۴۰ baş üçün ۴۰-ın zəkatını verməlidir. Çünki, .əgər ۳۰-۳۰ hesab etsə, ۱۰ baş inək zəkatsız qalır

QOYUNUN NİSABI

Məsələ: ١٩٢٨. Qoyunun beş nisabı var:

١). ٤٠ baş qoyun; zəkatı bir qoyundur. Qoyunların sayı ٤٠-a çatmayınca, zəkat vacib deyil.

٢). ١٢١ baş qoyun; zəkatı ٢ qoyundur.

٣). ٢٠١ baş qoyun; zəkatı ٣ qoyundur.

٤). ٣٠١ baş qoyun; zəkatı ٤ qoyundur.

٥). ٤٠٠ baş və ondan artıqdır ki, onları yüz-yüz hesab etməli, hər yüz baş üçün bir qoyun verməlidir. Zəkatı, qoyunların özündən verməsi lazım deyil. Hətta başqa qoyun da, yaxud onun qiymətinə uyğun pul versə, kifayətdir.

Məsələ: ١٩٢٩. İki nisab arasında olanlar üçün zəkat vacib deyil. Deməli, əgər bir şəxsin qoyunlarının sayı birinci nisab olan ٤٠-dan artıq olub ١٢١ olan ikinci nisaba çatmasa, təkcə ٤٠ başın zəkatını verməlidir. Ondan artıq qalanın zəkatı yoxdur. Sonrakı nisablarda da eyni qayda ilə.

Məsələ: ١٩٣٠. Nisab həddinə çatan dəvə, inək və qoyunun zəkatı vacibdir. İstər hamısı erkək olsun, istərsə də dişi, yaxud bəzisi erkək olsun, bəzisi dişi.

Məsələ: ١٩٣١. Zəkatda inəklə camış, ərəb dəvəsi ilə qeyri-ərəb dəvəsi, keçi ilə qoç və şişək zəkatda eyni cinsdən hesab olunur və bir-birilə fərqi yoxdur.

Məsələ: ١٩٣٢. Əgər zəkat üçün qoyun versə, ən azı iki yaşlı, keçi versə, üç yaşına daxil olmuş olmalıdır.

Məsələ: ١٩٣٣. Zəkat kimi verilən qoyunun qiyməti, sair qoyunlardan azacıq az olsa, eybi yoxdur. Amma daha yaxşı olar ki, qiyməti sair qoyunların qiymətindən çox olanı zəkat kimi versin. Həmçinin, inək və dəvədə də eyni qayda ilə.

Məsələ: ١٩٣٤. Əgər bir neçə nəfər şərik olsalar, hər birinin payı birinci nisab həddinə çatsa, zəkatını verməlidir. Payı birinci nisab həddindən az olan şəxsə, zəkat vacib deyil.

,Məsələ: ۱۹۳۵. Əgər bir nəfərin bir neçə yerdə inəyi, dəvəsi

.yaxud qoyunu olsa və üst-üstə nisab həddinə çatsalar, onların zəkatını verməlidir

Məsələ: ۱۹۳۶. Əgər inək, dəvə, yaxud qoyunların içərisində xəstə, yaxud eyblisi də olsa, .zəkatlarını verməlidir

Məsələ: ۱۹۳۷. Əgər bir şəxsin inək, dəvə, qoyunlarının hamısı xəstə, yaxud eybli və ya qoca olsalar, hər birinin zəkatını onların özündən verə bilər. Amma hamısı sağlam, eybsiz və cavan olsalar zəkatlarını xəstə, eybli və qocalardan verə bilməz. Hətta əgər onların bəziləri sağlam, bəziləri xəstə; bəziləri eybli və bəziləri isə eybsiz; bəziləri qoca və bəziləri cavan olsalar da, ehtiyat-vacib budur ki, onların zəkatını sağlam, eybsiz və .cavanlardan versin

Məsələ: ۱۹۳۸. Əgər ۱۱-ci ay tamam olmamışdan qabaq qoyun, inək və dəvələrini başqa şeylə dəyişsə, yaxud nisab miqdarında olanları həmin cinsdən olan nisab miqdarında .dəyişsə; məsələn: ۴۰ qoyun verib başqa ۴۰ qoyun alsa, onun zəkatı vacib deyil

Məsələ: ۱۹۳۹. İnək, qoyun, dəvənin zəkatını verməli olan bir şəxs, onların zəkatını başqa maldan versə, nə qədər ki, onların sayı nisabdan azalmayıb, hər il zəkatını verməlidir. Əgər onların özündən versə və birinci nisabdan azalsa, ona zəkat vacib deyil; məsələn, bir nəfərin ۴۰ qoyunu olsa və zəkatını başqa malından versə, nə qədər ki, onun qoyunları ۴۰-dan azalmayıb, hər il bir qoyun verməlidir; əgər onların özündən .versə, nə qədər ki, ۴۰-a çatmayıbdır, zəkat ona vacib deyildir

ZƏKATIN SƏRF OLUNMA YERLƏRİ

:Məsələ: ۱۹۴۰. İnsan zəkatı ۸ yerə sərf edə bilər

Fəqirə. (Fəqir özünün və ailəsinin illik xərclərini təmin edə bilməyən kəsdir. Sənət və-۱ ya mülk yaxud da sərmayəsi olan şəxs, sərmayənin mənfəətlərindən öz illik xərclərini .(təmin edə bilirsə, fəqir deyil

.(Miskinə. (Miskin, vəziyyəti fəqirdən də ağır olan kəsdir-۲

İmamın (əleyhis-səlam), yaxud onun naibinin tərəfindən zəkatı-۳

yığıb saxlamağa onun mühasibəçisinə, onu İmama (ələyhis-səlam), yaxud onun .naibinə və ya fəqirlərə çatdırmağa vəzifəli olan şəxsə

Zəkat verilərsə İslam dininə yönələn, yaxud müharibədə müsəlmanlara kömək edən-۴ .kafirlərə, həmçinin zəkat verilərsə, imanları güclənən zəif imanlı müsəlmanlara

.Qulların alınıb azad olunmasına-۵

Öz borcunu verə bilməyən borclulara. (Bu şərtlə ki, o borcu günah işdə sərf etməmiş-۶ (.olsun

Allah yolunda. İslam Peyğəmbəri (səlləllahu ələyhi və alihi vəs-sələm) tərəfindən-۷ yerinə yetirməsinə şövqləndirilmiş ümumi dini mənfəəti olan işlər yəni məscid və dini elmlərin tədris olunması üşün mədrəsə tikmək, səfərdə olanlar və ziyarətçilərin sığınması üçün mənzil tikmək, yetimlər evi tikmək, dini şüarları yüksəltmək, dini kitabları çap etmək, islam müarifini yaymaq, möminlərin arasında olan qalmaqalı aradan qaldırmaq (mal sərf olunması bahasına olsa da). Ümumiyyətlə qürbət qəsdi ilə yerinə yetirə bilinən hər xeyir iş şəhərin nəzafəti, yolların asfalt olunması və genişləndirilməsi, cəmiyyətin ümumi xeyri üçün körpü tikmək. Həmçinin, islama xeyri olan hər hansı bir iş; məsələn: islami elm hövzəsindən fəsadı dəf etmək, mümkün olan .hər vasitə ilə müqəddəs dini yaymaq

İbnüs-səbil"-ə. Yəni, səfərdə (müəyyən səbəbə görə) çarəsiz yolda qalan şəxs."-۸ .Bunların hökmləri, sonrakı məsələdə deyiləcək

Məsələ: ۱۹۴۱. Ehtiyat-müstəhəb budur ki, fəqir və miskin, zəkatdan özünün və əhli-əyalının illik xərclərindən artıq götürməsin. Əgər müəyyən miqdarda pul və yaxud malı .varsa, bu halda illik xərclərinin çatmayan miqdarını götürməlidir

Məsələ: ۱۹۴۲. Əgər bir şəxsin illik xərcləri qədər malı olsa və bu miqdarı sərf etdikdən sonra yerdə qalanının illik xərclərinə çatıb-çatmayacağında şəkk etsə, zəkat ala .bilməz

Məsələ: ۱۹۴۳. Qazancı illik xərclərindən az olan sənətkar, yaxud mülk sahibi, yaxud tacir öz xərclərinin kəsiri üçün zəkat ala bilər. Özünün iş avadanlıqlarını, əmək alətini,

mülkünü, yaxud

səh: ۳۵۷

.sərmayəsini, xərclərinə sərf etməsi lazım deyil

Məsələ: ۱۹۴۴. Özünün və ailəsinin bir illik xərcini təmin edə bilməyən bir fəqirin, öz mülkü olan bir evi varsa və orada oturubsa, yaxud minik heyvanı varsa, əgər bunlarsız yaşaya bilməzsə, hətta abırının hifz olunması üçün də olsa, zəkat ala bilər. Həmçinin, ehtiyacı olduğu ev əşyaları, qab-qacaq, qış və yay paltarları və sair şeyləri də bu qayda ilə. Əgər fəqir qeyd olunlara malik olmasa və onlara ehtiyacı olsa, zəkatdan ala .bilər

Məsələ: ۱۹۴۵. Müəyyən peşəni, sənəti öyrənmək ona çətin olmayan bir fəqir, öyrənməyi də çox bir müddət tutmazsa, zəkatla güzəranını təmin edə bilər. Nə qədər .ki, öyrənməyə məşğuldur, zəkat ala bilər

Məsələ: ۱۹۴۶. Əvvələr fəqir olan və "fəqirəm" deyən bir şəxsin sözündən əminlik hasil .olmasa da, ona zəkat vermək olar

Məsələ: ۱۹۴۷. Əgər bir şəxs "fəqirəm" desə və əvvələr fəqir olmasa, sözündən əminlik hasil olmasa ehtiyat-vacib budur ki, ona zəkat verilməsin. Amma əvvəl fəqir olması məlum olmasa, "fəqirəm" desə bu halda onun sözündən əminlik hasil olmazsa, düz .dediyinə güman etməsədə zəkat verə bilər

Məsələ: ۱۹۴۸. Zəkat verməli olan bir şəxsin fəqirdə borcu olsa, ona verməli olduğunu .əgər günahda istifadə etməmişsə zəkatdan hesab edə bilər

Məsələ: ۱۹۴۹. Əgər fəqir şəxs ölsə və onun malı borcuna çatmasa, insan, ona vermiş olduğu borcu zəkatdan hesab edə bilər. Əgər onun malı borcu miqdarında olsa, amma vərəsəsi onun borcunu verməsə, yaxud başqa səbəblərə görə insan öz borcunu .ondan ala bilməsə, ona verdiyi borcu zəkatdan hesab edə bilər

Məsələ: ۱۹۵۰. İnsanın fəqirə zəkat kimi verdiyi şeyin zəkat olduğunu deməsi lazım deyil. Əgər onun zəkat olduğunu bilsəydi qəbul edəcəyini bilsin. Fəqir xəcalət çəkməsin deyə, müstəhəbdir ki, "peşkəş" adı ilə versin. Amma gərək zəkat niyyəti ilə versin və fəqirin malı ümumi şəkildə, zəkatda olsa qəbul etdiyini bilsin. Əgər zəkatı qəbul etmədiyini bilərsə ehtiyat-vacib budur ki, zəkatı

.ona verməsin

Məsələ: ۱۹۵۱. Əgər bir şəxsin fəqir olduğuna inanaraq ona zəkat versələr və sonra fəqir olmadığı məlum olsa; yaxud məsələni bilməməzlik üzündən fəqir olmadığını bildiyi bir şəxsə zəkat versələr, ona verdikləri şey qalırsa geri almalıdırlar. Onu alan şəxs, zəkat olduğunu bilibsə, gərək insan əvəzini ondan alıb və müstəhəqqə çatdırılsın. Əgər zəkat olduğunu bilməyibsə, onda bir şey ala bilməz. Gərək öz malından zəkatı .müstəhəqqə versin

Məsələ: ۱۹۵۲. Borclu olan və öz borcunu verə bilməyən şəxs, hətta illik xərclərini təmin edə bildiyi halda da öz borcunu vermək üçün zəkat ala bilər. Amma gərək borc etdiyi malı günah yolunda xərcləməmiş olsun. Əgər günah üçün xərcləmiş olsa, o günahdan tövbə etmiş olsun. Günah edib tövbə etməmişsə, borcluların payından ona vermək .olmaz. Amma fəqirlərin payından ona vermək olar

Məsələ: ۱۹۵۳. Əgər insan borclu olan və borcunu verə bilməyən bir şəxsə zəkat verib, sonradan borcunu günah üçün xərclədiyini bilsə, bu halda o borclu şəxs fəqirdirsə, ona verdiklərini zəkat hesab edə bilər. Əgər o, günahdan tövbə etməmiş olsa, ehtiyat-.vacibə görə, ona veriləni zəkatdan hesab etməməlidir

Məsələ: ۱۹۵۴. Borclu olan və öz borcunu verə bilməyən şəxs, hətta fəqir olmasa da, .insan ona verdiyi borcu zəkatdan hesab edə bilər

Məsələ: ۱۹۵۵. Səfərdə olanın xərcliyi qurtarsa, yaxud minik vasitəsi xarab olsa, onun səfəri günah üçün deyilsə və borc almaqla, yaxud bir şeyini satmaqla özünü mənzilə çatdıra bilməsə, hətta öz vətənində fəqir olmasa da, zəkat ala bilər. Amma başqa bir yerdən borc etmək, yaxud bir şey satmaqla səfər xərcini (adına uyğun və zəhmətə düşmədiyi şəkildə) təmin edə bilərsə, yalnız həmin yerə çatması üçün lazım olan qədər .zəkat ala bilər

Məsələ: ۱۹۵۶. Səfərdə olan şəxs yolda çarəsiz qalıb, zəkat götürsə, vətəninə çatdıqdaq sonra zəkatdan artıq qalsa, qalan

.miqdarı cameüş-şərait müctəhidə verib zəkat olmasını deməlidir

ZƏKATA MÜSTƏHƏQ OLAN ŞƏXSLƏRİN ŞƏRTLƏRİ

Məsələ: ۱۹۵۷. Zəkatı alan şəxs ۱۲ İmam (ələyhimus-səlam) şiəsi olmalıdır. Əgər insan bir nəfərin şiə olduğunu bilib ona zəkat versə, sonradan şiə olmadığı məlum olsa, .gərək yenidən ۱۹۵۱-ci məsələdə deyildiyi kimi, zəkat versin

Məsələ: ۱۹۵۸. Əgər şiə olan uşaq, yaxud dəli fəqir olsa, insan onun qəyyumuna bu .məqsədlə zəkat verə bilər ki, o, verdiyini uşağın və ya dəlinin mülkünə keçirsin

Məsələ: ۱۹۵۹. Əgər uşağın və ya dəlinin qəyyumunu tapa bilməsə, özü yaxud əmanətdar şəxsin vasitəsilə öz zəkatını uşağa və ya dəliyə xərcləyə bilər. Zəkatı .onlara xərclədiyi zaman, zəkat niyyəti etməlidir

Məsələ: ۱۹۶۰. Dilənçilik edən fəqirə, zəkat vermək olar. Amma zəkatı günah yolunda .sərf edənə zəkat vermək olmaz

Məsələ: ۱۹۶۱. Böyük günahları aşkar surətdə edənlərə, zəkat verməmək günahı tərk .etməsinə səbəb olacağsa zəkat verilməməlidir

Məsələ: ۱۹۶۲. Borclu olan və borcunu ödəyə bilməyən bir şəxsə, onun xərclərinin insana vacib olmasına baxmayaraq, borcunu ödəməsi üçün ona zəkat verə bilər. Əgər .borc insanın nəfəqəsinə nisbətən vacibi-nəfəqə olsa verə bilməz

Məsələ: ۱۹۶۳. İnsan, xərcləri özünə vacib olan şəxslərə övlad kimi zəkatını verə bilməz. .Amma onların xərclərini verməsə, başqaları onlara zəkat verə bilərlər

Məsələ: ۱۹۶۴. Əgər insan öz oğluna zəkat versə ki, (o da öz növbəsində) özünün həyat .yoldaşına, nökərinə və külfətinə xərcləsin, eybi yoxdur

Məsələ: ۱۹۶۵. Əgər oğulun dini-elmi kitablara ehtiyacı olsa, ata

.onları almaq üçün zəkatı ona verə bilər

Məsələ: ۱۹۶۶. Ata zəkatını öz fəqir oğluna verə bilər ki, özü üçün arvad alsın, oğul da .atasının arvad alması üçün öz zəkatını ona verə bilər

Məsələ: ۱۹۶۷. Bir qadının xərclərini öz əri versə, yaxud xərcini verməsə, lakin xərcini .verməyə məcbur etmək mümkün olsa, o qadına zəkat vermək olmaz

Məsələ: ۱۹۶۸. Siyğə olunmuş qadın fəqir olsa, əri və başqa şəxslər ona zəkat verə bilərlər. Amma əri əqddə, onun xərclərini verməyi şərt etsə, yaxud başqa səbəblərə görə, onun xərcləri ərinə vacib olsa, o qadının xərclərini verə biləcəyi təqdirdə, verməli və köməkdə etməlidir. Əgər kömək etməs mümkün olan halda onu vacib nəfəqəyə .kömək etməyə məcbur etsinlər. O qadına zəkat vermək olmaz

Məsələ: ۱۹۶۹. Qadın öz fəqir ərinə zəkat verə bilər. Hətta, əgər əri, həmin zəkatı qadının .xərclərinə sərf etsə də belə

Məsələ: ۱۹۷۰. Seyid, qeyri-seyiddən zəkat ala bilməz. Əgər xüms və sair vücuhatlar seyidin xərclərinə kifayət etməsə və nəticədə zəkat almağa məcbur olarsa, onda qeyri-seyiddən də zəkat ala bilər. Məcbur olmaq ehtiyata əsasən buna deyilir ki, xüms və sair vücuhatlara əli çatdığı halda, xərclərinə kifayət etməsin. Amma ehtiyat-vacib .budur ki, gündəlik xərcləri üçün naçar olduğu miqdarda zəkatdan ixtisar etsin

.Məsələ: ۱۹۷۱. Seyid olub-olmaması məlum olmayan şəxsə, zəkat vermək olar

ZƏKATIN NİYYƏTİ

Məsələ: ۱۹۷۲. İnsan zəkatı qürbət yəni, Allah-Taalanın əmrini yerinə yetirmək niyyəti ilə verməlidir. malın zəkatı, yaxud fitrə zəkatı olduğunu da, niyyətdə müəyyənləşdirməlidir. Amma bir şəxsə buğda və arpa zəkatı vacib olsa, verdiklərinin .buğdanın, yaxud arpanın zəkatı olmasını müəyyənləşdirməsi lazım deyil

Məsələ: ۱۹۷۳. Bir neçə malın zəkatı vacib olan şəxs, yaxşı olar ki, öz niyyətində hansı malın zəkatı olduğunu müəyyən etsin. Əgər müxtəlif cinslər olsa hər cins özünə aid olur. Məsələn buğda və arpa nisab həddinə çatsa və onların hər ikisindən zəkat versə hər biri öz cinsinə (buğda buğdaya, arpa isə arpaya) aid olur. Deməli müxtəlif cinslər .olsa niyyətində müəyyən etsin

Məsələ: ۱۹۷۴. Əgər bir nəfər başqasını, malının zəkatını verməyə vəkil etsə və vəkil, zəkatı fəqirə verəndə, gərək malikin tərəfindən zəkat niyyəti etsin. Ehtiyat-vacib .budur ki, malik də zəkatı vəkilə verərkən niyyət etsin

Məsələ: ۱۹۷۵. Əgər malik, yaxud onun vəkili, qürbət niyyəti etmədən zəkatı fəqirə versə və mal aradan getməmişdən qabaq malikin özü zəkat niyyəti etsə, zəkat hesab .olunur

ZƏKATIN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ۱۹۷۶. Buğda və arpa samandan ayrılanda; üzüm və xurma quruduqda, insan onların zəkatını fəqirə verməli, yaxud öz malından ayırmalıdır. Qızıl, gümüş, inək, dəvə və qoyunun zəkatını ۱۱-ci ay tamam olandan sonra fəqirə verməli, yaxud öz malından ayırmalıdır. Əgər müəyyən bir fəqiri gözləsə, yaxud müəyyən cəhətdən üstünlüyü olan .fəqirə vermək istəsə, zəkatı ayırmaya bilər

Məsələ: ۱۹۷۷. Zəkatı ayırandan sonra, dərhal müstəhəqqə vermək lazım deyil. Amma .müstəhəq tapsa, ehtiyat-müstəhəb budur ki, zəkat verməyi təxirə salmasın

Məsələ: ۱۹۷۸. Əgər zəkatı müstəhəqqə çatdıra bilən bir şəxs, onu verməsə və tələf olub .aradan getsə, əvəzini verməlidir

Məsələ: ۱۹۷۹. Zəkatı müstəhəqqə çatdıra bilən bir şəxs, zəkatı verməsə, tələf olub aradan getsə, bu halda zəkatı verməyi çox təxirə salsa və "dərhal veribdir" deyilməsə, ehtiyat-vacibə görə, onun əvəzini verməlidir. Əgər bu qədər təxirə salmasa; məsələn, ,۲-۳ saat təxirə salsa və elə həmin vaxt ərzində tələf olsa

müstəhəqqin olmadığı təqdirdə, ona bir şey vacib deyil. Amma müstəhəq hazır olubsa, .ehtiyat-vacibə görə, onun əvəzini verməlidir

Məsələ: ١٩٨٠. Əgər zəkatı malın özündən ayırsa, malın qalan hissəsindən istifadə edə .bilər. Əgər başqa maldan ayırsa, malın hamısından istifadə edə bilər

Məsələ: ١٩٨١. İnsan öz malından ayırdığı zəkatı, özü üçün götürüb yerinə başqa şey .qoya bilməz

Məsələ: ١٩٨٢. Əgər zəkat üçün ayırdığı maldan müəyyən qədər mənfəət qazansa; .məsələn, zəkat üçün ayırdığı qoyun, doğsa, o, fəqirin malıdır

Məsələ: ١٩٨٣. Əgər zəkatı malından ayırdığı vaxt müstəhəq yanında olsa, yaxşı olar ki, zəkatı ona versin. Amma müəyyən cəhətdən üstünlüyə malik olan bir şəxsi nəzərdə .tutmuş olsa, bu halda (yanında olana) verməyə bilər

Məsələ: ١٩٨٤. Əgər şəri hakimin icazəsi olmadan zəkat üçün ayırdıqı mal ilə ticarət edib və zərər etsə, gərək zəkatdan bir şey azaltmasın. Amma gəlir əldə etsə, ehtiyat-vacib budur ki, o gəliri fəqirə versin. Hətta şəri hakimdən icazə alıb müstəhəqqə versin. Əgər zəkatı ayırmadan ticarət etsə zərəri özünün olduğu kimi, gəliri də özünündür. Zəkata .isə zamindir

Məsələ: ١٩٨٥. Əgər zəkat vacib olmamışdan qabaq, zəkat kimi müəyyən bir şeyi fəqirə versə, zəkat hesab olunmur. Zəkat vacib olandan sonra, əvvəldə fəqirə verdiyi şey qalmış olsa və həmin fəqir də öz fəqirliyində qalmış olarsa, ona verdiyi şeyi zəkatdan .hesab edə bilər

Məsələ: ١٩٨٦. Əgər fəqir, zəkatın bir şəxsə vacib olmadığını bilsə, əgər bir şeyi zəkat adı ilə alsa və onun yanında tələf olsa, zamindir. Deməli, zəkat insana vacib olan vaxt, o .fəqir fəqirliyində qalarsa, ona verdiyi şeyi, zəkat hesab edə bilər

Məsələ: ١٩٨٧. Bir fəqir zəkatın şəxsə vacib olmamağını bilməsə, əgər zəkat adı ilə bir şey alsa və onun yanında tələf olsa, zamin deyildir. İnsan da onun əvəzini zəkat hesab .edə bilməz

Məsələ: ۱۹۸۸. Müstəhəbdir ki, inək, qoyun və dəvənin zəkatını abırlı, ismətli fəqirlərə versinlər. Habelə, zəkatı verəndə, öz qohumlarını başqalarına, elm və kamal əhlini qeyrilərinə, bir şey istəyənləri istəməyənlərdən qabağa salsınlar. Amma zəkatı, başqa .bir fəqirə vermək bir cəhətdən daha yaxşı olsa, müstəhəbdir ki, zəkatı ona versin

.Məsələ: ۱۹۸۹. Daha yaxşı olar ki, zəkat aşkar, müstəhəb sədəqə isə gizli verilsin

Məsələ: ۱۹۹۰. Əgər zəkat vermək istəyən şəxsin yaşadığı şəhərdə müstəhəq tapılmasa və zəkatı müəyyən olunmuş başqa yerlərdə sərf edə bilməsə, bu halda sonradan müstəhəq tapılacağına ümidi olmasa, gərək zəkatı başqa şəhərə aparıb sərf olunası yerlərə xərcləsin. O şəhərə aparmağın xərclərini həmin zəkatdan götürə bilməz. Əgər .zəkatı ayırsa və tələf olarsa, zamin deyil

Məsələ: ۱۹۹۱. Əgər şəxsin öz şəhərində müstəhəq şəxs tapılsa, zəkatı başqa şəhərə apara bilər. Bu halda lazım olan xərcləri özü verməlidir və zəkat tələf olarsa zamindir. Amma hakimi-şərin icazəsi ilə olsa və ya zəkatı yığıb paylamaqda hakimi-şərin naibi .olsa zamin deyil

Məsələ: ۱۹۹۲. Zəkat kimi verilən buğda, arpa, kişmiş və xurmanın ölçülməsində alınan .muzd, (zəkat verənin) özünün öhdəsinədir

Məsələ: ۱۹۹۳. Əgər bir şəxsin ۲ misqal və ۱۵ noxud gümüş, yaxud daha artıq zəkat borcu olsa, ehtiyat-müstəhəbə görə, gərək bir fəqirə ۲ misqal və ۱۵ noxuddan az gümüş verməsin. Həmçinin, əgər gümüşdən başqa şey də (buğda və arpa kimi) zəkat borcu olsa və onun qiyməti iki misqal və ۱۵ noxud gümüşə çatsa, ehtiyat-müstəhəb .budur ki, gərək bir fəqirə o miqdardan az verməsin

Məsələ: ۱۹۹۴. İnsanın müstəhəqqə verdiyi zəkatı, onun özünə satmasını xahiş etməsi məkruhdur. Əgər müstəhəq aldığı şeyi satmaq istəsə, qiymət qoyulduqdan sonra, ,zəkatı ona verən şəxs

.həmin şeyi almaqda başqalarından üstündür

Məsələ: ١٩٩٥. Əgər bir şəxs vacib olan zəkatı verib-verməməsində şəkk etsə, hərçənd .onun şəkki qabaqkı illərin zəkatında da olsa, zəkatı verməlidir

Məsələ: ١٩٩٦. Fəqir, zəkatın qiymətindən az qiymətlə razılaşa bilməz; və ya ondan daha qiymətli bir şeyi (zəkat kimi) qəbul edə bilməz; yaxud da zəkatı mal sahibindən alıb yenidən ona bağışlaya bilməz. Əgər fəqirin öz istək və razılığı ilə olsa fəqir bağışlaya, malik də ala bilər. Amma çoxlu zəkat borcu olan, fəqir olub zəkatını verə bilməyən bir şəxs, tövbə etmək istəsə, fəqir, zəkatı ondan alıb yenidən onun özünə .bağışlaya bilər

Məsələ: ١٩٩٧. İnsan zəkatdan, müsəlmanların ehtiyacı və istifadə edəcəkləri miqdarda

Quran, yaxud dini, dua kitabları alıb (öz övladı, yaxud xərci onun özünə vacib olan şəxslərə də olsa) vəqf edə bilər. Həmçinin, vəqfin öhdədarlığını öz öhdəsinə ala bilər, .yaxud övladlarını bu işə təyin edə bilər

Məsələ: ١٩٩٨. Ehtiyat-vacibə görə insan zəkatdan müəyyən əmlak alıb öz övladına, yaxud xərclərinin ona vacib olduğu şəxslərə, “onun gəlirini öz xərclərinə istifadə .etsinlər” deyə, vəqf edə bilməz

Məsələ: ١٩٩٩. Həcc, ziyarət və s. kimi yerlərə getmək üçün fəqir, zəkat ala bilər. Amma illik xərcləri miqdarında zəkat almış olsa, ziyarət və bu kimi işlər üçün yenidən fəqirlərin payından zəkat ala bilməz. Ancaq “səbilillah” payından alıb bu yolda istifadə .etməsinin maneəsi yoxdur

Məsələ: ٢٠٠٠. Əgər malik müəyyən bir fəqiri, onun malının zəkatını verməyə vəkil etsə, bu halda fəqir, malikin qəsdinin o fəqirin həmin zəkatdan götürməməsi olduğunu ehtimal versə, ondan özü üçün götürə bilməz. Amma malikin məqsədinin bu .olmadığına yəqin etsə, özünə götürə bilər

Məsələ: ٢٠٠١. Əgər fəqir zəkat olaraq dəvə, inək, qoyun, qızıl və gümüşü alsa və zəkatın vacib olması üçün deyilən şərtlər onlarda mövcud olsa, onun zəkatını .verməlidir

Məsələ: ۲۰۰۲. Əgər iki nəfər zəkatı vacib olan müəyyən bir malda bir-biri ilə şərik olsalar onlardan biri öz payının zəkatını versə, o şərikinin malının zəkatını vermədiyini .bilsə, öz malından istifadə edə bilər

Məsələ: ۲۰۰۳. Xüms və ya zəkat borcu olan şəxsə, kəffarə, nəzr və bu kimi şeylər də vacibdirsə, bununla yanaşı borcu da olsa, bu halda onların hamısını verə bilməsə, xüms və ya zəkatı vacib olan mal aradan getməmiş olsa, xümsünü və zəkatını verməlidir. Amma o mal aradan getmiş olsa, xümsü və zəkatı verməklə kəffarə, nəzr, .borc və s. kimi şeyləri vermək arasında ixtiyar sahibidir

Məsələ: ۲۰۰۴. Xüms və ya zəkat borcu olan, nəzr və s. kimi şeylər də vacib olan, habelə borcu da olan bir şəxs ölsə və onun var-dövləti bunların hamısına kifayət etməsə, bu halda xüms və zəkatı vacib olan mal aradan getməmiş olsa, xümsünü və zəkatını verib yerdə qalan malı da vacib olan sair işlərə bölməlidirlər. Əgər xümsü və zəkatı vacib olan mal tələf olub aradan getmiş olsa, gərək onun malını xüms, zəkat, borc, nəzr və bu kimi şeylərə bölsünlər; məsələn: əgər ۴۰ tümən xüms vacib olsa, ۲۰ tümən də bir şəxsə borclu olsa, malının da hamısı ۳۰ tümən olsa, gərək ۲۰ tümən xümsa, ۱۰ tüməni .isə borcuna verilsinlər

Məsələ: ۲۰۰۵. Elm öyrənməyə məşğul olan bir şəxs elm öyrənmədiyi təqdirdə, öz məişəti üçün kəsb-qazanc əldə edə bilərsə, bu halda o elmi öyrənmək vacib, yaxud müstəhəb olsa, ona zəkat vermək olar. Amma o elmin öyrənilməsi vacib və ya .müstəhəb olmasa, ona zəkat verməyin işkalı var. Ehtiyat-vacibə görə gərək almasın

FİTRƏ ZƏKATI

Məsələ: ۲۰۰۶. Fitr bayramı gecəsinin qürubunda baliğ və aqil şəxs, huşsuz, fəqir və bir şəxsin qulu olmasa, özü və onun çörək yeyənləri sayılan hər nəfər üçün buğda, arpa, ,xurma, kişmiş, düyü

qarğıdalı və s. kimi şeylərdən bir sa(١) müstəhəqqə verməlidir. Əgər bunlardan hər .hansının pulunu versə, kifayətdir

Məsələ: ٢٠٠٧. Əgər bir şəxs özünün və ailəsinin illik qazancını təmin edə bilməsə və .təmin etmək üçün də bir şəxsi olmazsa fəqirdir və fitrə zəkatı vermək ona vacib deyil

Məsələ: ٢٠٠٨. Hər şəxs, Fitr bayramı gecəsində qürub vaxtı, gərək onun çörək yeyənləri hesab olunanların fitrəsini versin; istər böyük olsunlar, istərsə də kiçik; istər müsəlman olsunlar istərsə də kafir; istər onların xərcləri o şəxsə vacib olsun, istərsə .də olmasın; istər öz şəhərində olsun, istərsə də başqa şəhərdə

Məsələ: ٢٠٠٩. Əgər insanın çörək yeyənləri başqa şəhərdə olsa, öz malından fitrəsini verməyə vəkil tutsa, bu halda fitrəsini verəcəyinə əmindirsə, özü onun fitrəsini .verməsi lazım deyil

Məsələ: ٢٠١٠. Fitr bayramı gecəsində, qürubdan qabaq ev sahibinin razılığı ilə evə daxil .olub, onun çörək yeyəni hesab olunanın fitrəsi (ev sahibinə) vacibdir

Məsələ: ٢٠١١. Fitr bayramı gecəsi qürubdan qabaq ev sahibinin razılığı olmadan gəlib, bir müddət onun yanında qalan qonağın fitrəsi, ehtiyat-vacibə əsasən (ev sahibinə) .vacibdir. Həmçinin, insanı onun xərcini verməyə məcbur etdikləri şəxsin fitrəsi də

Məsələ: ٢٠١٢. Fitr bayramı gecəsində məğribdən sonra gələn qonağın fitrəsi, ev .sahibinə vacib deyil

Məsələ: ٢٠١٣. Əgər bir şəxs fitr bayramı gecəsi qürub zamanı, dəli və ya bihuş olsa, ona .fitrə zəkatı vacib deyil

Məsələ: ٢٠١٤. Əgər qürubdan qabaq və ya qüruba yaxın vaxt uşaq həddi-büluğa çatsa; dəli ağıllansa; fəqir varlansa; və fitrənin vacib olma şərtlərinə malik olsalar, gərək fitrə .zəkatını versinlər

Məsələ: ٢٠١٥. Fitr bayramı gecəsi qürub vaxtı, fitrə zəkatı vacib olmayan bir şəxs, bayram günü zöhrə qədər fitrənin vacib olması şərtlərinə malik olsa, fitrə zəkatının .verilməsi müstəhəbdir

Məsələ: ٢٠١۶. Fitr bayramı gecəsi, məğribdən sonra müsəlman

səh: ٣۶٧

.Təqribən ٣ kq . -١

olan kafirə fitrə zəkatı vacib deyil. Amma şiə olmayan müsəlman, ayı gördükdən sonra .şiə olsa, gərək fitrə zəkatı versin

Məsələ: ۲۰۱۷. Əgər fəqir olan bir şəxsin bir sa (təqribən ۳ kq) miqdarında buğda və bu kimi şeyləri olsa, müstəhəbdir ki, fitrə zəkatı versin. Əgər əhli-əyalının da fitrəsini vermək istəsə, fitrə niyyəti ilə o bir sa buğdanı, öz ailə üzvlərindən birinə verə bilər və o da həmin məqsədlə digər ailə üzvünə verib, bu qayda ilə axırıncıya çatsın. Daha yaxşı olar ki, axırıncı nəfər aldığı şeyi özlərindən olmayan bir şəxsə versin. Əgər onlardan biri azyaşlı uşaq olsa, ehtiyat-vacib budur ki, onun vəlisi onun yerinə alsın və .özü malik olsun. Ehtiyat budur ki, azyaşlı uşaq üçün aldığını başqa şəxsə verməsin

Məsələ: ۲۰۱۸. Əgər fitir bayramı gecəsində qürubdan sonra uşaq dünyaya gəlsə, yaxud bir şəxs insanın çörək yeyənlərindən hesab olunsa, onun fitrəsini vermək vacib deyil. Baxmayaraq ki, müstəhəbdir bayram gecəsi, qürubdan başlayaraq bayram günü .zöhrədək, onun çörək yeyəni hesab olunanların fitrə zəkatını versin

Məsələ: ۲۰۱۹. Bir şəxsin çörək yeyəni, qürubdan əvvəl və ya qüruba yaxın vaxtda başqa şəxsin çörək yeyəni olsa, onun fitrəsi çörəyini yediyi şəxsə vacibdir; məsələn, .əgər qız qürubdan qabaq ər evinə göçsə, gərək əri onun fitrəsini versin

.Məsələ: ۲۰۲۰. Fitrəsini başqası verməli olan bir şəxsin, öz fitrəsini verməsi vacib deyil

Məsələ: ۲۰۲۱. Əgər bir şəxsin fitrəsi başqasına vacib olsa və o, fitrəni verməsə, şəxsin .özünə vacib olmaz. Müstəhəbdir ehtiyatən fitrəsini versin

Məsələ: ۲۰۲۲. Fitrəsi başqasına vacib olan bir şəxsin özü, fitrəni versə, fitrənin vacib .olduğu şəxsdən saqit olmur

Məsələ: ۲۰۲۳. Xərclərini əri verməyən bir qadın, başqa bir şəxsin çörək yeyəni olsa, fitrəsi həmin şəxsə vacibdir. Əgər başqa kəsin çörək yeyəni deyildirsə, fəqir olmadığı .halda öz fitrəsini verməlidir

Məsələ: ۲۰۲۴. Seyid olmayan bir şəxs, hətta seyid onun çörək yeyəni olsa da, seyidə .fitrə verə bilməz. Onun fitrəsini, başqa bir seyidə verə bilməz

Məsələ: ۲۰۲۵. Anasından, yaxud dayəsindən süd əmən uşağın fitrəsi, ananın və ya dayənin xərclərini verən şəxsin öhdəsinədir. Amma ana, yaxud dayə, öz xərclərini .uşağın malından götürsə, uşağın fitrəsi heç kəsə vacib deyil

Məsələ: ۲۰۲۶. İnsan, ailəsininn xərclərini haramdan verməsinə baxmayaraq, gərək .onların fitrəsini halaıdan versin

Məsələ: ۲۰۲۷. Əgər insan bir şəxsi, onun xərclərini verməsini şərt edərək əcir

tutubsa, (ürfən ailəsi hesab olarsa) gərək onun fitrəsini versin. Amma onun xərclərinin bir miqdarını verməyi şərt etsə; məsələn, başqa xərcləri üçün pul versə) onun fitrəsini .verməsi vacib deyil

Məsələ: ۲۰۲۸. Əgər bir şəxs, Fitr bayramı gecəsi qürubdan sonra ölsə, gərək onun özünün və ailə üzvlərinin fitrəsini, onun malından versinlər. Amma qürubdan qabaq .ölsə, özünün və ailə üzvlərinin fitrəsini, onun malından vermək vacib deyil

FİTRƏ ZƏKATININ İSTİFADƏSİ

Məsələ: ۲۰۲۹. Əgər fitrə zəkatını, əvvəldə (malın zəkatında) deyilən ۸ yerdən birinə sərf .etsələr, kifayətdir. Amma ehtiyat-müstəhəb budur ki, yalnız fəqir şiələrə versinlər

Məsələ: ۲۰۳۰. Əgər bir şiə uşaq, fəqir olsa, insan fitrəni onun şəri qəyyumunun icazəsi ilə, ona xərcləyə bilər və ya onun qəyyumuna verməklə, uşağın mülkünə də keçirə .bilər

Məsələ: ۲۰۳۱. Fitrə verilən fəqirin adil olması lazım deyil. Amma ehtiyat-vacib budur ki, .şərab içənə, namaz qılmayana və aşkar günah edənə, fitrə verilməsin

.Məsələ: ۲۰۳۲. Fitrə, günah yolunda istifadə edən şəxsə verilməməlidir

Məsələ: ۲۰۳۳. Ehtiyat-vacib budur ki, bir fəqirə, bir sadan

.təqribən üç kq) az fitrə verilməsin. Amma çox versələr, eybi yoxdur)

Məsələ: ٢٠٣٤. Əgər qiyməti adi haldakı qiymətindən iki qat artıq olan bir şeydən; məsələn, dəyəri, adi buğdadan iki dəfə çox olan, əla növ buğda yarım sa (mənası keçən məsələdə deyildi) verilsə, kifayət deyildir. Əgər onu, fitrənin qiyməti məqsədilə .versələr, işkalı vardır

Məsələ: ٢٠٣٥. İnsan, sanın yarısını bir maldan; məsələn, buğdadan, yarısını isə başqa şeydən; məsələn, arpadan verə bilməz. Əgər onu fitrə qiyməti məqsədilə versə, .kifayət etmir

Məsələ: ٢٠٣٦. Müstəhəbdir ki, insan zəkat fitrəsini verəndə, fəqir qohumları, başqalarından önə çəksin. Sonrakı mərhələdə, fəqir qonşularına, sonra isə fəqir elm əhlinə versin. Amma başqaları müəyyən cəhətə görə üstün olsalar, müstəhəbdir ki, .onları qabağa salsın

Məsələ: ٢٠٣٧. Əgər bir şəxsin fəqir olmasına inanıb ona fitrə versə və sonra fəqir olmadığı məlum olsa, bu halda ona verilən mal aradan getməmiş olsa, gərək geri alıb müstəhəqqə versin. Əgər ala bilməsə, gərək öz malından fitrə versin. Əgər aradan getmiş olsa, bu halda onu alan şəxs, fitrə olduğunu bilsə, gərək onun əvəzini qaytarsın ki, (müstəhəqqə verilsinlər). Əgər bilmirdisə, onun əvəzini qaytarmaq ona vacib deyil. .O şəxs, gərək yenidən fitrə versin

Məsələ: ٢٠٣٨. Əgər bir şəxs “fəqirəm” desə, ona fitrə vermək olmaz. Amma onun fəqir .(olmasına əminlik hasil olsa, yaxud əvvəllər fəqir olmasını bilsin, (ona fitrə vermək olar

FİTRƏ ZƏKATININ MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ٢٠٣٩. İnsan fitrə zəkatını qürbət qəsdi ilə, yəni Allah-təalanın əmrini yerinə .yetirmək məqsədilə verməlidir. Onu verdiyi vaxt, fitrə niyyəti etməlidir

Məsələ: ٢٠٤٠. Əgər mübarək Ramazan ayından qabaq fitrəni

versə, səhih deyil. Ehtiyat-müstəhəb budur ki, Ramazan ayında da fitrəni verməsinlər. Amma Ramazandan əvvəl, yaxud Ramazan ayında fəqirə borc versə və fitrə vacib .olandan sonra öz borcunu fitrədən hesab etsə, maneəsi yoxdur

Məsələ: ۲۰۴۱. Fitrə üçün verilən buğda və digər şeylər, başqa məhsul yaxud torpaq ilə qarışıq olmamalıdır. Əgər qarışıq olarsa, onun xalisi bir sa-ya təqribən üç kq-dır çatsın .və yaxud nəzərə çarpmayacaq dərəcədə qarışıq olarsa, eybi yoxdur

.Məsələ: ۲۰۴۲. Əgər fitrəni eybli şeydən versə, kifayət deyil

Məsələ: ۲۰۴۳. Bir neçə nəfərin fitrəsini verən bir şəxs, onların hamısını bir növdən verməsi lazım deyil. Bəzilərinin fitrəsini buğdadan, digərlərini isə arpadan versə, .kifayətdir

Məsələ: ۲۰۴۴. Bayram namazı qılmırsa, fitrəni verməyi bayram günü zöhrə qədər təxirə sala bilər. Fitr bayramı namazını qılan bir şəxs, ehtiyat-vacibə görə, gərək fitrəni, bayram namazından qabaq versin. Ehtiyat-vacibə görə, fitrəni bayram günü zöhürdan .sonraya təxirə salmaq caiz deyil

Məsələ: ۲۰۴۵. Əgər öz malının bir miqdarını fitrə niyyəti ilə ayırsa və bayram günü zöhrə qədər müstəhəqqə verməsə, ehtiyat-vacib budur ki, hər vaxt verərsə, o zaman fitrə .niyyəti etsin

Məsələ: ۲۰۴۶. Əgər fitrə zəkatının vacib olduğu vaxt fitrə verməsə və ayırıb kənara da .qoymasa, sonradan əda və qəza niyyəti etmədən, fitrəni versin

Məsələ: ۲۰۴۷. Əgər fitrəni ayırıb bir tərəfə qoysa, onu özü üçün götürüb yerinə başqa .mal qoya bilməz

Məsələ: ۲۰۴۸. Əgər insanın, qiyməti fitrədən artıq olan bir malı olsa, fitrəni verməsə və .o malın bir miqdarının fitrə olmasını niyyət etsə, işkalı var

Məsələ: ۲۰۴۹. Əgər fitrə üçün ayırıb kənara qoyduğu mal (tələf olub) aradan getsə, bu halda fəqir mövcud olduğu halda fitrəni verməyi təxirə salıbsa, gərək onun əvəzini .versin. Amma fəqir tapa bilməyibsə zamin deyil

Məsələ: ۲۰۵۰. Əgər bir şəxs, özünün yaşadığı yerdə

müstəhəqq(۱) tapsa, ehtiyat-müstəhəb budur ki, fitrəni başqa yerlərə aparmasın; .Əgər başqa yerə aparsa və tələf olsa, əvəzini verməlidir

---

.Xüms, zəkat və bu kimi şeyləri almaq üçün lazım olan şərtlərə malik olan şəxs . -۱

HƏCCİN HÖKMLƏRİ

HƏCCİN HÖKMLƏRİ

Məsələ: ۲۰۵۱. Həcc, Allah evinin ziyarəti və orada göstəriş verilmiş əməllərin yerinə yetirilməsindən ibarətdir. Bütün ömür boyu, aşağıdakı şərtlərə malik olan bir şəxsə, :həcc bir dəfə vacib olur

.Həddi-büluğa çatmış olsun-۱

.Aqil və azad olsun-۲

Həccə getmək səbəbilə, şəriətdə (tərk olunmasının) əhəmiyyəti həccdən daha artıq-۳ olan haram bir işi etməyə məcbur olmasın. Deməli, məsələn çox əhəmiyyət daşıdığı halda qəsbi yolla getməyə məcbur olsa və başqa yol da olmasa, gərək həccə .getməsin

:Müstəti olsun; müstəti olmaq, bir neçə şeylədir-۴

Yol azuqəsi və öz halına münasib olaraq səfərdə ehtiyaclı olduğu şeylərə (bunlar (۱ kitablarda müfəssəl deyilib) malik olsun. Həmçinin, minik vəsaiti, yaxud hazırlaya .biləcəyi malı olsun

Səhhəti sağlam və Məkkəyə gedib Həcc əməlini yerinə yetirməyə qüdrəti olsun və (۲ .fövqəladə şəkildə çətinliyə düşməsin

Yolda, getməyi üçün maneə olmasın; (Əgər yol bağlı olsa, yaxud insan yolda canının (۳ və ya abrının yaxud da malının

təhlükəyə düşəcəyindən qorxsa, Həcc ona vacib deyil. Əgər başqa yolla gedə bilərsə, hətta uzaq da olsa, çox qeyri-adi olmasa, o yol ilə getməlidir. Deməli, qeyri-adi və çox .uzaq yollarla getməsi, vacib deyil

.Həcc əməllərini yerinə yetirə biləcəyi qədər vaxtı olsun (۴

Xərclərinin ona vacib olduğu; arvad, uşaq və camaatın xərclərinin verməsini ona (۵ lazım bildikləri və dolanışıqda ona ehtiyacı olanların (nökər və külfəti kimi) xərclərinin .verilməsi

Qayıdandan sonra, məişətini təmin etməsi və zəhmətə düşməməsi üçün qazanc, (۶ .əkin yaxud mülkünün gəliri olsun ki, zəhmətlə dolanmağa məcbur olmasın

Məsələ: ۲۰۵۲. Şəxsi evi olmadan ehtiyacları təmin olmayan bir şəxsə həcc o vaxt .vacibdir ki, ev almaq üçün də pulu olsun

Məsələ: ۲۰۵۳. Məkkəyə gedə bilən bir qadının, qayıdandan sonra özünün malı olmasa, əri də (misal üçün) fəqir olub onun xərclərini verə bilməsə və nəticədə güzəranının .çətinliyə düşməsinə səbəb olsa, həcc ona vacib deyil

Məsələ: ۲۰۵۴. Əgər bir şəxsin yol azuqəsi, minik vasitəsi olmasa və başqası "həccə get, mən sənin və əhli-əyalının, ailənin xərcini səfərdə olduğun müddətdə verəcəyəm" .desə, onun xərclərini verməyinə əmin olsa, həcc ona vacib olur

Məsələ: ۲۰۵۵. Əgər Məkkəyə getmək-gəlmək və gedib-qayıtdığı müddətdə ailəsinin xərclərini bağışlayaraq onun həccə getməsini şərt etsələr ehtiyat-vacib budur ki, qəbul etsin, həcc ona vacib olur. Borclu olsa da və qayıtdıqdan sonra güzəranı üçün .(lazımi qədər malı olmamasına baxmayaraq, (həcc ona vacib olur

Məsələ: ۲۰۵۶. Əgər bir şəxsin Məkkəyə gedib-qayıtdığı müddətdə yol xərclərini və əhli-əyalının xərclərini verib "həccə get" desələr, amma o pulu onun mülkünə keçirməsələr, .(verdikləri xərci) geri götürməyəcəklərinə əmin olduğu təqdirdə, həcc ona vacib olur

Məsələ: ۲۰۵۷. Əgər həcc üçün kifayət edən qədər malı bir şəxsə versələr və onunla Məkkə yolunda malı verən şəxsə xidmət

.etməsini şərt etsələr, həcc ona vacib olmur

Məsələ: ۲۰۵۸. Əgər bir şəxsə müəyyən qədər mal versələr və həcc ona vacib olsa, bu halda həccə getsə, hətta sonradan özünün malı olsa da yenidən həcc ona vacib olmur.

Məsələ: ۲۰۵۹. Əgər ticarət və ya başqa məqsədlə Cəddəyə gedib orada mal əldə etsə, belə ki, əgər oradan Məkkəyə getmək istəsə, həccə getməyə müstətiy olarsa, gərək həcc əməlini yerinə yetirsin. Həccə getdiyi təqdirdə, sonradan öz vətənindən Məkkəyə getməsinə kifayət edən qədər mal əldə etsə də, daha həcc ona vacib deyil.

Məsələ: ۲۰۶۰. Əgər insan başqası tərəfindən həccə getməyə əcir olunsa, bu halda özü gedə bilməyib başqasını öz tərəfindən göndərmək istəsə, onu əcir edən şəxsdən icazə almalıdır. Əgər özü və ya bu işdə səbəb olmaqla əcir tutmaq kimi ümumi şəkildə

.əcr olunsa icazə almaq lazım deyil

Məsələ: ۲۰۶۱. Əgər bir şəxs həccə getmək imkanlarına malik olub Məkkəyə getməsə, sonra fəqir olsa, hətta çətinliyə düşməklə də olsa belə, sonradan həccə getməlidir. Əgər heç bir şəkildə həccə gedə bilməsə belə ki, bir şəxs onu həccə getmək üçün əcir etsə, gərək Məkkəyə gedib əciri olduğu şəxsin həcc əməlini yerinə yetirib və gələn ilə qədər Məkkədə qalıb öz həccini yerinə yetirsin. Amma əcir olub və əcir pulunu nəqd almaq mümkün olsa və onu əcir edən şəxs onun həccini gələn il yerinə yetirilməsinə razı olsa, gərək birinci il öz həccini və sorakı ili isə onu əcir edən şəxsin həccini yerinə yetirsin.

Məsələ: ۲۰۶۲. Əgər həccə getmək imkanlarına malik olduğu birinci ildə Məkkəyə getsə və müəyyən olunmuş vaxtda Ərəfata və Məşərül-hərama çatmasa, bu halda sonrakı illərdə həccə getmək imkanlarına malik olmasa, həcc ona vacib deyil. Amma əvvəlki illərdə həccə getmək imkanlarına malik olduğu halda getməyibsə, zəhmətə düşməsinə baxmayaraq gərək həcc əməlini yerinə yetirsin.

Məsələ: ۲۰۶۳. Əgər həccə getmək imkanlarına malik olduğu

birinci ildə həccə getməsə və sonradan qocalıq, xəstəlik yaxud qüdrətsizlik səbəbinə görə həccə gedə bilməsə və həccə getməyə ümidi olmasa, gərək başqasını onun üçün həcc əməlini niyabətən yerinə yetirməsi üçün öz tərəfindən göndərsin. Hətta əgər həccə getmək qədərində mal əldə etdiyi birinci ildə qocalıq, xəstəlik, yaxud qüdrətsizlik səbəbi ilə həccə gedə bilməsə, ehtiyat-vacib budur ki, bir şəxsi həcci yerinə yetirmək .üçün öz tərəfindən göndərsin

Məsələ: ۲۰۶۴. Əgər bir şəxs başqası tərəfindən həcc üçün əcir olunsa nisa təvafını da onun tərəfindən yerinə yetirməlidir. Əgər yerinə yetirməsə, əcir olana qadın haram .olur

Məsələ: ۲۰۶۵. Əgər nisa təvafını düzgün yerinə yetirməsə, yaxud unutsa və bir neçə gündən sonra yadına düşsə və yarı yoldan qayıdıb yerinə yetirsə, səhihdir. Əgər onun .üçün çox çətin olsa naib tuta bilər, işkalı yoxdur

AL–VERİN HÖKMLƏRİ

Point

AL-VERDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR

.Məsələ: ٢٠۶۶. Beş şey al-verdə müstəhəbdir

Onun hökmlərini ümumi şəkildə öyrənmək, amma kəsbin hökmlərin ehtiyacı olduğu-١ qədər öyrənmək lazımdır" məsələn, əgər etdiyi al-verlərin içində bir müamilə vardır ki, onun hökmünü bilmədiyi təqdirdə harama düşəcək. İmam Sadiq (ələyhis-səlam) buyurur: "Al-ver etmək istəyən, gərək onun hökmlərini öyrənsin. Əgər onun hökmlərini öyrənməmişdən qabaq al-ver etsə, şübhəli və batil al-verlərə görə, özünü ".həlak edir

Malın qiymətində, müsəlman müştərilərinin arasında fərq qoymasın. Amma elm və-٢ .təqvada fərq qoyması tələb olunur

.Malın qiymətində (qiyməti salmaqda) dönməz olmasın-٣

.Satıcı şeyi çox çəkib, alanda az alsın-۴

Bir şəxs onunla etdiyi al-verdən peşiman olub al-veri pozmaq istəyərsə, onunla-۵ .razılaşsın

Məsələ: ٢٠۶٧. Əgər insan etdiyi müamilənin səhih və ya batil olmasını bilməsə, aldığı maldan istifadə edə bilməz. Amma müamilə batil də olsa belə, tərəf müqabilin maldan .istifadə etməsinə razı olduğunu bildiyi təqdirdə, maldan istifadə etmək caizdir

(Məsələ: ٢٠۶٨. Malı olmayan və (arvad-uşağının xərcləri kimi

xərcləri vacib olan bir şəxs gərək qazanc əldə etsin. Müstəhəb işlər üçün (öz ailəsinin güzəranını yaxşılaşdırmaq, fəqirlərin əlindən tutmaq və s.) qazanc etmək .müstəhəbdir

MƏKRUH MÜAMİLƏLƏR

:Məsələ: ٢٠۶٩. Məkruh müamilələrin ümdəsi aşağıdakılardan ibarətdir

;Mülk satmaq-١

;Qəssablıq-٢

;Kəfən satmaq-٣

;Şəxsiyyətsiz adamlarla al-ver etmək-۴

;Sübh azanından gün çıxan vaxtadək olan al-ver-۵

;Buğda, arpa və s. kimi şeylərin al-veri ilə məşğul olmaq-۶

;Başqasının almaq istədiyi bir şeyi almaq üçün müamiləyə daxil olmaq-٧

HARAM MÜAMİLƏLƏR

:Məsələ: ٢٠٧٠. Haram müamilələr altı növdür

Nəcisin eynini satmaq, sidik və ğait kimi. Ğaiti satmağ ehtiyatın xilafına olmasına-١ baxmayaraq qeyri mümkün sayılmaz. Kafir qul və ov itinin eyni nəcis olmasına .baxmayaraq al-veri caizdir

Qəsbi malın al-veri; əgər digərinin malında təsərrüf olarsa. Amma təsərrüf etmədən-٢ .əqdi nə batildir nədə ki, haram, füzulidir. Malikin icazəsinə bağlıdır

Mal olmayan şeylərin al-veri; məsələn, yırtıcı heyvanların al-veri. Əgər ağıl-٣ .sahiblərinin nəzərində mənfəəti olmazsa

;Adi mənafeyi haram olan şeylərin (qumar alətləri kimi) müamiləsi-۴

.Riba (sələm) müamiləsi-۵

səh: ۳۷۸

Müamilə olan şeyə bir şey qatmaq, yəni başqa şeylə qarışan malı satmaq; Qatılan-۶ şey məlum olmasa və satıcı da alıcıya demədiyi təqdirdə (piy qatılmış yağ kimi) haramdır. Bu əmələ, ğəş(۱) deyilir. Peyğəmbəri Əkrəm (səlləllahu ələyhi və alihi və səlləm) buyurdu: Müsəlmanlarla müamilədə ğəş edən, onlara zərər vuran, saxtakarlıq edən, yaxud hiylə edən kəs bizdən deyil. Hər kəs öz müsəlman qardaşı ilə ğəşş etsə, Allah onun ruzisinin bərəkətini götürər, məişətinin, güzəranının yolunu bağlayar və onu öz başına buraxar. Bəzi yerlərdə haramdan məqsədimiz müamilənin batil .olmasıdır, qeyd etdiyimiz üçüncü yer kimi

Məsələ: ۲۰۷۱. Suya çəkilməsi mümkün olan nəcis şeyi satmağın eybi yoxdur. Amma müştəri, o şeyi şərti pak olan şey üçün istəsə; məsələn, geyim kimi onunla namaz .qılacaqsa ehtiyat-vacib budur ki, satıcı onun nəcis olduğunu müştəriyə desin

Məsələ: ۲۰۷۲. Əgər suya çəkilməsi mümkün olmayan pak şeylər yağ və neft kimi nəcis olsa və onu, şərti pak olan şey üçün alsalar; məsələn, nəcis yağı yemək üçün alıcıya versə və nəcis olduğunu müştəriyə desə caizdir. Amma pak olması şərt olmayan işlər üçün satırsa; məsələn: nəcis neft yandırılmaq üçün satılsa, eybi yoxdur. Nəcis olmasını .müştəriyə demək lazım deyil

Məsələ: ۲۰۷۳. Yeməli və içməli nəcis dərmanların al-veri, haramdır. Amma digər yolla istifadə etmək mümkün olsa yandırmaq və ya bədənə sürtmək kimi heç bir maneəsi .yoxdur. Nəcis olmasını da müştəriyə demək lazım deyil

Məsələ: ۲۰۷۴. Qeyri islami ölkələrindən gətirilən ətir yağ və maye dərmanların alış-verişi, onların nəcis olması məlum olmadığı təqdirdə eybi yoxdur. Amma heyvanlar öldükdən sonra onlardan alınan yağlar, kafir şəhərində və kafir əlindən alındığı təqdirdə və ya müsəlman şəhərində və kafir əlindən alındığı təqdirdə, əgər kafirin müsəlmandan aldığını bilməsə damarı kəsdikdə qanı sıçrayan heyvanlardan olarsa, nəcis və onun al-veri

---

.Satılan şeyə başqa bir şey qatmaq .-۱

.batildir. Əgər kafirin müsəlmandan aldığını bilsə heç bir maneəsi yoxdur

Məsələ: ٢٠٧٥. Əgər tülkünü şəriətdə təyin olunmuş tərzdən qeyri bir şəkildə kəssələr və ya özü ölsə, onun dərisinin alış-verişi haram və batildir.

Məsələ: ٢٠٧۶. Qeyri islami ölkələrdən gətirilən və yaxud kafirlərin əlindən alınan ət, piy və dərinin al-veri batildir. Əgər insan onların şəri qayda ilə kəsilməsini və ya kafirin onu müsəlmanlardan almasını bilsə, onların al-verinin eybi yoxdur.

Məsələ: ٢٠٧٧. Müsəlmanın əlindən alınmış ət, piy və dərinin al-veri hətta o müsəlmanın onları kafirin əlindən aldığını bilsə də eybi yoxdur. Əgər kafir bazarında və kafirdən alsa ehtiyat budur ki, onlardan çəkinsin.

.Məsələ: ٢٠٧٨. Məstedici şeylərin al-veri haram, müamiləsi isə batildir

Məsələ: ٢٠٧٩. Qəsbi malı satmaq batildir, amma başqasının malını satmaq füzuli müamilədir. Əgər malda təsərrüf etməsə nə günah edib nədə ki, müamilə batildir. Əgər malın sahibi sonradan müamiləyə icazə versə satıcı onun qiymətini alıcıdan ala bilməz.

Məsələ: ٢٠٨٠. Əgər alıcının niyyəti malın pulun verməmək olsa, əgər malın pulunu verməməsi niyyəti, müamilə etməmək mənasını daşıyırsa, bu surətdə müamilənin işkalı vardır.

Məsələ: ٢٠٨١. Əgər alıcı malın pulunu, sonradan haram puldan vermək istəsə (boynunda olsun deyə alsa) müamilə səhihdir. Amma borclu olduğu miqdarı gərək halal maldan versin.

.Məsələ: ٢٠٨٢. Ləhv alətlərinin, tar və saz kimi, hətta kiçik sazların al-veri haramdır

Məsələ: ٢٠٨٣. Əgər bir şeydən halal yolda istifadəsi mümkün olan halda haram yolda istifadə məqsədi ilə; məsələn, üzümü, şərab hazırlanması üçün satsalar, onun müamiləsi haram və batildir.

Məsələ: ٢٠٨۴. Heykəllərin al-veri çox şiddətli şəkildə məkruhdur. Amma üzərində heykəl olan sabunlar, məqsəd

.sabunun müamiləsi olduğu təqdirdə məkruh deyildir

Məsələ: ۲۰۸۵. Qumar, oğurluq, yaxud batil müamilədən əldə olunan şeyin al-veri səhih deyil. Əgər malın əsl sahibi razılaşmasa, müamilə batil və istifadə etmək də haramdır. .Əgər bir kəs onu alsa, əsl sahibinə qaytarmalıdır

Məsələ: ۲۰۸۶. Əgər (bir şəxs) piy ilə qatışmış yağı satsa, amma onu müəyyən etsə; məsələn, "bu bir "mən"(۱) yağı satıram" deyərsə, müamilə, piy onda olan miqdarda batildir. Piyin müqabilində aldığı pul alıcının, alıcının da aldığı piy satıcınındır. Alıcı xalis yağ olan miqdarda da müamiləsini poza bilər. Əgər onu müəyyən etməsə "bir "mən" yağ satıram" deyərsə, sonra piy ilə qatışmış yağı satsa müştəri o yağı qaytarıb xalis .yağ tələb edə bilər

Məsələ: ۲۰۸۷. Çəki və ya peymanə ilə al-ver olunan malı ondan çox miqdara satsa məsələn, bir "mən" buğdanı, bir mən yarım buğdaya satsalar, sələm və haramdır. Bir dirhəm sələm, ۷۰ dəfə öz məhrəmi ilə zina etməkdən böyükdür. Əgər iki maldan biri yaxşı, digəri isə eyibli və ya birinin cinsi yaxşı digərinin cinsi pis olsa, yaxud bir-birləri ilə qiymət fərqləri olsa, verdiyi miqdardan çox olsa, yenə də sələm və haramdır. Deməli, əgər sağlam mis verib onun əvəzində ondan çox sınıq mis alsa, sədr düyü verib ondan çox, başqa yumru düyü alsa, emal olunmuş qızıl verib ondan artıq emal olumamış qızıl .alsa, sələm və haramdır

Məsələ: ۲۰۸۸. Əgər artıq aldığı şey satdığının cinsindən başqa olsa; məsələn, bir mən buğdanı bir mən buğda və bir riyal pula satsa yenə də riba və haramdır. Hətta əgər üstündə bir şey almasa, amma alıcının müəyyən bir iş görməsini şərt etsə, yenə də .riba və haramdır

Məsələ: ۲۰۸۹. Əgər bir şəxs az miqdar verib bir şeyi artıq verirsə; məsələn, bir mən buğda və bir dəsmalı bir mən yarım buğdaya satsa, eybi yoxdur. Əgər hər iki tərəfdə bir şeyi çoxalda; məsələn: bir mən buğda və bir dəsmalı bir mən yarım buğda və bir

---

.Çəki vahidi . -۱

.üzüyə satsa, yenə də eybi yoxdur

Məsələ: ٢٠٩٠. Əgər zira, yaxud metrlə ölçülən parça kimi, yaxud say ilə müamilə olunan qoz və yumurta kimi, bir şeyi satıb əvəzində artıq alsa; məsələn, ١٠ ədəd yumurta .verib ١١ ədəd alsa eybi yoxdur

Məsələ: ٢٠٩١. Bir cins bəzi şəhərlərdə çəki və ya peymanə, bəzi şəhərlərdə isə say ilə al-ver olunursa, əgər heç biri digərinə üstün olmazsa, hər şəhərin hökmü o şəhərin .özünə aid olan qanunlarına əsasəndir. Əgər biri üstün olarsa onun hökmü daha irəlidir

Məsələ: ٢٠٩٢. Əgər satdığı və əvəzində aldığı şey eyni növdən olmasa, artıq almağın .eybi yoxdur. Deməli, bir mən düyü satıb iki mən buğda alsa, müamilə səhihdir

Məsələ: ٢٠٩٣. Əgər satdığı və əvəzində aldığı şey eyni cinsdən düzləldilsə, deməli bunları fərqləri zahiri görünüşlərində olsa məsələn, buğdanı un edərlərsə və ya süddən pendir düzəldərlərsə, zahir budur ki, bunlar eyni cinsdəndirlər müamilədə artıq almaq olmaz. Amma bir şeyi digər bir şeydən alarlarsa məsələn, süddən yağ alarlarsa onlar iki cins hesab olunurlar müamilədə onları artıq verib almağın eybi yoxdur. .Ehtiyat-müstəhəb budur ki, müamilədə bunlarıda artıq verib almağı tərk etsinlər

Məsələ: ٢٠٩٤. Buğda və arpa, riba məsələsində bir növdən hesab olunur. Deməli, bir mən buğda verib ١,٥ mən arpa alsa riba və haramdır. Həmçinin, əgər on mən arpa alıb müqabilində xərmən vaxtı on mən buğda vermək istəsə, arpanı nəqd aldığına və bir .müddətdən sonra buğdanı vermək istədiyinə görə artıq almaq kimidir və haramdır

Məsələ: ٢٠٩٥. Əgər müsəlman bir şəxs islamın sığınacağında olmayan kafirdən riba .alsa, eybi yoxdur. Ata-oğul, ər-arvad bir-birindən riba ala bilərlər

SATICININ VƏ ALICININ ŞƏRTLƏRİ

:Məsələ: ٢٠٩٦. Satıcı və alıcı üçün altı şərt vardır

;Baliğ olsunlar-١

;Aqil olsunlar-٢

;Səfeh olmasınlar, yəni öz mallarını lazımsız yerə xərc etməsinlər-٣

Al-ver niyyətləri olsun (deməli, əgər; məsələn, zarafatyana öz malımı “satdım” desə,-۴ ;müamilə batildir

;Bir kəs onları al-verə məcbur etməsin-۵

Verdiyi və yaxud əvəzində aldığı mal, özünün malı olsun, yaxud onun tərəfindən-۶ vəkaləti və ya onlara başçılığı olsun; məsələn, səğir uşağın atası, babası kimi malının .ixtiyarı onların əlində olsun; bunların hökmləri sonrakı məsələlərdə gələcək

Məsələ: ٢٠٩٧. Həddi-büluğa çatmamış uşaqla edilən müamilə, ata və babasının icazə verməsinə baxmayaraq batildir. Amma müamilə onun vəlisi ilə olsa və müməyyiz olan .uşaq yalnız müamilədə bir vasitə olarsa, müamilə səhihdir

Məsələ: ٢٠٩٨. Əgər həddi büluğa çatmayan uşaqdan, müamilə onunla səhih olmayan surətdə (məsələn uşağın icazəsi olmasa) bir şey alsa və ya ona bir şey satsa, gərək ondan aldığı malı və ya pulu sahibinə versin, yaxud sahibindən razılıq istəsin. Əgər qabaqda deyilən şərt daxilində sahibindən icazəsi olsa bu hal istisnadır, bu surətdə müamilə səhihdir. Əgər uşağın icazəsi olmasa onun sahibini tanımır və onu tanımaq üçün də bir vasitə yoxdursa, gərək uşaqdan aldığı malı sahibi tərəfindən məzalimə[١] .versin

Məsələ: ٢٠٩٩. Əgər bir şəxs uşaqla, müamilə səhih olmadığını bildiyi halda müamilə etsə və uşağa verdiyi mal və ya pul aradan getsə, uşaq və ya onun himayəçisindən .onu tələb edə bilməz

Məsələ: ٢١٠٠. Əgər satıcını və ya alıcını müamiləyə məcbur

İnsanın öhdəsində olan və sahibini tanımadığı, yaxud sahibini tapa bilmədiyi . -۱
.şeylərə deyilir

etsələr, bu halda müamilədən sonra razılıqlarını bildirib “razıyıq” desələr, müamilə .səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, yenidən müamilə siyğəsini oxusunlar

Məsələ: ۲۱۰۱. Əgər insan bir şəxsin malını, sahibinin icazəsi olmadan satsa, mal sahibi .onun satışına razı olmasa və icazə də verməsə müamilə batildir

Məsələ: ۲۱۰۲. Uşağın atası və (ata tərəfindən olan) babası, onun malını, onun üçün zərəri olmayacağı təqdirdə sata bilərlər. Atanın vəsisi və ata tərəfindən olan babasının vəsisi, yəni ata və ya ata tərəfindən olan baba, vəsiyyətdə uşağ üçün qəyyum təyin etdiyi şəxs, məsləhət olarsa uşağın malını sata bilər. Həmçinin adil müctəhid dəlinin, yetim uşağın və ya qaib olanın malını sata bilərlər. Ehtiyat bu qeyd olunan yerlərdə .məsləhətə riayət etməklədir

Məsələ: ۲۱۰۳. Əgər bir şəxs bir malı qəsb edib satsa və sonradan malın sahibi müamilənin özü üçün olduğuna icazə versə, müamilə səhihdir. Qəsb edənin qəsb edib müştəriyə verdiyi şey və onun mənfəəti müamilə vaxtından müştərinin malı, müştərinin verdiyi mal və onun mənfəəti, müamilə vaxtından malı qəsb olunan .şəxsindir

Məsələ: ۲۱۰۴. Əgər bir kəs bir malı, pulunu özünə götürmək məqsədi ilə qəsb edib satsa, bu halda malın sahibi müamiləyə icazə verməsə batildir. Əgər müamiləni qəsb .edən şəxs üçün icazə versə, müamilə işkallıdır

MAL VƏ ONUN ƏVƏZİNİN ŞƏRTLƏRİ

:Məsələ: ۲۱۰۵. Satılan və onun əvəzində alınan malın beş şərti var

;Onun miqdarı çəki, peymanə, say və bu kimi şeylərlə məlum olsun-۱

Onu təhvil vermək mümkün olsun; bu şərtlə ki, (özlüyündə onun) maliyyat və-۲ qiyməti olsun; deməli, qaçmış atı onu tapa

bilməyən şəxsə satmaq səhih deyil. Əgər müştəri aldığını (əldə edib ondan) istifadə edə bilərsə (səhihdir). Həmçinin, əvəzində verilən də bu hökmdədir. Amma qaçan atı hər hansı bir şey ilə təhvil verərsə və o şeyin maliyyəti və qiyməti də olsa; məsələn, bir .xalça ilə (birlikdə) satsa o at tapılmadığı halda al-ver səhihdir

Mal və onun əvəzinin xüsusiyyətləri, həmçinin, camaatın müamiləyə fərq-۳ ;qoymalarına səbəb olan xüsusiyyətləri müəyyən etsin

Mal hər bir istifadə üçün məxsus olmamalıdır; deməli, insanın vəqf etdiyi bir malı-۴ satması caiz deyil. Amma bir neçə halda satmq olar və həminin, malda və ya onun əvəzində (rəhn kimi) haqqı olmasın. Deməli, insanın bir şəxsin yanında girov qoyduğu malı onun icazəsi olmadan satmaq olmaz. Əgər rəhn qoyan mamiləni rədd etsə müamilə batil olur; təsdiq etdiyi təqdirsə isə müamilə səhihdir. Sahibi girov qoyulmuş malı satsa və müştərinin bundan xəbəri olmasa, müamiləni pozub-pozmamamqda ixtiyarlıdır. Əgər satsa, rəhni qoyanın icazəsi olmadan müştəri ondan istifadə edə bilməz. ümumi olaraq, alici aldığı şeydən istifadə edə biləcəksə və əvəzini alan şəxs .üçün də bu mümkündürsə, müamilə səhihdir

Malın qazancını deyil özünü sastsın. Deməli; məsələn, evin bir illik gəlirini satsa,-۵ səhih deyil. Əgər alıcı pul yerinə, mülkünün qazancini versə; məsələn, bir kəsdən xalça alıb əvəzində evinin bir illik qazancını oun ixtiyarına versə, eybi yoxdur. (Bunların (.hökmləri gələcək məsələlərdə deyiləcək

Məsələ: ۲۱۰۶. İnsan bir şəhərdə çəki və peymanə ilə satılan malı həmin şəhərdə çəki və .peymanə ilə görməklə (ölçmədən) müamilə edilən şəhərdə isə görməklə almalıdır

Məsələ: ۲۱۰۷. Çəki ilə al-ver olunan bir şeyi peymanə ilə müamilə etmək olar. Əgər çəkisi məlum olsa; məsələn: ۱۰ mən buğdanı peymanə ilə satmaq istəsələr, bir tutumu .mən olan peymanə ilə ۱۰ ədəd verməlidirlər

Məsələ: ۲۱۰۸. Əgər dördüncü şərt istisna olmaqla qeyd olunan

şərtlərdən biri mövcud olmasa, müamilə batildir. Amma alıcı və satıcı bir-birinin .malından istifadə etməyə razı olsalar, bu istifadə etmənin eybi yoxdur

Məsələ: ۲۱۰۹. Vəqf olunan şeyin müamiləsi batildir. Amma xarab olsa, malın vəqf olunduğu sahədə istifadə olunması mümkün olmasa; məsələn, məscidin həsiri çox cırılsa və üstündə namaz qılmaq mümkün olmasa, onun satılmasının işkalı yoxdur. Ehtiyat-vacib budur ki, mümkündürsə onu satmaq üçün şəriət hakiminə müraciət etsin. Əhvət budur ki, onun pulunu həmən məscidə istipadə etsinlər ki, vəqf edənin .məqsədinə daha yaxın olsun

Məsələ: ۲۱۱۰. Əgər malın, vəqf olunduğu şəxslər arasında ixtilaf düşsə və vəqf olunan malları satmayacaqları halda malın, yaxud kiminsə canının tələf olacağı gözlənilirsə, .onu sata bilərlər və vəqf edənin məqsədinə daha uyğun yerlərə istifadə etsinlər

Məsələ: ۲۱۱۱. Bir şəxsə icarə verilən mülkün al-verinin eybi yoxdur. Amma o mülkdən icarə müddətində istifadə etmək icarəyə götürən şəxsindir. Əgər alıcı mülkün icarəyə verildiyini bilməsə, yaxud icarə müddətinin az olduğunu güman edərək mülkü alsa, .məsələdən xəbərdar olandan sonra müamiləni poza bilər

AL-VER SİĞƏSİ

Məsələ: ۲۱۱۲. Al-ver siyğəsinin ərəbcə oxunması lazım deyil; məsələn, əgər satıcı hər hansı bir dildə “bu malı bu pulun müqabilində satdım”, müştəri də “qəbul etdim” desə, müamilə səhihdir. Satıcı və alıcının inşa qəsdi olmalıdır. Yəni bu iki cümləni deməklə .məqsədləri al-ver etmək olmalıdır

Məsələ: ۲۱۱۳. Əgər müamilədə siyğəni oxumasalar, amma satıcı, alıcıdan aldığı mal müqabilində öz malını onun mülkünə keçirsə və o da alsa, müamilə səhihdir; hər ikisi .malik olurlar

MEYVƏLƏRİN AL–VERİ

Məsələ: ٢١١۴. Xurmadan başqa gülləri tökülən və tum bağlayan meyvələrin yığılmazdan qabaq al-veri səhihdir. Həmçinin üzüm budağında olan qoranı satmağın .eybi yoxdur. Amma xurmanın müamiləsi gərək qızarandan və saralandan sonra olsun

Məsələ: ٢١١۵. Ağacda olan meyvələri tum bağlamamışdan və gülləri tökülməmişdən qabaq satmaq istəsələr gərək torpaqdan hasil olanlarla birlikdə məsələn yerdə bitən bitkiləri onunla birlikdə satsınlar və ya bir ildən çoxun meyvəsini satsınlar və ya .müştəri ilə meyvələri həmən zamanda yığılmasını şərt etsinlır

Məsələ: ٢١١۶. Saralmış və ya qızarmış xurmanı ağacın üstündə satmağın eybi yoxdur. Amma onun əvəzində xurma ala bilməzlər. Amma bir şəxsin bir xurma ağacı başqasının həyətində və ya bağında olsa, təxminən onun miqdarını bilirsə, ağacın sahibi, onu evin və ya bağın sahibinə satıb, əvəzində digər xurma ala bilər. Aldığı .xurma təxminən bildiyi miqdardan çox və ya az olmasa, müamilənin eybi yoxdur

Məsələ: ٢١١٧. Bir ildə bir neçə dəfə məhsul verən xiyar, badımcan, göyərti və bu kimi şeylərin yetişdikdə və müştərinin ildə onu neçə dəfə yığmasını müəyyən etdikləri halda satmağın eybi yoxdur

Məsələ: ٢١١٨. Əgər buğda və arpa sünbülünü, tum bağlayandan sonra, buğda və .arpadan başqa bir şey müqabilində satsalar, eybi yoxdur

NƏQD VƏ NİSYƏ

Məsələ: ٢١١٩. Əgər bir mal nəqd satılmışsa, alıcı və satıcı müamilədən sonra bir-birlərindən malı və pulu istəyib ala bilərlər. Torpaq və ev kimi daşınmaz şeylərin verilməsi mal sahibinin onlardan əlini çəkib, tərəfin istədiyi zaman onlardan istifadə edə

biləcəyi şəkildə onun ixtiyarında qoyması ilə ola bilər. Döşənəcək və libas kimi daşına bilən şeyləri təhvil vermək belədir ki, əgər onu başqa yerə aparmaq istəsə satıcı .qarşısını almasın

Məsələ: ٢١٢٠. Nisyə müamilədə gərək müddət dəqiq şəkildə məlum olsun. Deməli, müəyyən bir şeyi xərmən vaxtında pulunu almaq niyyəti ilə satsa, vaxt dəqiq şəkildə .müəyyən olunmadıqda müamilə batildir

Məsələ: ٢١٢١. Əgər bir şəxs müəyyən bir malı nisyə satsa, qərar qoyulan müddət tamam olmamışdan qabaq onun əvəzini alıcıdan tələb edə bilməz. Amma alıcı ölsə və özünün də malı olsa, satıcı müddətin vaxtı tamam olmamışdan qabaq onun .vərəsələrindən tələb edə bilər

Məsələ: ٢١٢٢. Əgər müəyyən bir şeyi nisyə satsalar, qərar qoyulan vaxt tamam olandan sonra onun əvəzini alıcıdan tələb edə bilər. Amma alıcı versə bilməsə, ona .möhlət verməli və ya müamiləni pozmalıdır

Məsələ: ٢١٢٣. Əgər malın qiymətini bilməyən bir şəxsə müəyyən qədər nisyə verib qiymətini ona deməsələr, müamilə batildir. Amma malın nəqd qiymətini bilən bir şəxsə nisyə verib baha hesablasalar; məsələn, "sənə nisyə verdiyim malı, nəqd satdığım qiymətin hər tümənində bir riyal baha hesablayacağam" desə və o da qəbul etsə, eybi .yoxdur

Məsələ: ٢١٢٤. Müəyyən malı nisyə satan və onun pulunu almaq üçün vaxt müəyyən edən bir şəxs, müddətin yarısı keçdikdən sonra öz alacağının bir miqdarını azaldıb .qalan yarısını nəqd alsa, eybi yoxdur

SƏLƏF MÜAMİLƏSİ

Point

Məsələ: ٢١٢٥. Sələf müamiləsi budur ki, satılan şey külli olsun, müştəri də pulu verib müəyyən müddətdən sonra malı təhvil alsın. Əgər "bu pulu verirəm ki, altı aydan sonra filan malı alam" desə, satıcı da "qəbul etdim" desə və yaxud satıcı pulu alıb "filan malı

.satdım ki, altı aydan sonra təhvil verəm" desə, müamilə səhihdir

Məsələ: ٢١٢۶. Əgər qızıl və gümüşdən olan pulu, sələf kimi satıb əvəzini qızıl və gümüş puldan alsa, müamilə batildir. Amma əskinas, mis və nikkel kimi olarsa eybi yoxdur. Əgər müəyyən bir malı sələf olaraq satsa satsa əvəzində digər mal və ya pul alarsa, müamilə səhihdir. Amma ehtiyat-müstəhəb budur ki, satıcı malın əvəzində pul alsın .başqa mal almasın

SƏLƏF MÜAMİLƏSİNİN ŞƏRTLƏRİ

:Məsələ: ٢١٢٧. Sələf müamiləsinin altı şərti vardır

Malın qiymətinin fərqlənməsinə səbəb olan xüsusiyyətləri müəyyən etsinlər. Amma-١ həddindən artıq diqqət etmək lazım deyil: camaat "bunun xüsusiyyəti məlumdur" desə, kifayətdir. Deməli, çörək, ət, heyvan dərisi və s. kimi şeylərdə onun xüsusiyyətlərinin müştəri üçün naməlum qalmayacağı surətdə müəyyən etmək .mümkün olmasa sələf müamiləsi batildir

Satıcı və alıcı bir-birindən ayrılmamışdan qabaq alıcı pulun hamısını satıcıya versin,-٢ yaxud müəyyən bir miqdar satıcıda borcu olsa, pulun bir miqdarını satıcıya nağd verib və öz borcunu malın qiymətindən hesab edə bilər, o da qəbul etməlidir. Bu şərtlə ki, borcu ödəmək vaxtı çatmış olsun. Əgər onun qiymətinin müəyyən miqdarını versə, müamilənin həmin miqdarda səhih olmasına baxmayaraq, satıcı həmin miqdarın .müamiləsini poza bilər

Müddət dəqiq şəkildə müəyyən olsun; məsələn, "xərmənin əvvəlinədək malı təhvil-٣ .verəcəyəm" desə, müddət dəqiq məlum olmadığından, müamilə batildir

Malın təhvil verilməsi üçün təyin olan vaxt, (tapılmadığına görə) satıcının onu təhvil-۴ .verə bilməyəcəyi ölçüdə olmamalıdır

Əgər yerlərin müxtəlif olması zərərə səbəb olsa və yaxud onu çatdırmaqın zərərə-۵ səbəb olarcaq şəkildə zəhməti olsa, malın təhvil veriləcəyi yeri müəyyən etsinlər. Amma onların danışıqlarından təhvil veriləcəyi yer məlum olsa, həmin yerin

.adını deməlləri lazım deyil

Malın çəkisini, peymanəsini, yaxud sayını müəyyən etsinlər. Adətən görməklə-۶ müamilə olunan malı sələf kimi satsalar, eybi yoxdur. Amma gərək qoz və yumurtanın bəzi qismlərində olduğu kimi onun növlərinin fərqi, camaat arasında ona əhəmiyyət .verilməyəcək dərəcədə az olsun

SƏLƏF MÜAMİLƏSİNİN HÖKMLƏRİ

Məsələ: ۲۱۲۸. İnsan, sələf kimi aldığı malı, müddəti qurtarmamışdan qabaq başqasına sata bilməz. Müddət tamam olandan sonra, onu təhvil almamasına baxmayaraq, satmasının eybi yoxdur. Amma taxılı (buğda və arpa kimi) təhvil almamışdan qabaq .satmaq məkruhdur

Məsələ: ۲۱۲۹. Sələf müamiləsində əgər satıcı qərara alınan malı vədə verdiri vaxtda təhvil versə, müştəri gərək qəbul etsin. Əgər qərara alınan maldan yaxşısını versə və əgər vədə verdiyi növdən hesab olunsa, müştəri gərək qəbul etsin. Bu o, haldadır ki, .müamilə vaxtı yaxşı mal verməyəcəyini qərar qoymasınlar

Məsələ: ۲۱۳۰. Əgər satıcının verdiyi mal qərara aldıqlarından pis olsa, müştəri qəbul .etməyə bilər

Məsələ: ۲۱۳۱. Əgər satıcı, müştərinin razı olduğu halda qərara alınan malın yerinə .başqa mal versə, eybi yoxdur

Məsələ: ۲۱۳۲. Əgər sələf kimi satılan mal, təhvil verilməli olduğu vaxtda tapılmasa və onu tapa bilməsə müştəri, satıcı tapana qədər gözləyə bilər, yaxud (gözləməyib) .müamiləni pozub və verdiyi şeyi geri ala bilər

Məsələ: ۲۱۳۳. Əgər müəyyən malı satıb və bir müddətdən sonra təhvil verib pulunu da .bir müddətdən sonra alacağını qərar qoysa, müamilə batildir

QIZIL–GÜMÜŞÜN QIZIL–GÜMÜŞƏ SATILMASI

Məsələ: ۲۱۳۴. Əgər qızılı qızıla, gümüşü də gümüşə satsalar; istər sikkəli olsun, istərsə .də sikkəsiz, onlardan birinin çəkisi o birisindən artıq olsa, müamilə haram və batildir

Məsələ: ۲۱۳۵. Qızılı gümüşə, gümüşü qızıla satsalar müamilə səhihdir; çəkilərinin də .bərabər olması ilzami deyil

Məsələ: ۲۱۳۶. Əgər qızılı və ya gümüşü qızıla, yaxud gümüşə satsalar, satıcı və alıcı bir-birindən ayrılmazdan qabaq malı və onun əvəzini gərək bir-birinə təhvil versinlər. .Əgər qərar qoyduqları şeydən heç bir miqdarını təhvil verməsələr, müamilə batildir

Məsələ: ۲۱۳۷. Əgər satıcı və ya alıcı qərar qoyduğu şeyin hamısını, digəri isə bir miqdarını təhvil verib bir-birindən ayrılsalar, müamilənin həmin miqdarda səhih .olmasına baxmayaraq, malın hamısı əlinə çatmayan tərəf müamiləni poza bilər

Məsələ: ۲۱۳۸. Əgər bir miqdar mədən gümüş torpağını, həmin miqdar xalis gümüşə, yaxud bir miqdar mədən qızıl torpağını həmin miqdar xalis qızıla satsalar, müamilə batildir. Amma gümüş torpağını qızıla, qızıl torpağını gümüşə satmağın heç bir eybi .yoxdur

MÜAMİLƏNİ POZMAĞIN MÜMKÜN OLDUĞU YERLƏR

Məsələ: ۲۱۳۹. Müamiləni pozmaq haqqına “xiyar” (ixtiyar) deyilir. Satıcı və alıcı on bir .halda müamiləni poza bilərlər

.Müamilə məclisindən dağılmamış olsunlar. Buna məclis ixtiyarı deyilir-۱

Müştəri, yaxud satıcı al-verdə, yaxud müamilənin iki tərəfindən biri başqa-۲ .müamilələrdə “aldadılmış” olsalar. Buna ğübn ixtiyarı deyilir

Müamilədə müəyyən müddətə qədər hər ikisinin, yaxud birinin müamiləni poza-۳
.bilməsini qərara alsınlar. Buna şərt ixtiyarı deyilir

Satıcı, yaxud alıcı öz malını, həqiqətdə olduğundan daha yaxşı cilvələndirməsi səbəbi-۴
.ilə, malın qiyməti camaatın nəzərində çox olsun. Buna tədlis ixtiyarı deylir

Satıcı və ya alıcı müəyyən bir iş görməyi şərt edib, sonra şərtə əməl etməsin yaxud-۵
verdiyi malın məxsus halda olmasını şərt edib sonra şərtə əməl etməsin, bu halda
.tərəf müqabili müamiləni poza bilər. Buna şərtə təxəllüf ixtiyarı deyilir

.Malda, yaxud onun əvəzində müəyyən eyb olsun. Buna eyb ixtiyarı deyilir-۶

Satılan malın müəyyən miqdarının işaə surətində başqasının olduğu məlum olsa.-۷
Əgər onun sahibi müamiləyə razı olmasa, alıcı, müamiləni poza, yaxud o midarın pulunu, satıcıya ödəyibsə ondan ala bilər. Həmçinin, alıcının aldığı şeyin qarşılığınında əvəz olaraq verdiyi şeyin bir miqdarının başqasının malı olduğu, sahibinin də razı olmadığı məlum olsa, satıcı müamiləni poza bilər, yaxud həmin miqdarın əvəzini alıcıdan ala bilər. Əgər qarışdırılmış və ümumi mülkiyyət olsa buna şirkət ixtiyarı deyilir.
(Əgər belə olmazsa təbəüzüz səfəqə ixtiyarı deyilir.(۱

Satıcı, müştərinin görmədiyi müəyyən olunmuş malın xüsusiyyətlərini ona deyəndən-۸
sonra, dediyi kimi olmadığı məlum olsa; bu halda müştəri müamiləni poza bilər. Həmçinin, əgər müştəri (verəcəyi) müəyyən olunmuş əvəzin xüsusiyyətlərini desə, sonradan dediyi kimi olmadığı məlum olsa, satıcı müamiləni poza bilər. Buna röyət(۲)
.ixtiyarı deyilir

Müştəri aldığı malın pulunu üç günədək verməyib və satıcı da malı təhvil verməmiş-۹
olsun. Əgər müştəri pulu təxirə salmağı şərt

Əgər satıcı özünün ayrı olan malını başqasının malı ilə birlikdə (üst-üstə) satsa o . -۱
şəxs də razı olmasa alıcı pulunu satıcıdan geri ala bilər və ya ümumiyyətlə müamiləni
".poza bilər. Buna "təbəüz səfəqə ixtiyarı deyilir

۲- . Görmək.

etməyibsə və cinsi də təxirə salmağı şərt etməyibsə, satıcı müamiləni poza bilər. Amma aldığı mal bəzi meyvələr kimi bir gün qaldıqda xarab olursa, bu halda birinci gecəyə qədər onun pulunu verməsə və pulu verməkdə təxirə salmağı şərt etməmiş olsalar, malın da təxiri şərt olmasa, satıcı müamiləni poza bilər. Buna təxir ixtiyarı .deyilir

Heyvan almış olan şəxs üç gün ərzində müamiləni poza bilər. Əgər aldığı heyvanın-١٠ müqabilində başqa bir heyvan vermiş olsa, satıcı müamiləni poza bilməz. (Buna heyvan ixtiyarı deyilir). Heyvan ixtiyarı satıcı üçün deyil, hətta heyvanın qiyməti olsa .da

Satıcı, satdığı malı təhvil verə bilməsin; məsələn, satdığı at qaçsın. Bu halda müştəri-١١ müamiləni poza bilər. Buna təəzzürü təslim ixtiyarı deyilir. Bunların hökmləri gələcək .məsələlərdə deyiləcək

Məsələ: ٢١۴٠. Əgər alıcı malın qiymətini bilməsə, yaxud müamilə vaxtı xəbərsizcə malı öz qiymətindən baha alsa, bu halda çox baha almış olub və camaat onu (məğbun) "zərərə düşən" hesab edib azlığına-çoxluğuna əhəmiyyət verirlərsə, müamiləni poza bilər. Həmçinin, əgər satıcı malın qiymətini bilməsə, yaxud müamilə vaxtında xəbərsizcə malı öz qiymətindən ucuz satsa, bu halda əgər camaat onun ucuz satılan .miqdarına əhəmiyyət verib onu məğbun hesab edirlərsə, müamiləni poza bilər

Məsələ: ٢١۴١. Şərti-bey müamiləsində; məsələn: ١٠٠٠ tümənlik evi ٢٠٠ tümənə satıb ki, əgər satıcı vaxt tamam olanda pulu verəcəyini qərara alsalar, müamiləni poza bilər. .Alıcı və satıcının al-ver qəsdi olsa, müamilə səhihdir

Məsələ: ٢١۴٢. Şərti-bey müamiləsində satıcının müddəti qurtarandan sonra pulu verməsə alıcının mülkü ona verəcəyinə əmin olsa, müamilə səhihdir. Amma vaxt tamam olanda pulu verməsə, mülkü alıcıdan tələb edə bilməz, alıcı öldüyü təqdirdə isə .onun vərəsələrindən tələb edə bilməz

Məsələ: ٢١۴٣. Əgər əla növ çayı pis çayla qarışdırıb əla növ çay adında satsa müştəri .müamiləni poza bilər

Məsələ: ۲۱۴۴. Əgər alıcı aldığı malın eybli olduğunu başa düşsə müamilədə o malın üzərində olunarsa; məsələn, aldığı heyvanın bir gözünün kor olduğunu bilsə, bu halda eyb müamilədən qabaq həmin malda mövcud imişsə və o da bilməyibsə, ya müamiləni poza bilər, və yaxud sağlam heyvanla eybli heyvanın qiyməti arasındakı fərqi müəyyən edib geri ala bilər. Əgər onu geri qaytarmaq mümkün olmazsa məsələn o malda dəyişiklik yaranıbsa və ya maldan elə istifadə olunub ki, qaytarılmağa maniə olsun bu halda sağlam heyvanla eybli heyvanın qiyməti arasındakı fərqi müəyyən edib sağlam və eybli qiymətin təfavütünə mütənasib olaraq satıcıya verdiyi puldan geri ala bilər. Məsələn, dörd tümənə aldığı malın eybli olduğunu başa düşsə, bu halda onun sağlamının qiyməti ۸ tüməndirsə, eyblisinin qiyməti isə altı tümən olsa, sağlam və eyblinin arasındakı fərq qiymətin dörddə-biri olduğuna görə verdiyi pulun dörddə birini .yəni, bir tüməni satıcıdan ala bilər

Məsələ: ۲۱۴۵. Əgər satıcı, aldığı əvəzdə eyb olduğunu başa düşsə, müamilə də alınan şeyin üzərində olmuşsa, və o eyb müamilədən qabaq verilən şeydə olduğunu bilmyibsə, müamiləni pozub və o əvəzi ona geri qaytara bilər yaxud sağlam və eyblinin .arasındakı qiymət fərqini əvvəlki məsələdə deyilən göstərişə uyğun olaraq ala bilər

Məsələ: ۲۱۴۶. Əgər müamilədən sonra və təhvil almazdan qabaq malda eyb tapılsa, gərək bu eyb digəri və ya müştəri tərəfdən tapılmasın, əgər eyb səma hadisələrinin vasitəsi ilə yaranarsa alıcı müamiləni poza bilər. Həmçinin əgər malın əvəzində verilən şeydə də müamilədən sonra və təhvil almazdan qabaq müəyyən eyb tapılsa, satıcı .müamiləni poza bilər. Amma qiymət təfavütünü almaq istəsə, işkalı yoxdur

Məsələ: ۲۱۴۷. Əgər müamilədən sonra malın eybli olduğunu başa düşsə və dərhal müamiləni pozmasa, müamiləni pozmaq haqqı aradan getmir. Xüsusi ilə də məsələni bilməsə, əgər təxir etməsi digərinin zərər etməsinə səbəb olsa müamiləni poza

.bilməz

Məsələ: ۲۱۴۸. Hər vaxt malı aldıqdan sonra eybli olduğunu başa düşsə, satıcının hazır .olmamasına baxmayaraq müamiləni poza bilər

Məsələ: ۲۱۴۹. Alıcı malın eybli olduğunu başa düşüdüyü təqdirdə dörd halda müamiləni :poza bilməz, yaxud qiymət fərqini ala bilməz

;Aldığı vaxt malın eybini bilsə-۱

;Malın eybinə razı olsa-۲

Malın eybi olduğu təqdirdə müamilə edib, “geri qaytarmayacağam, qiymətlər fərqini-۳ ;də almayacağam” desə

Satıcı, müamilə vaxtı “bu malı, onda olan hər eybi ilə birlikdə satıram” desə; amma-۴ eybi müəyyən edib “malı bu eyblə birlikdə satıram” desə və sonradan onda başqa eybin də olması məlum olsa, alıcı, satıcının müəyyən etmədiyi eyb üçün malı geri .qaytara və ya qiymət fərqini ala bilər

Məsələ: ۲۱۵۰. Üç halda, alıcı malda eyb olduğunu başa düşsə, müamiləni poza bilməz. :Amma sağlam və eyblinin qiymətləri arasındakı fərqli nisbətini ala bilər

;Müamilədən sonra təsərrüf etməəklə malda müəyyən dəyişiklik etsə-۱

Müamilədən sonra malda eybin olduğunu başa düşsə; amma müamiləni pozmaq-۲ ;haqqını saqit etmiş olsa

Malı təhvil aldıqdan sonra onda başqa bir eyb tapılsa; amma eybli bir heyvanı alsa və-۳ üç gün keçməmişdən qabaq müştərinin səhlənkarlığı olmadan başqa eyb tapılsa, onu təhvil almasına baxmayaraq, geri qaytara bilər. Həmçinin əgər alıcının müəyyən müddətə qədər müamiləni pozmaq haqqı olsa və o müddətdə malda başqa bir eyb tapılsa, müştəri səhlənkarlıq etməyibsə onu təhvil almasına baxmayaraq müamiləni .poza bilər

Məsələ: ۲۱۵۱. Əgər insanın özünün görmədiyi və başqasının onun xüsusiyyətlərini

dediyi bir malı olsa, bu halda o, həmin xüsusiyyətləri müştəriyə deyib satsa və sonra deyilənlərdən daha

.yaxşı olduğunu bilsə, müamiləni poza bilər

MÜXTƏLİF MƏSƏLƏLƏR

Məsələ: ۲۱۵۲. Əgər satıcı, malın alındığı qiymətini müştəriyə deyəcəksə, gərək malın qiymətinin (həmin qiymətə və ya ondan aşağı qiymətə satacaqsa da) azalıb-çoxalmasına səbəb olan şeylərin hamısını desin; məsələn, nəqd və ya nisyə aldığını .deməlidir

Məsələ: ۲۱۵۳. Əgər insan müəyyən bir malı bir şəxsə verib qiymətini müəyyən etsə və "bu malı bu qiymətə sat və bundan çox qiymətə satsan, sənindir", desə, bu halda həmin şəxs onu nə qədər artıq qiymətə satsa, malın sahibinindir. Həmçinin əgər bu malı bu qiymətə sənə satdım oda qəbul etdim desə və ya satmaq məqsədi ilə malı ona .versə, o da almaq qəsdi ilə götürsə, o qiymətdən nə qədər artıq satsa, özünündür

Məsələ: ۲۱۵۴. Əgər qəssab, erkək heyvan əti satıb, onun yerinə dişi heyvan əti versə, günah etmişdir. Deməli, əgər o əti müəyyən edərək "bu erkək ətini satıram" demişsə, müştəri müaniləni poza bilər. Əgər onu müəyyən etməsə, müştəri də aldığı ətə razı .olmasa, qəssab gərək ona erkək əti versin

Məsələ: ۲۱۵۵. Əgər müştəri, parça satana "mən rəngi getməyən bir parça istəyirəm" .desə, parça satan da rəngi gedən parçanı ona satsa, müştəri müamiləni poza bilər

.Məsələ: ۲۱۵۶. Müamilədə and içmək, düzgün olsa məkruh, yalan olsa, haramdır

ŞƏRİKLİYİN HÖKMLƏRİ

ŞƏRİKLİYİN HÖKMLƏRİ

Məsələ: ٢١٥٧. Əgər iki nəfər bir-biri ilə şəriklik etmək istəsələr, bu halda hər biri öz malının müəyyən miqdarını o birinin malı ilə bir yerə qatsalar, o mal, bir-birindən ayrılmaz hesab olunsa və ərəbcə, yaxud başqa dildə şirkətin siyğəsini oxusalar, yaxud da bir əməl ilə şərik olmalarını göstərsələr, yaxud iki mal bir-birindən ayrılmaz şəkildə .qarışsa onların şərikliyi səhihdir

Məsələ: ٢١٥٨. Əgər bir neçə nəfər öz işlərindən aldıqları zəhmət haqqında şərik olsalar; məsələn, dəlləklər (bərbərlər) hər nə qədər zəhmət haqqı alsalar, birlikdə öz .aralarında böləcəklərini qərara alsalar, onların şərikliyi səhih deyil

Məsələ: ٢١٥٩. İki nəfər şərik olub, hər biri öz öhdəsinə mal alıb, o malın qiymətini borclu qalsalar, aldıqları maldan hər ikisinin istifadə etmələri üçün şərik olsalar, səhih deyildir. Amma malı, onun üçün nisyə və ya nəqd alması üçün hər biri başqasını vəkil etsələr, sonra hər şərik, malı özü və şəriki üçün alarsar və bununla da hər ikisi borclu olsalar, .şəriklik səhihdir

Məsələ: ٢١٦٠. Şəriklik əqdi vasitəsi ilə bir-biri ilə şərik olan şəxslər mükəlləf, aqil olub məqsədli və ixtiyar üzündən şəriklik

etməlidirlər. Həmçinin, gərək öz malından istifadə edə bilsinlər. Deməli, öz malını boş və əbəs yerlərdə sərf edən səfeh adam şərik olsa, qəyyumunun icazəsi olmadan müstəqil şəkildə öz malından istifadə etmək hüququna malik olmadığı üçün səhih deyil. Həmçinin, cameüş-şərait müctəhid tərəfindən öz malından istifadə etməkdən .qadağan olmasın

Məsələ: ۲۱۶۱. Əgər şəriklik əqdində işləyən şəxsin, yaxud o birisindən daha çox işləyən şəxsin daha çox mənfəət aparmasını şərt etsələr, gərək şərt olunan miqdarı ona versinlər. İşləməyən və ya az işləyən şəxsin artıq mənfəət aparmasını şərt etsələr, onların şərikliyinin eybi yoxdur. Şəriklik əqdi mövcud olana qədər gərək şərtə əməl .etsinlər

Məsələ: ۲۱۶۲. Əgər bütün qazancaları bir nəfərin götürəcəyini və ya zərərin hamısını və ya çox hissəsini onlardan birinin ödəyəcəyini qərara alsalar, onların şərikliyi batil deyil .gərək şərtə əməl olunsun. Amma daha yaxşı olar öz aralarında razılaşsınlar

Məsələ: ۲۱۶۳. Əgər şəriklərdən birinin daha çox qazanc götürməsinni şərt etməsələr, bu halda onların sərmayələri eyni miqdarda olsa, qazanc və zərər də aralarında eyni bölünməlidir. Əgər sərmayələri eyni miqdarda olmasa, mənfəət və zərəri də sərmayələrinə mütənasib olaraq bölməlidirlər; məsələn, iki nəfər şərik olsa və onlardan birinin sərmayəsi digərindən ikiqat artıq olsa, onun qazanc və zərərdə olan payı o digərindən ikiqat artıqdır; istər hər ikisi bərabər işləsinlər, istərsə də biri az və ya .ümumiyyətlə işləməsin

Məsələ: ۲۱۶۴. Əgər şəriklik əqdində hər ikisinin birlikdə al-ver etməsini, yaxud hər ikisinin təklikdə və ya onlardan təkcə birinin müamilə etməsini şərt etsələr, qərarlarına .əməl etməlidirlər

Məsələ: ۲۱۶۵. Əgər onlardan hansının sərmayə ilə al-ver etməsini müəyyənləşdirməsələr, heç biri digərinin icazəsi olmadan o sərmayə ilə müamilə edə .bilməz

Məsələ: ۲۱۶۶. Şərikliyin sərmayəsinin ixtiyarı öhdəsinə olan şərik, şirkətin qərarlarına əməl etməlidir; məsələn, əgər onunla

nisyə alıb və ya nəqd satmasını, malları xüsusi yerdən almasını qərara alsalar, gərək həmin qərara uyğun əməl etsin. Əgər qərar qoymasalar gərək müamiləni adi qaydada və şərikliyin xeyrinə uyğun olaraq yerinə yetirməlidir. Şərikliyik üçün faydalı olacaq və zərərsiz şəkildə al-ver etməli, nisyə alıb nisyə satmamlı və ya şərik malını özü ilə səfərə apara bilməz. Deməli, nisyə alınması və ya verməsi, yaxud malı səfərə .aparması adət olsa, işkalı yoxdur

Məsələ: ۲۱۶۷. Şirkətin sərmayəsi ilə müamilə edən şərik, onunla bağlanan qərarın əksinə olaraq al-ver edib şərikliyə xəsarət dəysə, zamindir. Amma sonrakı müamilələrdə qərara uyğun əməl etsə, səhihdir. Həmçinin, əgər onunla qərar bağlamayıblarsa və adi qadanın əksinə müamilə etsə, zamindir. Amma sonrakı müamilələrdə adi qaydada uyğun olaraq müamilə etsə səhihdir. Əgər adi qaydanın əksinə müamilə edərsə müamilənin sonradan səhih olmamasını qərardadda şərt .etsələr müamilə səhih deyil

Məsələ: ۲۱۶۸. Şəriklərin sərmayəsi ilə müamilə edən şərik, əgər sərmayəni saxlamaqda ifrat, səhlənkarlıq etməsə və onun bir qismi, yaxud hamısı təsadüfən tələf .olsa, zamin deyil

Məsələ: ۲۱۶۹. Şəriklik sərmayəsi ilə müamilə edən şərik, əgər “sərmayə tələf olmuşdur” .desə və cameüş-şərait müctəhidin yanında and içsə, sözü qəbul olunmalıdır

Məsələ: ۲۱۷۰. Əgər bütün şəriklər bir-birinə, maldan istifadə etməyə dair verdikləri icazədən dönsələr, heç biri şəriklik malından istifadə edə bilməz. Həmçinin, əgər onlardan biri öz icazəsindən dönsə, sair şəriklərin istifadə edə bilmək haqqı yoxdur. Amma icazəsindən dönən şəxs özü, digərlərinin narazılığı olmazsa şəriklik malından .istifadə edə bilər

Məsələ: ۲۱۷۱. Hər vaxt şəriklərdən biri şəriklik sərmayəsinin bölüşdürülməsini istəsə, .hələ şəriklik müddətinin qurtarmamasına baxmayaraq, sair şəriklər qəbul etməlidirlər

Məsələ: ۲۱۷۲. Əgər şəriklərdən biri ölsə, yaxud dəli, huşsuz, səfeh olsa, yəni öz mallarını bihudə və əbəs yerə istifadə etsə, sair şəriklər şəriklik malından istifadə edə .bilməzlər

Məsələ: ٢١٧٣. Əgər şərik özü üçün bir şeyi nisyə alsa, zərər və ya mənfəəti onun özünə aiddir. Amma şəriklik üçün alsa və şəriki də o müamiləyə razı olduğunu desə, nisyə almaq adi qaydanın əksinə olmadığı təqdirdə müamilə səhihdir, şərikin təyidinə də .ehtiyac yoxdur. Qazanc və zərəri hər ikisinə aiddir

Məsələ: ٢١٧٤. Əgər şəriklik sərmayəsi ilə müəyyən müamilə edib sonradan şərikliyin batil olduğunu başa düşdükləri təqdirdə əgər bilirdilərsə, şirkət səhih deyil. Bir-birlərinin malından istifadə etməyə razı olsalar, şərikliyin səhih olmasında hər birinin icazəsinin olması ilə şərtlənməsə, müamilə səhihdir və o müamilədən əldə olunan şeylər onların hamısının malıdır. Əgər belə olmasa əgər onlardan (bəziləri) başqalarının istifadə etməsinə razı olmasalar "müamiləyə razıyıq" desələr, müamilə səhihdir; əks halda batildir. Əgər onlardan hər biri şəriklik üçün bir iş etsə əgər havayı .etməzsə zəhmət haqqını tələb edə bilər

RAZILAŞMANIN HÖKMLƏRİ

RAZILAŞMANIN HÖKMLƏRİ

Məsələ: ۲۱۷۵. Sülh budur ki, insan başqası ilə razılaşsın ki, malının, yaxud onun mənfəətinin bir miqdarını onun mülkü etsin; yaxud tələbindən, haqqından keçsin ki, o da əvəzində malının, yaxud onun mənfəətinin bir miqdarını ona həvalə etsin və ya tələbindən, haqqından keçsin. Hətta əgər əvəz almadan malın, yaxud onun mənfəətinin müəyyən miqdarını bir şəxsə həvalə etsə, yaxud alacağından, haqqından .keçsə yenə də sülh səhihdir

Məsələ: ۲۱۷۶. Bir şeydə bir-biri ilə razılaşan iki nəfər gərək baliğ, aqil olsunlar. Bu işə onları bir şəxs məcbur etməsin, özlərinin də razılaşmaq qəsdi olsun, öz mallarından .istifadə etmələri qadağan olumamış olsun

Məsələ: ۲۱۷۷. Razılıq siyğəsinin ərəbcə oxunması lazım deyil. Hətta bir-biri ilə .razılaşmanı anladan hər söz ilə olsa, səhihdir

Məsələ: ۲۱۷۸. Əgər bir nəfər öz qoyunlarını, misal üçün bir il saxlayaraq onun südündən istifadə edib bir qədər də ona yağ verməsi əsasında çobanla sülh edərsə, bu halda əgər qoyunların südünü çobanın çəkdiyi zəhmətlər və o yağ müqabilində sülh edərsə, səhihdir. Əgər qoyunları südündən istifadə etmək üçün bir illik çobana kirayiyə verib əvəzində bir miqdar yağ versin

.işkallıdır, hətta caiz deyil

Məsələ: ۲۱۷۹. Əgər bir şəxs öz alacağında və ya haqqında başqası ilə razılığa gəlmək istəsə, onun qəbul etdiyi halda səhihdir. Amma sülh olmadan öz haqqından və ya alacağından keçmək istəsə, onu qəbul etmək lazım deyil və razılıq da hesab olunmur, .üz çevirmək olur

Məsələ: ۲۱۸۰. Əgər insan öz borcunun miqdarını bilsə, amma borclu olduğu şəxs miqdarını bilməsə, bu halda borc sahibi öz borcunu olduğu miqdardan az miqdarla razılığa gəlsə; (məsələn, onda ۵۰ tümən borc veridiyi halda, öz borcunu ۱۰ tümənlə razılığa gəlsə) borclu şəxsə qalan artıq miqdar halal deyil. Amma borcunun miqdarını ona deyib razı salsa, (halaldır) və yaxud öz verdiyi borcun miqdarını bilsəydi yenədə o miqdara razı olacağını bidiyi şəkildə olsa (halaldır.) Həmçinin razılaşma ümumi ehtimallar əsasında olsa; məsələn, əlli tümən verəcəyi olduğu halda qarşı tərəfi on tümənlə razılaşdırsa, bu razılaşma səhihdir. Amma cinslər eyni olduğu halda ribaya .səbəb olarsa razılaşma səhih deyil

Məsələ: ۲۱۸۱. Əgər çəkiləri məlum və bir cinsdən olan iki şeydə bir-biri ilə razılığa gəlmək istəsələr, ehtiyat-vacib budur ki, birinin çəkisi digərindən çox olmasın. Amma çəkisi məlum olmasa, əgər birinin çəkisinin digərindən artıq olması ehtimalını versələr .razılaşma səhihdir

Məsələ: ۲۱۸۲. Əgər iki nəfərin bir nəfərdə, yaxud iki nəfərin başqa iki nəfərdə borcu olsa və öz borclarında bir-biriləri ilə razılığa gəlmək istəsələr, bu halda onların borcu bir cinsdən və çəkiləri də eyni olsa; (məsələn, hər ikisi ۱۰ mən buğda borc vermiş olsa) onların razılaşması səhihdir. Həmçinin əgər onların borc verdiyi şeyin cinsi bir olmasa da; (məsələn, biri ۱۰ mən düyü, digəri isə on iki mən buğda alacağı varsa) razılaşma səhihdir. Amma onların tələbi bir cinsdən və adətən çəki və ya peymanə ilə müamilə olunan şeydən olsa, onların çəkisi və ya peymanəsi bərabər olmasa, onların .razılşmasının işkalı var

Məsələ: ۲۱۸۳. Müəyyən müddətdən sonra verdiyi borcu almalı olan bir şəxs, bu halda öz borcunun qarşılığı olaraq az miqdarla razılaşsa və məqsədi də öz tələbinin müəyyən .miqdarını güzəştə gedib qalanını nəqd almaq olsa, eybi yoxdur

Məsələ: ۲۱۸۴. Əgər iki nəfər, müəyyən bir şeydə bir-birilə razılaşsalar, qarşılıqlı olaraq razılığı poza bilərlər. Həmçinin, əgər müamilədə hər ikisi, yaxud biri üçün müamiləni .pozmaq haqqı qoyulmuş olsa, haqqı olan şəxs razılaşmanı poza bilər

Məsələ: ۲۱۸۵. Satıcı və alıcı, alış-veriş mövqeyinin dağılmadığı müddət boyu, müamiləni poza bilərlər; həmçinin əgər müştəri heyvanı alsa, üç günə qədər müamiləni pozmaq haqqı var. Əgər nəqd aldığı malın pulunu üç gün müddətində verməsə və malı da təhvil almasa, satıcı müamiləni poza bilər. Amma malda razılığa gələn bir şəxsin bu üç halda razılaşmanı pozmaq haqqı yoxdur. Al-verin hökmlərində deyilən ixtiyarların sair səkkiz .halında razılaşmanı poza bilərlər

Məsələ: ۲۱۸۶. Əgər bir şəxsin razılaşma yolu ilə aldığı şey eybli çıxsa, razılaşmanı poza bilər. Amma sağlam və eybli mal arasındakı qiymət fərqini almaq istəsə, ehtiyata .əsasən işkalı vardır

Məsələ: ۲۱۸۷. Əgər bir şəxs öz malını başqası ilə razılaşaraq ona “mən öləndən sonra səninlə razılığa gəldiyim şeyi vəqf etməlisən” deyə şərt etsə və o da bu şərti qəbul .etsə, öz şərtinə əməl etməlidir

İCARƏNİN HÖKMLƏRİ

Point

İCARƏNİN HÖKMLƏRİ

Məsələ: ۲۱۸۸. Bir şeyi icarəyə verən və icarəyə alan şəxslər mükəlləf və aqil olmalı, öz ixtiyarı ilə icarəni yerinə yetirməlidirlər. Həmçinin gərək öz malında istifadə etmək haqqına malik olmadır. Deməli, öz malını əbəs, lazımsız yerlərə məsrəf edən səfeh, öz malında istifadə etmək haqqına malik olmadığı üçün, bir şeyi icarə edərsə, yaxud icarəyə verərsə, səhih deyil. Lakin vəlisi təyid etsə müamilə səhihdir. Şəri hakimin göstərişi olmadan öz malından istifadə edə bilməyən şəxs də bir şeyi icarə edərsə, .yaxud icarəyə verərsə, səhih deyil

.Məsələ: ۲۱۸۹. İnsan başqasının tərəfindən vəkil olub onun malını icarəyə verə bilər

Məsələ: ۲۱۹۰. Əgər uşağın vəlisi və ya qəyyumu, onun malını icarəyə versə, yaxud onun özünü başqasına əcir etsə, eybi yoxdur. Amma onun həddi-büluğa çatmasının bir müddətini icarə müddətində qərara alsa, uşaq həddi-büluğa çatandan sonra icarənin qalan hissəsini poza bilər. Həmçinin əgər uşağın həddi-büluğa çatması zamanından bir miqdarını icarə müddəti etməsəydi, uşağın məsləhətinin əksinə olardısa da icarəni .poza bilər

Məsələ: ۲۱۹۱. Vəlisi olmayan səğir uşaq, cameüş-şərait müctəhidin icazəsi olmadan əcir oluna bilməz. Əgər bir şəxs, cameüş-şərait müctəhidi tapa bilməsə, bir neçə nəfər .adil mömindən icazə alıb onu əcir edə bilər

Məsələ: ۲۱۹۲. İcarə verən və icarəni qəbul edənlərin icarə siyğəsini ərəbcə oxumaları lazım deyil. Hətta əgər malın maliki bir şəxsə öz mülkümü "sənə icarəyə verdim" və o da "qəbul etdim" desə, icarə səhihdir. Həmçinin əgər bir söz danışmasalar, amma malın sahibi mülkünü icarə vermək qəsdi ilə onu icarəçiyə həvalə etsə, o da icarə .etmək məqsədilə alsa, icarə səhihdir

Məsələ: ۲۱۹۳. Əgər insan icarə siyğəsi oxumadan müəyyən işi yerinə yetirmək üçün .əcir olunmaq istəsə, o işə başlaması ilə icarə səhihdir

Məsələ: ۲۱۹۴. Danışa bilməyən bir şəxs, işarə ilə mülkünü icarə verməyi, yaxud icarəni .qəbul etməyi başa salsa, səhihdir

Məsələ: ۲۱۹۵. Əgər bir şəxs ev, mağaza və ya bir otağı icarəyə götürəndə, mülkün sahibi onunla təkcə özünün istifadə etməsini şərt etsə, icarə edən şəxs onu başqasına icarəyə verə bilməz. Əgər şərt olunmasa, onu başqasına icarəyə verə bilər. Bu o haldadır ki, icarə əqdi və ya başqa əlamətlər icarə edənin özünə məxsus olacağı mənasını daşımasın. Amma onu icarə etdiyindən artıq miqdara icarəyə vermək istəsə, gərək onda təmir və ya rəngləmə yaxud bunun kimi işlər etməklə olsun; yaxud icarə etdiyi şeydən başqa bir şeyə icarəyə versin; məsələn, özü pul ilə icara edib başqasına .buğda və ya başqa bir şeyə icarəyə versin

Məsələ: ۲۱۹۶. Əgər əcir tutulan şəxs təkcə o şəxsin özü üçün işləyəcəyini şərt etsə, onu başqa şəxsə icarəyə verə bilməz. Əgər şərt etməsələr onu icarəyə vermək istəsə gərək onun üçün müəyyən etdiyi muzddan artığa başqasına verməsin. Lakin başqa bir .şeyə icarəyə versə, artıq ala bilər

Məsələ: ۲۱۹۷. Əgər əcir ev, mağaza, otaqdan qeyri şeyləri bir şəxsdən icarəyə alsa; məsələn, torpaq sahəsini icarəyə götürsə və onun sahibi də təkcə özünün istifadə etməsini şərt etməsə, əgər

icarə etdiyi miqdardan çox məbləğə icarəyə versə (xüsusən dəyərli iş orada edilərsə də) işkalı yoxdur.

Məsələ: ٢١٩٨. Əgər misal üçün, ev və ya mağazanı, illik haqqı ١٠٠ tümənə icarə edib yarısından özü istifadə etsə, istifadə etmədiyi yarısını da ١٠٠ tümən qiymətə icarəyə verə bilər. Amma digər yarısını icarə etdiyindən artıq qiymətə; məsələn, ١٢٠ tümənə icarə vermək istəsə, gərək onda müəyyən iş (təmir kimi) görmüş olsun, yaxud icarə etdiyi şeydən başqa şeyə icarə versin.

İCARƏYƏ VERİLƏN MALIN ŞƏRTLƏRİ

Məsələ: ٢١٩٩. İcarəyə verilən malın bir neçə şərti var:

١. Müəyyən olsun; deməli, əgər "öz evlərimdən birini icarə verdim" desə, səhih deyil.

٢. İcarə alan şəxs onu görsün, yaxud malı icarəyə verən şəxs onun xüsusiyyətlərini elə desin ki, tamamilə məlum olsun;

٣. Onun təhvil verilməsi mümkün olsun; deməli, qaçmış atı, icarə edən istifadə edə bilməyəcəyi təqdirdə batildir.

٤. O mal istifadə etməklə aradan getməsin; deməli çörək, meyvə və sair yeyinti məhsullarını icarəyə vermək səhih deyil. Əgər ağıllı insanların nəzərincə mənfəəti olarsa məsələn, məclisdə süfrəni bəzəmək kimi (bu halda səhihdir).

٥. İcarəyə verilən məqsəd üçün maldan istifadə etmək mümkün olsun; deməli, torpağın əkinçilik üçün icarəyə verilməsi yağış suyu kifayət etməzsə və çay, yaxud başqa yerlərdən suvarmaq mümkün olmasa, səhih deyil.

٦. İcarəyə verilən şey şəxsin öz malı olsun; əgər başqasının malını icarəyə versə, sahibi razılıq verdiyi halda səhih olar.

Məsələ: ٢٢٠٠. Ağacın, meyvələrindən istifadə olunsun deyə, icarəyə verilməsi səhihdir.

Məsələ: ٢٢٠١. Qadın, öz südündən istifadə olunmaq üçün əcir tutula bilər. Öz ərindən də icazə alması lazım deyil. Lakin süd vermək vasitəsilə ərinin haqqı aradan gedərsə,

onun icazəsi

.olmadan əcir oluna bilməz

İCARƏYƏ VERİLƏN MALDAN İSTİFADƏNİN ŞƏRTLƏRİ

:Məsələ: ۲۲۰۲. Malın icarəyə verildiyi istifadənin dörd şərti vardır

Halal olsun; deməli, mağazanı şərab satmaq, yaxud saxlamaq, heyvanı (və ya .۱ avtomobili) şərab daşımaq üçün icarəyə vermək batildir.

;O istifadə üçün pul vermək camaatın nəzərində boş və mənasız olmasın .۲

Əgər icarəyə verdiyi şeydən bir neçə cəhətdə istifadə etmək mümkün olsa, icarəyə .۳ alan şəxsin edəcəyi istifadəni müəyyən etməlidir; (məsələn: həm minik, həm də yük daşımaq üçün istifadə olunan heyvanı icarəyə versə, icarə vaxtı icarəçinin minik kimi, yaxud yük daşımasından, yaxud da hər ikisindən istifadə edəcəyini müəyyən etməlidir.

İstifadənin müddəti müəyyən olmalıdır; əgər müddəti müəyyən olunmasa, lakin işi .۴ müəyyən etsələr (məsələn: dərzi ilə paltarı məxsus formada tikməsini qərara alsalar) kifayətdir.

Məsələ: ۲۲۰۳. Əgər icarə müddətinin əvvəlini təyin etməsələr, onda əvvəli icarə siyğəsi oxunandan sonradır.

Məsələ: ۲۲۰۴. Əgər bir evi; məsələn, bir il icarəyə verib əvvəlini siyğə oxunandan bir ay sonra qərarlaşsalar, hətta siyğə oxunan vaxt ev başqasının icarəsində olsa da icarə səhihdir.

Məsələ: ۲۲۰۵. Əgər icarə müddətini təyin etməsələr, amma "hər vaxt evdə otursan, o ayın icarəsini ۱۰ tümən verməlisən" deyərsə, icarə səhih deyil.

Məsələ: ۲۲۰۶. Əgər kirayə edənə -"evi ayı on tümənə sənə icarəyə verdim" deyərsə icarə batildir. Əgər evi bir aylığa on tümənə sənə kirayəyə verdim deyərsə və o müddətdən artıq da

qalsan, həmin qiymətədir dediyi təqdirdə, əvvəldə icarənin müddətini müəyyən .etsələr və ya onun əvvəli məlum olsa, birinci ayın icarəsi səhihdir

Məsələ: ۲۲۰۷. Səfərdə olanların və ziyarətçilərin mənzil etdikləri və nə qədər qalacaqları məlum olmayan evdə; məsələn, gecəsi bir tümən verməyi qərara alsalar, ev sahibi də razı olsa, o evdən istifadə etməyin eybi yoxdur; amma müddəti təyin etmədiklərinə görə ona icarə deyilmir. Ev sahibi hər zaman istəsə onu edən çıxara .bilər

İCARƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ۲۲۰۸. İcarə alan şəxsin icarə haqqı olaraq verdiyi mal, məlum olmalıdır. Deməli, əgər buğda kimi çəki ilə al-ver edilən şeylərdən olsa, çəkisi; yumurta kimi sayılan şeylərdən olsa, onun sayı müəyyən olmalıdır; at, qoyun və s. kimi şeylərdən olsa, icarə .verən onu görməli, yaxud icarə edən onun xüsusiyyətlərini ona deməlidir

Məsələ: ۲۲۰۹. Əgər müəyyən torpaq sahəsini buğda, arpa, yaxud başqa şeylər əkmək üçün icarəyə verib icarə haqqını da həmin torpağın məhsulundan olacağını şərt .etsələr, icarə səhih deyil

Məsələ: ۲۲۱۰. Bir şeyi icarəyə verən şəxs, onu təhvil vermədiyi müddət ərzində, icarə haqqını tələb edə bilməz. Həmçinin, əgər müəyyən işi yerinə yetirmək üçün əcir olubsa, o işi yerinə yetirmədən muzdunu tələb etməyə haqqı yoxdur. Amma adət .şəklini almış yerlərdə (qəza namazı və qəza orucu kimi) tələb edə bilər

Məsələ: ۲۲۱۱. Əgər icarə verdiyi şeyi təhvil versə, hətta icarə alan təhvil almasa və ya təhvil alıb icarə müddətinin axırına kimi istifadə etməsə də onun icarə haqqını .verməlidir

Məsələ: ۲۲۱۲. Əgər insan müəyyən bir gündə hər hansı bir işi görmək üçün əcir olunsa və o gündə həmin işi yerinə yetirmək

üçün hazır olsa, onu əcir edən şəxs o işdə həmin şəxsə müraciət etməsə də haqqını verməlidir; məsələn, bir dərzini müəyyən bir gündə paltar tikmək üçün əcir etsə və dərzi də həmin gündə işə hazır olsa, amma parçanı tikmək üçün ona verməsələr, .haqqını verməlidirlər; istər dərzi işsiz olsun, istərsə də başqası üçün işləsin

Məsələ: ۲۲۱۳. İcarə müddəti qurtarandan sonra icarənin batil olduğu məlum olarsa, icarə haqqını, onun adi dəyərinə uyğun olaraq mülk sahibinə verməlidir; məsələn, əgər evi bir il müddətində ۱۰۰ tümənə icarə versələr və sonradan icarənin batil olduğu məlum olsa, bu halda, evin icarəsi adətən ۵۰ tümən olarsa, həmin qədər verməlidir; əgər ۲۰۰ tümən olarsa, yenə də o qədər verməlidir. Həmçinin, icarə müddətindən bir qədər keçdikdən sonra icarənin batil olduğu məlum olarsa, o müddətin icarəsini adi .qiymətlə (hesablayıb) mülk sahibinə verməlidir

Məsələ: ۲۲۱۴. Əgər bir şəxsin icarə etdiyi şey tələf olub aradan getsə, bu halda onun saxlanmasında səhlənkarlıq etməyibsə, ondan istifadə etməkdə həddi keçməyibsə, zamin deyildir. Həmçinin, (misal üçün) dərziyə verilən parça tələf olub aradan getsə, .dərzi onu saxlamaqda səhlənkarlıq etməyibsə, əvəzini verməməlidir

.Məsələ: ۲۲۱۵. Əgər sənətkar götürdüyü şeyi xarab etsə, zamindir

Məsələ: ۲۲۱۶. Əgər qəssab, heyvanın başını kəsib onu haram (murdar) etsə, istər muzd .almış olsun, istərsə də pulsuz kəsmiş olsun, pulunu sahibinə verməlidir

Məsələ: ۲۲۱۷. Əgər bir heyvanı icarəyə verəndə nə qədər yükləyəcəyini müəyyənləşdirsə, bu halda icarə edən şəxs ondan artıq yükləsə və heyvan ölsə, yaxud eybli olsa, zamindir. Həmçinin, əgər yükün miqdarını müəyyənləşdirməsə, amma icarə edən heyvanı adi qaydadan çox yükləyib tələf etsə, yaxud eybli etsə, zamindir. Hər iki .surətdə artıq yüklədiyinə görə artıq miqdarın haqqınıda adi qayda da ödəməlidir

Məsələ: ۲۲۱۸. Əgər bir heyvanı, tez sınan şeyləri daşımaq üçün icarəyə versə, bu halda həmin heyvan sürüşsə, yaxud hürkүb yükdə olanlrı salıb sındırsa, o heyvanın sahibi zamin deyil. Amma vurmaq və sair kimi səbəblərlə yerə yıxılsa və yükündə olanları .sındırsa, zamindir

Məsələ: ۲۲۱۹. Əgər dəllək uşağı vəlisinin icazəsi ilə xütnə etsə və o uşağa müəyyən zərər dəysə, yaxud ölsə, bu halda adi qaydadan artıq kəsibsə, zamindir. Əgər adi .qaydadan artıq kəsməyibsə zamin deyil

Məsələ: ۲۲۲۰. Əgər həkim öz əli ilə xəstəyə dərman versə xəstə də dərmanı qəbul etsə, həkim müalicədə xəta etdiyi və xəstəyə zərər dəydiyi, yaxud öldüyü təqdirdə, həkim zamindir. Amma müalicə məqamında deyil, sadəcə olaraq həkim nəzəriyyəsi kimi "filan dərmanın filan xəstəliyə faydası var" desə, (yəni öz əqidəsini açıqlasa amma müalicənin ixtiyarını xəstənin öz öhdəsinə qoysa) və həmin dərmanı qəbul etmək .nəticəsində xəstəyə zərər dəysə və ya ölsə, həkim zamin deyil

Məsələ: ۲۲۲۱. Əgər həkim, xəstəyə və ya onun qəyyumuna "zərər dəysə mən zamin deyiləm" desə, bu halda lazımi qədər ehtiyat etsə və xəstəyə də zərər dəysə və ya .ölsə, həkim zamin deyil

Məsələ: ۲۲۲۲. Bir şeyi icarə alan və icarəyə verən şəxs qarşılıqlı razılıq əsasında müamiləni poza bilərlər. Həmçinin, icarədə hər ikisinin, yaxud birinin müamiləni .pozmaq haqqının olmasını şərt etsələr, buna müvafiq olaraq icarəni poza bilərlər

Məsələ: ۲۲۲۳. Əgər malı icarəyə verən, yaxud icarəyə alan zərər etdiyini başa düşsə, bu halda siyğəni oxuyan vaxt zərərə düşməsinə diqqət yetirməmiş olsalar, icarəni poza bilərlər. Amma icarə siyğəsində, hətta zərər etdikləri halda belə, icarəni pozmaq .haqları olmayacaqlarını şərt etsələr, icarəni poza bilməzlər

Məsələ: ۲۲۲۴. Müəyyən şeyi icarəyə verib təhvil verməzdən qabaq bir şəxs onu qəsb etsə, icarə alan şəxs icarəni poza, icarə verənə verdiyi şeyləri geri ala bilər, yaxud icarəni pozmadan qəsb

edənin ixtiyarında olan müddətdəki icarəsini adi qaydada ondan ala bilər. Deməli əgər bir heyvanı ayı ۱۰ tümənə icarəyə alsa və başqası da o şəxsdən ۱۰ gün müddətində qəsb etsə, adi icarənin də ۱۰ günlük qiyməti ۱۵ tümən olsa, o miqdarı qəsb edəndən .geri ala bilər

Məsələ: ۲۲۲۵. Əgər icarə etdiyi şeyi təhvil alandan sonra bir şəxs onu qəsb etsə, icarəni .poza bilməz, təkcə o şeyin kirayə haqqını qəsb edəndən almağa haqqı var

Məsələ: ۲۲۲۶. Əgər icarənin müddəti tamam olmamışdan qabaq mülkü icarəyə verdiyi şəxsə satsa, icarə pozulmur. İcarə alan şəxs icarə haqqını satıcıya verməlidir. Həmçinin əgər onu başqa birisinə satarsa, alıcının o, şeyin icarəyə verildiyini bildiyi .təqdirdə hökm eynidir

Məsələ: ۲۲۲۷. Əgər icarə müddəti başlamamışdan qabaq mülk ümumiyyətlə istifadə oluna bilməyəcəyi, yaxud şərt etdikləri kimi istifadəyə qabiliyyəti olmayan tərzdə xarab olsa, icarə batil olur, icarə edənin mülk sahibinə verdiyi pul ona qaytarılmalıdır. Hətta əgər azacıq miqdarda istifadə edə biləcəyi şəkildə olsa, icarəni poza bilər. Əgər .az bir müddət istifadə etsə onun adi qiymətini verməlidir

Məsələ: ۲۲۲۸. Əgər müəyyən bir mülkü icarə edib, icarə vaxtından bir müddət keçəndən sonra ümumiyyətlə istifadə oluna bilməyən, yaxud şərt etdikləri kimi istifadə edilə bilməyən tərzdə xarab olsa, müddətin qalan hissəsinin icarəsi batil olur. .Həmçinin, əgər azacıq da istifadə edə bilsə, icarənin qalan müddətini poza bilər

Məsələ: ۲۲۲۹. Əgər iki otağı olan bir evi icarəyə verdikdən sonra bir otağı xarab olsa, bu halda onu dərhal düzəldib və istifadə ediməsindən heç nə əldən çıxmasa icarə batil olmur, icarə edən şəxs də icarəni poza bilməz. Amma onu dərhal düzəldib və istifadə ediməsindən heç nəyin əldən çıxmaması zahirən mümkün deyil, buna görədə belə nəzərə çarpır ki, icarə o miqdarda batil olur, müstəcir qalan miqdarında icarəsini poza bilər. Amma onun

yenidən təmir edilməsi uzun çəksə və nəticədə icarə edənin edəcəyi istifadənin bir miqdarı aradan getsə, həmin miqdarın icarəsi batil olur. İcarə edən, icarənin qalan .miqdarını da poza bilər

Məsələ: ۲۲۳۰. Əgər icarə verən və ya icarə alan ölsə, icarə batil olmur. Əgər ev, icarə verənin öz malı olmasa; məsələn, başqası sağ olduğu müddətdə evin qazancının onun olmasını vəsiyyət edibsə yaxud evi başqasəndan icarə edibsə evi icarəyə verdiyi təqdirdə icarə müddəti tamam olmamışdan qabaq ölsə, öldüyü vaxtdan etibarən icarə .batil olur

Məsələ: ۲۲۳۱. Əgər sahibkar bənnanı onun üçün fəhlə tutmağa vəkil etsə, bu halda bənna, fəhləyə sahibkardan aldığı miqdardan az versə, özünə götürdüyü artıq hissə haramdır. Onu sahibkara verməlidir. Amma evin tikintisini qurtarmaq üçün əcir olsa və özü üçün, şəxsən tikmək, yaxud başqasına vermək ixtiyarı qoysa və əcir olunduğu miqdardan az başqasına versə, əgər o şəxs onun yanında şagirdlik edərsə, artıq aldığı .ona halal, əks halda isə haramdır

Məsələ: ۲۲۳۲. Əgər rəngsazlar, parçanı lil ilə rəngləməsini qərara alsalar və o, başqa .şeylə rəngləsə, bir şey almağa haqqı yoxdur

CÜALƏNİN HÖKMLƏRİ

CÜALƏNİN HÖKMLƏRİ

Məsələ: ۲۲۳۳. Cüalə budur ki, insan onun üçün görülən işin müqabilində müəyyən bir şey verəcəyini qərar qoysun; məsələn, "hər kəs mənim itirdiyimi tapsa, ۱۰ tümən verəcəyəm" desin. Bu qərarı qoyan şəxs "cail", işi görən şəxs isə "amil" adlanır. Cüalə ilə, bir şəxsin müəyyən iş üçün əcir olunması arasındakı fərq budur ki, icarədə siyğə oxunandan sonra əcir olunan şəxs əməli yerinə yetirməlidir. Onu əcir edən şəxs də muzdunu ona borclu olur. Amma cüalədə amil əməl etməyə bilər. Əməli yerinə .yetirmədiyi müddətdə cail ona borclu deyil

Məsələ: ۲۲۳۴. Cail gərək aqil və baliğ olsun, qəsd və ixtiyar üzündən qərar qoysun, şərən öz malından istifadə edə bilmək hüququnda olsun. Deməli, öz malını boş və bihudə yerlərə sərf edən səfeh adamın cüaləsi səhih deyil. Həmçinin, şəriət hakimi tərəfindən öz malından istifadə etməkdən qadağan olmasın. Amma vəlisinin icazəsi ilə .səhihliyinə hökm olunur

Məsələ: ۲۲۳۵. Cüalədə yerinə yetirilməsi istənilən iş haram və faydasız olmamalıdır. Deməli, "hər kəs şərab içsə", yaxud "gecənin qaranlığında bir yerə getsə ۱۰ tümən .verəcəyəm" desə, cüalə səhih deyil

Məsələ: ۲۲۳۶. Əgər vermək istədiyi malı müəyyən etsə; məsələn, "hər kəs mənim atımı "tapsa, bu buğdanı ona verəcəyəm

desə, o buğdanın hara buğdası və qiymətinin nə qədər olduğunu deməsi lazım deyil. Amma malı müəyyən etməsə; məsələn: “hər kəs mənim atımı tapsa, ۱۰ mən buğda verəcəyəm” desə, onun müəyyən olunmamamsı davaya səbəb olacağı təqdirdə, .gərək onun xüsusiyyətlərini dəqiq şəkildə təyin etsin

Məsələ: ۲۲۳۷. Əgər cail, iş üçün müəyyən bir muzd təyin etməsə; məsələn: “hər kəs mənim uşağımı tapsa pul verəcəyəm” deyib, miqdarını müəyyən etməsə, bir kəs o işi yerinə yetirəcəyi təqdirdə, o işin camaat arasında dəyəri miqdarında həmin şəxsə .muzd verməlidir

Məsələ: ۲۲۳۸. Əgər amil, qərar qoymamışdan əvvəl bir işi yerinə yetirsə, yaxud .qərardan sonra pul götürməmək məqsədilə bu işi görsə, muzd almağa haqqı yoxdur

.Məsələ: ۲۲۳۹. Amil, işə başlamazdan əvvəl, cail və amil cüaləni poza bilərlər

Məsələ: ۲۲۴۰. Amil işə başladıqdan sonra, cail, cüaləni pozmaq istəsə, poza bilər. Lakin .amilin həqqi, yerinə yetirdiyi işin müqbilində verilməlidir

Məsələ: ۲۲۴۱. Amil başladığı işi yarımçıq qoya bilər. Amma o işi tamamlamaması cailə zərər vursa, onu axıra çatdırmalıdır; məsələn, əgər bir şəxs, “hər kəs mənim gözümdə cərrahiyyə əməli etsə, filan qədər pul verəcəyəm” desə və cərrah da əməliyyata başlasa, bu halda əməli tamam etməyəcəyi təqdirdə gözü eybli olacaqsa, gərək onu .axıra çatdırsın. Əgər natamam qoysa, cailə bir şey çatmır

Məsələ: ۲۲۴۲. Əgər amil işi yarımçıq qoysa, bu halda o iş (itmiş atın tapılması kimi) axıra çatdırılmayınca cail üçün faydası olmayan işlərdən olsa, amil heç nə tələb edə bilməz. Həmçinin, əgər cail, muzdu işi qurtarmaq üçün qərara alsa; məsələn, “hər kəs mənim paltarımı tiksə ۱۰ tümən, verəcəyəm” desə, amma məqsədi işin nə qədəri yerinə yetirilərsə, o qədərin də muzdunu vermək olsa, cail yerinə yetirilən miqdarın muzdunu .amilə verməlidir. Amma ehtiyat budur ki, müəyyən yollarla bir-biri ilə razılaşsınlar

MÜZARİƏNİN HÖKMLƏRİ

MÜZARİƏNİN HÖKMLƏRİ

Məsələ: ۲۲۴۳. Müzariə budur ki, yerin sahibi, əkinçi ilə müamilə edib, o yerdə əkinçilik etməsi üçün yeri onun ixtiyarına verir və o da, məhsulun bir miqdarını yerin sahibinə .verir

:Məsələ: ۲۲۴۴. Müzariənin bir neçə şərti var

Yerin sahibi, əkinçiyə "torpağı sənə həvalə etdim," əkinçi də "qəbul etdim" desin, . ۱ yaxud heç nə danışmadan yer sahibi torpağı ona təhvil versin, əkinçi də onu təhvil alsın. Amma bu surətdə əkinçi işə başlamazdan qabaq, sahibin və əkinçinin müamiləni pozmaqları düşünüləsi məsələdir; bu halda müamiləni poza bilməyəcəklərini desək, .qeyri mümkün sayılmaz

Yerin sahibi və əkinçi hər ikisi (mükəlləf) həddi-büluğa çatmış və aqil olsunlar; . ۲ məqsədli və ixtiyarlı olraq müzariəni yerinə yetirsinlər; malından istifadə edə bilməyənlərdən olmasınlar; həmçinin, gərək səfeh olmasınlar; yəni, öz mallarını yeris .yerə xərc etməsinlər

Həmin yerdən hasil olan məhsul, sahib və əkinçinin ikisinə çatmalıdır. Bu söz, həmin .۳ yerdən hasil olan məhsulun birinə məxsus olmaması mənasındadır; amma hər ikisinin hasil olan məhsuldan götürmələri lazım olsa, bu mənanın şərt olması

düşünüləsi məsələdir. Deməli, əgər birinci və ya sonda əldə olunan məhsulun onlardan .birinin olacağını şərt etsələr, müzariə batildir

Hər birinin payı (müşa) ayrılmış olsun; məsələn: məhsulun yarısı, üçdə biri və s. kimi .۴ təyin olunmalıdır. Deməli, əgər malik "bu yerdə əkin ək, hər nə istəsən mənə ver" desə, yaxud "on mən yerin məhsulundan və ya müəyyən bir tərəfinin məhsulundan .mənə ver", desə, müzariə səhih deyil

Yerin, əkinçinin ixtiyarında olacağı müddəti müəyyən etsinlər; bu müddət, məhsulun .۵ tədarükünnün mümkün olacağı miqdarda olmalıdır. Əgər əkinin əvvəlini, müəyyən bir .gün və ya adətən məlum olan fəsli təyin etsələr, kifayətdir

Yer, əkin üçün əlverişli olsun; əkin üçün əlverişli olmayıb, müəyyən işlər gördükdən .۶ .sonra əkin üçün əlverişli olarsa, müzariə səhihdir

Onların hər birinin fikri, əkilən şeyin barəsində müxtəlif olsa, gərək, əkilən şey . ٧ müəyyən edilsin. Amma müəyyən bir şeyi əkmək fikirlərində olmasalar və ya əkin hər .ikisinin fikrində müəyyən olsa, onu müəyyən etmək lazım deyil

Yerin sahibi, hansı torpağı verdiyini müəyyən etsin; Deməli, əgər bir-biri ilə . ٨ fərqlənən bir neçə yerdə torpaq sahəsi olsa və əkinçiyə "bunların birində əkin ək" deyib onları müəyyən etməsə, müzariə batildir. Amma ümumi şəkildə müyyən etsə, bu .halda müzariə səhihdir

Xərclərin kimin öhdəsində olmasını müəyyən etməlidirlər. Amma hər birinin . ٩ .öhdəsində olan xərclər məlum olsa, müəyyən etmələri lazım deyil

Məsələ: ٢٢۴۵. Əgər yerin sahibi əkinçi ilə, məhsulun müəyyən miqdarının özü üçün olmasını, yerdə qalanları isə öz aralarında bölməyi qərara alsa, bu halda o miqdar .götürüləndən sonra bir şey qalacağını bilirlərsə, müzariə səhihdir

Məsələ: ٢٢۴۶. Əgər müzariənin müddəti qurtarsa, amma məhsul ələ gəlməsə, bu halda sahibi və əkinçi icarə ilə, yaxud

icarəsiz əkinin onun yerində qalmasına razı olsalar, maneəsi yoxdur. Amma yerin sahibi razı olmasa və yerin sahibinə zərər dəyməzsə əkinçini əkini biçməyə məcbur edə bilməz. Gərək əkin orada qalsın və əkinçidə əkinin orada qalmaq haqqını verməlidir. Əkini biçməklə əkinçiyə zərər dəysə, əvəzini verməsi lazımdır; əkinin orada .qalmasının malikə zərəri olduğu halda, əvəzini verməsi lazım deyil

Məsələ: ۲۲۴۷. Əgər müəyyən bir hadisə səbəbi ilə yerdə əkin mümkün olmasa; (məsələn, su qurusa), müzariə pozulur. Əgər əkinçi üzürsüz və ya üzürlü səbəblərə görə əkini əkməsə, yer, onun ixtiyarında olub, sahibin istifadəsindən kənarda qalıbsa, .gərək o müddətin kirayəsini, adi qayda da yerin sahibinə versin

Məsələ: ۲۲۴۸. Əgər malik və əkinçi siyğəni oxumuş olsalar, bir-birinin razılığı olmadan müzariəni poza bilməzlər. Həmçinin əgər malik, müzariə qəsdi ilə torpağını bir şəxsə həvalə etsə, o da həmin qəsdlə qəbul etsə, yəni işə başlayandan sonra, bir-birinin razılığı olmadan müamiləni pozmaqlarının caiz olmamasını bilməsələr, hətta işə başlamasa da müamiləni poza bilməzlər desək, qeyri mümkün deyil. Amma siyğəni oxuyan vaxt hər ikisinin və ya onlardan birinin müamiləni pozmaq haqqı olmasını şərt .etsələr, qoyduqları qərara uyğun olaraq müamiləni poza bilərlər

Məsələ: ۲۲۴۹. Əgər müzariə qərarından sonra malik, yaxud əkinçi ölsə, müzariə pozulmur; varisləri onların yerinə keçir. Amma əkinçi ölsə və əvvəlcədən də şəxsən özünün əkin işlərini yerinə yetirməsini şərt etsələr, müzariə pozulur. Əgər əkin cücərmiş olsa, onun payını vərəsələrinə verməlidirlər. Həmçinin əkinçinin malik olduğu sair hüquqlar da onun vərəsələrinə çatır. Əgər əkinin həmin torpaqda qalması sahibinin zərərinə olmasa, yerin sahibini, əkinin həmin torpaqda qalmasına məcbur .edib əkinin orada qalmaq haqqını verə bilərlər

Məsələ: ۲۲۵۰. Əgər əkindən sonra müzariənin batil olduğunu başa düşsələr, bu halda toxum malikin öz malıdırsa, əldə olunan

məhsul da onundur; gərək əkinçinin muzdunu, çəkdiyi xərcləri və əkinçinin malı olan inəyin və ya əkin üçün istifadə etdiyi heyvanın kirayəsini versin. Əgər toxum əkinçinin malıdırsa, əkin də onundur. Gərək torpağın icarə haqqını, sahibin çəkdiyi xərcləri və sahibin malı olan inəyin və ya o yerdə əkin üçün istifadə etdiyi başqa heyvanın .kirayəsini versin

Məsələ: ۲۲۵۱. Əgər toxum, əkinçinin olsa və əkindən sonra müzariənin batil olduğu başa düşsə, bu halda malik və əkinçi muzdla, yaxud muzdsuz əkinin o yerdə qalmasına razı olsalar, eybi yoxdur. Əgər malik razı olmasa, məhsulun yetişməsindən qabaq əkinçiyə zərər dəyməsə də əkinçini, əkini biçməyə vadar edə bilməz. Gərə məhsul yetişsin və orada qalmaq haqqını alsın. Əkinin onun torpağında qalmağı torpaq sahibinin zərərinə olsa, istər əvəz müqabilində olsun istərsədə əvəzsiz gərək əkinçi, .əkinini biçsin

Məsələ: ۲۲۵۲. Əgər məhsul yığılıb, müzariə vaxtının tamam olmasından sonra, əkilən şeyin torpaqda qalan kökləri sonrakı ildə yenə məhsul versə, bu halda malik və əkinçi bu müzariə fikrindən dönməsələr, əkinin kökü yerdə qaldıqca əkində şərik olmalarını şərt etmiş olsalar, gərək birinci ildə olduğu kimi, ikinci ilin məhsulunu da öz aralarında iki hissəyə bölsünlər. Onların şərikləri birinci ilə məxsus olarsa ikinci məhsul toxum .sahibinindir. Lakin əkin sahibi məhsuldan imtina edərsə məhsul digərinindir

MUSAQATIN HÖKMLƏRİ

MUSAQATIN HÖKMLƏRİ

Məsələ: ۲۲۵۳. Əgər bir kəs meyvəsi özünün olan, yaxud onun ixtiyarında olan ağacları müəyyən müddətə qədər becərib su vermək üçün başqasına versə və əvəzində o meyvədən müəyyənləşdirdikləri qədər götürməsi əsasında müamilə etsə, bu .müamiləyə musaqat deyilir

Məsələ: ۲۲۵۴. Musaqat müamiləsi söyüd, çinar kimi bar verməyən ağaclarda səhih deyil. Yarpaqlarından istifadə olunan həna ağacı kimi, ağaclar da isə musaqat .icazəlidir

Məsələ: ۲۲۵۵. Musaqat müamiləsində siyğə oxunması lazım deyil. Hətta əgər ağacın sahibi, onu musaqat qəsdi ilə versə və işləyən şəxs həmin məqsədlə işə başlasa .müamilə səhihdir

Məsələ: ۲۲۵۶. Malik və ağacları becərməyi öhdəsinə alan şəxs mükəlləf və aqil olmalıdırlar, bir kəs onları (bu işə) məcbur etməməlidir. Həmçinin, malikin şərtlərindən biri də budur ki, səfeh olmasın yəni, öz mallarını boş yerə istifadə etməsin. Vəlisi icazə versə heç bir maneəsi yoxdur. Sahib öz malından istifadə etməsi üçün şəri hakimin .tərəfindən qadağan olunmamalıdır

Məsələ: ۲۲۵۷. Musaqatın müddəti məlum olmalıdır. Əgər onun əvvəlini məlum olan şəkildə müəyyən edib, onun axırını da həmin

.il, o meyvənin yetişən vaxtı (adətən məlum olan şəkildə) təyin edilərsə, səhihdir

Məsələ: ۲۲۵۸. Gərək hər birinin payı məhsulun yarısı, üçdə biri və s. kimi olsun; məsələn, əgər meyvənin yüz məni malikin, qalanları isə işləyən şəxsin olmasını qərara .alsalar, müamilə batildir

Məsələ: ۲۲۵۹. Musaqatın müamilə qərarı, meyvənin zahir olmasından qabaq bağlanmalıdır. Əgər zahir olmasından sonra və yetişməzdən qabaq bağlasalar, ağac və meyvəni becərmək üçün lazım olan suvarmaq kimi işlərdən qaldığı təqdirdə, müamilə səhihdir. Əks halda hətta meyvələri yığmaq və saxlamaq kimi işlər də olsa, .işkalı vardır

Məsələ: ۲۲۶۰. Musaqat müamiləsi qarpız, yemiş, xiyar və s. kimi tərəvəzlərdə səhih .deyil

Məsələ: ۲۲۶۱. Yağış suyu, yaxud yerin rütubətini cəzb edib suvarılmağa ehtiyacı olmayan ağaclarda, belləmək, gübrə vermək, dərman səpmək kimi işlərə ehtiyacı olsa, əgər o işlər meyvənin artmasında, yaxud lətafətli olmasında təsirli olsa, musaqat .müamiləsi səhihdir

Məsələ: ۲۲۶۲. Musaqat qərarı bağlayan iki nəfər, bir-birinin razılığı ilə müamiləni poza bilərlər. Həmçinin, əgər musaqat siyğəsini oxuyan vaxt hər ikisinin, yaxud onlardan birinin müamiləni pozmaq haqqına malik olmasını şərt etsələr, qoyulan qərara müvafiq olaraq müamiləni pozmağın eybi yoxdur. Hətta əgər müamilədə qoyulan şərt əməli olaraq yerinə yetirilməsə, qoyulan şərtə qarşı tərəfi məcbur etmək mümkün .olsa da xeyrinə şərt qoyulan tərəf müamiləni poza bilər

Məsələ: ۲۲۶۳. Əgər malik ölsə musaqat müamiləsi pozulmur, vərəsələri onun yerinə .keçir

Məsələ: ۲۲۶۴. Ağacları becərməyi öhdəsinə alan şəxs ölsə, bu halda əqddə, onları şəxsən özü becərməsi şərt edilməyibsə, vərəsələri onun yerini tutur. Amma özləri işi yerinə yetirməsələr və başqasını əcir və fəhlə tutmasalar, şəri hakim, meyyitin

malından əcir və fəhlə tutub məhsulu meyyitin vərəsələri ilə malikin arasında bölməlidir. Əgər onun özünün ağacları becərməsini şərt etmiş olsalar, deməli, başqasına tapşırılmaması şərt olunduğu təqdirdə, onun ölümü ilə musaqat müamiləsi pozulur. Əgər belə qərar qoymamış olsalar, malik əqdi poza da bilər, yaxud onun .vərəsələrinin və ya onların əcir tutduqları şəxsin ağacları becərməsinə razı ola bilər

Məsələ: ۲۲۶۵. Əgər bütün məhsulun malikə verilməsini şərt etsələr, musaqat batil, meyvələr isə malikindir. İşləyən şəxs, muzd tələb edə bilməz. Amma musaqatın batil olması başqa bir cəhətə görə olsa, malik gərək suvarmaq və bunun kimi başqa işlərin .zəhmət haqqını ağacları becərən şəxsə versin

Məsələ: ۲۲۶۶. Əgər torpaq sahəsini başqasına, orada ağac əkib əldə olunan məhsulun hər ikisinin olsun deyə, öhdəliyə versə, müamilə batildir; ağaclar yer sahibinindirsə, becərildikdən sonra da onun malıdır. Becərən şəxsin muzdu verilməlidir. Əgər ağaclar onu becərən şəxsin olsa, becərəndən sonra da onun malıdır, onları oradan çıxarda bilər. Amma (çıxartsa) əmələ gələn boşluqları, çalaları doldurub, ağacları əkdiyi gündən etibarən yerin icarəsini sahibinə verməlidir. Malik onu, ağaclarını çıxartmağa məcbur edə bilər. Əgər malik onu, ağaclarını çıxartmağa məcbur edərsə, ağacları çıxartmaq vasitəsilə eyb yaransa, o eybin dəyəri miqdarda olan qiymətini yer sahibi, ağacların sahibinə verməlidir. Onu, (yer sahibini) icarə ilə və ya icarəsiz ağacların o .yerdə qalmasına məcbur edə bilməz

ÖZ MALLARINDAN İSTİFADƏ ETMƏK HÜQUQUNDA OLMAYAN ŞƏXSLƏR

ÖZ MALLARINDAN İSTİFADƏ ETMƏK HÜQUQUNDA OLMAYAN ŞƏXSLƏR

Məsələ: ۲۲۶۷. Həddi-büluğa çatmayan uşaq, ۲۰۹۷-ci məsələdə deyildiyi kimi şərən öz malından istifadə edə bilməz. Həddi-büluğa çatmağın nişanələri, qızlarda hicri qəməri tarixi ilə doqquz yaşın tamam olması, oğlanlarda isə üç şeydən biri ola bilər:

۱- Hicri qəməri tarixi ilə ۱۵ yaşın tamam olması;

۲- Qarnının altında, övrətinin üstündə qalın tüklərin bitməsi;

۳- Məninin gəlməsi;

Məsələ: ۲۲۶۸. Üzdə, bığ yerində, sinədə, qoltuğun altında qalın tüklərin bitməsi, səsin qalınlaşması və s. həddi-büluğa çatmağın əlaməti deyildir. Amma bunların vasitəsilə həddi-büluğa çatmaq yəqin olunsa, deməli həddi-büluğ nişanələridir.

Məsələ: ۲۲۶۹. Dəli və səfeh yəni öz malını əbəs yerlərə sərf edən şəxs öz malından vəlisinin icazəsi olmadan istifadə edə bilməz. Müflis (yəni, malları zərərə uğrayan, öz borclarını ödəyə bilməyən və cameüş-şərait müctəhid də malından istifadə etməsini qadağan olunan şəxs) öz malından istifadə edə bilməz.

Məsələ: ۲۲۷۰. Müəyyən vaxtlarda ağıllı, müəyyən vaxtlarda isə

.dəli olan bir şəxsin, dəli olduğu vaxtlarda öz malından istifadə etməsi səhih deyil

Məsələ: ۲۲۷۱. İnsan ölüm yatağında olan xəstəlik zamanı öz malından lazım olan qədər özünə, əhli-əyalına, qonaqlarına, israf sayılmayan sair işlərə xərcləyə bilər. Həmçinin, əgər öz malını bir şəxsə bağışlasa, yaxud öz qiymətindən ucuz satsa və ya icarəyə .versə, müamilə səhihdir və heç bir eybi yoxdur

VƏKALƏTİN HÖKMLƏRİ

Vəkalət odur ki, insan, dəxalət edə biləcəyi bir işin onun tərəfindən yerinə yetirilməsini başqasına tapşırsın; məsələn: bir şəxsi, onun evini satmaq, yaxud bir qadının əqdini ona oxunması üçün vəkil etsin. Deməli, öz malını boş, əbəs yerlərə istifadə edən, öz malından istifadə etmək haqqı olmayan səfeh adamı, malını satışa qoymaq üçün .vəlisinin icazəsi olmadan vəkil edə bilməz

Məsələ: ٢٢٧٢. Vəkalətdə siyğə oxunması lazım deyil. Əgər insan başqasını vəkil etdiyini, o da qəbul etdiyini başa salsa; məsələn, öz malını bir şəxsə satmaq üçün versə, o da .malı qəbul etsə vəkalət səhihdir

Məsələ: ٢٢٧٣. Əgər insan başqa şəhərdə olan bir şəxsi vəkil edib onun üçün vəkalətnamə göndərsə və o da qəbul etsə, hətta vəkalətnamə müəyyən müddətdən .sonra çatsa da, vəkalət səhihdir

Məsələ: ٢٢٧۴. Müvəkkil yəni, başqasını vəkil edən bir şəxs, həmçinin vəkil olan şəxs baliğ və aqil olmalı, məqsədli və ixtiyarlı şəkildə bu işi yerinə yetirməlidirlər. Kiçik uşağın təsərrüfünün nüfuzu olan yerlərdə; məsələn, on yaşına çatan kiçik uşağın .vəsiyyəti keçərlidir və vəkil olmağa da nüfuzludur

Məsələ: ۲۲۷۵. İnsan yerinə yetirə bilmədiyi, yaxud şərən yerinə yetirə bilməyəcəyi bir işi yerinə yetirmək üçün başqası tərəfindən vəkil ola bilməz; məsələn, həcc ehramında olan bir şəxs əqd siyğəsi oxumamalıdır və siyğə oxumaq üçün başqası tərəfindən vəkil .ola bilməz

Məsələ: ۲۲۷۶. Əgər insan bir şəxsi özünün bütün işlərini görmək üçün vəkil etsə, səhihdir. Amma, işlərindən birini görmək üçün vəkil edib, onu müəyyənləşdirmədiyi .təqdirdə, vəkalət səhih deyil

Məsələ: ۲۲۷۷. Əgər müvəkkil vəkili vəkalətdən çıxarsa, bunun xəbəri ona çatandan .sonra həmin işi görə bilməz. Amma xəbər çatmamışdan qabaq o işi görsə, səhihdir

.Məsələ: ۲۲۷۸. Vəkil, vəkalətini geri götürə bilər. Müvəkkil qaib də olsa, eybi yoxdur

Məsələ: ۲۲۷۹. Vəkil, ona tapşırılan işi yerinə yetirmək üçün başqasını vəkil edə bilməz. Lakin müvəkkil, onun vəkil tutmasına icazə vermiş olarsa, ona dediyi qaydada əməl edə bilər. Yaxud bir yolla onun vəkil tutmasını ona anlatsın. Məsələn, vəkalət onun şəninə uyğun olmasın, belə olan təqdirdə, öz tərəfindən vəkil tuta bilər. Əgər ona "mənim üçün vəkil tut" desə, gərək onun tərəfindən vəkil tutsun və bir şəxsi öz .tərəfindən vəkil edə bilməz

Məsələ: ۲۲۸۰. Əgər insan, öz müvəkkilinin icazəsi ilə onun tərəfindən bir şəxsi vəkil tutsa, o vəkili vəkalətdən çıxara bilməz. Əgər onun vəkili ölsə, yaxud müvəkkil birinci .vəkili vəkalətdən çıxarsa, ikinci vəkalət batil olmur

Məsələ: ۲۲۸۱. Əgər vəkil, müvəkkilin icazəsi ilə bir şəxsi öz tərəfindən vəkil etsə, müvəkkil və birinci vəkil onu vəkalətdən çıxarda bilərlər. Əgər birinci vəkil ölsə, yaxud .vəkalətdən çıxarılsa, ikincinin vəkaləti batil olmur

Məsələ: ۲۲۸۲. Əgər bir şəxs, bir neçə nəfəri müəyyən bir iş üçün vəkil etsə və onların hər birinin ayrılıqda o işə başlamasına icazə versə, onlardan hər biri o işi yerinə yetirə bilərlər. Əgər onlardan biri ölsə, sair vəkillərin vəkaləti batil olmur. Amma bir

işi birlikdə, yaxud təklikdə yerinə yetirməyə vəkil olmalarını deməsə, sözündən də birlikdə və ya təklikdə yerinə yetirmələri məlum olmasa, yaxud birlikdə işləyəcəklərini desə, işə təklikdə başlaya bilməzlər. Əgər işi birlikdə yerinə yetirməyə vəkil olsalar və .onlardan biri ölsə, sair vəkillərin də vəkaləti batil olur

Məsələ: ۲۲۸۳. Əgər vəkil və ya müvəkkil ölsə, dəli və ya huşsuz olsa, vəkalət batil olur. Həmçinin, üzərində vəkil olduğu şey sıradan çıxsa; məsələn: qoyunu satmaq üçün .vəkil olsa və qoyun da ölsə, vəkalət batil olur

Məsələ: ۲۲۸۴. Əgər insan bir şəxsi müəyyən iş üçün vəkil edib onun üçün bir şey .verməyi qərara alsa, o iş yerinə yetirildikdən sonra həmin şeyi ona verməlidir

Məsələ: ۲۲۸۵. Əgər vəkil, ona verilən malı saxlamaqda səhlənkarlıq etməsə və ona icazə verilən miqdardan başqa təsərrüf etməsə və təsadüfən, mal tələf olub aradan .getsə onun əvəzini verməməlidir

Məsələ: ۲۲۸۶. Əgər vəkil, ixtiyarında olan malı saxlamaqda səhlənkarlıq etsə, yaxud ona icazə veriləndən əlavə sərf etsə və o mal da aradan getsə, zamindir. Deməli, əgər .satış üçün verilən paltarı geysə və tələf olsa, əvəzini verməlidir

Məsələ: ۲۲۸۷. Əgər vəkil, ona icazə veriləndən qeyrisində maldan istifadə etsə məsələn, satmaq üçün verilən paltarı geyib və sonra ona tapşırılanı yerinə yetirsə, .belə bir istfadə səhihdir

BORCUN HÖKMLƏRİ

BORCUN HÖKMLƏRİ

Borc vermək müstəhəb işlərdən biridir. Quran ayələrində və hədislərdə ona dair çoxlu tövsiyələr olunmuşdur. Peyğəmbəri-Əkrəmdən (səlləllahu ələyhi və alihi və səlləm) rəvayət olunub: “Hər kəs öz müsəlman qardaşına borc versə onun malı artar, məlaikələr ona rəhmət göndərərlər. Əgər ona borclu olan şəxslə müdara etsə, hesab-kitabsız, sürətlə Sirat körpüsündən keçəcək. Əgər bir müsəlman öz müsəlman .qardaşından borc istəsə və o verməsə, behişt ona haram olar

Məsələ: ۲۲۸۸. Borcda siyğə oxunması lazım deyil. Hətta əgər bir şeyi borc niyyəti ilə bir şəxsə versə və o da həmin məqsədlə qəbul etsə, səhihdir. Amma onun miqdarı gərək .məlum olsun

Məsələ: ۲۲۸۹. Hər vaxt borclu öz borcunu verərsə, gərək borc verən qəbul etsin. Əgər .borcu qayarmaq üçün möhlət versə qəbul etməsi lazım deyil

Məsələ: ۲۲۹۰. Əgər borc siyğəsində onu qaytarmaq üçün vaxt təyin etsələr, borc sahibi o müddətin tamam olmasından qabaq öz borcunu tələb edə bilməz. Amma müddəti .təyin olunmasa, hər vaxt istəsə, öz borcunu tələb edə bilər

Məsələ: ۲۲۹۱. Əgər borc sahibi öz borcunu, tələb etməyə haqlı olduğu vaxt istəsə və borclu da verə bilsə, dərhal verməlidir; təxirə salsa, günahkardır.

Məsələ: ۲۲۹۲. Əgər borclu şəxsin öz şəxsiyyətinə layiq olan və içində oturduğu ev, mənzil avadanlıqları və ehtiyacı olan sair şeylərdən başqa heç nəyi olmasa, borc sahibi öz borcunu ondan tələb edə bilməz; öz borcunu verməyə qadir olduğu vaxta qədər gözləməlidir.

Məsələ: ۲۲۹۳. Borclu olan və öz borcunu verə bilməyən bir şəxs qazanc əldə edə bilərsə ehtiyat-vacib dudur ki, qazanıb borcunu qaytarsın.

Məsələ: ۲۲۹۴. Borc sahibini tapa bilməyən bir şəxs onun özünü tapacağına ümidi olmasa, onun ölməməsinə ümüdü olsa və ya ölməsinə ehtimal verirsə amma vərəsəsini tanımırsa şəri hakimin icazəsi ilə borcunu seyid olmayan fəqirə versin.

Məsələ: ۲۲۹۵. Əgər meyyitin malı, kəfən və dəfnin vacibatının xərclərindən və borclarından artıq olmasa, həmin işlərə sərf edilməlidir. Varislərinə heç nə çatmır.

Məsələ: ۲۲۹۶. Əgər bir şəxs müəyyən qədər qızıl və ya gümüş pul borc alsa və qiyməti azalsa, yaxud bir neçə qat artsa, götürdüyü qədəri qaytarması kifayətdir. Amma hər iki tərəf ondan başqasına razı olsalar, eybi yoxdur.

Məsələ: ۲۲۹۷. Əgər borc etdiyi mal aradan getməsə və malın sahibi də həmin şeyi istəsə, borclunun həmin malı ona qaytarması vacib deyil.

Məsələ: ۲۲۹۸. Borcda faiz almaq budur ki, borc verən şəxs verdiyi miqdardan artıq alacağını şərt etsin; məsələn: bir mən buğda verib bir mən yarım alacağını şərt etsə, yaxud ۱۰ ədəd yumurta verib ۱۱ ədəd alacağını şərt etsə, sələm və haramdır. Hətta əgər borc verdiyi adamın onun üçün müəyyən bir iş görməsini də şərt etsə, yaxud borc etdiyi şeyə başqa bir şey əlavə edərək qaytarmasını; məsələn: borc aldığı bir tümən pulu, bir kibritlə qaytarmasını) şərt etsə, sələm və haramdır. Həmçinin

onunla, borc aldığı şeyi məxsus halda; məsələn: müəyyən qədər emal olunmamış qızıl verib, bir şey düzəldərək qaytarmasını şərt etsə, yenə də sələm və haramdır. Lakin şərt qoyulmadığı təqdirdə borclunun özü, aldığından çox versə, eybi yoxdur; hətta .müstəhəbdir

Məsələ: ٢٢٩٩. Sələm vermək sələm almaq kimi haramdır. Sələmli borc götürən bir şəxs, onun sahibi olmur və ondan istifadə edə bilməz. Əgər pul sahibi onu alana pulundan istifadə etməyə icazə versə onun müamiləsinin batil olmasına baxmayaraq borc alan o .puldan istifadə edə bilər

Məsələ: ٢٣٠٠. Əgər buğda və sair toxumları sələm borcu kimi alıb taxıl əksə, məhsul .borc alan şəxsindir

Məsələ: ٢٣٠١. Əgər bir paltarı alıb sonradan sələm kimi aldığı, yaxud sələmə qarışmış halal puldan paltarın sahibinə versə, o paltarı geymək onda namaz qılmağın işkalı yoxdur. əgər satıcıya "bu paltarı bu pul ilə alıram" desə o paltarı geymək haramdır. .Əgər o paltarı geyməyin haram olmasını bilsə, o paltarda namaz qılmaq batildir

Məsələ: ٢٣٠٢. Əgər insan müəyyən miqdarda pulu başqa şəhərdə onun tərəfindən az .alsın deyə, tacirə versə eybi yoxdur. Buna "sərfu bərat" deyilir

Məsələ: ٢٣٠٣. Əgər bir qədər pulu bir neçə gündən sonra başqa şəhərdə artıq alsın deyə, bir şəxsə versə; məsələn: ٩٩٠ tümən verib ١٠ gündən sonra başqa bir şəhərdə ١٠٠٠ tümən almaq istəsə, sələm və haramdır. Əgər artıq alan şəxs artığın müqabilində .mal versə və ya bir iş görsə, onun da eybi yoxdur

Məsələ: ٢٣٠٤. Hər hası bir kəsdən alacağının müqabilində veksel (veksel) olsa, alacağı zamandan əvvəl ucuz bir qiymətə satmaq istəyirsə (yəni, bir miqdar azaltdıqdan sonra .qalanını nağd olaraq alarsa,) heç bir maneəsi yoxdur

HƏVALƏ VERMƏYİN HÖKMLƏRİ

HƏVALƏ VERMƏYİN HÖKMLƏRİ

Məsələ: ۲۳۰۵. Əgər bir şəxs, başqasından öz alacağını almağı özünün borclu olduğu şəxsə tapşırsa, borc verən də bunu qəbul etsə, "həvalə" baş tutur və bundan sonra ona, həvalə olunana şəxs borclu olur. Daha tələbkar, öz tələbini əvvəlcə borclu olan .şəxsdən tələb edə bilməz

Məsələ: ۲۳۰۶. Borclu, borc sahibi və borcunun həvalə olunduğu şəxs mükəlləf, aqil olmalıdır və bir şəxs onları bu işə məcbur etməməlidir. Həmçinin, səfeh də olmamalı, mallarını bihudə yerlərə sərf etməməlidirlər. Həmçinin şəriət hakimi tərəfindən öz .malından istifadə etməkdən qadağan olmamalıdırlar

Məsələ: ۲۳۰۷. Borclu olmayan şəxsə həvalə vermək o halda səhih sayılır ki, onu qəbul etsin. Həmçinin əgər insan müəyyən mal borclu olduğu bir şəxsə başqa bir şey həvalə versə (məsələn: arpa borclu olduğu adama buğda həvaləsi versə), o qəbul etməyincə, .səhih deyildir

Məsələ: ۲۳۰۸. İnsan həvalə verdiyi vaxt gərək borclu olsun. Deməli, əgər bir şəxsdən borc almaq istəsə, ondan borc almayanadək, sonradan verəcəyi borcu alması üçün o şəxsi başqa

.bir şəxsə həvalə edə bilməz

Məsələ: ۲۳۰۹. Həvalə verən və borc sahibi həvalənin miqdarını və növünü bilməlidirlər

məsələn, bir nəfərə ۱۰ mən buğda və ۱۰ tümən pul borclu olsa və ona, “iki borcundan .birini filan şəxsdən götür” deyib, onu müəyyən etməsə, həvalə düzgün deyil

Məsələ: ۲۳۱۰. Əgər borc həqiqətdə müəyyən olsa, amma borclu və borc sahibi həvalə verən vaxt onun miqdarını və ya növünü bilməsələr, həvalə səhihdir; məsələn, bir şəxsin borcunu dəftərdə yazmış olsalar, dəftəri görmədən həvalə verib sonra dəftəri .görsə və borc sahibinə borcunun miqdarını desə, həvalə səhihdir

Məsələ: ۲۳۱۱. Borc sahibi həvaləni hətta həvalə olan şəxs fəqir olmasa da və həvaləni .verməkdə səhlənkarlıq etməsə də, qəbul etməyə bilər

Məsələ: ۲۳۱۲. Əgər borclu olmayan bir şəxsə həvalə versələr və o da həvaləni qəbul etsə, həvaləni verməmişdən qabaq onun bir miqdarını həvalə verəndən ala bilməz. Amma borc sahibi öz borcunu az miqdarla razılaşsa, həvaləni qəbul edən şəxs həvalə .olunan şeyin o miqdarını həvalə verəndən tələb edə bilər

Məsələ: ۲۳۱۳. Həvalə düzələndən sonra həvalə verən və həvalə olunan şəxs, həvaləni poza bilməzlər. Həvalə olunan şəxs həvalə vaxtında fəqir olmasa, yəni borcda istisna olunan şeylərdən başqa bir malı olsa və həvaləni verə bilsə, sonradan fəqir də olsa, borc sahibi həvaləni poza bilməz. Həmçinin əgər həvalə vaxtında fəqir olsa və borc sahibi də onun fəqir olduğunu bilsə, eyni qayda ilə (poza bilməz.) Amma fəqir olmasını bilməyib sonradan başa düşsə, hətta o vaxt mal-dövləti olsa da, borc sahibi həvaləni .pozub borcunu həvalə verəndən ala bilər

Məsələ: ۲۳۱۴. Əgər borclu, borc sahibi və həvalə olunan şəxs, yaxud onlardan biri .həvaləni pozmaq haqqı qoymuş olsalar, ona uyğun olaraq həvaləni poza bilərlər

Məsələ: ۲۳۱۵. Əgər həvalə verən şəxsin özü borc sahibinin borcunu verə bilsə, bu halda ona həvalə olunan şəxsin xahişi ilə

olsa, verdiyi şeyi ondan ala bilər. Əgər onun xahişi olmadan versə, məqsədi də onun əvəzini almamaq olsa, verdiyi şeyi ondan ala bilməz. Həmçinin həvalə olunan şəxsin .öhdəsindən götürəlsə hökm eynidir

RƏHNİN (GİROV) HÖKMLƏRİ

RƏHNİN (GİROV) HÖKMLƏRİ

Məsələ: ۲۳۱۶. Rəhndən məqsəd budur ki, borcunu vaxtında qaytara bilmədiyi təqdirdə borc verənin öz alacağını götürə bilməsi üçün borclu şəxs, öz malının bir miqdarını borc .aldığı şəxsin yanına qoyur

Məsələ: ۲۳۱۷. Rəhndə siğə oxunması lazım deyil; borclu olan şəxs öz malını girov niyyəti ilə borc sahibinə versə və borc sahibi də həmin niyyətlə qəbul etsə, rəhn .səhihdir

Məsələ: ۲۳۱۸. Malı girov qoyan və girov götürən şəxs mükəlləf, aqil olmalı, bir kəs onları məcbur etməməlidir. Həmçinin səfeh olmamalıdırlar yəni öz mallarını bihudə işlərə istifadə etməməlidirlər. Həmçinin, müflisləşmə səbəbilə, mal-dövlətindən istifadə .etməsi qadağan olunmasın

Məsələ: ۲۳۱۹. İnsan şərən istifadə edə bildiyi malı girov qoya bilər. Əgər başqa bir .şəxsin malını girov qoysa, o vaxt səhih olar ki, o malın sahibi razı olduğunu desin

Məsələ: ۲۳۲۰. Girov qoyulan şey, al-veri səhih olan şeylərdən olmalıdır. Deməli, şərab .və bu kimi şeylərin girov qoyulması səhih deyildir

Məsələ: ۲۳۲۱. Rəhn olaraq qoyulan malın faydası, (onun

əmlakı olduğu təqdirə,) o malı girov olaraq qoyan şəxsə aiddir. Amma mal başqasına .aid olub və sahibinin razılığı ilə girov qoyularsa, malın qazancı sahibinindir

Məsələ: ۲۳۲۲. Tələbkar və borclu girov qoyulan malı bir-birlərinin icazəsi olmadan; məsələn, bağışlasınlar və ya satsınlar deyə, başqasının mülkiyyətinə keçirə bilməzlər. Lakin əgər onlardan biri onu bağışlayarsa və ya satarsa, digəri isə buna öz razılığını .bildirsə, eybi yoxdur

Məsələ: ۲۳۲۳. Alacağı olan şəxs, rəhn olaraq götürdüyü malı rəhn qoyanın icazəsi ilə .satarsa, pul da malın özü kimi rəhn sayılır

Məsələ: ۲۳۲۴. Əgər borcu, qaytarmalı olduğu vaxt borc sahibi borcunu istəsə və o da verməsə, borc sahibi girov qoyandan vəkalət və icazəsi olsa, borc sahibi girov qoyulan şeyi satıb borcunu götürə bilər. Əgər borc sahibi girov qoyandan vəkalət və icazəsi olmasa, gərək icazə alsın. Əgər ona əli çatmasa və ya icazə verməkdən imtina etsə şəriət hakimindən icazə alıb, borcunu götürə bilər. Artıq qalanlarını isə gərək borclu olana qaytarsın. Əgər şəriət hakiminə əli çatmasa satıb öz haqqını götürə bilər. Əgər .sahibinə əli çatmasa artıq qalanı əmanət kimi saxlamalıdır

Məsələ: ۲۳۲۵. Əgər borclu olan şəxsin öz şəninə layiq olan evi, ehtiyac duyulan mənzil avadanlıqlarından başqa bir şeyi olmazsa, borc sahibi öz borcunu ondan tələb edə bilməz. Amma girov qoyduğu şey ev və ev əşyaları olsa, borc sahibi onu satıb öz .borcunu götürə bilər

ZAMİN OLMAĞIN HÖKMLƏRİ

ZAMİN OLMAĞIN HÖKMLƏRİ

Məsələ: ۲۳۲۶. Zamin olmaq istəyən hər şəxs, başqasının borcunu ödəməsinə zamin olarsa, ərəbcə olmasa belə, zamin olmağı bildirən bir əqdin oxunması və ya zaminliyi bildirən bir davranış ilə başa düşüldüyü təqdirdə düzgün sayılar. Ehtiyatə əsasən icab və qəbul siğəsi ilə olsun. Deməli, əgər borc sahibinə "mən sənin tələb etdiyin şeyi verməyə zaminəm" desə və borc sahibi də razılığını bildirsə, kifayətdir. Amma .borclunun razılığı lazım deyil

Məsələ: ۲۳۲۷. Zamin və borc sahibi mükəlləf və aqil olmalıdır, bir kəs onları bu işə məcbur etməməlidir. Həmçinin öz malını əbəs yerlərə xərcləyən səfeh də olmamalıdır. Müflisləşmə səbəbinə görə cameüş-şərait müctəhid, müamilə etməsini qadağan etməmiş olsun. Amma bu şərtlər borclu şəxsə aid deyil; məsələn, əgər bir şəxs, uşaq .və dəlinin borcunu verməyə zamin olsa, zəmanət səhihdir

Məsələ: ۲۳۲۸. Əgər özünün zamin olması üçün bir şərt təyin etsə; məsələn: "borclu olan şəxs sənin borcunu verməsə, mən verərəm" desə, onun zamin olmağı batildir. Yəni hal-hazırda onun

öhdəsində bir şey yoxdur. Əgər borcu qaytarmaq vaxtı çatsa və borclu borcunu qaytarmasa gərək zamin zəmanəti öhdəsinə götürsün zəmanət o, vaxta nisbətən .səhihdir və bu ürfün baxışına bağlıdır

Məsələ: ٢٣٢٩. İnsan borcunu qaytarmasına zamin olduğu şəxs, borclu olmalıdır. Deməli, əgər bir şəxs başqasından borc etmək istəsə, borc etməyincə, insan ona zamin ola bilməz. Yəni hal-hazırda zaminlik baş tutmur. Amma indi çek verə bilər ki, .zaminlik borcu götürəndə olsun

Məsələ: ٢٣٣٠. Borc sahibi, borclu olan şəxs və borc alınan şey hamısı müəyyən olduğu təqdirdə, (baxmayaraq ki, tərəflər bilməsinlər məsələn dəftərə yazsalar) insan zamin ola bilər. Deməli, iki nəfərin bir nəfərə borcu olsa və insan "mən sizlərdən birinin borcunu ödəməyə zaminəm desə, hansının borcunu qaytaracağını müəyyən etmədiyi və bir yerə yazmadığı üçün onun zamin olması batildir. Həmçinin, əgər bir nəfərin iki nəfərə borcu olsa və insan "o iki nəfərdən birinin borcunu sənə verməyə mən zaminəm" desə, hansının borcunu qaytaracağını müəyyənləşdirmədiyi üçün, zamin olması batildir. Həmçinin, əgər bir nəfərin başqasına; məsələn: ١٠ mən buğda və ١٠ tümən pul borcu olsa və insan "mən sənin iki şeyindən birinə zamin oluram" deyib .buğdanın, yoxsa pulun zamini olduğunu müəyyənləşdirməsə, səhih deyildir

Məsələ: ٢٣٣١. Əgər borc sahibi öz borcunu zamin olan şəxsə bağışlasa, zamin, borcludan bir şey ala bilməz. Əgər borcun bir miqdarını bağışlasa, digər bir miqdarını .tələb edə bilər

Məsələ: ٢٣٣٢. Əgər insan bir şəxsin borcunu qaytarmağa zamin olsa, zəmanətindən .geri çəkilə bilməz

Məsələ: ٢٣٣٣. Zamin olan şəxs və borc sahibi, istədikləri vaxt və müəyyən olunan .müddətdə zaminin zəmanətini poza biləcəklərini şərt edə bilərlər

Məsələ: ٢٣٣٤. Əgər insan zamin olan vaxt borc sahibinin borcunu verə bilsə, hətta sonradan fəqir olsa da, borc sahibi onun

zamin olmasını pozub, öz borcunu birinci borcludan tələb edə bilməz. Həmçinin, əgər həmin vaxt onun borcunu verə bilməsə, borc sahibi bunu bilsə və onun zamin .olmasına razı olsa, eyni qayda ilə

Məsələ: ۲۳۳۵. Əgər insan zamin olduğu vaxt borclunun borcunu verə bilməsə, borc sahibi də o vaxt onu bilməyib sonradan başa düşsə, zəmanəti poza bilər. Amma borc sahibi bu məsələni başa düşməmişdən qabaq zaminin borcu qaytarmağa qüdrəti .çatsa, bu halda o, zəmanəti pozmaq istərsə, işkalı vardır

Məsələ: ۲۳۳۶. Əgər bir şəxs borclunun icazəsi olmadan onun borclarını verməyə zamin .olsa, ondan bir şey ala bilməz

Məsələ: ۲۳۳۷. Əgər bir borclunun icazəsi ilə onun borcunu verməyə zamin olsa zamin olduğu miqdarı ondan tələb edə bilər. Amma borclunun borclu olduğu malın yerinə borc sahibinə başqa bir cins verərsə, onu ala bilməz; məsələn, zamin, borclunun ۱۰ kq buğda borcunun müqabilində ۱۰ kq düyü verərsə, düyünü ondan tələb edə bilməz. .Amma düyünü verməyə özü razı olarsa, heç bir eybi yoxdur

KƏFALƏTİN HÖKMLƏRİ

KƏFALƏTİN HÖKMLƏRİ

Məsələ: ٢٣٣٨. Kəfalət, borc verənin borcunu istətədiyi hər bir zaman, ona verməsinə zamin olana və həmçinin əgər bir şəxsin başqasında hər hansı bir haqqı olsa, haqq sahibinin və ya iddiaçının istədiyi vaxt, qarşı tərəfi ona təslim etməyi öhdəsinə alırsa, .bu işə kəfalət deyilir. Öhdəsinə götürüb söz verən şəxsə isə, “kəfil” deyilir

Məsələ: ٢٣٣٩. Kəfil, hətta ərəbcə olmayan hər hansı bir kəlmə ilə borc verənə “hər vaxt borclu olan şəxsi istəsən, onu sənə təhvil verəcəyimə zaminəm” deyib borc verən də .qəbul etsə kəfalət səhihdir

Məsələ: ٢٣٤٠. Kəfil olan şəxs mükəlləf və aqil olmalı, bir kəs onu kəfalətə məcbur .etməməli, kəfili olduğu şəxsi də hazır edə bilməlidir

:Məsələ: ٢٣٤١. Aşağıdakı beş şey kəfaləti pozur

;Kəfil olan şəxs borclu şəxsi haqq sahibinə qaytarsa-١

;Haqq sahibinin haqqı ödənmiş olsa-٢

;Haqq sahibi öz haqqından keçsə-٣

;Borclu və ya kəfil olan şəxs ölsə-٤

;Haqqı olan şəxs, kəfili kəfalətdən azad etsə-۵

Məsələ: ۲۳۴۲. Əgər bir şəxs, borclu olan şəxsi haqq sahibinin əlindən zorla qaçırsa, əgər haqq sahibi onu tapa bilmirsə, onda ya onu borc sahibinə təhvil verməlidir, yaxud da .borc sahibinin haqqını qaytarmalıdır

səh: ۴۴۰

VƏDİƏİN (ƏMANƏTİN) HÖKMLƏRİ

VƏDİƏİN (ƏMANƏTİN) HÖKMLƏRİ

Məsələ: ۲۳۴۳. Əgər insan öz malını bir şəxsə verib “sənin yanında əmanət qalsın” desə, o da qəbul etsə; yaxud bir söz danışmadan, mal sahibi öz malını saxlamaq üçün ona verdiyini, o da saxlamaq məqsədi ilə qəbul etdiyini başa salmaq istəsələr, vədiənin (əmanətin) hökmünə əməl etməlidirlər. (Bu hökmlər sonradan deyiləcək).

Məsələ: ۲۳۴۴. Əmanət alan və malını əmanət verən şəxs hər ikisi baliğ və aqil olmalıdır. Deməli, bir şəxs malını uşaq və ya dəlinin yanında əmanət qoysa, yaxud dəli və ya uşaq öz malını bir şəxsin yanında əmanət qoysa, səhih deyil. Əgər vəlisinin icazəsi ilə qoysa səhihdir.

Məsələ: ۲۳۴۵. Əgər bir şəxs, uşaqdan və ya dəlidən bir şeyi əmanət kimi qəbul etsə, onu sahibinə verməlidir. Əgər o şey uşağın və ya dəlinin öz malı olsa, lazımdır ki, o malı onun qəyyumuna çatdırsın. Əgər malı ona çatdırmaqda səhlənkarlıq etsə və mal tələf olsa, əvəzini verməlidir.

Məsələ: ۲۳۴۶. Əmanəti qorumağı bacara bilməyən bir şəxs, gərək əmanəti qəbul etməsin. Əmanət qoyan onun vəziyyətini bilib onun yanında qoyarsa bu hal istisnadır.

Məsələ: ۲۳۴۷. Əgər insan malın sahibinə, onun malını saxlamağa hazır olmadığını başa salsa, o da malı qoyub getsə, bu şəxs də malı götürməsə və tələf olsa, əmanəti qəbul etməyən şəxs zamin deyil. Amma ehtiyat-müstəhəb budur ki, mümkün olsa onu .saxlasın

Məsələ: ۲۳۴۸. Bir şeyi əmanət qoyan şəxs hər vaxt istəsə, geri ala bilər. Əmanəti qəbul .edən şəxs də hər vaxt istəsə, onu sahibinə qaytara bilər

Məsələ: ۲۳۴۹. Əgər insan əmanəti saxlamaq fikrindən dönüb vədiəni pozsa, onu mümkün qədər tez sahibinə, vəkilinə və ya sahibinin qəyyumuna çatdırmalı, yaxud onu saxlamağa razı olmadığını onlara xəbər verməlidir. Əgər üzrü olmadan malı .onlara çatdırmasa və ya xəbər verməsə, nəticədə mal xarab olsa, əvəzini verməlidir

Məsələ: ۲۳۵۰. Əmanəti qəbul edən şəxsin onu saxlamaq üçün münasib yeri olmasa, gərək münasib yer hazırlasın və onu elə saxlasın ki, camaat "əmanətə xəyanət edibdir, onu saxlamaqda səhlənkarlıq edibdir" deməsin. Əgər münasib olmayan yerə .qoysa və tələf olsa, əvəzini verməlidir

Məsələ: ۲۳۵۱. Əmanəti qəbul edən şəxs, onu saxlamaqda səhlənkarlıq, ifrat etməsə və təsadüfən tələf olsa, zamin deyildir. Amma onu, zalımın agah olub apara biləcəyini güman etdiyi bir yerə qoysa və tələf olsa, əvəzini sahibinə verməlidir. Əgər zalımın agah olub apara biləcəyini güman etmədiyi bir yerə qoysa o yeri zalım olan şəxs tapa .bilməyəcəyinə geman etməsə də tələf olsa zamindir

Məsələ: ۲۳۵۲. Əgər malın sahibi, öz malını saxlamaq üçün yer təyin edib, əmanəti qəbul edən şəxsə "gərək malı orada saxlayasan əgər malın, tələf olmasına ehtimal versəndə onu başqa yerə apara bilməzsən" desə, əgər əmanəti saxlayan şəxs, əmanətin o yerdə tələf olacağını ehtimal verib malın qorunması üçün sahibinin nəzərində o, yerin yaxşı olduğunu bilsə o yerdən çıxarmamasını demiş olduğu halda onu başqa yerə apara bilməz. Əgər ora aparsa

və tələf olsa, zamindir. Amma başqa yerə aparmamalı olduğunu hansı səbəbə görə .deməsini bilməsə, əgər başqa yerə aparsa və tələf olsa, gərək onun əvəzini versin

Məsələ: ۲۳۵۳. Əgər malın sahibi öz malını saxlamaq üçün bir yeri müəyyən etsə, əmanəti qəbul edən şəxsə onu başqa yerə aparmasını deməsə, əgər əmanət qəbul edən şəxs qorxsa və ya o malın orada tələf olcağına ehtimal versə, o şeyi qorumaq .üçün daha yaxşı yerə apara bilər, əgər mal orada tələf olsa, zamin deyil

Məsələ: ۲۳۵۴. Əgər malın sahibi dəli olsa, əmanəti qəbul edən şəxs dərhal əmanəti onun vəlisinə çatdırmalı və ya xəbər verməlidir. Əgər şəri üzrü olmadan malı onun vəlisinə verməsə, xəbər verməkdə də səhlənkarlıq etsə və mal tələf olsa, gərək .əvəzini versin

Məsələ: ۲۳۵۵. Əgər malın sahibi ölsə, əmanəti qəbul edən şəxs malı onun varislərinə çatdırmalıdır, əgər çatdıra bilmirsə onlara xəbər verməlidir. Əgər malı varislərə verməsə, xəbər verməkdə də səhlənkarlıq etsə və mal tələf olsa, zamindir. Amma "meyyitin varisi mənəm" deyən şəxsin düz deyib-deməməsini, yaxud meyyitin başqa varisi olub-olmamasını bilmək üçün malı verməyib xəbər də göndərməsə mal tələf .olsa, zamin deyildir

Məsələ: ۲۳۵۶. Əgər malın sahibi ölsə və bir neçə vərəsəsi olsa, əmanəti qəbul edən şəxs malı onların hamısına verməlidir, yaxud onların hamısının malı almağı tapşırdıqları adama verməlidir. Əgər sair varislərin icazəsi olmadan malın hamısını vərəsələrdən .birinə versə, o birilərin payına zamindir

Məsələ: ۲۳۵۷. Əmanəti qəbul edən şəxs ölsə, yaxud dəli olsa, onun vəlisi və ya varisi, mümkün olan qədər tez malın sahibinə çatdırmalıdır. Əgər çatdıra bilməsə, xəbər .verməlidir

Məsələ: ۲۳۵۸. Əgər əmanəti qəbul edən şəxs özündə ölüm əlamətlərini görsə, mümkün olan halda onu sahibinə, yaxud onun vəkilinə çatdırmalıdır. Əgər mümkün olmasa, gərək şəriət hakiminə versin. Əgər şəriət hakiminiə əli çatmırsa özünün varisi əmanətdar və əmanətdən xəbərdardırsa, vəsiyyət etməsi lazım

deyil. Əks halda vəsiyyət etməli, şahid tutmalıdır; vəsi və şahidə malın sahibinin adını, .malın cinsini, xüsusiyyətini və yerini deməlidir

Məsələ: ۲۳۵۹. Əgər əmanəti qəbul edən şəxs özündə ölüm əlamətlərini görüb, qabaqkı məsələdə deyilən vəzifəsinə əməl etməsə, bu halda əmanət aradan getsə, ehtiyat-.vacibə görə hətta onu saxlamaqda səhlənkarlıq etməsə də əvəzini verməlidir

ARİYƏNİN HÖKMLƏRİ

ARİYƏNİN HÖKMLƏRİ

Məsələ: ۲۳۶۰. Ariyə budur ki, insan öz malını istifadə etmək üçün başqasına versin, əvəzində də heç nə almasın.

Məsələ: ۲۳۶۱. Ariyədə siyğə oxunması lazım deyil. Əgər misal üçün; öz paltarını ariyə məqsədi ilə bir şəxsə versə və o da həmin məqsədlə alsa, ariyə səhihdir.

Məsələ: ۲۳۶۲. Qəsbi malı və insanın öz malının mənfəətini başqasına verdiyi malı ariyə verməsi, məsələn, icarəyə verilən bir malı ariyəyə verilməsi o vaxt səhihdir ki, qəsbi şeyin sahibi, yaxud icarə edən şəxsin ariyəyə verilməsinə razı olsunlar.

Məsələ: ۲۳۶۳. İnsan, mənfəəti özünün olan; məsələn, icarə etdiyi bir şeyi ariyə verə bilər. Ariyə verənin inanılmış adam olmasına baxmayaraq, onu ariyə alana vermək gərək malın sahibinin icazəsi ilə olsun. Amma icarədə, təkcə özünün istifadə edəcəyini şərt etsələr, başqasına ariyəyə verə bilməz.

Məsələ: ۲۳۶۴. Dəli, uşaq, müflis olan öz malını ariyəyə verməsi səhih deyildir. Amma uşağın, vəlisi ariyə verməyi məsləhət görsə və uşaq o malı vəlisinin göstərişi ilə ariyə edənə çatdırsa, eybi yoxdur.

Məsələ: ٢٣٦٥. Əgər ariyə etdiyi şeyi saxlamaqda səhlənkarlıq, ondan istifadə etməkdə həddi aşmasa və təsadüfən tələf olsa, zamin deyil. Amma tələf olarsa, zamin olmasını .şərt etsələr, yaxud ariyə etdiyi şey qızıl və gümüş olsa, əvəzini verməlidir

Məsələ: ٢٣٦٦. Əgər qızıl və gümüşü ariyə edib tələf olduğu surətdə zamin olmayacağını da şərt etsə, zamin olmaması işkallıdır. Əgər tələf olacağı surətdə öhdəsində olanın .onun öhdəliyindən xaric olacağını şərt etsə, maniəsi yoxdur

Məsələ: ٢٣٦٧. Əgər malı ariyə verən ölsə ariyə alan şəxs aldığı şeyi onun vərəsələrinə .verməlidir

Məsələ: ٢٣٦٨. Əgər ariyə verən şəxsin şərən öz malında istifadə etmək haqqı olmasa; .məsələn, dəli olsa, ariyə edən, malı onun vəlisinə verməlidir

Məsələ: ٢٣٦٩. Bir şeyi ariyə verən bir şəxs, hər vaxt istəsə geri ala bilər. Ariyə edən şəxs .də hər vaxt istəsə, onu qaytara bilər

Məsələ: ٢٣٧٠. İstifadəsi halal olmayan şeyləri; məsələn, istifadə olunması səbəbilə haram olan qızıl və gümüş qabları ariyə vermək batildir. Əgər (qızıl-gümüşü) ariyə .vermək zinət məqsədilə olsa, haram deyil. Bu niyyətə ariyə vermək caizdir

Məsələ: ٢٣٧١. Qoyunun südündən, yunundan istifadə etmək, dişi heyvanları .mayalandırmaq üçün erkək heyvanı ariyə vermək, səhihdir

Məsələ: ٢٣٧٢. Əgər ariyə etdiyi şeyi onun sahibinə, qəyyumuna, və ya vəkilinə verəndən sonra tələf olsa, ariyəyə götürən zamin deyil. Amma malın sahibinin, yaxud vəkilinin, qəyyumunun icazəsi olmadan müəyyən bir yerə aparsa, hətta sahibinin də adəti həmin yerə aparmaq olubsa; məsələn: atı sahibinin tikdiyi tövlədə bağlayıb .sonra tələf olsa, yaxud bir şəxs onu tələf etsə, zamindir

Məsələ: ٢٣٧٣. Əgər nəcis bir şeyi, istifadəsində paklığın şərt olduğu bir iş üçün; məsələn, nəcis qabı, ondan yeməkdə istifadə olunması üçün versələr, nəcis olmasını ariyə alana deməlidir. Əgər nəcis paltarı namaz qılmaq üçün ariyə versə, ehtiyat-,vacibə görə

.nəcis olmasını ariyə alana deməlidir

Məsələ: ۲۳۷۴. Bir şəxs, ariyə etdiyi şeyi sahibinin icazəsi olmadan başqasına icarəyə, yaxud ariyəyə verə bilməz.

Məsələ: ۲۳۷۵. Əgər ariyəyə aldığı şeyi sahibinin icazəsi ilə başqasına ariyəyə versə və birinci ariyə edən şəxs ölsə, yaxud dəli olsa, ikinci ariyə batil olmur.

Məsələ: ۲۳۷۶. Əgər ariyə etdiyi malın qəsbi olduğunu bilsə, sahibinə qaytarmalıdır. Ariyə aldığı şəxsə verə bilməz.

Məsələ: ۲۳۷۷. Əgər qəsbi olmasını bildiyi malı ariyə edib müəyyən qədər istifadə etsə və onun əlində tələf olub aradan getsə, sahibi onun əvəzini, həmçinin ariyə edən şəxsin istifadə etdiyi qədərin hesabını ondan, yaxud malı qəsb edən şəxsdən tələb edə bilər. Əgər ariyə edəndən alsa, o, sahibinə verdiyi şeyi ariyə verəndən ala bilməz.

Məsələ: ۲۳۷۸. Əgər ariyəyə aldığı malın qəsbi olmasını bilməsə və onun əlində tələf olsa, bu halda malın sahibi onun əvəzini alsa, o da malın sahibinə verdiyi şeyi ariyə verən şəxsdən tələb edə bilər. Amma ariyə aldığı şey qızıl və gümüş olsa, yaxud ariyə verən, malın aradan getdiyi halda əvəzini verməsini onunla şərt etsə, malın sahibinə verdiyi şeyi ariyə verəndən tələb edə bilməz.

MÜZARİBƏNİN HÖKMLƏRİ

MÜZARİBƏNİN HÖKMLƏRİ

Müzaribə, iki və ya bir nəfər ilə bir neçə şəxsin arasında yerinə yetirilən bir sözləşmədir. Onlardan biri sərmayə qoyur, digəri isə həmin sərmayə ilə bir işi yerinə yetirir. Onun qazancını, bağlanmış müqaviləyə uyğun olaraq öz aralarında bölürlər. Qazancın ikidə bir və ya üçdə bir olması, və s. miqdarda olması, müzaribə sözləşməsi üçün fərqsizdir; Onlardan sərmayə qoyana "malik", işi icra edənə isə "Amil" deyilir. Bu müamilənin baş tutmasında icab və qəbul şərtdir, istər bu sözləşmə (ləfz) ilə olsun istərsə də hər hansı bir işlə. Məsələn: malın sahibi malı müzaribə ünvanında icraçıya .verir icraçı da qəbul edir

.Məsələ: ۲۳۷۹. Müzaribənin səhih olmasında aşağadakı şərtlər olmalıdır

Sözləşmədə hər ikisi şəri həddi-büluğa çatmış, aqil və iki tərəfin öz ixtiyarları ilə.۱ olsun. Sərmayə qoyan (malik) dəli olmasına və ya müflis halına düşdüyünə görə şəri hakim tərəfdən malından istifadə etməkdən qadağan olmasın. Amma bunu icraçıya .aid etmək işkallıdır

Onların hər birinin gəlirdən olan payları müəyyən.۲

olunmalıdır. Ələ gəlmiş qazancın yarısı və ya üçdə biri yaxud digər bir ölçüdə müəyyən .olunmalıdır

Qazanc gərək təkcə sərmayə qoyan və icraçının olsun. Əgər qazancın bir miqdarını.۳ başqa bir şəxsə (ticarətə aid olmayan bir şəxsə) verməyi şərt etsələr müzaribə .batildir

.İcraçı, başqasından kömək almaqla olsada belə ticarət edə bilsin .۴

Məsələ: ۲۳۸۰. Daha üstün nəzər budur ki, müzaribə də ticarətin sikkəli qızıl və gümüşlə olması şərt deyil. Başqa mallarla da icazəlidir. Amma başqasının öhdəsində olan malla (məsələn: başqasına verdiyi borcun müqabilində) icazəli deyil. Mənfəətlə (məsələn .mənzilindən istifadə etməklə) müzaribə etmək işkallıdır

Məsələ: ۲۳۸۱. Müzaribənin səhihliyi üçün malın icraçının əlində olması şərt deyil. Əgər .mal sahibinin (malikin) əlində olsa və icraçı ticarəti yerinə yetirsə müzaribə səhihdir

Məsələ: ۲۳۸۲. Müzaribə səhih olarsa malik və icraçı şərik olurlar. Əgər müzaribənin səhih olması üçün bəzi şərtlər olmazsa malın gəlirinin hamısı malikindir. Malik gərək icraçının zəhmət haqqını layiqincə versin. Əgər zəhmət haqqı müqavilədə qeyd olunan miqdardan çox olarsa ehtiyat-vacib budur ki, icraçı və malik çox miqdarda .razılaşsınlar

Məsələ: ۲۳۸۳. Müzaribədə zərər və xəsarət malikin öhdəsinədir. Əgər zərərin şərik olmasını şərt etsələr şərt batildir. Amma müamilədə malik üçün qarşıya çıxan xəsarət və zərəri icraçı aradan qaldırmaq üçün öz malında malikə verməyi şərt etsələr şərt .səhihdir

Məsələ: ۲۳۸۴. Müzaribə icazəli əqdlərdəndir. Malik və icraçı hər bir halda müzaribəni poza bilərlər. İstər işə başmazdan qabaq olsun istərsədə sonra, istər mənfəət ələ .gəlsin istərsədə gəlməsin

Məsələ: ۲۳۸۵. İcraçı mal sahibindən aldığı sərmayəni onun icazəsi olmadan müzaribənin batil olmamasına baxmayaraq, öz malı və ya digərinin malına qarışdıra .bilməz. Əgər malı qarışdırsa və mal aradan gedərsə zamindir

Məsələ: ۲۳۸۶. Malikin al-verdə təyin etdiyi xüsusiyyətlərə (məsələn, icraçı müəyyən malı alıb və müəyyən qiymətə satsın) icraçı gərək əməl etsin. Əks təqdirdə müamilə .füzulidir. Onun səhih olması malikin icazəsinə bağlıdır

Məsələ: ۲۳۸۷. Əgər malik müamilədə icraçının hər hansı bir şeyin müamiləsini etməsini .şərt etməsə icraçı məsləhət bildiyi kimi, müamilə edə bilər

Məsələ: ۲۳۸۸. Əgər icraçı mal sahibinin izni ilə səfər etsə, yol və digər xərclərin icraçının öhdəsində olmasını şərt etməsələr yol xərcləri və ticarət üçün olunan xərclər sərmayədən götürülür. Əgər icraçı bir neçə nəfər üçün işləyərsə xərclər işlərə əsasən .bölünür

Məsələ: ۲۳۸۹. İcraçının ticarətin ilk xərcləri və səfər üçün sərmayədən götürdüyü xərclər, gəlir əldə olunarsa gəlirdən götürülüb sərmayənin üstünə qoyulur. Qalan .qazancı isə müqviləyə əsasən aralarında bölürlər

Məsələ: ۲۳۹۰. Müzaribədə malikin bir nəfər olması və icraçının da bir nəfər olması şərt deyil. Malik bir neçə nəfər, icraçı isə bir nəfər və əksinə malik bir nəfər icraçı isə bir neçə nəfər ola bilər. Müqavilədə təyin olunan miqdar istər bərabər şəkildə olsun .istərsə də fərqli icraçıların arasında bölünür

Məsələ: ۲۳۹۱. Əgər iki nəfər sərmayədə şərik olsalar və icraçı da bir nəfər olsa gəlirin yarısı icraçının digər yarsı isə iki sərmayə qoyanların arasında fərqli şəkildə bölünməsini (məsələn birinin digərindən artıq götürməsini) şərt etsələr, sərmayənin miqdarı eyni olsa və ya gəlirin eyni səviyyədə ikisinin arasında bölünməsini şərt etsələr birin sərmayəsinin digərindən çox olmasına baxmayaraq müzaribə batildir. Bir halda müzaribə səhih ola bilər ki, onlardan biri çox götürdüyü miqdarı ticarətdə hər hansısa .bir işinin müqabilində götürsün

.Məsələ: ۲۳۹۲. Əgər malik və ya icraçı ölsə müzaribə batil olur

Məsələ: ۲۳۹۳. İcraçı mal sahibinin icazəsi olmadan ondan aldığı mal ilə müzaribə müqaviləsi bağlaya və ya o sərmayə ilə iş görməyi digərinə yaxud digərini o, sərmayə ilə ticarət etməyə əcir

tuta bilməz. Əgər icazə olmadan təsrrüf olarsa malın sahibi də icazə verməzsə mal tələf olduğu təqdirdə icraçı zamindir. Amma işin ibtidai işləri üçün əcir tutmaq və ya işi .görmək üçün vəkil tutmağın heç bir eybi yoxdur

Məsələ: ۲۳۹۴. Mal sahibi və icraçı hər biri şəriətdə icazəli olan hər hansı bir işi şərt edə bilərlər. Məsələn birinin digərinə hər hansı bir şeyi ödəməsini və ya iş görməsini şərt edə bilərlər. İcraçının ticarət və işi başlamamasına və ya işi yerinə yetirib amma gəlirin .ələ gəlməməsinə baxmayaraq bu şərtə əməl etmək vacibdir

Məsələ: ۲۳۹۵. Hər zaman ticarətin gəliri əldə olunarsa bölgünün aparılmamasına baxmayaraq, icarəçi onun üçün təyin olunan miqdarın sahibi olur. Amma hər növ zərər və xəsarət aradan qaldırılmalıdır. Əgər müamilənin gəliri əldə olunandan sonra mal sahibi onu bölmək istəməsə icraçı onu bölməyi qəbul etməyə məcbur edə bilməz. Əgər icraçı bölməyə razı olmasa mal sahibi onu bölməyi qəbul etməyə məcbur edə .bilər

Məsələ: ۲۳۹۶. Əgər gəliri böldükdən sonra sərmayəyə zərər dəyərsə, zərərdən sonra gəlir əldə olunsa və gəlir zərərdəndən az olmazsa o, zərər o gəlirlə aradan qaldırılmalıdır. Əgər gəlir zərərdən az olarsa icraçı gərək zərəri bölünən gəlirlə aradan qaldırsın. Deməli zərər gəlirdən az olarsa xəsarətdən artıq qalan onun üçün qalır. Əgər .xəsarət gəlirdən çox olarsa gəlirdən çox olan miqdar amilin öhdəsində deyil

Məsələ: ۲۳۹۷. Müzaribə əqdi mövcud olana qədər sərmayəyə dəyən zərər əldə olunan gəlirlə (istər gəlir zərərdən qabaq əldə olunsun yaxud ondan sonra) aradan qaldırılır. Əgər zərər işə başlamazdan qabaq olarsa sərmayənin bir miqdarı aradan gedərsə o, zərər gəlirlə aradan qaldırılır. Əgər bir şəxsin vasitəsi olmadan sərmayənin hamısı aradan gedərsə müzaribə batil olur. Əgər bir şəxs sərmayəni tələf edərsə əvəzini .verdiyi halda müzaribə batil olmur

Məsələ: ۲۳۹۸. Sərmayə zərərə uğradığı təqdirdə gəlirdən

ödənilməməsini icraçı mal sahibi ilə şərt edərsə şərt düzgündür və icraçının payından .azaldılmır

Məsələ: ۲۳۹۹. Mal sahibi və icraçı (qeyd olunduğu kimi) istədiyləri zaman hətta işdən sonra və gəlir əldə olunmazdan qabaq müzaribəni poza bilərlər. Amma əgər icraçı mal sahibinin izni ilə səfər edərsə və sərmayənin bir miqdarını səfər üçün xərcləyərsə və .müzaribəni pozmaq istəsə ehtiyat-vacib budur ki, mal sahibini razı etməlidir

Məsələ: ۲۴۰۰. Əgər gəlir əldə olunandan sonra müzaribə pozularsa gərək o, gəlir mal sahibi və icraçı arasında müqavilə əsasında bölünsün. Əgər onlardan biri qəbul etməsə .digəri onu bölməyə məcbur edə bilər

Məsələ: ۲۴۰۱. Əgər müamilə fəsx olunarsa (pozularsa) və ya müzaribədə olan mal və .ya onun bir miqdarı borc olarsa gərək icraçı onu borcludan alıb mal sahibinə qaytarsın

Məsələ: ۲۴۰۲. Əgər müzaribənin sərmayəsi icraçının yanında olan halda icraçı dünyasını dəyişərsə, onun miqdarı məlum olsa mal sahibinə qaytarılmalıdır. Əgər miqdarı məlum olmazsa gərək püşk atılsın və ya mal sahibi icraçının vərəsəsi ilə .razılaşsın

NİGAHIN HÖKMLƏRİ

Point

Nigah əqdi vasitəsilə qadın, kişiyə halal olur. O iki qismdir: daimi və qeyri-daimi. Daimi əqd budur ki, onda evlənmənin müddəti müəyyən olunmasın. Bu cür əqd olunan qadına daimə deyilir. Qeyri-daimi əqd budur ki, onda evlənmənin müddəti müəyyən olunsun; məsələn, qadını bir saatlığa, bir aylığa, bir illiyə, yaxud daha artıq əqd etmək. .Bu qayda ilə əqd oxunan qadına müt`ə və siyğə deyilir

ƏQDİN HÖKMLƏRİ

Point

Məsələ: ٢۴٠٣. İstər daimi, istərsə də qeyri-daimi nigahda siyğə oxunmalıdır. Qadın və kişinin təkcə razılıqları kifayət deyil. Əqd siyğəsini ya qadınla kişinin özü oxumalı, ya da .əqdi oxumaq üçün başqasını öz tərəflərindən vəkil etməlidirlər

Məsələ: ٢۴٠۴. Vəkilin kişi olması lazım deyil; qadın da əqd siyğəsini oxumaq üçün .başqasının tərəfindən vəkil ola bilər

Məsələ: ٢۴٠۵. Qadın və kişi onların vəkillərinin siyğəni oxumasını yəqin etməyincə, bir-birinə məhrəm baxışı ilə baxa bilməzlər. Vəkilin siyğəni oxumasını güman etmələri .kifayət deyil. Amma vəkil “siyğəni oxumuşam” desə, kifayətdir

Məsələ: ٢۴٠۶. Əgər bir qadın müəyyən bir şəxsi, onu ١٠ gün

müddətində bir nəfərin əqdinə keçirməsini vəkil edib ١٠ günün əvvəlini təyin etməsə, bu halda qadının sözündən vəkilə tam ixtiyar verməsi məlum olarsa, vəkil hər vaxt istəsə, onu kişinin ١٠ günlük əqdinə keçirə bilər. Əgər qadının müəyyən günü, yaxud saatı nəzərdə tutması məlum olsa, siyğəni onun məqsədinə uyğun oxumalıdır.

Məsələ: ٢۴٠٧. Bir nəfər daimi, yaxud qeyri-daimi nigah əqdini oxumaq üçün iki nəfərin tərəfindən vəkil ola bilər. Həmçinin, insan qadının tərəfindən vəkil olub, onu öz daimi və ya qeyri-daimi nigah əqdinə keçirə bilər. Amma ehtiyat-müstəhəb budur ki, əqdi iki nəfər oxusun.

DAİMİ ƏQDİN OXUNMA QAYDASI

Məsələ: ٢۴٠٨. Əgər daimi əqd siyğəsini qadın və kişinin özü oxusa, bu halda qadın əvvəldə

زَوَّجْتُکَ نَفْسِی عَلَی الصَّدَاقِ الْمَعْلُومِ

(yəni, özümü müəyyən olunmuş mehr müqabilində sənə arvad etdim), ondan sonra kişi zaman fasiləsi olmadan

قَبِلْتُ التَّزْوِیجَ

(yəni, bu izdivacı qəbul etdim) desə, əqd səhihdir.

Əgər başqasını onların tərəfindən daimi əqd siyğəsini oxumaq üçün vəkil etsələr, bu halda kişinin adı Əhməd, qadının adı Fatimə olsa, qadının vəkili

زَوَّجْتُ مُوَکِّلَتِی فَاطِمَهَ مُوَکِّلَکَ أَحْمَدَ عَلَی الصَّدَاقِ الْمَعْلُومِ

Sonra isə kişinin vəkili fasilə olmadan

قَبِلْتُ لِمُوَکِّلِی أَحْمَدَ عَلَی الصَّدَاقِ

desə, səhihdir. Ehtiyat-müstəhəb budur ki, kişinin dediyi ləfz ilə qadının dediyi ləfzin uyğun olsun. Məsələn, əgər qadın

.zəvvəctu" desə, kişi "qəbiltut-təzvicə" desin"

QEYRİ–DAİMİ ƏQDİN OXUNMA QAYDASI

Məsələ: ۲۴۰۹. Əgər qadın və kişinin özü qeyri-daimi siyğə əqdini oxumaq istəsələr, müddəti və mehriyyəsi müəyyən olunduqdan sonra qadın desin

زَوَّجْتُکَ نَفْسِی فِی الْمُدَّهِ الْمَعْلُومَهِ عَلَی الْمَهْرِ الْمَعْلُومِ

sonra isə kişi, zaman fasiləsi olmadan

قَبِلْت ذالک

desə, səhihdir. Əgər başqasını vəkil etsələr, əvvəlcə qadının vəkili kişinin vəkilinə desə

مَتَّعتُ لِمُوَكِّلَتِی مُوَكِّلَکَ فِی المُدَّهِ المَعلُومَهِ عَلَی المَهرِ المَعلُومِ

sonra zaman fasiləsi olmadan kişinin vəkili

قَبِلْتُ لِمُوَكِّلِی هَکَذَا

.desə, səhihdir

ƏQDİN ŞƏRTLƏRİ

:Məsələ: ۲۴۱۰. İzdivac əqdinin bir neçə şərti vardır

Ərəbcə səhih oxunsun. Əgər qadın və kişinin özü siyğəni ərəbcə səhih oxuya-۱ bilməsələr, mümkün olan halda ehtiyat-vacib budur ki, ərəbcə səhih oxuya bilən şəxsi vəkil etsinlər. Əgər bu da mümkün olmasa özləri (ərəbcə olmayan) başqa dildə deyə .bilərlər. Amma elə deməlidirlər ki, "zəvvəctu" və "qəbiltu" sözlərinin mənasını çatdırsın

Kişi və qadın, yaxud əqd siyğəsini onların tərəfindən oxuyan vəkilin inşa qəsdi olsun.-۲ Yəni, əgər kişi və qadının özü siyğəni oxuyurlarsa, qadının zəvvəctukə nəfsi deməklə məqsədi, özünü o

kişinin arvadı etmək olsun. Kişi də qəbiltut-təzvicə deməklə onun arvad olmasını qəbul etsin. Əgər kişi və qadının vəkili siyğəni oxuyarsa, zəvvəctu və qəbiltu kəlmələrini deməklə məqsədləri bu olmalıdır ki, tərəfindən vəkil olunduğu qadın və kişini bir-birinə .ər-arvad etsinlər

Əqd siyğəsini oxuyan şəxs, aqil olmalıdır; istər özü üçün oxusun, istərsə də başqası-۳ üçün vəkil olsun. Ehtiyat-qeyri-lazım budur ki, baliğ də olsun. Deməli, uşağ vəkil olsa, özünün vəlisinin icazəsi ilə siğə oxumağa qadir olduğu təqdirdə, başqası üçün əqd .etməsinin eybi yoxdur. Hətta özü üçün də əqd edə bilər

Qadın və ya kişinin vəkili, yaxud qəyyumları əqd siyğəsini oxuyanda ər arvadı-۴ müəyyən etməlidir; məsələn: adlarını deməli, yaxud onlara işarə etməlidirlər. Deməli, bir neçə qızı olan bir şəxs bir kişiyə zəvvəctukə ihda bənati (yəni, qızlarımdan birini sənin arvadın etdim) və o da qəbiltu (yəni, qəbul etdim) desə, əqd oxunan vaxtda .qızlardan hansını deməsi məlum olmadığından, əqd batildir

Qadın və kişi evlənməyə razı olsunlar. Amma qadın zahirdə ikrah üzündən icazə-۵ .versə, amma qəlbən razı olduğu məlum olarsa, əqd səhihdir

.Məsələ: ۲۴۱۱. Əgər əqddə bir hərfi səhv oxusalar və onun mənası dəyişsə, əqd batildir

Məsələ: ۲۴۱۲. Ərəb dilinin qrammatikasını bilməyən bir şəxsin qiraəti səhih olsa və əqd kəlmələrindən hər birinin mənasını ayrı-ayrılıqda bilsə, hər kəlməni deyəndə mənasını .da qəsd etsə, əqd oxuya bilər

Məsələ: ۲۴۱۳. Əgər bir qadını bir kişinin əqdinə, onların icazəsi olmadan keçirsələr və .sonradan qadın və kişi “bu əqdə razıyıq” desələr, səhihdir

Məsələ: ۲۴۱۴. Əgər qadın və kişini, yaxud ikisinin birini evlənməyə məcbur etsələr və əqd oxunandan sonra razılaşıb o əqdə “razıyıq”desələr, əqd səhihdir. Əqdi yenidən .oxumaq lazım deyil. Amma ehtiyat-müstəhəb budur ki, əqdi yenidən oxusunlar

Məsələ: ۲۴۱۵. Ata və ata tərəfindən olan baba həddi-büluğa çatmayan və ya dəlilik halında həddi-büluğa çatan dəli qız və oğlunu evləndirə bilərlər. Uşaq, həddi-büluğa çatandan, dəli ağıllanandan sonra onun üçün edilən izdivacın məfsədəsi (zərəri, fəsadı) olmasa, onu poza bilməzlər. Amma məfsədəsi olsa, onu poza bilərlər.

Məsələ: ۲۴۱۶. Həddi-büluğa çatan rəşidə (yəni, öz mənafeini dərk edən) bir qız ərə getmək istəsə, bu halda bakirədirsə, ehtiyat-vacibə görə gərək atasından, yaxud (ata tərəfindən olan) babasından icazə alsın. Anasının və qardaşının icazəsi lazım deyil.

Məsələ: ۲۴۱۷. Əgər ata, yaxud (ata tərəfindən olan) baba qaib (başqa yerdə) olsa və onlardan icazə almaq mümkün olmasa, qız da ərə getməyə ehtiyac duysa, bu halda atadan, yaxud ata tərəfindən olan babadan icazə alması lazım deyil. Həmçinin, qız bakirə olmasa, ata və babasının icazəsi lazım deyil.

Məsələ: ۲۴۱۸. Əgər ata və ya ata tərəfindən olan baba öz həddi-büluğa çatmamış oğlu üçün qız alsa, gərək oğlan həddi-büluğa çatdıqdan sonra o qadının xərcini versin. Hətta həddi-büluğa çatmamışdan əvvəl bir surətdə ki, ləzzət almaq yaşına çatmışsa və qız da əri ondan ləzzət almaq imkanı olmayacaq qədər kiçik deyilsə, o qadını nəfəqəsi (yaşayış xərci) oğlanın öhdəsindədir.

Məsələ: ۲۴۱۹. Əgər ata, yaxud (ata tərəfindən olan) baba, öz həddi-büluğa çatmamış oğlu (nəvəsi) üçün arvad alsa və oğlanın əqdi oxunan vaxtda mal-dövləti olsa, qadının mehriyyəsini ona borclu olur. Əqd vaxtında heç nəyi olmasa, onda atası, yaxud (ata tərəfindən olan) babası qadının mehriyyəsini verməlidir.

ƏQDİ POZMAĞA SƏBƏB OLAN EYBLƏR

Məsələ: ۲۴۲۰. Əgər kişi əqd oxunandan sonra qadında aşağıdakı yeddi eybdən biri olduğunu bilsə, əqdi poza bilər bu şərtlə ki, həmin eybin əqddən qabaq mövcud olduğu məlum olsun:

۱-Dəlilik;

;Xora xəstəliyi-۲

;Bərəs (alaca) xəstəliyi-۳

;Korluq-۴

.Çolaq olmaq; yerdə qalacaq şəkildə olmasa belə-۵

Kişi ilə evlənməzdən qabaq bövl və heyzin yolu bir olsa; (amma heyzlə qait yolu bir-۶
.olduğu halda əqdi pozmağ, işkallıdır

Qadının fərcində (cinsiyyət üzvündə) yaxınlıq etməyə mane olan artıq ət, sümük-۷
.olarsa

Məsələ: ۲۴۲۱. Əgər qadın əqd oxunandan sonra ərinin, dəli oluduğunu və ya cinsi alətinin olmadığını yaxud qadınla cinsi əlaqədə olmağa qadir ola bilmədiyini və ya .kişinin yumurtalarının çıxarıldığını bilsə əqdi poza bilər

Məsələ: ۲۴۲۲. Əgər qadın və ya kişi, əvvəlki iki məsələdə deyilən eyblər səbəbilə əqdi .pozsalar, təlaq verilmədən ayrılmalıdırlar

Məsələ: ۲۴۲۳. Əgər kişinin cinsi əlaqə qüdrətində olmaması səbəbi ilə qadın əqdi pozsa, ər mehriyyənin yarısını verməlidir. Amma deyilən sair eyblər səbəbilə qadın və ya kişi əqdi pozsa, bu halda kişi qadınla yaxınlıq etməmiş olsa, heç nə verməməlidir. Əgər .yaxınlıq etmiş olsa, mehriyyənin hamısını verməlidir

EVLƏNMƏSİ HARAM OLAN QADINLAR

Məsələ: ۲۴۲۴. İnsana məhrəm olan qadınlarla (ana, bacı, qaynana və s.) evlənmək .haramdır

Məsələ: ۲۴۲۵. Əgər bir kəs bir qadını öz əqdinə keçirsə, hətta onunla yaxınlıq etməsə də, o qadının anası, nənəsi, atasının anası və nə qədər yuxarı getsə (yəni, nənəsinin .anası, nənəsinin nənəsi və s.) o kişi ilə məhrəm olurlar

Məsələ: ۲۴۲۶. Əgər bir qadını öz əqdinə keçirib yaxınlıq etsə, o qadının (əvvəlki ərindən olan) qızı, qız nəvəsi, oğlan nəvəsi, nə qədər aşağı getsə istər əqd vaxtında olsunlar,

.istərsə də əqddən sonra dünyaya gəlsinlər o kişiyə məhrəmdir

Məsələ: ۲۴۲۷. Əgər öz əqdinə keçirdiyi qadın ilə yaxınlıq etməsə də, o qadın onun əqdində olduğu müddət boyunca o qadının (əvvəlki ərindən olan) qızı ilə evlənə bilməz.

Məsələ: ۲۴۲۸. İnsanın atasının, babasının, anasının, nənəsinin xala, bibiləri və nə qədər yuxarı getsə də, ona məhrəmdirlər.

Məsələ: ۲۴۲۹. Ərin atası, babası və nə qədər yuxarı getsə də; onun oğlu, oğul nəvəsi, qız nəvəsi nə qədər aşağı getsə də, istər əqd vaxtında, istərsə də sonradan dünyaya gəlmiş olsunlar, onun arvadına məhrəmdirlər.

Məsələ: ۲۴۳۰. Əgər bir qadını öz əqdinə keçirsə, istər daimi olsun, istərsə də siyğə, o qadın onun əqdində olduğu müddət boyunca, onun bacısı ilə evlənə bilməz. Siğə iddəsində də eyni hökmü daşıyır.

Məsələ: ۲۴۳۱. Əgər kişi, öz arvadına (təlaq kitablarında deyilən ardıcıllıqla) rici təlaq versə, iddə əsnasında onun bacısını öz əqdinə keçirə bilməz; hətta bain təlaq iddəsində də (sonradan deyiləcək.) Ehtiyat-müstəhəb budur ki, arvadının bacısı ilə evlənməsin.

Məsələ: ۲۴۳۲. Bir şəxs öz arvadının icazəsi olmadan, onun bacısının və ya qardaşının qızı ilə evlənə bilməz. Amma arvadının icazəsi olmadan onları öz əqdinə keçirsə və sonradan arvadı o əqdə razı olduğunu bildirsə, eybi yoxdur.

Məsələ: ۲۴۳۳. Əgər qadın ərinin onun qardaşının və ya bacısının qızını öz əqdinə keçirdiyini bilsə və sükut edib sonradan razılıq verməsə, onların əqdi batildir.

Məsələ: ۲۴۳۴. Əgər insan öz bibisinin, yaxud xalasının qızı ilə evlənməmişdən qabaq onların anası ilə zina etsə, daha onlarla evlənə bilməz.

Məsələ: ۲۴۳۵. Əgər bir şəxs öz bibisinin, yaxud xalasının qızı ilə evlənib yaxınlıq etməzdən qabaq onların anası ilə zina etsə, ehtiyat-vacib budur ki, onlardan ayrılsın.

Məsələ: ۲۴۳۶. Öz bibi və xalasından başqa bir qadınla zina edən biri, ehtiyat-vacibə əsasən onun qızı ilə evlənə bilməz. Lakin

bir qadını əqd edib onunla yaxınlıq etdikdən sonra, onun anası ilə zina edərsə, qadını ona haram olmaz. Həmçinin, əqd edib onunla yaxınlıq etdikdən qabaq, onun anası ilə .zina edərsə, ehtiyat-vacib budur ki, bu vəziyyyətdə o qadından ayrılsın

Məsələ: ۲۴۳۷. Müsəlman bir qadının kafir bir kişi ilə evlənməsi caiz deyildir. Müsəlman .kişinin isə yəhudi, məsihi qadın ilə müvəqqəti evliliyi caizdir

Məsələ: ۲۴۳۸. Bir şəxs rici təlaq iddəsi saxlayan qadınla zina edərsə, o qadın, əbədi olaraq ona haram olur. Amma müvəqqəti nigah (mütə), bain və ya vəfat iddəsi saxlayan bir qadınla zina edərsə, sonradan onun əqdini özünə oxuya bilər. Ehtiyat-müstəhəb budur ki, onunla da evlənməsin. Rici təlaq, bain təlaq, mütə və vəfat .iddələrinin mənaları, təlaq hökmlərinə aid olan məsələlərdə qeyd olunacaqdır

Məsələ: ۲۴۳۹. İddə saxlamaqda olmayan ərsiz bir qadınla zina edən kimsə, sonradan o qadının əqdini özü üçün oxuya bilər. Amma ehtiyat-müstəhəb budur ki, o qadın bir heyz görənədək gözləsin və sonra onun əqdini oxusun. Başqa birisi də o qadınla .evlənmək istəsə, eyni qayda ilə

Məsələ: ۲۴۴۰. Əgər bir şəxs, başqasının iddəsində olan bir qadını öz əqdinə keçirsə, bu halda kişi və arvadın hər ikisi, yaxud onlardan biri qadının iddəsinin tamam olmadığını, həmçinin, iddədə olan qadını əqdə keçirtməyin haram olduğunu bilsə, hətta kişi .əqddən sonra onunla yaxınlıq etməsə də, o qadın o kişiyə haram olur

Məsələ: ۲۴۴۱. Əgər bir qadını öz əqdinə keçirsə və sonra iddədə olması məlum olsa, bu halda heç biri qadının iddədə olmasını, yaxud qadını iddədə əqdə keçirməyin haram .olduğunu bilməsələr, kişinin onunla yaxınlıq etdiyi təqdirdə arvad ona haram olur

Məsələ: ۲۴۴۲. Əgər biri bilsə ki, qadının əri vardır və onunla evlənsə, gərək ondan .ayrılsın və sonradan onu öz əqdinə keçirə bilməz

Məsələ: ۲۴۴۳. Evli qadın əgər zina edərsə, öz ərinə haram olmur. Eləcədə əgər tövbə etməsə və öz əməlini davam etsə, yaxşı olar ki, öz əridə onun təlaqını versin. Amma .gərək mehriyyəsini ödəsin

Məsələ: ۲۴۴۴. Təlaqı verilən, həmçinin siyğə olandan sonra ərinin müddətini ona bağışlayan, yaxud müddəti tamam olan bir qadın, bir müddətdən sonra ərə gedib sonra ikinci ərinin əqdinin vaxtında, birinci ərinin iddəsinin tamam olub-olmamasında .şəkk etsə, öz şəkkinə etina etməməlidir

Məsələ: ۲۴۴۵. Cinsi yaxınlığa məruz qalan şəxsin anası, bacısı və qızı ləvat edənə hətta hər ikisi həddi-buluğa çatmasalarda haramdır. Lakin tənasül üzvünün daxil olduğu .güman edilsə və ya olub- olmamasında şəkk etsə, ona haram olmazlar

Məsələ: ۲۴۴۶. Əgər bir şəxs, başqasının anası, bacısı, yaxud qızı ilə evlənib izdivac və .düxuldan sonra o kəslə ləvat etsə, arvadı ona haram olmur

Məsələ: ۲۴۴۷. Əgər bir şəxs həccin əməllərindən biri olan ehram halında bir qadın ilə evlənsə, onun əqdi batildir. Əgər o halda qadınla evlənməyin haram olduğunu bilirdisə, .daha həmin qadınla evlənə bilməz

Məsələ: ۲۴۴۸. Əgər ehram halında olan bir qadın, ehram halında olmayan bir kişi ilə evlənsə, onun əqdi batildir. Əgər qadın ehram halında izdivacın haram olduğunu bilsə, .ehtiyat-vacib budur ki, sonradan o kişi ilə evlənməsin

Məsələ: ۲۴۴۹. Əgər kişi, həccin ərkanlarından biri olan nisa təvafını yerinə yetirməsə, arvadı ona haram olur. Həmçinin, qadın da nisa təvafını yerinə yetirməsə, əri ona .haram olur. Amma sonradan nisa təvafını yerinə yetirsələr, bir-birinə halal olurlar

Məsələ: ۲۴۵۰. Əgər bir şəxs həddi-büluğa çatmamış qızı öz əqdinə keçirdib ۹ yaşı tamam olmamışdan qabaq onunla yaxınlıq edib, ifza olsa, ehtiyat-vacib budur ki, ömrünün axrına qədər onunla yaxınlıq etməsin. Əgər yaxınliq (düxul) etsə, ifza .etməsə, müstəhəbdir ki, onunla yaxınlıq (düxul) etməkdən qorunsun

Məsələ: ۲۴۵۱. Üç dəfə təlaq verilən qadın ərinə haram olur. Amma təlaq kitabında deyilən şərtlərlə başqa kişi ilə evlənsə, ikinci əri onu boşayandan sonra birinci əri onu .yenidən öz əqdinə keçirə bilər

DAİMİ ƏQDİN HÖKMLƏRİ

Məsələ: ۲۴۵۲. Daimi əqddə olan qadın, ərinin icazəsi olmadan evdən çölə çıxa bilməz. O, özünü ərinin istədiyi hər bir ləzzət üçün təslim etməli, şəri üzrü olmadan yaxınlıq etməsinə mane olmamalıdır. Əgər bu işlərdə ərinə itaət etsə, yemək, geyim, mənzil tədarük görməsi ərinə vacibdir. Əgər əri tədarük görməsə, istər bacarsın, istərsə də .bacarmasın, qadına borcludur

Məsələ: ۲۴۵۳. Əgər qadın, qabaqkı məsələdə deyildiyi işlərdə ərinə itaət etməsə, günahkardır. Yemək, geyim, mənzil və bir yerdə yatmaq haqqı yoxdur. Lakin mehriyyə .haqqı götürülmür

.Məsələ: ۲۴۵۴. Kişinin öz arvadını evdə xidmətçilik etməyə məcbur etmək haqqı yoxdur

Məsələ: ۲۴۵۵. Əgər qadının səfər xərcləri vətən (evdəki) xərclərindən çox olsa, ərinin .öhdəsinə deyil. Amma əri, onu səfərə aparmaq istəsə, səfər xərclərini verməlidir

Məsələ: ۲۴۵۶. Ərinə itaət edən qadın xərclərini tələb etsə, amma əri verməsə, əgər ərini nəfəqə verməyə məcbur etmək mümkün olsa, şəriət hakiminin icazəsi ilə ərindən icazəsiz ərinin malından götürə bilər. Mümkün olmadığı təqdirdə və öz məişətini təmin etməyə məcbur olsa, məişət şeylərini hazırlamağa məşğul ikən, ərinə itaət etməsi (əgər məişət şeylərini hazırlamağa məşğul ikən, ərinə itaət etməsi mümkün olmazsa) .vacib deyil

Məsələ: ۲۴۵۷. Ehtiyat-vacib budur ki, kişi hər dörd gecədən bir gecə, daimi arvadının .yanında qalsın

Məsələ: ۲۴۵۸. Evli kişi daimi nigahında olan xanım ilə dörd aydan artıq cinsi yaxınlığı tərk .edə bilməz

,Məsələ: ۲۴۵۹. Əgər daimi əqddə mehriyəni təyin etməsələr

əqd səhihdir. Belə ki, kişi qadın ilə yaxınlıq etsə, gərək onun mehriyəsini onun kimi olan .qadınların mehriyəsi kimi versin

Məsələ: ۲۴۶۰. Əgər daimi əqd oxuyan vaxt mehriyəni vermək üçün müddət təyin etməsələr, istər ərinin mehriyəni verməyə qüdrəti olsun, istərsə də olmasın, qadın mehriyəni almamışdan ərinin yaxınlıq etməsinin qarşısını ala bilər. Amma əgər mehriyəni almamışdan qabaq yaxınlıq etməyə razı olsa və əri onunla yaxınlıq etsə, .ondan sonra şəri üzrü olmadan ərinin yaxınlıq etməsinin qarşısını ala bilməz

MÜTƏ YAXUD SİĞƏ

.Məsələ: ۲۴۶۱. Qadını siyğə etmək, hətta ləzzət almaq üçün olmasa da, səhihdir

Məsələ: ۲۴۶۲. Ehtiyat-vacib budur ki, ər siyğə etdiyi arvadını dörd aydan artıq tərk .etməsin. Əgər onun razılığı ilə olarsa eybi yoxdur

Məsələ: ۲۴۶۳. Siyğə olunan qadın, əqddə ərinin onunla yaxınlıq etməməsini şərt etsə, əqd və şərt səhihdir. Əri ondan sair ləzzətlər ala bilər. Amma sonradan yaxınlıq .etməyə razı olsa, əri onunla yaxınlıq edə bilər

Məsələ: ۲۴۶۴. Siyğə olunan qadın hətta hamilə olsa da, xərcliyini ərindən almaq haqqı .yoxdur

Məsələ: ۲۴۶۵. Siyğə olunan qadının əri ilə bir yerdə yatmaq (yaşamaq) haqqı yoxdur; o .ərindən, əri də ondan irs aparmır

Məsələ: ۲۴۶۶. Siyğə olunan qadın, xərclik və bir yerdə yatmaq haqqı olmadığını bilməsə, .əqdi səhihdir. Bu işi bilmədiyi üçün ərinin boynuna bir haqq gəlmir

Məsələ: ۲۴۶۷. Siyğə olunan qadın ərinin icazəsi olmadan evdən çölə çıxa bilər. Amma .onun çölə çıxmağı ərinə haqsizlıqla nəticələnəcəksə, çölə çıxması haramdır

Məsələ: ۲۴۶۸. Əgər qadın bir kişini, müəyyən müddət və məbləğ əsasında onu özü üçün siyğə etməyə vəkil etsə, bu halda

kişi, onu daimi əqdinə keçirsə, yaxud müəyyən olunan məbləğdən və ya müddətdən başqa məbləğ və müddətə siyğə etsə, (o əqd füzulidir); o qadın başa düşüb əqdi rədd .etmədikcə razı olduğunu desə, əqdi səhihdir

Məsələ: ۲۴۶۹. Ata və (ata tərəfdən olan) baba məhrəm olmaq üçün bir və iki saatlığa öz həddi-büluğa çatmamış qızını, məhrəm olmaq üçün bir şəxsin əqdinə keçirdə bilər. .Amma gərək bu əqdin qız üçün məfsədəsi olmasın

Məsələ: ۲۴۷۰. Əgər ata, yaxud (ata tərəfdən olan) baba, özünün başqa yerdə olan və diri olub-olmamadığını bilmədiyi uşağının məhrəm olması üçün bir şəxsin əqdinə keçirsə, məhrəmlik hasil olur. Sonradan əqd oxunan vaxt qızın diri olmadığı məlum .olsa, əqd batildir və əqd vasitəsilə məhrəm olanlar isə naməhrəmdirlər

Məsələ: ۲۴۷۱. Əgər kişi siyğə müddətini (qadına) bağışladığı təqdirdə, o qadınla yaxınlıq .edibsə, müəyyən etdikləri şeyin hamısını; əgər yaxınlıq etməyibsə, yarısını verməlidir

Məsələ: ۲۴۷۲. Kişi, öz siyğə arvadını, iddəsi tamam olmamışdan qabaq özünün daimi .əqdinə keçirə bilər

BAXMAĞIN HÖKMLƏRİ

Məsələ: ۲۴۷۳. Kişinin naməhrəm qadının və doqquz yaşı tamam olmayan amma yaxşı ilə pisi seçən qız uşağının bədəninə baxması istər ləzzət məqsədi ilə olsun, istərsə də ləzzət məqsədi olmasın haramdır. Üzünə və əllərinə baxmaq ləzzət məqsədi ilə olarsa haramdır. Amma ehtiyat-vacib budur ki, ləzzət məqsədi ilə olmasa da baxmasın. .Həmçinin, qadının naməhrəm kişinin bədəninə baxması, haramdır

Məsələ: ۲۴۷۴. Əgər insan əhli-kitab yəni, yəhudi nəsara qadınların üz və əllərinə ləzzət qəsdi olmadan baxsa, harama düşəcəyindən qorxmayacağı halda eybi yoxdur. Başqa kafirlər də bu hökmdədirlər. Həmçinin adətən örtmədiyi yerlərə ləzzət məqsədi .olmazsa baxmağın eybi yoxdur

Məsələ: ٢۴٧۵. Qadın gərək öz bədənini, tüklərini naməhrəm kişidən örtsün. Hətta ehtiyat-vacib budur ki, öz bədən və tüklərini həddi-büluğa çatmayan, amma yaxşını-pisi başa düşən oğlan uşağından örtsün.

Məsələ: ٢۴٧۶. Başqasının övrətinə baxmaq, hətta yaxşını-pisi bilən müməyyiz uşağa da; hətta şüşənin arxasından, aynada, saf suda və s. kimi vasitələrlə olsa da, haramdır. Amma ər-arvad bir-birinin bədəninin hər yerinə baxa bilərlər.

Məsələ: ٢۴٧٧. Bir-birinə məhrəm olan qadın və kişi, ləzzət qəsdi olmadığı təqdirdə, övrəti istisna olmaqla, bir-birinin bədəninin hər yerinə baxa bilərlər.

Məsələ: ٢۴٧٨. Kişi ləzzət məqsədi ilə başqa kişinin bədəninə baxa bilməz. Həmçinin qadının ləzzət qəsdi ilə başqa qadının bədəninə baxması haramdır.

Məsələ: ٢۴٧٩. Kişi naməhrəm bir qadının fotoşəklini çəkməsin, əgər ləzzət məqsədi ilə olarsa haramdır. Əgər naməhrəm bir qadını tanıyarsa onun fotoşəkilinə gərək baxmasın.

Məsələ: ٢۴٨٠. Bir qadın, digər bir qadını və ya əri olmadığı bir kişini təmizləmək və ya onun övrətini yumaq məcburiyyətində qalarsa, onun övrətinə toxunmaması üçün əlinə əlcək kimi bir şey geyməlidir. Həmçinin, bir kişi başqa bir kişini və ya həyat yoldaşı olmayan başqa bir qadını təmizləmək və yaxud övrətini yumaq məcburiyyətində qalarsa, hökm eynidir.

Məsələ: ٢۴٨١. Əgər kişi naməhrəm qadını müalicə etmək üçün baxmağa, yaxud əlini onun bədəninə vurmağa məcbur olsa, eybi yoxdur. Amma baxmaqla, müalicə edə bilərsə əlini vurmamalıdır. Əgər əl vurmaqla müalicə edə bilərsə, baxa bilməz.

Məsələ: ٢۴٨٢. Əgər insan, bir şəxsi müalicə etmək üçün onun övrətinə baxmağa məcbur olsa, eybi yoxdur.

EVLƏNMƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ٢۴٨٣. Zövcəsi olmaması səbəbi ilə harama düşən

.şəxsin evlənməsi vacibdir. Amma haramı tərk etməyin vacibliyi öz qüvvəsində qalır

Məsələ: ۲۴۸۴. Əgər ər əqddə şərt etsə ki, qadın bakirə olsun və əqddən sonra bakirə olmadığı məlum olsa, əqdi poza bilər. Amma əgər əqdi pozmazsa bakirə ilə qeyri-bakirənin mehrinin fərqini nəzərə alaraq qərar qoyduqları mehrdən azalda bilər.

Məsələ: ۲۴۸۵. Naməhrəm kişi və qadının heç şəxsin daxil olmadığı xəlvət bir yerdə qalmaları, haramdır; istər Allahın zikri ilə məşğul olsun, istərsə də digər söhbətlərə məşğul olsun; istər yatmış olsunlar, istərsə də oyaq. Amma başqa üçüncü bir şəxsin daxil olması mümkün olsa yaxud yaxşını-pisi başa düşən uşaq orda olsa, eybi yoxdur.

Məsələ: ۲۴۸۶. Əgər kişi, qadının mehriyyəsini əqddə müəyyən etsə və məqsədi də onu verməmək olsa, əqd səhihdir. Amma gərək mehriyəni versin. Əgər qadının razılığı mehriyənin verilməsinə bağlı olsa, əqdin səhihliyinə hökm etmək çətindir.

Məsələ: ۲۴۸۷. Allahı, Peyğəmbəri (səlləllahu ələyhi və alihi və səlləm) inkar edən bir müsəlman, həmçinin dinin zəruri hökmlərini (yəni, müsəlmanlar islam dininin zəruriyyatının bir hissəsi hesab etdikləri hökmləri); məsələn: namaz-orucun vacibliyini inkar etsə və şəxs də bu hökmün dinin zəruriyyatından olduğunu bilsə, mürtəd olur.

Məsələ: ۲۴۸۸. Əgər qadın, ərinin onunla yaxınlıq etməsindən qabaq, əvvəlki məsələdə deyildiyi kimi mürtəd olsa, onun əqdi batil olur. Həmçinin, əgər yaxınlıq etdikdən sonra mürtəd olsa da; yaisə olduğu təqdirdə (yəni, seyiddirsə ۶۰ və seyid deyilsə ۵۰ yaşı tamam olsun) eyni qayda ilə. Əgər yaisə olmasa, təlaq hökmlərində deyilən göstərişə uyğun olaraq iddə saxlamalıdır; əgər iddə arasında müsəlman olsa, əqd yerindədir; əgər iddənin axırına qədər mürtədliyində qalsa, əqd batildir.

Məsələ: ۲۴۸۹. Müsəlman dünyaya göz açan bir kişi mürtəd olarsa, arvadı ona haram olur və təlaq hökmlərində açıqlanacaq miqdarda qadın, vəfat iddəsi saxlamalıdır.

Məsələ: ۲۴۹۰. Müsəlman olmayan ata-anadan dünyaya gəlib sonradan, müsəlman olan kişi, əyalı ilə yaxınlıq etməmişdən qabaq mürtəd olsa, əqdi batil olur. Amma yaxınlıq etdikdən sonra mürtəd olsa və arvadı da heyz görən qadınların yaşında olsa, arvadı təlaq hökmlərində deyildiyi qədər iddə saxlamalıdır. Əgər iddə tamam olandan .qabaq əri müsəlman olsa, əqd yerində qalır. Əks halda əqd batildir

Məsələ: ۲۴۹۱. Əgər qadın, əqddə onu şəhərdən çölə aparmamasını kişi ilə şərt etsə və .kişi də qəbul etsə, qadının razılığı olmadan şəhərdən çıxarmamalıdır

Məsələ: ۲۴۹۲. Əgər bir şəxsin arvadının əvvəlki ərindən bir qızı olsa, o qızı, həmin arvadından olmayan oğlunun əqdinə keçirdə bilər. Həmçinin, əgər bir qızı öz oğlu üçün .əqd etsə, onun anası ilə evlənə bilər

Məsələ: ۲۴۹۳. Zinadan hamilə qalan bir qadının özü və ya onunla zina edən kişi və ya hər ikisi müsəlman olarsa, yaxud heç biri müsəlman olmazsa qadının qarnındakı uşağı .düşürməsi caiz deyildir

Məsələ: ۲۴۹۴. Əgər bir şəxs, əri olmayan və başqasının da iddəsində olmayan bir qadınla zina edib sonradan əqdinə keçirsə və onlardan uşaq dünyaya gəlsə, halal, .yaxud haram nütfədən əmələ gəlməsini bilməsələr, o uşaq halalzadədir

Məsələ: ۲۴۹۵. Qadının iddə saxlamasını bilməyən bir şəxs, onunla evlənərsə, qadın da özünün iddədə olduğunu bilməsə və onlardan bir uşaq dünyaya gəlsə, o uşaq halalzadə və şəriət baxımından hər ikisininkidir. Amma qadın iddədə olduğunu, bilirdisə şəri baxımdan uşaq atasınındır; Hər iki halda o qadınla kişinin əqdləri batil .olub, bir-birlərinə haram olurlar

Məsələ: ۲۴۹۶. Yaisə olduğunu söyləyən qadının sözü qəbul edilməməlidir. Amma əri .olmadığını söyləyərsə, qadının sözü qəbul edilməlidir

Məsələ: ۲۴۹۷. Əgər bir qadınla evlənəndən sonra, bir kəs “o qadının əri vardır” deyib, qadın da “ərim yoxdur” desə, bu halda

.qadının ərli olması şərən sübut olunmasa, qadının sözü qəbul edilməlidir

.Məsələ: ۲۴۹۸. Qız yeddi yaşına çatmayınca atası onu anasından ayıra bilməz

Məsələ: ۲۴۹۹. Müstəhəbidir ki, həddi-buluğa çatan və ya mükəlləf olan qızı ərə verməkdə tələssinlər. İmam Sadiq (ələyhis-səlam) belə buyurmuşdur: “Kişinin .xoşbəxtliyinddən biri budur ki, qızı onun evində heyz görməsin

Məsələ: ۲۵۰۰. Əgər qadın öz mehriyyəsini başqa arvad almasın deyə, ərinə bağışlasa, .kişi də qəbul etsə, gərək qadın mehriyəni almasın və kişi də başqa arvadla evlənməsin

Məsələ: ۲۵۰۱. Zinadan dünyaya gələn bir şəxs arvad alsa və ondan uşağı olsa, uşaq .halalzadədir

Məsələ: ۲۵۰۲. Əgər kişi, mübarək Ramazan ayının orucunda, yaxud qadın heyz olan vaxt onunla yaxınlıq etsə, günah etmişdir. Amma ondan uşaq dünyaya gəlsə, .halalzadədir

Məsələ: ۲۵۰۳. Ərinin səfərdə ölməsini yəqin edən qadın, vəfat iddəsindən sonra (onun miqdarı təlaq hökmlərində deyiləcək) ərə getsə və sonradan əvvəlki əri səfərdən (diri) qayıtsa, ikinci ərindən ayrılmalıdır və birinci ərinə halaldır. Amma ikinci əri onunla yaxınlıq etmiş olsa, qadın iddə saxlamalı, ikinci əri də gərək onun mehriyyəsini, (mehrül-mislini) onun kimi olan qadınların mehriyyəsi miqdarında versin. Amma iddə (müddətinin) xərci yoxdur. Əgər qadın, şəriət hakiminin göstərişi ilə ərinin haqqında dörd il araşdırma apardıqdan sonra əri vacibi nəfəqəni vermədiyinə və qadının təlaq istədiyinə görə şriət hakimi təlaq verdikdən sonra birinci ər gəlsə təlaq iddəsi .qurtararsa qadın birinci ərinə haram olacaq

SÜDVERMƏNİN HÖKMLƏRİ

Point

Məsələ: ۲۵۰۴. Əgər bir qadın, ۲۵۱۴-ci məsələdə deyiləcək şərtlər daxilində bir uşağa süd :versə, o uşaq aşağıdakı şəxslərə məhrəm olur

;(O qadının özünə (ona süd anası deyilir-۱

;(Qadının əri (süd ona məxsusdur və ona da süd atası deyilir-۲

O qadının atası və anasına hər nə qədər yuxarı getsələr də; (hətta onun süd anası və-۳ (.süd atası da olsa

;O qadından dünyaya gəlmiş, yaxud dünyaya gələcək uşaqlara-۴

O qadının övladlarının uşaqları; nə qədər aşağı getsə də; istər onun övladından-۵ ;dünyaya gəlsin, istərsə də onun övladı o uşaqlara süd vermiş olsun

O qadının bacı və qardaşına; hətta süd bacısı və qardaşı da olsa; (Yəni, süd-۶ .(əmizdirilməsi səbəbilə o qadınla bacı-qardaş olmuşlar

;O qadının əmisi və bibisinə; hətta süd əmisi və ya süd bibisi də olsa-۷

;O qadının xalası və dayısına; hətta süd dayısı və süd xalası da olsa-۸

O qadının ərinin övladlarına, (süd o ərin malıdır), nə qədər aşağı getsə, hətta onun-۹ ;süd övladları da olsa

;O qadının ərinin(süd o ərin malıdır) ata-anasına, nə qədər yuxarı getsə də-۱۰

;Ərinin qardaşı və bacısına, hətta süd qardaşı və süd bacısı da olsa-۱۱

Ərinin əmisi, bibisi, dayısı və xalasına, nə qədər yuxarı getsələr də; hətta süd vermə-۱۲ yolu ilə də olsalar. Həmçinin, sonrakı məsələlərdə deyiləcəyi kimi, bundan başqa bir .neçə nəfər də südvermə yolu ilə məhrəm olurlar

Məsələ: ۲۵۰۵. Əgər bir qadın, ۲۵۱۴-ci məsələdə deyiləcək şərtlərə əsasən, bir uşağa süd versə, o uşağın atası, o qadından dünyaya gələn qızlarla evlənə bilməz. Həmçinin, (südə sahib olan) ərin qızlarını da ala bilməz. Hətta onun süd qızlarını da öz əqdinə keçirə bilməz. Amma o qadının süd qızları ilə evlənməsi caizdir. Lakin ehtiyat-müstəhəb budur ki, onlarla da evlənməsin, onlara məhrəm baxışı ilə (yəni, insanın öz .məhrəmlərinə baxdığı baxışla) baxmasın

Məsələ: ۲۵۰۶. Əgər bir qadın ۲۵۱۴-ci məsələdə deyiləcək şərtlərlə uşağa süd versə, o qadının əri (süd ona məxsusdur) o uşağın bacılarına məhrəm olmur, ancaq ehtiyat-müstəhəb budur ki, onlarla evlənməsin. Həmçinin ərin qohumları da o uşağın bacı və .qardaşları ilə məhrəm olmur

Məsələ: ۲۵۰۷. Əgər qadın bir uşağa süd versə, o uşağın qardaşlarına məhrəm olmur. Həmçinin o qadının qohumları da süd verdiyi uşağın bacı-qardaşlarına məhrəm .olmurlar

Məsələ: ۲۵۰۸. Əgər bir şəxs bir qıza kamil süd verən qadınla evlənib yaxınlıq etsə, o qızı .öz əqdinə keçirə bilməz

Məsələ: ۲۵۰۹. Əgər insan bir qızla evlənsə, o qıza kamil süd verən qadınla evlənə .bilməz

Məsələ: ۲۵۱۰. İnsan anasının, yaxud nənəsinin kamil süd verdiyi qız ilə evlənə bilməz. Həmçinin, insanın atasının arvadı (ögəy anası) onun atasına məxsus olan südündən bir qıza süd versə, o şəxs həmin qızla evlənə bilməz. Əgər südəmər bir qızı öz əqdinə keçirsə və sonra anası və ya nənəsi, yaxud da atasının

.arvadı (ögəy anası) o qıza süd versə, əqd batil olur

Məsələ: ۲۵۱۱. İnsan, bacısının, yaxud qardaşının arvadının kamil süd verdiyi qızla evlənə bilməz. Həmçinin, insanın bacısının, yaxud qardaşının övladı, yaxud bacısının .nəvəsi və ya qardaşının nəvəsi o qıza süd versə, eyni qayda ilə

Məsələ: ۲۵۱۲. Əgər bir qadın, öz qızının uşağına (nəvəsinə) süd versə, o qız öz ərinə haram olur. Həmçinin, əgər qadın, qızının ərinin başqa qadından olan uşağına süd versə, eyni qayda ilə. Amma (qadın) öz oğlunun uşağına süd versə, oğlunun (südəmər .üşağın anası) arvadı, ərinə haram olmur

Məsələ: ۲۵۱۳. Əgər bir qızın (ögəy anası) atasının arvadı, o qızın ərinin uşağına (atasına məxsus olan) süd versə, o qız öz ərinə haram olur, istər uşaq o qızdan olsun, istərsə də .ərinin başqa arvadından olsun

MƏHRƏMLİYƏ SƏBƏB OLAN SÜDVERMƏNİN ŞƏRTLƏRİ

:Məsələ: ۲۵۱۴. Məhrəm olmağa səbəb olan süd vermənin səkkiz şərti var

Uşaq diri qadının döşündən süd əmsin; deməli, ölmüş qadının döşündən süd əmsə,-۱ (.faydası yoxdur (məhrəmliyə səbəb olmur

O qadının südü haramdan olmasın; deməli, zinadan dünyaya gələn uşağın südünü-۲ .başqa uşağa versələr uşaq, o süd vasitəsilə heç şəxsə məhrəm olmur

Uşaq südü qadının döşündən əmsin; deməli, südü uşağın boğazına töksələr,-۳ .məhrəmliyə səbəb olmur

.Süd xalis olsun, başqa şeylərlə qarışmasın-۴

Süd bir ərdən olsun; Deməli, süd verən qadına təlaq versələr sonradan başqa ərə-۵ gedib ondan hamilə olsa, doğuş vaxtına qədər döşündə birinci ərindən süd qalsa və ya; məsələn, ۸ dəfə doğuşdan qabaq birinci ərinə məxsus olan süddən və doğandan sonra isə ۷

dəfə ikinci ərinə məxsus olan süddən uşağa versələr, o uşaq heç şəxsə məhrəm .olmur

Uşaq xəstəlik səbəbilə əmdiyi südü qaytarmasın. Əgər qaytararsa, ehtiyat-vacibə-۶ görə, gərək süd əmmək vasitəsilə o uşağa məhrəm olacaq kəslər, onunla .evlənməsinlər və məhrəm baxışlarla baxmasınlar

On beş dəfə, yaxud bir gün (۲۴ saat) ərzində, sonrakı məsələdə deyiləcəyi kimi-۷ doyunca süd əmsin, yaxud onu o qədər əmizdirsinlər ki, "o südlə sümüyü möhkəmlənmişdir, bədəni ət bağlamışdır" desinlər. Hətta əgər ۱۰ dəfə də ona süd versələr və onların arasında heç fasilə (hətta yemək verilməklə də) düşməsə, ehtiyat-müstəhəb budur ki, ona süd vasitəsilə məhrəm olan kəslər onunla evlənməsinlər, ona .məhrəm baxışlarla baxmasınlar

Uşağın iki yaşı tamam olmamış olsun; deməli, iki yaşı tamam olandan sonra ona süd-۸ versələr, heç şəxsə məhrəm olmur. Hətta əgər misal üçün, iki yaşı tamam olmamışdan qabaq on dörd dəfə, tamam olandan sonra isə bir dəfə süd əmsə, heç şəxsə məhrəm olmur. Bu deyilən misalda ehtiyat tərk olunmasın. Amma əgər süd verən qadının doğuşundan iki ildən artıq keçmiş olsa və onun südü hələ də qalmış olsa, bir uşağa süd versə o uşaq deyilən şəxslərə məhrəm olur o uşağın deyilən şəxslərə məhrəm olması düşünüləsidir. Ehtiyat-vacibə görə onunla evlənməsinlər; gərək məhrəm baxışı ilə ona .baxmasınlar

Məsələ: ۲۵۱۵. Gərək uşaq bir gecə-gündüz əsnasında başqa yemək yeməsin, yaxud başqa kəsdən süd əmməsin. Amma əgər az miqdarda yemək yesə və arada yemək yeyibdir deyilməsə, eybi yoxdur. Həmçinin gərək ۱۵ dəfə bir qadının döşündən süd əmsin və bu ۱۵ dəfənin əsnada başqa qadının südünü əmməsin. Hər dəfə də zaman fasiləsi olmadan süd əmsin yəni bir dəfə kamil olsun və əgər nəfəs çəksə, və yarımçıq süd əmməni iki dəfə hesab etmək olmaz ehtiyata əsasən bir dəfə də hesab etmək olmaz. Amma əgər süd əmdiyi vaxt əsnasında yenidən nəfəs çəksə, yaxud bir az gözləsə və birinci dəfə döşü ağzına aldığı vaxtdan doyduğu vaxta

.qədər bir dəfə hesab olunsa, eybi yoxdur

Məsələ: ۲۵۱۶. Əgər qadın öz ərinə məxsus olan süddən bir uşağa süd verib sonra başqa ərə getsə və ikinci ərinə məxsus olan süddən başqa uşağa süd versə o iki uşaq bir-birinə məhrəm olmurlar. Amma daha yaxşı olar ki, bir-biri ilə evlənməsinlər və bir-birinə məhrəm baxışı ilə baxmasınlar.

Məsələ: ۲۵۱۷. Əgər qadın ərinə məxsus olan süddən bir neçə uşağa süd versə onların hamısı bir-birinə, ərinə və (onlara süd verən) qadına məhrəm olurlar.

Məsələ: ۲۵۱۸. Əgər bir şəxsin bir neçə arvadı olsa və onların hər biri deyilən şərtlərlə bir uşağa süd versələr, o uşaqların hamısı bir-birinə, o kişiyə və o qadınlara məhrəm olurlar.

Məsələ: ۲۵۱۹. Əgər bir kişinin iki südlü qadını olsa və onlardan biri bir uşağa ۸ dəfə, digəri isə ۷ dəfə süd versə o uşaq heç şəxsə məhrəm olmur.

Məsələ: ۲۵۲۰. Əgər bir qadın ərinə məxsus olan süddən bir oğlan və bir qıza kamil süd versə o qızın bacı-qardaşları oğlanın bacı-qardaşlarına məhrəm olmurlar.

Məsələ: ۲۵۲۱. Bir şəxs öz arvadının icazəsi olmadan, süd vasitəsi ilə arvadının bacısı uşaqları, yaxud qardaşı uşaqları olmuş qadınlarla evlənə bilməz. Həmçinin əgər bir oğlanla livat etsə, ehtiyat-vacibə görə, o oğlanın süd əmməsi ilə qızı, bacısı, anası və nənəsi olan şəxslərlə (yəni süd əmməklə onun qızı, bacısı və anası sayılırlar) evlənə bilməz. Əgər əqd etmiş olsalar ehtiyat-vacibə görə, təlaq verilməlidir. Xüsusən ləvat edən (fail) uşaq vaxtı (həddi buluğa çatmamışdan qabaq) bu işi görmüş olsa.

Məsələ: ۲۵۲۲. Bir şəxsin qardaşına süd verən qadın həmin şəxsə məhrəm olmur. Amma ehtiyat-müstəhəb budur ki, onunla evlənməsin.

Məsələ: ۲۵۲۳. İnsan iki bacı ilə hətta süd bacısı olsalar da, evlənə bilməz. Əgər iki qadını əqd edib sonradan bacı olduqlarını başa düşsə, bu halda onların əqdi eyni zamanda olubsa, hər ikisi batildir. Əks halda, birincisi səhih, sonrakı isə batildir.

Məsələ: ۲۵۲۴. Əgər qadın ərinə məxsus olan süddən aşağıdakı şəxslərə süd versə əri :(ona haram olmur amma daha yaxşı olar ki, ehtiyat etsinlər (yəni bu işi etməsinlər

;Öz bacısı və qardaşına-۱

;Öz əmisi, bibisi, dayısı və xalasına-۲

;Əmisinin və dayısının övladlarına-۳

;Öz qardaşının övladlarına-۴

;Ərinin qardaşına, yaxud ərinin bacısına-۵

;Öz bacısının uşaqlarına, yaxud ərinin bacısının uşaqlarına-۶

;Ərinin əmisi, bibisi, dayısı və xalasına-۷

;Ərinin başqa arvaddan olan nəvəsinə-۸

Məsələ: ۲۵۲۵. Əgər bir kəs insanın bibisinin və ya xalasının qızına süd versə, həmin .şəxsə məhrəm olmur. Amma ehtiyat-müstəhəb budur ki, onunla evlənməsin

Məsələ: ۲۵۲۶. Bir kişinin iki arvadı olsa və onlardan biri o biri qadının əmisi uşağına süd .versə, onun əmi övladlarına süd verən qadın öz ərinə haram olmur

SÜDVERMƏNİN QAYDALARI

Məsələ: ۲۵۲۷. Uşağa süd vermək üçün hamıdan yaxşı anasıdır. Yaxşı olar ki, ana uşağa süd vermək üçün ərindən muzd almasın, amma yaxşı olar ki, əri muzd versin. Əgər .uşağın anası dayədən artıq muzd almaq istəsə, əri uşağı ondan alıb dayəyə verə bilər

Məsələ: ۲۵۲۸. Müstəhəbdir ki, uşaq üçün tutulan dayə ۱۲ İmam şiəsi, ağıllı, iffətli, üzü gözəl olsun; ağılsız, ۱۲ İmama inanmayan, çirkin görünüşlü, pis əxlaqlı, zinazadə olan dayiyə uşaq vermək məkruhdur. Həmçinin uşağı zinadan olan qadını dayə tutmaq .məkruhdur

SÜDVERMƏNİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ۲۵۲۹. Müstəhəbdir ki, qadınların hər uşağa süd verməsinin qarşısı alınsın. Çünki ola bilsin ki, hansı uşağa süd verməsini unudub sonradan bir-birinə məhrəm olan iki .nəfər evlənsinlər

Məsələ: ۲۵۳۰. Müstəhəbdir ki, süd vasitəsilə qohum olan şəxslər bir-birinə ehtiram qoysunlar. Amma bir-birindən irs aparmırlar və insanın öz qohumlarına qarşı olan .(xüsusi) qohumluq haqqı onlar üçün yoxdur

.Məsələ: ۲۵۳۱. Mümkün olan halda müstəhəbdir ki, uşağa iki il tamam süd verilsin

Məsələ: ۲۵۳۲. Əgər süd vermə vasitəsilə ərin haqqı aradan getməzsə, qadın ərinin icazəsi olmadan başqasının uşağına süd verə bilər. Amma bu halda rəvayətlərdən südün verilməməsi istifadə olunur. Amma süd vermə ilə ərinə haram olmasına səbəb olan şəxslərə süd verməsi caiz deyil; məsələn: əgər onun əri südəmər qız uşağını özü üçün əqd etmiş olsa, qadın o uşağa süd verməməlidir. Əgər o uşağa süd versə, o .qadının özü ərinin arvadının anası (qaynanası) olur və ərinə haram olur

Məsələ: ۲۵۳۳. Əgər bir kəs qardaşının arvadının ona məhrəm olmasını istəyərsə, bu halda gərək bir südəmər qız uşağını iki günlük özünə siyğə etsin və o iki gündə, ۲۵۱۴-ci .məsələdə deyildiyi şərtlərə uyğun olaraq qardaşının arvadı o qıza süd versin

Məsələ: ۲۵۳۴. Əgər bir kimsə, bir qadınla evlənməzdən qabaq o qadının süd əmmə vasitəsilə özünə haram olduğunu söyləyərsə; məsələn, onun anasının südünü əmdiyini söyləyərsə, onu təsdiq etmək mümkün olarsa, yəni yalan söylədiyi məlum olmazsa, o qadınla evlənə bilməz. Əgər nigah əqdindən sonra söyləyərsə və qadında onun sözünü qəbul edərsə, əqd batil olar. Deməli əgər kişi onunla cinsi yaxınlığ etməmişdirsə və ya cinsi yaxınlıq etmişsə də, qadın yaxınlıq zamanı o kişini özünə haram olduğunu bilirdisə, mehriyyəsi yoxdur. Amma əgər qadın yaxınlıqdan sonra o kişinin

ona haram olduğunu başa düşmüşdürsə, kişi qadına digər qadınların mislində verilən .mehriyyə qədəri mehriyyə ödəməlidir

Məsələ: ۲۵۳۵. Əqd oxunmazdan əvvəl qadın, bir kişinin süd əmmək vasitəsi ilə ona haram olduğunu söyləyərsə və onu təsdiq etmək də mümkün olarsa, o kişi ilə evlənə bilməz. Əgər əqddən sonra söyləyərsə, əvvəlki məsələdə açıqlanan kişinin əqddən .sonra bir qadının özünə haram olduğunu söylədiyi kimidir

.Məsələ: ۲۵۳۶. Məhrəm olmağa səbəb olan süd vermə iki yolla isbat olunur

;Sözlərindən yəqin və ya əminlik hasil olan şəxslərin xəbər verməsi-۱

İki adil kişinin, yaxud dörd adil qadının şəhadət verməsi ilə. Amma gərək süd-۲ vermənin şəraitini də desinlər. Məsələn, desinlər ki, biz görmüşük ki, filan uşaq ۲۴ saat ərzində filan qadının döşündən süd əmdi, arada da başqa şey yemədi. Həmçinin ۲۵۱۴- .ci məsələdə deyilən sair şərtləri də şərh etsinlər

Məsələ: ۲۵۳۷. Əgər uşağın məhrəmliyə səbəb olacağı qədər süd əmib-əmməməsində şəkk etsələr, yaxud o miqdarda süd əmməsini güman etsələr, uşaq heç şəxsə .məhrəm olmur. Amma yaxşı olar ki, ehtiyat etsinlər

TƏLAQIN HÖKMLƏRİ

Point

TƏLAQIN HÖKMLƏRİ

Məsələ: ۲۵۳۸. Öz arvadına təlaq verən kişi gərək aqil, həddi-büluğa çatmış və öz ixtiyarı üzündən təlaq versin. Əgər onu, arvadına təlaq verməyə məcbur etsələr, təlaq batildir. Həmçinin, gərək təlaq vermək niyyəti olsun. Deməli, təlaq siyğəsini .zarafatyana desə, səhih deyildir

Məsələ: ۲۵۳۹. Qadın, boşanma zamanı gərək heyz və nifas qanından təmizlənsin və kişi də, onun təmiz halında onunla yaxınlıq etməsin. Bu iki şərtin təfsilatı qarşıda gələn .məsələlərdə açıqlanacaqdır

:Məsələ: ۲۵۴۰. Heyz və nifas halında olan qadını boşamaq üç halda doğru və düzgündür

.Əri evləndikdən sonra onunla yaxınlıq etməmişsə-۱

Qadın hamilə olduğu bilinərsə; əgər hamilə olduğu bilinməzsə, əri də, heyz halında-۲ olan arvadını boşayarsa və daha sonra hamilə olduğunu anlayarsa, ehtiyat-vacib budur ki, ona ikinci dəfə təlaq versən. Bu o haldadır ki, qadının o vəziyyətdə olduğunu .və haram olduğunu bilsin

Qaib və ya həbsdə olmasi kimi səbələr üzündən, qadının heyz və nifasdan-۳ .təmzlənib-təmizlənmədiyni bilməsi imkanı yoxdursa

Məsələ: ۲۵۴۱. Əgər bir şəxs, qadını heyz qanından pak hesab

edib təlaq versə, sonradan təlaq vaxtı heyz halında olduğu məlum olsa, təlaqı batildir. Əgər qadının heyz olduğunu bilib təlaq versə və təlaqı da həqiqi niyyətlə olub, məsələni bilməyən şəxs kimi, təlaq verərsə, sonra pak olduğu məlum olsa, təlaq .səhihdir

Məsələ: ۲۵۴۲. Öz arvadının heyz və ya nifas halında olduğunu bilən şəxs qaib olsa; məsələn, səfərə getsə və ona təlaq vermək istədiyi təqdirdə qadının halından məlumat ala bilməsə, gərək qadınların adətən heyz və ya nifasdan pak olacaqları .müddətə qədər gözləsin

Məsələ: ۲۵۴۳. Əgər qaib olub arvadını boşamaq istəyən kişi, arvadının heyz və ya nifas halında olub-olmadığından xəbər almaq imkanı olsa, əgər onun bu xəbəri qadının heyz adəti və ya şəriətdə təyin olunmuş digər nişanələr üzündən olarsa belə, gərək gərək məlumat əldə etsin. Əgər məlumat əldə edə bilməsə, adətən qadınların heyz və ya .nifasdan təmizləndikləri müddətə qədər gözləsin

Məsələ: ۲۵۴۴. Əgər kişi, heyz və ya nifas qanından pak olan arvadı ilə yaxınlıq edib sonra təlaq vermək istəsə, gərək ikinci dəfə heyz qanı görüb paklanmasını gözləsin. Amma doqquz (hicri qəməri ilə) yaşı tamam olmayan, yaxud hamilə olan qadına, onunla yaxınlıq etdikdən sonra təlaq versələr eybi yoxdur. Qadın yaisə olsa da eyni qayda ilə. (Əgər yaxınlıq edəndən sonra təlaq versələr eybi yoxdur). Yəni .səyyiudədirsə altımışdan artıq və əgər səyyidə deyilsə əlli yaşdan çox yaşı olsun

Məsələ: ۲۵۴۵. Əgər kişi heyz və ya nifas qanından pak olan arvadı ilə yaxınlıq edib həmin paklıq müddətində təlaq versə və sonra təlaq verdiyi vaxt hamilə olduğu məlum olsa, əgər qadının o halda olduğunu və hökmü bilirdisə ehtiyat-vacibə görə gərək ikinci .dəfə təlaq versin

Məsələ: ۲۵۴۶. Əgər kişi heyz və ya nifas qanından pak olan arvadı ilə yaxınlıq edib sonra səfərə getsə və səfərdə təlaq vermək istəsə, amma səfərdə arvadının halından (məlumat əldə edə bilməsə, bu halda qadınların adətən (o müddətdən sonra

.paklıqdan sonra qan görüb yenidən pak olduqları qədər gözləməlidir

Məsələ: ٢٥٤٧. Əgər kişi, xəstəlik üzündən heyz görməyən qadınına təlaq vermək istəsə, onunla yaxınlıq etdiyi vaxtdan etibarən üç ay müddətində onunla cima etməkdən .çəkinməli, sonra təlaq verməlidir

Məsələ: ٢٥٤٨. Təlaq ərəbcə və səhih siyğə ilə olmalıdır. İki nəfər adil kişi də onu eşitməlidir. Əgər ərin özü təlaq siyğəsini oxumaq istəsə və arvadının da adı; məsələn, :Fatimə olsa gərək desin

زَوْجَتِي فَاطِمَهُ طَالِقٌ

Zovcəti Fatimətu taliqun» yəni mənim arvadım Fatimə azaddır. Əgər başqasını vəkil « :etsə, gərək o vəkil desin

زَوْجَهُ مُوَكِّلِي فَاطِمَهُ طَالِقٌ

.«Zovcətu müvəkkili Fatimətu taliqun»

Məsələ: ٢٥٤٩. Siyğə olunan (məsələn, bir aylıq, bir illik) qadının təlaqı yoxdur. Onun boşanması, müddətinin tamam olması, yaxud kişinin həmin müddəti ona bağışlamasına bağlıdır; yəni, "müddəti sənə bağışladım" desin. Bu halda qadının heyz .qanından paklığı və şahid tutulması lazım deyil

TƏLAQIN İDDƏSİ

Məsələ: ٢٥٥٠. Doqquz yaşı tamam olmayan, həmçinin yaisə qadının iddə müddəti yoxdur. Yəni, ərinin onunla yaxınlıq etməsinə baxmayaraq, təlaq veriləndən sonra .dərhal ərə gedə bilər

Məsələ: ٢٥٥١. Doqquz yaşı tamam olan və yaisə olmayan qadının əri, onunla yaxınlıq edib təlaq versə, təlaqdan sonra iddə saxlamalıdır. Yəni, təlaq verildiyi paklıqdan ,sonra, yenidən heyz görüb pak olmacağı qədər gözləməlidir. Üçüncü heyzi görən kimi

iddəsi tamam olur və ərə gedə bilər. Amma yaxınlıq etmədən təlaq versə, iddəsi .yoxdur; yəni, təlaqdan sonra dərhal ərə gedə bilər

Məsələ: ۲۵۵۲. Heyz görən qadınlar ilə bir yaşda olan və heyz görməyən qadının əri, onunla yaxınlıq edib təlaq versə, təlaqdan sonra üç ay yəni doxsan gün iddə .saxlamalıdır

Məsələ: ۲۵۵۳. İddəsi üç ay olan qadının əgər ayın əvvəlində təlaqını versələr, doxsan gün iddə saxlasın. Əgər ayın əsnasında təlaqını versə, gərək ayın qalanını sonrakı iki ay ilə bərabər və birinci aydan, qalanını isə dördüncü aydan iddə saxlasın ki, doxsan gün tamam olsun. Məsələn, əgər ayın ۲۰-ci gününün qürubunda təlaqını versələr və o ay ۲۹ gün olsa, ayın qalan ۹ gününü ondan sonrakı iki ayla və dördüncü aydan ۲۱ gün .iddə saxlasın

Məsələ: ۲۵۵۴. Əgər hamilə qadına təlaq versələr, onun iddəsi, uşağın dünyaya gəlməsinə, yaxud (nütfə halında olsa belə) siqt olmasına qədərdir; məsələn, təlaqdan bir saat sonra uşaq dünyaya gəlsə, zinadan olmazsa həmin vaxt iddəsi tamam olur. Əks halda hamiləlik dövründə heyz görürsə digər qadınlar kimi, üç heyz görməlidir. Əgər hamiləlik dövründə heyz görmürsə təlaq verilən vaxtan doxsan gün iddə .saxlasın

Məsələ: ۲۵۵۵. Doqquz yaşı tamam olan və yaisə olmayan bir qadın; (məsələn: bir ay, yaxud bir illiyə) siyğə olunsa, əri onunla yaxınlıq edib və o qadının müddəti tamam olsa, yaxud əri həmin müddəti bağışlasa, gərək iddə saxlasın. Əgər heyz görürsə gərək iki heyz müddətində iddə saxlasın və ərə getməsin. Əgər heyz görmürsə ehtiyat-vacib .budur ki, ۴۵ günə qədər ərə getməməlidir

Məsələ: ۲۵۵۶. Təlaq iddəsinin əvvəli, təlaq siyğəsinin tamam olduğu vaxtdan etibarən başlayır; istər qadın ona təlaq verildiyini bilsin, istərsə də bilməsin. Əgər iddə qurtarandan sonra ona təlaq verilməsini başa düşsə, yenidən iddə saxlaması lazım .deyil

ƏRİ ÖLƏN QADININ İDDƏSİ

Məsələ: ۲۵۵۷. Əri ölən qadın hamilə olmasa, hətta əgər yaisə, yaxud səğiyrə olsa da, yaxud əri onunla yaxınlıq etməsə də, ۴ ay ۱۰ gün iddə saxlamalı, yəni ərə getməməlidir. Əgər hamilə olsa, doğuşa qədər iddə saxlamalıdır. Amma uşaq ۴ ay ۱۰ gün keçməzdən qabaq dünyaya gəlsə, ərinin ölümündən ۴ ay ۱۰ gün keçənədək gözləməlidir. Buna .vəfat iddəsi deyilir

Məsələ: ۲۵۵۸. Vəfat iddəsində olan qadının bəzəkli paltar geyməsi, sürmə çəkməsi .həmçinin, zinət sayılan sair işlər görməsi ona haramdır

Məsələ: ۲۵۵۹. Əgər qadın, ərinin öldüyünə yəqin etsə, vəfat iddəsi saxladıqdan sonra başqasıyla evlənərsə, daha sonra əvvəlki ərinin ikinci əri ilə evliliyi zamanında öldüyü bilinsə və vəfat iddəsi bu evlilik içində olduğu məlum olarsa, ikinci ərindən ayrılmalıdır. Əgər hamilədirsə, (doğana qədər) ikinci əri üçün təlaq bəhsində müddəti bildirilən təlaq iddəsi; sonra da birinci əri üçün vəfat iddəsi saxlamalıdır. Hamilə deyilsə, əvvəlcə .birinci əri üçün vəfat iddəsi, daha sonra isə ikinci əri üçün təlaq iddəsi saxlamalıdır

Məsələ: ۲۵۶۰. Vəfat iddəsinin başlanğıcı, qadının ərinin ölümündən xəbərdar olduğu .vaxtan başlanır

Məsələ: ۲۵۶۱. Əgər qadın "iddəm tamam olmuşdur" desə, onun sözü qəbul edilir, istər iddəsi üç pak olmaq olsun istərsədə üç ay bu şərtlə ki, (yalan danışmaqla) müttəhim olmasın. Təlaqdan, yaxud ərinin ölməsindən sonra iddənin tamam olması mümkün .olacaq qədər vaxt keçsin

BAİN VƏ RİCİ TALAQ

Məsələ: ۲۵۶۲. Bain təlaqı budur ki, təlaqdan sonra kişinin öz arvadına qayıtmaq haqqı :olmasın. Yəni, əqd oxunmadan onu arvad kimi qəbul edə bilməz. Bu beş qismdir

;Doqquz yaşı tamam olmayan qadının təlaqı-۱

Yaisə olan qadının təlaqı; Əgər səyyidədirsə altımışdan, əgər səyyidə deyilsə, əllidən-۲ .çox yaşı olsun

;Ərinin əqddən sonra yaxınlıq etmədiyi qadının təlaqı-۳

;Üç dəfə təlaq verilən qadının üçüncü təlaqı-۴

Xül və mübarat təlaqı. Bunların hökmləri sonradan deyiləcək. Bunlardan başqa-۵ yerdə qalanları rici təlaqdır ki, təlaqdan sonra, qadın iddədə olduğu vaxta qədər kişi, (ona qayıda bilər. (Yəni, təlaq niyyətindən dönə bilər

Məsələ: ۲۵۶۳. Arvadına rici təlaq verən bir şəxsin, onu təlaq verilən vaxtda olduğu evdən çölə çıxartması haramdır. Amma fiqhi kitablarda müfəssəl deyildiyi kimi, bəzi vaxtlar onu çölə çıxartmağın eybi yoxdur. Həmçinin, qadının lazım olmayan işlər üçün .evdən çölə çıxması haramdır

QAYITMAĞIN HÖKMLƏRİ

:Məsələ: ۲۵۶۴. Rici təlaqda kişi öz qadınına iki cür qayıda bilər

;İkinci dəfə onu özünə arvad etməsi mənasını daşıyan bir söz desin-۱

.Elə bir iş görsün ki, onun qayıtması başa düşülsün və qayıtmaq niyyəti olsun-۲

Məsələ: ۲۵۶۵. Rücu etməkdə kişinin şahid tutması, yaxud qadına xəbər verməsi lazım deyil. Hətta, əgər bir şəxs bilmədən “arvadıma rücu etdim” (yəni, təlaq verdiyim .yoldaşımı ozümə ailəliyə qaytardım) desə, səhihdir

Məsələ: ۲۵۶۶. Öz arvadına rici təlaq verən kişi əgər ondan bir mal alsa və onunla razılaşsa ki, bir daha ona rücu etməsin, hərçənd bu razılaşma düz olsa da və rücu etməməsi lazım olsa da, amma onun rücu etmək haqqı aradan getmir və rücu etdiyi .surətdə, yenidən izdivac bərqərar olur

Məsələ: ۲۵۶۷. Əgər kişi, arvadına iki dəfə təlaq verib sonra rücu etsə, yaxud iki dəfə rici təlaq verib hər təlaqdan və iddə vaxtı

keçəndən sonra əqdinə keçirsə, üçüncü təlaqdan sonra qadın ona haramdır. Amma üçüncü təlaqdan sonra başqa ərə getsə, dörd şərtlə birinci ərinə halal olur (yəni, birinci əri onu, ikinci ərindən boşanandan sonra, yenidən ala bilər):

۱-İkinci ərinin əqdi daimi olsun; deməli; məsələn, bir aylıq, bir illik siyğə etsə, ondan ayrılandan sonra birinci əri, onu öz əqdinə keçirə bilməz;

۲-İkinci əri onunla yaxınlıq və düxul etsin, gərək yaxınlıq qadının qabaq tərəfindən olsun.

۳-İkinci əri ona təlaq versin, yaxud ölsün;

۴-İkinci ərinin təlaq, yaxud vəfat iddəsi tamam olsun.

XÜL TƏLAQI

Məsələ: ۲۵۶۸. Ərinə meyli olmayan və ya ona kərahəti olan qadının mehriyəsini və ya özünə aid olan başqa malını boşanması üçün ərinə bağışlayarsa, buna, xül təlaqı deyilir.

Məsələ: ۲۵۶۹. Əgər ər, təlaq siyğəsini oxumaq istəsə və qadının adı; məsələn: Fatimə olsa, desin:

زَوْجَتِی فَاطِمَهُ خَلَعْتُهَا

yaxud desin:

زَوْجَتِی فَاطِمَهُ خَالَعْتُهَا عَلَی مَابَذَلَتْ هِیَ طَالِقٌ

Yaxud desin:

زَوْجَتِی فَاطِمَهُ مُخْتَلَعَهٌ هِیَ طَالِقٌ

Yəni, arvadım Fatiməyə (verdiyi şeylər müqabilində) xül təlaqı verdim və o boşandı.

Məsələ: ۲۵۷۰. Əgər qadın, bir şəxsi mehriyyəsini ərinə vermək üçün, əri də həmin şəxsi, arvadına təlaq vermək üçün vəkil etsə, bu halda; məsələn: ərin adı Məhəmməd,

:arvadın adı Fatimə olarsa, vəkil təlaq siyğəsini belə oxumalıdır

عَنْ مُوَكِّلَتِی فَاطِمَهَ بَذَلْتُ مَهْرَهَا لِمُوَکِّلِی مُحَمَّدٍ لِیَخْلَعَهَاعَلَیْهِ

:ondan sonra dərhal deməlidir

زَوْجَهُ مُوَكِّلِی خَالَعْتُهَا عَلَی مَابَذَلَتْ هِیَ طَالِقٌ

Xalə`tuha" kəlməsinin yerinə "xələ`tuha" da, deyə bilər. Əgər qadın, bir kişini, ərinə" mehriyyədən başqa bir şey bağışlayıb ona təlaq verməsini vəkil etsə, gərək vəkil, "məhrəha" kəlməsinin yerinə onun verdiyi şeyi desin; məsələn, əgər ۱۰۰ tümən vermiş :olsa, gərək desin

بَذَلَتْ مِائَهَ تُومَان.

MÜBARAT TƏLAQI

Məsələ: ۲۵۷۱. Əgər ər-arvad bir-birlərini istəməsələr və qadın bir malı kişiyə, təlaq .versin deyə, bağışlasa, belə təlaqa mübarat təlaqı deyilir

Məsələ: ۲۵۷۲. Əgər ər, mübarat siyğəsini oxumaq istəsə və arvadının adı; məsələn, :Fatimə olsa, gərək desin

بَارَأْتُ زَوْجَتِی فَاطِمَهَ عَلَی مَهرِهَا فَهِیَ طَالِقٌ

Yəni, "arvadım Fatiməyə, mehriyyəsinin müqabilində mübarat təlaqı verdim və o boşandı." ("Mübarat təlaqı verdim"-in mənası "bir-birimizdən ayrıldıq" deməkdir.) Əgər :başqasını vəkil etsə, vəkil deməlidir

بَارَأْتُ زَوْجَهَ مُوَكِّلِی فَاطِمَهَ عَلَی مَهرِهَا فَهِیَ طَالِقٌ

.Hər iki halda, əgər "əla məhriha" kəlməsinin yerinə "bi məhriha" desə, eybi yoxdur

Məsələ: ۲۵۷۳. Xül və mübarat siyğələri, ərəbcə səhih oxunmalıdır. Amma qadın öz malını ərinə bağışlaması üçün hər hansı dildə, "təlaq üçün filan şeyi sənə bağışladım" desə, eybi

.yoxdur

Məsələ: ۲۵۷۴. Əgər qadın, xül yaxud mübarat təlaqı əsnasında öz bağışladığı şeyi vermək fikrindən dönsə, əri qayıdıb (rücu edib) əqd oxunmadan yenidən onu özünə .arvad edə bilər

Məsələ: ۲۵۷۵. Mübarat təlaqı üçün ərin aldığı mal, mehriyyədən çox olmamalıdır. Ancaq .xül təlaqında çox olmasının eybi yoxdur

TƏLAQIN MÜXTƏLİF HÖKMLƏRİ

Məsələ: ۲۵۷۶. Əgər bir şəxs, naməhrəm qadınla, öz əyalı olduğunu güman edərək yaxınlıq etsə; istər qadın onun əri olmadığını bilsin, istərsə də əri olduğunu güman .etsin, iddə saxlamalıdır

Məsələ ۲۵۷۷. Əgər bir şəxs, öz arvadı olmadığını bildiyi bir qadınla zina edərsə, qadın da onun öz əri olmadığını bilirsə, iddə saxlaması lazım deyildir. Lakin qadın, o kişinin əri .olduğunu güman etsə gərək iddə saxlasın

Məsələ: ۲۵۷۸. Əgər bir kişi, qadını özünə arvad etmək üçün aldadıb onun ərindən təlaq .alsa, o qadına verilən təlaq və əqd səhihdir. Amma hər ikisi böyük günah etmişlər

Məsələ: ۲۵۷۹. Əqd əsnasında səfərə gedəcəyi təqdirdə, yaxud onun altı aylıq xərcini verməsə, təlaqın ixtiyarının onun əlində olmasını qadın əri ilə şərt etsə, bu şərt batildir. Amma kişi, səfərə gedərsə və ya misal üçün; altı ayadək onun xərcini verməzsə, onun tərəfindən özünə təlaq vermək üçün vəkil olmasını şərt etsələr, vəkillikdən .çıxartmamışsa əgər təlaq versə səhihdir

Məsələ: ۲۵۸۰. Əri itmiş bir qadın başqası ilə evlənmək istəyərsə, adil bir müctəhidin .yanına gedib, onun göstərişinə əməl etməlidir

.Məsələ: ۲۵۸۱. Dəlinin atası və ata tərəfindən olan babası, onun arvadını boşaya bilərlər

Məsələ: ۲۵۸۲. Əgər ata, yaxud (ata tərəfindən olan) baba, öz

övladı (və ya nəvəsi) üçün bir qadını siyğə etsələr, hətta uşağın həddi-büluğa çatması zamanının bir miqdarı, siyğə müddətinin bir hissəsi olsa da; (məsələn: bir arvadı ۱۴ yaşlı oğluna iki illiyə siyğə etsə) bu halda uşağ üçün məsləhətli olsa da, onun vaxtını .qadına bağışlamağının işkalı vardır, lakin daimi arvadına təlaq verə bilməz

Məsələ: ۲۵۸۳. Əgər şəriətdə müəyyən olunmuş əlamətlərə əsasən, kişi, iki nəfəri adil bilərək onların yanında öz arvadına təlaq versə; başqa bir şəxs onları adil bilmirsə, o .qadını özü, yaxud başqası üçün əqd etməsi müşküldür

Məsələ: ۲۵۸۴. Əgər bir şəxs öz qadınına, o başa düşmədən təlaq versə, bu halda onun xərclərini arvadı olan müddətdəki kimi vermiş olarsa; məsələn, bir ildən sonra “bir il bundan qabaq sənə təlaq vermişəm” desə və şərən də bu işi sübuta yetsə, o müddətdə qadın üçün tədarük gördüyü, amma qadının sərf etmədiyi şeyləri ondan .geri ala bilər. Lakin sərf etdiyi şeyləri ondan tələb edə bilməz

QƏSBİN HÖKMLƏRİ

QƏSBİN HÖKMLƏRİ

Qəsb odur ki, insan zülm ilə bir şəxsin malına, yaxud haqqına hakim çıxsın (ələ keçirsin.) Bu, böyük günahlardan biridir və bu işi edən şəxs qiyamət günüdə ağır əzaba düçar olacaq. Peyğəmbəri Əkrəmdən (səlləllahu ələyhi və alihi və səlləm) rəvayət olunub ki, “Hər kəs bir qarış torpağı başqasından qəsb etsə, Qiyamət günü o torpağı .”onun yeddi təbəqəsi ilə birlikdə boyunbağı kimi onun boynundan asacaqlar

Məsələ: ۲۵۸۵. Əgər insan məscid, mədrəsə, körpü və ümumi camaat üçün tikilmiş digər yerlərdən camaatın istifadə etməsini qoymazsa, onların haqqını qəsb etmiş olur. Həmçinin, məscidə birinci gəlib, özü üçün yer ayıran şəxsin oradan istifadə etməsinə .maneə olan kimsənin əməli də qəsb sayılır

Məsələ: ۲۵۸۶. İnsanın borclu olduğu şəxsin yanında girov (yaxud sənəd) qoyduğu şey onun yanında qalmalıdır ki, borc qaytarılmadığı təqdirdə borcunu onun vasitəsi ilə əldə etsin. Deməli, əgər o şeyi, borcunu verməmişdən qabaq razılıq olmadan ondan geri .alsa, onun haqqını qəsb etmişdir

Məsələ: ۲۵۸۷. Bir şəxsin yanında girov qoyulan bir malı başqası qəsb etsə, malın sahibi və borc sahibi o şeyi ondan tələb

edə bilərlər. O şeyi ondan aldıqdan sonra, yenə də girovdur. Əgər o şey tələf olub aradan getsə və əvəzini alsalar o (əvəz alınan) şey də əvvəlki şeyin özü kimi girov .sayılır

Məsələ: ۲۵۸۸. Əgər insan bir şeyi qəsb etsə, gərək sahibinə qaytarsın. Tələf olarsa, .əvəzini sahibinə verməlidir

Məsələ: ۲۵۸۹. Əgər qəsb etdiyi şeydən mənfəət əldə etsə; (məsələn: qəsb etdiyi qoyun doğsa) o, mal sahibinindir. Həmçinin, evi qəsb edən bir şəxs orada oturmasa belə, .icarəsini verməlidir

Məsələ: ۲۵۹۰. Əgər uşağın və dəlinin əlindən onların malını qəsb etsələr, həmin şeyi .vəlisinə verməlidirlər. Əgər tələf olarsa, əvəzini verməlidirlər

Məsələ: ۲۵۹۱. Əgər iki nəfər birlikdə bir şeyi qəsb etsələr, hər ikisinin ayrılıqda həmin şeyi qəsb edə bilməsi mümkün olsa, əgər həmən şey hər ikisinin istifadəsində olsa, onların hər biri həmin şeyin hamısına zamindirlər. Əgər hər birinin istifadəsində o şeyin .yarsı olsa, onların hər biri həmin şeyin yarısına zamindirlər

Məsələ: ۲۵۹۲. Əgər qəsb etdiyi şeyi başqa bir şeylə; məsələn: qəsb etdiyi buğdanı arpa ilə qarışdırsa, bu halda onların ayrılması mümkün olsa, hətta zəhmətə də səbəb olsa, .ayırıb sahibinə qaytarmalıdır

Məsələ: ۲۵۹۳. Əgər bir şəxs qızıl və gümüş qabı ğəsb edib xarab etsə, onu düzəltmək haqqını sahibinə verməlidir. Əgər sırğanı qəsb edib xarab etsə, gərək onu, düzəldilməsinə lazım olan muzd ilə birlikdə sahibinə qaytarsın. Muzdu verməmək üçün “əvvəlki olduğu şəkildə düzəldəcəyəm” deyərsə, sahibi qəbul etməyə məcbur deyil. Həmçinin sahibi, onu əvvəlki kimi düzəltməyə məcbur edə bilməz. Həmçinin .düzəldilmişi ilə düzəldilməmiş arasında qiymət fərqi olsa onada zamindir

Məsələ: ۲۵۹۴. Əgər qəsb etdiyi şeyi əvvəlkindən daha yaxşı surətdə düzəldə bilsə; (məsələn: qəsb etdiyi qızıldan sırğa düzəltsə) bu halda malın sahibi “həmin halda ver” desə, verməlidir. Çəkdiyi zəhmət üçün muzd ala bilməz, hətta malikin icazəsi olmadan əvvəlki halına qaytarmağa haqqı yoxdur. Əgər

icazəsi olmadan o şeyi əvvəlki halına salsa, onu düzəltməyin muzdunu da sahibinə .verməlidir. Hətta qiymət fərqinə də zamindir

Məsələ: ۲۵۹۵. Əgər qəsb etdiyi şeyi əvvəlkindən daha yaxşı halda düzəltsə və malın sahibi də onu əvvəlki hala salmalısan desə, əvvəlki hala salması vacibdir. Əgər onun qiymətinin azalmasına səbəb olacaq bir şəkildə olsa, bu fərziyədə qəsb edən qiymət təfavütünü də sahibinə verməlidir. Deməli, qəsb etdiyi qızıldan sırğa düzəltsə və onun sahibi əvvəlki halına qaytarmalısan desə, bu halda onun əridilməsindən sonrakı qiyməti sırğa düzəldilməsindən qabaqkı qiymətindən az olsa, onun qiymət fərqini də verməlidir. Bu o haldadır ki, azlıq malın özündə və ya zahiri görnüşündə olsun. Amma .bazardakı qiymət fərqinə görə olsa zamin deyil

Məsələ: ۲۵۹۶. Əgər bir şəxs qəsb etdiyi torpaqda taxıl, yaxud ağac əksə, taxıl, ağac və onun meyvəsi onun özünündür. Əgər yerin sahibi əkin və ya ağacın həmin torpaqda qalmasına razı olmasa, qəsb edən şəxs hətta zərər etsə də dərhal əkini, yaxud ağacları yerdən çıxartmalıdır. Həmçinin, əkin və ağac əkdiyi müddətdəki yerin icarə haqqını da yer sahibinə verməli, torpaqda yaranan xarablıqları düzəltməlidir; (məsələn, ağacı çıxartdığı yerin çalalarını doldurmalıdır.) Əgər bu işlərin vasitəsi ilə yerin qiyməti əvvəlki qiymətindən az olsa, onun qiymətlər fərqini də verməlidir. O, yerin sahibini, yeri ona satmağa, yaxud icarə verməyə məcbur edə bilməz. Yerin .sahibi də ağacı, yaxud əkini ona satmağa məcbur edə bilməz

Məsələ: ۲۵۹۷. Əgər yerin sahibi əkinin, ağacların onun yerində qalmasına razı olsa, onu qəsb edən şəxsin ağacı, yaxud əkini oradan çıxartması lazım deyil. Amma qəsb etdiyi .müddətdən etibarən sahibinin razı olduğu müddətə qədər yerin icarəsini verməlidir

Məsələ: ۲۵۹۸. Əgər qəsb etdiyi şey tələf olarsa, bu inək, qoyun kimi bədən üzvlərinin ,qiymətləri fərq edən mallardan olsa

məsələn, ətinin bir qiyməti dərisinin isə digər qiyməti vardır, gərək onun qiymətini versin. Əgər bazarın qiyməti dəyişmiş olsa, gərək vermək istədiyi günün qiyməti ilə versin. Ehtiyat-müstəhəb budur ki, qəsb etdiyi gündən verdiyi günə qədər olan ən .yuxarı qiymətlə versin

Məsələ: ۲۵۹۹. Əgər qəsb edib tələf etdiyi şey buğda və arpa kimi qiyməti fərq etməyə şeylərdən olsa, gərək qəsb etdiyi şeyin mislini versin. Ancaq vermək istədiyi şeyin .xüsusiyyətləri qəsb edib tələf etdiyi şeyin misli kimi olmalıdır

Məsələ: ۲۶۰۰. Əgər bədən üzvlərinin qiyməti bir-birindən fərqlənən bir şeyi (qoyun kimi) qəsb etsə və o şey də aradan getsə, bu halda onun bazar qiyməti fərqlənməmiş olsa, amma onun yanında olan müddətdə; məsələn, kökəlmiş olsa, kökəldiyi vaxtın pulunu .verməlidir

Məsələ: ۲۶۰۱. Əgər qəsb etdiyi şeyi başqası ondan qəsb etsə və tələf olsa, malın sahibi əvəzini onların hər birindən ala bilər, yaxud onların hər birindən aradan gedən şeyin bir miqdarını tələb edə bilər. Əgər birincidən alsa, birinci də öz növbəsində ikincidən ala .bilər. Amma ikincidən alsa, o, verdiyi şeyi birincidən ala bilməz

Məsələ: ۲۶۰۲. Əgər satılan şeydə müamilənin şərtlərindən biri olmasa; məsələn: çəki ilə alver edilməli olan bir şey çəkisiz müamilə olunsa, müamilə batildir. Əgər satıcı və alıcı müamiləni nəzərə almadan, bir-birinin malından istifadə etməyə razı olsalar eybi yoxdur. Əks halda (icazə verməsələr) isə, bir-birindən aldıqları şey qəsbi mal kimidir. Gərək onu bir-birinə qaytarsınlar. Əgər hər birinin malı digərinin əlində tələf olsa, müamilənin batil olduğunu bilib-bilməmələrindən asılı olmayaraq, əvəzini .verməlidirlər

Məsələ: ۲۶۰۳. Əgər bir malı satıcıdan, baxmaq üçün götürsə, yaxud müəyyən müddətdə öz yanında saxlayıb bəyənəcəyi halda almaq üçün götürsə, o mal tələf .olarsa, onun əvəzini sahibinə verməlidir

TAPILAN ŞEYİN HÖKMLƏRİ

TAPILAN ŞEYİN HÖKMLƏRİ

Məsələ: ۲۶۰۴. Bir malı tapan insan, o malda sahibini tapmağa lazım olan hər hansı bir əlamət tapmazsa, onu özünün malı olması niyyəti ilə götürə bilməz. Ehtiyat-vacib .budur ki, onu sədəqə versin

Məsələ: ۲۶۰۵. Əgər bir şəxs, bir dirhəmdən ۱۲/۶ noxud böyüklüyündə gümüş puldan az olan və üzərində əlaməti olan bir malı taparsa, onun kimə aid olduğunu məlum olduğunu bilsə, sahibinin razı olub olmadığını bilmədiyi halda, sahibinin izni olmadan o malı özünə götürə bilməz. Amma o malın sahibi məlum olmazsa, mülkiyyətinə keçirmək niyyəti ilə onu, özünə götürə bilər. Ehtiyat-vacibə görə sahibi tapıldığı təqdirdə və aradan getmişsə, qarşılığını, aradan getməmişdirsə, malın özünü sahibinə .verməlidir. Ancaq məscidül-haramda olarsa, ehtiyat-vacibə görə götürməməlidir

Məsələ: ۲۶۰۶. Əgər bir şəxs, üzərində sahibini tapmağa yararlı olan bir əlaməti olan və dəyəri bir dirhəm miqdarında olan bir malı taparsa, onun sünni məzhəb və ya müsəlmanların himayəsi altında yaşayan zimmi bir kafirə aid olduğunu bilsə belə, o şeyin qiyməti ۱۲/۶ noxud sikkəli gümüşə dəyərində olsa, tapdığı gündən

etibarən bir həftəyədək hər gün bir dəfə, daha yaxşı olar gündə iki dəfə sonra bir ilədək ayda bir dəfə, insanların toplandığı yerlərdə elan edib eşitdirməsi lazımdır. Bu şəkildə elandan məqsəd, nümunə göstərməkdir; əsas məqsəd isə, camaatın .nəzərində bir il elan olunmuş sayılan şəkildə elan edərsə, kifayətdir

Məsələ: ٢۶٠٧. Əgər insanın özü elan etmək istəməsə, əmin olduğu şəxsə, onun .tərəfindən elan etməsini deyə bilər

Məsələ: ٢۶٠٨. Əgər bir il müddətində elan etdikdən sonra sahibi tapılmazsa, onu özü üçün götürə bilər. Lakin hər vaxt sahibini tapacağı təqdirdə, onun əvəzini vermək məqsədində olsun; və ya götürüb onun üçün saxlasın və hər vaxt tapılsa, qaytarsın; Amma ehtiyat-müstəhəb budur ki, sahibinin tərəfindən sədəqə versin və ya şəriət .hakiminə çatdırsın. Xüsusi ilə də Məkkə hərəmindən tapılarsa

Məsələ: ٢۶٠٩. Əgər bir il elan etdikdən sonra sahibi tapılmasa və malı onun üçün saxlasa və tələf olub aradan getsə, bu halda onu saxlamaqda səhlənkarlıq və həddin aşmamışsa, zamin deyil. Lakin sahibinin tərəfindən sədəqə vermiş, yaxud özü üçün götürmüş olsa, hər iki halda zamindir. Bu izahla ki, əgər onun sahibi gəlib sədəqə ilə .razı olmasa

Məsələ: ٢۶١٠. Bir malı tapan kimsə, qeyd olunan şəkildə bilərəkdən elan etməzsə, .günah etməsinə baxmayaraq yenə də elan etməsi vacibdir

Məsələ: ٢۶١١. Əgər həddi-büluğa çatmayan uşaq bir şey tapsa, onun vəlisi elan etməlidir. Əgər bir ildən sonra tapılmasa vəliy onu səğir uşaq üçün götürə, yaxud digər .iki hissəyə əməl edə bilər

Məsələ: ٢۶١٢. Əgər insan, elan etdiyi il əsnasında mal tələf olub aradan getsə, bu halda onu saxlamaqda səhlənkarlıq edib və həddin aşmışsa, gərək onun əvəzini sahibinə versin. Onu saxlamaqda səhlənkarlıq etməyib və həddin aşmamışsa, bir şey ona vacib .deyil

Məsələ: ٢۶١٣. Əgər insan, elan etdiyi il əsnasında malın sahibini tapacağına ümüdsüz .olsa onu sədəqə verə bilər

Məsələ: ۲۶۱۴. Əgər nişanəli, qiyməti ۱۲/۶ noxud ölçüsündə sikkəli gümüş dəyərinə çatan bir malı, elan etməklə sahibinin tapılmayacağı məlum olan yerdən tapsa, elə tapdığı gün sahibinin tərəfindən sədəqə verə bilər, yaxud şəri hakimə versin və ya zamin olmaq kimi özü üçün götürsün. Əgər sonradan sahibi tapılsa və sədəqə verilməsinə .razı olmasa, əvəzini qaytarmalıdır. Verdiyi sədəqənin savabı onun özünə çatır

Məsələ: ۲۶۱۵. Tapdığı bir şeyi, öz malı zənn edərək götürsə və sonra isə özünə aid olmadığını başa düşərsə, bir il müddətində elan etməlidir. Amma ayağnı itən mala .vursa tapılmış malın hökmünü ona aid etmək olmaz

Məsələ: ۲۶۱۶. Elan edərək tapdığı şeyin cinsini söyləməsi lazım deyil, "bir şey tapmışam" desə, kifayətdir. Əgər malın cinsini bildirmədən, edilən elanın bir faydası .yoxdursa, malın cinsini bildirməsi lazımdır

Məsələ: ۲۶۱۷. Əgər bir şəxs bir şey tapsa və digəri "mənim malımdır" desə, əminlik hasil olması üçün, ondan malın nişanələrini deməsini istəməlidir. Amma çox vaxt malin .sahibi də diqqət etmədiyi təqdirdə, əlamətləri deməsi lazım deyil

Məsələ: ۲۶۱۸. Əgər tapdığı şeyin qiyməti ۱۲/۶ noxud ölçüsündə olan gümüş dəyərinə çatsa, bu halda elan etmədən məsciddə, yaxud camaatın yığışdığı başqa yerlərdə .qoysa, nəticədə aradan getsə, yaxud başqası götürsə, tapan şəxs zamindir

Məsələ: ۲۶۱۹. Əgər saxlandıqda xarab olan bir şey tapsa, mümkün olan halda şəriət hakiinə əli çatırsa, şəriət hakiminin, yaxud onun vəkilinin icazəsi ilə mümkün olmazsa özü qiymət qoyub satmalı, pulunu saxlamalıdır. Əgər sahibi tapılmazsa, onun .tərəfindən sədəqə verməlidir

Məsələ: ۲۶۲۰. Əgər tapdığı şey dəstəmaz alanda, namaz qılanda onun üstündə olsa, bu .halda məqsədi onu qoruyub saxlamaqdırsa, eybi yoxdur

Məsələ: ۲۶۲۱. Əgər bir şəxsin ayaqqabısını bilərəkdən aparıb yerinə başqa bir ayaqqabı qoysalar, bu halda qalan ayaqqabının

onun ayaqqabısını aparan şəxsin olduğunu bilsə, o ayaqqabını, apardığı ayaqqabının əvəzində götürülməsinə razı olduğunu bilsə və ya yəqini olsa ki, o, bu işi bilərəkdən edib və ayaqqabını ondan geri almaq mümkün olmasa, bu axırıncı fərzdə təqas(۱) adı ilə onu öz ayaqqabısının yerinə götürə bilər. Daha yaxşı budur ki, təqas, şəri-hakimin icazəsi ilə olsun. Amma onun qiyməti öz ayaqqabısının qiymətindən artıq olsa, artıq olan miqdara sahibi tərəfdən sədəqə versin. Amma bu işin bilərəkdən olduğunu bimədiyi təqdirdə, ayaqqabı, sahibi məlum olmayan malın hökmündə olur gərək sahibini axtarıb tapsın. Əgər onu tapmaqdan naümid olsa, ehtiyat-vacib budur ki, şəri-hakimin icazəsi ilə artıq qiyməti sahibinin tərəfindən sədəqə verməlidir. Hətta ehtiyat-müstəhəb budur ki, bunun ayaqqabısını apardığına görə onun sahibinin öhdəsində olan təklifə vəfa etmək üçün götürsün sonra şəri-hakimin icazəsi ilə sahibinin .tərəfindən sədəqə versin

Məsələ: ۲۶۲۲. Əgər bir ۱۲/۶ noxud miqdarında olan gümüşdən az dəyərdə bir malı tapıb, .ona əhəmiyyət vermədən məsciddə qoysa, bir şəxs onu götürərsə, ona halaldır

---

Şəxsin haqqı verilmədiyi təqdirdə sahibinin icazəsi olmadan öz haqqını götürməyə . -۱ .deyilir

HEYVAN KƏSMƏK VƏ OVÇULUQ HÖKMLƏRİ

Point

Məsələ: ۲۶۲۳. Əgər əti halal olan heyvanın başını, sonradan deyiləcək göstərişlərə əsasən kəssələr; istər vəhşi olsun istərsə də əhli, can verdikdən sonra əti halal, bədəni pak olur. İnsanın vəty (yaxınlıq) etdiyi heyvanın başını şəri göstərişlərə əsasən də kəssələr, əti haramdır. Amma nəcasət yeyən heyvanın başını, şəriətdə müəyyən .olunan göstərişlərə əsasən istibra etmədən kəssələr, əti halal deyil

Məsələ: ۲۶۲۴. Əti halal olan vəhşi heyvanların ahu, kəklik, dağ keçisi və s. və əti halal olub sonradan vəhşiləşən əhli heyvanların qaçıb vəhşi olan ev inəyi və dəvə kimi başının kəsilməsi asanlıqla mümkün olmadığından, sonradan deyiləcək göstərişlərə əsasən ovlasalar pak və halal olur. Amma qoyun, ev toyuğu və s. kimi əti halal əhli heyvanları həmçinin, təlim verilməklə əhilləşdirilən əti halal vəhşi heyvanları ovlasalar, .pak və halal olmur

Məsələ: ۲۶۲۵. Əti halal olan vəhşi heyvan qaçıb və ya uça bildiyi təqdirdə, (ovlandıqda) pak və halal olur. Deməli, ahunun qaça bilməyən, kəkliyin uça bilməyən balasını ovlamaqla pak və halal olmur. Əgər ahu və onun qaça bilməyən balası bir güllə ilə .ovlansa, ahu halal, balası haram olur

;Məsələ: ۲۶۲۶. Əti halal, amma atıcı qanı olmayan heyvan

.məsələn, balıq, öz-özünə ölsə, pakdır; lakin ətini yemək olmaz

Məsələ: ۲۶۲۷. Atıcı qanı olmayan haram ətli heyvan (ilan kimi) başı kəsilməklə halal .olmur. Amma onun ölüsü pakdır

Məsələ: ۲۶۲۸. İt və donuz başı kəsilməklə, ov edilməklə pak olmur. Onların ətini də yemək haramdır. Yırtıcı və ət yeyən haram ətli heyvanların (canavar, pələng) başı, deyilən göstərişlərə əsasən kəsilsə, yaxud ox, güllə və s. ilə ovlansa, pak olur; amma .əti halal olmur; əgər ov iti ilə onu ovlasalar, bədəninin pak olması işkallıdır

Məsələ: ۲۶۲۹. Fil, ayı, meymun, həmçinin yerin daxilində yaşayan siçan və kərtənkələ kimi heyvanların atıcı qanı olduğu təqdirdə və öz-özünə ölsələr, nəcisdirlər; hətta, əgər başlarını kəssələr, yaxud ovlasalar belə, bədənləri pak olmur, dərisini də istifadə .etmək olmaz

Məsələ: ۲۶۳۰. Əgər diri heyvanın qarnından balası ölü doğulsa, yaxud onu ölü halda .çölə çıxarsalar, ətini yemək haramdır

HEYVANLARIN BAŞINI KƏSMƏYİN QAYDASI

Məsələ: ۲۶۳۱. Heyvanın başını kəsəndə hülqumu (nəfəs borusu), qida borusu və hülqumun iki tərəfində olan iki yoğun damar (bunlara dörd damar deyilir), boğazın altında olan çıxıntının alt tərəfindən tam, kamil şəkildə kəsilməlidir. Əgər onları .deşsələr, kifayət deyil

Məsələ: ۲۶۳۲. Dörd damarın bəzilərini kəsdikdən sonra heyvanın ölməsini gözləyib, sonra isə qalan damarlarını kəsmək kifayət deyil. Hətta bu miqdar da gözləməyib dörd damar normal şəkildə bir-birinin ardınca kəsməsələr, hələ heyvan can vermədən, .qalan damarlarını kəssələr, işkallıdır

Məsələ: ۲۶۳۳. Qurd, qoyunun boğazındakı dörd damarı bütöv parçalayarsa, o qoyunun əti haram olar. Amma boğazının bir miqdarını parçalayıb, dörd damarı sağlam qaldığı təqdidə və ya bədəninin başqa bir yerini yaralayarsa; qoyun hələ canlı olub və

.bildirilən şəri göstərişə uyğun olaraq kəsilərsə, halal və təmiz olar

HEYVANLARIN BAŞINI KƏSMƏYİN ŞƏRTLƏRİ

:Məsələ: ۲۶۳۴. Heyvanın başının kəsilməsinin beş şərt var

Heyvanın başını kəsən şəxs; istər qadın olsun istrəsə də kişi, müsəlman olmalıdır və-۱ peyğəmbərin əhli-beytinə (əleyhimus-səlam) düşmənliyi olmasın. Müməyyiz (yaxşını-pisi başa düşən) müsəlman uşağı, heyvanın başını kəsə bilər.

Heyvanın başı dəmir şeylərlə kəsilməlidir. Amma dəmir tapılmasa və heyvanın başını-۲ kəsməyəcəkləri halda murdar olacağı gözlənilərsə və ya onu kəsmək məcburiyyətində qaldıqları təqdirdə, onun dörd damarını ayıra bilən iti bir şey ilə (şüşə, daş parçası və s.) başını kəsmək olar.

Heyvanın başını kəsəndə üz, əl, ayaq və qarnı (bədəninin qabaq tərəfi) üzü qibləyə-۳ olmalıdır. Heyvanın başının üzü qibləyə kəsilməli olduğunu bilən bir şəxs, qəsdən üzünü qibləyə çevirməsə, heyvan haram olur. Amma unutsa, məsələni bilməsə, yaxud qibləni səhv salsa, yaxud qiblənin hansı tərəfdə olmasını bilməyib və ya heyvanı üzü qibləyə döndərə bilməsə, eybi yoxdur.

Heyvanın başını kəsmək istəyəndə, yaxud bıçağı onun başına qoyanda baş kəsmək-۴ niyyəti ilə Allahın adını zikr etsə, Bismillah desə kifayətdir. Amma baş kəsmək qəsdi olmadan Allahın adını desə, o heyvan pak olmur, əti də haramdır. Unutqanlıq üzündən Allahın adını deməsə, eybi yoxdur.

Heyvan kəsildikdən sonra, gözünü çırpması, quyruğunu tərpətməsi və ya ayağını-۵ yerə vurması kimi canlı olduğunu bildirən bir hərəkət etməlidir. Ehtiyat-müstəhəb görə, qanın normal həddə bədəndən axması lazımdır. Heyvanın kəsilməzdən qabaq diri olmasını bilməsə qanın normal miqdarda çölə axması ilə kifayətlənə bilməz.

DƏVƏNİN NƏHR EDİLMƏSİNİN QAYDALARI

Məsələ: ۲۶۳۵. Əgər dəvəni can verəndən sonra pak və halal olsun deyə, nəhr etmək istəsələr, gərək heyvanın başının kəsilməsindəki beş şərtdən əlavə, bıçaq, dəmir və s. kimi kəsici olan başqa şeyi, onun sinəsi ilə boynu arasındakı çüxur yerə batırsınlar.

Məsələ: ۲۶۳۶. Bıçağı dəvənin boğazına batırmaq istədikləri vaxt yaxşı olar ki, dəvə ayaq üstə olsun. Amma dizlərini yerə qoyan halda, yaxud böyrü üstə yatıb bədəninin qabağı üzü qibləyə olanda, bıçağı onun sinəsi ilə boynu arasındakı çüxur yerə batırsalar, eybi yoxdur.

Məsələ: ۲۶۳۷. Əgər bıçağı dəvənin boynundakı çüxura batırmaq əvəzinə başını kəssələr, yaxud qoyun, inək və başqalarını dəvədə olan kimi bıçağı onun boynundakı çüxura batırsalar, onların əti haram, bədənləri nəcis olur. Amma dəvənin dörd damarını kəsib diri olduğu müddətdə qeyd olunan göstərişlərə əsasən, bıçağı onun boynundakı çüxura batırsalar, əti halal, bədəni pak olur. Həmçinin, əgər bıçağı inək, qoyun və s.-in boynundakı çüxura batırıb diri olduğu müddətdə başını kəssələr halal və pakdır.

Məsələ: ۲۶۳۸. Əgər heyvan inadkar olsa və onu şəriətdə müəyyən olan göstərişlərə əsasən kəsə bilməsələr; məsələn, quyuya düşüb ölməsi gözlənilsə və şəriətdəki qaydalara əsasən kəsilməsi mümkün olmasa, onda itilik səbəbilə bədəni yaralayan bir şeylə (qılınc və nizə kimi) heyvanın bədənini yaralasalar və yaralanma nəticəsində can versə, halal olur; üzü qibləyə olması lazım deyil. Ancaq gərək heyvanların başının kəsilməsindəki deyilən sair şərtlərə riayət olunsun.

HEYVAN KƏSƏNDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR

Məsələ: ۲۶۳۹. Heyvanların başının kəsilməsində bir neçə şey

:müstəhəbdir

Qoyunun başını kəsəndə iki qabaq və bir arxa ayağını bağlayıb, bir ayağını isə, açıq-١ qoysunlar. İnəyin başını kəsəndə isə dörd ayağını bağlayıb quyruğunu açıq qoysunlar. Dəvəni nəhr edəndə qabaq ayaqlarını dizlərinə qədər, yaxud qoltuğunun altına qədər bir-birinə bağlayıb dal ayaqlarını açıq qoysunlar. Müstəhəbdir ki, toyuğun başını .kəsdikdən sonra buraxsınlar ki, qol-qanad çalsın

;Heyvanın başını kəsən şəxs, üzü qibləyə olsun-٢

;Heyvanı kəsməmişdən qabaq qabağına su qoysunlar-٣

Heyvanı, az əzab-əziyyət çəkəcək şəkildə kəssinlər; məsələn: bıçağı yaxşı itiləsinlər-۴ .və başını tez kəssinlər

HEYVAN KƏSƏNDƏ MƏKRUH OLAN ŞEYLƏR

:Məsələ: ٢۶۴٠. Bir neçə şey heyvanı kəsəndə məkruhdur

Bıçağı hulğumun arxa tərəfinə qoyub, qarşı tərəfə çəkərək hülğumu arxa tərəfdən-١ .kəsmək

Ehtiyat-vacibə görə heyvanın canı çıxmazdan qabaq başını bədənindən-٢ ayırmasınlar. Lakin bununla, heyvanın əti haram olmaz. Amma biməməzlik üzündən və .ya bıçağın iti olması səbəbi ilə heyvanın başı ayrılarsa, eybi yoxdur

.Ehtiyat-vacib budur ki, heyvanın canı çıxmazdan qabaq dərisini soymasınlar-٣

Ehtiyat-vacibə görə heyvanın canı çıxmazdan qabaq (boğazın arxası) onurğada olan-۴ .(haram) iliyi kəsmək

;Başqa heyvanların görə biləcəkləri yerdə bir heyvanın başını kəsmək-۵

Cümə gecəsi və ya cümə günü zöhrdən qabaq, heyvanın başını kəsmək; amma-۶ .ehtiyac olduqda eybi yoxdur

;İnsanın özünün bəslədiyi dörd ayaqlı heyvanın başını kəsməsi-٧

SİLAH İLƏ OV ETMƏNİN HÖKMLƏRİ

Məsələ: ۲۶۴۱. Əgər əti halal olan vəhşi heyvanı silah ilə ovlasalar və ölsə, beş şərt :daxilində bədəni pakdır

Ov silahı bıçaq, qılınc kimi kəsici, yaxud nizə, ox kimi iti olsun və itilik səbəbilə-۱ heyvanın bədənini parçalasın. Əgər heyvanı tora salmaq, çubuq, daş və s. kimi şeylərlə ovlasalar (və ölsə) pak olmur, onu yemək də haramdır. Əgər bir heyvanı tüfənglə ovlasalar, onun gülləleri iti olub heyvanın bədəninə batsa və onu parçalasa, pak və halaldır; əgər güllənin ucu iti olmasa hətta öldürmək və silah üçün də düzəldilməsə məsələn silah olmaları məlum olmayan saçme kimi kiçik güllələr, əgər onunla heyvanı öldürsələr onun halal olması işkallıdır. Əgər saçmei tüfəngdən qeyri tüfəng ilə ov etsə .istər onun gülləsi iti olsun istərsədə yastı sürətlə heyvanın bədəninə basa halaldır

Ov edən müsəlman, yaxud yaxşını-pisi başa düşən müsəlman uşağı olsun. Əgər-۲ kafir, yaxud peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) əhli-beytinə düşmən .olan bir şəxs heyvanı ovlasa, o ov halal deyil

Silahı, heyvan ovu üçün işlətsin. Amma başqa yeri nişan alsa və təsadüfən heyvana-۳ .dəyib öldürsə, o heyvan pak deyil və yeyilməsi də haramdır

Silahdan atəş açanda Allahın adını desin. Əgər qəsdən Allahın adını deməsə, ov halal-۴ .deyil. Amma unutsa, eybi yoxdur

Heyvana çatanda ölmüş olsun, yaxud diri olarsa, başını kəsmək miqdarında vaxt-۵ olmasın. Başını kəsmək miqdarında vaxt olduğu təqdirdə heyvanın başını kəsməsə və .ölsə, haramdır

Məsələ: ۲۶۴۲. Əgər biri müsəlman və digəri kafir olan iki nəfər bir heyvanı ovlasa, o heyvan halal deyil. Əgər hər ikisi müsəlman olsa, lakin ikisindən biri Allahın adını deyib .digəri qəsdən deməsə, o heyvan halal deyil

Məsələ: ۲۶۴۳. Əgər heyvanı; məsələn: güllə ilə vurduqdan sonra suya düşsə və insan onun həm güllə, həm də suya düşmək

səbəbilə can verdiyini bilsə, halal deyil. Hətta təkcə güllə səbəbilə ölüb-ölməməsində .şəkk etsə də, halal deyil

Məsələ: ۲۶۴۴. Əgər bir şəxs qəsbi it və ya qəsbi silah ilə heyvanı ovlasa, ov halal və onun öz malıdır. Amma günah etməklə yanaşı silahın və ya itin muzdunu sahibinə .verməlidir

Məsələ: ۲۶۴۵. Əgər qılınc, yaxud ov etmənin səhih olduğu başqa şeylərlə, əvvəldə deyilən şərtlərə uyğun olaraq heyvanı iki yerə bölsə, başı ilə boynu bir tərəfində qalsa və insan ona, can verməsindən sonra çatsa, hər iki hissəsi halaldır; əgər heyvan diri olsa, amma baş kəsmək üçün vaxt olmasa,(hər iki hissəsi halaldır). Əgər heyvan diri olsa və baş kəsmək üçün şəriət qaydalarına əməl etməyə vaxt olsa, baş və boyun .olmayan hissə haram, olan hissə isə halaldır. Əks halda o hissəsi də, haramdır

Məsələ: ۲۶۴۶. Əgər çubuq, daş və ov üçün səhih olmayan sair şeylərlə heyvanı iki yerə bölsələr, baş və boynu olmayan hissə haram, baş və boyun olan hissə isə diri olsa və bir miqdar diri qalması mümkün olsa, can verən halında olduğu təqdirdə başını şəriət .qaydalarına uyğun olaraq kəssələr, halaldır. Əks halda o hissə də haramdır

Məsələ: ۲۶۴۷. Əgər bir heyvanı ovlasalar və ya başını kəssələr, onun qarnından balası diri çıxsa, bu halda onu şəriət qaydalarına uyğun kəssələr, halal, əks halda isə .haramdır

Məsələ: ۲۶۴۸. Əgər bir heyvanı ovlasalar, yaxud başını kəssələr qarnından ölü balası çıxsa, bu halda onun xilqəti kamil olsa, bədənində tük, yun bitmiş olsa və anasının öldürülməsi səbəbi ilə ölmüş olsa, pak və halaldır. Amma anasının öldürülməsindən .qabaq ölmüş olsa, nəcis və haramdır

OV İTİ İLƏ OV ETMƏK

Məsələ: ۲۶۴۹. Əgər ov iti, əti halal olan vəhşi heyvanı ov etsə, onun pak və halal :olmasının altı şərti vardır

İtə elə təlim verilsin ki, hər vaxt onu ov tutmaq üçün-۱

göndərsələr getsin və hər vaxt ov dalınca getməsinin qarşısını alsalar, dayansın; Amma ov yaxınlaşanda qabağını almaqla dayansa, eybi yoxdur və adəti bu olmalıdır ki, sahibi çatmazdan qabaq ovu yeməsin. Amma ovladığı heyvanın qanını yeməyə adət .etsə, yaxud təsadüfən ovu yesə, eybi yoxdur

O iti, sahibi göndərsin; əgər göndərilmədən ovun dalınca gedib ov etsə, o heyvanı-٢ yemək haramdır. Hətta əgər öz-özünə ova getsə və sonradan sahibi ovu tez tutmaq üçün əmr versə, sahibinin səsi vasitəsi ilə tələsməsinə baxmayaraq, o ovu yeməyin .işkalı vardır

İti ov dalınca göndərən şəxs, müsəlman, yaxud yaxşını-pisi başa düşən müsəlman-٣ övladı olsun; Əgər kafir, yaxud Əhli-beyt (əleyhimüs-salam) ilə düşmənlik edən şəxs iti .göndərsə, o itin etdiyi ov haramdır

İti göndərən vaxt Allahın adını zikr etsin; Əgər qəsdən Allahın adını zikr etməsə, o ov-٤ haramdır. Amma unudaraq deməsə, eybi yoxdur. Amma ehtiyat budur ki, iti göndərən .sonra və ovu ovlamazdan qabaq Allahın adını deməsinə, kifayətlənməsin

Ov, itin dişindən aldığı yara səbəbilə ölsün; Deməli, it ovu boğsa, yaxud ov qaçmaqla,-٥ .qorxudan ölsə, halal deyil

İti göndərən şəxs, heyvanın öldüyü vaxt çatsın, yaxud diri olarsa, başını kəsmək-٦ qədər vaxt olmasın; Əgər başını kəsmək miqdarında vaxt olanda çatsa; məsələn: heyvan, göz və ya quyruğunu tərpədirsə və ya ayağını yerə vurursa, əgər başını .kəsməsə və nəticədə ölsə, halal deyil

Məsələ: ٢٦٥٠. İti göndərən şəxs, başını kəsə biləcəyi vaxt heyvana çatıb adi, yaxud tələsən halda bıçağı çıxarsa və baş kəsilmə vaxtı keçsə, nəticədə heyvan ölsə, halaldır. Əgər heyvanın başını kəsmək üçün alət olmasa və o heyvan ölsə, ehtiyat-vacib budur .ki, onun ətini yeməkdən çəkinilsin

Məsələ: ٢٦٥١. Əgər bir neçə iti birlikdə bir heyvanı ov etmək üçün göndərsələr və onların hamısında əvvəldə deyilən şərtlər

.mövcud olsa, ov halaldır. Əgər birində həmin şərtlər olmasa ov haramdır

Məsələ: ٢۶۵٢. Əgər iti bir heyvanı ov etmək üçün göndərsələr və başqa heyvanı ov etsə, halal və pakdır. Həmçinin. əgər it, o heyvanı başqa heyvanla birlikdə ov etsə, hər .ikisi halal və pakdır

Məsələ: ٢۶۵٣. Əgər aralarında bir kafir olan bir neçə nəfər birlikdə iti ova göndərsələr, o ov haramdır. Əgər hamısı müsəlman olsa, amma onlardan biri Allahın adını qəsdən deməsə, o ov haramdır. Həmçinin, göndərilən itlərdən biri əvvəldə deyilən kimi .olmasa, o ov haramdır

Məsələ: ٢۶۵۴. Əgər ov itindən başqa şahin və ov quşu bir heyvanı ov etsə, o ov halal deyil. Amma heyvanın diri olduğu vaxt çatıb şəriətdəki qaydalara əsasən başını .kəssələr, halaldır

BALIQ OVU

Məsələ: ٢۶۵۵. Suda diri olaraq tutulduqdan sonra quruda can verən pullu balıq, halaldır. Suyun içində ölərsə təmizdir, ancaq ətini yemək haramdır. Pulu olmayan balıq isə, .suyun içində diri olaraq tutulub çöldə can versə belə, haramdır

Məsələ: ٢۶۵۶. Əgər balıq sudan kənara düşsə, yaxud dalğalar onu kənara atsa, yaxud da su çəkilsə və balıq quruda qalsa, ölməmişdən qabaq bir şəxs onu əl ilə, yaxud .başqa vasitələrlə tutsa, öləndən sonra halaldır

Məsələ: ٢۶۵٧. Balığı tutan bir şəxsin müsəlman olması, onu götürən vaxt Allahın adını .deməsi, lazım deyil. Amma gərək sudan çöldə can vermiş olduğunu bilsin

Məsələ: ٢۶۵٨. Sudan ölü və ya diri olaraq tutulduğu məlum olmayan ölü bir balığ, müsəlman əlində olarsa, halaldır. Amma əgər kafir bir kimsənin əlində olarsa, onu diri .olaraq tutulduğunu söyləsə belə, insanın buna yəqini olmadığı təqdirdə, haramdır

.Məsələ: ٢۶۵٩. Ehtiyat-müstəhəbə görə diri balığı sudan kənarda, yeməsinlər

Məsələ: ۲۶۶۰. Əgər diri balığı kabab etsələr, yaxud sudan kənarda can verməmişdən qabaq öldürsələr, yeyilməsinin eybi yoxdur.

Məsələ: ۲۶۶۱. Əgər balığı sudan qıraqda iki parçaya bölsələr, balığın bir parçası canlı olaraq suya düşsə və digər parçası çöldə qalarsa, çöldə qalan hissəsin yemək olar.

ÇƏYİRTKƏ OVU

Məsələ: ۲۶۶۲. Əgər çəyirtkəni əl, yaxud başqa vasitələrlə diri tutsalar, can verəndən sonra yeyilməsi halaldır. Onu tutan şəxsin müsəlman olması, onu tutduğu vaxt Allahın adını deməsi lazım deyil. Amma ölü çəyirtkə kafirin əlində olsa və onu diri tutub-tutmaması məlum olmasa, hətta "diri tutmuşam" desə də, halal deyil. Amma onun sözünün doğruluğuna əminlik hasil olsa, halaldır.

Məsələ: ۲۶۶۳. Qol-qanadı çıxmayan və uça bilməyən çəyirtkəni yemək haramdır.

YEMƏLİLƏRİN VƏ İÇMƏLİLƏRİN HÖKMLƏRİ

Point

YEMƏLİLƏRİN VƏ İÇMƏLİLƏRİN HÖKMLƏRİ

Məsələ: ۲۶۶۴. Caynaqlı quşların (şahin quşu kimi) ətinin yeyilməsi haramdır. Qaranquş .və şanapipik məkruhdur

Məsələ: ۲۶۶۵. Əgər ruhlu bir hissəni diri bir heyvandan ayırsalar, məsələn, qoyun diri olduğu halda onun quyruğunu və ya ətinin bir miqdarını kəssələr, (o kəsilmiş tikə) nəcis .və haramdır

.Məsələ: ۲۶۶۶. Əti halal olan heyvanlarda on beş üzv haramdır

.Qan-۱

.Fəzlə-۲

.Erkəklik; cinsiyyət üzvü-۳

.(Fərc (cinsiyyət orqanı-۴

.Balalıq-۵

(.Duşul" adlanan vəzlər; (artıq ətlər"-۶

(.Erkəklik yumurtaları, (xayalar-۷

.Kəllədə yerləşən, beyndə noxud şəkilli bir hissə-۸

.Onurğa sütunun içində olan haram ilik-۹

.Onurğa sütunun iki tərəfində olan piy-۱۰

.Öd kisəsi-۱۱

.Dalaq-۱۲

.Sidik kisəsi-۱۳

.Gözlərin bəbəyi-۱۴

səh: ۵۰۵

.Dırnaqların arasında olan və “zatül-əşace” adlanan piy-۱۵

Məsələ: ۲۶۶۷. Heyvanın peyini, bövl (dəvənin bövlündən başqa) burnunun suyunu və insanın təbiətcə nifrət etdiyiyi sair iyrənc şeyləri yemək haramdır. Amma pak olsa və onun bir miqdarı camaatın nəzərində aradan getmiş sayılan tərzdə halal olan şeylərlə .qarışsa, yeyilməsinin eybi yoxdur

Məsələ: ۲۶۶۸. Torpaq yemək haramdır. Amma Həzrəti Seyyidü-şühəda İmam Hüseynin (əleyhis-salam) türbətini (şəfa üçün) (qəbri-şərifin türbəti olduğu halda) normal bir noxud miqdarında yeməyin eybi yoxdur. Lakin bu zamanda qəbirin türbətinin tapılacağı məlum deyil. Dağıstan və İrəvan gilini müalicə üçün yeməyin eybi .yoxdur

Məsələ: ۲۶۶۹. Ağıza gələn burun suyunu və bəlğəmi udmaq haram deyil. Həmçinin, dişlərin dibini təmizləyən zaman oradan çıxan yemək qalıqlarını udmağın, əgər insan .təbiətcə ondan iyrənmirsə, eybi yoxdur

.Məsələ: ۲۶۷۰. İnsana zərəri olan yeməyi yemək haramdır

Məsələ: ۲۶۷۱. At, qatır və ulaq ətinin yeyilməsi məkruhdur, Əgər bir şəxs onlarla vəty (yaxınlıq) edərsə, ətinin yeyilməsi haram olur və gərək onları şəhərdən çıxarıb başqa .bir yerdə satsınlar

Məsələ: ۲۶۷۲. Əgər inək və qoyun kimi əti halal olan heyvanla yaxınlıq edilərsə onun idrar və peyini nəcis olur, onların südünü içmək də haramdır. Gərək o heyvanı dərhal .öldürüb yadırsınlar, eləcədə vəty edən şəxs, o heyvanın plunu sahibinə ödəməlidir

Məsələ: ۲۶۷۳. Şərab içmək, (bir damcı və ya ondan az olsa belə) haramdır. Bəzi rəvayətlərdə ən böyük günah sayılmışdır. Hər şəxs onu halal hesab etsə kafirdir. İmam Cəfər Sadiqdən (əleyhis-salam) rəvayət olunub ki, buyurur: Şərab pisliklərin kökü, günahların mənşəyidir. Şərab içən kəs öz əqlini əldən verir və o vaxtda Allahı tanımır. Heç bir günahdan qorxusu olmur. Heç kəsin hörmətini saxlamır. Yaxın qohumlarının haqqına riayət etmir. Aşkar çirkinliklərdən çəkinmir. İman və tovhid ruhu

bədənindən çıxır. Naqis və xəbis, Allahın rəhmətindən uzaq olan bir ruh onda qalır. Allah, mələklər, peyğəmbərlər və möminlər ona lənət edir, ۴۰ gün namazı qəbul olmur. Qiyamət günü onun üzü qara, dili ağzından çölə çıxmış, ağzının suyu sinəsinə axan .halda susuzluqdan nalə edəcəkdir

Məsələ: ۲۶۷۴. Şərab içilən süfrənin başında oturmaq nəticəsində, onlardan (içki içənlərdən) sayılarsa, o süfrədə oturmaq haramdır. Onların süfrəsindən bir şey yemək .də haramdır

Məsələ: ۲۶۷۵. Hər müsəlmana vacibdir ki, susuzluqdan, aclıqdan ölüm ərəfəsində olan .müsəlmana çörək və su verib, onu ölümdən xilas etsin

YEMƏK YEYƏRKƏN MÜSTƏHƏB OLAN ŞEYLƏR

:Məsələ: ۲۶۷۶. Yemək yeyən vaxt bir neçə şey müstəhəbdir

.Yeməkdən əvvəl hər iki əlləri yumaq .۱

.Yeməkdən sonra əlləri yuyub dəsmalla qurlamaq .۲

Qonaqı olan hamıdan əvvəl yeməyə başlasın və hamıdan sonra əlini yeməkdən .۳ çəksin. Ev sahibi yeməzdən əvvəl əlini yusun, sonra da onun sağ tərəfində olan şəxsdən başlayaraq sol tərəfində oturan şəxsədək, əllərini yusunlar. Yeməkdən sonra ev sahibinin sol tərəfində oturan əlini yumalıdır və nəhayətdə əl yumaq növbəsi ev .sahibinin sağ tərəfində olan şəxsə, sonrada ev sahibinə çatmalıdır

Yeməyə bismillah-la başlamaq. Əgər süfrədə müxtəlif yeməklər olsa, onların hər .۴ .birini yeyərkən bismillah demək müstəhəbidir

.Yemək sağ əllə yeyilsin .۵

.Üç barmaq və ya üçdən çox barmaq ilə yeyilsin. İki barmaqla yeyilməsin .۶

Bir neçə nəfər süfrədə oturduqları zaman, hər şəxs, öz qabağındakı yeməklərdən .۷ .yesinlər

.Yemək kiçik loqma ilə götürülsün .٨

.Süfrə üstündə çox otusun və yemək yeməyi uzadsın .٩

.Yeməyi yaxşı çeynəsin .١٠

.Yeməkdən sonra aləmlərin Rəbbinə həmd etsin .١١

.Barmaqları yalamaq .١٢

Yeməkdən sonra xəlal etsin. Amma nar ağacının çubuğu ilə, reyhan, ney çubuğu və .١٣ .xurma ağacının yarpağı ilə, xəlal edilməsin

Süfrənin kənarına tökülənləri yığıb yesin. Amma çöldə yemək yeyərsə, tökülənləri .١۴ .quşlar və heyvanlar üçün saxlamağı müstəhəbdir

.Axşamın əvəlində yemək yesin. Gündüz və gecə arasında yeməsin .١۵

.Yeməkdən sonra arxa üstə uzansın və sağ ayağını, sol ayağının üstünə qoysun .١۶

.Yeməyə duzla başlasın və duzla qurtarsın .١٧

.Meyvəni yeməzdən əvvəl su ilə yusun .١٨

YEMƏK YEYƏRKƏN MƏKRUH OLAN ŞEYLƏR

.Məsələ: ٢۶٧٧. Yemək vaxtı bir neçə şey məkruhdur

.Tox halında yemək-١

Çox yemək. Rəvayətdə var ki, Allahın hər şeydən artıq, qarnı dolu olan adamdan-٢ .acığı gəlir

.Yemək yeyəndə başqalarının üzünə baxmaq-٣

.Xörəyi çox isti, yandıra-yandıra yemək-۴

.Yediyi, yaxud içdiyi şeyi üfürmək-۵

.Süfrəyə çörək qoyulandan sonra başqa şeyləri gözləmək-۶

.Çörəyi bıçaqla kəsmək-۷

.Çörəyi yemək qabının altına qoymaq-۸

.Sümüyə yapışan ətləri, heç bir şey qalmayacaq şəkildə təmizləmək-۹

.Meyvənin qabığını soymaq-۱۰

səh: ۵۰۸

.Meyvəni tamam yemədən atmaq-۱۱

SU İÇƏNDƏ MÜSTƏHƏB OLAN ŞEYLƏR

:Məsələ: ۲۶۷۸. Su içməkdə bir neçə şey müstəhəbdir

.Suyu sovurmaqla içmək-۱

.Gündüzlər ayaq üstə içmək-۲

.Su içməkdən əvvəl bismillah, axırda əlhəmdu lillah demək-۳

.Suyu üç dəfəyə içmək-۴

.Meyli olanda su içmək-۵

Su içəndən sonra, İmam Hüseyn (ələyhis-salam) və onun Əhli-beytini yad edib və-۶ .qatillərinə lənət göndərmək

SU İÇƏNDƏ MƏKRUH OLAN ŞEYLƏR

Məsələ: ۲۶۷۹. Çox su içmək, piyli yeməklərdən sonra su içmək, gecə ayaq üstə su içmək məkruhdur. Həmçinin suyu sol əllə içmək, qabın sınıq yerindən və dəstəyi olan .yerdən içmək məkruhdur

səh: ۵۰۹

NƏZR VƏ ƏHDİN HÖKMLƏRİ

Məsələ: ۲۶۸۰. Nəzr budur ki, insan müəyyən xeyir işi Allah üçün yerinə yetirməyi, yaxud .görülməməsi yaxşı olan işi, Allah üçün tərk etməyi özünə vacib etsin

Məsələ: ۲۶۸۱. Nəzrdə siyğə oxunmalıdır. Onun ərəbcə oxunması lazım deyil. Deməli, əgər "xəstəm sağalsa, Allah üçün ۱۰ tümən fəqirə vermək mənim boynumadır" desə, .səhihdir

Məsələ: ۲۶۸۲. Nəzr edən şəxs mükəlləf, aqil olmalı, öz ixtiyarı və qəsdi ilə nəzr etməlidir. Deməli, nəzr etməyə məcbur olan, əsəbləşib ixtiyarsız olaraq nəzr edən şəxslərin .nəzri səhih deyil

Məsələ: ۲۶۸۳. Malını gərəksiz işlərdə sərf edən səfeh şəxs, yaxud müflis olan şəxs .məsələn, əgər fəqirə vermək üçün bir şeyi nəzr etsə, səhih deyil

Məsələ: ۲۶۸۴. Əgər kişi, qadının nəzr etməsinin qarşısını alsa, qadın nəzr edə bilməz. Əgər ərinin icazəsi olmadan nəzr etsə onun nəzri səhihdir. Əgər əri istəsə onun nəzrini .poza bilər

Məsələ: ۲۶۸۵. Əgər qadın, ərinin icazəsi ilə nəzr etsə, ər onun nəzrini poza bilməz; və ya .buna əməl etməsinin qarşısını ala bilməz

Məsələ: ۲۶۸۶. Əgər övlad, atasının icazəsi ilə nəzr etsə, nəzrinə əməl etməlidir. Əgər ,övlad, atasının icazəsi olmadan da nəzr etsə

ehtiyata görə nəzrinə əməl etməsi vacibdir. Amma ona qadağan etmişsə nəzri səhih .deyil

Məsələ: ۲۶۸۷. İnsan, o işi nəzr edə bilər ki, görülməsi mümkün olsun. Deməli, piyada .Kərbəlaya gedə bilməyən bir şəxs, piyada getməyi nəzr etsə, nəzri səhih deyil

Məsələ: ۲۶۸۸. Əgər məkruh, haram bir iş görməyi, yaxud vacib, müstəhəb işi tərk .etməyi nəzr etsə, nəzri səhih deyil

Məsələ: ۲۶۸۹. Əgər mübah bir işi yerinə yetirməyi, yaxud tərk etməyi nəzr etsə, bu halda onu yerinə yetirməklə tərk etmək, bütün cəhətlərdən bərabər olsa, nəzri səhih deyil. Əgər yerinə yetirilməsi müəyyən cəhətdən yaxşı olsa və insan da həmin cəhəti nəzərdə tutaraq nəzr etsə (məsələn: müəyyən şey yeməyi, ibadətdə qüvvət tapması üçün nəzr etsə), onun nəzri səhihdir. Həmçinin, əgər mübah bir işin tərk olunması, müəyyən cəhətdən yaxşı olsa və insan da həmin cəhəti nəzərdə tutaraq nəzr etsə, (məsələn: tüstünün zərərli olduğuna görə, siqareti tərk etməsini nəzr etsə), nəzri .səhihdir

Məsələ: ۲۶۹۰. Əgər vacib namazı öz-özlüyündə, adi halda savabı çox olmayan bir yerdə qılmağı məsələn, otaqda qılmağı, nəzr etsə, bu halda orada namaz qılmaq müəyyən cəhətdən yaxşı olsa, məsələn, ora sakitlik olduğuna görə, insan orada hüzuri-qəlb .tapacaqsa nəzr səhihdir

Məsələ: ۲۶۹۱. Əgər bir əməli yerinə yetirməyi nəzr etsə, nəzr etdiyi qaydada yerinə yetirməlidir. Deməli, əgər ayın əvvəl günü sədəqə verməsini, yaxud oruc tutmasını, yaxud da ayın əvvəlinin namazını qılmağı nəzr etsə, bu halda həmin gündən əvvəl və ya sonra yerinə yetirsə, kifayət deyil. Həmçinin, əgər xəstəsi sağalarsa, sədəqə .verməyi nəzr etsə və sağalmamışdan qabaq sədəqə versə, kifayət deyil

Məsələ: ۲۶۹۲. Əgər oruc tutmağı nəzr etsə, amma vaxtını və miqdarını müəyyən etməsə, bir gün oruc tutması kifayətdir. Əgər namaz qılmağı nəzr edib amma miqdarını, xüsusiyyətlərini müəyyən etməsə, iki rəkətlik bir namaz qılması kifayətdir. Əgər

sədəqə verməsini nəzr edib, onun hansı maldan olmasını və miqdarını müəyyən etməsə, “sədəqə vermişdir” deyilə bilən bir şey versə, öz nəzrinə əməl etmişdir. Əgər müəyyən bir işi Allah üçün yerinə yetirməyi nəzr etsə, onda bir namaz qılsa, yaxud bir .gün oruc tutsa, yaxud bir şey sədəqə versə, öz nəzrini yerinə yetirmişdir

Məsələ: ۲۶۹۳. Əgər müəyyən bir gün oruc tutmağı nəzr etsə, gərək o günü oruc tutsun; amma o gündə səfərə çıxa bilər. Qəsdi iqamə etməsidə lazım deyil. Gərək sonra onu qəza etsin. Əgər bilərəkdən və üzürsüz oruc tutmasa, o günün qəzasından əlavə, kəffarə də verməlidir. Yəni, ya bir qul azad etməli, ya ۶۰ fəqirə təam verməli, ya da iki ay ardıcıl oruc tutmalıdır. Əgər xəstəlik yaxud iki bayramdan biri ilə bir günə düşsə və ya heyz və nifas kimi digər üzr səbəbindən o günü oruc tutmasa, (bayram, hez və nifasın günlərinin qəzasının olmamasına baxmayaraq) lazımdır ki, o gününün qəzasını .tutsun, amma kəffarəsi yoxdur

Məsələ: ۲۶۹۴. Əgər insan ixtiyar üzündən öz nəzrinə əməl etməsə, günah etmişdir və .gərək kəffarə versin. Nəzrin kəffarəsinin miqdarı keçən məslədə deyildi

Məsələ: ۲۶۹۵. Əgər müəyyən bir vaxtadək bir əməli tərk etməyi nəzr etsə, o vaxt keçəndən sonra o əməli edə bilər. Əgər vaxt keçməmişdən qabaq unudaraq, yaxud naçar olaraq o işi etsə, heç nə vacib olmur. Amma yenə də, o vaxta qədər həmin əməli etməməlidir. Əgər həmin vaxt qurtarmamışdan qabaq üzrsüz olaraq yenidən o əməli .etsə, əvvəlki məsələdə (۲۶۹۳-cü məsələdə) deyildiyi qədər kəffarə verməlidir

Məsələ: ۲۶۹۶. Bir şəxs bir əməli tərk etməsini nəzr edib, onun üçün vaxt təyin etməybsə, unutqanlıqdan, naçarlıqdan ya da bilməməzlikdən o əməli yerinə yetirsə, ona kəffarə vacib deyildir. Amma hər vaxt ixtiyarlı olaraq onu etsə; ehtiyat-vacibə .görə (۲۶۹۳-cü məsələdə) deyildiyi qədər kəffarə verməlidir

Məsələ: ۲۶۹۷. Əgər hər həftənin müəyyən gününü, məsələn, cümə gününü oruc tutmağı nəzr etsə və cümələrdən biri Fitir və

Qurban bayramına düşsə, yaxud cümə günü başqa üzr tapılsa, (məsələn, heyz vaxtına .düşsə), gərək o günü oruc tutmasın və qəzasının hökmü qeyd olundu

Məsələ: ۲۶۹۸. Əgər müəyyən qədər sədəqə verməyi nəzr etsə və sədəqə .verməmişdən qabaq ölsə, o miqdarı onun malından sədəqə vermək lazımdır

Məsələ: ۲۶۹۹. Əgər müəyyən bir fəqirə sədəqə verməyi nəzr etsə, başqa fəqirə verə .bilməz. O fəqir ölsə, ehtiyata əsasən, onun vərəsələrinə verməlidir

Məsələ: ۲۷۰۰. Əgər İmamlardan hər hansı birinin (məsələn: Həzrəti Əba Əbdillahın (əleyhis-salam) ziyarətinə getməyi nəzr edib başqa İmamın ziyarətinə getsə, kifayət deyil. Əgər müəyyən üzr səbəbilə həmin İmamı ziyarət edə bilməsə, ona bir şey vacib .deyil

Məsələ: ۲۷۰۱. Ziyarətə getməyi nəzr edən, amma ziyarət qüslü və ziyarət namazını .nəzr etməyən bir şəxsin, onları yerinə yetirməsi lazım deyil

Məsələ: ۲۷۰۲. Əgər İmamlardan, yaxud İmamzadələrdən birinin hərəmi üçün bir şey nəzr etsə, o şeyi hərəmə sərf edilməlidir. Xalça, pərdə, işıq avadanlıqları və s.-ri İmam (əleyhis-salam) və ya İmamzadələr üçün nəzr etsə, oranın zəvvar və xidmətçilərinə .verə bilər

Məsələ: ۲۷۰۳. Əgər Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm), ya İmamlardan (əleyhis-səlam) ya İlahi övliyalardan biri üçün bir şey nəzir edib müəyyən yerdə xərclənməsini qəsd edərsə, gərək ona sərf etsin. Amma müəyyən bir yerdə xərclənməsini qəsd etməyibsə, gərək onu xeyriyyə işlərinə sərf edib savabını .Peyğəmbər, İmam və İlahi övliyaya (nəzr etdiyi şəxsə) hədiyyə etsin

Məsələ: ۲۷۰۴. Sədəqə, yaxud İmamlardan birinə nəzr olunan qoyun, əgər nəzr üçün sərf olunmazdan qabaq süd versə, yaxud doğsa, nəzr edən şəxsin malıdır. Əlbəttdə nəzri belə olsun ki, bunlara aid olmasın. Əgər nəzrdən sonra münəqid olsa ehtiyat-.vacibə görə, nəzr olunan yerə sərf olunmalıdır

Məsələ: ٢٧٠٥. Əgər xəstəliyi sağalarsa, yaxud səfərdə olanı qayıdarsa, filan əməli yerinə yetirəcəyini nəzr etsə, bu halda nəzr etməmişdən qabaq xəstəliyinin sağaldığı, yaxud səfərdə olanın qayıtmış olduğu məlum olsa, nəzrə əməl etmək lazım deyil.

Məsələ: ٢٧٠۶. Əgər ata və ya ana, öz qızını seyidə ərə verəcəyini nəzr etsə, qız təklifə çatdığı zaman, özü bu işdə ixtiyarlıdır və onların nəzri etibarsızdır. Ehtiyat budur ki, qızı qeyri seyidlə evlənməyə məcbur etməsinlər.

Məsələ: ٢٧٠٧. Bir şəxs, şəri istəyinə çatarsa xeyir bir iş yerinə yetirəcəyini Allah ilə əhd etsə, istəyi yerinə yetdikdən sonra o işi yerinə yetirməlidir. Həmçinin, əgər istəyi olmadan, xeyir bir iş görməyi əhd etsə, o əməli yerinə yetirmək ona vacibdir.

Məsələ: ٢٧٠٨. Əhddə də nəzr kimi siyğə oxunmalıdır və əhd etdiyi işi yerinə yetirməlidir. Əhd etdiyi iş, gərək ibadət (vacib və müstəhəb namaz kimi) və ya yerinə yetyirilməsi mübah olsun.

Məsələ: ٢٧٠٩. Əgər öz əhdinə əməl etməsə, kəffarə verməlidir. Yəni, ya ۶٠ fəqiri doyurmalı, ya iki ay oruc tutmalı, ya da bir qul azad etməlidir. Yəni əhdə müxalif çıxmağın kəffarəsi bilərəkdən Ramazan ayının orucunu yeməyin kəffarəsi qədərdir.

AND İÇMƏYİN HÖKMLƏRİ

AND İÇMƏYİN HÖKMLƏRİ

Məsələ: ٢٧١٠. Əgər insan, hər hansı bir işi görməsi, yaxud tərk etməsi üçün (məsələn: oruc tutmasına, yaxud siqaret çəkməməyə) and içib qəsdən bu andına müxalif çıxsa, kəffarə verməlidir. Yəni, ya bir qul azad etməli, ya ١٠ fəqiri doyurmalı, ya da onları .geyimlə təmin etməlidir. Əgər bunları edə bilməsə, üç gün oruc tutmalıdır

:Məsələ: ٢٧١١. And içməyin bir neçə şərti var

And içən şəxs, gərək baliğ və aqil olsun, qəsd və ixtiyar üzündən and içsin. Deməli, .١ uşaq, dəli, sərxoş və məcburi olaraq and içənin andı, düz deyildir. Həmçinin, əsəbi .halda, ixtiyarsız and içənin də andı, düz deyildir

Yerinə yetirməsi üçün and içdiyi iş, haram və məkruh olmasın. Tərk etməsi üçün and .٢ içdiyi iş, vacib və müstəhəb olmasın. Əgər and içir ki, mubah bir işi yerinə yetirsin, gərək o işi tərk etmək, onu tərk edilməsi, camaatın gözündə yerinə yetirilməsindən yaxşı olmasın. Əgər mubah bir işi tərk etmək üçün and içirsə, gərək camaatın gözündə .onu etmək, tərk edilməsindən yaxşı olmasın

Gərək Allah təalanın müqəddəs zatından qeyrisinə dəlalət etməyən adlarından .٣ ”birinə and içilsin, (məslən; “Tanrı” və “Allah

adları kimi). Amma Allahdan başqasına da aid olan adlara and içsə, o adlar, Onun müqəddəs zatını nəzərə gətirən təqdirdə, məsələn, “Xaliq” və “Raziq”-ə and içsə, səhihdir. Əgər hər hansı, təkcə Allaha deyilməyən adlardan birinə and içdiyi zaman, .məqsədi Allah olubsa, “Səmi və Bəsir” kimi ehtiyat-vacibə görə səhihdir

Andı dilinə gətirsin. Yazarsa və ya qəlbindən keçirərsə, səhih deyildir. Amma lal .۴ .adamın işarə ilə andı səhihdir

Ona mümkün olan əməli edəcəyinə and içsin. Amma and içdiyi zaman mümkün olub, .۵ sonradan ona əməl etməkdə aciz qalarsa, o and, aciz olduğu vaxtdan etibarən ləğv olur. Həmçinin, nəzr və əhdə də, əməl etmək məşəqqətli dərəcədə dözülməz olarsa, .((ləğv olur

Məsələ: ۲۷۱۲. Əgər ata öz övladının and içməsinə qarşı çıxarsa və ya ər, öz arvadının .and içməsinə qarşı çıxarsa, onların andları səhih deyildir

Məsələ: ۲۷۱۳. Əgər övlad atanın, arvad ərinin icazəsi olmadan and içsə, ata və ya ər, .onların andlarını poza bilərlər

Məsələ: ۲۷۱۴. Əgər insan unutqanlıq və ya çarəsizlik üzündən öz andına əməl etməsə, kəffarə vacib deyil. Həmçinin, andına əməl etməməsinə məcbur etsələr, kəffarə vacib deyil. Vəsvas adam and içsə, məsələn: “Vallahi bu saat namaz qılmağa başlayıram” desə, amma vəsvaslıq səbəbi ilə qılmasa, bu halda onun vəsvaslığı, ixtiyarsız olaraq .andına əməl etməməsinə səbəb olarsa, kəffarəsi yoxdur

.Məsələ: ۲۷۱۵. And içən adamın andı iki hissəyə bölünür

.Olub keçən işlər üçün and içir .۱

Gələcəkdə edəcəyi işlər üçün and içir. Birinci surətdə andının kəffarəsi yodur. Lakin .۲ sözü düz olarsa and içməyi məkruhdur, əgər yalan olsa haram və böyük günahlardandır. Amma, özünü və ya bir müsəlmanı zalımın şərrindən qurtarmaq üçün yalan and içsə, eybi yoxdur, hətta bəzən vacibdir. Amma “toriyə” edə bilərsə, (yəni, and içdiyi zaman bir şəkildə niyyət etsin ki, yalan

olmasın), ehtiyat-müstəhəbə görə, gərək “toriyə” etsin; məsələn, bir zalım birinə əziyyət vermək üçün, “onu görməyibsən?” deyə, insandan soruşsa, o da, bir saat qabaq onu görmüş olsa, ehtiyat budur ki, (beş dəqiqə bundan əvvəl onu görmədiyini .niyyət edərək), “görməmişəm” desin

VƏQFİN HÖKMLƏRİ

VƏQFİN HÖKMLƏRİ

Məsələ: ۲۷۱۶. Əgər bir şəxs, müəyyən bir şeyi vəqf etsə, onun mülkündən çıxır. Onun özü və başqaları da, onu bağışlaya, sata bilməzlər. Heç bir şəxs, o mülkdən irs aparmır. .Amma ۲۱۰۹ və ۲۱۱۰-cı məsələlərdə deyildiyi kimi, bəzi hallarda satılmasının eybi yoxdur

Məsələ: ۲۷۱۷. Vəqfin siğəsini ərəbcə oxumaq lazım deyildir. Hətta, "evimi vəqf etmişəm" deyərsə, özü və ya vəqf etdiyi şəxs, yaxud onun vəkil və ya vəlisi "qəbul etdim" deyərsə, vəqf səhihdir. Amma xüsusi fərdlər üçün vəqf etməyibsə; məsələn: məscid və mədrəsə kimi ümumi cəmiyyət üçün vəqf etsə, yaxud fəqirlər və seyidlər üçün vəqf etsə, bir şəxsin onu qəbul etməsi lazım deyil. Hətta birinci surətdə də qəbul .etmək lazım deyil. Amma ehtiyat-müstəhəb budur ki, qəbul daha yaxşıdır

Məsələ: ۲۷۱۸. Əgər bir mülkü vəqf üçün müəyyən etsə və vəqf siğəsini oxumamışdan .qabaq peşiman olsa ya ölsə, vəqf düz deyildir

Məsələ: ۲۷۱۹. Ehtiyat-müstəhəb budur ki, bir malı vəqf edən şəxs, onu qürbət qəsdi ilə etsin. Siğə oxunan zamandan başlayaraq malı, həmişəlik vəqf etsin. Əgər vəqfi yəqin və ehtimal üzündən

sonradan hasil olan bir işdən aslı etsə və ya ehtimalən hal-hazırda baş verəcək bir işdən aslı etsə vəqf batildir, məsəslən, “əgər Allah mənə oğul verərsə, bu evi vəqf etdim” və ya “əgər bu gün cümə günü olsa” yaxud “ayın əvvəli olsa” batildir. Həmçinin, əgər “on ilədək vəqf olsun, ondan sonra olmasın” yaxud “on il vəqf olsun sonra beş il .olmasın, yenidən vəqf olsun” desə, vəqf səhih deyildir

Məsələ: ۲۷۲۰. Vəqf o vaxt səhihdir ki, vəqf olunan malı vəqf etdiyi şəxsin, yaxud onun vəkilinin və ya vəlisinin təsərrüfatına keçirsin. Amma şəxs bir şeyi öz azyaşlı övladlarına vəqf edib, o mülkün onların malı olsun deyə, onların tərəfindən saxlasa, .vəqf səhihdir

Məsələ: ۲۷۲۱. Əgər bir məscidi vəqf etsələr, vəqf edən şəxsin icazəsi ilə, o məsciddə bir .nəfərin namaz qılması, məscidin vəqf olunduğunu doğruldur

Məsələ: ۲۷۲۲. Vəqf edən şəxs mükəlləf, aqil olmalı, qəsd və ixtiyar üzündən vəqf etməli, şərən öz malından istifadə edə bilməlidir. Deməli, malını bihudə işlərdə sərf edən səfeh və ya müflis olmuş şəxs öz malından istıfadə edə bilmədiyinə görə, əgər vəqf etsə, .səhih deyil

Məsələ: ۲۷۲۳. Əgər malı, hələ dünyaya gəlməyənlər üçün vəqf etsə, düz deyildir. Amma (hazırda dünyada olanlar üçün) dirilər üçün və sonradan dünyaya gələnlər üçün, məsələn, (bu şəkildə ki,) bir şeyi övladına vəqf edə ki, onlardan sonra nəvələrinə .çatsın, (beləliklə də) ondan sonra gələn hər dəstə, ondan istifadə etsin, səhihdir

Məsələ: ۲۷۲۴. Əgər bir şeyi özünə vəqf etsə, (məsələn: bir mağazanı, gəlirinin öləndən sonra ona məqbərə tikilməsinə xərclənsin deyə, vəqf etsə) səhih deyil. Amma misal üçün; müəyyən bir malı fəqirlərə vəqf edib, özü də fəqir olsa, vəqfin mənfəətlərindən .istifadə edə bilər

Məsələ: ۲۷۲۵. Əgər vəqf olunan şey üçün mütəvəlli təyin etsə gərək onun qərardadına uyğun əməl etsinlər. Əgər mütəvəlli təyin

etməsə və müəyyən şəxlər üçün məsələn, öz övladlarına vəqf etsə, onlarda baliğ olarlarsa ixtiyar onların üzünündür. Əgər baliğ olmazlarsa ixtiyar onların vəliləri ilədir. .Vəqfdən istifadə etmək üçün şəri-hakimin icazəsi lazım deyil

Məsələ: ۲۷۲۶. Əgər müəyyən bir mülkü misal üçün; fəqirlərə, seyidlərə vəqf etsə, yaxud mənfəətinin xeyir işlərə sərf olunmasını vəqf etsə, bu halda o mülkə müəyyən .bir şəxsi vəliy təyin etməyibsə, onun ixtiyarı şəri-hakimin əlindədir

Məsələ: ۲۷۲۷. Əgər bir mülkü xüsusi şəxslərə (məsələn: öz övladına) nəsildən-nəsilə ondan istifadə etsinlər deyə vəqf etsə, bu halda o mülkün mütəvəllisi, onu icarəyə verib və ölsə, vəqfin və ya sonrakı nəslin xeyrini nəzərə alıbsa, icarə batil olmur. Əgər mütəvəllisi olmasa və vəqf olunan kəslərdən bir nəsil ona icarəyə verib, icarə müddəti əsnasında ölsələr, icarə batil olur. Əgər sonrakı nəsil onu imzalasalar (batil olmaz). İcarəçinin bütün icarə müddətinin haqqını verdiyi təqdirdə, onların öldüyü müddətdən .başlayaraq, icarə vaxtının axrınadək olan icarə haqqını, onların malından götürəcəkdir

.Məsələ: ۲۷۲۸. Əgər vəqf olunan mülk xarab olsa, vəqflikdən çıxmayır

Məsələ: ۲۷۲۹. Müəyyən miqdarı vəqf olan və onun bir qədəri də vəqf olmayan bir mülk bölünməyibsə, şəriət hakimi və ya vəqfin mütəvəllisi, əlaqədar təşkilatlar vasitəsilə, .vəqf payını, oradan ayıra bilər

Məsələ: ۲۷۳۰. Əgər vəqfin mütəvəllisi xəyanət etsə və onun gəlirini müəyyən olunduğu .yerlərə xərcləməsə, şəri-hakim, əmin bir mütəvəlli onun yerinə təyin edə bilər

Məsələ: ۲۷۳۱. Hüseyniyyə üçün vəqf olunan xalçanı, namaz üçün məscidə hətta onun yaxınlığında olsa da aparmaq olmaz. Əgər elə bir şəkildə vəqf etsələr ki, oraya aid .olarsa aparmaq olar

Məsələ: ۲۷۳۲. Əgər bir mülkü müəyyən bir məscidin təmiri üçün vəqf etsələr, bu halda o məscidin təmirə ehtiyacı olmasa və bir müddət də təmirə ehtiyacı olacağına ehtimal verilməsə, o

mülkün aidiyyatını (gəlirini) başqa təmirə ehtiyacı olan digər məscidə sərf edə bilməzlər. Əgər onların tələf olub aradan getməsinə ehtimal versə baqa məscidə .istifadə edə bilərlər

Məsələ: ٢٧٣٣. Əgər bir mülkün gəlirinin məscidin təmirinə, imam-camaətə və məsciddə azan deyən şəxsə xərclənməsi üçün vəqf etsə, əgər hər biri üçün bir miqdar müəyyən etmiş olsa, gərək o şəkildə də xərcləsinlər. Əgər təyin etməyibsə, gərək əvvəl məscidi təmir etsinlər, əgər bir şey artıq qalarsa, imam-camaətlə, azan deyənin arasında bərabər şəkildə bölsünlər. Yaxşısı budur ki, bu iki nəfər öz aralarında bölən zaman razılaşsınlar. Daha aydın budur ki, məscidin mütəvəllisinin nəzərinə əsasən əməl .etsinlər

VƏSİYYƏTİN HÖKMLƏRİ

VƏSİYYƏTİN HÖKMLƏRİ

Məsələ: ۲۷۳۴. Vəsiyyət odur ki, insan ölümündən sonra, onun üçün müəyyən işlər görülməsini, yaxud malından bir şeyi başqasının mülkünə keçirilməsini tapşırsın. Yaxud da, öz övladı və ya ixtiyarında olan şəxslər üçün qəyyum və himayəçi təyin .etsin. Vəsiyyət edilən şəxsə, "vəsi" deyilir

Məsələ: ۲۷۳۵. Əgər danışa bilməyən şəxs, işarə ilə məqsədini anlada bilərsə, hər iş üçün vəsiyyət edə bilər. Danışa bilən şəxs də, əgər işarə ilə məqsədini anlada bilsə, kiçik və az dəyərli işlərdə vəsiyyət edə bilər və səhihdir. Əgər böyük işlər üçün vəsiyyət etmək istəsə amma çox miqdarda xərc etməli olsa əgər onun işarəsi məqsədinə .dəlalət etsə kifayətdir

Məsələ: ۲۷۳۶. Əgər meyyitin imzası və ya möhrü olan bir yazı görsələr, onun məqsədini çatdırarsa və vəsiyyət üçün olduğu məlum olsa, gərək ona əsasən əməl etsinlər. Əgər o yazı, vəsiyyət etmək üçün deyil, sonradan onun əsasında vəsiyyət etmək üçün .yazılmış bir sıra yazılardırsa, ehtiyat-müstəhəb budur ki, ona əsasən əməl etsinlər

Məsələ: ۲۷۳۷. Vəsiyyət edən şəxs, gərək baliğ və ağıllı olsun, ixtiyar üzündən vəsiyyət etsin, səfeh olmasın. Yəni, öz malını mənasız işlərdə sərf etməsin. Müflis olan şəxsdə eyni hökmü

daşıyır. Amma on yaşı tamam olmuş və yaxşı ilə pisi seçən uşaq məsələn, məscid, körpü, su anbarı tikmək və digər xeyirli işlər üçün vəsiyyət etsə onun vəsiyyəti .səhihdir

Məsələ: ۲۷۳۸. Əgər bir şəxs, özünə qəsd məqsədi və ya başqa səbəblərə görə, özünü öldürməyə cəhd etsə, məsələn: özünü yaralasa və ya zəhər içsə, (nəticədə) onun ölməyinə yəqin və ya guman olarsa, əgər malından bir miqdarının xərc olunmasına vəsiyyət etsə, vəsiyyəti səhih deyildir. Bəli, əgər vəsiyyət etdikdən sonra bu işlərə əl .atıbsa, vəsiyyəti səhihdir

Məsələ: ۲۷۳۹. Əgər insan, bir şeyin birinə verilməsini vəsiyyət etsə, o şəxs, vəsiyyət edənin həyatda olduğu zaman və ya onun ölümündən sonra vəsiyyəti qəbul etsə, ona .malik olur

Məsələ: ۲۷۴۰. İnsan ölüm nişanələrini özündə gördüyü zaman, əgər ölümündən sonra, camaatın əmanətlərinə zərər dəyə biləcəyini ehtimal versə, gərək dərhal camaatın əmanətlərini sahiblərinə qaytarsın və ya onlara məlumat versin. Əgər camaata borcludursa, onu verdiyi zaman sahibinə çatacadığına əmin olduğu şəkildə versin. Əgər özü verə bilməzsə və ya verdiyi borclar çatmazsa və ya borclu olduğu şəxslər, borcun qaytarılmasının təxirə düşməsinə razı olsalar, gərək vəsiyyət etsin və vəsiyyətinə şahid tutsun. Amma onun borcu məlum olsa, vərəsə əmin şəxs oluğu təqdirdə, vəsiyyət etmək lazım deyildir. Əks təqdirdə, onu vermək üçün vəsi təyin .etsin

Məsələ: ۲۷۴۱. Ölüm nişanələrini özündə görən şəxs xüms, zəkat və boynunda məzalim(۱) varsa, gərək dərhal versin. Əgər verə bilməzsə; özünün malı varsa və ya dostlarından və yaxınlarınının onu verəcəklərinə ehtimal versə, gərək vəsiyyət etsin. .(Həmçinin, həcc ona vacib olarsa, (eyni qayda ilə

Məsələ۶: ۲۷۴۲. Ölümün nişanələrini özündə görən şəxs, əgər qəza namaz və ya orucu varsa, gərək malından, onlar üçün əcir tutulmasına vəsiyyət etsin. Əgər malı olmazsa və onların heç bir

١- . İnsanın boynunda olan və sahibini tanımadığı, yaxud sahibini tapa bilmədiyi şeylər.

şeysiz (zəhmət haqqı almadan) yerinə yetirilməsinə ehtimal versə, yenədə vacibdir ki, vəsiyyət etsin. Əgər ən böyük oğluna vacib olan, qəza namaz və orucu varsa, gərək .ona xəbər versinlər və ya yerinə yetirilməsinə vəsiyyət etsin

Məsələ: ۲۷۴۳. O şəxs ki, ölümün nişanələrini özündə görür, əgər birində malı varsa və ya bir yerdə gizlədib ki, vərəsə (onun yerini) bilməyir, bu bilməməzlik vasitəsilə onların haqqı itərsə, gərək onlara məlumat versin. Özünün kiçik uşaqları üçün qəyyim və himayəçi təyin etməsi, lazım deyil. Amma qəyyim və himayəçi olmadığı təqdirdə .onların haqqı tapdalana bilərsə, gərək onlar üçün əmin himayəçi təyin etsin

.Məsələ: ۲۷۴۴. Vəsi gərək müsəlman, baliğ, aqil, əmin və etimadlı olsun

Məsələ: ۲۷۴۵. Əgər bir şəxs, özünə bir neçə vəsi təyin edərsə, onların hər birinin ayrıca vəsiyyətə əməl etməsinə icazə versə, o vəsiyyəti həyata keçirəndə, onların bir-birlərindən icazə alması lazım deyil. Əgər icazə verməzsə, onların birlikdə vəsiyyətə əməl edib-etməmələrini demədiyi təqdirdə, gərək bir-birlərinin nəzəri ilə vəsiyyətə əməl etsinlər. Əgər birlikdə vəsiyyətə əməl etmələrinə razılaşmasalar, şəri hakim onları məcbur edəcək ki, digərənin nəzəri ilə, razılığa gəlsinlər. Əgər itaət etməsələr, .onların yerinə başqalarını təyin etsin

Məsələ: ۲۷۴۶. Əgər insan öz vəsiyyətindən dönərsə, məsələn: “malının üçdə birini, bir şəxsə versinlər” dedikdən sonra, “verməsinlər” deyərsə, vəsiyyət batil olur. Əgər öz vəsiyyətini dəyişə, məsələn: uşaqları üçün müəyyən etdiyi qəyyumun yerinə başqasını .təyin edərsə, birinci vəsiyyəti batil olur və gərək ikinci vəsiyyətinə əməl etsinlər

Məsələ: ۲۷۴۷. Əgər bir əməl vəsitəsilə, özünün vəsiyyətindən döndüyünü bildirsə, məsələn, birinə vəsiyyət etdiyi bir evi satsa və ya başqa birini, onu satmaq üçün vəkil .etsə, vəsiyyət batildir

Məsələ: ۲۷۴۸. Əgər bir şəxs, müəyyən bir şeyin bir şəxsə verilməsini vəsiyyət etdikdən sonra, onun yarsının, başqasına

verilməsini vəsiyyət etsə, gərək o şeyi ikiyə bölüb, onların hər birinə, onun bir hissəsini .versinlər

Məsələ: ۲۷۴۹. Əgər bir şəxs, onu öldürəcək bir xəstəliyə tutulduğu halda, öz malının bir miqdarını bir şəxsə bağışlasa, onun bağılaması əsil maldan hesab olunur. Əgər malının üçdə birdən çox olsa vərəsənin icazəsinə, heç bir bağlılığı yoxdur. Amma, malının bir miqdarını, öldükdən sonra bir şəxsə verilməsini vəsiyyət etsə, veriləcək mal, malının üçdə birindən çox olmasın, əgər malın üçdə birindən çox olarsa vərəsələr icazə verməlidirlər ki, onun dediyi həyata keçsin. Gərək deyilənə əməl olunsun. Əgər veriləcək mal, malının üçdə birindən çox olsa, vərəsələr də icazə verməsələr gərək .malın üçdə biri qədər vəsiyyət edilənə versinlər

Məsələ: ۲۷۵۰. Əgər malının üçdə birinin satılmamasını və ondan gələn gəlirin müəyyən .yerlərə xərclənməsini vəsiyyət etsə, gərək onun dediyinə uyğun əməl olunsun

Məsələ: ۲۷۵۱. Ölümə səbəb olacaq xəstəliyə tutulan, bir şəxsə bir miqdar borclu olduğunu desə, bu halda, vərəsələrə zərər vurmaq niyyəti ilə ittiham olunursa, gərək müəyyən etdiyi miqdarı onun malının üçdə birindən versinlər. Əgər ittiham olunmasa .və heç kəs onun dediyini inkar etnəsə, gərək malın əslindən versinlər

Məsələ: ۲۷۵۲. İnsanın bir şey verilməsini vəsiyyət etdiyi şəxs, mövcud olmalıdır. Deməli, əgər, filan qadından doğulamsı mümkün olan bir uşağa bir şey verilməsini vəsiyyət etsə, batildir. Amma anasının bətnində olan uşağa bir şey verilməsini vəsiyyət etsə, hətta hələ ruh daxil olmasa da, vəsiyyət səhihdir; əgər diri doğulsa, vəsiyyət etdiyi şeyləri ona verməlidirlər; əgər ölü doğulsa, vəsiyyət batil olur və vəsiyyət olunan .şeyləri vərəsələr öz aralarında böləcəklər

Məsələ: ۲۷۵۳. Əgər insan bir şəxsin onu vəsi etməsini bilsə, əgər vəsiyyəti yerinə yetirməyə razı olmadığını, vəsiyyət edən şəxsə xəbər versə, onun ölümündən sonra vəsiyyətə əməl etməsi lazım deyil. Amma ölməmişdən qabaq onu vəsi etməsini bilsə və ya onun vəsiyyətinə əməl edəcəyinə razı olmadığını ona xəbər

verməsə, yaxud da, daha başqasına vəsiyyət edə bilmədiyi halda ona xəbər versə, məşəqqətli olmadığı təqdirdə, gərək onun vəsiyyətinə əməl etsin. Musinin xəstəliyinin şiddətlənməsi səbəbi ilə, başqasına vəsiyyət edə bilməyəcəyi vaxt xəbərdar olsa, .gərək vəsiyyəti qəbul etsin

Məsələ: ۲۷۵۴. Əgər vəsiyyət edən şəxs ölsə, vəsi meyyitin işlərini yerinə yetirmək üçün başqasını təyin edib, öz boynundan ata bilməz. Amma vəsiy başqa bir nəfəri meyyitin işlərini görmək üçün təyin edə bilər. Əgər digər bir vəkil tutmaq meyyitin xeyrinə olarsa və ya meyyitin işlərini yerinə yetirməyi başqasının öhdəsinə qoyarsa eybi .yoxdur

Məsələ: ۲۷۵۵. Əgər bir şəxs, iki nəfəri vəsi etsə və o iki nəfərdən biri ölsə və ya kafir, yaxud dəli olsa, şəri hakim, onun yerinə başqa bir nəfəri təyin etməlidir. Əgər hər ikisi ölsələr, yaxud dəli və ya kafir olsalar, şəri hakim başqa iki nəfəri təyin etməlidir. Əgər .bir nəfər vəsiyyəti yerinə yetirə bilsə iki nəfər təyin etmək lazım deyil

Məsələ: ۲۷۵۶. Əgər vəsi, tənhalıqda ölünün işlərini yerinə yetirə bilməzsə, şəri hakim .ona kömək üçün digər bir nəfəri təyin edir

Məsələ: ۲۷۵۷. Əgər meyyitin malının bir miqdarı, vəsinin əlində tələf olsa; əgər onu saxlamaqda səhlənkarlıq edib və ya həddini aşıbsa, (məsələn: meyyit, malının bir miqdarını hər hansı bir şəhərin fəqirlərinə verməyi vəsiyyət etdiyi halda, o isə, həmin malı başqa şəhərə aparsa və yolda tələf olsa) zamindir. Əgər onu saxlamaqda .səhlənkarlıq etməyib və ya həddini aşmayıbsa zamin deyil

Məsələ: ۲۷۵۸. İnsan bir nəfəri vəsi etdiyi zaman desə ki, “əgər o şəxs ölsə, filan şəxs .vəsi olsun,” birinci vəsi öləndən sonra, gərək ikinci vəsi, meyyitin işlərini yerinə yetirsin

Məsələ: ۲۷۵۹. Meyyitə vacib olan həcc, borc, xüms, zəkat və məzalim kimi haqlar, hətta meyyit onlar üçün vəsiyyət etməmişsə də, yerinə yetirilməsi vacibdir; malının əslindən .verilməlidir

Məsələ: ٢٧۶٠. Əgər meyyitin malı onun borc, vacib həcc, habelə xüms, zəkat, məzalim kimi borclarından artıq gəlsə, bu halda malının üçdə birini, yaxud üçdə birinin bir hissəsinin müəyyən yerə xərclənməsini vəsiyyət etmiş olsa, onun vəsiyyətinə əməl .edilməlidir. Əgər vəsiyyət etməmiş olsa yerdə qalan mal vərəsələrindir

Məsələ: ٢٧۶١. Əgər meyyitin srəf olunmağa müəyyən etdiyi mal, onun malının üçdə birindən çox olsa, onun üçdə birindən çox olan vəsiyyəti o vaxt səhihdir ki, vərəsələrin danışmağı və ya müəyyən bir iş ilə, vəsiyyətin yerinə yetirilməsinə icazə vermələri, məlum olsun; onların təkcə razı olmaları kifayət deyil. Əgər onun ölümündən bir .müddət sonra da icazə versələr, səhihdir

Məsələ: ٢٧۶٢. Əgər meyyitin sərf olunmağa müəyyən etdiyi mal, onun malının üçdə birindən çox olsa və ölməmişdən qabaq vərəsələr də, onun vəsiyyətinə əməl .olunmasına icazə versələr, o öləndən sonra icazə vermək fikrindən dönə bilməzlər

Məsələ: ٢٧۶٣. Əgər bir nəfər, onun malının üçdə birindən xüms, zəkat, yaxud başqa borclarının verilməsini, həmçinin qəza namaz-orucları üçün əcir tutulmasını və müəyyən müstəhəb əməlləri də (məsələn: fəqirə təam vermək kimi) yerinə yetiriilməsini vəsiyyət etsə, bu halda əvvəlcə vacibatı onun malının üçdə birinndən verməlidirlər. Əgər artıq olsa, onun namaz və orucu üçün əcir tutsunlar. Əgər ondan da artıq olsa, müəyyən etdiyi müstəhəb işlərə sərf etsinlər. Əgər onun malının üçdə biri, təkcə onun borclarını ödəyəcək qədər olsa, vərəsə də, malın üçdə birindən artıq xərc olunmasına icazə verməsə, namaz, oruc və müstəhəb işlər üçün olan vəsiyyət .batildir

Məsələ: ٢٧۶۴. Əgər borcunun verilməsini və qəza namaz-orucları üçün əcir tutulmasını, həmçinin müstəhəb iş görülməsini vəsiyyət etsə, bu halda onların, malın üçdə birindən edilməsini vəsiyyət etməsə, borcunu malın əslindən verməlidirlər. Əgər artıq qalsa, onun üçdə birini namaz, oruc və müəyyən etdiyi müsthəb işlərə sərf etməlidirlər. Amma üçdə biri çatmasa, bu halda

vərəsələr icazə versələr, vəsiyyəti əməli olaraq həyata keçirilməlidir. Əks halda isə, namaz-orucları üçün malın üçdə birindən verməli, artıq qalarsa, müəyyən etdiyi .müstəhəb işlərə sərf etməlidirlər

Məsələ: ۲۷۶۵. Əgər bir şəxs, deyə ki, ölü vəsiyyət edibdir ki, filan məbləği mənə versinlər, əgər iki adil kişi onun dediyini təsdiq etsələr və ya and içsə və bir adil kişi onun dediyini təsdiq etsə, yaxud bir adil kişi və iki adil qadın, ya da dörd adil qadın onun dediyinə şəhadət versələr, gərək onun dediyi miqdarı ona versinlər. Əgər bir adil qadın şəhadət versə, tələb etdiyinin dörddə birini ona versinlər. Əgər iki adilə qadın şəhadət versə, onun yarsını, əgər üç adil qadın şəhadət versə, gərək dördə üçünü ona versinlər. Əgər iki zimmi kafir kişi öz dinlərində adildirlərsə, onun dediyinə şəhadət versələr; (ölünün vəsiyyət etdiyi zaman adil kişi və qadının olmadığına görə, çarəsiz qalıb onlara vəsiyyət etdiyi surətdə) gərək vəsiyyətə əməl olunsun və onun tələbi ona .verilsin

Məsələ: ۲۷۶۶. Əgər bir şəxs, “mən ölünün vəsisiyəm və onun malından istifadə etməyi, mənə tapşırıb” desə və ya “məni öz uşaqlarına qəyyum təyin edib,” iki adil kişi onu .təyid edəcəyi təqdirdə, gərək onun sözü qəbul olunsun

Məsələ: ۲۷۶۷. Əgər müəyyən şeyin, bir şəxsə verilməsini vəsiyyət etsə, o kəs də vəsiyyəti qəbul, yaxud rədd etməmişdən qabaq ölsə, onun vərəsələri vəsiyyəti rədd etməyincə, o şeyləri qəbul edə bilərlər. Bu şərtlə ki, vəsiyyət edən, öz fikrindən .dönməsin. Əks təqdirdə, o şeydə haqqları yoxdur

İRSİN HÖKMLƏRİ

Point

İRSİN HÖKMLƏRİ

:Məsələ: ۲۷۶۸. Qohumluq vasitəsilə irs aparan şəxslər üç dəstədir

Birinci dəstə: Ata, ana və meyitin övladı. Övlad olmadığı halda, övladın övladı və hər nə qədər aşağı getsə.

Bunlardan hər hansı meyyitə daha yaxındırsa, irs, ona çatır. Bu dəsətdən bir nəfər olduğu halda, ikinci dəstəyə irs düşmür.

İkinci dəstə: “Cədd”, yəni, baba və onun atası, bundan sonra hər nə qədər yuxarı getsə. “Cəddə” yəni, nənə və onun anası, bundan sonra hər nə qədər yuxarı getsə; istər ata tərəfindən olsunlar, istərsə də ana tərəfindən) və qardaş və bacı; qardaş və bacı olmadıqda, onların övladlarına; onlardan, meyyitə daha yaxın olan, irs aparır. Bu dəstədən bir nəfər olduğu halda, üçüncü dəstəyə irs çatmır.

Üçüncü dəstə: Əmi və bibi (onlardan başlayaraq) hər nə qədər yuxarı getsələr, (sonrakı məsələdə deyilən sıra ilə); dayı və xala və hər nə qədər yuxarı getsə və onların övladlarından başlayaraq, hər nə qədər aşağı getsə. Meyyitin əmilərindən, bibilərindən, dayılarından və xalalarından biri həyatda olduğu halda, onların övladlarına irs çatmır. Amma meyyitin ata tərəfdən olan əmisi, yaxud atasının ya da anasının əmisi oğlu varsa və varislik bu iki

nəfərə aiddirsə, başqa varis olacaq dayı və xala olmazsa, irs atasının əmisinə deyil, ata .anasının əmisi oğluna çatır

Məsələ: ۲۷۶۹. Əgər meyyitin özünün əmi, bibi, xala, onların övladları və övladlarının övladları olmasalar, meyyitin ata və anasının əmi, bibi, dayı və xalası irsə sahib olurlar. Əgər bunlar olmasalar, meyyitin baba və nənəsinin əmi, bibi, dayı və xalsına və onlar .da olmasa, onların övladlarına irs çatır

Məsələ: ۲۷۷۰. Arvad və ərin irsi, "ər və arvadın irsi" bölməsində deyiləcəyi şəkildə, bir-.birlərinə çatır

BİRİNCİ DƏSTƏNİN İRSİ

Məsələ: ۲۷۷۱. Əgər meyyitin varisi, təkcə birinci dəstədən bir nəfərdirsə, (məsələn: ata və ya ana, yaxud bir oğul və ya bir qız), meyyitin bütün malı, ona çatır. Əgər neçə oğlan və ya neçə qız olarsa, bütün mal bərabər şəkildə onların arasında bölünür. Əgər bir oğlan və bir qızdırsa, malı üç qısmə bölüb, iki qismini oğlana və bir qismini qıza verilir. Əgər neçə oğlan və neçə qız olsalar, hər oğlan, qıza nisbətən iki dəfə artıq ala biləcək .şəkildə, mal bölünür

Məsələ: ۲۷۷۲. Əgər meyyitin varisi, təkcə onun ata-anasıdırsa, mal üç hissəyə bölünür; iki hissəsi ataya və bir hissəsi anaya çatır. Amma meyyitin iki qardaşı və ya dörd bacısı və ya bir qardaşı və bir bacısı varsa ki, hamısının atası birdir, (atalarının bir olmasının mənası odur ki, onların və meyyitin atası bir olsun), həmçinin, azad və müsəlman olsunlar; istər anaları, meyyitin anası olsun və ya olmasın. Əlbəttə meyyitin ata anası olduğu halda, onlara irs çatmır. Amma onlar olarsa, ana altıda bir və qalanı ataya .verilir

Məsələ: ۲۷۷۳. Əgər meyyitin varisi təkcə ata-ana və bir qız olsa, əgər meyyitin iki qardaş və ya dörd bacısı, yaxud bir qardaşı və bir bacısı (atadan bir) olmasa, mal beş hissəyə bölünür; ata və ana hər biri, onun bir hissəsini və qız onun üç hissəsini aparır. Əgər iki qardaş və ya dörd bacı, yaxud bir qardaş və iki bacısı (atadan bir) olsa, mal altı hissəyə bölünür, ata ananın hər biri bir

hissə və qıza üç hissə çatır. Qalan ikidə biri dörd yerə bölüb, bir hissəsini ataya, üç hissəsini isə, qıza verirlər. Məsələn: meyyitin malını ۲۴ hissəyə bölsələr, onun ۱۵ .hissəsini qıza, ۵ hissəsini ataya və dörd hissəsini anaya verirlər

Məsələ: ۲۷۷۴. Əgər meyyitin varisi təkcə ata-ana və oğlan olsa, malı altı hissəyə bölürlər; ata-ananın hər biri bir hissə, oğlan dörd hissə aparır. Əgər bir neçə oğlan və bir neçə qız olarsa, o dörd hissəni onların arasında bərabər şəkildə bölürlər. Əgər oğlan və qız olsalar, o dörd hissəni, hər oğlana, qıza düşənin iki bərabəri düşəcək .şəkildə bölürlər

Məsələ: ۲۷۷۵. Əgər meyyitin varisi təkcə ata və bir oğlan və ya ana və bir oğlan olarsa, .malı altı hissəyə bölürlər; bir hissəsi ata və ya anaya, beş hissəsini isə oğlana verirlər

Məsələ: ۲۷۷۶. Əgər meyyitin varisi təkcə ata və ya ana oğlan və qızla birlikdə olsalar, malı altı hissəyə bölürlər; bir hissəsini ata və ya anaya, qalanını isə elə bölürlər ki, hər .oğlan qıza nisbətən iki bərabər aparır

Məsələ: ۲۷۷۷. Əgər meyyitin varisi təkcə ata və bir qız, yaxud ana və bir qız olsa, malı .dörd hissəyə bölüb bir hissəsini ata yaxud anaya, qalalnını isə qıza verirlər

Məsələ: ۲۷۷۸. Əgər meyyitin varisi təkcə ata və bir neçə qız, yaxud ana və bir neçə qızdırsa, malı beş hissəyə bölüb bir hissəsini ata, yaxud anaya, dörd hissəsini isə .qızların arasında bərabər şəkildə bölürlər

Məsələ: ۲۷۷۹. Əgər meyyitin övladı olmasa, onun oğul nəvəsi qız da olsa, meyyitin oğlunun səhmini aparar. Onun qız nəvəsi oğlan da olsa, meyyitin qızının səhmini aparar, məsələn; əgər meyyitin öz qızından bir oğlu və oğlundan bir qızı olsa, malı üç yerə böləcəklər, onun bir hissəsini qızının oğluna, iki hissəni isə oğlunun qızına .verəcəklər

Məsələ: ۲۷۸۰. Payına irs düşən ikinci yaxın dəstə cədd-yəni, babası və cəddə-yəni, nənəsi, qardaşı və bacısıdır. Əgər qardaş və bacısı yoxdursa, irs onların övladlarına .çatır

Məsələ: ۲۷۸۱. Əgər meyyitin varisi təkcə bir qardaş və ya bir bacıdırsa, bütün mal ona çatır. Əgər ata və anadan neçə qardaş, yaxud ata və anadan neçə bacısı varsa, mal onların arasında bərabər şəkildə bölünür. Əgər ata və anadan qardaş və bacı birlikdədirlərsə, hər qardaş, bacıya düşən payın iki bərabəri qədər aparır; məsələn, əgər ata və anadan iki qardaş və bir bacı varsa, malı beş qismə bölüb qardaşlardan .hər biri iki qismini və bacıya onun bir qlsmi düşür

Məsələ: ۲۷۸۲. Əgər meyyitin ata-anadan bacı və qardaşı varsa, atadan olan qardaş və bacısının anaları ayrıdırsa, irs aparmırlar. Əgər ata-anadan qardaş və bacısı yoxdursa, atadan bir bacı, yaxud qardaşı olduğu halda, bütün mal ona çatır. Əgər atadan bir neçə qardaş, yaxud neçə bacı varsa, bərabər şəkildə mal onların arasında bölünür. Əgər atadan qardaş və bacısı varsa, hər qardaş, bacıya çatan payın iki bərabəri qədər, .irsə sahib olur

Məsələ: ۲۷۸۳. Əgər ölünün varisi anadan bir, lakin ölünün atasından ayrı olan bacı, yaxud qardaşdırsa, bütün mal ona çatır. Əgər ondan bir neçə bacı, yaxud ondan neçə .qardaşı və bacısı olsa, bərabər şəkildə mal onların arasında bölünür

Məsələ: ۲۷۸۴. Əgər ölünün ata-anadan qardaş və bacı, atadan qardaş və bacısı, anadan bir qardaş, yaxud bir baçısı olsa, atadan olan qardaş və bacıya irs çatmır. Malı altı hissəyə bölüb, bir hissəsini anadan olan qardaşa, yaxud bacıya, qalanını ata-anadan olan qardaş və bacıya verirlər. Hər qardaş, bacının payına düşən irsin, iki .bərabəri miqdarına sahib olur

Məsələ: ۲۷۸۵. Əgər ölünün ata-anadan qardaş və bacısı, atadan qardaş və bacısı və anadan qardaş və bacısı varsa, atadan olan qardaş və bacısına irs çatmır. Malı, üç qismə bölürlər; bir qismini

ana tərəfindən olan qardaş və bacının arasında bərabər bölürlər. Qalanını, ata-anadan bir olan qardaş və bacıya verirlər. Hər qardaş, bacıya düşən irsin iki .bərabərinə sahib olur

Məsələ: ۲۷۸۶. Əgər ölünün varisi təkcə qardaşı, yaxud atadan bir olan bacısı və ana tərəfdən bir qardaşı, yaxud anadan bir bacısı olsa, malı altı hissəyə bölüb bir hissəsini anadan olan qardaş, yaxud bacıya, qalanını atadan olan qardaş, yaxud bacıya verirlər. .Hər qardaş, bacıya çatan irsin iki bərabərinə sahib olur

Məsələ: ۲۷۸۷. Əgər ölünün varisi təkcə ata tərəfindən qardaş və bacısı və ana tərəfindən bir neçə qardaş və bacısı olsa, malı üç qismə bölürlər; bir hissəsini ana tərəfindən olan qardaş və bacının aralarında bərabər şəkildə bölürlər. Qalanını, ata tərəfindən olan qardaş və bacıya verirlər. Hər qardaş, bacıya çatacaq irsin, iki .bərabərinə sahib olur

Məsələ: ۲۷۸۸. Əgər ölünün varisi təkcə qardaş, bacı və arvadıdırsa, arvad öz irsinə, (ərlə arvadın irsi bölmündə açıqlandığı kimi) sahib olur. Bacı və qardaş isə, keçən məsələlərdə deyildiyi şəkildə, irsə sahib olacaqlar. Həmçinin, əgər bir arvad ölsə, onun varisi təkcə bacı, qardaş və əridirsə, ərinə, irsin yarısı çatır. Bacı və qardaşa, keçən məsələlərdə deyilən şəkildə irs çatır. Ancaq arvad, yaxud ərə, irs çatan zaman, ana tərəfindən olan qardaş və bacının payından azalmayacaq; ata-anadan bir olan və ya ata tərəfindən bir olan qardaş və bacının payından azalır. Məsələn: əgər ölənin varisi əri, ana tərəfindən olan qardaş və bacısı, ata-ana tərəfindən olan qardaş və bacısıdırsa, malın yarısı ərə, əsl malın üçdə biri, ana tərəfindən olan qardaş və bacıya verirlər. Maldan qalan hissə isə, ata-anadan olan qardaş və bacıya çatır. Deməli, əgər onun bütün malı altı tüməndirsə, üç tümən ərə, iki tümən ana tərəfindən olan qardaş .və bacıya, ata-anadan olan qardaş və bacıya isə, bir tümən verirlər

Məsələ: ۲۷۸۹. Əgər ölənin qardaş və bacısı yoxdursa, onların irs payını övladlarına verirlər. Ana tərəfindən olan qardaşının övladı və bacısının övladının ararsında bərabər .şəkildə bölünür

Ata və ya ata-ana tərəfindən olan qardaşının övladına, yaxud bacısının övladına düşən .paylarda, hər oğlana, qızın iki misli qədəri irs çatır

Məsələ: ۲۷۹۰. Əgər ölənin varisi təkcə bir baba, yaxud bir nənə (istər ata tərəfdən, istərsə də, ana tərəfdən) olarsa, bütün mal ona çatır. Ölənin babası olduğu halda, .babasının atasına irs çatmır

Məsələ: ۲۷۹۱. Əgər ölənin varisi təkcə bir baba, yaxud ata tərəfindən nənəsi olarsa, mal üç qismə bölünür; iki qismi babaya və bir qismi nənəyə verilir. Əgər nənə .tərəfindən olan baba və nənə olarsa, malı öz aralarında bərabər şəkildə bölürlər

Məsələ: ۲۷۹۲. Əgər ölünün varisi təkcə baba, yaxud ata tərəfindən nənəsi, ya da ana tərəfindən nənəsi olarsa, mal üç qismə bölünür; iki hissəsi babaya, yaxud ata tərəfindən olan nənəyə və bir hissəsi babaya, yaxud da ana tərəfindən olan nənəyə .çatır

Məsələ: ۲۷۹۳. Əgər ölünün varisi baba, yaxud ata tərəfindən olan nənəsi, baba və ana tərəfindən olan nənəsi olarsa, mal üç qismə bölünür; onun bir hissəsini baba və ana tərəfindən olan nənəsi öz aralarında bərabər bölürlər. iki hissəsini də, baba və ata .tərəfindən olan nənəsinə verirlər. Babaya, nənənin iki bərabəri qədər irs düşür

Məsələ: ۲۷۹۴. Əgər ölənin varisi təkcə arvad, baba, ata tərəfindən babası, baba və ana tərəfindən nənəsi olsa, arvada (ərlə arvadın irsi bölmündə deyildiyi kimi) irs çatır. Əsl malın üçdə bir hissəsini, baba və ana tərəfindən nənəsinə verirlər və onlar malı öz aralarında bərabər şəkildə bölürlər. Qalan hissəsini, baba və ata tərəfindən olan nənəsinə verirlər. Baba, nənənin iki misli qədər irsə sahib olur. Əgər ölünün varisi ər, baba və nənədirsə, ər malın yarısına, baba və nənə isə, keçən məsələdə deyildiyi kimi, .öz irsinə sahib olur

ÜÇÜNCÜ DƏSTƏNİN İRSİ

,Məsələ: ۲۷۹۵. Üçüncü dəstə, meyyitin əmisi, bibisi, dayısı

xalası və onların övladlarıdır. Yuxarıda qeyd olunduğu kimi, əgər birinci və ikinci .təbəqədən bir şəxs olmazsa, yalnız bu halda, üçüncü dəstə irs aparır

Məsələ: ۲۷۹۶. Əgər ölünün varisi təkcə bir əmi, yaxud bir bibidirsə, istər ata-anadan bir olsun (yəni, ölənin atası ilə bir ata anadandırlar) istərsə də, təkcə atadan, yaxud da ana tərəfindən olsun, bütün mal ona çatır. Əgər bir neçə əmi, yaxud neçə bibisi olarsa, hamısı ata-anadan, yaxud atadan bir bir olsalar, yaxud da, ana tərəfindən bir olsalar, mal bərabər şəkildə onların arasında bölünəcək. Əgər əmi və bibinin hər ikisi olsalar və ya (hamı ata ana tərəfindən bir olsalar və ya hamı ata tərəfindən bir olsalar) əmiyə, bibinin iki misli qədəri irs çatır. Məsələn: əgər ölünün varisi iki əmi və bir bibidirsə, malı beş qismə bölürlər; bir hissəsini bibiyə verirlər və dörd hissəsini isə əmilər, öz .ararlarında bərabər şəkildə bölürlər

Məsələ: ۲۷۹۷. Əgər ölünün varisi təkcə ana tərəfindən bir neçə əmi və bibisi olarsa, mal onların arasında bərabər şəkildə bölünür. Amma ehtiyat-vaci budur ki, ana tərəfindən .bir neçə əmi və bibi olduqları halda, malın bölünməsində, bir-birləri ilə razıla gəlsinlər

Məsələ: ۲۷۹۸. Əgər ölünün varisi əmi və bibi olsa, onlardan bəzisi ata tərəfindən, bəzisi də ana tərəfindən olsalar, ata tərəfindən olan əmi və bibiyə irs çatmır. Deməli, ölünün varisi ana tərəfindən bir əmi və ya bir bibi olarsa, malı altı qismə blürlər; bir hissəsini ana tərəfindən əmi, yaxud bibiyə və qalanını, ata-ana tərəfindən olan əmi və bibiyə verirlər; (ata-ana tərəfindən olan əmiyə, ata-ana tərəfindən olan bibinin, iki misli qədər irs çatır). Əgər ana tərəfindən həm əmi, həm də bibisi olarsa, malı üç qismə bölürlər; iki hissəsini ata-ana tərəfindən olan əmi və bibiyə verirlər və əmiyə iki dəfə çox çatır. Bir hissəni isə, ana tərəfindən əmi və bibiyə verirlər ki, bu da, onların arasında bərabər şəkildə bölünür. Ehtiyat-vacib budur ki, bölüşdürəndə bir-birləri ilə .razılaşsınlar

Məsələ: ۲۷۹۹. Əgər meyyitin varisi təkcə bir dayı və ya bir xala olsa, malın hamısı ona çatır. Əgər həm dayısı, həm də xalası olsa

və hamısı da, ata-anadan, yaxud atadan və ya anadan bir olsalar, mal onların arasında bərabər şəkildə bölünməlidir. Ehtiyat-vacib budur ki, malı bölməkdə bir-biri .ilə razılaşsınlar

Məsələ: ۲۸۰۰. Əgər ölünün varisi təkcə bir dayı və ya ana tərəfindən bir xala və ata-ana trəfindən bir dayı və xaladırsa, ata tərəfindən dayı və xalaya irs çatmır. Malı altı qismə bölüb bir hissəsini dayı və ya ana tərəfindən xalasına və qalanını ata-ana tərəfindən .dayı və xalasına verirlər ki, malı aralarında bərabər şəkildə bölsünlər

Məsələ: ۲۸۰۱. Əgər ölünün varisi təkcə ata tərəfindən dayı və xalası, ana tərəfindən dayı və xalası, ata-ana tərəfindən dayı və xalası olsalar, ata tərəfindən olan dayı və xalaya irs çatmır. Gərək malı üç qismə bölüb, onun bir hissəsini ana tərəfindən olan dayı və xala öz ararlarında bərabər şəkildə bölsünlər. Qalanı, ata-ana tərəfindən olan .dayı və xalaya verirlir və onlar da, onu öz aralarında bərabər şəkildə bölürlər

Məsələ: ۲۸۰۲. Əgər ölünün varisi bir dayı, yaxud bir xala və bir əmi və ya bir bibi olarsa, malı üç qismə bölürlər; bir hissəsini dayı ya xalaya və qalan hissəsini isə əmi, yaxud .bibiyə verirlər

Məsələ: ۲۸۰۳. Əgər ölünün varisi bir dayı, yaxud bir xala, əmi və bibi olsa, əgər əmi və bibi ata-ana tərəfindən, yaxud ata tərəfindən olsalar, malı üç qismə bölürlər; bir hissəsini dayı və ya xalaya, qalan iki hissəsindən əmiyə və bir hissə də, bibiyə verirlər. Buna görə də, əgər malı doqquz qismə bölsələr, üç hissəsini dayı, yaxud xalaya, dörd .hissəsini əmiyə və iki hissəsini bibiyə verirlər

Məsələ: ۲۸۰۴. Əgər ölünün varisi bir dayı və ya bir xala və bir əmi və ya ana tərəfindən bir bibi, əmi və ata-ana tərəfindən əmi və bibidirsə, malı üç qismə bölürlər. Bir hissəsini dayı, yaxud xalaya verirlər. Qalan iki hissəni altı qismə bölürlər; onun bir hissəsini əmi, yaxud ana tərəfindən bibiyə, qalan beşdə birini, ata-ana tərəfindən, yaxud ata tərəfindən olan əmi və bibiyə verirlər. Əmiyə, bibinin iki misli qədər irs çatır. Buna görə də, əgər malı doqquz hissəyə bölsələr, üç hissəsini dayıya, yaxud xalaya, bir

hissəsini əmi, yaxud ana tərəfindən olan bibiyə və digər beş hissəni isə, əmi və ata-
.ana tərəfindən və ya ata tərəfindən olan bibiyə verirlər

Məsələ: ۲۸۰۵. Əgər ölünün varisi bir dayı və ya bir xala və əmi, ana tərəfindən olan bibi, ata-ana tərəfindən olan və ya ata tərəfindən olan əmi və bibidirsə, malı üç qismə bölürlər; onun bir qismini ana tərəfindən olan əmi və bibinin arasında bərabər şəkildə bölürlər. Ehtiyat-vacib budur ki, razılığa gəlsinlər, necə ki, (yuxarıda) deyildi. İkidə birini, əmi və ata-ana tərəfindən olan və ya ata tərəfindən olan bibiyə verirlər. Əmiyə, bibinin iki misli qədər irs çatır. Buna görə də, əgər malı doqquz qismə bölsələr, onun üç hissəsi xala və ya dayıya, iki hissəsini əmi və ana tərəfindən olan bibiyə, dörd hissəsini
.isə, əmi və ata-ana və ya ata tərəfindən olan bibiyə verirlər

Məsələ: ۲۸۰۶. Əgər ölünün varisi neçə dayı və xala olsa ki, hamı ata ana və ya ana tərəfindəndirlər, əmi və bibisi də olsa, malı üç qismə bölürlər; onun iki hissəsini keçən məsədə deyildiyi kimi, əmi və bibi, öz aralarında bölürlər. Bir hissəsini isə, dayılar və
.xalalar, bərabər şəkildə öz aralarında bölürlər

Məsələ: ۲۸۰۷. Əgər ölünün varisi dayı və ya ana tərəfindən xalası, yaxud ata-ana və ya ata tərəfindən olan bir neçə dayı və xalası, ya da əmi və bibi olsa, malı üç qismə bölürlər. Onun iki hissəsini, keçən məsələdə deyildiyi kimi, əmi və bibi, öz aralarında bölürlər. Deməli, əgər ölünün bir dayı və ya ana tərəfindən xalası varsa, onun ikinci hissəsini, altı qismə bölürlər; bir hissəsini ana tərəfindən olan dayıya və ya xalaya, qalanı, ata-ana tərfindən olan və ya ata tərəfindən olan dayı və xalaya verirlər. Onlar da, onu bərabər şəkildə bölürlər. Ehtiyata görə, bölüşmə zamanı bir-birləri ilə razılığa gəlsinlər. Əgər ana tərəfindən olan bir neçə dayı və ya ana tərəfindən olan xalası, yaxud həm ana tərəfindən olan dayısı, həm də, ana tərəfindən xalası varsa, o bir hissəni bölüşdürürlər. Bir hissəsini ana tərəfdən olan dayıları və xalaları, öz aralarında
.bərabər şəkildə bölürlər

Qalanı, ata-ana tərəfindən olan və ya ata tərəfindən olan dayı və xalaya verirlər. .Onlar da, onu öz aralarında bərabər şəkildə bölürlər

Məsələ: ۲۸۰۸. Əgər ölününün əmi, dayı və xalası olmasa, irsin əmi və bibiyə çatan miqdarı, onların övladlarına; dayı və xalaya çatan miqdarı da, onların övladlarına .verilir

Məsələ: ۲۸۰۹. Əgər ölünün varisi, atatsının əmi, bibi, dayı xalası və anansının əmi, bibi, dayı və xalasıdırsa, malı üç qismə bölürlər; onun bir hissəsini əmi, bibi, dayı və anasının xalası, aralarında bərabər şəkildə bölüşdürürlər. Deməli, keçən məsələlərdə deyildiyi kimi, ehtiyata görə, bölmə zamanı bir-birləri ilə razılaşsınlar. Digər iki hissəni bölərək, bir hissəsini dayı və atanın xalası aralarında bərabər şəkildə bölürlər. Qalan iki hissə .isə, əmi və ölünün atasının bibisinə verirlər. Əmiyə, bibinin iki misli qədər irs çatır

ƏR VƏ ARVADIN İRSİ

Məsələ: ۲۸۱۰. Əgər arvad ölərsə və övladı olmasa, bütün malın yarısını ərə, qalanı digər vərəsəyə çatır. Əgər o ərdən və ya başqa ərdən övladı varsa, bütün malın dördə biri .ərə, qalanı digər vərəsəyə çatır

Məsələ: ۲۸۱۱. Əgər bir kişi ölərsə və övladı olmasa, onun malının dördə biri daimi arvadına, qalanı digər vərəsəyə çatır. Əgər o arvaddan və ya başqa arvaddan övladı varsa, malın səkkizdə biri arvada, qalanı digər vərəsəyə çatır. Arvada ərinin bütün daşınan malından irs çatır. Amma torpaq və onun dəyər qiymətindən irs aparmır. İstər o yer istifadəsiz olsun istərsədə o yerdə bina tiksinlər və ya ağac və əkin əksinlər. Amma torpağın ağacları, əkin, tikili və bunun kimi əhatəsində yerləşənlərin .qiymətindən, ona irs çatır

Məsələ: ۲۸۱۲. Əgər arvad, özünün irs haqqı olmadığı əmlakdan (torpaq kimi) istifadə etmək istəsə, gərək digər vərəsədən icazə

alsın. Həmçinin, digər vərəsə, arvadın irs payı verilmədikcə, (oranın ərazisində yerləşən bina və ağac kimi) əmlakın qiymətindən icazəsiz istifadə etməməlidir. Əgər arvadın irs payı verilməzdən əvvəl bunları satarsa, arvad icazə versə, səhihdir. İcazə .vermədiyi halda, arvadın irs payına görə batildir

Məsələ: ٢٨١٣. Əgər bina, ağac və bunlar kimi əmlaka qiymət təyin etmək istəsələr, onların ərazidə icarəsiz qalıb sıradan çıxdığı halda olacaq dəyəri etibarilə hesablasınlar .və arvadın (irs) payını, o qiymətdən versinlər

Məsələ: ٢٨١۴. Su kanalı yeri və bunun kimi yerlər, yer hökmündədir. Kərpic və tikintidə .istifadə olan şeylər, bina hökmündədir

Məsələ: ٢٨١۵. Əgər ölünün, birdən çox arvadı varsa, övladı olmadığı halda malın dördə biri, övladı olduğu halda isə, malın səkkizdə biri, deyilmiş şərhlə, onun əqdində olan arvadların arasında, (onların heç biri və ya bəzisi ilə yaxınlıq etməsə də,) bərabər şəkildə bölünməlidir. Amma ölümünə səbəb olan xəstəlik zamanı bir qadını əqd etsə və .onunla yaxınlıq etməsə, o qadına irs çatmır və mehriyyə haqqı da yoxdur

Məsələ: ٢٨١۶. Əgər qadın xəstəlik halında ərə getsə və o xəstəliklə də ölərsə, əri onunla .yaxınlıq etməsə belə, ona irs çatır

Məsələ: ٢٨١٧. Əgər arvada, təlaq hökmlərində deyildiyi kimi "rici təlaq" verərlərsə və iddə halında ölərsə, ərinə ondan irs çatır. Həmçinin, arvadın iddəsi zamanı əri ölərsə, onun arvadına irs çatır. Amma "rici iddənin" vaxtı bittikdən sonra və ya "bain təlaqın" .iddəsi zamanı onlardan biri ölərsə, digərinə ondan irs çatmır

Məsələ: ٢٨١٨. Əgər ər, xəstəlik halında arvadı boşayarsa, on iki ay (mah hilali) :keçməzdən əvvəl ölərsə, arvad üç şərtlə ondan irs ararır

.Birinci; bu müddət ərzində başqa ərə getməsin

İkinci; ərinə meyli olmadığına görə, təlaq verməyə razı etmək üçün, ona bir mal ,verməmiş olsun. Ərinə bir şey verməsə də

təlaqa razı olmasın. Əgər boşanma, arvadın razılığı ilə olarsa, onun irs aparması .işkallıdır

Üçüncü; ər, xəstə olduğu halda arvadına təlaq versə, o xəstəliklə və ya başqa səbəbə görə ölərsə, (arvad irs aparır). Deməli, əgər o xəstəlikdən sağalarsa və başqa səbəbə .görə dünyadan gedərsə, onun arvadına irs çatmır

Məsələ: ۲۸۱۹. Kişinin öz arvadına aldığı paltar, arvadı geyinmiş olsa belə, əgər onun .mülküyyətinə keçirməyibsə kişi öldükdən sonra kişinin mallarından hesab olur

İRSİN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ۲۸۲۰. Atanın Quran, üzük, qılıncı, geyindiyi libası böyük oğulun malıdır. İstər .onların hər birindən bir ədəd olsun istərsə də ir neçə ədəd böyük oğulun malıdır

Məsələ: ۲۸۲۱. Əgər ölünün birdən artıq böyük oğlu olsa, məsələn: iki arvaddan eyni zamanda iki oğlu dünyaya gəlmiş olsa, gərək ölünün libas, Quran, qılınc və üzüyünü .bərabər şəkildə öz aralarında bölsünlər

Məsələ: ۲۸۲۲. Əgər ölünün borcu varsa, borc onun malının dəyəri qədər və ya ondan çoxdursa, böyük oğula çatacaq dörd şey, (keçən məsələdə deyildi) gərək onun borcuna verilsin. Əgər borc, onun malından az olarsa, ehtiyat-vacibə görə gərək yenə .də ən böyük oğula çatan dörd şeydən borcuna nisbətən ödənsin

Məsələ: ۲۸۲۳. Müsəlman kafirdən irs aparır. Amma kafir müsəlmandan irs aparmır. .Kafir, ölənin ata və ya oğlu olsa belə, irs aparmır

Məsələ: ۲۸۲۴. Əgər bir şəxs, öz yaxınlarından birini qəsdən və ya haqsız olaraq öldürərsə, ölüdən ona irs çatmaz. Amma səhv üzündən olarsa (məsələn, daşı havaya ata və təsadüfən daş, onun yaxınlarından birinə dəyib öldürsün), ölüdən ona irs çatır. .Amma qətlin diyəsindən ona irs çatmır

Məsələ: ۲۸۲۵. Əgər, irsi bölmək istədikləri zaman, ana

bətnində olan uşaq diri dünyaya gələrsə, ona irs çatır; iki oğlanın payı, onun üçün ayrılır. Əgər bidən çox uşağın olacağına ehtimal olsa, məsələn: ehtimal versələr ki, arvad üç uşağa hamilədir, belə olduğu halda üç oğlanın payını kənarda saxlayırlar. Əgər bir oğlan və ya bir qız dünyaya gələrsə, saxlanan malın qalanını, vərəsələr öz .aralarında bölürlər

MÜXTƏLİF MƏSƏLƏLƏR

MÜXTƏLİF MƏSƏLƏLƏR

Məsələ: ۲۸۲۶. Əgər qonşunun ağacının kökü insanın həyətinə gələrsə onun qarşısını ala bilər. Əgər ağacın kökü vasitəsi ilə ona zərər dəyərsə ağacın sahibindən dəyən zərəri .ala bilər

Məsələ: ۲۸۲۷. Ata hədiyyə və razılaşma yolu ilə qızının mülkünə keçirdiyi cehziyyəni geri .ala bilməz. Amma onun mülküyyətinə keçirməsə geri almağının eybi yoxdur

Məsələ: ۲۸۲۸. Əgər bir şəxs ölərsə, onun baliğ vərəsələri, öz paylarından, ölünün əza .məclisinin təşkili üçün xərcləyə bilərlər. Amma körpələrin payına toxuna bilməzlər

Məsələ: ۲۸۲۹. Əgər bir şəxs bir müsəlmanın qeybətini etsə, ehtiyat-vacib budur ki, fəsad baş verməyənə qədər o müsləmandan xahiş etsin ki, onu halal etsin. Əgər mümkün olmazsa Allahdan o, müsəlmanı bağışlamasını istəsin. Əgər o, qeybət vasitəsi ilə müsəlama hörmətsizlik olarsa, mümkün olan halda o, hörmətsizliyi aradan .qaldırsın

Məsələ: ۲۸۳۰. İnsan şəri hakimin icazəsi olmadan xümsünü verməyən bir şəxsin .malından xümsünü götürüb şəri hakimə verə bilməz

Məsələ: ۲۸۳۱. Ləhv məclislərinə aid olan avazlar ğina və haramdır. Əgər nohə və ya rövzə yaxud Quranı da ğina ilə oxuyarlarsa haramdır. Amma onları gözəl səs ilə oxusalar eybi

.yoxdur

Məsələ: ٢٨٣٢. insana əziyyət edən və bir şəxsin malı olmayan heyvanı öldürməyin eybi .yoxdur

Məsələ: ٢٨٣٣. Əgər bir şeyi düzəlmək üçün sənətkara versələr, sahibi onu aparmaq üçün gəlməsə, sənətkar onun sahibini axtarıb və tapacağından ümüdsüz olsa gərək onu sahibi tərəfindən sədəqə versin. Amma öz zəhmət haqqını götürə bilər. Daha .yaxşı olar bu işlərin hamısı şəri hakimin icazəsi ilə olsun

Məsələ: ٢٨٣٤. Qadınların gəliş-gediş yeri olan küçə və bazarlarda sinə vurmaq, əgər sinə vuranların əynində köynək olarsa eybi yoxdur. Həmçinin əzadarlıq edən cəmiyyətin qabaqlarında bayraq və onun kimi şeyləri götürmək ləhv alətlərindən .hesab olmazsa heç bir maneəsi yoxdur

Məsələ: ٢٨٣٥. Qızıl diş salmaq və ya dişə qızıl üz çəkdirmək qadın üçün heç bir maneəsi .yoxdur. Amma zinət hesablanarsa kişi üçün icazəli deyil

Məsələ: ٢٨٣٦. İstimna etmək haramdır. Yəni məninin xaric olması üçün özü ilə hər hansı .bir işi yerinə gətirmək

Məsələ: ٢٨٣٧. Üzü dibdən qırxmaq və maşın ilə (lezva kimi) dibdən qırxmaq haramdır. Bu hökmdə bütün insanlar eynidirlər. Allahın hökmü camaatın məsxərə etməsinə görə dəyişmir. Deməli təklifinin əvvəl çağlarında olan bir şəxs əgər üzünü qırxmasa camaat onu məsxərə edəcəklərsə üzünü lezva və ya üz maşını ilə lezva kimi dibdən qırxsa .haramdır

Məsələ: ٢٨٣٨. Ehtiyat-müstəhəb budur ki, uşaq həddi buluğa çatmazdan qabaq uşağın vəlisi onu xətnə etdirsin. Əgər xətnə etdirməsə uşaq həddi buluğa çatandan sonra .özünə vacibdir

Məsələ: ٢٨٣٩. Əgər ata və ana fəqir olsalar gəlir əldə edə (işləyə) bilməzlərsi və ya iş onların şəxsiyyətinə uyğun olmazsa, fəqirlikdən məqsədimiz yəni yaşaya bilməzlərsə, onların övladının imkanı olsa (əgər onların xərclərini vermək hətta şəri bir cəhətə görə .digər şəxslərin öhdəsində olmasa) gərək onların xərlərini versin

Məsələ: ۲۸۴۰. Əgər bir şəxs fəqir olsa və işləyə bilməsə atası və ya övladı onun xərclərini verməlidir. Əgər atası olmasa və ya xərcini verə bilməsə və xərcini verə biləcək övladı da olmasa ata babası gərək xərcini versin. Əgər ata babası olmasa və ya xərclərini verə bilməsə anası gərək xərclərini versin. Əgər anası da olmasa və ya xərclərini verə bilməsə gərək ata tərəfdən olan nənəsi, ana tərəfdən olan nənəsi və ana tərəfdən olan babası onun xərclərini birlikdə versinlər. Əgər ata tərəfdən və ana .tətəfdən nənəsi olmasa gərək ana tərəfdən olan babası onun xərclərini versin

Məsələ: ۲۸۴۱. İki nəfərin malı olan bir divarı, şəriklər bir-birinin icazəsi olmadan tikə və .ya öz tikintisin onun üzərindən ucalda yaxud ona mismar vura bilməz

Amma şərikin razı olduğu işləri etmək divara söykənmək və ya divarın üstünə paltar sərmək kimi işləri etməyin eybi yoxdur. Amma şərik desə ki bu işlərə razı deyiləm, bu .işləri görmək (ehtiyata əsasən əgər ürfdə təsərrüf hesab olunarsa) caiz deyil

.Məsələ: ۲۸۴۲. Potoqraflıq və rəssəmlıq məkruhdur

Məsələ: ۲۸۴۳. Bağın divarından qırağa çıxan meyvə ağacının budağlarından sahibinin razı olduğunu bilməsə meyvə dərə bilməz. Hətta onun meyvələri yerə də tökülsə .götürə bilməz

Məsələ: ۲۸۴۴. Bank və xeyriyyə mərkəzlərinin onlarda hesabları olan şəxslərə, təşviq etmək üçün verdikləri hədiyyələr bir şəxsə zərəri olmadığına görə və özlərindən .verdikləri üçün halaldır

BƏZİ GÜNAHLAR ÜÇÜN TƏYİN OLUNMUŞ CƏZA HÖKMLƏRİ

BƏZİ GÜNAHLAR ÜÇÜN TƏYİN OLUNMUŞ CƏZA HÖKMLƏRİ

Məsələ: ۲۸۴۵. Əgər bir şəxs, özünün ana və bacı kimi məhrəmləri ilə zina etsə, gərək şəri hakimin hökmü ilə onu öldürsünlər. Həmçinin, əgər kafir kişi, müsəlman qadınla zina etsə, xəbərlərdən gəlib çatıb ki, bir həddin yerinə yetirilməsi, camaatın qeyri-şəri işlər görməməsinə səbəb olar. Onların dünya və axirətini qoruyar. Onun xeyri, qırx gün .yağış yağmasının xeyrindən çoxdur

Məsələ: ۲۸۴۶. Əgər azad bir kişi zina etsə, gərək ona yüz şallaq vurulsun. Üç dəfə zina etsə, hər dəfədə yüz şallaq vursunlar. Dördüncü dəfədə, gərək onu öldürsülər. Əgər bir şəxsin daimi əqdində olan arvadı və ya kənizi varsa, baliğ, aqil və azad olduğu halda onunla yaxınlıq edibsə, hər vaxt da istəsə, onunla yaxınlıq edə bilirsə əgər .büluğa çatmış və aqilə bir qadın ilə zina etsə, gərək onu daşqalaq etsinlər

Məsələ: ۲۸۴۷. Məşhur budur ki, əgər bir kişi, bir şəxs onun arvadı ilə zina etdiyini görsə və özünə zərər yetirmələrindən qorxmasa, hər ikisini öldürə bilər. Amma bu hökmün qadın haqda olması işkallıdır. Hər halda o qadın ona haram olmur. Əgər hər

.ikisini öldürsə qadını öldürdüyünə görə onu qisas etmək olmaz

Məsələ: ۲۸۴۸. Əgər mükəlləf aqil kişi, başqa aqil kişi ilə lavat edərsə, gərək onların hər ikisini öldürsünlər. Şəri hakim, qılınc ilə ləvat edəni öldürə bilər, diri-diri yandıra bilər, .əl-ayağını bağlayıb hündür yerdən aşağı buraxa bilər

Məsələ: ۲۸۴۹. Əgər bir nəfər, başqa bir şəxsə, haqsız olaraq birini öldürməsini əmr etsə, qatil və ona əmr edən, hər ikisi mükəlləf və aqildirlərsə, qatil gərək öldürülsün və .ona əmr edən, ölənədək ömürlük həbs edilsin

Məsələ: ۲۸۵۰. Əgər övlad ata və ya anasını qəsdən öldürərsə, gərək onu öldürsünlər. Amma bir ata, öz övladını qəsdən öldürərsə, gərək diyə hökmlərində deyilən qayda .üzrə diyə versin və şəri hakimin səlah bildiyi qədər onu döysünlər

Məsələ: ۲۸۵۱. Hər kəs bir oğlanı şəhvət üzündən öpərsə, şəri hakim onu cəzalandırır və ona otuzdan doxsan doqquzadək; nə qədər məsləhət bilərsə, şallaq vursunlar. Rəvayət olunub ki," Allah təala, onun ağzına atəşdən noxta vurar. Göyün-yerin mələkləri və rəhmət-qəzəb mələkləri, ona lənət edərlər. Cəhənnəm onun üçün .hazırlanıb." Amma tovbə etsə, onun tövbəsi qəbul olar

Məsələ: ۲۸۵۲. Əgər bir şəxs, kişi və qadın arasında zina üçün və ya kişi və oğlan arasında ləvat üçün vasitə olarsa, gərək qadındırsa, yetmiş beş şallaq vursunlar; kişidirsə, yetmş beş şallaqdan sonra başını qırxıb, küçə və bazarda dolandırılsın. .Ehtiyata görə o işi iki dəfə gördüyü məhəldən çıxarılsın

Məsələ: ۲۸۵۳. Əgər bir şəxs, bir qadınla zina və ya oğlanla ləvat etmək istəsə, .öldürmədən onun qarşısını almaq mümkün olmasa, öldürülməsi caizdir

Məsələ: ۲۸۵۴. Əgər bir şəxs baliğ, aqil, azad müsəlman kişi və ya qadını, zina və ya ləvatda ittiham etsə, yaxud onlara "vələdüz-zina" desə, gərək səksən şallaq libasın .üstündən, ona vursunlar

Məsələ: ۲۸۵۵. Mükəlləf və aqil bir şəxs, əgər ixtiyarlı və haram olmasına elmi olduğu halda şərab içsə, birinci və ikinci dəfələrdə

övrətdən başqa, tamam soyundurub ona səksən şallaq vursunlar. Üçüncü dəfədə, .gərək onu öldürsünlər

Məsələ: ۲۸۵۶. Bir şəxs mkəlləf və aqildirsə, əgər dörd noxud yarım sikkə qızıl və ya bu dəyərdə olan başqa şeyi oğurlasa, əgər şəriətdə müəyyən olunan şərtlər onda varsa, birinci dəfədə gərək sağ əlinin dörd barmağını dibindən kəssinlər və əlinin içi və baş barmağına dəyməsinlər. İkici dəfə, sol ayağının ortadan kəssinlər. Üçüncü dəfə, gərək onu ölənədək həbs etsinlər. Onun xərcini beytul-maldan versinlər. Dördüncü dəfə .zindanda oğurluq edərsə, gərək onu öldürsünlər

DİYƏNİN HÖKMLƏRİ

DİYƏNİN HÖKMLƏRİ

Məsələ: ٢٨٥٧. Əgər baliğ və aqil müsəlman, başqa müsəlmanı qəsdən haqsız olaraq öldürərsə, əgər ölən kişi və ya oğlan olarsa, öldürülənin vəsisi, qatili bağışlaya və ya ölddürə bilər. Əgər öldürülmüş şəxs kafirdirsə və onun qatili müsəlmandırsa, müsəlmanı öldürmək olmaz. Əgər öldürülən müsəlman qadın və ya qızdırsa, onun qatili olan müsəlman kişini, öldürmək olar. Deməli, əgər qatil kişidirsə, gərək diyənin yarısını, oldürənin vəlisinə versinlər. Əgər qatil dəli olsa və ya balığ deyilsə, mütləq olaraq, gərək diyə versinlər. Onun diyəsi mənası sonradan deyiləcək aqilənin öhdəsinədir. Həmçinin öldürülənin vəlisi iki tərəfin razılığı ilə şəriətdə təyin olunmuş miqdarda diyə ala bilər. Çünki diyənin təqdiratı şəriətdə müxtəlifdir və onu seçmək ixtiyarı qatilinin öhdəsinədir, hər biri onun üçün daha asan olsa onu seçə bilər. Deməli diyənin digər qismlərinə nisbətən ucuz olan gümüşün qiymətini verə bilər. Amma məhz səhv üzündən öldürərsə məsələn, bir heyvana atdığı ox, başqasını öldürsə, ölənin vəlisi onu öldürməyə haqqı yoxdur. Amma aqilədən (öldürənin ata tərəfindən olan yaxınları və qohumları) vermədiyləri halda qatilin özündən diyə ala bilər. Əgər ,səhvən qəsdə oxşar şəkildə öldürsə

məsələn, bir şəxs, adətən öldürücü olmayan alətlə, başqasını vursa və öldürmək məqsədi də olmadığı halda, təsadüfən öldürsə, qatilin özü diyəni verməlidir. .Öldürülənin vəlisi onu öldürməyə haqqı yoxdur

Məsələ: ۲۸۵۸. Azad müsəlman kişini öldürən qatilin verəcəyi diyə, (öldürülmüş, :müsəlman kişidirsə,) altı şeydən biridir

Altı yaşa daxil olmuş yüz baş dəvə. Bu hökm, qəsdən öldürmənindir. Səhvən və-۱ .qəsdə oxşar olan halda, dəvələrin yaşı bundan az olcaq

.İki yüz inək-۲

.Min qoyun-۳

.İki yüz (hullə) paltar. Hər biri,Yəməndə toxunan iki qatlı parçadan olacaq-۴

.Min (şəri) misqal qızıl sikkə. Onun hər bir misqalı, ۱۸ noxuddır-۵

On min dirhəm. Onun hər biri, on ikidə alti (۱۲/۶) noxud gümüş sikkədir. Müsəlman və-۶ azad qadının diyəsi, müsəlman kişinin diyəsinnin yarısı qədərdir. Əlli dəvə, yaxud yüz inək və ya beş yüz qoyun, yaxud yüz (hullə) paltar və ya beş yüz misqal qızıl, ya da beş min dirhəmdir ki, qabaqkı məsələdə təfsilatı ilə deyildi. Zimmi kafirin diyəsi; kişidirsə, səkkiz yüz dirhəm, qadındırsa, dörd yüz dirhəmdir. Qeyri-zimmi kafirin diyəsi yoxdur. Öldürülmüş qulam və kənizin diyəsi, (azadın diyəsindən çox olmadığı təqdirdə) onun .qiyməti qədərdir. Qətl qəsdən olarsa da, azad qatili, ona görə öldürmək olmaz

Məsələ: ۲۸۵۹. Bəzi şeylərin diyəsinin miqdarı, yuxarıdqakı məsələlərdə deyilən qətlin :diyəsi qədərdir

Bir şəxsin iki gözünü kor edən və ya göz qapaqların hər dördünü sıradan çıxaran,-۱ .qətl diyəsi versin. Əgər bir gözünü kor etsə, qətl diyəsinin yarısı qədər diyə versin

Bir şəxsin iki qulağını kəsərsə və ya hər iki qulağın kar olmasına səbəb olan iş görsə-۲ (qətl diyəsi versin). Əgər bir qulağını kəsərsə və ya kar edərsə, gərək öldürməyin yarısı qədər diyə

versin. Qulağın (aşağı) yumuşaq hissəsini kəsərsə, öldürümə diyəsinin üçdə biri qədər .diyə versin. Ehtiyat budur ki, razılaşsınlar

.(Bütün burnu və ya aşağı (yumşaq) hissəni kəsərsə, (öldürülənin diyəsini versin-٣

Bir şəxsin dilini dibdən kəsərsə, (öldürmə diyəsi verməlidir). Əgər onun bəzi hissəsini-۴ kəsərsə, gərək kəsdiyinin qarşılığı qədər diyə versin. Məsələn, əgər dilin yarısını kəsərsə, gərək öldürməyin diyəsinin yarısını versin. Hərfləri tələffüzünə diqqət etməklə, dilin nə qədər kəsildiyini müəyyən etmək lazımdır və diyəni, hərfin tələffüzündə yaranan nöqsana görə verəməlidir. Yəni, yarı kəsilibsə, yarı, üçdə üç, .dördə dörd, və s. (bu hesab, dilin nöqsanına görədir və hansı çoxdursa, onu versinlər

Birinin bütün dişlərini sındıra və ya xəsarət yetirməklə sıradan çıxararsa, (öldürmə-۵ diyəsi verməlidir.) Altısı yuxarıda və altısı aşağıda yerləşən (ağızda olan on iki qabaq) dişlərin hər biri üçün, əlli misqal şəri qızıl sikkə, diyə verməlidir. Hər şəri sikkənin həcmi, ١٨ noxudur. Əgər səkkizi aşağıda və səkkizi yuxarıda yerləşən, on altı arxa dişlərdən birini sıradan çıxararsa, gərək iyirmi beş şəri misqal qızıl versin. Bu hökm, təkcə qızıla aid deyildir. Hər bir qabaq diş üçün, beş yüz dirhəm və arxa dişlər üçün, iki yüz əlli dirhəm, verə bilər. Qadının diyəsi, kişinin diyəsinin üçdə birə çatınca, bərabərdir. Üçdə .birdən keçdikdən sonra, onun dişlərinin diyəsi, kişinin dişinin diyəsinin yarısı qədərdir

Bir şəxsin hər iki əlini biləkdən kəsərsə, öldurmə diyəsi verməlidir. Əgər bir əlini-۶ .biləkdən kəsərsə, onun diyəsi öldürməyin yarısı qədərdir

Bir şəxsin on barmağını kəsərsə öldürmənin diyəsi verilməlidir. Hər barmağın diyəsi,-٧ öldürmə diyəsinin onda biri qədərdir. Qadının diyəsi üçdə birə çatarsa kişinin diyəsinin .yarsı qədərdir

.Qadının hər iki döşünü kəsərsə, öldurmə diyəsi verməlidir-٨

.Əgər bir döşünü kəsərsə, gərək öldürməyin yarısı qədər diyə versin

Bir şəxsin hər iki ayaqlarını, diz oynağınadək kəsərsə, öldurmə diyəsi verməlidir.-۹ Əgər ayaq barmaqlarının onunu da kəsərsə, hər bir barmağın diyəsi öldürməyin onda .biri qədərdir

.Kişinin yumurtalıqlarını sıradan çıxaran, öldurmə diyəsi verməlidir-۱۰

Bir şəxsə, ağlını itirəcək şəkildə xəsarət yetirməyin diyəsi, öldurməyin diyəsi-۱۱ qədərdir. Birinin belini, heç vaxt düzəlməyəcək şəkildə sındırarsa, onun diyəsi, .öldürmənin diyəsi qədərdir

Məsələ: ۲۸۶۰. Əgər səhvən bir şəxsi öldürsə, (۲۸۵۸-ci məsələdə deyildiyi kimi) gərək onun diyəsini versin. Bundan əlavə qatil özü gərək bir qul azad etsin, əgər qul azad edə bilməsə iki ay oruc tutsun, əgər bunu da bacarmasa, altımış fəqiri doyursun. Əgər qəsdən və haqsız olaraq öldürsə, əfv olduğu və ya diyə ödədiyi təqdirdə, gərək iki ay .oruc tutsun, altımış fəqiri doyursun və bir qulu azad etsin

Məsələ: ۲۸۶۱. Bir heyvana minən şəxs, o heyvanın bir şəxsə zərər yetirəcəyinə səbəb olsa, ona zamindir. Həmçinin, əgər başqası, heyvanın onun minəninə və ya başqasına .zərər yetirməsinə səbəb olarsa, zamindir

Məsələ: ۲۸۶۲. Əgər bir şəxs hamilə qadının siqt etməsinə səbəb olarsa, siqt olunanın azad və müsəlman olmasına hökm olunarsa, əgər siqt olunan nütfə olsa diyəsi iyirmi misqal şəri sikkəli qızıldır. Onun hər misqalı on səkkiz noxuddur. Əgər laxta qan olsa diyəsi qırx misqaldır. Əgər muzğə (yəni ət parçası) olsa diyəsi altımış misqaldır. Əgər sümüy olsa diyəsi səksən misqaldır. Əgər ət bağlayarsa amma ruh daxil olmazsa diyəsi yüz misqaldır. Əgər ruh daxil olsa və oğlan uşağı olsa diyəsi min misqaldır. Əgər ruh daxil olsa və qız uşağı olsa diyəsi beş yüz şəri misqal sikkəli qızıldır. Bu qeyd olunan .bütün hallarda hər bir misqal qızılın əvəzinə on dirhəm gümüş versə kifayətdir

,Məsələ: ۲۸۶۳. Əgər qadın, uşağının düşməsinə səbəb olarsa

gərək onun diyəsini keçən məsələdə deyildiyi kimi, uşağın varisinə versin. Qadının .özünə heç bir şey çatmır

Məsələ: ۲۸۶۴. Əgər bir şəxs hamilə qadını öldürərsə, gərək qadının və uşağın diyəsini .versin

Məsələ: ۲۸۶۵. Əgər kişinin başının və ya üzünün dərisini kəsərsə, gərək (۲۸۵۸-ci məsələdə qeyd olunan) insanın diyəsinin yüzdə biri qədər versin, ətini də, onunla birlikdə kəsmiş olsa, yüzdə ikisi qədər; ətindən çoxunu kəsərsə, yüzdə üçü qədər; sümüyün nazik pərdəsinə çatarsa, yüzdə dördü qədər; sümük (üzə çıxıb) görünərsə, yüzdə beşi qədər; sümük sınarsa, yüzdə onu qədər versin. Əgər sümüyün bəzi qırıntıları yerindən çıxarsa, yüzdə on beşi qədər; beyinin pərdəsinə çatarsa, gərək .yüzdə otuz üçü qədər versin

Məsələ: ۲۸۶۶. Əgər bir şəxsin üzünə sillə və ya başqa bir şey vursa və nəticədə onun üzü qızararsa, gərək (hər misqalı ۱۸ noxud həcmində) bir misqal yarım şəri qızıl; göyərərsə, üç misqal; qaralarsa, altı misqal şəri qızıl versin. Amma bir şəxsin bədəninin başqa yerini vurmaqla qırmızı və ya qaraldarsa, gərək deyilənlərin yarısı qədər versin. .Bütün bu deyilənlərdə, gərək qızıl sikkə olsun

Məsələ: ۲۸۶۷. Əgər əti halal olan heyvanı bir şəxs yaralayarsa və ya bir qədər onun bədənini qoparsa, gərək onun eyibsiz və eyibli arsaında olan qiymət fərqini sahibinə .versin

Məsələ: ۲۸۶۸. Əgər insan birinin ov itini, evin keşikçisi olan itini, sürü itini və

ya tarlanı qoruyan itini öldürsə gərək onun qiymətini versin. Əgər ov itinin qiyməti qırx dirhəm olarsa, qırx dirhəm verməsi lazımdır. Amma ehtiyat budur ki, bunların .hamısında razılaşsınlar

Məsələ: ۲۸۶۹. Əgər heyvan, birinin əkninə zərər verib və ya malını məhv etsə, heyvanın sahibi onu saxlamaqda səhlənkarlıq etdiyi təqdirdə, mal və ya əkin sahibinə gərək .zərərin miqdarı qədər versin

Məsələ: ۲۸۷۰. Əgər uşaq, böyük günahlaran birini edərsə, onun vəli və ya müəllimi, onu

ədəbləndirmək üçün diyə vacib

.olmayacaq qədər və vəlisinin icazəsi ilə döyə bilər

Məsələ: ۲۸۷۱. Əgər bir şəxs bir uşağı diyənin vacib olacağı tərzdə döyərsə, diyə uşağındır. Əgər ölsə, diyəni onun vərəsəsinə versin. Əgər məsələn, uşağın atası onu ölüncə döyərsə, onun diyəsini başqa vərəsəsinə versinlər. Atanın özünə diyədən bir .şey çatmır

səh: ۵۵۳

ƏMR BİL–MƏRUF VƏ NƏHY ƏNİL–MÜNKƏR

Point

ƏMR BİL-MƏRUF VƏ NƏHY ƏNİL-MÜNKƏR

Əmr bil-məruf və nəhy ənil-münkər müqəddəs İslam şəriətinin mühüm vaciblərindəndir. Bütün peyğəmbərlərin şəriətlərində gəlmişdir. Əmr bil-məruf yəni, camaatı şəri vaciblərə dəvət etmək və nəhy ən-ilmünkər yəni, insanları şəri olmayan .əməllərdən çəkindirməyə deyilir

Məsələ: ۲۸۷۲. “Məruf” yəni ağıla və ya şəriətə əsasən bir şeyin yerinə yetirilməsi vacib və ya müstəb olan işə deyilir. “Münkər” yəni ağıla və ya şəriətə əsasən bir şeyin yerinə yetirilməsi pis, haram və ya məkruh olan işə deyilir. Fərdi və ictimai işlər arasında heç bir fərq yoxdur. Deməli əmr bil-məruf və nəhy ənil-münkər ümumi bir vəzifədir. Hökumət və insanlar bir-birlərinin qarşısında məsuliyyət daşıyırlar və gərək bu .vəzifəyə əməl etsinlər

Məsələ: ۲۸۷۳. Əmr bil-məruf və nəhy ənil-münkər sonradan deyiləcək şərtlər daxilində vacib və onu tərk etmək günahdır. Müshəhəb və məkruh işlərdə əmr bil-məruf və .nəhy ənil-münkər etmək müstəhəbdir

Məsələ: ۲۸۷۴. Əmr bil-məruf və nəhy ənil-münkər vacibi-kifaidir. Əgər bir şəxs bu vəzifəyə əməl etsə və məqsəd hasil olsa başqalarının boynundan götürülür. Əgər əmr bil-mərum və nəhy

ənil-münkər mükəlləfləri bir yerə toplanması ilə həyata keçərsə mükəlləflərin bir yerə .toplanmaları vacibdir

Məsələ: ۲۸۷۵. Bəzi şəxslərin əmr bil-məruf və nəhy ənil-münkəri təsir qoymazsa və bəziləri isə əmr bil-məruf və nəhy ənil-münkərin təsir qoymasına ehtimal verərlərsə .əmr bil-məruf və nəhy ənil-münkər onlara vacib olur

Məsələ: ۲۸۷۶. Əmr bil-məruf və nəhy ənil-münkər vacib olan vaxt söz demək və şəri .məsələləri yada salmaq kifayət etmir. Gərək insan əmr və nəhy etsin

Məsələ: ۲۸۷۷. Əmr bil-mərufun məqsədi vacibin icra olması və nəhy ənil-münkərin məqsədi haramın qarşısını almaqdır. Deməli əmr bil-məruf və nəhy ənil-münkərdə .qürbət qəsdi şərt deyil

ƏMR BİL–MƏRUF VƏ NƏHY ƏNİL–MÜNKƏRİN ŞƏRAİTİ

Məsələ: ۲۸۷۸. Əmr bil-məruf və nəhy ənil-münkər edən şəxs gərək mərufu münkərdən çeçə bilsin. Deməli məruf və münkəri tanımayan şəxs əmr bil-məruf və nəhy ənil-münkər etməyə haqqı yoxdur, hətta edə bilməz.

:Məsələ: ۲۸۷۹. Əmr bil-məruf və nəhy ənil-münkərin vaci olmasının üç şərti vardır

Əmr və nəhyinin təsirli olacağına ehtimal versin. Deməli, əgər təsirli olmayacağına (۱ .əmin olsa və ya ehtimal versə onun əmr və nəhy vacib deyildir

Qarşı tərəfin vaciblərin tərkinə və münkərlərin yerinə yetirilməsində israrlı olduğuna (۲ .mütməin olarsa. Deməli, əgər təkrar etməməsini bilsə və ya güman etsə vacib deyil

Əmr bil-məruf və nəhy ənil-münkər mühüm bir fəsada səbəb olmasın. Deməli əgər (۳ bilsə və ya güman etsə yaxud səhih üqəlayi ehtimal versə ki, onun əmr və nəhyi özünün yaxud qohum və yaxınlarının can, abır və malına (əhəmiyyət verici dərəcədə) zərər

vuracaq yaxud digər müsəlmanlara can, abır və mali zərər (əhəmiyyət verici dərəcədə) vuracaq əmr bil-məruf və nəhy ənil-münkər vacib deyil. Hətta çox yerlərdə .haram olur

ƏMR BİL-MƏRUF VƏ NƏHY ƏNİL-MÜNKƏRİN MƏRHƏLƏLƏRİ

Əmr bil-məruf və nəhy ənil-münkərin müxtəlif mərhələləri vardır. Bir mərhələdən başqa mərhələyə keçmək olmaz. Birinci mərhələnin təsirli omadığı bilinən təqdirdə, .sonrakı mərhələyə əməl oluna bilər

Birinci: Günahkar şəxslə elə rəftar etsinlər ki, günah etdiyinə görə onunla belə rəftarın olunduğunu başa düşsün. Məsələn, üz çevirsin və ya qaşqabaqlı onunla rəftar etsin yaxud onunla gəl-get etməsin. Əgər bu bir neçə mərhələdən ibarət olsa aşağa dərəcənin təsir qoyacağına ehtimal versə o, aşağa dərəcə ilə kifayətlənsin. Məsələn, danışmamaqla məqsədinin hasil olmasına ehtimal versə onunla kifayətlənsin və ondan yuxarı mərhələlərə əməl etməsin. Xüsusi ilə tərəf müqabilinə bu əməl ilə .hörmətsizlik olarsa

Məsələ: ٢٨٨٠. Əgər günahkardan uzaqlaşmaq və əlaqələri kəsmək günahın azalmasına gətirib çıxararsa yaxud ehtimal verə ki, günahın azalmasına gətirib çıxaracaq əgər tam şəkildə günahı tər etməməsini bilsədə gərək uzaqlaşsın. Bu o haldadır ki, günahın .qarşısını başqa mərhələlərlə ala bilməsin

İkinci: Əmr bil-məruf və nəhy ənil-münkəri dil ilə yerinə yetirsin. Deməli təsir etməsinə ehtimal versə və digər yol olarsa günahkarın günah etməsinin qarşısını alması .vacibdir. Vacibi tərk edən şəxsi də onu yerinə yetirməyə əmr etsin

Məsələ: ٢٨٨١. Əgər nəsihət və moizənin günahkarda təsir edəcəyinə ehtimal versə onunla kifayətlənsin və ondan sonrakı mərhələlərə keçməsin. Əgər nəsihət və moizə günahkarda təsir etməsə və əmr və nəhyin təsir edəcəyinə ehtimal versə (əgər pis

rəftar və yekə danışmaqla olsa belə) gərək əmr və nəhy etsin. Gərək yalan və ya digər .günahdan qorunsun

Üçüncü: Qüdrət və gücdən istifadə etmək. Deməli insan bir şəxsin güc və qüdrət tətbiq etmədən vacib bir əməli yerinə yerməyəcəyini və münkəri tərk etməyəcəyini bilsə və ya mütməin olsa güc və qüdrət tətbiq etməsi vacibdir, amma gərək lazım olan həddi .aşmasın

Məsələ: ۲۸۸۲. Əgər günahın qarşısını almaq günahkarın əlini tutmaq və ya günah olunan yerdən çıxarmağa yaxud günah alətini almaq və ya təsərrüf etməyə bağlı olsa caizdir, hətta vacibdir ki olunsun. Amma onun ehtiramı olan mallarını məhv etmək caiz deyil və (əgər məhv olunarsa) zəmanətə səbəb olur. Əgər mühüm bir günahın .qarşısını almaq onun məhv olmasına bağlı olsa bu halda zahir budur ki, zamin deyil

Məsələ: ۲۸۸۳. Günahın qarşısını almaq üçün başqa bir güna bulanmaq olmaz. Amma günah müqəddəs Şarinin əhəmiyyət verdiyi şey olarsa və o, günahın baş verməsinə razı olmazsa məsələn, günahsız bir şəxsin ölümü kimi, qeyd olunan mərhələlərə riayət .etməklə hər yolla mümkün olsa onun qarşısını alsınlar

Məsələ: ۲۸۸۴. Əgər günahın qarşısını almaq günahkarı döyməy və onunla pis rəftar etməklə nəticələnsə caizdir. Amma gərək həddi aşmasınlar. Daha yaxşı olar bu halda .şəri hakimdən icazə alsınlar

Məsələ: ۲۸۸۵. Əgər günahın qarşısını almaq və ya vacibi icra etmək, yaralamaq və ya öldürməklə nəticələnsə şəri hakimin icazəsi və onu icra etməyin şəraiti olsun. Öz .başına etmək olmaz

Məsələ: ۲۸۸۶. Əgər günah müqəddəs Şarinin əhəmiyyət verdiyi və o, günahın qarşısının alınmasını istəyirsə və günahkarda heç bir yolla günahı tərk etmirsə, mümkün olan hər bir yolla onun qarşısını almaq caizdir, hətta vacibdir. Məsələn bir şəxs digərini öldürmək istəyirsə və onun qanının tökülməsi caiz deyilsə mümkün olan hər bir yol ilə gərək onun qarşısı alınsın. Hətta hücum edən şəxsin ölümü ilə nəticələnsədə. Bu qeyd olunan

halda şəri hakimin icazəsi lazım deyil. Əgər hücum edənin qarşısını öldürmədən almaq olarsa gərək öldürmədən qarşısı alınsın. Hər bir halda lazım olan həddən aşarsa .günahkardır və həddini aşanların hökmü onun haqqında icra olunur

səh: ۵۵۸

MÜXTƏLİF MƏSƏLƏLƏR

QİYMƏTLİ KAĞIZLAR VƏ SƏFTƏNİN HÖKMLƏRİ

Səftə və sərqüfli müamilələri camaat arasında geniş yayılıb, bu günlər çoxlu insanlar bunlarla üzləşdiklərinə görə bunun şəri olması haqda suallar edirlər, buna görə lazım .bildik bu mövzu haqda geniş şərh verək və risalənin bu bölməsində yerləşdirək

Məsələ: ٢٨٨٧. Məşhur deyilənlərə əsasən alqı-satqı şəkildə olan bütün müamilələrdə müamilənin hər iki tərəfinin yəni alınan və satılan şeyin qiymət və dəyəri olsun. Çünki iki tərəfdən birinin qiymət və dəyəri olmasa müamilə səfeh və batil olacaq. Məsələn bir nəfər dəyəri olmayan bir gilə buğdanı yüz riyala satsa müamilə batildir. Amma zahir budur ki, müamilədə şəxsi bir hədəf olsa müamilə səfeh olmayacaq. Məsələn, bir şəxsin atasının xətti digərinin yanında olsa və dəyəri də olmasa o, şəxs atasının xəttini .müəyyən bir məbləğə alsa mümələ səfeh olmayacaq

Məsələ: ٢٨٨٨. Malın maliyyatı (dəyəri) iki hissədir. Bir dəstə malların zatən xüsusi mənfətləri vardır, camaat onda olan xasiyyət və ya mənfəətlərə görə onlara əlaqə tapırlar. Buna görədə onlar qiymət və dəyər tapırlar. Məsələn, yeməlilər, içməlilər, xalçalar, qablar, cəvahirat növləri və bunlar kimi, şeylər. Digər bir dəstə mallar vardır ki, zatən qiymət və dəyəri yoxdur. Məsələn poçt

markası kimi dövlət bir riyaldan çox onlar üçün dəyər və qiymət təyin edibdir, onları poçtda məktublara, gömrüklər və purokurorluqlarda etirafnamələrə, rəsmi nataruslarda müamilə sənədlərinə və digər sənədlərə yapışdırırlar, buna görə də qiymət və dəyər tapır. Hər vaxt dövlət istəsə onların üstünə möhr vurar və onları .dəyər və qiymətdən salar, heç bir əhəmiyyəti olmaz

.Məsələ: ۲۸۸۹. Müamilə və ya borc olunan cinslər iki hissədirlər

.Çəki və ölçü ilə-۱

.Çəki və ölçüdən qeyri şeylərlə-۲

Birinci qism; Qiymət və dəyər peymanə və ya çəki üzərində qurulmuşdur, məsələn, .düyü, buğda, arpa, qızıl, gümüş və bunlar kimi şeylər

İkinci qism; Qiymət və dəyər təkcə say üzərindədir, məsələn yumurta kimi yaxud metr üzərindədir məsələn, parça və xalça kimi. Əgər bir şəxsə bir şeyi çox almaq şərti ilə borc versək riba və haramdır. İstər ölçü və çəki ilə olsun istərsə də başqaları ilə. Həmçinin müamilə bölməsində əgər bir cinsi həmən cinsdən olan şeyə ölçü və çəki ilə çox almaq şərti ilə müamilə etsək müamilə batil və haramdır. Amma əgər ölçü və çəki ilə olmayan şeyi həmən cinsdən olan şeyə çox almaq şərti ilə müamilə etsək riba olmayacaq. Nəticədə bu məsələ qarşıya gələcək ki, əgər bir şəxs yüz ədəd yumurtanı iki ay müddətinə yüz on yumurtaya borc versə riba olur. Amma əgər bir şəxs yüz ədəd yumurtanı iki ay müddətinə yüz on yumurtaya satsa satılanla alınan arasında fərq olsa riba deyil, müamilə isə səhihdir. Gördüyünüz kimi nəticə etibarı ilə birdirlər amma ünvanları fərq edir. Əgər borc olarsa riba, əgər al-ver olarsa riba deyil. Burada gərək aydın olsun ki, borcun həqiqəti ilə al-verin həqiqəti fərqlidir. Bu izahla ki, borc budur ki, insan bir malı digərinə versin bu niyyətlə ki onu qaytarmaq vəzifəsi borcu alanın öhdəsində olsun. Amma al-ver budur ki, bir malı digər bir malın müqabilində (əvəzində) digərinə versin. Deməli al-verdə lazımdır ki, satılan şeyin əvəzində alınan

şey fərqli olsun, (yəni o, cinsdən digər bir cins olsun). Dediklərimizdən məlum oldu ki, məsələn yüz ədəd yumurtanı, yüz on ədəd öhdəsində olsun deyə satsa gərək onların arsında fərq olsun. Məsələn, yüz ədəd böyük yumurtanı yüz on ədəd orta həddə olan yumurtaya öhdəsində satsın. Çünki onların arasında fərq olmasa al-ver baş .tutmayıbdır. Bu borcdur al-ver şəkildə olunubdur. Buna görədə müamilə haramdır

Məsələ: ۲۸۹۰. İraq dinarı, İngiltərə puntu, Amerika dolları, İran riyalı və bunlar kimi, bütün kağız pulların qiymət və dəyərləri vardır. Çünki hər bir dövlət öz kağız pullarına qiymət təyin edibdir və ölkənin hər bir yerində qəbul olunur. Buna görə də (kağız pullar) qiymət və dəyər tapırlar və hər vaxt istəsələr onları etibar və qiymətdən sala bilərlər. Məlumdur ki, bu pullar ölçü və kilo deyillər buna görə də bu pulları öz cinsindən olan pulla çoxa dəyişmək riba deyildir. Həmçinin bu pulların müamiləsi ki, boynunda borc olsa nağd şəkildə və ya az qiymətə yaxud çox qiymətə riba deyil. Məsələn, on min riyal tələbi digər bir şəxslə doqquz min riyala müamilə etsə (bu şərtlə ki, müamilə ciddi olsun) riba olmur. Məsələn, bir şəxs bayram pulu vermək üçün təzə pula ehtiyacı olur və onu həmən miqdardan çox köhnə pulla alır, (riba deyil). Mərhum Ayətullah Yəzdi “Mülhəqate Ürvə” adlı kitabda ۵۶-cı məsələdə belə deyir: Əskinaslar sayılasıdır qızıl və gümüşün cinsindən deyil və müəyyən qiyməti vardır, qızıl və gümüşün hökmü onun haqda icra olunmur. Deməli onların bəzisini bəzisinə çoxa satmaq olar. Həmçinin sərfin .hökmü ona icra olunmur ki, məclisdə alınması vacibdir

Məsələ: ۲۸۹۱. Camaat arasında müamilə olunan riyallı səftələrin özlərinin maliyyatı yoxdur və müamilə olunası deyildirlər. Müamilə olunan riyallar onlardır ki, bu səftələr onların sənədlərini sübut edir. Məsələn, Zeyd adlı bir şəxs bir xarvar buğdanı iki min riyala satır və onun üçün iki aylıq səftə alır, sonra bu tələbini yüz riyal azına nağd olaraq satır, (yəni min doqquz yüz riyala) səftə isə iki min riyal tələbi sübut edir. Bu səftənin

dəyərinin olmaması üçün dəlil budur ki, siz bir xarvar buğdanı iki min riyala satırsınız, əgər müştəri o pulu sizə versə öhdəsində bir şey yoxdur. Əgər səftə versə öhdəsindən götürülmür, iki min riyalı sizə ödəyənə qədər borcludur. Əgər səftə itsə və ya yansa (o borc) öhdəsindədir, gərək buğdanın pulunu versin. Əgər iki min pul nağd satıcıya versəydi və o itib və ya yansaydı satıcının cibindən gedərdi və müştərinin öhdəsində .bir şey olmazdı

Məsələ: ۲۸۹۲. Bank və ya qeyri banka satılan səftələr, əgər həqiqətləri olsa və boş yerə olmasa məsələn, bir şəxs yüz min riyalın müqabilində bir cinsi digərinə satıb səftə alsa, həmən yüz min riyal tələbini bank və ya qeyri bankla müamilə və malik olmaq üçün qoymaq və almaq müddətinə nisbətən pulun miqdarından azaltmaqla pul almağın eybi .yoxdur

Məsələ: ۲۸۹۳. Həqiqəti olmayan və zahiri olan səftələri şəxsi və ya qeyri şəxsi banklarla müamilə etmək istəsə, ribadan (artıq almaq ribasından) qaçmaq üçün onun iki yolunu .۲۸۹۶-cı məsələdə qeyd edəcəyik

Məsələ: ۲۸۹۴. Vədəsi verilmiş səftələr ki, banka və ya qeyri banka satılır, adətən nağd bir məbləğin müqabilində satılır və gərək də nağd bir məbləğin müqabilində satılsın. Çünki əgər nisiyə və ya vədə müqabilində satılsa borucun borca al-veri olacaq belə .olan haldada müamilə işkallı olacaqdır

Məsələ: ۲۸۹۵. Satılan səftələr üçün dövlət qanun qoyubdur, o qanuna əsasən əgər səftə verən şəxs təyin olunan vaxt pulu ödəməsə banklar və ya digər alıcılar ixtiyarları vardır ki, səftəni satana və ya imzalayana müraciət edib səftənin pulunu ondan tələb edib və səftəni, səftənin pulunun müqabilində azaltmadan ona versin. Səftəni satan və ya imzalayanın vəzifəsidir ki, bankın və ya digər alıcının tələb etdikləri zaman pulu ödəsin. Bu vəzifəni səftə verən və ya imzalayanların hamısı və ya əksəriyyəti bilirlər. Səftə müamiləsi və əməl etmə bu şərtin (bu şərtə zimni şərt deyilir) üzərində olur. Bu şərt üzərində olan səftələr bu vəzifəni bilən şəxslər üçün zimni şərt və bu şərtə əməl etmək lazımdır. Bu

şərt qeyri mənqul müamilələrin qeyd olunma şərti kimidir. Dövlət hər bir qeyri mənqul müamilə ki, qeyd olunmayıb, icra olunası bilmir və bütün camaat al-verdə qeyd etməlidirlər. Heç kim qeyd etmədən imtina etməməlidir. Çünki işin kökü onunla şərtlənib. Qeyd olunduğu kimi, o şərtlər ki, işlər onların üzərində qurulur zimni .şərtlərdir

Məsələ: ۲۸۹۶. Banklarda adət belədir ki, imza almırlar, amma bəzi şəxslər vardır ki, imzanı müamilə edirlər. Çünki bu şəxslər pul verib səftə alırlar və adətən borc ünvanındadır, borcda da çox almaq ribadır. Buna görə qeyd olunan müamilə haram, artıq alınan isə ribadır. Amma müamilələrinin səhih olmasını və çox aldıqlarının riba olmamasını istəyirlərsə bir neçə yol vardır. Digərlərinə nisbətdə asan olan iki yolu qeyd .edirik

Verdiyi pulu müamilə ünvanında versin, borc ünvanında verməsin. Məsələn, yüz min-۱ .nağd riyalı beş yüz İraq dinarına satsın və müəyyən vaxtdan sonra təhvil alsın

Bir qutu kibriti və ya bir top dəsmalı yaxud digər bir şeyi on min riyala satsın, bu-۲ şərtlə ki, yüz min riyal məsələn, bir il müddətində mənfəətsiz borc versin, yaxud borc alan şəxs borcu qaytarmağın vaxtı çatıbsa və vaxtı artırmaq istəyirsə borc sahibi (borcu tələb edən şəxs) bir qutu kibriti borclu olan şəxsə min riyala satır bu şərtlə ki, öz tələbini bir ay müddətinə mənfəətsiz artırsın. Vaxtı artırmaq üçün bu cür yol axtarmaq buna görədir ki, borc sahibinin borcludan əvvəldə, vaxtı artırmaq üçün bir şey alması icazəli deyil. Mümkündür bəziləri belə düşünsünlər ki, bu müamilə zahiridir çünki heç kim bir riyala olan bir qutu kibriti min riyala almır. Bu fikr və düşüncə (müamilənin zahiri olması düşüncəsi) yersiz və düzgün deyil. Çünki heç kim səbəbsiz belə bir müamilə etmir. Amma yüz min riyal mənfəətsiz borc vermək bir ilə qədər artırmaqla hamı alır. Bu mövzuda "Vəsailuş-şiə" kitabında "Əhkamu Uqud" bölməsində bir neçə rəvayət nəql olunmuşdur. Biz şübhəni aradan qaldırmaq üçün bir rəvayəti burada nəql edirik. Şeyx Tusi (Allah ona rəhmət etsin) Məhəmməd ibni

:İshaqdan nəql edib deyir: Həzrət Musa ibni Cəfərdən (ələyhis-səlam) soruşdum

« و يكون لى على الرجل دراهم، فيقول أخرنى بها و أنا أربحك فأبيعه جبه تقوم على بألف درهم بعشره آلاف درهم او قال: بعيشرين ألفا وأوئخره بالمال؟ قال: لا بأس»

Mənim bir şəxsdən neçə dirhəm tələbim vardır, o şəxs xahiş edir ona möhlət verəm və o mənə mənfəət versin, mən qiyməti min dirhəm olan qutunu on min dirhəmə və ya iyirmi min dirhəmə ona satıram və öz tələbimin vaxtını təxirə salıram (bu iş .düzdürmü)? Həzrət buyurdu: Eybi yoxdur

SƏRQÜFLİYƏ AİD OLAN MƏSƏLƏLƏR

Geniş yayılmış müamilələrdən biri də sərqüfli müamiləsir. Camaat sərqüfliyə aid olan müamilələrlə tez-tez üzləşdiklərinə görə gərək sərqüfli izah olunsun. Əsasən qazanc yerinə aid olan sərqüfli bu cəhətə görədir ki, qazanc yerinin icarə pulu artır və kirayə verən kirayə edəni ordan çıxara və ya kirayənin qiymətini qaıdıra bilməz. Bəzən olur ki, bir mağaza və ya bir qazanc yeri əvvəlki kirayə qiyməti ilə kirayə edənin ixtiyarında (kirayə haqqına heç bir məbləğ artmadan) qalır. Çünki kirayəyə verən kirayə edəni nə çıxara bilər nədə ki, kirayəni artıra bilər. Amma onun kimi olan yerlər oradan neçə dəfə .baha qiymətə kirayəyə verilir

Məsələ: ٢٨٩٧. Bu çür qazanc yerləri üç qismdir. Onun bir qismində qazanc əldə etmək və sərqüfli almaq sahibinin izni və razılığı olmadan haramdır. Digər iki qismdə sərqüfli almaq şəri cəhətdən düzgündür. Onun şəri olub olmaması üçün meyar budur ki, hər yerdə kirayə verən oradan çıxmasını və ya kirayə qiymətini qaldırmaq haqqı olsa kirayəçi güc tətbiq edib kirayə haqqını qaldırmaya və oradan çıxmaya bilər. Bu halda sərqüfli almaq və qazanc etmək o mükdə mülk sahibinin icazəsi olmadan icazəli

deyil və haramdır. Hər bir yerdə ki, mülk sahibi kirayə haqqını qaldırmağa və oranı boşaltmağa haqqı olmasa kirayə edən şəxs oranı başqasına verə bilər, malikinin razılığı olmadan sərqüfli almaq şəri cəhətdən düzgün və qazanc etmək icazəlidir. Sonrakı məsələlərdə hər üç hissə üçün deyilənlərin dahada aydınlaşması üçün misal .qeyd olunacaqdır

Məsələ: ۲۸۹۸. Sərqüfli olmayan zamanlarda (keçmişdə) malik kirayə müddəti tamam olandan sonra oranı boşaltdıra və ya kirayənin qiymətini qaldıra bilərdi. Kirayəçi də gərək oranı boşaldardı və ya kirayənin qiymətini çoxaldardı. Həmçinin kirayə haqqı verilən vaxt kirayə haqqının çoxalmasına və ya kirayə müddətinin artırılması haqda heç bir şərt olmurdu. Sonralar dövlət tərəfindən qanun qoyuldu ki, kirayə verən mükü boşaltıra və ya kirayə haqqını çoxalda bilməz. Əgər kirayə edən dövlətin bu köməkliyi ilə qeyd olunan yeri boşaltmsa və ya kirayə haqqını artırmasa o yer kimi olan yerlər bu qanundan sonra kirayəyə verilərsə neçə bərabər bahasına verilər. Həmən cəhətə görə də ora sərqüfli ünvanın tapıbdır. Bu halda kirayəçinin sərqüfli götürməsi şəri deyil .və o yerdən istifadə etmək mülk sahibinin icazəsi olmadan haramdır

Məsələ: ۲۸۹۹. Bir mağazanı tikən şəxslər oraya müəyyən bir miqdarda pul xərc edrlər, qeyd olunan mağazanın kirayə haqqı hər ay məsələn on min riyal dəyəri vardır, amma çünki pula ehtiyacları vardır öz istək və razılıqları ilə bu mağazanı bir il müddətinə hər ayı min riyala əlavə olaraq beş yaz min riyala kirayə verir və şərt edir kirayəçi orada sakin olan müddətə qədər hər il həmən min riyala qərardadı artırsınlar və kirayə pulunu artırmaq haqqı olmasın, əgər kirayəçi kirayə etdiyi yeri başqasına vermək istəsə kirayəyə verən gərək birnci kirayəçi kimi onunla rəftar etsin. Yəni kirayə pulunu artırmasın və hər il birinci məbləğlə kirayə qərardadını artırsın bu halda kirayəçi o yeri başqasına verə bilər. Çox və ya az verdiyi sərqüfli o yeri boşaltmaq və sakinlikdən əl götürmək müqabilində verdiyi

şəxsdən alsın. Mülk sahibinin də müxalifət etmək haqqı yoxdur. Çünki kirayəçi sərqüflini almaqda və oranı başqasına verməkdə ixtiyar sahibidir (haqqı var). Aldığı .sərqüfli şəri cəhətdən düzgündür

Məsələ: ۲۹۰۰. Bir mağazanı tikən şəxslər ora müəyyən məbləğdə pul xərc edirlər günün qiymətinə uyğun olaraq ədalətə riayət etməklə oranı kirayəyə verirlər və sərqüfli də almırlar. Amma kirayə edəndə şərt edirlər kirayəçi orada sakin olan müddətə qədər oranı boşaltmaq (oradan çıxmaq) və kirayəni artırmaq haqqı olmasın və hər il gərək kirayə müddətini artırsın və zaman keçdikcə kirayə qiyməti artırılsın bu halda kirayəçi oranı digərinə vermək haqqı yoxdur. Kirayə verənin oranı digərinə verməsi üçün razılıq verməsinə məcbur deyil. Amma üçüncü bir şəxs müştəri çıxsa və kirayəçini tamahlandırsa məsələn, "əgər sən buradan çıxsan (buranı boşaltsan) mən sənə yüz min riyal verəcəm" desə, sonra oranın sahibinin yanına gedib onu razılaşdırır ki, müəyyən bir məbləği ondan alıb oranı ona kirayəyə versin, sonra yüz min riyalı birinci kirayəçiyə verir və o, oranı boşaldır. Sonra özü oranın sahibindən söz verdiyi məbləğə kirayə edir. Yüz min riyal birinci kirayəçi üçün halaldır. Çünki qeyd olunan yerin müqabilində bir şey almamaşdır ki, haqq sahibi olmasın. Yalnız oranı boşaltmaq müqabilində pul almışdır, istəsəydi boşaltmaya bilərdi. Müştəri də oranın malikindən kirayə etməsi ilə təsərrüf edir. Bu halda sərqüfli o yeri boşaltmaq müqabilindədir ora .isə mülk sahibindən kirayə olunur

Məsələ: ۲۹۰۱. Əgər bir şəxs bir yeri icarə edərsə və maliki ilə onu oradan çıxartmasına və oranı boşaltmasına haqqı olmadığını və yanız onun hər ilin sonunda və ya hər ayın sonunda adi şəkildə kirayə haqqını almasını şərt etsə həmçinin kirayəçinin öz istifadə etmə haqqını digərinə verməsini şərt etsələr bu halda da kirayəçi sərqüflini digərinə .sata bilər. Yəni müəyyən bir məbləğ digərindən alıb və öz haqqını ona verə bilər

BANKLARA AİD OLAN MƏSƏLƏLƏR

:Ümumi olaraq banklar üç qismə bölünür

.Şəxsi banklar; bir və ya bir neçə nəfərin vasitəsilə sərmayələşdirilir-١

.Dövlət bankları-٢

Dövlət və camaatın şərikliyi əsasında təsis olunan banklar. Bir və ya bir neçə nəfərin-٣ .vasitəsi ilə təsis olunur və sərmayə qoyulur “şəxsi və əhli” banklar adlanırlar

Məsələ: ٢٩٠٢. Xüsusi banklardan borc edilən məbləğdən artıqlaması ilə verilməsi şərti ilə borc almaq, riba və haramdır. Ribadan qurtarmaq üçün müəyyən yollar mövcuddur, o cümlədən; Borc alan şəxs, misal üçün, bankdan, yaxud onun vəkilindən müəyyən bir malı həqiqi qiymətindən on və, yaxud iyirmi faiz artıqlaması ilə alır və yaxud hər hansı bir malı onun həqiqi qiymətindən az qiymətə banka satır və müamilə əsnasında şərt edilir ki, bank iki tərəfin razılaşdığı məbləği müəyyən bir müddətdə ona borc versin. Həmçinin əksi də olar. Əgər banka vam vermək istəsə bank cinsi ondan bazar qiymətindən baha alır bu şərtlə ki, nəzərdə tutulan məbləği banka borc versin və ya cinsi bazar qiymətindən ucuz bank ona satsın bu şərtlə ki, müəyyən bir məbləği müəyyən bir müddətə qədər banka borc versin. Bu işi görməklə ribadan uzaq olur. Amma müəyyən bir məbləği bir şeyi artırmaqla çox məbləğə müəyyən bir müddətə qədər satmaq, məsələn yüz tümənə bir qutu kibriti yaxud istəkanı artırmaqla yüz on tümənə iki, üç və ya çox bir müddətə satmaq icazəli deyil. Bu əməl həqiqətdə mənfəətlə borc verməkdir ki, al-ver şəkildə həyata keçmişdir. Amma müamilə ciddi .olarsa eybi yoxdur

Məsələ: ٢٩٠٣. Keçən məsələdə deyildi kimi, banka borc vermək bankdan borc götürmək hökmündədir. Əgər borc qərardadında mənfəət şərti olarsa riba və haramdır. Fərq etmir bankda qoyulmuş sabit əmanət olsun (yəni pul sahibi qərardada ,(əsasən müəyyən müddətə qədər öz pulundan istifadə edə bilməz

yaxud həməşə dövrədə olan pul olsun (hər vaxt istəsə öz pulundan istifadə edə bilər). Amma mənfəət şərti olmazsa və pulun sahibi pulun mənfəətinin ona çatmasını qəsd etməsə və əgər ona mənfəət verməsə də özünü tələbkar bilməsə və tələb etməsə bu halda o banka pul qoymaq icazəlidir və heç bir eybi yoxdur. Dövlət vasitəsi ilə sərmayə .qoyulan banklar və dövlət sərmayəsi ilə olsa bu banklar dövlət bankları adlanırlar

Məsələ: ۲۹۰۴. Şəri hakimin və ya onun vəkilinin icazəsi olmadan dövlət banklarından, .pul götürmək və onlardan istifadə etmək icazəlidir

Məsələ: ۲۹۰۵. Dövlət banklarından pul götürmək, mənfəət şərti olarsa icazəli deyil, riba və haramdır. Borcun sənəd və ya sənədsiz götürülməsi arasında fərq yoxdur. Əgər sənəd əsasında olarsa sənədin mülk və ya səftə kimi, digər sənədlər olması arasında .heç bir fərq yoxdur

Məsələ: ۲۹۰۶. Pulu çoxaltmaq üçün banka qoymaq icazəli deyil. O pul üçün mənfəət almaq riba və haramdır. Amma riba olmaması və harama düşməməsi üçün niyyətində mənfəət almasını şərt qoymasın. Deməli belə niyyət etməlidir əgər bank mənfəət verməsə özünü tələbkar bilməyəcək və tələb etməyəcək. Belə olan halda əgər bank mənfəət versə ala və təsərrüf edə bilər. Dövlət banklarının hökmü bunlar idi və buradan dövlət ilə şərik olan bankların (sərmayəsi dövlət tərəfindən qoyulan banklar) hökmləri məlum olur. Çünki bu banklarda mövcud olan pullar dövlət banklarının hökmünü daşıyır. Amma qeyri islami bankların hökmləri kafir ölkələrinin bankları kimi, istər dövlət bankı olsun istərsə də şəxsi bu banklardan pul almaq icazəlidir. Onlardan istifadə etməyə şəri hakimin və ya onun vəkilinin icazəsinə ehtiyac yoxdur. Amma bu bankara pul qoymağın hökmü islami banklara pul qoymaq hökmündə deyil. Əgər mənfəət şərti olarsa şəri hakimin icazəsi ilə o mənfəətdən istifadə etmək icazəlidir. .Çünki müsəlmanın haqqını hərbi kafirdən almaqdır

Cins idxal etmək; Xarici ölkələrdən cins idxal etmək istəyən şəxs gərək beynəlmiləl qanunlara əsasən cinsi idxal edənin ölkəsində bankların birində kiredit hesabı açsın. Kiredit hesabı açılan bank öhdəsinə götürür müamilənin müqəddimə işləri satıcı və alıcı arasında görüldükdən sonra istər yazı yolu ilə olsun istərsədə alıcının ölkəsində satıcının nümayəndəliyi ilə, satıcı tərəfdən faktura yazılır müamilə olunan malların xüsusiyyətləri, sayları və keyfiyyətləri orada qeyd olunandan sonra iki tərəfin razılaşdıqları məbləği satıcının ölkəsində bank satıcıya ödəyir. Bu işi görməklə sifariş verilən, cinsin dəyərinin on və ya iyirmi faizini sifariş verəndən alır. Bu yolla müamilənin hamısı alıcıdan satıcıya elan olur ki, cinsi daşıma (aparma) sənədləri cinsin qiymətini almaq üçün banka təhvil verilir və cinsi daşıma sənədlərini təhvil almaqla qeyd olunan .şərtlər daxilində kredit götürmək üçün hesab açanda, bütün məbləği satıcıya ödəyir

Xaricə cins göndərmək; Xaricə cins sadir etmək istəyən şəxs gərək qanuna əsasən bankada kiredit hesabı açsın. Bank da öz öhdəsinə götürdüyünə əsasən cinsin qiymətini ödəsin qanuna əsasən sənədləri qəbul etsin. Nəticə etibarı ilə bankın işi sadirat və varidatda bir şeydir. Həqiqətdə bir-birləri ilə fərqləri yoxdur. Ödəməyi öhdəsinə götürdüyünə əsasən müamilə olunan cinsin məbləğini ödəmək və daşıma .sənədlərini sifariş verənə təhvil verməklə baş tutur

Digər bir növ bank kirediti vardır ki, cinsi satan və ya onun nümayəndəsi cinsin əslini bütün xüsusiyyətləri ilə alıcı ilə qabaqcadan heç bir danışıq və müamilə olmadan banka göndərir və banka vəkalət verir sənədləri alıcıya təklif etsin, əgər alıcı təklif olunan qiymətlə qəbul etsə kiredit açmağı bankdan istəyir, bu vaxt bank öz əsasnaməsinə əsasən məsələn qərardadda olan cinsin on və ya iyirmi faizini qəbul etməklə müamiləni alıcı ilə bağlayır və öhdəsinə götürür bütün məbləği satıcıya ödəsin və onu daşıma

.sənədlərini alıcıya təhvil versin

Məsələ: ۲۹۰۷. Bankın hesab açma və öhdəsinə götürmə işi icazəlidir. Həmçinin alıcının .kiredit götürməsi icazəli və heç bir maneəsi yoxdur

Məsələ: ۲۹۰۸. Bankın kiredit götürülməsi hesab və adiyyatı olan təəhhüdatı açması üçün sifariş verəndən və alıcıdan müəyyən məbləği alması icazəlidir. Bankın bu işini .şəri cəhətdən iki fiqhi ünvandan biri ilə tətbiq etmək olar

Mümkündür deyilsin ki, alıcı bankı bu iş üçün əcir tutub ödənilən zəhmət haqqını-۱ bankla alıcının arasında sifariş verilən cinsə nisbətən müəyyən bir miqdarda zəhmət haqqı olaraq banka ödəyir. Bu iş dövlət bankı ilə görülərsə çünki bank ixtiyarında olan pulu, sifariş verilən cinsin qiymətini satıcıya verir, hakimi şərdən və ya onun vəkilindən icazəsinin olması lazım deyil. Həmçinin sonrakı məsələlərdə müamilə edən dövlət .bankı olarsa

Mümkündür bu iş cüalə əqdi ünvanında olsun. Yəni sifariş verən bankla qərar qoyur,-۲ əgər bank onun kiredit götürməsi üçün hesab açsa zəhmət haqqı ünvanında aldığı məbləği banka ödəsin və bank kiredit götürmək üçün hesabı açandan sonra haqqı vardır o məbləği ondan alsın. Mümkündür bankın işini bir növ al-ver müamiləsi bilək buna görə ki, bank sifariş verilmiş məbləği xarici valyuta və cinsi satanın ölkəsinin pulu ilə ona ödəyir və alıcıdan öz ölkəsində (geniş şəkildə) işlənən pul ilə onun əvəzini alır, sonra isə xarici valyutanı alıcının öhdəsində öz ölkəsinin pulu ilə qazancına satır. Çünki .müamilədə iki müxtəlif valyutadır heç bir irad və maneə yaranmır və icazəlidir

Məsələ: ۲۹۰۹. Bank sifariş edənin istəyinə əsasən sifariş verilmiş cinsin məbləğini müəyyən bir müddətə qədər tələb etməyib və onun əvəzində müəyyən bir məbləğ ?sifariş edəndən alması icazəlidirmi

Zahir budur ki, çox almaq bank üçün icazəlidir. Çünki bu əməl borc deyil ki, mənfəət və çox almaq borc üçün olsun. Bu riba deyil, sifariş verənin istəyi və göstərişi ilə həyata keçmişdir. Tələf

olma qanununa əsasən təxir etməklə yaranan ziyanın zəmanəti və xarici valyutada pulu gec ödəmə məsuliyyətini öhdəsinə götürməklə alıcı satıcıya verdiyinə görə alır, belə olan halda da almağının heç bir maneəsi yoxdur. Amma sifariş məbləğini borc ünvanında müəyyən bir müddətə qədər alıcıya versə və o müddət üçün mənfəət alsa icazəli deyil və ribadır. Amma pulu təxirə salmaqdan əlavə bank bu müamiləyə aid olan bir əməlin əsnasında (bir işi) alıcı üçün edərsə və o mənfəət məbləğini o əməlin müqabilində sifariş verənin cüaləsi ünvanında banka versə bu halda o mənfəəti almaq .icazəlidir və heç bir maneəsi yoxdur

Qeyd olunan şeylərdə bank ilə şəxs arasında heç bir fərq yoxdur. Məsələn satıcının və .alıcının inandığı bir tacir bu işləri yerinə yetirsin

CİNSİN BANK VASİTƏSİ İLƏ QORUNUB SAXLANILMASI

Bəzən bank, müamilə qərardadı idxal edən ilə sadir edənin arasında tamam olana qədər cinsi idxal edənin hesabına saxlayır. Bank tapşırmağın məbləğini satıcıya ödəyir sənədlərin və cinslərin çatması ilə alıcıya xəbər edir. Əgər idxal edən təyin edilmiş müddətdən təxir edərsə bank cinsi onun hesabına saxlayır və bu işin müqabilində zəhmət haqqı alır, bəzən bank cinsi qoruyub saxlamağı satıcının hesabına saxlayır, bu o haldadır ki, cinsi sadir edəni qərardadsız və qabaqkı müamiləyə həml edib və sənədləri banka göndərir ki, bank şəhər tacirlərinə təklif etsin, əgər bir şəxs onları .almasa bu vaxt cinsi göndərənin hesabına zəhmət haqqı almaqla saxlayır

Məsələ: ۲۹۱۰. Hər iki halda bank istər cinsi, alıcının hesabına saxlasın istərsədə satıcının, əgər cinsi zəhmət haqqı ilə saxlamaq şərt ilə əqdin əsnasında olsa hətta alıcı və satıcının zehnində olsa belə və bu çür müamilələrdə ona diqqət olunarsa və ya cinsi

saxlamaq idxal edənin yaxud sadir edənin ikisindən birinin istəyi ilə olmuşdursa, bu surətdə zəhmət haqqı almaq onun üçün icazəlidir. Əgər bu çür şərt heç bir yolla bankla .olunmasa cinsi saxlamaq üçün bankın zəhmət haqqı almağa haqqı yoxdur

Əgər cinsi daşıma və sənədləri göndərmək bankın vasitəsi ilə idxal edən ilə sadir edənin arasında olan qabaqkı qərardad əsasında olsa və bank sənədlərin çatmasını idxal edənə çatdırsa və o təhvil almaqdan boyun qaçırsa bank öz haqqını əldə etmək üçün (satıcıya verdiyi sifariş pulunu) cinsi başqasına verə bilər. Çünki bu cür yerlərdə bankın vəkaləti varıdır və icazəlidir idxal edən tərəfdən cinsi digərinə satsın və satışa .icazə, alışa icazədir. Deməli o cinsi almaq da icazəlidir

BANK ZƏMANƏTNAMƏLƏRİ

Point

Bir şəxs bir işi görmək üçün istər dövlətlə olsun istərsədə şəxslə iş müqaviləsi əsasında işi qəbul edir məsələn mədrəsə binası, xəstəxana, yol və bunlar kimi, işlər və müqavilədə iş sahibi öz arxayınlığı üçün işi icra edəndən müəyyən bir məbləğdə bank zəmanətnaməsi istəyir, buna görə ki, əgər işi icra edən işin əslini yerinə yetirməkdən boyun qaçırarsa və ya qərardadın şəraitindən boyun qaçırarsa boyun qaçırmasına görə ehtimal verdiyi xəsarəti zəmanətnamədən istifadə edib və zəmanət pulu məbləğini qəbul etsin. İşi icra edən banka müraciət edir və bankdan istəyir ki, iş sahibinin istədiyi məbləğ miqdqarda zəmanətnamə sadir etsin, bank da lazım olan sənəd və zəmanətləri alandan sonra iş sahibi üçün zəmanətnamə sadir edir. Zəmanətnaməni sadir etmək üçün zəmanət pulu məbləğinə nisbətən işi icra edəndən .zəhmət haqqı alır

BURADA BİR NEÇƏ MƏSƏLƏ VARDIR

,Birinci bu növ zəmanətin səhih olmasıdır. Zahir budur ki

zəmanətin əqdi baştutanda hər bir yolla o əqdin baş tutmasına dəlalət etsə istər ləfz ilə olsun (icab və qəbul ilə) istərsədə qeyri ləfz ilə yaxud hər bir əməl ki, ona dəlalət etsə səhihdir. Fərqi yoxdur zaminin iş sahibinə söz verməsi bu mənada ki, əgər işi icra edən öz borcunu və zəmanət pulunu ödəsin və ya söz versin ki, işi icra edən verdiyi .sözlərə və öz şəraitinə vəfa etsin və boyun qaçırdığı zaman zəmanət pulunu ödəsin

İkinci budur ki, işi icra edənə və öhdəsinə götürənə vacibdir qərardaddan boyun qaçıranda özü zəmanət pulunu ödəməsi şərt qoyulsa əgər bu şərt əqddə təyin edilsə vəfa etməlidir. Əgər zəmanət pulunu ödəməkdən boyun qaçırsa iş sahibi zəmanəti sadir edən banka müraciət edir çünki zəmanətnaməni sadir etmək işi icra edənin istəyi və tələbi ilə olub o, bankın zamini olur. Bankın ödədiyini və dəyən xəsarəti gərək .o işi icra edən ödəsin. Bankın ondan tələb edib və almaq haqqı vardır

Üçüncü; Bankın zəmanətnamənin müqabilində işi görəndən xüsusi zəhmət haqqı alması zahirən caizdir. Çünki zəmanətnamənin buraxılışı halal işdir, halal işin müqabilində zəhmət haqqı almaq caizdir. Zəmanətnamənin buraxılışı üçün zəhmət haqqı ödəmək zahirən cüalə əqdindəndir, işi icra edən zəhmət haqqının məbləğini qeyd olunan işin müqabilində cüalə qərar verir. Mümkündür icarə olsun, bankı bu işi .görmək üçün əcir tutub. Amma razılaşma və ya digər (ayrılıqda) əqd ola bilməz

SƏHMİYYƏNİ SATMAQ

Bəzən səhmiyyə şirkətləri öz səhmiyyə və bahalı kağızlarını satmaq üçün bankları vasitəçi təyin edirlər. Banklar səhmiyyəni istifadə və satmaq üçün vasitəçi olduğlarına .görə qərardada əsasən məbləğ alırlar

Məsələ: ٢٩١١. Banklarla olan bu qərardad icazəlidir. Çünki bankların bu işi icarə ünvanındadır. Səhmiyyə şirkəti o zəhmət haqqını banka ödəməklə onu əcir etmişdir. Yaxud cüalə

ünvanındadır. Səhmiyyə şirkəti öhdəsinə götürmüşdür ki, əgər bank bu işi onun üçün etsə bu məbləği ona ödəsin. Hər iki surət də bu qərardad və müamilə bankla səhihdir. .Bank qeyd olunan işi yerinə yetirməklə təyin olunmuş zəhmət haqqını almağa haqlıdır

Məsələ: ٢٩١٢. Səhmiyyə şirkətlərinin səhmiyyə və bahalı kağızlarını satıb və almaq, əgər o şirkətlərdə ribalı müamilələr olunmazsa icazəlidir. Əgər o şirkətlərdə ribalı .müamilələr olunarsa səhmiyyəni almaq hətta şəriklik ünvanında olsa belə icazəli deyil

DAXİLİ VƏ XARİCİ HƏVALƏLƏR

.Burada bir neçə məsələ vardır və həvalə bir neçə növdür

Məsələ: ١. Müştərinin bankda pulu olduğu halda bankdan istəyir ki, bank çekini və ya bir həvaləni özünün ölkənin daxildə olan şöbəsinə yaxud xaricdə yerləşən və əlaqəsi olan digər banka köçürsün, müştəri çekin və ya həvalənin məbləğini orada alır, banklar bu işin müqabilində müştəridən zəhmət haqqı alır, bu zəhmət haqqının alınmasının düzgün olmasını belə düzəltmək olar. Bank müştəridən aldığı pulu digər şəhər və ya ölkədə ona qaytarmağa şəri cəhətdən heç bir vəzifəsi yoxdur. Hətta bankın haqqı vardır müştəridən aldığı yerdə müştəriyə qaytarsın. Bu şəri vəzifəyə göz yummaqla müştərinin pulunu digər şəhər və ya ölkədə ona vermək üçün müyyən bir .məbləğ müştəridən almağı icazəlidir

Məsələ: ٢. Müştərinin bankda pulu olmadığı halda bank müştəri üçün çek və ya bir həvalə sadir edir ki, ölkənin daxilində və ya digər bir ölkədə öz müştərisinə borc versin. Bu işin müqabili budur ki, müştəriyə vəkalət verir pulu borc ünvanında alsın. Bank bu işin müqabilində müştəridən zəhmət haqqı alır. Bu şəkildə zəhmət haqqı almağın düz olmasını bu cür düzəltmək olar. Bank bu məbləği müştərinin istədiyi yerdə borc götürməsinə icazə verir göründüyü kimi, bu iş bankın müştəriyə bir növ xidmət .etməsidir

.Bankın bu xidmətin qarşısında müəyyən bir məbləği zəhmət haqqı alması icazəlidir

Əgər bu həvaləni digər bir ölkədə xarici pul ilə versə və müştəri vəkil olaraq o, pulu bankdan özü üçün borc götürərsə bankın haqqı vardır ki, öz tələbini həmən xarici pul ilə ondan tələb etsin. Bank öz haqından keçdiyinə görə onun müqabilində zəhmət haqqı ünvanında müəyyən bir məbləğ alması icazəlidir. Yaxud o xarici pulu müştərinin .ölkəsinin pulu ilə artırmaqla zəhmət haqqı adı ilə alsın və dəyişsin

Məsələ: ٣. Bir şəxs müəyyən bir məbləği öz şəhərində banka verir onun əvəzini ölkənin ,daxilində və ya digər bir ölkədə o bankla əlaqəsi olan digər bankdan alır; məsələn

Bağdad, Suriyada və ya Livanda yaxud digər ölkələrdə almaq üçün Nəcəfu-əşrəf şəhərində banka pul verir bank isə bu işin müqabilində zəhmət haqqı alır. Qeyd olunan bu həvalənin heç bir eybi yoxdur və icazəlidir. Həmçinin bu iş üçün zəhmət haqqı .almaq icazəlidir. Zəhmət haqqı və artıq məbləğ almaq iki yol ilə düzgündür

Birinci belə demək olar ki, bu bir növ müamilədir, bank müştərinin pulunun yerini müəyyən bir məbləğə xarici ölkənin puluna satır. Deməl zəhmət haqqı almağın eybi .yoxdur

İkinci budur ki, borcda haram olan ribadır. Bu o artıq almaqdır ki, borc verən borc alandan verdiyi məbləğdən artıq alır. Amma borc alan borc verəndən artıq alsa o .haram deyil. Ribalı borc da hesablanmır

Məsələ: ۴. Bir şəxs müəyyən bir məbləği bir yerdə bankdan alır və həvalə edir bank o məbləği başqa yerdə alsın və bank bu həvaləni qəbul etmək üçün o şəxsdən müəyyən bir məbləği zəhmət haqqı olaraq alır. Bu zəhmət haqqını bu qeyd edəcəyimiz iki yoldan .biri ilə almaq icazəlidir

Birinci budur ki, əgər həvalə xarici pullarda olarsa; məsələn İran riyalı alıb qeyri İran pulunu həvalə edərsə belə olan halda al-ver müamiləsi icad olur. Bank o xarici pulu artıq aldığı ilə o şəxsə verdiyi pulun müqabilində alır. Belə olan halda zəhmət haqqı

.almaq müamiləyə daxil olur və nəticədə icazəlidir

İkinci budur ki, bankın şəri cəhətdən vəzifəsi deyil o şəxsdən aldığı pulu digər bir yerdə ona ödəsin. Hətta haqı vardır ki, bu işi qəbul etməsin. Deməli bu işi qəbul etmək üçün zəhmət haqqı ünvanında müəyyən bir məbləği ala bilər. Bu halda o zəhmət haqqını alması icazəlidir. Deməli bank həvalələri haqda deyilənlər eynən fiqhi ünvanlarla insanlarda da icra olunur. Məsən bir şəxs müəyyən bir məbləği bir yerdə bir şəxsə verir o, məbləği və ya onun dəyərini digər şəhər və ya yerdə alır. Yaxud müəyyən bir məbləği bir şəxsdən bir yerdə alır onun dəyərini digər şəhərdə ödəyir və bu iş üçün .zəhmət haqqı alır, bütün bu hallarda zəhmət haqqı almaq icazəlidir

Məsələ: ۲۹۱۳. Qeyd olunan şeydə həvalə edənin o şəxsin yanında pulunun olması və ya .pul və ya malının olmaması arasında fərq yoxdur. Hər iki halda həvalə əməli səhihdir

BANK MÜKAFATLARI

Bəzən banklar ona əmanət olaraq qoyulan pul sahibləri arasında püşk atır və onları banka daha çox pul qoymağa təşviq etmək üçün adları çıxan şəxslərə müəyyən .mükafat və hədiyyələr verir

Məsələ: ۲۹۱۴. Bankların bu işi etmələri düzdürmü? Şəri baxımdan bu hədiyyələri almağa icazə varmı? Bu məsələnin bir qədər izaha ehtiyacı vardır. Belə ki, əmanət qoyan şəxs əmanət qoyma işini püşk atmaya şərtləndirməyibsə və banklar sadəcə olaraq onların təşviq edilməsi, banklara daha çox pul qoyulması və başqalarının hesab açmağa təşviq edilməsi üçün bu işi görmüş olarsa, bu iş icazəlidir eləcə də püşkdə .adları çıxanların həmin mükafatları alması da icazəlidir

Lakin banka pul qoyanlar öz pul qoymalarını əqd və başqa şey əsnasında püşk atmaqla şərtləndirmiş olsalar, bank da bu şərti icra etmək məqamında püşk atmış olarsa bu iş icazəli deyildir. Eləcə də bu halda adına püşk çıxmış şəxsin hədiyyələri alması əgər şərtə

.əməl etmək ünvanı ilə olsa icazəli deyil

SƏFTƏNİN KÖÇÜRÜLMƏSİ VƏ BANKLARIN VASİTƏSİ İLƏ NAĞD EDİLMƏSİ

Bank xidmətlərindən biri də öz müştərilərinin səftələrini hesaba köçürməsidir. Belə ki, onun vaxtı çatmazdan qabaq bank, səftəni imza edən şəxsi, vaxtın çatmasından və onun miqdarından xəbərdar edir ki, onu ödəmək üçün hazırlaşsın. Bank, səftənin məbləğini əldə edəndən sonra onu öz müştərisinin hesabına köçürür, yaxud nağd olaraq müştəriyə verir, bu işin müqabilində isə əmək haqqı alır. Həmçinin müştərisinin banka qoyduğu çekləri vusul etmək də bu qəbildəndir əgər bir çek digər şəhərdə bir bankın öhdəsində olsa və bank onu müştəri üçün vusul etsə bu xidmətin müqabilində .də muzd alır

Məsələ: ٢٩١٥. Səftənin və ya çeklərin hesaba köçürülməsi və bunun müqabilində əmək haqqı alınması caizdir. Bu şərtlə ki, səftənin və çekin əslinin alınmasına dəxaləti olarsa. Amma o məbləğin müqabilində sud və fayda təyin etsə bankın rəhbərlik (sədirlik) etməsi caiz deyil. Səftənin və ya çeklərin hesaba köçürülməsi və bunun müqabilində .əmək haqqı alınması fiqhi baxımdan cüalə olacaqdır

Məsələ: ٢٩١٦. Bəzən səftə müqaviləsi bağlayanın bankda bir miqdar pulu olur və o səftədə qeyd olunur ki, müddət başa çatanda o banka müraciət etsin və bankda səftənin məbləğini onun hesabından götürüb tələbkara nağd olaraq ödəsin yaxud tələbkarın hesabına köçürsün. Bu iş ona görədir ki, səftənin istifadəçisi öz tələbkarını banka həvalə edib və çünki bankda pulu var idi bank ona borclu olur. Belə olan halda həvalə etmək səhihdir qəbul etməyə də ehtiyac yoxdur. Qeyd olunan surətdə bankın öz borcunu ödəmək üçün muzd alması icazəli deyil. Qeyd olunduğu kimi, bəzən müştəri səftəni, səftəni öhdəsinə götürən tərəfdən

həvalə olmadığı halda köçürtmək üçün banka verir, dedik ki, bu surətdə zəhmət haqqı .almaq icazəlidir

Üçüncü surəti vardır ki, səftəni imza eləyən şəxs bankda pulu olmasa, bank da ona borclu olmasa səftənin məbləğini banka həvalə edir bank da bu həvaləni qəbul edir və onun məbləğini ödəyir və həvaləni qəbul etmək müqabilində səftənin istifadəçisindən .zəhmət haqqı alır, bu zəhmət haqqını almaq icazəlidir

XARİCİ PULLARIN VƏ VALYUTALARIN ALQI–SATQISI

Bankların işlərindən biri də pul al-veri, eləcə də öz müştərilərinin, xüsusilə xarici mal gətirən müştərilərin ehtiyaclarını təmin etmək üçün kifayət qədər pulu dəyişdirmək və pul alveri işlərini yerinə yetirməkdir ki, nəticədə pulun alış və veriş qiymətlərinin fərqli .olmasından qazanc əldə edir

Məsələ: ٢٩١٧. Pulun bazar qiymətinə yaxud ondan az və ya daha çox qiymətə al-veri istər nəqd olsun, istərsə də müddətli, səhihdir. Çünki banklar müddətsiz müamilələr .etdiyi kimi, müddətli müamilə də edir

CARİ HESABLAR

Hər kəsin banklarda cari hesabı olsa, oraya qoyduğu puldan artıq olmayan bir məbləği oradan götürə bilər. Bəzən bank inandığı bəzi hesab sahiblərinə icazə verir ki, hesabda pulu olmadığı halda müəyyən bir məbləğ götürsün. Bu işə «artıq götürmə» deyilir. Bank .bu yolla özü üçün müəyyən məbləğdə qazanc nəzərdə tutur

?Məsələ: ٢٩١٨. Bankın bu mənfəəti alması icazəlidirmi

.Qətiyyətlə demək olar ki, bu mənfəəti alması icazəli deyil

Çünki borc üçün alınan mənfəətdir, oda ribadır. Amma bank məsələlərində deyilənlərə əsasən şəri yolların biri ilə olsa heç bir maneəsi yoxdur. Bu mənfəəti götürmək .səhihdir

SƏFTƏLƏRİN ALQI–SATQISI

.Hər şeyin dəyəri iki şeydən biri ilə sübuta yetir

Birinci; O şeyin mənfəət və xüsusi dəyəri olsun ki, ağıl sahibləri onlarda olan mənfəət və dəyərə görə ona əlaqə tapsınlar; məsələn, yeməlilər, içməlilər və bunlar kimi, .şeylər

İkinci; İxtiyarı bir məqamın əlində olduğuna görə ona qiymət və dəyər verib məsələn, .dövlət əskinasları, poçt markaları və dövlətin qiymət və dəyər verdiyi digər şeylər

:Məsələ: ٢٩١٩. Al-verin borc vermə ilə müxtəlif fərqləri vardır, o cümlədən

Birinci; Al-ver bir cins müqabilində (havayı deyil) malın özünü alıcının mülkiyyətinə keçirməkdir. Halbuki, borc misli olduqda malın mislini, qiymi olduqda isə qiymətini .ödəməyə iltizam verməsi müqabilində malı mülkiyyətə keçirməyə deyilir

İkinci; Al-verdə gərək satılan şey ilə onun müqabilində alınan şeyin fərqi olsun. Hər ikisi eyni cinsdən ola bilməz. Bundan qeyri halda al-ver baş tutmur. Amma borcda borc və onun əvəzinin müxtəlif olması lazım deyil. Əgər borc aldığı şeyin özünü və ya borc aldığı şey ilə heç fərqi olmayan şeyin oxşarını borc aldığı şeyin yerinə versə səhihdir. Amma əgər yüz ədəd yumurtanı arasında fərqi olmayan yüz iki ədəd yumurtaya satsa səhih deyil və bu borcdur ki al-ver şəkildə baş tutub. Onda artıq almaq olduğuna görə .riba və haramdır

Üçüncü; Al-verdə olan ribanın borcda olan riba ilə fərqi vardır. Borcda hər növ artıq almaq, şərt və buna riayət olunsa riba və haramdır. Al-verdə bunun əksinə olaraq hər növ artıq almaq riba deyil. Əgər satılan və onun müqabilində alınan bir cinsdən olsa, ölçü və çəki ilə satılsa bu surətdə artıq alsalar haramdır. Əgər bir

cinsdən olmasalar və ya peymanə ilə satılmırlarsa artıq almaq haram deyil. Məsələn, yüz ədəd yumurtanı iki ay müddətinə yüz on ədəd yumurtaya borc versə riba və haramdır. Amma yüz ədəd yumurtanı iki ay müddətinə yüz on ədəd yumurtaya satsalar onlar böyüklük və kiçiklik yaxud növlərinin fərqli olduğu halda müamilə səhihdir. Əgər fərqləri olmasa qeyd etdik bu borcdur ki al-ver şəkildə baş tutub. Onda .artıq almaq olduğuna görə riba və haramdır

Dördüncü; Müamilədə olan riba borcda olan ribadan başqadır. Müamilədə riba olarsa müamilənin əsli batildir. Alıcı aldığı şeyə, satıcı isə satdığı şey müqabilində aldığı şeyə malik olmurlar. Yəni satıcının və alıcının malı şəri cəhətdən öz mülkiyyətlərindən çıxmamış və digərinin mülküyyətinə keçməmişdir. Amma borcda belə deyil. Əgər borcda riba olarsa təkcə riba ünvanında alınan artıq miqdar pul verənin mülkiyyətinə .keçmir. Amma borc alan borc aldığı pul və ya malda təsərrüf edə bilər

Məsələ: ۲۹۲۰. Kağız pullar məsələn əskinaslar kimi, kilo və çəki ilə al-ver olunan mallardan olmadığına görə, bir şəxsin başqasından pul alacağı olduğu halda onu ondan az məbləğə nağd olaraq sata bilər. Məsələn on tümən tələbli olsa onu doqquz .tümənə və ya yüz töməni doxsan tümənə sata bilər

Məsələ: ۲۹۲۱. Bazar tacirləri arasında geniş yayılmış səftələrin (əskinaslar kimi) mali etibarı yoxdur və sadəcə olaraq borcunu isbat etmə sənədi hesab olunur və bunu göstərir onda dərc olunan məbləğ onu imza edən şəxsin öhdəsində və o şəxs üçündür ki, səftə onun adına çıxarılmışdır. Buna əsasən müamilələr onların özləri üzərində cərəyan etmir, əksinə o malların üzərində cərəyan edir ki, bu vərəqlər onların göstəricisidir. Həmçinin əgər müştəri satıcıya bərat, yaxud səftə verərsə malın qiymətini də ödəmiş olur. Buna görə də əgər o sənəd itərsə, yaxud satıcının yanında tələf olarsa onun malından tələf olmamışdır və müştərinin zimməsi borcdan xilas olmamışdır. Amma əgər əskinas hər bir qiymətə verilmiş olsa tələf olduqda satıcının .malından tələf olur

.Məsələ: ٢٩٢٢ . Səftələr iki növdür

Həqiqi borcları göstərən səftələr. Belə ki, onu imza eləyən şəxs səftədə qeyd olunan-١ .məbləği həqiqətən səftə sahibinə borcludur. Səftə də o borcluluğun sənədidir

.Qeyri-həqiqi və zahiri borcun göstəricisi-٢

Birinci halda tələbkar borclunun öhdəsində olan öz müddətli tələbini nağd olaraq ondan az məbələğə banka və ya digər bir şəxsə sata bilər. Səftə sahibinin əvəzinə onun alıcısı tələbkar olur. Amma onun nisyə və müddətli satışı ehtiyat-vacibə əsasən .(çünki borcu borca satır) caiz deyil

Amma ikinci halda yəni qeyri-həqiqi olanda tələbkar üçün səftəni digərinə satmaq icazəli deyildir. Çünki həqiqətdə heç bir borc mövcud deyil və onu imzalayan şəxsin də öhdəsində deyil. (Bu səftə) səftə sahibi və səftə həvalə olunan şəxs səftədən istifadə edib sadəcə olaraq aşağı qiymətə satılmaq üçün çıxarılmışdır. Belə səftələrə zahiri səftələr deyilir. Onu banka satmaq həqiqətdə səftə sahibinin bankdan borc etməsi və bankın onu imzalayana (baxmayaraq ki, ondan bir tələbi yoxdur) həvalə etməsidir. .Deməli bankın o səftənin müddətinə görə azaltdığı məbləğ riba və haramdır

Bununla belə, onu başqa şəkildə (səhih və şəri müamilə kimi), qanuni hesab etmək olar. Belə ki, səftəni imza eləyən şəxs istifadə edən şəxsi vəkil edir ki, səftənin miqdarını imza edənin zimməsində, başqa pula və onun qiymətindən ucuzuna satsın. Məsələn əgər səftə min İran tüməni dəyərində olsa və iki ay müddətində əlli İraq dinarına imzalayan (öhdəsinə götürən) şəxsin zimməsində satır yenə öhdəsinə götürən şəxs tərəfindən vəkil olsun ki, əlli İraq dinarını iki aylığa min İran tüməninə özünə satsın bu yolla siftə sahibinin zimməsi səftə öhdəsində olan şəxsin banka borclu olduğu məbləğ miqdarında borclu olur. Çünki bu müamilənin səhihliyi lazımdır buna görə də səftənin məbləğinin dəyəri onun əvəzində alınanla (miqdar baxımından) fərqli olmalıdır. Nəticədə artıqlıq (yəni riba) olmayacaq. Əgər pul eyni

növdən olsa məsələn, əgər riyal riyala satılarsa bu həmən mənfəətlə verilən borcdur ki, caiz deyil. Yaxud bankın baxışı bu səftəyə qeyri-həqiqi və zahiridir və səftənin məbləğini səftənin sahibinə borc verir, səftədən azaltdığı məbləği isə zəhmət haqqı ünvanında götürür, heç bir maneəsi yoxdur. Amma səftə öhdəsində olan şəxsin səftədən istifadə edən şəxsə müraciət etməsi və səftənin bütün məbləğini almasının heç bir maneəsi yoxdur, riba da olmur. Çünki səftədən istifadə edən bütün məbləği ona həvalə edib və o da ödəmişdir. Deməli səftə sahibi həvalə olunan miqdara borclu .olmuşdur

BANK HƏVALƏLƏRİ

Bir şəxsə borcu olan şəxs, borc sahibi öz borcunu ondan tələb edəndə onu, çek və ya yazılı surətdə banka həvalə edə bilər ki, bank onun borclu olduğu məbləği borc sahibinə verin. Məsələn, tacir xaricdən cins alsa onun bütün məbləğini və ya müəyyən bir miqdarını verməsə və satıcıya borclu olsa banka müraciət edir, onun borcunu bankın şöbəsinin və ya öz hesabının vasitəsi ilə cinsi satanın şəhərində ona ödəsin və həvalə edən satıcının tələb etdiyi məbləği öz ölkəsinin pulu ilə ödəyir, yaxud onun .hesabından götürülməsini yazır. Bu işdə iki həvalə işi baş tutur

Birinci; Borclu öz borc sahibini banka həvalə etməklə bank onun yerinə onun borc .sahibinə borclu olur

İkinci; Bank təlbkarını xaricdə olan öz şöbəsinə və ya bu bankla əlaqəsi olan banka .həvalə edir. Hər iki həvalə şəri cəhətdən səhihdir

Məsələ: ٢٩٢٣. Bank həvalə işini yerinə yetirmək üçün həvalə edəndən zəhmət haqqı alması caizdir. Çünki həvalə işini yerinə yetirməməyə haqqı var. Deməli bu işin müqabilində zəhmət haqqı ala bilər. Amma borlcu tərəfdən banka deyilməzsə bankın özü borcu ödəsə zəhmət haqqı alması caiz deyil. Çünki borclu öz borcunu ödəmək üçün öz yerində bir şey alması caiz deyil. Amma

borclunun həvalə etdiyi bankda pulu olmasa və bankda onun borcunu ödəsə bankın öhdəsində bir vəzifə olmadığına görə bank həvaləni qəbul etdiyinə görə zəhmət haqqı ala bilər. Həvaləni qəbul etmək banka vacib olmadığına görə onu qəbul etmiyə bilərdi. .Deməli bu həvalə işini qəbul etdiyinə görə zəhmət haqqı ala bilər

Məsələ: ۲۹۲۴. Deyilən məsələlərin hökmlərinin xüsusi halət və vəziyyətləri olduğuna görə şəxsi, dövlət və dövlətlə şəxs arasında şərikli olan banklar arasında heç bir fərq yoxdur. Onların hamısında xüsusi halət və vəziyyətə bağlıdır. Hər yerdə o vəziyyətin .mənasını daşıyan olsa onun hökmü onlardır ki, dedik

SIĞORTANIN HÖKMLƏRİ

Sığorta budur ki, bir şəxs hər il müəyyən miqdarda pulu bir şəxsə və ya bir şirkətə əvəzsiz verir və şərt qoyur məsələn, əgər ticarət mərkəzinə və ya maşınına yaxud evinə və ya özünə zərər dəyərsə o, şəxs və ya şirkət o ziyanı aradan qaldırsın və ya dəyən ziyanı versin yaxud xəstəni müalicə etsin. Bu müamilə hibeyi müvvəzəyə daxil olur. Əgər bir zərər dəyərsə müqavilədə deyilən kimi, vacibdir dəyən xəsarətin pulunu .sığorta edən sığorta olunana versin. Suğorta olunanın almasına heç bir maneə yoxdur

SIĞORTA MÜQAVİLƏSİ

Sığorta, iki tərəf (sığorta edən və sığorta olanın) arasında olan müqavilədir. Onun əsası budur ki, sığorta edən üçün hadisə üz verib, sığorta olan sıradan çıxarsa (tələf olarsa) və ya hər növ xəsarət və zərər çəkərsə, sığorta müqaviləsində olan qanun üzrə, sığorta edən ödədiyi (kreditlə) pulu ki, sığortaçıya verir müqavilədə deyilən kimi, dəyən .xəsarətin pulunu sığortadan alır

Məsələ: ۲۹۲۵. Sığortanın müxtəlif növlərdə olduğunu

açıqlayıblar. O cümlədən: ticari malın, anbarın, binaların, avtomobillərin sığortası, gəmi və təyyarənin sığortası, işçinin və fəhlənin sığortası, sağlamlığının və həyatın sığortası, xəstəliyin müalicəsi sığortaları; ümumi şəkildə demək olar ki, ağılın qəbul etdiyi hər bir şey qeyri şəri deyil, düzgün məqsəd çərçivəsidə; istər can, bədən olsun, istər daşınan və ya daşınmayan mallar olsun, istərsə də mənafe, hüquq və şəxsi hüquq olsun, ağıl sahiblərinin qəbul etdiyi, məlum olan bir məqsədlə sığortalana bilər və onun eybi .yoxdur

:Məsələ: ۲۹۲۶. Sığorta müqaviləsinin bir neçə rüknü vardır

Sığorta edən şəxsin icab deməsi. Yəni sığorta edən sığortaya uyğun olaraq-۱ .suğortanı inşa qəsdi etməsi

.Sığorta olunan şəxs, siğorta edənin inşa qəsdi ilə dediyini qəbul etməsi-۲

Sığorta olan şey məlum olsun, istər şəxs, istərsə də mal-dövlət, yaxud maşın və ya-۳ .digər şeylər, növü təyin edilməlidir

Sığorta müqaviləsinin əvvəli və sona çatma dövrünün qeyd olunması. Yəni illik və ya-۴ .aylıq olması

Məsələ: ۲۹۲۷. Sığorta müqaviləsində xətər və ziyanın amili məsələn, yanğın, oğurluq, suda qərq olmaq, xəstəlik, ölüm və sair kimi şeylər; eləcə də əgər hissə-hissə .ödəniləcəksə sığortanın illik, yaxud aylıq ödəniş miqdarı təyin edilməlidir

Məsələ: ۲۹۲۸. Sığorta müqaviləsini bütün növləri ilə hibeyi müvvəzə (əvəzsiz vermək) etmək olar. Yəni sığorta etdirən müəyyən bir məbləği illik və ya aylıq yaxud bir yerdə sığorta edənə əvəzsiz verir, əvəzsiz verəndə sığorta edən ilə şərt bağlayır onun üçün müqavilədə qeyd olunan hər hansı hadisə və ya xəsarət baş verərsə onu aradan qaldırsın. Sığorta edən gərək müqavilədə olan hər hansı hadisə baş verərsə gərək aradan qaldırsın. Həmçinin vacibdir müqavilədə olan şərtə əməl edib dəyən ziyanı aradan qaldırsın. Buna əsasən sığorta əqdi bütün növləri ilə bir növ hibeyi .müəvvəzədir. Buda caiz və səhihdir

Məsələ: ۲۹۲۹. Sığorta edən şəxs, sığorta edən üçün hər hansı

ziyan və zərər baş verdiyi zaman, lazımı müqavilə qaydalarına əməl etməsə və dəyən zərəri ödəməzsə, qarşı tərəf, sığorta sövdələşməsini pozub, sığorta üçün ödədiyi .kreditləri geri götürə bilər

Məsələ: ٢٩٣٠. Əgər sığorta olan şəxs, sığorta kreditlərini ödəməkdən boyun qaçırarsa, sığorta edənin, onun xəsarətlərini ödəmək üçün tədarük görməsi, lazım deyildir və .sığorta olanın verdiyi pulları geri almağa haqqı yoxdur

Məsələ: ٢٩٣١. Sığorta müqaviləsinin səhihliyi üçün müəyyən bir müddət təyin edilməmişdir ki, bir illik olsun və ya iki illik yaxud da daha çox. Deməli sığorta edən və .sığorta etdirənin müqavilədə təyin etdikləri müddətə bağlıdır

Məsələ: ٢٩٣٢. Əgər bir neçə nəfər öz müştərək mallarından əldə etdikləri sərmayə ilə bir şirkət təsis etsələr və onlardan hər biri şirkət (şəriklik) müqaviləsi əsnasında başqasına şərt etsə ki, onun özünə, yaxud mal-dövlətinə müəyyən bir hadisə baş verdiyi təqdirdə (onun növünü də şərtin əsnasında müəyyən etsələr) şirkət vəzifəlidir ki, şirkətin sərmayəsindən, yaxud qazancından istifadə edərək dəymiş xəsarətləri aradan qaldırsın; bu halda müqavilənin qüvvədə qaldığı dövrdə bu şərtə əməl edilməsi .vacibdir

İLZAM QAYDASI HAQDA BİR NEÇƏ MƏSƏLƏ

Əqli (üqəlayi) qaydalardan biri budur ki, əgər bir şəxs və ya bir qövm özlərinə aid olan hər hansı qayda və qanunu qəbul edərlərsə o qayda və qanunu qəbul etməyən şəxs onu qəbul edən şəxs və ya qövmlə o qayda və qanuna əsasən rəftar edə bilər. Şəriətdə də bu təsdiq olunubdur və göstəriş verilibdir bu əqli (üqəlayi) olan qanuna .əməl edək. Bu mövzuya aid olan bir neçə məsələyə işarə edirik

Sünnü alimlərinin nəzərinə əsasən nikah əqdinin səhihliyi üçün nikah əqdi oxunan-١ zaman şahid tutmaq lazımdır. Lakin İmamiyyə fiqhinin nəzərində nikah əqdi şahid tutmadan da

səhihdir. Deməli əhli sünnətdən olan bir kişi şahid olmayan halda bir qadını əqd etsə, öz məzhəbinə əsasən onun əqdi batildir və o qadın onun həyat yoldaşı olmur. Buna .əsasən şiə olan bir kişi ilzam qaydasına əsasən o qadını öz əqdinə keçirə bilər

Sünnü alimlərinin nəzərinə əsasən bir qadınla onun qardaşı qızını, yaxud bacısı qızını-۲ .eyni vaxta əqd etmək icazəli deyil. Onlardan bir ilə evlənə bilər

Lakin İmamiyyə fiqhi nəzərindən bir qadının əqdindən sonra onun qardaşı qızını əqd etmək və ya bir qadının əqdindən sonra onun bacısı qızını əqd etmək bununla şərtlənir ki, əvvəlcə o qızın bibisi və xalası razılıq vermiş olsunlar və ya sonradan da razılıq versələr caizdir. Buna əsasən, əgər bir sünni bir qadınla onun qardaşı qızını, yaxud bacısı qızını eyni vaxta əqd etsə, əgər onların əqdləri eyni zamanda olsa, onların məzhəbinə əsasən hər ikisi batil olur və onların heç biri onun həyat yoldaşı olmur. Buna görə İmamiyyə məzhəbindən olan bir kişi ilzam qaydasına əsasən onlardan hər .biri ilə əqd edə bilər

Sünnü məzhəbinin nəzərinə əsasən təlaq verilmiş qadın, yaisə və səğirə olsa-۳ yaxınlıq edilmiş olsa iddə saxlamaq vacibdir. İmamiyyə məzhəbinə əsasən təlaq verilmiş qadın, yaisə və səğirə olsa yaxınlıq edilmiş olsa da belə, iddəsi yoxdur. Buna əsasən sünni məzhəbində olanlar iddə hökmlərinə riayət etmələri lazımdır. Deməli sünni məzhəbində olan yaisə və səğirə qadın şiə olsa iddə saxlamaq qaydasından xaric olurlar. Əgər onun təlaqı rici olsa sünni ərindən iddə günlərində öz nəfəqəsini istəməsi caizdir. Çünki Şiə məzhəbində onlar üçün iddə yoxdur və digər bir şəxslə evlənə bilər. Həmçinin sünni kişi şiə olsa təlaqı verilmiş və hələ sünni məzhəbinə görə iddə vaxtlarında olan yaisə və səğirə qadının bacısı ilə evlənə bilər. İddə hökmlərinə də .riayət etməsi lazım deyil

Əgər sünni kişi iki adil şahid olmadan öz arvadına təlaq versə və ya arvadının-۴ bədəninin bir miqdarına təlaq versə məsələn, arvadının bir barmağına təlaq versə öz məzhəbinə əsasən onun

təlaqı düzdür və qadının bütün təlaqı baş tutur. Amma şiə məzhəbinə əsasən bu təlaq batildir. Gərək təlaq iki adil şəxsin hüzurunda oxunsun. Buna görə şiə olan kişi, ilzam .qaydasına əsasən təlaqı verilmiş qadınla iddəsi tamam olandan sonra evlənə bilər

Sünni kişi öz məzhəbinə əsasən əgər arvadına heyz halında təlaq versə və ya paklıq-۵ halında onunla yaxınlıq edib təlaq versə onun təlaqı səhihdir. Amma Şiə məzhəbində bu təlaq batildir. Buna görə şiə olan kişi ilzam qaydasına əsasən o qadınla iddəsi .tamam olandan sonra evlənə bilər

Hənəfiyyə məzhəbinə əsasən bir kişi arvadını öz istəyi ilə deyil məcburiyyət üzündən-۶ (onu bu işə məcbur etsələr) təlaq versə o təlaq səhihdir. Amma Şiə məzhəbinə əsasən məcburiyyət üzündən verilən təlaq batildir. Buna görə şiə olan kişi ilzam qaydasına .əsasən o qadınla (o qadın hənəfiyyə məzhəbində olarsa) evlənə bilər

Əgər sünni bir kişi bir işi görəcəyinə and içsə, desə ki, əgər o işi etsəm arvadım-۷ məndən boşanır (yəni təlaqı verilmiş olur), əgər təsadüfən o işi görsə öz məzhəbinə əsasən arvadı boşanır (yəni təlaqı verilmiş olur). Amma Şiə məzhəinə əsasən təlaq baş tutmamışdır. Buna görə şiə olan kişi ilzam qaydasına əsasən o qadınla iddəsi tamam olandan sonra evlənə bilər. Həmçinin sünni məzhəbinə əsasən yazmaqla qadına təlaq vermək caizdir. Amma Şiə məzhəinə əsasən yazmaqla təlaq baş tutmur. Buna görə şiə olan kişi ilzam qaydasına əsasən yazmaqla təlaqı verilmiş qadınla iddəsi tamam .olandan sonra evlənə bilər

Şafei məzhəbinə əsasən bir kəs bir şeyi görmədən satıcının o şeyin xüsusiyyətlərini-۸ deməsi ilə alsa sonra o şeyi görsə röyət ixtiyarından istifadə edə bilər, hətta alınan şey zikr olunan xüsusiyyətlərə müvafiq olsa belə. Halbuki, İmamiyyə məzhəbinin nəzərinə əsasən müştəri fərz olunan halda röyət ixtiyarından istifadə edə bilməz. Deməli, əgər İmamiyyə məzhəbindən olan bir şəxs Şafei məzhəbindən olan bir şəxsdən bir şeyi o şeyin

xüsusiyyətlərini deməsi ilə alsa sonra o şeyi görsə ilzam qaydasına əsasən İmamiyyə .məzhəbindən olan şəxs röyət ixtiyarından istifadə edə bilər

Şafei məzhəbinə əsasən bir kəs məğbun olsa ğəbn ixtiyarından istifadə edə bilməz.-۹ Buna əsasən Şiə məzhəbindən olan bir nəfər, Şafei məzhəbindən olan bir şəxsdən bir şey alsa sonra Şafei məzhəbindən olanın məğbun olduğu məlum olsa ilzam qaydasına əsasən Şiə məzhəbindən olan şəxs Şafei məzhəbindən olan satıcını al-veri pozmağa .qoymaya bilər

Hənəfi məzhəblilərin nəzərində sələf əqdi satılan şeyin əqd zamanında mövcud-۱۰ olması ilə şərtlənir, halbuki İmamiyyə fiqhi nəzərindən belə bir şərt etibarlı deyildir. Deməli, əgər Şiə məzhəbindən olan bir şəxs Hənəfi məzhəbindən olan şəxslə sələfi müamilə etsə və o şey müamilə vaxtı mövcud olmasa Şiə məzhəbindən olan şəxs ilzam qaydasına əsasən Hənəfi məzhəbindən olan satıcını müamilənin batil olmasına məcbur edə bilər. Həmçinin əgər müamilə vaxtında alıcı Hənəfi məzhəb olub sonra şiə .olsa onun da haqqında bu hökm icra olunur

Əgər sünni məzhəbindən olan bir şəxs ölsə və onun sünni məzhəbindən olan bir qızı-۱۱ qalsa və onun bir qardaşı olsa əgər qardaşı şiə olsa və ya onun ölümündən sonra qardaşı şiə olsa ilzam qaydasına əsasən şiə qardaş üçün caizdir irs payından artıq qalanları “təsib” ünvanında götürsün. Amma “təsib” Şiə məzhəbində batildir. Təsib yəni meyyitin qızının irs payından artıq qalanlarını (irs aparanların ikinci dəstəsində yerləşən) meyyitin qardaşına versinlər. Həmçinin ata-ananın əmisi, meyyitin bacısı ilə. Həmçinin əgər bir sünni məzhəbindən olan şəxsin bir sünni bacısı varis olsa və ata-anasının əmisi də olsa, əgər onun əmisi şiə olsa və ya qardaşının ölümündən sonra qardaşı oğlu şiə olsa ilzam qaydasına əsasən “təsib” ünvanında ona çatanları alması .caizdir. İlzam qaydası təsibin digər ünvanlarında da icra olunur

Sünnülərin nəzərində qadın öz ərindən qalan şeylərin-۱۲

hamısından istər mənqul olsun istərsə torpaq və sair kimi qeyri mənqul irs aparır. Halbuki İmamiyyə məzhəbi nəzərindən qadın yerin əslindən, yaxud onun qiymətindən irs aparmır. Yalnız binanın və ağacların qiymətindən irs aparır onların əslindən yox. Buna əsasən əgər meyyitin varisi sünni olsa və onun həyat yoldaşı şiə olsa ilzam .qaydasına əsasən torpaqdan, bina və ağacların əslindən ona çatan payı ala bilər

Qeyd olunanlar “ilzam” qaydasına aid olan ən mühüm məsələlər idi. Qeyd olunanlardan bu mövzuya aid olan məsələlər aydın oldu. Qayda budur ki, Şiə məzhəbindən olan şəxs digər məzhəblərdə olanları öz məzhəblərində əqidə .bəslədikləri şeylərə məcbur edə bilərlər

BƏDƏN YARMAĞIN HÖKMLƏRİ

Məsələ: ۲۹۳۳. Ölü müsəlmanın bədənini yarmaq icazəli deyildir. Əgər bir kəs bu işi .görərsə, diyə kitablarında qeyd olunan təfsilə əsasən, ona diyə vermək vacib olur

Məsələ: ۲۹۳۴. Kafirin bədəninin hər növ yarılması, caizdir. Həmçinin, müsəlman olması şübhəli olan ölünün bədəninin yarılması da eyni qada ilə. Kafirin və ya müsəlman olması şübhəli olanın bədəninin yarılmasının, islam ölkəsində və ya küfr ölkəsində .olmasının bu hökmdə fərqi yoxdur

Məsələ: ۲۹۳۵. Əgər bir müsəlmanın həyatının qorunması bir ölmüş müsəlmanın bədəninin yarılmasından aslıdırsa və qeyri müsəlmanın və ya müsəlman olması şübhəli olanın bədənini yarmaq mümkün olmasa, o müsəlman kişinin ölməməsi üçün başqa yol da olmasa, müsəlman ölünün bədənini yarmaq icazəlidir. Belə olan halda .diyənin ödənilməsinin lazım olması diyə bölməsində qeyd olundu

Məsələ: ۲۹۳۶. Ölü müsəlmanın bədənini göz və digər üzvlər kimi, diri müsəlmana calaq etmək üçün kəsmək icazəli deyil. Üzvü kəsən, şəri hakimin icazəsi ilə diyəni həcc, digər xeyriyyə

işləri və meyyitin xeyrinə olan işlərə işlətsin. Amma bir müsəlmanın diri qalması ölü bir müsəlmanın bədən üzvünü kəsib diri müsəlmana calaq vurmağa bağlıdırsa o üzvü kəsmək icazəlidir, amma o üzvü kəsən gərək diyə versin. Amma hər iki surətdə kəsilən üzvü calaq vurmağın işkalı yoxdur. Calaq vurulduqdan sonra diri insanın bədəni olduğuna görə diri bədənin hökmləri onun üçün icra olunur. Zahir budur ki, bir şəxs öləndən sonra onun bədən üzvünü kəsib digər bir şəxsə calaq vurulmasını vəsiyyət .edə bilməz. Əgər o, meyyitin bədən üzvünü kəsərlərsə diyə verilməlidir

Məsələ: ٢٩٣٧. Əgər bir şəxs onun bədən üzvlərindən birini başqasına köçürülməsinə icazə versə, o üzvün kəsilməsi, onun üçün zərərə, eybə və onun həyatı üçün təhlükəliyə səbəb olarsa, caiz deyildir. Əgər o üzvün kəsilməsi, onun üçün zərərə, eybə və onun həyatı üçün təhlükəyə səbəb olmazsa; məsələn, şəxsin öz razılığı ilə dərinin bir miqdarını və ya bud ətinin bir miqdarını kəsərlərsə (sonradan onlar öz yerlərini .tuturlar) caizdir və bunun müqabilində pulda ala bilər

Məsələ: ٢٩٣٨. Qan köçürülməsinə ehtiyacı olan xəstələrə havayı qan vermək, icazəlidir. Həmçinin müəyyən miqdar pul qanın əvəzində almağ da icazəlidir. Amma hər iki halda .onun sahibinin canına zərəri olmamalıdır

Məsələ: ٢٩٣٩. Kafirin və ya müsəlman olması şübhəli olan ölünün bədənini müsəlman şəxsə calaq vurmaq icazəlidir. Calaq vurduqdan sonra müsəlmanın bədəninin bir üzvü olduğuna görə müsəlmanın bədəninin hökmü onun üçün icra olunur. Həmçinin əgər (nəcisul-eyn) zatən nəcis olan məsələn, it və ya donuzun bədən üzvlərindən birini müsəlmanın bədəninə köçürsələr, müsəlmanın bədəninin bir üzvü olduğuna görə müsəlmanın bədəninin hökmü onun üçün icra olunur və onunla namaz qılmağın .maneəsi yoxdur

Məsələ: ۲۹۴۰. Özgə kişinin mənisini bir qadına təlqih etmək caiz deyildir; istər nütfəni yerləşdirmək özgə kişinin vasitəsi ilə olsun, istərsə də qadının ərinin vasitəsi ilə. Əgər nütfəni yerləşdirərlərsə, onlardan dünyaya gələn uşaq nütfə sahibinindir və övladın bütün hökmləri onlara aid olur. Bir-birlərindən irs də aparırlar. İrsdə təkcə zinadan dünyaya gələn uşaq istisna olunub. Nütfəni köçürmək haram yolla da həyata keçsə çünki zina baş verməmişdir bir-birlərindən irs aparacaqlar. Nütfənin yerləşdirilməsi vasitəsilə uşağı olan qadın, uşağın anasıdır. Övlad haqqında olan bütün hökmlər, ona aiddir. Həmçinin, bir qadın müsahiqə şəklində öz ərinin mənisini başqa qadının fərcinə tökəməsi ilə o əcnəbi qadın hamilə olsa və uşaq dünyaya gətirsə, o mənidən dünyaya gələn uşaq nütfənin sahibinə mənsubdur və o qadın da, doğduğu uşağın anasıdır. .Övlad haqqında olan bütün hökmlər, ona aiddir

Məsələ: ۲۹۴۱. Uşaq məqsədi ilə kişinin nütfəsini götürüb süni rəhmə qoymaq, ibtidai işlərində harama yol verilmədiyi halda, caizdir. Əgər nütfə qoyularsa və uşaq əmələ gələrsə, o uşaq nütfə sahibinindir amma anası yoxdur. Atalıq və övladlıq hökmləri .onların arasında keçərlidir

Məsələ: ۲۹۴۲. Ərin nütfəsini öz arvadının rəhminə kişinin vasitəsi ilə varid edilməsi caizdir. Amma ərindən digər bir şəxsin vasitəsi ilə (əgər onun bədəninə baxılarsa və ya bədəninə toxunularsa) bu işi həyata keçirmək caiz deyil. Təlqih (yəni nütfənin daxil edilməsi) yolu ilə dünyaya gələn uşaq digər uşaqların hökmündədir və onların arasında .heç bir fərq yoxdur

DÖVLƏTİN SALDIRDIĞI XİYABAN VƏ KÜÇƏLƏRİN HÖKMLƏRİ

Məsələ: ۲۹۴۳. Camaatın mülkü ki, təzə çəkilən xiyabanlara düşür, dövlət onları güc tətbiq etməklə camaatın əlindən zora alıb xiyaban çəkirsə zahir budur ki, xiyaban çəkildikdən sonra orada gəl-get etmək caizdir. Çünki tələf olmuş mal hökmündədir orada gəl-get etməyə camaataın malında təsərrüf etmək deyilmir. Bu sınmış kuzə və qaba bənzəyir ki, onların sahibi digərlərinə nisbətən onlarda təsərrüf etməyə üstünlüyü var, bu üstünlük digərlərinin təsərrüf etməsinə maneə olmur. Amma o, mülkdən qalan şeylər malikin mülküyyətindən xaric olmur. Əgər dövlət onları qəsb .edərsə onların alqı-satqısı haramdır

Məsələ: ۲۹۴۴. Yol üzərində yerləşən məscidlər, yolun bir hissəsi hesab olunarsa zahir budur ki, xiyaban olandan sonra məscidlikdən xaric olur və ona aid deyilmiş hökmlər; oranın nəcis edilməsindən çəkinmək, cünub və haiz şəxsin oraya daxil olması, nəcis olduqda oranı paklamağın vacib olması kimi işlər, oradan götürülür. Çünki, artıq o yer məscid adını daşımır. (Amma vəqf olunmuş yerə aid, öz ardıcıllığı ilə deyilmiş hökmlər keçərlidir). Əgər məscid olmaqdan çıxmazsa ehtiyat-müstəhəb budur ki, məscidə aid .olan hökmlərə riayət olunsun

Amma vəqf olunmuş yerə aid, öz ardıcıllığı ilə deyilmiş hökmlər keçərlidir. Onun yerindən, daşından, taxtasından və digər materiallarından istifadə etmək olmaz və şəri hakimin və ya icazə verməyə haqqı olanın izni olmadan onu satmaq caiz deyildir. Əgər satsalar onun pulunu yaxud materialların özünü yaxında olan başqa məscidlərə ehtiyac olduğu halda təmir və qeyri işlərə xərcləsinlər. Yol üzərində yerləşən hüseyniyyələr və mədrəsələr xarab olarsa, vəqflikdən kənar olmayırlar. Yer və tikinti materialları vəqf hökmündədir və şəri hakimin və ya onun vəkilinin izni olmadan satılıb-alınması caiz deyildir. Əgər satılsa, onun pulunu ən yaxın mədrəsələrə və .hüseyniyyələrə xərcləsinlər

Əgər oranın tikinti materiallarına ehtiyac olarsa, yaxın olan başqa mədrəsələr və .hüseyniyyələr üçün istifadə etsinlər

Məsələ: ۲۹۴۵. Yol üzərində yerləşən məscidlərin torpağında gəl-get etmək icazəlidir. Həmçinin yol üzərində yerləşən hüseyniyyə və dini hövzələrin torpağında gəl-get .etmək caizdir

Məsələ: ۲۹۴۶. Bir məscid xarab edilib, ondan, namaz və ya digər ibadətlər yerinə yetirmək miqdarınca qalıbsa, məscidin bütün hökmləri o qalan yerə aid olur. Bir qəsbçi oranı dükan və ya iş üçün istifadə etmək yaxud bir bina kimi düzəldib istifadə edə ?bilərmi

Əgər o məsciddən istifadə etmək məscid olmaqlığı ilə zidd olmazsa (məsələn, orada yemək yemək və yatmaq kimi), oradan istifadə etmək şübhəsiz caizdir. Çünki məscid ünvanında istifadə etmək məsələn, camaat namaz qılmaq, moizə və təbliğ məclisləri keçirilməsinə maneə qəsb edən tərəfindəndir. Bu maneələrin mövcud olması və məscid ünvanında istifadə etməyin mümkün olmaması ilə digər işlərdə istifadə etməyin heç bir maneəsi yoxdur. Bu ona bənzəyir ki, bir məscid yaşayış yeri olmayan yerdə yerləşir və ondan məscid kimi istifadə olunmur o məscidin torpağından əkinçilik üçün istifadə etməyin eybi yoxdur. Əlbətdə bunu da qeyd edək ki, bu iş ilə ora məscid olmaqdan şıxmasın. Amma tərk edilmiş yerdə yerləşən bir məscid və ondan məscid kimi istifadə olunmadığı təqdirdə, orada məscidə zidd olan oyun-əyləncə işlərini etmək caiz deyildir. Əgər bir şəxs o məscidi, məscidə müxalif olan işlər üçün təyin edərsə .oradan o işlər üçün istifadə etmək icazəli deyil

Məsələ: ۲۹۴۷. Yol üzərində yerləşən müsəlman qəbiristanlığının, eləcə də şəxsi, ya ümumi vəqflərdən olan qəbiristanlığın əmlakının hökmü qeyd olunanlardan aydın olur. Bu o haldadır ki, qəbiristanın torpağında gediş-gəliş müsəlman ölülərinin hörmətsizliyinə səbəb olmasın, əks halda orada gediş-gəliş icazəli deyil. Lakin əgər qəbiristan bir şəxsin mülkü, yaxud vəqf olmazsa, hörmətsizlik olmadığı təqdirdə hər növ istifadə

.etməyin işkalı yoxdur

Bu məsələdən qəbiristanlığın yola salınmayan hissələrinin hökmləri aydın olur. Belə ki, birinci halda (şəxsi əmlak olduqda) onlardan istifadə etmək və ya satmaq malikinin icazəsi olmadan icazəli deyildir. İkinci halda isə (ümumi vəqflərdən olarsa) mütəvəllinin, yaxud onda təsərrüf etmək haqqına malik olan şəxsin icazəsi olmadan icazəli deyildir. Onun pulu ən yaxın müsəlman qəbiristanlığında istifadə edilməlidir. .Üçüncü halda bir kəsin icazəsinə ehtiyac duyulmadan ondan istifadə etmək caizdir

RADİYO VƏ TELEVİZİYA

Məsələ: ۲۹۴۸. Radiyo və televizorun həm halal və haram mənfəətləri vardır. Onlardan halal yolda istifadə etmək icazəlidir. Məsələn, xəbərləri dinləmək, moizəyə qulaq asmaq, halal proqramları düzgün təlim və tərbiyə üçün göstərmək, (halal şeyləri) reklam etmək, quruda və dəryada olan yaranışın qəribəliklərini göstərmək, amma ğina, musiqi, ,İslam dininin qanunlarının əksinə olan şeyləri yaymaq, xain və zalım insanları tərif etmək, batil şeyləri yaymaq, cəmiyyətin əxlaqını pozan şeylər göstərmək, cəmiyyətin əqidəsini xarab edən proqramlar göstərmək haram və .günahdır. Onlara baxmaq və qulaq asmaq caiz deyil

Məsələ: ۲۹۴۹. Radiyo və televizorun həm halal və haram mənfəətləri olduğuna görə, halal mənfəətlər üçün onların alqı-satqısının heç bir maneəsi yoxdur. Amma diqqətli .olmaq lazımdır ki, ailələr və uşaqlar onlardan haram yolda istifadə etməsinlər

NAMAZ VƏ ORUCUN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

NAMAZ VƏ ORUCUN MÜXTƏLİF MƏSƏLƏLƏRİ

Məsələ: ۲۹۵۰. Əgər oruc tutan bir şəxs Ramazan ayında gün batandan və iftar edəndən sonra öz şəhərindən təyyarə ilə qərbə tərəf və günəşin hələ batmadığı bir yerə səfər etsə oraya çatandan sonra günəş batana qədər imsak etməsi vacib və lazımdırmı?

Zahir budur ki, həmin yerdə gün batana qədər imsak etməsi vacib deyildir. Çünki bu ثُـمَّ أَتِمُّواْ الصِّيَـامَ إِلَى الَّلَيْـلِ "sonra gecəyə qədər orucunuzu tamamlayın"(۱) ayiyə əsasən tutduğu orucu sona çatdırıb. Artıq orada imsak etməsinə heç bir ehtiyac yoxdur.

Məsələ: ۲۹۵۱. Əgər mükəlləf öz şəhərində sübh namazını qıldıqdan sonra qərbə tərəf səfər etsə və sübhün açılmadığı bir yerə çatsa yaxud zöhr namazını öz yerində qılıb sonra günorta olmadığı bir yerə səfər etsə yaxud məğrib namazını öz şəhərində qılıb sonradan səfərə getsə və hələ günəşin batmadığı bir yerə çatsa yenidən namazlarını qılması vacibdirmi?

Ehtiyat-müstəhəb budur ki, qıldığı namazları yenidən qılsın.

Məsələ: ۲۹۵۲. Əgər bir şəxs sübh namazını qılmasa, nəticədə onun vaxtı keçsə və günəş çıxsa və ya günəş qürub etsə və o zöhr və əsr namazlarını qılmasa sonra təyyarə ilə günəşin çıxmadığı və ya qürub etmədiyi bir yerə getsə qılmadığı namazları əda və ya qəza yaxud mafiz-zimmə niyyəti ilə qılması lazımdırmı?

Əda niyyəti ilə qıla bilməsinə baxmayaraq ehtiyat budur ki, namazını mafiz-zimmə niyyəti ilə, yəni əda və qəza niyyəti

---

۱- . Bəqərə surəsi, ayə ۱۸۷.

.etmədən yerinə yetirsin

Məsələ: ۲۹۵۳. Əgər mükəlləf təyyarə ilə səfər etsə və təyyarədə namaz qılmaq istəsə namaz vaxtı üzü qibləyə olmaq, bədənin aramlaşması və sair şərtlərə riayət etməklə namazını qılsa namazı səhihdir. Əgər təyyarədə üzü qibləyə namaz qıla bilməsə, əgər namaz vaxtı o qədər geniş olsa ki, təyyarədən çıxandan sonra namazı üzü qibləyə qıla bilsə təyyarədə qıldığı namaz səhih deyil. Lakin əgər vaxt dar olsa vacibdir ki, namazı təyyarənin içində qılsın, belə olan halda əgər qiblənin istiqamətini bilsə həmin istiqamətə qılmalıdır. Əgər qiblənin istiqamətini bilməsə qiblənin hansı tərəfdə olmasına gümanı olsa öz gümanına əməl edib namazını qılmalıdır. Əgər guman əldə edə bilməsə hər tərəfə istəsə qıla bilər. Amma ehtiyat-müstəhəb budur ki, namazı dörd istiqamətdə qılsın. Əgər qibləyə tərəf heç cür namaz qıla bilməsə üzü qibləyə .dayanmaq şərti qüvvədən düşür

Məsələ: ۲۹۵۴. Əgər bir şəxs sürəti yerin fırlanma sürəti ilə bir olan bir təyyarəyə minsə və yerin şərqindən qərbinə doğru hərəkət edib bir müddət yerin ətrafına fırlansa, ehtiyat-vacib budur ki, hər iyirmi dörd saatda gündəlik beş vacib namazları yerinə yetirsin. Lakin oruc vacib deyildir. Çünki müsafirət gecə başlasa gecə oruc tutmaq olmaz. Əgər səfərə gündüz başlasa oruc tutmağın vacib olması üçün heç bir dəlilimiz .yoxdur

Əgər təyyarənin sürəti yerin fırlanma sürətindən iki qat artıq olsa təbiidir ki, hər on iki saatda bir dəfə yerin ətrafına fırlanacaqdır çünki şərqdən qərbə tərəf hərəkət edir vacibdirmi hər sübh açılanda sübh namazını, hər günorta zamanı zöhr və əsr namazını və hər qürubdan sonra məğrib və işa namazını qılsın? Yaxud hər iyirmi dörd saatda ?namazlarını qılsın

Bunun iki surəti vardır. Ehtiyat-vacib budur ki, hər sübh açılanda sübh namazını, hər günorta zamanı zöhr və əsr namazını və hər qürubdan sonra məğrib və işa namazını .qılsın

Əgər daha yüksək sürətlə yerin ətrafına fırlansa və məsələn hər üç saat, yaxud daha az bir zamanda yerin ətrafına fırlansa hər sübh açılanda, günorta və qürubda namaz qılmağın vacib olmasını

deməк müşküldür. Ehtiyat-vacib budur ki, hər iyirmi dörd saatda gündəlik beş vacib .namazları yerinə yetirsin

Bu məsələdən aydın olur ki, əgər onun sürəti yerin hərəkət sürətinə bərabər və ya az olsa və məğribdən məşriqə doğru getsə gərək gündəlik beş vacib namazları öz vaxtlarında qılsın. Yəni fəcr, zəval və məğrib vaxtı qılsın. Amma əgər onun sürəti yerin sürətindən daha artıq olsa, məsələn hər üç saatda, yaxud ondan az vaxtda yerin .ətrafına dolansa, onun məsələsi qeyd olunanlardan aydın olur

Məsələ: ٢٩٥٥. Əgər səfərdə vəzifəsi oruc tutmaq olan bir şəxs məsələn, işi müsafirət olan şəxs kimi, sübh açılandan sonra öz şəhərində oruc niyyəti edib hava yolu ilə səfər etsə və hələ sübh açılmadığı bir şəhərə çatsa yemək, içmək və ya orucu batil edən ?digər işlər edə bilərmi

Zahir budur ki, yeyib, içib və ya orucu batil edən işlərdən edə bilər. Hətta bunların icazəli olmasına heç bir şübhə yoxdur. Çünki o gecə olan bir yerdədir, gecədə oruc .tutmaq icazəli deyil

Məsələ: ٢٩٥٦. Əgər bir şəxs Ramazan ayında günortadan sonra öz şəhərindən səfər edib hələ günorta olmamış bir şəhərə çatsa imsak edib orucu tamamlaması ?vacibdirmi

Zahir budur ki, vacibdir orucunu açmasın və onu sona çatdırsın. Çünki bu dəlildən başa düşülür. Dəlil budur ki, Ramazan ayında zöhrdən sonra öz vətənindən səfər edən şəxs .gərək orucunu açmasın və orucu batil edən işlərdən çəkinsin

Məsələ: ٢٩٥٧. Əgər mükəlləf ilin altı ayının gecə, altı ayının gündüz olduğu yerdə olsa namaz və orucunu vaxtında yerinə yetirə biləcəyi bir şəhərə köçə bilsə köçməsi vacibdir. Əgər köçə bilmirsə ehtiyat-vacib budur ki, hər iyirmi dörd saatda gündəlik beş vacib namazları yerinə yetirsin. Bu o haldadır ki, havanın işıqlı və qaranlıq olması ilə gecə və gündüzü təyin edə bilməsin. Əgər gecə və gündüzü təyin edə bilsə gərək .havanın qaranlıqlayıb və işiqlanması ilə namaz vaxtını təyin edib namazını qılsın

Əl-həmdulillahi rəbbil aləmin

ŞƏRİ TERMİNLƏRİN İZAHI

A

Axar su: Axar su o suya deyilir ki, yerdən coşub çıxsın və axmaqla hərəkətdə olsun. .Yerdən çıxan çeşmə və kəhriz və s. kimi

Az su: Kürr miqdarında olmayan, yerdən coşmayan və göydən yağmayan sulara .(məsələn, kasa, kuzə, aftafa suyuna və bu kimi sulara), az su deyilir

B

.Böyük hədəs: Qüslə səbəb olan hər şey, cima və heyz kimi

Bid`ət: Yeni bir şey; Dində olmayan və sonradan İlahi hökmlərə əlavə olunan yeni bir .şey

V

Vacib: Yerinə yetirilməsi lazım, tərk olunması isə İlahi əzaba səbəb olan əməldir .((namaz, oruc və s. kimi

Vacibi eyni: Hər bir şəxsin özünə (başqalarını nəzərə almadan) vacib olan əməldir .((namaz, oruc, kimi

Vacibi kifai: Hamıya vacib olan, amma bir, yaxud bir neçə nəfər yerinə yetirdikdə .(hamının öhdəsindən götürülən əməl (məsələn: meyyit namazı kimi

.Vacibi təxyiri: Bir neçə vacibdən, istədiyini görməkdə ixtiyar sahibidir

.Varis: İrs aparan şəxs

.Vəliyy: Şəri cəhətdən ixtiyar sahibi olan şəxs

.Vəsiy: Vəsiyyəti icra etməyə məsul olan şəxs

Q

.Qəyyum: Başçı, sərpərəst

.Qürbət qəsdi: Yəni bir işi Allah üçün yerinə yetirmək

Ğ

Ğüsalə: Adətən bir şeyi yuyan zaman, yaxud yuyandan sonra o şeydən öz-özünə və ya onu sıxmaq və bu kimi əməllə ayrılan suya

səh: ۵۹۹

.deyilir

.Ğait: İfrazat

D

Dinin zərurətləri: Şübhəsiz dinin bir hissəsi hesab olunanlar. (məsələn, namaz və .(orucun vacib olduğu kimi

E

Ehtiyat-vacib: O əməldir ki, ehtiyata müvafiqdir, amma fəqih onunla yanaşı fətva verməyibdir. Belə olan halda müqəllid, ələmlikdə sonrakı rütbdə gələn müctəhidin .fətvasına əməl edə bilər

Ehtiyat-lazım: O ehtiyata deyilir ki, müctəhidin fətvası olmadığından ona riayət .olunması lazımdır. Əks halda başqa müctəhidin fətvasına müraciət etsinlər

.Ehtiyat-müstəhəb: Müstəhəbə əsasən olan ehtiyat

Ə

.Ələm: Daha elimli

.Əhvət: Ehtiyata uyğun

Əhli-kitab: Səmavi kitaba sahib olan peyğəmbərlərin ardıcılları. Yəhudi, Məsihi və .Zərdüşti kimi

Z

.Zira: Dirsəkdən barmaqların ucuna qədədər olan məsafədir

Zimmi-kafir, Zimmə əhli: Müəyyən şərtlər daxilində İslam hökmətinin pənahında .(yaşamağa iltizamlı olan kitab əhli. (Yəhudilər və Məsihilər kimi

İ

İbnus-səbil: Səfərdə xərclik pulu və yaşayış üçün lazım olan əşyaları olmayan, yarı yolda qalan musafirə deyilir.

İrs: Ölümündən sonra vərəsələrinə çatan şeylər.

İstifta: Fətva tələb etmə; Bir məsələ barədə onun şəri hökmünü ələ gətirməkdən ötrü müctəhiddən sual etmək.

İstimna: Məninin xaric olması üçün özü ilə hər hansı bir işi yerinə gətirmək.

İftar: Orucu açmağa deyilir.

İmam-cəmaət: Namazda iqtida olunan şəxs.

Y

Yaisə: Seyidə (Qüreyşiyyə) olan qadınların altmış, seyidə (Qüreyşiyyə) olmayan qadınlar isə əlli yaşları tamam olduqdan sonra yaisə olurlar, yəni heyz qanı görmürlər.

K

Kiçik hədəs: Yalnız dəstəmazın pozulmasına səbəb olan hər iş. (Məsələn, bövl və ifrazatın xaric olması kimi).

Kafir: Allahı, sonuncu peyğəmbərin (Səlləllahu əleyhi və alihi və səlləm) risalətini və ya Məadı inkar edən və yaxud Allah, onun rəsulunda şəkk edən, yaxud Allaha şərik qoşan və ya Allahın yeganəliyinə şəkk edən şəxs.

Kür su: Uzunluğu, eni və dərinliyi hər biri üç qarış yarım olan qabı dolduran miqdarda .olan və ya çəkisi ۳۷۷.۴۱۹ kq olan suya kürr suyu deyilir

L

Ləhv alətləri: Qeyri şəri, əyyaşlıq və xoşgüzaranlıq üçün istifadə olunan musiqi alətləri. .Tar və zərb kimi

M

.Möhtəlim: Yuxu halında məninin insandan xaric olması

Müstəhəb: Görülməsi yaxşı, savabı olan, lakin tərk edilməsi İlahi əzaba səbəb olmayan .(əməldir (salam vermək, sədəqə s. kimi

Məkruh: Tərk edilməsi yaxşı və savablı, lakin yerinə yetirilməsi İlahi əzaba səbəb .(olmayan əməldir (yeməyi üfürmək, qaynar xörək yemək və s.kimi

Mübah: Yerinə yetirilməsi və tərk edilməsi eyni dərəcədə olan əməldir. Onun savabı .yoxdur İlahi əzaba da səbəb olmur

Meyyitin malının əsli: Meyyitə məxsus olan üçdə biri çıxılmamış, vərəsələrin payı .ayrılmamış mal

Misqal: ۴,۶۴ qramdır. (۲۴ noxud bir misqaldır, deməli bir noxud misqalın ۲۴-də biri (.qədərdir

.Mən": Çəki vahididir. Təqribən ۳ kq-dır"

.(Mudd: Təqribən ۷۵۰ qramdır. (Bir "sir" ۷۴ qram, ۱۰ "sir" bir mudd, yəni ۷۵۰ qramdır

Müqəssir-cahil: Şəri məsələni bilməyən və öyrənməyə imkanı ola-ola üzürsüz səbəbə .görə öyrənməyən

.Müstəhəqq: Xüms, zəkat, sədəqə və... almaq üçün lazım olan şərtlərə malik olan şəxs

Müflis: Borcları mal-dövlətindən çox olduğuna görə cameuş-şərait müctəhid

.tərəfindən öz malında təsərrüf etməsi qadağan olunan şəxs

.Məmum: Camaat namazında imam-camaətə iqtida edən şəxs

Məzalim: İnsanın boynunda olan və sahibini tanımadığı, yaxud sahibini tapa bilmədiyi .şeylər

Milli mürtəd: Kafir ata və anadan dünyaya gələn sonra İslam dinini qəbul edərək .müsəlman olduqdan sonra İslam dinindən üz çevirənə deyilir

.Müşrik: Allaha şərik qoşan

Mütləq qürbət qəsdi: Şəriət sahibinin əmrini yerinə yetirmək qəsdi, istər vacib olsun, .istərsə müstəhəb

.Mafiz-zimmə: İnsanın öhdəsinə aldığı şey

.Məchulul-malik: Maliki məlum olmayan və itmiş şeyin hökmləri ona aid edilməyən şey

Məhəlli-işkal: İradı var, onun səhih olması şübhəlidir. (Müqəllid bu kimi məsələlərdə .(başqa müctəhidə müraciət edə bilər

Məhəlli təəmmül: Gərək ehtiyat edilsin. (Müqəllid bu kimi məsələlərdə başqa müctəhidə

.(müraciət edə bilər

Muzaf su: Müzaf su başqa bir şeydən alınan suya deyilir, məsələn, gülab, qarpız suyu, qora suyu və bu kimi sulara muzaf su deyilir. Habelə əgər şüşə qabda olan adi su əgər torpaq və bu kimi şeylərlə elə qarışsa ki, artıq ona su deyilməsə, o da muzaf sudur.

N

Nəvasib:İmamlara (xüsusilə həzrət Əliyə (əleyhis-səlam)) qarşı nalayiq sözləri rəva bilənlər.

R

Rəca qəsdi: Allah təalanın əmr və nəhy etməsi ehtimalı ilə bir əməlin yerinə yetirilməsi yaxud tərk edilməsi.

S

.Səmən: Əmtəənin qiyməti

Siğə: Alver və nikah kimi iki tərəfli əqdin, yaxud təlaq kimi bir tərəfli əqdin gerçəkləşməsinə səbəb olan cümlə.

T

Təsərrüf etmək: İxtiyarına keçirmək, alıb satmaq, hədiyyə etmək, ümumiyyətlə hər növ istifadə nəzərdə tutulur.

Tərəxxüs həddi: Müsafirin öz vətənindən azan səsini eşitməyəcək dərəcədə uzaqlaşdığı məsafə.

.Təhtul-hənək: Çənənin altı, əmmamənin çənənin altına atılan bir hissəsi

Ü

Ücrətul-misl: Bir şeyin, yaxud işin camaat arasında mövcud olan haqqı; Bunun icarədə və sairdə müəyyən olunan miqdarından az, yaxud çox və ya bərabər olması

.mümkündür

F

Füzuli əqd: Malikin icazəsi olmadan baş verən və səhihliyi sonrakı razılıqla şərtlənən .muamilə, yaxud əqddir

Fitri mürtəd: Müsəlman ata və anadan dünyaya gələn və özü də müsəlman olan sonra .isə İslam dinindən üz çevirənə deyilir

H

Haram: Tərk edilməsi lazım, görülməsi isə İlahi əzaba səbəb olan əməldir; (məsələn: .(yalan danışmaq, zülm etmək və s... kimi

Həcce-niyabəti: Allah evinin başqası tərəfindən ziyarət olunması və onun əməllərinin .yerinə yetirilməsi

.Hənut: Ölünün yeddi əzasına kafuru sürtmək

.Hərəc: Adətən dözülməsi mümkün olmayan çətinlik

Hərbi kafir: Zimmə şərtlərini qəbul etməyən və müsəlmanlarla müqavilə bağlamayan .kafir

C

Cameüş-şərait müctəhid: Mərcəi-təqlid olmaq üçün lazım olan bütün

.şərtlərə malik olan şəxs

Ş

.Şəri fərsəx: Təqribən ۵,۵ km

.Şəri hakim: Şəri cəhətdən hökm vermək səlahiyyətinə malik olan müctəhid

.Şəkk: Baş verməsi ilə baş verməməsi bərabər səviyyədə olan

Y

.Yəqin: Heç bir xilaf ehtimalı verilməyən

X

.Xatircəmlik: Düzlüyü güclü nəzərə çarpan və əqlən xilaf ehtimalı da verilməyən

MÜNDƏRİCAT

Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər sürəsi, ayə ۹

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ۲۰۰۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.۱

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.۲ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .۳ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.۱

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik

:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109